**ISSN 2409-0859**

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

I HİSSƏ

BURAXILIŞ № 25

BAKI – 2020

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il.**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 25. Bakı, 2020, 238 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Əziz Bəşir oğlu Məmmədov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**İzzət Əşrəf oğlu Rüstəmov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Zeynəddin Camal oğlu Hacıyev**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Bəxtiyar Həmzə oğlu Əliyev**, AMEA-nın müxbir üzvü, psixologiya elmləri doktoru, professor, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Fikrət Məmməd oğlu Əfəndiyev**, fəlsəfə üzrə elmlər doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Hikmət Əbdul oğlu Əlizadə**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor, baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# HUMANİTAR ELMLƏR

## FƏLSƏFƏ

# ОПРЕДЕЛЕНИЕ ГРАНИЦ НРАВСТВЕННОСТИ КАК ОДИН ИЗ ОСНОВНЫХ НАУЧНО-ФИЛОСОФСКИХ ИНТЕРЕСОВ АББАС-КУЛИ-АГА БАКИХАНОВА

***Самир Кулиев***
***магистрант II курса БГУ***
*samiryusifovich@gmail.com*

***Ключевые слова:*** этика, нравственность, просветительство, философия Азербайджана, Аббас-Кули-ага Бакиханов.
***Açar sözlər:*** etika, əxlaq, maarifçilik, Azərbaycan fəlsəfəsi, Abbasqulu ağa Bakıxanov.
***Keywords:*** ethics, morality, enlightenment, philosophy of Azerbaijan, Abbasgulu Bakikhanov.

Философия – одна из самых сложных и увлекательных форм духовной культуры. Общепринято считать, что она способна ответить на все занимающие нас вопросы, включая и те, ответы на которые лежат за пределами знаний науки, религии и искусства. Однако язык философии настолько труден, что может запутать неподготовленного человека в его поисках истины. Пожалуй, наиболее приземлённой, практичной и доступной для понимания областью философии, является этика.

Рассматривая историю азербайджанской философии, можно обнаружить, что многие прославленные умы отчизны, начиная уже с раннего средневековья, интересовались вопросами этики в целом или же её отдельными категориями, такими как добро, зло, благо, свобода воли, честь, достоинство, смысл жизни, справедливость, счастье и другими. Весьма богатым на плюрализм мнений по данной проблематике явился XIX век - время, когда накапливавшиеся столетиями морально-нравственные ценности, в силу различных причин, прежде всего исторических, подверглись серьёзной проверке и переосмыслению; в этических взглядах мыслителей стали преобладать идеи просветительства.

Большинство исследователей азербайджанской философии XIX века, особенно первой его половины, отмечают Аббас-Кули-ага Бакиханова в авангарде просветительской мысли, выделяют, как «самую заметную фигуру» [1]. Доктор философии Э.М. Ахмедов справедливо считал А.К. Бакиханова «последним мыслителем азербайджанского средневековья и в то же время первым мыслителем нового времени» [2], приписывал ему, с одной стороны, связь «с русским и европейским просвещением, а с другой стороны – со средневековой культурой и философией Востока» [3].

Из биографии А.К. Бакиханова, а также из воспоминаний современников, нам известно, что он, будучи из знатного рода (приходился родственником последнему правителю Бакинского ханства Хусейн-Кули-хану, и правителю Кубинского ханства Фатали-хану), обладал поистине обширными знаниями по многим отраслям науки, превосходно знал языки, в том числе русский и французский, долгое время, находясь на службе в канцелярии при Главноуправляющем по Грузии, а после и по всему Кавказу, бывал в заграничных походах, выполняя переводческие и дипломатические поручения, имел хорошие приятельские и дружеские отношения с А.С. Грибоедовым, А.А. Бестужевым-Марлинским, В.К. Кюхельбекером и А.С. Пушкиным, и, даже, гостил у родителей последнего в Санкт-Петербурге. Бесспорно, уровень образованности А.К. Бакиханова, еще при жизни

считавшегося талантливым писателем и учёным-энциклопедистом, а также личный опыт, позволяли ему с лёгкостью рассуждать и на философские темы.

Значительная часть философских работ А.К. Бакиханова посвящена как раз вопросам нравственности и морали, отражает его этические воззрения.

Прежде всего, к таковым относятся, написанный в 1832 году, трактат «Воспитание нравственности» (в оригинале на персидском языке - Тахзиб-ал-Ахлак) и «Книга наставлений» (Китаб-е Насаех), написанная четырьмя годами позднее. Идейно оба произведения схожи, хотя и отличаются по форме изложения текста.

В 1841 году в Тифлисе издаётся «Краткая грамматика персидского языка» - книга, автором которой также является А.К. Бакиханов. Казалось бы, какое отношение имеет данный труд к этическим взглядам писателя-просветителя? Однако в заключительной части книги, в качестве примеров для упражнения, помещено 52 философско-нравственных изречения, как на персидском, так и на русском языках. И пусть не все эти изречения принадлежат перу А.К. Бакиханова, зато дают нам еще большее представление о его идеях и убеждениях. Вместе с тем, тот факт, что А.К. Бакиханов для освоения и закрепления грамматических правил персидского языка приложил философско-нравственные изречения, а не, скажем, отрывки из художественных произведений или по ходу сконструированные предложения, подтверждает его увлечение тематикой нравственности.

Не меньшее подтверждение вышеуказанного обстоятельства – перевод басен И.А. Крылова на азербайджанский язык (как известно, центральные мотивы произведений И.А. Крылова – мораль, народная мудрость), а также наличие в собственной литературе нравственно-воспитательных сюжетов.

Итак, нет сомнений, что А.К. Бакиханов проявлял неподдельный интерес к проблемам морали и нравственности и обращал на них внимание общества, рассчитывая, видимо, таким образом сформировать в людях правильные ценностные установки, руководствуясь, на мой взгляд, гуманными и просветительскими целями.

Исследователь творчества А.К. Бакиханова Солмаз ханум Рзакулизаде, чьи научные исследования по истории азербайджанской философии отличаются своей глубокой содержательностью, также считает, что «именно в просветительской деятельности видел А.К. Бакиханов (возможно, скорее всего, подсознательно) своё историческое призвание. Содержание его произведений, их характер, тональность направлены на пробуждение народа, выведение общества из застойного состояния, утверждение в сознании людей подлинных жизненных ценностей» [4].

Соблюдению каких именно нравственные норм наставлял А.К. Бакиханов и следовал ли он сам им, каким образом определял что есть суть моральное, а что нет? Ответить на эти и некоторые другие вопросы поможет структурный и философский анализ произведений «Воспитание нравственности» и «Книга наставлений».

Трактат «Воспитание нравственности» состоит из небольшого предисловия, введения, двенадцати глав и заключения. Примечательно, что впервые полностью на русском языке данное сочинение было издано лишь в 1983 году, то есть спустя полтора столетия после опубликования его на персидском языке. Данная ситуация неслучайна, так как до второй половины XIX века немногие из азербайджанцев могли похвастаться знанием русского языка, а вот персидский был в обиходе наравне с азербайджанским языком, следовательно к азербайджанскому читателю, в первую очередь, обращался мыслитель со страниц своего сочинения. Несмотря на запоздалый перевод и то, что широкому кругу читателей данная работа стала известна лишь несколько десятилетий назад - Э.М. Ахмедов в примечаниях к сборнику сочинений А.К. Бакиханова, изданному в 1983 году, называет «Воспитание нравственности» - главным философским сочинением писателя [5]. Если довериться авторитетному мнению Энвера Мирзакулиевича, многие годы изучавшего наследие видных

представителей философии азербайджанского просвещения, получается, что для А.К. Бакиханова этические проблемы стояли выше онтологических, логических, философско-религиозных, которыми он также интересовался.

Уже в предисловии к «Воспитанию нравственности» А.К. Бакиханов сообщает о желании составить книгу, которая будет основана на умственных сопоставлениях его исследований «над богословскими книгами и произведениями великих людей разных народов - мусульманских, греческих и европейских философов» [6], а также надеется на то, что книга эта станет полезной, будет обсуждаться умными людьми, окажет влияние на остальных. Достаточно важная информация, из которой понятно, что автор хорошо знаком с арабо-мусульманской и античной философиями, а также с европейской философией нового времени. Полагаю, что для начала XIX века – крайне редкое сочетание знаний, определенно отражающее богатое мировоззрение человека ими обладающего. Далее изложена цель написания сочинения, полностью укладывающаяся в понятие просветительства. Также в предисловии мыслитель сообщает о структуре произведения, вплоть до указания названий глав. Последнее говорит об упорядоченности его идей и мыслей.

Во введении, как и положено, А.К. Бакиханов даёт общие контуры будущего произведения, делится любопытными идеями, к примеру о том, что человек воспринимает нравы того общества, в котором проживает или что «задача философии заключается не в определении положения небесных тел и орбит их движения, а в приобретении просвещения и исследовании потреблений» [7]. В заключительной части введения он развивает данную идею дальше и пишет, что после того, как он в результате исследования сочинений передовых людей мира и великих учёных разных народов приобрел новые знания и опыт, его меньше мучают несчастия и переживания, во многих бедствиях он находит путь утешения и меньше гордится богатством.

Есть во введении и другие утверждения, легко разбираемые на афоризмы. Но есть и такое размышление А.К. Бакиханова, которое явно отсылает нас к категорическому императиву И. Канта. Так, сначала А.К. Бакиханов рассказывает о том, что в юности ему казалось, что в его действиях нет недостатков. Затем его отношение к различным событиям с возрастом и по мере накопления знаний менялось. После того же, как он подверг сомнению своё поведение и многие поступки выяснилось, что представления его превратны, поскольку он находился в плену собственного вожделения и страсти. То, что он считал хорошим, оказалось, наоборот, плохим, а его манеры и состояние противоречивыми. Потом он дословно говорит следующее: «Если моё разумение одержало бы победу над моим себялюбием, я не совершал бы те дела, о которых вспоминаю сегодня с сожалением» [8]. Да, конечно, указанная формулировка недостаточна для столь серьёзного вывода о связи идей А.К. Бакиханова с учениями И.Канта, но стоит только сопоставить её с мыслями, отражёнными во второй и десятой главах сочинения, и данный вывод уже не будет казаться таким уж невероятным. Во второй главе, среди прочих, развита мысль о том, что только человек наделён волей и властью, а, следовательно, может совершать как злые дела, так и добрые, но всё же, ради общей пользы, он должен отдать свой долг – совершать только добрые дела, ведь только добродеяние – действительная надобность в мире. В десятой же главе, мыслитель призывает всех к совестливости, поясняя, что совестливый человек всегда является справедливым и что человек, совесть которого достигнет высшей степени совершенства, не позволит себе и другим угнетение.

В первой главе, именуемой «О соблюдении умеренности», А.К. Бакиханов рассуждает о том, что поступки человека должны быть умеренными, далёкими от крайностей, подобно природе, в которой всё сбалансировано. При этом он пользуется термином «границы умеренности» и объясняет полезность его применения в области нравов.

Вторая глава «О превосходстве деяния» рассказывает нам не только о необходимости делать добро, но и о невозможности прощения человека, совершившего дурной поступок. Тем не менее, А.К. Бакиханов допускает малое зло в угоду большому благу. Небезынтересно, что существующая в современном мире система правосудия предусматривает тот же подход.

Следующая глава «О достижении благополучия» содержит целый ряд разъяснений о том, что надобно понимать под благополучием и, собственно, как его достичь. Разъяснения довольно поучительные. Предлагается рассматривать благополучие не как материальное богатство, а как душевное состояние, при котором каждый человек, и бедный и богатый сможет его познать.

В главе «О привязанности к обычаям» А.К. Бакиханов приходит к выводу, что люди вместо приобщения к знаниям, во многом, находясь в зависимости от обычаев своей страны, занимаются простым подражанием друг другу.

Пятая глава «Об изъяснении славы» советует не избегать славы, равно как и не быть тщеславным. Словом, почти в каждой главе, мыслитель наставляет к умеренности и равновесию.

В последующих главах любовь описывается, как наибольшая потребность человека, дружба, как высшая ценность. Очень импонирует мысль А.К. Бакиханова о том, что незачем своему врагу, если таковой имеется, говорить мерзости и причинять вред, ибо, когда в будущем он, возможно, станет твоим другом, будет сложно смотреть ему в глаза. Труд, для А.К. Бакиханова - средство достижения благополучия, причём того самого, душевного. Леность же, напротив - наивысший из пороков. Скромность и совестливость - украшение человеческой природы. Довольство малым – возвышенная черта характера, скупость – порицается им. Зависть, в свою очередь, возникает ввиду отсутствия способностей.

А.К. Бакиханов предостерегает от участия в спорах, но в тоже время недоумевает почему «многие люди, не владея в совершенстве разумными и установленными нормами поведения в обществе, ищут повод и случай, чтобы высказать какую-либо диковинку или открыть непонятную полемику. Часто бывает, что несведущий человек вступает в спор со знающим человеком, чтобы показать свою осведомленность, а на самом деле показывает своё невежество» [9].

Подытоживая свои идеи, мыслитель заключает, что приобретение просвещения и очищение нравов помогает человеку, делает его более самостоятельным.

Другое важное сочинение автора «Книга наставлений» - написано в более лаконичной форме, имеет несложную структуру и, по сути, является квинтэссенцией «Воспитания нравственности». Также написанное на персидском языке, в последующем, однако, оно было переведено на азербайджанский язык. Но в русском варианте полностью появилось в том же 1983 году.

Данная работа обращена к молодому поколению, детям, что ясно из короткого вступления. По вполне обоснованному мнению А.К. Бакиханова любовь к знаниям и наукам нужно прививать в детском возрасте, пока «дурные нравы, благодаря повторению и обычаю» не укоренятся в человеческой натуре.

Затем следует сто три пронумерованных наставления. Прочитав наставления, понимаешь, что все они изложены связно и последовательно. Если в первом наставлении с позиции монотеизма излагается, что всё сущее создано единым Богом – Аллахом, которого и нужно знать, то в последнем наставлении А.К. Бакиханов с позиций отличных от провиденциализма объясняет, что нужно, чтобы мы сами принимали «меры по делу», а уже «благополучие выполнения его просили от Господа миров» [10].

Приведу одно из наставлений без сокращений и изменений, для лучшего представления формы и содержания сочинения: «Тридцать третье наставление. Не делай добро в отношении человека, который помышляет зло в отношении других. Безусловно, добро к злым – зло к добрым».

Рассмотрение основных сочинений А.К. Бакиханова по вопросам нравственности, пусть и краткое в формате статьи, даёт основание к написанию небольшого заключения.

Оба сочинения читаются легко и с интересом. Подобное содержание, включающее весь комплекс этических проблем и вопросов одновременно, да еще и в упорядоченном виде в творчестве других азербайджанских мыслителей XIX века не встречается.

А.К. Бакиханов выступил против старых, консервативных обычаев и традиций, мешавших образованию молодого поколения [1] и был одним из первых, кто сделал попытку принципиально изменить цели, задачи и содержание нравственного воспитания в современную ему эпоху [2]. Очевидно и то, что поиски границ нравственности увлекали А.К. Бакиханова в течение всей его жизни.

## ЛИТЕРАТУРА


1. Бакиханов А.К. Сочинения. Записки. Письма. Баку: Элм, 1983, 344 с.
2. Бакиханов А.К. Гюлистан-и Ирам. Баку: Элм, 1991, 304 с.
3. Бакиханов А.К. Краткая грамматика персидского языка. Тифлис: Тип. Я. и Д. Арзановых, 1841, 97 с.
4. Ахмедов Э.М. Философия азербайджанского Просвещения. Баку: Азернешр, 1982, 291 с.
5. Рзакулизаде С.Дж. Из истории философской мысли Азербайджана. Баку: Текнур, 2011, 574 с.
6. Ениколопов И.К. Современники о Бакиханове. Баку: Элм, 1975, 64 с.
7. Алиева С.А. Развитие теории и практики нравственного воспитания в дореволюционном Азербайджане (1828-1920): автореф. дис. на соиск. учен. степ. канд. пед. наук; Ташкентский гос. пед. ин-т. – Ташкент, 1989, 35 с.
8. Мамедов Н.К. Светское образование и зарождение просвещения в Азербайджане // Социология власти, 2010, с. 158-165.
9. Maliheh S. Tyrrell. Aesopian literary dimensions of Azerbaijani literature of the Soviet period, 1920-1990. - USA: Lexington Books, 2001.


## ОПРЕДЕЛЕНИЕ ГРАНИЦ НРАВСТВЕННОСТИ КАК ОДИН ИЗ ОСНОВНЫХ НАУЧНО-ФИЛОСОФСКИХ ИНТЕРЕСОВ АББАС-КУЛИ-АГА БАКИХАНОВА.

## АННОТАЦИЯ

Данная статья является результатом сосредоточенного исследования сочинений выдающегося азербайджанского учёного-просветителя первой половины XIX века Аббас-Кули-ага Бакиханова (1794-1847), чьё философское и творческое наследие актуально и в наши дни. Впрочем, и поверхностное знакомство с работами мыслителя даёт понимание того, насколько увлечен он был проблемами морали и нравственности. Особенно интересны взгляды и суждения Бакиханова А.К., полно и развернуто изложенные им в трактате «Воспитание нравственности» - ценнейшем источнике по вопросам морального долженствования.

## ƏXLAQIN SƏRHƏDLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ ABBASQULU AĞA BAKIXANOVUN ƏSAS ELMİ-FƏLSƏFİ MARAQLARINDAN BİRİ KİMİ.


### XÜLASƏ

Bu məqalə XIX əsrin birinci yarısının Azərbaycanın görkəmli nümayəndələrindən olan alim-maarifçi Abbasqulu ağa Bakıxanovun (1794-1847) çoxsaylı əsərlərinin diqqətlə və məqsədyönlü öyrənməsinin nəticəsidir. Eyni zamanda, mütəfəkkirin işləri ilə səthi tanışlıq da, onun əxlaq problemlərinə nə qədər önəm verməsi aydın şəkildə görünür. Onun "Əxlaqın tərbiyəsi" adlı əsərində söylədiyi tam və hərtərəfli fikir və mülahizələr xüsusən maraqlıdır.


## DETERMINATION OF THE BOUNDARIES OF MORALITY AS ONE OF THE MAIN SCIENTIFIC AND PHILOSOPHICAL INTERESTS OF ABBASGULU BAKIKHANOV.


### SUMMARY

This article is the result of focused research on scientific works of the outstanding Azerbaijani educator of the first half of the 19th century, Abbasgulu Bakikhanov (1794-1847), whose philosophical and creative heritage is still relevant today. However, a superficial acquaintance with the work of the thinker gives an understanding of how passionate he was about the problems of morality and ethics. Of particular interest are the views and judgments of A. Bakikhanov, fully and comprehensively set out by him in the treatise "Ethics education" - a valuable source on issues of moral obligation.

# İBN XƏLDUN FƏLSƏFƏSİNDƏ ƏSABİYYƏ KONSEPSİYASI

***Murad Həsənov***
***BDU-nun II kurs magistrantı***
***muro.hasanov.804@gmail.com***

***Açar sözlər:*** Əsabiyyə; "Müqəddimə"; qövüm; toplum; soykökü; qəbilə; mülk.
***Ключевые слова:*** Асабия"; "Мукаддима";племя; сообщество; корень; клан; свойство.
***Key words:*** Asabiyya; "the Muqaddimah"; tribe; community; lineage; clan; property.

İbn Xəldunun sosial elmlər sahəsindəki önəmi, yerli xüsusiyyətləri bacaraqlı şəkildə universal bir dillə ifadə edərək və həmin xüsusiyyətlərə bağlı universal anlayışlar yaradaraq onları elmi işlərin obyektin halına gətirəbilməsindədir. Məhz belə anyalışlardan biri də əsabiyyə anlayışıdır. Ərəb qəbilələrində qəbilə üzvlərinin xaricdən gələn təhlükələrə qarşı himayəsi və qəbilələrarası rəqabət baxımından önəmli olan əsabiyyə anlayışının yeni xüsusiyyətlərini, əlaqələrini kəşf edən İbn Xəldun, onu dərindən analiz edərək, inkişaf etdirdiyi mədəniyyət nəzəriyyəsinin mərkəzinə qoymuşdur.

İbn Xəldunun yanaşmasından sonra ortaya çıxan əsabiyyə anlayışı yeni bir baxış bucağı yaratdı. İbn Xəldunun fərqli mənalar yükləyərək əsabiyyəni yenidən dirçəltməsi mövzusunda bir çox müəlliflər həmfikirdir. Bir sıra müəlliflərin fikrinə görə də İbn Xəldun fəlsəfəsində əsabiyyə anlayışının mənası və funksiyasına dair fərqli ifadələr mövcuddur. "Lakin bunu da nəzərə almaq lazımdır ki, Müqəddiməni bir bütün olaraq nəzərdən keçirdikdə orada siyasi prosesləri hərəkətə gətirən və dəyişdirən bir əsabiyyənin varlığı inkar edilə bilməz" [4].

İbn Xəldun Müqəddimədə əsabiyyə anlayışının konkret izahını vermir. O, bu anlayışın konkret izahını vermək yerinə, onun nə işə yaradığını tapmağa çalışmış və əsabiyyənin yaranması, inkişafı və zəifləmə mexanizmləri üzərində dayanmışdır. Həmçinin əsabiyyə anlayışını təhlil edərkən nəzərə almaq lazımdır ki, islamdan əvvəl mövcud olan əsabiyyə anlayışı ilə islamdan sonrakı əsabiyyə anlayışı arasında məna cəhətdən fərqlər mövcuddur.

"Aseb, asb, usb vücuddakı sinirlərə, bir qövmün xeyirli insanlarına deyilir. İsabə, isab, usbe istər heyvan olsun istərsə də insan olsun on ilə qırx arasında topluluq deməkdir. Əsabə bir nəfərin ata tərəfindən olan qohumlarıdır" [6].

Cahiliyə dövründə bir qəbiləni təşkil edən fərdlərin həqiqətən öz qəbilələrinə mənsub olan və ya elə qəbul edilən birini, haqlı ya haqsız mütləq şəkildə və qeyd-şərtsiz başqalarına qarşı qorumağı, ona dəstək olmağı təmin edən qəbiləçilik hissi əsabiyyəni meydana gətirirdi. Buradan da belə başa düşülür ki, fərdlərin müdafiə yaxud himayə olunması üçün onların məzlum və ya zalım olmaqları vacib deyil, bunun üçün vacib olan həmin fərdlərin müdafiə və himayə olunduqları qəbiləyə həqiqətən və hökmən mənsub olmalarıdır.

Bir qəbilə fərdlərinin birləşmələrini, köməkləşmələrini, bir-birilərini və qəbilələrini müdafiə etmələrini eyni zamanda digər qəbilələrə hücum etmələrini təmin edən bu hissdir. Qəbilə və fərdləri əsabiyyə sayəsində öz canını və malını qoruya bilər. Bu hissin sayəsində döyüşə girər, öldürər və yaxud öldürülər.

İbn Xəldunun fikrincə də, əsabiyyənin ən böyük xüsusiyyəti qəbiləni təşkil edən fərdlər arasında qüvvətli bir birlik, qüvvətli həmrəylik, köməkləşmə və təbiətdən gələn qorumaq hissi, şüuru və inancıdır. O, əsabiyyəni tərif edərkən qeyd edir ki, himayə, müdafiə və digər birlikdə edilən bütün ictimai fəaliyyətlər əsabiyyə sayəsində meydana gəlir. Ölkələrin fəthi, istilası, işğalı, zəfərlərin qazanılması da bu şəkildə reallaşdırılır. Buradan əsabiyyənin kollektiv hiss və şüurdan meydana gələn birlikdə hərəkət etmə anlayışı olduğunu deyə bilərik.

XIX əsrin sonu XX əsrin əvvəllərində milliyətçiliyin həm nəzəri müzakirələrin mərkəzində olduğu həm də praktik siyasi inkişafın əsas ünsür olduğu zamanlarda əsabiyyəni milliyetçilik

olaraq görən bir çox müəlliflər mövcud idi. Məsələn Von Kremer əsabiyyəni "nationalitatsidee" yəni milliyət fikri anlayışı ilə qarşılaşdırmış, T. Kemiri isə əsabiyyə ilə milliyətçilik anlayışları arasında böyük fərqin olmadığını söyləmişdir. Onlardan fərqli olaraq Fransesko Qabrieli əsabiyyəni millətçilik ilə qarşılıqlı götürən bu yanaşmanı kəskin tənqid etmişdir. Kremer və Kemirini isə anaxronizmə meyl etmələrinə görə günahlandırır. Onun fikrincə milliyətçiliyin bəzi xüsusiyyətlərini əsabiyyənin bir təzahürü kimi qəbul etmək olar. Çünki nəticədə milliyətçilik də qəlbləri və zehinleri ortaq bir məqsəd uğrunda birləşdirir və insanları kollektiv siyasi fəaliyyətə yönəldir. Lakin bütün bunlara baxmayaraq əsabiyyə ilə millətçiliyi eyniləşdirmək yanlışdır. Milliyətçilik modern bir fenomen olduğu halda əsabiyyə, İbn Xəldunun iddiasına görə insanlıq tarixi boyunca siyasi inkişafın motoru olmuşdur. Dolayısı ilə əsabiyyə milliyətçilikdən daha geniş və fərqli bir istiqamətdir.

İbn Xəlduna görə bir toplumun gücü sahib olduğu əsabiyyəyə bağlıdır. "Dövləti və mədəniyyəti yalnız əsabiyyəyə sahib olan toplumlar qura bilərlər. Əsabiyyənin güclü olmasının topluma yüksək təsiri olduğu kimi, əsabiyyənin zəifləməsi ilə toplum da gücsüz və müdafiəsiz vəziyyətə düşür" [3]. "Müqəddimə"dən çıxış edərək əsabiyyə anlayışının 3 əsas cəhətini göstərmək olar. Bunlardan birincisi, həyatda qalmaqdan iqtidar olmağa qədər uzanan kollektiv bir mübarizəyə işarə edir. Bu cəhətinə əsasən əsabiyyə bir toplumun həm müdafiəçisi, həm də himayəçisi hesab oluna bilər. İbn Xəldun əsabiyyənin bu cəhəti haqda bunları deyir:

"Əsabiyyənin sonuncu məqsədi mülkdür (siyasi avtoritetdir). Bunun səbəbi daha əvvəl də qeyd etdiyimiz üzrə himayə, müdafiə, haqq iddia eləmə kimi hər ictimai fəaliyyətin əsabiyyə sayəsində mümkün olmasındadır.Yenə daha əvvəl bəhs etdiyimiz üzrə adəmoğlu insani təbiəti səbəbilə hər topluluqda birini digərinə təcavüz etməkdən çəkindirəcək bir hakimə möhtacdır. Bu hakim haqqında bəhs etdiyimiz əsabiyyə sayəsində digərlərindən üstün olmalıdır. Əksi təqdirdə onun idarəetmə üçün yetərincə gücü olmaz. Məhz bu üstünlük mülkdür. (siyasi avtoritetdir). Əsabiyyə sahibi bir məqama yüksəldikcə daim onun üstündəkini tələb edər" [3].

İbn Xəlduna görə əsabiyyənin ikinci önəmli cəhəti, fərdin topluma sıx bağlılığı, toplumun da fərdə sahib çıxması ilə reallaşan sosial həmrəylik və bütünləşməni ifadə edir. İbn Xəldun öz dövrünün sosial xüsusiyyətlərindən çıxış edərək əsabiyyəni xüsusilə tayfa və qəbilə içində həmrəylik kimi ələ almaqdadır. İbn Xəlduna görə əsabiyyə sadəcə qan bağından və ya qan bağı qədər insanları bir-birinə yaxın edən digər şeylərdən hasil olur. Aralarında bu cür bağlar olduqda insanlar bir-birilərinin köməyinə qaçır və zərərlərini bərpa etməyə çalışırlar. Bu cəhətdən əsabiyyə toplum daxilində həmrəyliyi ifadə edir.

İbn Xəldunun fikrincə əsabiyyənin üçüncü əsas cəhəti toplumdakı fərdlərin ortaq bir keçmişə sahib olması duyğusu və bu duyğunun toplumda yaratdığı motivasiyadır. Toplumdakı fərdlər arasında sıx bağlılığın yaranması eyni zamanda əsabiyyənin də uzun ömürlü olmasına səbəb olur.

İbn Xəldun fəlsəfəsində əsabiyyə anlayışını analiz edərkən bu üç önəmli cəhətin hər birinə ayrı-ayrılıqda diqqət etmək lazımdır. Lakin bununla yanaşı bu üç cəhət bir bütün olaraq götürülməlidir. Çünki əsabiyyənin bu üç cəhəti qarşılıqlı əlaqədədir. Buna görə də onlardan hansısa birinə önəm verib digərlərini diqqətdən kənarda saxladıqda əsabiyyə anlayışı yetərincə başa düşülməyəcəkdir.

İbn Xəldun həmçinin bir toplumun üzvlərinin eyni dindən gəlməsinin o toplumun gücünə güc qatmasını qeyd edir. Çünki din qəlbləri bir araya gətirmək özəlliyinə sahibdir və bu özəllik sayəsindədir ki, sahəsi geniş və hakimiyyəti böyük olan dövlətlərin təməli dinə dayanır.

"Əsabiyyə sahibi olanlara rəhbərlik etmək, onların soyundan olmayanlar üçün mümkün deyildir" [5]. İbn Xəldun bu fikrini belə açıqlayır ki, riyasət sadəcə mübarizə və qələbə ilə hasil olur. Qələbə isə ancaq əsabiyyədə vücuda gəlir. Belə olan halda bir qövüm üzərində riyasət sahibi olmaq üçün, o qövüm içərisindəki digər əsabiyyələri məğlub edən qalib bir əsabiyyəyə sahib olmaq lazımdır. Lakin o qövmün soyundan ayrı və qopmuş şəkildə olan birinin, onlar

içində soy-kökə bağlı əsabiyyəsi olmaz. Belə birisi o əsabiyyəyə yalnızca sığınmışdır. Bu vəziyyətdə əsabiyyəyə sığınmış olan şəxs heç bir halda qəbilə mənsublarının üzərində qələbə qazana bilməz.

İbn Xəldun həm də onu qeyd edir ki, həmin şəxs daxil olduğu qövümlə qaynayıb qarışsa belə yenə də əsabiyyəyə rəhbərlik edə bilməz. Çünki bir toplum üzərində rəhbərlik, bir tək nəsildən, müəyyən bir ailədən keçir. Onun bu əsabiyyə ilə qaynayıb qarışmasından əvvəl özünə və ya öz sələflərindən birinə rəhbərlik necə hasil olacaq? Bir haldaki rəhbərlik müəyyən bir ailədən, nəsildən keçir. Riyasətin kimə keçəcəyi əsabiyyə ilə vücuda gələn qələbə sayəsində müəyyən olunur.

İbn Xəldun bəzi qəbilə və əsabiyyə rəhbərlərinin bəzi soylara göz tikərək ora girməyə can atmalarından şikayətlənir. O bildirir ki, bunun səbəbi həmin soya mənsub olan insanlarda mövcud olan cəsarət kimi xüsusiyyətdir.

"Əsabiyyənin gedərək əldə etdiyi sonuncu məqsəd mülkdür" [5]. İbn Xəlduna görə bunun səbəbi ondadır ki, bir digərini himayə etmə, müdafiə və birlikdə haqq tələb etmə, əsabiyyə sayəsində mümkün olur. İbn Xəldun burada mülk deyərkən dövləti nəzərdə tutur. Lakin bu dövlət demokratik deyil krallıq şəklində olan bir dövlətdir. Həmçinin insan təbiəti etibarilə ictimai həyatda hər zaman insanların bir digərinə olan təcavüzünün qarşısını alacaq bir sultana və ya hakimə möhtacdır. Belə olan halda sultan və hakimin əsabiyyə ilə digərlərinə qalib gəlməsi zəruridir.

İbn Xəldun çöldə, səhralıqda yaşayan tayfalar haqqında danışarkən qeyd edir ki, onları bir-birinin haqq və hüquqlarına təcavüz etmələrindən ağsaqqalları və önəmli şəxsləri çəkindirir. Yerləşdikləri ərazilərin müdafiəsi və qorunması ilə məşğul olan tayfanın gəncləri və bacarıqlı kişiləri digər tayfalardan gələcək olan hücumlardan müdafiə olunmaq işini həyata keçirirlər. İbn Xəldun bu məsələyə toxunaraq bildirir ki, bir soykökü yaxud əsabiyyə mövcud olmadıqca onların bu fəaliyyətləri doğru şəkildə və sədaqətlə ifadə olunmaz. Çünki onların qüdrəti əsabiyyə sayəsində qüvvətlənir və düşmənlərində qorxu yaradırlar. Hər insan öz əsabəsindən və soykökündən olan kimsənin köməyinə çatmağa daha çox önəm verir. "Əsabəsindən gələn fəryad, insanı hiddətə gətirir" [5].

Əsabəsi olan kimsələr, söykökü ilə bir-birinə bağlı olmayanlara nisbətən daha rahat olurlar. Çünki soykökü ilə bağlılığı olmayanlar nadir hallarda hiddətlənərək kömək istəyən birinin köməyinə çatırlar. Lakin əsabiyyədə mövcud olan insanların bir-biri ilə olan bağları onları məcbur edir ki, zərərə uğrayan və ya məhvolmaq təhlükəsində olan qohumlarının fəryadlarını eşidərək hiddətlənsin və onların köməyinə çatsınlar. Bir-biri ilə köməkləşməyə çalışan insanlar arasındakı söykökü bağlılığı, birləşmək duyğusu ortaya çıxacaq qədər çox yaxındırsa, bu əsabiyyənin qüvvətlənməsinə səbəb olur. Amma bu bağlılıq araya girən insanların çoxluğu səbəbi ilə zəifləyirsə, ümumiyyətlə əsabiyyə unudulur və onun sadəcə adı qalır.

İbn Xəldun çətin zamanlarda insanın öz qəbiləsindən olan birinin köməyinə çatmasını və onlara qarşı şəfqətli olmasını insanın təbiəti ilə əlaqələndirir və onu da qeyd edir ki, bu hiss Allah tərəfindən qullarının qəlbinə qoyulmuşdur. Qarşılıqlı kömək və həmrəyliyə yol açan bu duyğu düşmənlərdə daha çox qorxu yaratmağa səbəb olur.

"Əsabiyyə sadəcə söykökü bağlılığından və yaxud o mənadakı başqa bir şeydən hasil olur" [5]. Deməli bir kimsə hansı qəbilədən, tayfadan və ya irqdəndirsə, onun söykökü də həmin qəbilə, tayfa və ya irq sayılır. Lakin İbn Xəldun həm də bir qəbilənin, tayfanın və ya irqin müəyyən edilməsi məsələsində qan və soy bağı kimi şeyləri ikinci plana ataraq, iradə və qəbul etmə məsələsini ön plana çıxarır. Bir kimsə özünü atasının və ya həm atasının, həm anasının mənsub olduğu qəbilədən saymaz, başqa bir qəbilə, tayfa və ya irqi qəbul edərsə, artıq həmin şəxs öz ata və ya anasının vasitəsilə bağlı olduğu qəbilədən deyil, öz iradəsi ilə seçdiyi, qəbul edib mənimsədiyi qəbilədən olur. Çünki bir qəbilədən olmaq, sadəcə o qəbilə fərdlərinin tabe olduqları ehkamlara tabe olmaq mənasına gəlmir.

Qeyd etmək lazımdır ki, İbn Xəldunun fikrincə toplum fərdlərinin özlərini xüsusi bir toplum olaraq görməsi üçün ən önəmli faktor ortaq keçmişə sahib olmaqlarıdır. Dolayısı ilə toplum fərdlərinin ortaq keçmişə sahib olmaq duyğusuna hər hansısa bir zərər dəydikdə qəbilənin yaxud toplumun parçalanması prosesi başlayır. Başqa cür desək bir toplumun ortaq keçmişə sahib olub olmadığı hissi, ictimai olaraq inşa edilən bir inancdır. İbn Xəldun bu inancın formalaşmasında və yaxud deformasiyaya uğramasında səbəb kimi dərində yatan sosial səbəbləri diqqət önünə çəkmişdir. Belə ki, İbn Xəlduna görə səhralıq sahədə, çətin şərtlər altında yaşayan toplumlarda ortaq keçmiş duyğusunun formalaşması prosesi baş verdiyi halda, şəhərlərdə rahat yaşamın və rifahın mövcud olması ortaq keçmiş duyğusunun deformasiyaya uğramasına səbəb olur. Onun fikrincə bir toplumun fərdlərinin ortaq keçmiş duyğusunun güclü olması o toplumda həmrəyliyin güclü olmasına səbəb olur ki, bu da öz növbəsində həmin toplumdakı əsabiyyəni dayanıqlı və uzunömürlü edir və ya əksinə.

İbn Xəldun iqtidarın gücü ilə əsabiyyə konsepsiyasını qarşılıqlı əlaqədə götürür. Əsabiyyənin zəifləməsi iqtidarın gücünü də zəiflətdiyindən bu proses qəbilənin parçalanmasına və qəbilə fərdlərinin boyunduruq altında yaşamasına qədər uzanır. Boyunduruq altında yaşamaq da toplumu özünə qarşı yadlaşdırır və toplumun öz keçmişini unutmasına səbəb olur.

## ƏDƏBİYYAT

1. Rüstəmov Yusif. Siyasi-hüquqi təlimlər tarixi. Bakı: Azərbaycan Universiteti, Bakı, 2000
2. İbn Xəldun- “Müqəddimə”. (A.Şəddadinin redaksiyası) Kasablanka, 2005
3. Фомина Д.В. Власть и государство в философии Ибн Халдуна. Автореферат на соискание ученой степени кандидата философских наук. М.: Мысль, 2003
4. Кирабаев Н. Социальная философия мусульманского Востока- М,1987
5. İbn Haldun- “Mukaddime”(Süleyman Uludağ tərcüməsində) İstanbul, 2017
6. Prof. Dr. Recep Şentürk. “İbn Haldun Güncel okumalar”. İstanbul, 2017

## XÜLASƏ

İbn Xəldunu fəlsəfə tarixində önəmli edən əsas məsələ onun fəlsəfədə mövcud olan anlayışlara özünəməxsus şəkildə yaxınlaşmasıdır. Əsabiyyə anlayışını təhlil etmədən İbn Xəldun fəlsəfəsini dərindən anlamaq mümkün deyildir. İbn Xəldunun sosial nəzəriyyəsinin mərkəzində yerləşən əsabiyyə anlayışı şübhəsiz İbn Xəldun tədqiqatçıları tərəfindən bugünə qədər ən çox diqqət mərkəzində saxlanılan mövzudur.

## АННОТАЦИЯ

Главным фактором, придающим особое значение истории философии Ибр Халдуна, является его своеобразное отношение к философским понятиям. Перед тем, как осознать глубину философии Ибн Халдуна, следует проанализировать значение понятий «трайбализм», «крайний национализм». Понятия «трайбализм» и «крайний национализм», находящиеся в центре социальной теории Ибн Халдуна, без сомнения, и по сей день не теряют своей актуальности среди его последователей.

## SUMMARY

The main thing that makes Ibn Khaldun important in the history of philosophy is his unique approach to the notions that exist in the philosophy. It is impossible to understand Ibn Khaldun's philosophy depthly without analyzing the notion of "asabiyye". The notion of "asabiyye", which is at the center of Ibn Khaldun's social theory, is undoutedly the subject that is the most attractive by Ibn Khaldun's researchers up today.

# VERİFİKASİYA VƏ FALSİFİKASİYA PRİNSİPLƏRİ

***Ülkər Vəliyeva***
***BDU-nun II kurs magistrantı***
*veliyevaulker1997@gmail.com*

***Açar sözlər:*** verifikasiya, falsifikasiya, nəzəriyyə, prinsip, idrak, elm
***Ключевые слова:***верификация, фальсификация, теория, принцип, познание, наука.
***Key words:***verification, falsification, theory, principle, cognition, science.

Qədim Yunanıstan Avropa elminin vətəni sayılır. Yunanların elmin banisi olması o, demək deyil ki, onlar öz zəmanələrində başqa xalqlara nisbətən daha çox faktiki material toplamış və yaxud texniki kəşflər sahəsində daha heyrətamiz bacarıq nümayiş etdirmişlər. Sözün müasir mənasında yunanlar "alim" adına təfəkkür prosesinə, onun məntiqinə, məzmununa göstərdikləri hədsiz marağa görə layiq görülmüşlər. Qədim yunan mütəfəkkirləri faktiki materialları, dərin mühakimələri, kəşfləri toplamağa, onların məntiqi əlaqələrini açmağa, onlara sistemli bir görkəm verməyə çalışırdılar. Qədim yunanlar nəinki mühakimələrdəki ziddiyyətləri aşkara çıxarmaq yolu ilə həqiqi sübuta yetirmək üsulunu təhlilə cəlb etməklə elm tarixində ilk dəfə sübut nəzəriyyəsini - Aristotel məntiqini yaratmışlar. Başqa sözlə, qədim yunanlar rəngarəng əlaqəsiz empirik biliklərə daxili bir ahəngdarlıq, sistemlilik, qayda gətirən metodu işləyib hazırlamaqla elmi təfəkkür sahəsində metodoloji hücumun başlanğıcını qoymuşlar.

Bəşəriyyətin mənəvi həyatında ikinci metodoloji hücum eksperimental -riyazi metodların vacibliyinin dərk olunduğu Yeni dövrdə baş vermiş və bu zəminə söykənməklə Qaliley, Dekart, Nyuton və.b klassik təbiətşünaslığın əsasını qoymuşlar (2, s. 21).

Təsviri xarakter daşıyan klassik təbiətşünaslığın yarandığı XVII əsrdə elmin inkişafının müxtəlif istiqamətli iki metodoloji proqramı - empirik (induktiv).və rasional (deduktiv).metodlar yaranmışdır. Empirizmə görə, dünya haqqında həqiqi biliyi yalnız təcrübədən, müşahidə və eksperimentdən almaq olar. Bu nöqteyi nəzərə görə, müşahidə və ya eksperiment təkcə olduğu üçün təbiətin dərkinin yeganə yolu xüsusi hallardan daha geniş ümumiləşdirmələrə doğru baş verən hərəkətdir, yəni induksiyadır.

Rasionalizmə görə isə ən etibarlı və müvəffəqiyyətli elm riyaziyyat. Bu, ona görə belədir ki, riyaziyyatda ən səmərəli metodlardan-idrakda heç bir şübhəyə yer qoymayan sadə və aydın həqiqətlərə baxmağa imkan verən intellektual intuisiya və mövcud həqiqətlərdən daha mürəkkəb bilik almağa əsas verən deduksiyadan istifadə olunur. Ciddi qaydalar əsasında tətbiq olunan deduksiya əksər hallarda həqiqətə, bəzi hallarda isə yanılmaya gətirib çıxarır. İnduktiv mülahizələrə gəldikdə isə Dekartın fikrincə, onlar bəzən yaxşı nəticələr versələr də, lakin qanunların ifadə olunduğu ən ümumi nəticələrə gətirib çıxara bilmir (1, s. 459).

Haqqında sözügedən metodoloji proqramlar hazırda köhnəldiklərindən qeyri-adekvat hesab olunur. Müasir dövrdə empirizm ona görə məqbul sayıla bilməz ki, əksər situasiyalarda ümumi nəticələr çıxarmağa imkan verən xüsusi halların bütün sonsuz çalarlarını əhatə etmək prinsipi mümkün olmadığından induksiya həqiqətdə heç vaxt universal mühakimələr almağa imkan vermir. Buna görə də müasir elmin fundamental nəzəriyyələrindən heç biri bilavasitə induktiv ümumiləşdirmələr əsasında yaradılmamışdır. Rasionalizm də öz imkanlarını tükəndirmişdir, belə ki, müasir elmin tədqiqi ilə məşğul olduğu bəzi obyektiv reallıq sahələri (məsələn, mikroaləm,müqaaləm və s.). Bu prinsip də tələb olunan sadə həqiqətlər verməyə qadir deyil. Digər tərəfdən, rasionalizm idrakın təcrübi metodlarının rolunu da kafi dərəcədə qiymətləndirmir. Bununla belə, həmin metodoloji proqramlar artıq özlərinin mühüm tarixi rollarını oynamışlar. Əvvəla, həm empirizm, həm də rasionalizm çoxsaylı konkret elmi tədqiqatları həmişə stimullaşdırmışdır, ikincisi, bu metodoloji proqramlar elmi idrakın strukturunun başa

düşülməsində mühüm rol oynamışdır. Belə ki, həmin proqramlar əsasında aydınlaşdırılmışdır ki, idrak prosesi iki mərtəbədən ibarətdir: onun "aşağı" mərtəbəsini empirik materiallar, "yuxarı" mərtəbəsini isə nəzəriyyə təşkil edir.

İdrakın "yuxarı" mərtəbəsi onun "aşağı" mərtəbəsi üzərində qərar tutsa da, bütün mərtəbələr arasında pilləkənlər qoyulmadığından aşağı mərtəbədən yuxarı mərtəbəyə ancaq "sıçrayışla" keçmək mümkündür. Bu zaman idrakın "aşağı" (empirik). səviyyəsi nə qədər vacib olsa da idrakın taleyi ancaq "yuxarı" mərtəbədə-nəzəri səviyyədə həll olunur. Zəmanəmizdə elmi idrakın strukturunun standart modeli təxminən belə görünür. İdrak müşahidə və ya eksperimentlər vasitəsilə müəyyən olunan faktlardan başlanır. Əgər həmin faktlar içərisində bir müntəzəmlik,ümumilik,təkrarlanma aşkar edilərsə, onda təsdiq etmək olar ki, yeni empirik qanun, ilkin empirik ümumiləşdirmə müəyyən edilmişdir. Lakin gec-tez elə faktlar aşkar edilir ki, onlar artıq aşkar edilmiş qanun çərçivəsinə heç cür yerləşdirilə bilmir. Belə hallarda adətən alimin yaradıcı intellekti, məlum reallığı yenidən qurmaq qurmaq bacarığı onun köməyinə gəlir. Bu amillərə əsaslanan tədqiqatçı ümumi sıradan düşmüş faktları elə bir yeni sxemə yerləşdirir ki, nəticədə onlar ilə tapılmış yeni empirik qanunauyğunluqlar arasındakı ziddiyyətlər aradan qalxır.

Abstrakt mühakimələr əsasında quraşdırılıb, əvvəlcə yalnız nəzəri hipoteza formasında mövcud olan bu yeni sxemi bilavasitə müşahidələr vasitəsilə aşkar etmək mümkün olmur. Əgər bu hipoteza uğurlu olub, faktlar arasındakı ziddiyyətləri aradan qaldırmağa və yeni faktların varlığını irəlicədən söyləməyə əsas verirsə, deməli onun timsalında yeni nəzəriyyə irəli sürülmüş və yeni qanun kəşf edilmişdir. Məsələn, yaxşı məlumdur ki, XIX əsrdə irsiyyət haqqında təsəvvürlərin irəli sürülməsi Darvinin təkamül nəzəriyyəsini uzun müddət iflasa uğramaq təhlükəsi qarşısında qoymuşdur. Bu dövrdə bioloqların bir hissəsi belə düşünürdü ki, irsiyyət əlamətlərinin ötürülməsi "çarpazlaşdırma" prinsipi, yəni valideyinlərin əlamətlərinin nəsildən - nəslə aralıq vasitəsilə ötürülməsi yolu ilə baş verir. Məsələn, empirik olaraq müəyyən edilmişdir ki, ağ və qırmızı rəngli bitkilərin çarpazlaşdırılmasından alınan hibridin çiçəkləri əksər hallarda çəhrayı olur. Lakin bu empirik ümumiləşdirmələrə rəğmən avstriya təbiətşünası Qreqor Mendel belə bir hipoteza irəli sürürdü ki, irsiyyət aralıq deyil, diskret xarakter daşıyıb, nəsildən-nəslə gen adlanan diskret hissəciklər vasitəsilə ötürülür. Həm də irsiyyət amilləri nəsildən-nəslə verildikcə onların qarşılaşdırılması deyil, parçalanması prosesi baş verir. Sonralar biologiyaya irsiyyət nəzəriyyəsi adı ilə daxil edilən bu sadə və eyni zamanda dahiyanə sxem bütün empirik faktları bir zərbə ilə izah edə bildi.

Beləliklə, elmi idrakın strukturunun ənənəvi modeli fikrin aşağdakı sxem üzrə inkişaf etdirilməsini tələb edir: Empirik faktların müəyyənləşdirilməsi -ilkin empirik ümumiləşdirmə - ümumi sxemdən kənara çıxan faktların müəyyən edilməsi -faktların yeni izahını verən nəzəri hipotezin irəli sürülməsi -müşahidə olunan faktların ehtiva olunduğu hipotezdən deduktiv yolla çıxarılan məntiqi nəticə həqiqiliyi praktikada təsdiq olunan hipoteza nəzəri qanun, ya da nəzəriyyə statusu qazanır.Nəzəriyyə elmi biliyin təşkilinin ən yüksək forması olub, reallığın konkret bir sahəsində təsir göstərən mühüm əlaqələr və münasibətlər haqqında tam təsəvvür yaradır (2, s. 24-25).

Nəzəriyyənin yaradılması bir qayda olaraq obyektiv reallığın müşahidə olunmayan tərəflərini qeydə alan anlayışların ona daxil edilməsilə müşayiət olunur. Buna görə də nəzəriyyənin həqiqiliyinin yoxlanılması birbaşa müşahidə və eksperiment vasitəsilə həyata keçirilə bilmir. Nəzəriyyənin vizual müşahidə olunan reallıqdan bu cür "ayrı salınması" XX əsrdə belə bir məsələ ətrafında kəskin mübahisə doğurmuşdur ki, biz hansı biliklərimizi həqiqət hesab edə bilərik? Problemin məğzi bundan ibarətdir ki, nəzəri biliyin empirik bazisdən asılı olmaması və müxtəlif nəzəri quraşdırmaların yaradılmasında yol verilən sərbəstlik adamda belə bir illüziya yaradır ki, guya alimlər asanlıqla yaratdıqları universal izahedici sxemlər əsasında irəli sürdükləri heyrətamiz ideyalara görə əslində heç bir məsuliyyət daşımırlar. Bununla əlaqədar olaraq belə bir

məsələnin araşdırılması xüsusi əhəmiyyət kəsb edir ki, elmi ideyaları həqiqi elmdən necə fərqləndirmək olar?

Bu məsələni araşdırmaq məqsədilə elmin metodologiyasının müxtəlif istiqamətləri tərəfindən bir sıra metodoloji prinsiplər formula edilmişdir. Belə prinsiplərdən biri verifikasiyadır (hərfi mənası yoxlama deməkdir). Bu prinsipe görə, hər hansı bir anlayış və ya mühakimə yalnız o zaman məna kəsb edir ki, onun təcrübi bazası olsun, yəni o empirik üsulla yoxlana bilsin. Əgər həmin anlayış və ya mühakimə empirik yoxlamadan keçmirsə, o ya taftalogiya elan edilir,ya da heç bir məna kəsb etmir. İnkişaf etmiş nəzəriyyənin anlayışları bir qayda olaraq təcrübi məlumatlara müncər edilə bilmədiyindən verifikasiya prinsipi onlara yalnız dolayı yolla tətbiq edilə bilir. Məsələn, müasir fizikada "Kvark" anlayışının təcrübi analoqunu tapmaq mümkün deyil. Buna baxmayaraq kvark nəzəriyyəsinin irəlicədən söylədiyi bir sıra hadisələri eksperimental yolla almaq mümkün olmuşdur (3, s. 44-45).

Göründüyü kimi, verifikasiya prinsipi ilk yaxınlaşmada elmi biliyi psevdoelmi bilikdən fərqləndirməyə imkan verir. Lakin mümkün empirik faktların mövcud ideyanın xeyrinə şərh olunduğu bütün hallarda (məsələn, ideologiya, din, astrologiya və.s).bu prinsip öz qüvvəsini itirir. Belə hallarda elmi biliyi qeyri-elmi bilikdən fərqləndirmək üçün XX əsrin görkəmli filosofu K.Popperin təklif etdiyi falsifikasiya prinsipindən istifadə olunur. Bu prinsipə görə, nəzəriyyənin elmi status qazanmasının başlıca şərti onun saxtalaşdırılması və təkzib edilənliyi ola bilər.Başqa sözlə, bilik yalnız o zaman "elmi" dərəcəyə layiq görülə bilər ki, o prinsip etibarilə təkzib edilən olmuş olsun.

Zahirən paradoksal görünməsinə baxmayaraq bu prinsipin sadə,lakin dərin mənası vardır. İdrakda təsdiqetmə və təkzib etmə üsullarının assimetriyasına ciddi fikir verən Popper irəli sürülən ixtiyari mühakimənin həqiqiliyinin yoxlanılmasının iki üsulunu təklif edir:

a).mühakimənin həqiqiliyini təsdiq edə biləcək faktların axtarılması;

b).mühakiməni təkzib edə biləcək faktların axtarılması.

Popperin falsifikasiya prinsipi məhz mühakiməni təkzib edə bilən faktların axtarılmasına əsaslanır. Fikrimizə aydınlıq gətirmək üçün misallara müraciət edək. Belə bir mühakiməyə nəzər salaq: "Qışda bütün ağaclar yarpaqlarını tökür". Aydındır ki, bu fikrin təsdiqi üçün milyardlarla ağacları yoxlamaq lazımdır. Halbuki həmin fikrin təkzibi üçün qışda təkcə bir ağacın yarpaq tökmədiyini müəyyənləşdirmək kifayətdir.

Ümumi mühakimənin təsdiqlənməsi ilə təkzib olunması arasındakı asimmetriya və induksiyadan biliyin həqiqiliyinin əsaslandırılması metodu kimi istifadə edilə bilməsi fikrinin ciddi tənqid edilməsi Popperi falsifikasiya prinsipinə gətirib çıxarmışdır. Bu prinsipə görə, ağacdan qopub düşən almaların say çoxluğu ümumdünya cazibə qanununun həqiqiliyini təsdiq etmək üçün kifayət edə bilməz. Ancaq Yerdən yan keçən və buna görə də onun üzərinə düşməyən təkcə bir almanın müəyyən edilməsi faktı bu qanunun ödənilmədiyini, onun yalan olduğunu söyləmək üçün kifayətdir. Buna görə də Popperin fikrincə, nəzəriyyənin saxtalaşdırılması və ya təkzib edilməsi onun həqiqiliyinin və elmiliyinin təsdiq edilməsi baxımından daha səmərəlidir (1, s. 464-465).

Popper fiziki dünyanın obyektiv mövcudluğuna və insan idrakının onun adekvat təsvirinə can atmasına inanır. Lakin o, biliklərimizin məzmunundan həqiqəti seçib ayırmağa imkan verən meyarın mövcudluğunu qəbul etmir. Popperin fikrinin məğzi bundan ibarətdir ki, biz elmi bilikdən həqiqəti deyil,yalnız yalanı seçib ayırmalı və onu bilikdən kənarlaşdırmaqla həqiqətə yaxınlaşmalıyıq. Bu üsul guya bizim idraka olan cəhdimizə bəraət qazandırmaqla həqiqətin dərk edilməsi yolunda skeptisizmi xeyli məhdudlaşdırır. İdrak nəzəriyyəsi təsdiq edir ki, elmi idrak və onun metodologiyası iki fundamental ideyaya söykənir. Birincisi, elm bizə həqiqət verə bilər və verir, ikincisi elm bizi yanılmalardan və yalanlardan xilas edir. Popper bu ideyalardan birincisini tullamış, ikincisini isə öz metodologiyasının əsasında yerləşdirmişdir. Sonralar İ.Lakatos və digər

metodoloqlar göstərdilər ki, insan öz mühakimələrinin nəinki həqiqiliyini, heç yanlış olduğunu da bütün səhihliyi ilə müəyyənləşdirə bilməz.

Falsifikasiya prinsipi haqqında deyilənlərə bunu da əlavə edək ki, onun ardıcıl yeridilməsi ixtiyari biliyə fərziyəvi görkəm verməklə bir növ onu tamamlanmadan, dəqiqlikdən, dürüstlükdən, dəyişməzlikdən məhrum edir. Biliyin inkişaf etdirilməsi onun dinamikası baxımından, sözsüz ki, heç də pis deyil, belə ki saxtalaşdırılma təhlükəsi elmi daim normal "tonusda" saxlamağa, onun ölgünləşməsinin qarşısını almağa imkan yaradır. Elmi tənqidi münasibət -onun inkişafının və imicinin immanent cəhətidir (2, s. 26-27)/

## ƏDƏBİYYAT

1.Ə.Məmmədov, V.İsmayılov, F.Məmmədov. "Rasionallıq və qeyri-rasionallıq". "Elm"nəşriyyatı, Bakı 2010,880 səh

2.Qəhrəmanov Nadir Fərrux oğlu, Məmmədov Əziz Bəşir oğlu, İsmayılov Vilayət oğlu. "Təbii-elmi biliyin fəlsəfi əsasları"."Elm"nəşriyyatı, Bakı 2014, 584 səh

3.Məmmədov Əziz Bəşir oğlu . " Elmi idrak və onun inkişaf dialektikası". "Səda" nəşriyyatı,Bakı 1998, 109 səh

4. Məmmədov Ə.B Dialektik idrak və ümumelmi tədqiqat metodları. Bakı, Azərnəşr 1997, 287 s.

5. Məmmədov Ə.B, A.X.Mustafayev . Təbii-elmi idrak və insan dünyası. Bakı, Təknur nəşriyyatı 2011, 463 s.

6.Hacıyev Zeynəddin Camal oğlu . "Fəlsəfə" Ali məktəblər üçün dərslik . "Turan evi" nəşriyyatı, Bakı 2012, 488 səh

7.İmanov Həmid Rza oğlu. "Fəlsəfənin əsasları". "Turan evi" nəşriyyatı, Bakı 2007, 438 səh

## VERİFİKASİYA VƏ FALSİFİKASİYA PRİNSİPLƏRİ

### XÜLASƏ

Beveric və Bismark modellərini təhlil edib nəzərdən keçirərkən bir şeyi də qeyd etmək lazımdır ki, bu modellərdən heç biri hər hansısa bir ölkədə tək halda tətbiq edilmir. Yəni, bu modellər hər ikisi eyni bir vaxtda tətbiq edilir ki, buna da qarışıq model deyilir. Bu modellərin hər ikisi dünya ölkələri tərəfindən mənimsənilib. Lakin müxtəlif ölkələrin sosial siyasət sistemində modellərin tətbiq olunması bir-birindən fərqlənir. Yəni, bu modellərdən hər hansısa biri digərindən daha çox sosial müdafiə sistemində yer alır. Bəzi ölkələrdə isə hər iki model tam bərabər şəkildə tətbiq edilərək, ölkənin sosial siyasət sistemində eyni şəkildə yer tutmuş olur.

E. Oleynikova XX-XXI əsrin tarixi dövrü üçün dövlət sosial siyasətinin üç əsas modelinin mövcudluğu haqqında danışmağın vacib olduğunu qeyd edir. E. Oleynikova tərəfindən nəzərdən keçirilməsi vacib hesab olunan modellər bunlardır: Monetarist, paternalist və ümumbəşəri modellər [3].

Monetarist siyasətin əsas çatışmazlığı sosial-iqtisadi proseslərə dövlətin minimal müdaxiləsidir.Bu, fərdlərə müvəffəqiyyəti və ya uğursuzluğu müəyyən edərək, müstəqil qərar qəbul etməyə imkan verir. Monetarist model qiymət və əmək haqqı üzərində dövlət nəzarətini nəzərdə tutmur, inflyasiyanı və işsizliyi azaltmaq üçün planlaşdırılmış siyasəti təmin etmir. Monetarist modeldə dövlətin əsas vəzifəsi rəqabətin hüquqi tənzimlənməsini, hər bir şəxs üçün bərabər imkanların təmin edilməsini və şəxsi mülkiyyətin toxunulmazlığını təmin etməkdir. Ancaq bərabər imkanların təmin edilməsiheç də ictimai malların alınmasında bərabərlik demək deyil. Bir insanın rifahı onun istedad və qabiliyyət səviyyəsindən, səylərin intensivliyindən və bəzən də digər gözlənilməz bazar şəraitlərindən asılıdır. Başqa sözlə, hər kəs özünün qazana biləcəyi həyat səviyyəsinə sahib olmaq hüququna malikdir. Sosial siyasətin monetarist modeli, XX əsrin ikinci yarısına qədər liberal bazar iqtisadiyyatı olan ölkələrin əksəriyyəti üçün səciyyəvidir. Nəticədə o, öz çatışmazlıqlarını yüksək gəlir bərabərsizliyi və yoxsulluq problemləri şəklində nümayiş etdirdi.

Monetarist modelin əksi olaraq, paternalist modelin isə əsas xüsusiyyəti dövlət tərəfindən sosial-iqtisadi proseslərə ümumi nəzarətin olması idi. Bu model SSRİ-də və bir sıra digər sosialist ölkələrində geniş inkişaf etmiş və iqtisadiyyatın planlı təbiəti, dövlət mülkiyyətinin üstünlüyü və kommunist ideologiyası əsasında formalaşmışdır. Sosial siyasət bütün əmək qabiliyyətli əhali üçün işləmək və məcburi əmək hüququnu, hamı üçün pulsuz, vahid təhsil və əsas sosial xidmətlərin əldə edilməsini təmin təmin edirdi. Bunları paternalist modelin müsbət cəhətləri hesab edirdilər. Paternalist modelin bir sıra açıq üstünlüklərinə baxmayaraq, açıq-aşkar çatışmazlıqları da mövcud idi. Bunlara iqtisadi və siyasi azadlığın olmaması, sosial maraqları müəyyənləşdirmək və reallaşdırmaq üçün bir insana özünü tam reallaşdırma imkanının verilməməsi və əmək motivasiyasını stimullaşdırmayan əmək haqqı sisteminin olması aid edilir.

## ƏDƏBİYYAT

1. Z.Özmen, “Avrupa’da Sosyal Güvenlik Sisteminin Finansmanı: Farklı Refah Devletleri Üzerine Bir İnceleme”., Karabük Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 2017.
2. Модели социальной политики https://www.google.com/amp/s/spravochnick.ru/amp/socialnaya_rabota/suschnost_i_principy_socialnoy_politiki/modeli_socialnoy_politiki/
3. Олейникова Е.Г. Модели социальной политики государства: проблемы теории и практики // Общество: политика, экономика, право. 2016. № (3)
4. Холостова,Е.И, Климантова, Г.И, “СОЦИАЛЬНАЯПОЛИТИКА” Москва - Юрайт – 2013

## SOSİAL SİYASƏT MODELLƏRİ VƏ ONLARIN ƏSAS XÜSUSİYYƏTLƏRİ

## XÜLASƏ

Məqalədə sosial siyasətin müxtəlif modellərindən bəhs olunur, onların özünəməxsus xüsusiyyətləri göstərilir. Eyni zamanda, müxtəlif sosial siyasət modellərinin fərqli və oxşar cəhətləri haqqında məlumatlar verilmişdir.

## МОДЕЛИ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ И ИХ ОСНОВНЫЕ ОСОБЕННОСТИ

## АННОТАЦИЯ

В статье рассматриваются различные модели социальной политики и показаны их характеристики. В то же время предоставляется информация о различиях и сходствах различных моделей социальной политики.

## SOCIAL POLICY MODELS AND THEIR MAIN FEATURES

## SUMMARY

The article discusses various social policy models and shows their characteristics. At the same time, information is given about the differences and similarities of different social policy models.

# İCTİMAİ TƏŞKİLATLAR SOSİAL İDARƏETMƏNİN MÜHÜM KOMPONENTİ KİMİ

***Ramil İsmayılov***
***BDU-nun II kurs magistrı***
*ismayilovramin495@gmail.com*

***Açar sözlər:*** sosial idarəetmə, təşkilat, ictimai təşkilat, ictimai faydalılıq, sosial rifah, vətəndaş cəmiyyəti, sosial problem
***Ключевые слова:*** социальное управление, организация, общественная организация, общественная полезность, социальноеобеспечение, гражданское общество, социальная проблема
***Keywords*:** social management, organization, public organization, public utility, social welfare, civil society, social problem

İdarəetmə, eləcə də sosial idarəetmə son dövrlərdə formalaşmış terminlər olsalar da, mahiyyət etibarilə olduqca qədim anlayışdır. Belə ki, hər bir cəmiyyət yarandığı ilk gündən bəri idarəetməyə ehtiyyac duyur. Çünki heç bir cəmiyyəti idarəetmədən kənarda təsəvvür etmək olmaz. Bu baxımdan tarix boyu müxtəlif cəmiyyətlərdə idarəetmənin müxtəlif formaları mövcud olmuşdur. Sözügedən formalar cəmiyyətdə müxtəlif tarixi dövrlər ərzində mövcud olan başlıca xüsusiyyətlərə uyğunlaşmışdır. Məsələn, bildiyimiz kimi ibtidai icma dövründə insan birlikləri müasir cəmiyyətlərlə müqayisədə olduqca sadə idi. Bununla belə ibtidai insan birliklərinin mövcudluğu məhz müəyyən idarəetmə tipinin mövcudluğuna arxalanırdı. Son dövrlərə qədər idarəetmə dedikdə, yalnız dövlət idarəetməsi başa düşülürdü. Lakin müasir dövrdə idarəetmə olduqca geniş anlayış olmaqla, bir sıra tərkib hissələrinə malikdir.İdarəetmənin mühim tərkib hissəsini sosial sistemlərin idarə olunması, başqa sözlə, sosial idarəetmə təşkil edir. Bəs sosial idarəetmə nədir? Sosioloji ədəbiyyatda sosial idarəetmə anlayışı həm məhdud, həm də geniş mənada istifadə olunur. Sözün geniş mənasında sosial idarəetmə dedikdə, birliklərin, hadisə və proseslərin idarə olunmasını nəzərdə tuturuq. Sözün dar mənasında isə bu termin idarəetmə subyektinin müəyyən fəaliyyət prinsiplərinə əsaslanmaqla idarəetmə obyektinin qarşısında məqsəd və vəzifələrin qoyulmasına, həmin obyektə təsirin rəngarəng vasitə, üsul və metodlarından istifadə etməklə onların həllini təşkil etməyə istiqamətləndirmək deməkdir (1). Sosial idarəetmə mühim anlayış olmaqla bir sıra xüsusiyyətlərə malikdir:

1) Sosial idarəetmənin mövcudluğunun başlıca xüsusiyyəti fərdlərin bigə fəaliyyətinin müxtəlif formalarının mövcud olmasıdır.

2) Sosial idarəetmə prosesi idarəetməninhəm subyekt vəobyektini, həm də ictimai münasibətlərin spesifik forması olan idarəetmə münasibətlərini öz tərkibinə daxil edir.

3) Ümumi anlamda sosial idarəetmə insan fəaliyyətinin xüsusi forması kimi qeyd olunmaqla, onun ətraf mühitlə münasibətinin spesifik forması hesab olunur. Bu baxımdan sosial idarəetmə həmin fəaliyyətin məqsəd və vəzifələrini də ehtiva edir.

Sosial idarəetmədə rol oynayan mühim amillərdən biri də sosial təşkilatlardır. Bəs sosial təşkilat nədir? Ümumi mənada təşkilat hər hansı bir şəxsin rəhbərliyi ilə müəyyən bir vəzifəni həyata keçirən insanların məqsədli birliyidir. Təşkilatın mövculuğunu səciyyələndirən bir sıra başlıca xüsusiyyətlər mövcuddur. Bunlardan ən əsası ümumi məqsədin mövcud olmasıdır. Belə ki, heç bir təşkilat ümumi məqsədsiz mövcud ola bilməz. Başqa sözlə, ümumi məqsəd fərdlərin fəaliyyətini əlaqələndirməklə onlar arasında qarşılıqlı əlaqəni təmin edir.

Digər mühim amil isə təşkilatda rəhbərliyin mövcudluğudur. Başqa bir sözlə, hər bir təşkilat müəyyən bir liderin nəzarəti altında daha səmərəli fəaliyyət göstərir. Təşkilatda hansı liderlik

tipinin mövcud olması isə təşkilatın öz daxili xüsusiyyətlərindən aslıdır. Təcrübələr göstərir ki, müxtəlif təşkilatlarda eyni rəhbərlik tipinin tətbiqi arzuolunan nəcticələrə gətirib çıxarmır.

Təşkilatların müxtəlif növləri mövcuddur. Bunlardan biri də ictimai təşkilatlardır. Bəzən təşkilatların bu növünü "ictimai faydalı təşkilatlar" da adlandırırlar. İctimai təşkilatlar ölkənin ictimai siyasətinin yaxşılaşdırılması və sözügedən siyasətin mövcud ehtiyyaclarla uyğunluq təşkil etməsi, işsizlik, yoxsulluq və s. sosial problemlərin aradan qaldırılması, ictimai iştirakçılığın təmin olunması, insanların hüquq və azadlıqlarının təminatı və s. məsələlərlə məşğul olur (2).

İctimai təşkilatlar dövlətin sosial siyasətinin həyata keçirilməsində əvəzsiz rol oynayırlar. Hər bir ictimai təşkilat öz fəaliyyət istiqamətinə daxil olan məsələlərin həllini həyata keçirərək əhalinin rifahının yüksəldilməsinə töhvə verir. Müasir dövrdə Azərbaycan Respublikasında fəaliyyət göstərən çoxsaylı ictima təşkilatın adını çəkə bilərik: "Gənc Alim və Mütəxəssislər Şurası", "Qadınlar şurası", "Birləşmiş Veteranlar Şurası", "Azad Həmkarlar İttifaqı", "Müharibə Veteranı Qadınlarına Sosial yardım İctimai Birliyi", "Gözdən Əlillər Cəmiyyəti", "Xocalı Soyqırımını Tanıtma" ictimai birliyi, "Mərhəmət" Kimsəsizlərə Yardım İctimai Birliyi, "Azərbaycan Respublikası Uşaq və Tələbə Gənclər Dünyası İctimai Birliyi" və s.

İctimai fəaliyyəti həyata keçirən mühim təşkilatlardan biri də "Gənc Alim və Mütəxəssislər Şurası"-dır. 27 dekabr 2013-cü ildə yaradılan təşkilat bir sıra zəruri fəaliyyət istiqamətlərinə malikdir. Bu fəaliyyət istiqamətlərinə ölkənin ayrı-ayrı regionlarında elmin, təhsilin təbliğ edilməsi, bacarıqlı gənclərimizin elmi fəaliyyətə cəlb olunması, elmin ayrı-ayrı sahələrinə həsr olunmuş seminarların həyata keçirilməsi və s. aid edilə bilər (3). Təşkilatın fəaliyyətinin müsbət nəticələri kimi ölkənin ayrı-ayrı bölgələrində elmin, təhsilin insanın fərdi inkişafıda əvəzsiz rolu barəsində keçirilən seminarları, xüsusi istedada malik gənclərin aşkar edilərək təhsil prosesində yaxından iştirakını təmin etmək məqsədilə müvafiq şəraitin yaradılmasını və s. göstərə bilərik.

Mühim ictimai təşkilatlar arasında qeyd edə biləcəyimiz digər bir mühim təşkilat "Qadınlar şurasıdır". Şura 2 may 2018-ci il tarixində yaradılmışdır. Şuranı yaratmaqda məqsəd gender bərabərliyinin təmini ilə bağlı dövlət siyasətinin əsas istiqamətlərinə, qanunlar və beynəlxalq öhdəliklərə uyğun maarifləndirmə yolu ilə kişi və qadınların siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrdə bərabər imkanlarının təmin edilməsi, tətbiqi,qadın alimlərinin elmi,ictimai-siyasi,iqtisadi və mədəni fəaliyyətdə rolunun artırılması, onların elmdə maraqlarının,ləyaqət və hüquqlarının, ictimai işlərdə fəal iştirakının dəstəklənməsidir (3). Bildiyimiz kimi, qadın hüquqlarının müdafiəsi müasir cəmiyyətimizin mühim məsələlərindən biridir. Cəmiyyətdə qadınlarla kişilərin ölkənin iqtisadi və siyasi həyatında bərabər qaydada iştirakının təmin edilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir. Qadın alimlərin elmi tədqiqata cəlb olunması hər bir cəmiyyətdə özünün müsbət nəticələri ilə daim diqqəti cəlb etmişdir.

Əlillərin sosial müdafiəsi hər bir demokratik cəmiyyət üçün daim prioritet sahə olmuşdur. Bu baxımdan, müasir dövrdə bir sıra ictimai təşkilatlar bu sahəni öz əsas fəaliyyət istiqamətləri kimi müəyyən etmişlər. Sözügedən təşkilatlardan biri də "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyidir. Bildiyimiz kimi, bu ictimai birlik 2008-ci ildən bəri fəaliyyət göstərməkdədir. Birliyin fəaliyyətinin başlıca məqsədi hər bir kateqoriyadan olan əlillərin sosial müdafiəsini həyata keçirmək üçün yerli, beynəlxalq və xarici təşkilatların fəaliyyətini əlaqələndirməkdir. İctimai birliyin fəaliyyət istiqamətlərinə, eyni zamanda əlilliyi olan vətəndaşlarla bağlı dövlət qərarlarının icrasına ictimai nəzaəti həyata keçirmək, habelə, həbsdə olan əlil şəxslərin və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi də daxildir. Eləcə də əlilliyi olan insanlara psixoloji yardım, hüquqi və sosial xidmətlər göstərir, əlillərin təhsil, müalicə, maddi yardım almasına kömək edir və onların sosial-iqtisadi problemlərini ictimailəşdirir (4).

"Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyi ölkə miqyasında bir sıra uğurlu layihələr həyata keçirmişdir. Bu layihələrdən biri də "Əlil uşaqların məktəbəqədər müəssisələrdə, xüsusi məktəb və siniflərdə, evdə fərdi təhsilə cəlbi vəziyyətinin monitorinqi" adlı layihədir. Həmin layihə çərçivəsində müxtəlif tip əlillikdən əziyyət çəkən məktəb yaşlı uşaqların təhsili məsələsi və

bu istiqamətdə qarşıya çıxan başlıca problemlər üzə çıxarılaraq həll olundu və cəmiyyətin hər bir üzvü kimi əlilliyi olan şəxslərin də təhsili məsələsinin dövlətin başlıca siyasət istiqamətlərindən biri olması bir daha vurğulandı. Qeyd edək ki, adı çəkilən layihə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilmişdir.

İctimai Birliyin həyata keçirdiyi əhəmiyyətli layihələrdən biri də "Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Cəzaçəkmə Müəssisələrində cəzaçəkən əlil məhbuslar və onların himayəsindəki xüsusi qayğıya ehtiyacı olan ailə üzvlərinin sosial problemlərinin həllinə ictimai dəstək" adlanan layihədir. 2012-ci ildə həyata keçirilmiş layihə çərçivəsində əlil məhbusların ailə üzvlərinin üzləşdiyi sosial problemlər aşkar olunaraq maksimum dərəcədə həllinə nail olundu (4).

Azərbaycan Respublikası Uşaq və Tələbə Gənclər Dünyası İctimai Birliyi ölkəmizdə fəaliyyət göstərən digər bir ictimai təşkilatdır. İctimai birlik ölkədə həyata keçirdiyi çoxsaylı sosial layihələrlə yadda qalmışdır. Bu layihələrdən biri də "Azərbaycan gəncliyi daha yaxşı gələcək uğrunda fəaliyyətdə" layihəsidir. Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən layihədə əsas diqqət uşaq və gənclərin maarifləndirilməsi, bu formada cəmiyyətimizin düzgün inkişafına nail olmaq üzərində cəmləşdirilmişdir. Layihə çərçivəsində uşaqlara və gənclərə cəmiyyətin mühim məsələlərindən olan gender bərabərliyi, QİÇS-lə mübarizə, erkən nikahların qarşısının alınması, sağlam həyat tərzinə sahib olmağın yolları və s. barədə məlumatlar verilmişdir (5).

Bu ictimai birliyin həyata keçirdiyi mühim layihələrdən bir digəri isə "Aprel şəhidlərinə və Milli qəhrəmanlarımıza həsr olunan saytın hazırlanması" layihəsidir. Layihədə başlıca məqsəd torpaqlarımızın erməni işğalçılarından azad edilməsi yolunda qəhrəmancasına canından keçmiş vətənpərvər oğullarımızı gənclərimizə və bütün dünyaya tanıtmaqdır. Sözügedən saytda erməni işğalçıları tərəfindən törədilən qırğın və soyqrımlar barədə çoxlu sayda məqalələr müxtəlif dillərə tərcümə olunaraq paylaşılmışdır. Layihə tarixi həqiqətlərin dünya ictimaiyyətinə düzgün çatdırılmasında əvəzsiz rola malik olmuşdur.

Günümüzdə ictimai təşkilatların rolu və əhəmiyyəti durmadan artır. Müasir dövr insanı özünün praqmatikliyi ilə əvvəlki dövrlərdən kəskin surətdə fərqlənir. Məhz bu səbəbdən müasir dövr insanının diqqətini qeyri-real baxışlarla, ideyalarla müəyyən bir istiqamətdə uzunmüddətli şəkildə cəmləşdirmək tamamilə mümkünsüzdür. Digər bir sözlə desək, müasir dövrdə insanlar vədlərdən daha çox real iş və konkret nəticəyə meyilli olurlar.

Günümüzdə Azərbaycan dövlətinin siyasi, iqtisadi gücü durmadan artır. Bu inkişafın fonunda isə vətəndaş cəmiyyəti formalaşmışdır. Bu məsələdə isə əsas rol qeyr-hökümət təşkilatlarına, mütəlif ictimai birliklərə məxsusdur.Dövlətin həyata keçirdiyi ardıcıl tədbirlərə kömək kimi cəmiyyətdə bir sıra milli ideyaların irəli sürülməsi və bu ideyalara ictimai dəstəyin təmin olunması da insanlar arasında böyük nüfuz qazanmış ictimai təşkilatların fəaliyyəti zəminində ortaya çıxır. Ümumxalq dəstəyi əsasında fəaliyyət göstərən bu cür təşkilatlar konkret vəzifələrin yerinə yetirilməsində dövlətin ən böyük yardımçısı kimi çıxış edir. Yeniləşən Dövlətə Dəstək İctimai Birliyi də eyniylə bu səbəbdən yaradılmışdır (6).

## ƏDƏBİYYAT

1. http://sonuncuesr.com/sosiologiyaderslerisosialidaretme/
2. http://ogp.org.az/az/index.php/2017/10/11/ictimai-faydali-teskilatlar-barede-qisa-icmal/
3. http://www.science.gov.az/pages/obschestvennyie-organizatsii-pri-nana
4. http://www.bec.az/az/view/pages/5/
5. https://youthfoundation.az/32067/?lang=en
6.http://www.respublica-news.az/index.php/muesahib-l-r/item/25836-dzaemiyyaetdae-idztimai-taeshkilatlar-n-rolu-art-r

## İCTİMAİ TƏŞKİLATLAR SOSİAL İDARƏETMƏNİN MÜHİM KOMPONENTİ KİMİ


### XÜLASƏ

Hər bir ictimai təşkilatın ələ aldığı məsələlər bir-birindən kəskin sürətdə fərqlənsə də onların hər biri üçün ortaq olan bir cəhət vardır- əhalinin sosial rifahının yüksəldilməsi, cəmiyyət üçün ictimai fadalı işlərin həyata keçirilməsi. Cəmiyyət durmadan inkişaf edir. Bu inkişaf həm daxili, həm də xarici dəyişikliklər hesabına baş verir. Sözügedən dəyişikliklər cəmiyyətdə mövcud sosial idarəetmənin də məzmun baxımından köklü surətdə dəyişilməsinə gətirib çıxarır. Dəyişilən və daim yenilənən cəmiyyətdə sosial ehtiyyaclar və problemlər də durmadan dəyişilir. Bütün bu dəyişilən ehtiyyaclar son nəticə olaraq ictimai təşkilatların strukturunda da dəyişikliklərə gətirib çıxarır. Artıq ictimai təşkilatlar daha mürəkkəb struktura və daha geniş fəaliyyət sahəsinə malik olmaqla sosial idarəetmənin həyata keçirilməsində daha böyük paya malik olurlar.


## ОБЩЕСТВЕННЫЕ ОРГАНИЗАЦИИ КАК ВАЖНЫЙ СОСТАВ СОЦИАЛЬНОГО УПРАВЛЕНИЯ


### АННОТАЦИЯ

Хотя проблемы, решаемые каждой общественной организацией, резко отличаются друг от друга, у каждой из них есть одна общая черта - улучшение социального благосостояния населения, осуществление социально полезной работы для общества. Общество постоянно развивается. Это развитие обусловлено как внутренними, так и внешними изменениями. Эти изменения приводят к радикальному изменению содержания существующего социального управления в обществе. В меняющемся и постоянно развивающемся обществе социальные потребности и проблемы постоянно меняются. Все эти изменяющиеся потребности в конечном итоге приводят к изменениям в структуре общественных организаций. Общественные организации уже имеют большую долю в осуществлении социального управления, с более сложной структурой и более широким спектром деятельности.


## PUBLIC ORGANIZATIONS AS AN IMPORTANT COMPONENT OF SOCIAL GOVERNANCE


### SUMMARY

Although the issues addressed by each public organization differ sharply from each other, each of them has one thing in common - improving the social welfare of the population, the implementation of socially beneficial work for society. Society is constantly evolving. This development is due to both internal and external changes. These changes lead to a radical change in the content of the existing social governance in society. In a changing and constantly evolving society, social needs and problems are constantly changing. All these changing needs ultimately lead to changes in the structure of public organizations. Public organizations already have a larger share in the implementation of social governance, with a more complex structure and a wider range of activities.

# SİYASİ HAKİMİYYƏTİN MAHİYYƏTİ, XÜSUSİYYƏTLƏRİ VƏ NÖVLƏRİ

***Türkanə İsmayılova***
***BDU-nun II kurs magistrantı***
***turkanismyl@hotmail.com***

***Açar sözlər:*** siyasi hakimiyyət, legitimlik, M.Veber.
***Key words:*** political power, legitimacy, M.Weber.
***Ключевые слова:*** политическая власть, законность, М.Вебер.

Hakimiyyət cəmiyyətin siyasi sferasının əvvəlcədən təyin edilməsinə və mahiyyətinin dərk edilməsinə imkan yaradan mərkəzi kateqoriyalardan biridir. Mürəkkəb və qeyri-müəyyən olması, ölçüsünün və fəaliyyət dairəsinin müxtəlifliyi siyasi elmdə onun haqqında daim mübahisələrin şərtlənməsinə səbəb olmuşdur.

Hakimiyyət sosial bir hadisə kimi insan cəmiyyətinin meydana gəlməsi ilə eyni zamanda yaranıb. Onu hələ ibtidai icma quruluşu dövründə cəmiyyətə xas olan ümumi işləri görmək tələbatı zəruri etmişdir. Hakimiyyətin meydana gəlməsinə qəbilə və tayfalarda insanlar arasındakı əlaqələrin, münasibətlərin nizamlanması, müxtəlif növ vacib funksiyaların icrası səbəb olmuşdur. Lakin ibtidai icma cəmiyyətində mövcud olan hakimiyyətin əsas xarakterik xüsusiyyəti hakimiyyətin tələblərini yerinə yetirməyi təmin edən məcburetmə aparatının mövcud olmaması idi. Bu da özünü yalnız siyasi təşkilat kimi formalaşmış dövlətdə biruzə verdi.

Hər bir cəmiyyətin sistemli formada idarəolunmağa ehtiyacı vardır. Hakimiyyət anlayışına hüquq ədəbiyyatında yalnız insanların birgə fəaliyyəti kimi baxılmır, eyni zamanda cəmiyyətdə mövcud olan sosial qurumların fəaliyyətini və onlar arasındakı münasibətləri formalaşdıran mütəşəkkil qüvvə kimi xarakterizə olunur.

“Hakimiyyət anlayışı” siyasətin və cəmiyyətin əsas kateqoriyalarından biridir. O, insan qruplarının olduğu hər yerdə mövcuddur. Hakimiyyətin effektiv istifadə olunması onun sosial tərkibi ilə müəyyənləşir. Sosial tərkib dedikdə idarəolunanların maraqlarına uyğun və ya zidd hərəkətlər başa düşülür. Hakimiyyətin başlıca daşıyıcısı olan insanla əlaqələrin bir neçə növünü qeyd etmək olar. İnsan və hakimiyyət arasındakı əlaqələr çərçivəsində onlar arasındakı münasibətlərin iki növünü bir-birindən fərqləndirilir. Birinci halda hakimiyyətə sosial, dini, mənəvi sahələrdə qayda-qanunu təmin etmək üçün istifadə olunan vasitə kimi yanaşmaq olar. Bu tip əlaqələr birinci növbədə rəhbərin öz ardıcıllarının maraqlarını təmin etməkdə istifadə olunan bacarıq və qabiliyyətində, liderlik xüsusiyyətində əks olunur. İnsan və hakimiyyət arasındakı münasibətlərin ikinci variantı hakimiyyətə münasibəti bir məqsəd kimi nəzərdə tutur. Bu halda insan və hakimiyyət mexanizmləri tam qovuşur. Bununla da şəxsi həyatını hakimiyyətin tələblərinə tam tabe edən “avtoritar şəxsiyyət” formalaşır (1).

Ən ümumi formada hakimiyyət insanların davranışını və fəaliyyətini ayrı-ayrı sosial qrupların, bütövlükdə cəmiyyətin iradəsinə tabe etdirmək vasitəsi kimi xarakterizə olunur.

Hakimiyyət siyasi qurumları, siyasətin özünü və dövləti başa düşmək üçün bir açar rolunu oynayır. Hakimiyyət və siyasətin ayrılmazlığı keçmişin və bugünün bütün siyasi nəzəriyyələrində qəbul edilir. Siyasət bir fenomen olaraq hökümətlə birbaşa və dolayı münasibətlərlə, eyni zamanda hakimiyyəti həyata keçirmək fəaliyyətləri ilə xarakterizə olunur. Müxtəlif şəxslər və sosial icmalar bir çox qarşılıqlı münasibətdə olurlar; iqtisadi, sosial, mənəvi, siyasi. Digər tərəfdən, siyasət əsasən hakimiyyət və idarəetmə problemlərinə aid olan sosial qruplar, təbəqələr və şəxsiyyətlər arasındakı münasibətlər sahəsidir. Sözün ən geniş mənasında hakimiyyət bir iradəni həyata keçirmək məqsədilə insanların fəaliyyətinə, davranışına hər hansı

bir vasitə ilə - qanun, güc, zorakılıq və.s təsir göstərmək qabiliyyətidir. Bu yanaşma eyni zamanda bir-birinə bağlı olan sinif, qrup və şəxsi güc arasında fərq tələb edir.

Siyasi elmdə hakimiyyətin mənbəyi anlayışından istifadə olunur. Siyasi münasibətlərin quruluşu müxtəlif olduğundan hakimiyyətin mənbələri və ya əsasları müxtəlifdir. Hakimiyyət mənbələri dedikdə, əsasən, məqsədlərə çatmaq üçün hakimiyyət obyektlərinə təsir göstərməkdə istifadə olunan vasitələr başa düşülür. Hakimiyyət mənbələri potensial gücün təməlidir. Yəni istifadə edilə bilən, lakin hələ istifadə edilməmiş gücdür. Hakimiyyətin müəyyən mənbələri vardır: sərvət, mövqe, məlumat, bilik, xüsusi bacarıq və qabiliyyətlər, nüfuz və.s ola bilər. Başqa sözlə bunlar siyasi hakimiyyətin iqtisadi, sosial, psixoloji əsaslarıdır. Hakimiyyət üzvləri öz məqsədlərinə müxtəlif vasitələrlə, o cümlədən ideoloji təsir, inandırma, iqtisadi stimullaşdırma və digər dolayı metodlarla çata bilər. O, ancaq cəmiyyətin bütün üzvlərinə münasibətdə xüsusi bir aparatın köməyi ilə məcburi inhisara malikdir (1).

Siyasi hakimiyyət anlayışı “qanunilik” anlayışı ilə sıx bağlıdır. Buradan da hakimiyyətin legitimliyi anlayışı meydana gəlir. Legitimlik terminini elmə ilk dəfə M.Veber gətirib. “Legitimlik” termini latınca “legitimus” sözündən yaranıb qanunlarla uzlaşan, düzgün, lazımi mənasını verir. O, hakimiyyətin reallaşmasının geniş əhali kütlələri tərəfindən sanksiyalaşdırılması deməkdir. Cəmiyyətin normal inkişaf etdiyi şəraitdə legitimləşdirmə hakimiyyətin sabitliyinin təmin edilməsinə kömək edir. Ümumiyyətlə, hakimiyyət o zaman legitim olur ki, o, əvvəlcə xalqdan gəlir və əksəriyyətin iradəsinə uyğun həyata keçirilir. Yəni, dövlət hakimiyyəti birbaşa olaraq, yaxud da dolayısı ilə müəyyən müddətdə xalq tərəfindən seçilr.

Legitim hakimiyyət konstitusiya prinsiplərinə uyğun olaraq həyata keçirilir. Bunu da nəzərə almaq lazımdır ki, siyasi hakimiyyətin legitimliyi təkcə onun qanuni olaraq formalaşmış qanunauyğunluğu deyil. Qanunauyğunluq hüquqi funksiyalara malik deyil və hüquqi bir proses deyil. Qanuni bir səlahiyyət müəyyən bir dövlətin qanununun vətəndaşlar tərəfindən etibar edilən, tanınan bir orqanıdır. Beləliklə, legitimlik müəyyən bir siyasi hakimiyyətin legitim olduğuna inam üzərində qurulur. Ancaq vətəndaşların inamı müxtəlif amillərlə bağlı ola bilər. Buna görə də, siyasi elmdə hakimiyyətin legitimliyinin müxtəlif növlərinə rast gəlinə bilər. Fərqli hakimiyyət tiplərinin vətəndaşlar tərəfindən qəbul olunması və onun müdafiə edilməsi müxtəlif amillərlə bağlıdır. Bunlar; cəmiyyətin inkişafının tarixi şəraiti, ölkədəki siyasi mühit, konkret tarixi situasiya və digər amillər ola bilər.

Legitimliyin bu meyarlarının müəyyənləşməsi iki baxımdan müəyyən olunur; liberal və praqmatik. Liberal faza ondan ibarətdir ki, yalnız demokratik qaydalar əsasında formalaşan hakimiyyət tipini dəstəkləmək lazımdır. Bunun əksinə olaraq praqmatik nöqteyi-nəzərdən hakimiyyətin legitimliyini onun formalaşma qaydalarında yox, cəmiyyətdəki situasiyanı idarə etmək, sabitliyi qoruyub saxlamaq, effektli fəaliyyət göstərmək qabiliyyətində görülür (2).

Hakimiyyətin legitimliyinin üç səviyyəsi ayırd edilir; ideoloji, struktur və personallaşdırma (şəxsləndirmə).

İdeoloji səviyyə dedikdə, hakimiyyətin cəmiyyətdə mövcud ədalət normalarına uyğun olması, hakimiyyətin obyektinin (vətəndaşların), onun subyekti (daşıyıcıları) ilə eyniləşməsi və vətəndaşların idarə edənlərin peşəkarlığına inam dərəcəsi ilə müəyyənləşir.

Siyasi ədəbiyyatda hakimiyyətin müxtəlif tipologiyaları mövcuddur.

M.Veber ideal tiplər nəzəriyyəsində hakimiyyətin üç növünü ayırır; ənənəvi, harizmalı, rasional-leqal hakimiyyət. Veber qeyd edirdi ki, xalis halda ənənəvi hakimiyyət patriarxal hakimiyyətdir. Patriarxal hakimiyyət qəbilə qrupları arasında mövcud idi və o, ənənələrlə sıx bağlı idi. Ümumiyyətlə, ənənəvi hakimiyyətin başlıca xüsusiyyəti bundadır ki, siyasi hakimiyyətin mütləq hədləri ənənələrlə müəyyən olunur, bu da özbaşnalığı məhdudlaşdırır. Veber ənənəvi hakimiyyətdə patrimoniallığı və ya sultanlığı xüsusilə vurğulayır. Onun fikrincə, patrimoniallıq bütün inzibati vəzifələr saray vəzifələrinin davamı kimi meydana çıxır. Bu

idarəetmə forması yeni ərazilər işğal edildikdən sonra iqtisadi və siyasi problemlərin həlli üçün lazimi səviyyədə səmərəli olmur. Veber bunun səbəbini yeni tutulmuş ərazilərdəki əhalinin hökmdarın şəxsi deyil, siyasi təbəəsi olmasında görürdü. Belə ki, siyasi təbəələr şəxsi təbəələrdən fərqli olaraq müəyyən vəzifələrə malik olurlar. Ancaq onların vəzifələri özlərinin regiyonundakı ənənələrlə məhdudlaşır. Bundan fərqli olaraq şəxsi təbəələrin hüquqları isə hökmdardan asılı olaraq müəyyənləşir. Veberə görə, ənənələrin və şəxsi iradənin münaqişəsi sonda patrimonial hakimiyyətin tədricən dağılmasına gətirib çıxarar.

Harizmalı hakimiyyətin əsasında bu və ya digər bir şəxsiyyətə xas olan qeyri-adi keyfiyyətlər durur. Veber qeyd edirdi ki, harizmalı hakimiyyətin ən xalis tipi peyğəmbər, hərbi qəhrəmanlar, böyük demaqoqlar tərəfindən həyata keçirilir. Harizmalı hakimiyyət sosial-siyasi böhran şəraitində yaranır. Bunun əksinə olaraq ənənəvi-leqal hakimiyyət nisbətən sabit sosial-siyasi şərait üçün xarakterikdir. Harizmalı hakimiyyətin reallaşmasında ən başlıca problemlərdən biri idarəetmənin nəsildən-nəslə ötürülməsidir. Veber yazır ki, harizmalı hakimiyyət Qərb ölkələrində ilkin kapital yığımı zamanı demokratik proseslərin formalaşdığı dövrdə mövcud olub. İlk əvvəllər harizma qəbilə dövrünə aid edilirdi, çünki belə hesab edilirdi ki, harizma ancaq qan vasitəsilə ötürülür. Zaman keçdikcə bilik əhəmiyyət kəsb edir və magik prosedurlar qan əlaqələrindən daha çox ön plana çıxır (3).

Veber belə hesab edir ki, rasional-leqal hakimiyyət Qərbi Avropa və Şimali Amerika ölkələrinə xasdır. O qeyd edir ki, rasional-leqal hakimiyyət hüquq qaydalarının ədalətli olmasına inam əsasında reallaşır.

Rasional-leqal hakimiyyət aşağıdakı formalarda öz əksini tapır:

1.Hakimiyyətin bu formasında normalar hüquq kimi qəbul olunur və bütün vətəndaşlar həmin normalara tabe olur,

2.Hüquq mücərrəd qanunlar toplusu olub, konkret şəraitdə həyata keçirilir,

3.Hakimiyyətdə olan insanlar müstəqil hakimlər deyillər, onlar müəyyən edilmiş dövrdə hüquqla təyin edilmiş vəzifələri həyata keçirirlər,

4.İdarə olunanlar hakimiyyətə tabe olan təbəələr deyil, hüquqa təbe olan azad vətəndaşlardır.

M.Veberin tipologiyasında mövcud olan hakimiyyət növləri müəyyən dərəcədə siyasi gerçəklikdə təmiz formada olmayan abstraksiyalardır. Xüsusi siyasi sistemlərdə bu üç növ bir-birinə qarışır, bu da qanuniliyi ya ənənəvi, ya harizmalı, ya da rasional kimi xarakterizə etməyə imkan verir. Başqa sözlə, bu təsnifat hər bir konkret siyasi sistemdə hakimiyyətin legitimliyini təhlil etmək üçün bir vasitə rolunu oynayır.

Siyasi hakimiyyətin funksiyaları aşağıdakılardır:

- Cəmiyyətin siyasi bir sistem kimi formalaşdırılması,
- Cəmiyyətin siyasi həyatın, siyasi münasibətlərin təşkili. Burada siyasi münasibətlər cəmiyyətlə dövlət, qruplar, siniflər, institutlar və.s arasında təcəssüm oluna bilər.
- Hakimiyyət orqanlarının siyasi və ya qeyri-siyasi sahələrə rəhbərlik etməsi,
- Cəmiyyətdəki siyasi, iqtisadi, mədəni, sosial və.s sahələrə nəzarət edilməsi,
- Cəmiyyət və dövlət işlərinin idarə olunması,
- Cəmiyyətin inkişafının əsas məqsədlərini müəyyənləşdirilməsi,
- Cəmiyyətin inteqrasiyasının, nizamının və bütövlüyünün təmin edilməsi,
- Cəmiyyətdə yaranan sosial münaqişələrin tənzimlənməsi, onların həllinə yönəlmiş fəaliyyət göstərilməsi,

Hamı üçün resursların və dəyərlərin bərabər paylanmasının həyata keçirilməsi (2).

## ƏDƏBİYYAT

1. M.Əfəndiyev "Politologiyanın əsaslar". Bakı-2012. (210s)

2. Ребчук А.В. Курс политологии. – М., 2001
3. https://www.tsput.ru/res/other/politolog/lec5.html

**XÜLASƏ**

Məqalədə hakimiyyət anlayışı, onun formalaşması, əsas xüsusiyyətləri öz əksini tapıb. Həmçinin, hakimiyyətin funsiyaları, və M.Veber tərəfindən verilmiş tipologiya da qeyd olunub.

**АННОТАЦИЯ**

В статье отражено понятие власти, ее формирование и основные черты. Были также упомянуты функции правительства и типология, данная М. Вебером.

**SUMMARY**

The article reflects the concept of power, its formation and basic features. The functions of government and the typology given by M. Weber were also mentioned**.ə**

# DİSKRİMİNASİYA VƏ AYRI SEÇKİLİYƏ QARŞI HƏRƏKATLAR CƏMİYYƏTDƏ SOSİAL ETİRAZ FORMASI KİMİ

***Elmira Əliyeva***
***BDU-nun II kurs magistrantı***
***elmira.aliyeva97@gmail.com***

***Açar sözlər:*** ayrı-seçkilik, rasizm, sosial psixologiya, insan haqları, BMT.
***Ключевые слова:*** дискриминация, расизм, социальная психология, права человека, ООН.
***Key words:*** discrimination, racism, social psychology, human rights, UN.

İnsan haqları yaşından, irqindən, dinindən və cinsindən asılı olmayaraq, bütün insanların əldə edə biləcəyi universal hüquqlar toplusudur.1945-ci ildə təşkil olunmuş BMT özünün İnsan Hüquqları konvensiyasında aşağıdakı əsas məsələlərə toxunmuşdur [1].

1. Azad yaşamaq
2. Azad fikir, söz, mətbuat azadlığı
3. Bərabərlik
4. Mülkiyyət
5. Şəxsi toxunulmazlıq
6. Tətil, istirahət
7. Sosial təminat
8. Təhsil
9. Mədəniyyət, vicdan azadlığı
10. Əmək fəaliyyəti

Bu cür təməl insan haqları kobud şəkildə pozulduqda insanlar öz haqlarının müdafiəsi üçün etirazlar etməyə və bu qanunsuzluğa səbəb olanlara qarşı aksiyalar, protestlər təşkil edirlər.

Etirazlara ən çox səbəb olann amillərdən biri ayrıseçkilikdir.Ayrı-seçkilik altı əsas beynəlxalq insan hüquqları sənədləri ilə qadağandır. Dünya dövlətlərinin böyük əksəriyyətində ayrı-seçkiliyi qadağan edən konstitusiya və ya qanunlar mövcuddur. Əksər fəlsəfi, siyasi və hüquqi müzakirələrdə ayrı seçkiliyin mənəvi cəhətdən yanlış olduğu və əksər hallarda onun qanunla qadağan edilməli olduğu qənaətinə gəlinmişdir.Mübahisəli məsələlər isə bunlardır: Ayrı-seçkilik nədir? Ayrı-seçkiliyin yanlış olması konseptual həqiqətdir, yoxsa əsaslı bir mənəvi qərardır? Onun zülm və istismar ilə əlaqəsi nədir? Və yaxud cəmiyyətdə hansı problemlər yarada bilər [2]?

Ayrıseçkilik edənlər və onun qurbanı olan kütlələr az-çox hamıya məlumdur. Beləliklə deyə bilərik ki, dünyada ən az bir dəfə də olsa belə müxtəlif səbəblərdən dolayı hər kəs diskriminasiyaya məruz qalır. Lakin ilk ağıla gələn qadınlara qarşı olan ayrıseçkilikdir. Əsrlər boyu kişilərdən fərqli olaraq səs vermək və ya dövlət vəzifəsinə namizəd olmaq kimi hüquqları olmayan qadınlar təbii ki, bu mövzuda öncül sıraları tuturlar, lakin sırf aparteid düşüncədə olanlar tərəfindən sıxışdırılan zəncilər, əksər din üzvlərindən fərqli olaraq azlıq dininin üzvlərinə öz rituallarını, dini ayinlərini açıq şəkildə keçirməyi qadağan etmiş cəmiyyətlər ayrıseçkilik nümunələrinə aiddir. Müxtəlif faktlara əsasən ayrıseçkiliyin qaydası təklif edilsə də məlum olan qaydalar bu problemi tam olaraq ifadə edə bilmir. Putativ ayrıseçkilik faktları artıq hər kəsə kifayət qədər məlum olsa da onun formaları kobud şəkildə desək sonsuzdur. Siqaret çəkən bir insanın səhiyyə sektorunda işə qəbul olunmaması belə adi diskriminasiya faktıdır.

İnsanların ayrıseçkiliyə görə niyə etirazlara qoşulduqlarını araşdırmazdan əvvəl özümüzə belə bir sual verək. Biz kimə ayrıseçkilik edirik? Və ya ətrafımızdakı insanlara qarşı ayrıseçkiliyin edildiyini görəndə onları müdafiə edirikmi?

Antverpen Universitetinin hüquq üzrə fəlsəfə doktoru və UNİCEF-in uşaq hüquqları departamentinin spikeri Vaunter Vanderhol ayrıseçkiliyi qadağan edən beynəlxalq müqavilələri

nəzərdən keçirərkən diskriminasiyanın ümumdünya tərəfindən qəbul edilmiş tərifinin olmadığını qeyd edir və deyir ki, qanunlar birbaşa olaraq ayrıseçkiliyi ləğv etmir,sadəcə insanların bərabərhüquqlu olmasına zəmanət verir [2].

İnsanlara qarşı ayrı-seçkilik mütləq müəyyən bir sosial qrupa üzvlüyünə əsaslanaraq onlara yönəldilmişdir. Ayrıca ayrıseçkilik davranışının yönəldildiyi şəxslərə bir növ zərər və ya zərər verməsi də zəruridir.

Qeyd etdiyimiz diskriminasiya özünü yalnız bu cür açıq şəkildə deyil, həmçinin gizli yolla da göstərə bilir. Belə ki, diskriminasiyanın aşağıdakı kimi formaları vardır:

1. Birbaşa
2. Dolayı
3. Müqayisəli davranışlar
4. Ayrıseçkiliyə haqq qazandırılması
5. Analıq və hamiləlik zamanı qadınlara göstərilən ayrıseçkilik
6. Cinsinə görə işə götürülmə, işdən azadetmə və ya yeni vəzifəyə təyinetmə
7. Əlilliklə bağlı ayrıseçkilik
8. Əlillər üçün məqbulolan şəraitin yaradılmaması
9. Təcavüz
10. Seksual təcavüz
11. Kimisə diskriminasiyaya məcburetmə
12. Repressiya

Cəmiyyətdə ayrıseçkiliyin yayılması və onun yaratdlğı problemlərlə sosial psixoloqlar məşğul olurlar. Onlar diskriminasiyanın öhdəsindən gəlmək yollarını göstərirlər. İlk öncə bunu nəzərdən keçirmək lazımdı: bir insan digərinə qarşı niyə ayrıseçkilik edir? Bunun əsasında hansı əsaslar dayanır? Stereotiplər yoxsa müxtəlif cür xurafatlar? Onu da qeyd etmək lazımdır ki, xurafatlar sırf həmin insanın mənsub olduğu cəmiyyətlə bağlı ayrıseçkilik edən insana aşılanmış bir mövhumatdır. Stereotip isə onun şəxsinə yönəlmin mənfi düşüncə tərzidir.

Dünya etiraz tarixində əsas hərəkatlar sülhün bərbası və ayrıseçkiliyin aradan qaldırılması səbəbindən baş vermişdir. Bu ayrıseçkilik qadınlara qarşı tətbiq olunan və irqi diskriminasiyalardır.

Adətən 8mart tarixində baş tutan qadınların həmrəy olduqları ayrıseçkiliyə qarşı olan etirazların tək məqsədi vardır. Qadınlarla kişilərin hüquq bərabərliyinidünya ictimaiyyətinin bir daha nəzərinə çatdırmaq, məişətdə və iş yerlərində onlara qarşı olan haqsızlıqların aradan qaldırılmasına səsləmək. 2020-ci il martın 8-i Birləşmiş Millətlər təşkilatının çağırışlarına qoşulan dünyanın bir çox inkişaf etmiş ölkələrində yaşayan qadınlar müxtəlif çağırışlarla küçələrə çıxaraq əylənərək həmçinin ayrıseçkliyə birlikdə "Susmayacağıq" demişlər. Böyük plakatlarla öz hüquqlarını tələb edən qadınların tək məqsədi qadınların hüquqları deyil ümumiyyətlə onları narahat edən problemlərin həllinə tezliklə nail olmaqdır. Nyu York, Madrid, London, Roma kimi şəhərlərin sakinləri hər il bu tipli hərəkatlara qoşulur təkcə öz ölkələrində deyil bəlkə də adını belə bilmədikləri ölkələrdə haqqları tapdalanan qadın və qızların hüquqları üçün birgünlük də olsa öz səslərini dünyaya çatdırırlar [5]. Həmçinin onu da qeyd etmək lazımdır ki, hər il Oktyabr ayı "Süd vəzi xərçəngi barədə maarifləndirmə ayı" kimi qeyd olunur. Və bir sıra təşkilatlarda, orqanizasiyalarda bu mövzu ilə bağlı tədbirlər keçirilir, xərçəngdən əziyyət çəkənqadınların müalicəsi üçün ianələr toplanılır. Bu tədbirlərin simvolu isə tədbir iştirakşılarının və dəstəkçilərin yaxalarına taxdıqları çəhrayı rəngli kiçik lentlərdir.

Qadınlara qarşı olan ayrıseçkilik özünü yalnız protestlərdə deyil həmçinin incəsənətdə və ədəbiyyatda da göstərir. Kanadalıfeminist yazar Marqaret Etvud özünün antiütopiya janrında yazdığı "Qulluqçunun hekayəsi" əsərinigender bərabərsizliyi, qadın azadlığı, cəmiyyətdə və dünyada qadının yeri kimi problemlərə həsr etmişdir. Əsərdə qadınların maddi əmlaka sahib olması qadağan edilir, cahilliyə məhkum etmək üçün oxumaq-yazmaq hüquqları əllərindən alınır,

sonra işləməyi də qadağan edərək onları tamamilə kişilərdən aslı hala salırlar. Əsərin əsas mövzusu sonsuzluğun kəskin həddə çatdığı dövrdə uşaq dünyaya gətirmə qabiliyyətinə sahib qadınların dövlətin malı kimi mənimsənərək yüksək rütbəli komandirlərin evinə "damazlıq" kimi verilməsidir.

Antiütopik janrda yazılmasına baxmayaraq dünyanın hələ də bir çox yerində qadınlar məhz bu cür yaşayır, bizim üçün dəhşətli gələn o epizodlar onların gündəlik həyat tərzinin bir parçasıdır.

Rasizm ayrıseçkiliyin xüsusi bir növüdür və bu xüsusda ilk ağla gələn zəncilərə qarşı köləlik siyasətidir.

Diskriminasiya yönümlü cinayətlərin ən çox yayıldığı Amerika Birləşmiş Ştatlarında bir faktı yada salmaq istəyərdim. 1944-cü ildə Amerikada Corc Stinni adlı oğlanın sırf zənci olduğu üçün çəkisindən ağır balta ilə 2 qızı öldürdüyü iddia edilir və edam qərarı verilir. Şok apparatı üçün boyu balaca olan oğlanın stuluna İncil qoyulur və ölümə məhkum edilir. 2004-cü ildə təsadüfən onun işi yenidən qaldırılır və günahsız olduğu ortaya çıxır. Keçən yüzillikdə olmasına baxmayaraq hələ də amerikada polis tərəfindən zəncilərin öldürülməsi faktlarına tez-tez rast gəlinir [4].

Özünün vəalman xalqının "ali irq"-ə mənsub olduğunu iddia edən Hitlerin adı irqi ayrıseçkilik cinayəti törətmiş şəxs olaraq tarixə düşmüşdür. O, yəhudimillətinə qarşı genosid siyasəti həyata keçirməklə onları yer üzündən silməyə çalışmışdır. Müasir zamanda isə onca əziyyətlərdən keçmiş və 1945-ci ildə nəhayət özünə dövlət qurmuş yəhudilərin Fələstin torpaqlarında yaşayan insanlara zülm etməsi isə siyasi problem olsa da, bunu dini ayrıseçkilik kimi də dəyərləndirmək mümkündür.

Rasizm mövzulu protestlərdən 1969-cu ildə Vyoming Universitetinin millisində oynayan 14 zənci futbolçu İsa Məsih kilsəsinin irqçi siyasətinə qarşı oyun zamanıetiraz edirlər. Nəticədə futbolçular oyundan və millidən kənarlaşdırılaraq həbs olunurlar. Hadisələrdən xəbər tutan yerlilər futbolçuları dəstəkləmək üçün etiraz aksiyası keçirirlər və bu bütün Amerikada geniş vüsət almağa başlayır. Bir çox məşhur futbol komandalarının oyunçuları isə öz məsləkdaşlarının yanında olduqlarını bildirmək üçün oyun zamanı qollarına qara rəngli lentlər bağlayırlar. Yalnız 2013-cü ildə kahin Cozef Smit özünün siyasətinin yalnış olduğunu bəyan edir [3].

Sonda isə Amerikadakı zəncilərin hüquq müdafiəçisi və feminist aktivist Meri Ceyn Makleodun bir fikrini qeyd etmək yerinə düşər:

"Ayrıseçkiliyi qəbuı edib ona qarşı susduğumuzda biz məsuliyyəti öz üzərimizə götürürük və həmin insanlarım vicdanını rahatladırıq. Buna görə ayrı-seçkilik və ya böhtan hissi yaradan hər şeyi açıq şəkildə etiraz etməliyik.

## ƏDƏBİYYAT


1. Universal Declaration of Human Rights, UN, 1948, May
2. https://plato.stanford.edu/entries/discrimination/#Bib
3. https://aeon.co/videos/in-1969-black-football-players-stood-against-racism-in-one-of-the-whitest-states-in-the-us
4. "The New York Times" qəzeti , «When the killing a juvenile was routine», May 5, 2005
5. BBC telekanalı, https://www.bbc.com/news/world-51791335


## XÜLASƏ

Məqalədə insanlar arasındakı ayrıseçkiliyin formaları və cəmiyyətdə baş verənbir sıra etirazların səbəbiniehtiva edir. Həmçinin burada müxtəlif tarixi faktlar əsasında diskriminasiya problemi təhlil edilmişdir.

## АННОТАЦИЯ

В статье рассматриваются формы дискриминации между людьми и причины ряда протестов в обществе. Проблема дискриминации также анализируется здесь на основе различных исторических фактов.

## SUMMARY

The article covers the forms of discrimination between people and the reasons for a number of protests in society. It also analyzes the problem of discrimination on the basis of various historical facts.

# SOSİOLOGİYADA KEYFİYYƏT METODLARI: NƏZƏRİ - METODOLOJİ MƏSƏLƏLƏR

***Arzu Əskərova***
***BDU-nun II kurs magistrantı***
***arzu.esgerova.1988@mail.ru***

***Açar sözlər:*** keyfiyyət tədqiqat, tədqiqat strategiyası, obyekt, sosiologiya, nəzəri konsepsiya, empirik metodikalar, hadisə, metodlar.
***Ключевые слова:*** качественное исследование, исследовательская стратегия, объект, социология, теоретическая концепция, эмпирические методики случай, методы.
***Keywords:*** qualitative research, research strategy, object, sociology, theoretical concept, empirical methods, case, methods.

Tədqiqat üsulları tədqiqat işinin məqsədinə nail olmaq yollarıdır. İşin hər mərhələsində tədqiqatçı tədqiqat vəzifələrini yerinə yetirmək və layihədə istədiyi məqsədə nail olmaq üçün ən uyğun olan tədqiqat üsullarını, metodlarını müəyyənləşdirir. Sosiologiyada qarşıya qoyulan məsələlərin həlli üçün müxtəlif tədqiqat metodlarından istifadə olunur. Bu tədqiqat metodları ənənəvi tədqiqat metodları və müasir tədqiqat metodlarına bölünür. Ənənəvi tədqiqat metodları kimi sosiologiyada bunları misal göstərmək olar: müşahidə, müsahibə, ölçmə, müqayisə, eksperiment, anketləşdirmə, intervyu, sorğu, sənədlərin təhlili, fokus qrup metodu və s. Ancaq bundan əlavə, hazırki dövrümüzdə elm və texnikanın inkişafı nəticəsində ənənəvi tədqiqat metdoları ilə yanaşı sosiologiyada müasir tədqiqat metodlarının istifadəsi hazırda çox geniş yayılmışdır. Müasir tədqiqat metodları kimi aşağıdakı tədqiqat metodlarını nəzərdən keçirtmək olar: [1, 10].

Rəqəmsal keyfiyyət metodları. Keyfiyyət tədqiqatları üçün rəqəmsal tədqiqat üsulları sahəsi daha sürətli bir şəkildə inkişaf edir. Daha çox tədqiqatçılar tədqiqat məlumatlarının yaranması və təhlil edilməsi vasitəsi kimi sosial, mədəni, siyasi, antropoloji və kompüter vasitəçiliyi ilə rabitənin digər ölçülərindən istifadə edirlər.

2 Qrafik metodlar. Qrafik metodlar müasir elmin olduqca əhəmiyyətli və effektiv aləti hesab olunur. Onlar etibarlı elmi araşdırmaların metodikasına axildirlər. Statistik tədqiqatlarda bu metodlar, xüsusilə, mühüm rol oynayır. Burada sosial-iqtisadi hadisələrin və dinamik göstəricilərin hərəkəti proseslərinin kompleks qarşılıqlı əlaqələri, həmçinin, əlaqələrin kompleks birləşməsi öyrənilir [2, 32-34].

Keyfiyyət tədqiqat metodu nədir? Kəmiyyət tədqiqatçıları rəqəmlər və ədədlərlə işlədiyi halda, keyfiyyət tədqiqatçıları üçün sözlər və ifadələr əsas diqqət mərkəzində olur. Tədqiqat obyekti olaraq sosial qruplar, sosial təşkilatlar, kollektivlər, sosial institutlar seçilə bilər. Tədqiqat zamanı kəmiyyət metodlarından da istifadə oluna bilər(statistik). Lakin mahiyyət etibarilə keyfiyyət tədqiqat xarakteri daşıyacaqdır. Keyfiyyət tədqiqat metodu zamanı insanların jestləri, mimikaları da əsas götürülür. Kəmiyyət tədqiqat metodu zamanı nə qədər tez? nə qədər gec? suallarına obyektiv cavab alırıqsa (aldığımız cavablar kəmiyyət xarakteri kəsb edir)keyfiyyət tədqiqat metodu zamanı isə suallar daha mənalı tərtib olunur. Denzin və Linkoln da bu fikiri təsdiqləyərəkmyazırlarmki, keyfiyyət metodlarının başlıca məqsədi fərdlərin və təşkilatların davranış fəaliyyətinin motivlərini, habelə onların baxış və müxtəlif məsələlər barədəki fikirlərini müfəssəl şəkildə,təfsilata vararaq öyrənməkdir. Tədqiqat obyekti olaraq sosial qruplar, sosial təşkilatlar, kollektivlər, sosial institutlar seçilə bilər. Keyfiyyət tədqiqatçıları sosiial realliği iştirakçıların gözü ilə görməyə çalışır, çünki onlar inanırlar ki, yalniz bu üsulla fərdlərin dünya baxışı və fəaliyyət sferası başa düşülə bilər.

Keyfiyyət tədqiqatları sual altındakı problemi mikro-səviyyədə öyrənib izah edir. Mikro səviyyədə olsa da, keyfiyyət tədqiqatlarında tədqiqat subyektləri ilə yanaşı onların yaşadığı və fəaliyyət göstərdiyi ümumi kontekst, sosial reallıq da diqqət mərkəzində saxlanılır. Keyfiyyət metodunun növləri isə tədqiqatı daha səmərəli aparmağa və geniş məlumat əldə etməyə imkan yaradır. Hər metodun özünəməxsus üsulları vardır ki,həmin üsullar digər metodlardan fərqlənməyə 3 zəmin yaradır.İndi isə keyfiyyət metodunun növlərinin hər birinə ayrı-ayrı nəzər salaq. Keyfiyyət metodunun aşağıdakı növləri var:

1. Keyfiyyət intervyusu. Keyfiyyət metodologiyasında intervülər ən geniş istifadə edilən məlumat toplama metodudur. Keyfiyyət tədqiqatındakı intervülərin səciyyəvi xüsusiyyəti onların açıq suallardan ibarət olub respondentə sərbəstlik verməsi, təfsilata varmasıdır. Buna görə də keyfiyyət intervülərində tədqiqatçı heç gözləmədiyi, ancaq vacib məsələlər barədə informasiya əldə edə bilər. Qapalı sual tiplərinin geniş istifadə edildiyi anket sorğularından fəərqli olaraq, keyfiyyət intervüləri açıq suallardan ibarət olduğundan burada müxtəlif respondentlərlə müzakirə edilən mövzuların ardıcıllığı, diapozonu, hətta məzmunu da dəyişə bilər.

2. Fokus qrup metodu. Fokus qup informasiya toplamaq metodu kimi XX əsrin əvvəllərində yaransa da, əsasən 1990-cı illərdən etibarən sürətlə yayılmağa başlayıb. Tədqiqatların aparılması zamanı fokus-qruplarda üzərində iş aparılan mövzuya dair müzakirələrin aparılması birgə iş nəticəsində məlumatların toplanması üçün tətbiq edilir. Fokus-qruplar dörd əsas xüsusiyyətlərə malikdir:

1. Onlar insanları aktiv fəaliyyətə cəlb edirlər;
2. Qruplara daxil olan insanlar ümumi maraq və ya ümumi təcrübəyə malikdirlər.
3. Onlar daha keyfiyyətli məlumatlar təqdim edirlər;
4. Müzakirələr elə bir istiqamətə yönəldilir ki, baş verənlər daha aydın başa düşülsün.

Fokus-qrupun fəaliyyəti (apardığı iş) qrup şəklində aparılan sorğudan da əhəmiyyətlidir. Qrupun iştirakçıları arasında olan qarşılıqlı əlaqə əsas meyardır. Respondentlərin fikirlərini müəyyən etmək məqsədilə fokus-qruplarda suallar ətraflı seçilir. Qrupun yığışmasından əvvəl diskussiyanın (müzakirənin) istiqamətləri müəyyənləşdirilir və moderator onlardan müzakirə zamanı nəyi əhatə etmək lazım olduğu haqqında yaddaş kitabçasından istifadə edir. İstiqamətlərin müəyyənləşdirilməsinə ətraflı yanaşma diskussiyanın məntiqi ardıcıllığını və onun tədqiqatın mövzusunda cəmləşdirilməsini təmin edir. Tematik istiqamətlər qrupun işinin əksidir. Müzakirənin qaydalarına görə iştirakçılar növbə ilə bir-birinin sözünü kəsmədən öz fikirlərini söyləməlidirlər ki, ağıllı söylənən fikirləri vaxtında qeyd etmək mümkün olsun. İştirakçılardan özlərini təqdim etmək və müzakirə edilən mövzu sahəsində təcrübələri barədə məlumat vermələri xahiş olunur. [3, 45-50].

3. Müşahidə. İstənilən sahədə lazım olan elmi biliyi əldə etməyin ilkin mərhələsi müşahidədir. Tədqiqatçı mövcud vəziyyəti müşahidə edib tədqiqat problemini müəyyənləşdirəndən sonra araşdırmaya başlayır. Araşdırmanın özündə də müşahidə prosesi məlumat toplama metodu kimi bu və ya digər formada ortaya çıxır. Sosioloji müşahidələr tədqiqatçıya insanları təbii mühitlərində müşahidə edərək, digər metodlarla əldə edilməsi mümkün olmayan məlumatları toplamaq imkanı verir. Birbaşa müşahidə nəticəsində araşdırmaçıda adamların sosial fəaliyyəti və hadisələrin baş verdiyi mühit barədə daha aydın təsəvvür yaranır, çünki, müşahidə və söhbət vasitəsilə adamların fəaliyyətini daha yaxşı başa düşmək imkanı əldə edir. Maks Veberin sözləri ilə desək, müşahidəçi qrupun daxilində olaraq, dünyaya onların gözü ilə baxmaq imkanı əldə edir. Bununla yanaşı, sosioloji müşahidələr son dövrlər jurnalistika sahəsində də ciddi şəkildə yayılıb ki, bunu da araşdırmaçı jurnalistlərin aktivinə yazmaq lazımdır. Bu məlumat toplama metodundan istifadəni xüsusilə BBC və “Al-Jazeera” teleradio yayım şirkətlərin araşdırmaçı jurnalistlərin timsalında görə bilərik [5, 23-25].

4. Təhlil. Keyfiyyət məlumatlarının yazılı və qeyri-ədədi məlumatların (fikirlər, hisslər, hadisələr və s.) ədədi informasiya formasına çevrilmədən təhlilinə deyilir. Təhlilin məqsədi "araşdırmada önə çıxan, aşkar edilən və öyrənilən məsələlər, proseslər, mühakimələr və hadisələr arasında əlaqə qurmaq, tədqiqat subyktlərinin fəaliyyət və davranışının motivlərini başa düşməkdir". Qrey nəzərə çatdırır ki, keyfiyyət tədqiqatının dəyişkən, qeyri-standart strukturuna görə bu qəbildən olan tədqiqatlar fərqli növ informasiyalar toplaya bilər. Törner yazır ki, "keyfiyyət tədqiqatllarında toplanan məlumatlar homogen təbiətə malik olmur-onlar özündə mücərrəd konseptləri (insanların fikirləri, hissləri, mühakimələri, hadisələr, proseslər vəms.) mehtivakedib, qeyri-ədədi, müxtəlifjformalardamolur".

qalmışdır. Vətəndaşların bu mübarizədə fəal və könüllü şəkildə iştirak etməsi, xüsusiyyətlərini daha da artırması və mövqeyi və ya hərəkətləri ilə sosializm yolunda dayananlara açıq şəkildə etiraz etmələri gözlənilir. Siyasi fəallığa və mübarizəyə sadiqlik passivliyə və harmoniyaya olan köhnə meylləri əvəz etməlidir. Çin Mədəni İnqilabından bəri rəsmi vurğu antaqonist mübarizədən və modernləşmə uğrunda fəallıqdan uzaqlaşdı. "Üsyan etməyə cəsarət et" şüarı "sabitlik və birlik" ilə əvəz edildi.

Özünə güvən: Özünə güvən prinsipi 1980-ci illərdə güclənmişdir. Ümumi iş təhlükəsizliyi və "öz səyləri" sayəsində uğur qazanmış şəxsləri təşviq etmək üçün çoxsaylı kampaniyalar keçirilmiş və uğurları açıqlanmışdır. Digər tərəfdən, özünə güvən prinsipi artıq özünü təminetmə kimi şərh edilmir. Mədəni İnqilab dövründə birliklər və bölgələr öz ehtiyaclarının hamısını təmin etməyə təşviq edildi və rəhbərlik xarici ticarətdən asılı olmaqda çox ehtiyatlı davranırdı. Çinin böyük miqdarda xarici borcu yox idi. Hal-hazırda əmtəə istehsalı və əməkdaşlığa vurğu özünü təminetmənin yerini tutdu. Kənd təsərrüfatı və sənaye bölmələrinə, bütün ehtiyaclarını ödəmək əvəzinə, maksimum qazanc əldə etmək tövsiyə olunur. Çin indi beynəlxalq ticarət və kreditin modernləşmədə əsas rol oynayacağını gözləyir. Bu sahədə özünə güvən texnologiyanın idxalından həddindən çox asılılığa qarşı bir xəbərdarlıq olaraq qalır.

Egalitarizm və Populizm: iyerarxik münasibətlər ənənəvi Çin cəmiyyətinin nizamlanmasında təbii və zəruri hesab olunurdu. Sosial iyerarxiyanı tənzimləyən prinsiplər mürəkkəb olub, yaş, nəsil, qohumluq, cins, var-dövlət, elmi dərəcəsi və rəsmi status daxil olmaqla çox qarışıqdır. Buna baxmayaraq, fərdlər, rəhbərlərinin və tabeçiliyinin müxtəlif sahələri əhatə etdiklərini bilirdilər ki, əksər sosial münasibətlərdə səlahiyyət və status bir şəkildə müəyyənləşdirilirdi. İerarxiyada daha yüksək vəzifələrdə olanların aşağılardan daha çox imtiyaz və üstünlüklərə sahib olduğuna görə daha aşağı təbəqələrə ehtiramla yanaşmaları gözlənilir (2, s.49-51).

Çin Kommunizminin sosial təbəqələşməyə baxışı, xüsusən inqilabi dəyərlərin Maoist versiyasında daha çox eqoitaristdir.Sinfi təbəqələşmənin mövcudluğunu, cəmiyyətdəki əmək bölgüsünün qaçılmazlığını və hər şeydən əvvəl siyasi nüfuzun qorunmasının zəruriliyini qəbul etsə də, bu ideologiya iyerarxiyanın inkişafına və möhkəmləndirilməsinə qarşıdır. Ümumiyyətlə maddi və psixoloji bərabərsizliyi minimuma endirməyə və gənc nəsillər və qadınlar kimi irrasional tabeçilikləri aradan qaldırmağa çalışır. Qaçılmaz siyasi və inzibati iyerarxiyada, elitaları xüsusi bir qrup halına gətirən və xüsusi siyasi rollarından kənarda bir üstünlük aurası verən imtiyazlara, simvollara və iqtisadi fərqlərə qarşı düşməndir. Mövcud siyasətə baxmayaraq, sərvət toplamağa və daha böyük əməkhaqqı fərqlərinə imkan verən eqitalitarizm Çin siyasətində bir dəyər olaraq qalır (1, s.13).

Çinin bu gün kasıb inkişaf edən bir xalqdan ahəngdar iqtisadi nəhəng cəmiyyətə çevrilməsi, bizim üçün böyük dərslər verir. Çin siyasi harmoniya əldə etmək üçün siyasi mədəniyyətini möhkəmləndirmək baxımından müvəffəqiyyətli siyasi xətt seçmişdir.Çin ailəsi hətta Qərb ailəsindən daha güclü bir sosial birlik olmuşdur və olmaqda davam edir. Ailə üzvləri arasında bağlar və öhdəliklər daha güclü və daha aydındır, boşanma nadirdir və ailə kənd iqtisadiyyatının əsas hissəsidir. Ailə fərdi dəyərlərin formalaşmasına ilk və ən vacib təsir göstərən faktordur. Ailənin birbaşa və dolayı təsiri - bir insanın qarşılaşdığı ilk sosiallaşma mənbəyi olaraq güclü və davamlıdır. Ailə,uşaq üçün sosial mövqe müəyyənləşdirərək gələcək siyasi münasibətləri formalaşdırır; mədəni dəyərləri təsdiq edən etnik, dil, sinif və dini əlaqələrin qurulması;peşə seçiminə təsir göstərir. İctimai birliyə və demokratik sabitliyə mənalı bir töhfə vermək üçün hökumət ailəyə biganə qalmamalıdır.Ailə qurumunu dəstəkləyən və möhkəmləndirən ölkələrdə siyasi şüur səviyyəsi yüksəkdir. 1949-cu ildən bəri Çində yaranan xalq təhsili sistemi, Çin siyasətinə təsir göstərən ən geniş və təsirli agentlərdən biridir. Vətəndaş tərbiyəsinin yayılmasında məktəblərin rolunu vurğulamamaq olmaz. Bu, cəmiyyətin əsas dəyərlərinin və inanclarının gənclərə aşılanmasına səbəb olur. Xalq təhsili sayəsində dövlətlər gənclərə mənəvi xüsusiyyətləri tam formalaşmadan təsir göstərməyə çalışırlar. Magstadtın iddia etdiyi kimi, "liberal təhsil idealı,

hakimiyyəti tənqid etmə hüququnu qoruyan konstitusion demokratiyaları sxeminə asanlıqla uyğun gəlir. Eyni zamanda, daha yüksək təhsil səviyyəsi vətəndaşların siyasətdə iştirak etmələri üçün təşviq edir. Təhsil həm də cəmiyyətin siyasi bacarıqlarına və resurslarına təsir göstərir. Təhsilli insanlar hökumətin həyatlarına təsirini daha hiss edirlər və siyasətə daha çox diqqət yetirirlər. Daha yaxşı təhsilli insanların siyasət dünyasını idarə etmək qabiliyyətlərini inkişaf etdirən zehni bacarıqları var. Siyasi proseslər haqqında daha çox məlumata sahibdirlər və daha geniş siyasi fəaliyyətlərdə iştirak edirlər (5, s.21).

Çinlilər inkişaf etmək üçün sabitlik və ictimai uyğunlaşma tələb edildiyini başa düşdülər və buna görə də yenidən siyasi sosiallaşma prosesini qəbul etdilər. Ardıcıl bir hökumətin qurulmasından irəli gələn siyasi sabitlik olmasaydı, çinlilər mövcud olduqları qədər sürətlə inkişaf edə bilməzdilər.

Hökumət Müstəqil Milli Seçki Komissiyası vasitəsi ilə siyasi partiyaların ideoloji əsaslı olmalarını təmin etməli və partiyalararası demokratiya prinsiplərinə riayət etməlidir; kütləvi informasiya vasitələri neytral olmalıdır və həm hazırkı, həm də müxalifət üçün eyni dərəcədə əlçatan olmalıdır; yaşayış yerindən asılı olmayaraq bütün vətəndaşlara tam vətəndaşlıq hüquqları verilməlidir; vətəndaşlıq istisna anlayışları manipulyasiya edilməməlidir. Nəhayət, bütövlükdə siyasi sosiallaşma prosesinin uğuru yalnız vətəndaşların siyasi sistemlə əlaqəli və fəaliyyət göstərməsinə və bununla da ahəngdar cəmiyyət qurmasına imkan yaradan dəyərləri, münasibətləri, inancları və fikirlərini inkişaf etdirən effektiv vətəndaşlıq tərbiyəsinə əsaslana bilər (13, s.42).

## ƏDƏBİYYAT


1. Central Committee of the Communist Party of China (2006). Resolution on major issues of building a harmonious socialist society. http://politics.people.com.cn/GB/1026/4932440.
2. Cheng, C. (2007). China‘s new development plan: Strategy, agenda, and prospects. Asian Affairs, 47–59.
3. Coleman, J. S. (1997). Social capital in the creation of human capital. In A.H. Halsey; P. Brown and A. S. Wells (Eds.), Education: Culture, Economy, Society, Oxford, Oxford University Press, pp. 80–95.
4. Grootaert, C. (1998). Social capital: The missing link? Washington, D.C., The World Bank, Social Development Family, Environmentally and Socially Sustainable Development Network.
5. Hao, K. (2006). Towards a learning society. Beijing: Higher Education Press.
6. Hooghe, M. (2004). Political socialization and the future of politics. Acta Politica, 39: 331-341.
7. Hu, J. (2005). Building a harmonious socialist society. Talk delivered to provincial main leading cadres at the seminar about enhancing capacity to build a harmonious socialist society (Beijing). Xinhua Network, 19 February.
8. Lin, N. (1999). Building a network theory of social capital. Connections, 22, 28–51.
9. Morgan, W. J. (2008). Social capital, citizenship and continuing education: What are the connections? International Journal of Continuing Education and Lifelong Learning, 1 (1), 35–45.
10. Pan, J. & Xi, N. (2006); China‘s regional, urban and rural disparity in the past ten years. 2005 China Economic Analysis Yearbook. Beijing: China Statistics Press.

11. Portes, A. (1998). Social capital: Its origins and applications in modern sociology. Annual Review of Sociology, 24, 1–24.

12. Putnam, R. (1993). The prosperous community: Social capital and public life. The American Prospect, 4 (13), 35–42.
13.Saich, T. (2011). Governance and politics of China. New York: Palgrave Macmillan.

## XÜLASƏ

Bu məqalədə cəmiyyətin hərtərəfli sabit və harmonik inkişafına təsir edən əsas amillər Çinin timsalında araşdırılmış, Çinin keçdiyi tarixi inkişaf yolları yaxından izlənilmişdir. Bu müstəvidə siyasi və sosial harmoniya,sosial kapitalın uğurlu yönləndirilməsinin demokratik bir sistemi mənimsəmiş müasir cəmiyyətlər üçün mühüm məna kəsb etməsi diqqətdə saxlanılmışdır.

## АННОТАЦИЯ

В статье рассматриваются основные факторы, влияющие на общее стабильное и гармоничное развитие общества на примере Китая, и внимательно следит за историческими путями развития Китая.В этом контексте политическая и социальная гармония и успешное управление социальным капиталом важны для современных обществ, которые приняли демократическую систему.

## SUMMARY

The article considers the main factors affecting the overall stable and harmonious development of society on the example of China, and closely monitors the historical paths of China's development. In this context, political and social harmony and successful management of social capital are important for modern societies that have adopted a democratic system.

## SOSİAL İŞ

# PENİTENSİAR MÜƏSSİSƏLƏRDƏ CƏZA ÇƏKMƏKDƏN AZAD EDİLMİŞ ŞƏXSLƏRİN RASTLAŞDIQLARI PROBLEMLƏRİN HƏLLİNDƏ SOSİAL İŞÇİNİN ROLU

***Cavid Əlizadə***
***Azərbaycan Universitetinin II kurs magistrantı***
***cavid6455@mail.ru***

***Açar sözlər:*** penitensiar müəssisələrdən cəza çəkməkdən azad edilmiş şəxs, problem, sosial iş, sosial iş prosesi;
***Keywords:*** a person released from prison, problem, social work, social work process;
***Ключевые слова:*** лицо освобожденное из пенитенциарных учреждений, проблем, социальная работа, процесс социальной работы.

Azərbaycan Respublikasında sosial işçinin hüquq və vəzifələri ilk dəfə 2012-ci ildə qəbul olunmuş "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Qanuna əsasən sosial işçi "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada sosial xidmətə olan tələbatı qiymətləndirən və müəyyən edən, eləcə də sosial xidmət göstərən şəxsdir [2].

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin rastlaşdıqları problemlərin həlli istiqamətində sosial işçi ilk növbədə onların hüquq və azadlıqlarının təmin olunmasına diqqət yetirməli, lazım gəldikdə onlara bu barədə izahlar verməlidir. Çünki sosial iş insanların şəxsiyyətinə, ləyaqətinə, insan haqlarına hörmətin əsasında yaranmışdır. Eləcə də sosial işçi bu kateqoriyadan olan şəxslərin öz müqəddəratını müəyyən etmək hüququna hörmətlə yanaşmalı, bunu təmin edərkən digər şəxslərin hüquq və mənafelərinin pozulmasına şərait yaratmamalıdırlar.

Sosial işçi cəza çəkməkdən azad edilmiş şəxsi cəmiyyətin üzvü kimi ictimai həyatın hər bir sahəsində iştirak etməyə ruhlandırmalıdır. Həmçinin onun ailəsi, yaşadığı təbii mühit ilə maraqlanmalı bütün amillərə diqqət verməlidir. Həmin şəxsin güclü xüsusiyyətlərinə diqqəti cəlb etməli və onların inkişaf etdirilməsinə səy göstərməlidir. Sosial işçi cəza çəkməkdən azad edilmiş şəxsə qarşı hər hansı sosial diskriminasiya və stiqmatizasiya hallarına qarşı mübarizə aparmalı və bu kimi halların baş verməsinə yol verməməlidir.

İnsanların rifahı üçün sosial dəyişikliklər etmək, insanlar arasında problemləri həll etmək və insanların rifahını yüksəltmək məqsədilə onları daxili güclərinə və potensiallarına arxalanmağa yönəltmək sosial işin məqsədlərindəndir. Sosial işçilər fərdlərin (penitensiar müəssisədə cəza çəkməkdən azad edilmiş şəxs) düşdüyü çətin vəziyyəti qiymətləndirir, ehtiyacları müəyyənləşdirir və buna uyğun olaraq müdaxilə planı hazırlayaraq onlara qarşılaşdıqları problemləri müstəqil şəkildə həll etmək bacarıqlarını gücləndirməklə yardımçı olurlar.

Həmçinin qeyd edə bilərik ki, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərlə sosial işin məqsədi ədalət, humanizm və bərabərlik prinsiplərini rəhbər tutaraq, cəmiyyətin bərabərhüquqlu üzvü kimi bu qrupdan olan şəxsləri sosial proseslərə cəlb etmək, qarşılaşdırları problemlərin həlli istiqamətində onlara yardımçı olmaq, o cümlədən onların cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Penitensiar müəssisələrdən azad edilmiş şəxslərlə sosial iş prosesi aşağıdakı mərhələlərdən ibarətdir [1, s. 77]:

- Tanışlıq və prosesə cəlb etmə;
- Qiymətləndirmə (məlumatın toplanması və təhlili);
- Planlaşdırma və müqavilənin bağlanması;
- Müdaxilə və monitorinq;

- Yekunlaşdırma və son qiymətləndirmə.

İlkin mərhələ tanışlıq və cəlbetmədir. Tanışlıq kliyentin - cəza çəkməkdən azad edilmiş şəxsin problemi ilə professional maraqlanma və həmin problemin həllinə dəstək olmağı ifadə etməkdən ibarətdir. Bu mərhələdə sosial işçi kliyentin söhbətini dəstəkləməli, onun vəziyyətinə yüksək maraq göstərdiyini bildirməlidir, kliyentin gözləntiləri barədə məlumatlı olduqdan sonra göstərilən xidmətlər haqqında məlumatları kliyentin diqqətinə çatdırmalıdır. Həmçinin sosial işçi qarşı tərəfdə inam və etibar yaratmaq üçün öz professional ünsiyyət bacarıqlarından istifadə etməlidir. İlk görüşün mümkün olduğu qədər qısamüddətli olmasına, şəxsin ilkin söhbətdə sıxılmamasına və şəxsi problemlərlə bağlı çox danışmamağa diqqət edilməlidir. Bu mərhələdə müraciət edən şəxslə doğru, müsbət əlaqələrin qurulması onun işə həvəsini artırır və növbəti mərhələlərə də öz təsirini göstərir. Eləcə də bu mərhələdə sosial işçi kliyentin probleminin həllinə kömək edə biləcəyini və ya edə bilməyəcəyinə qərar verir. Tanışlıq mərhələsində lazımı qeydlər aparılır və xüsusi formalar doldurulur. Həmçinin sosial işçi söhbət zamanı ona kliyentin şəxsi həyatı ilə bağlı məlumatların konfidensionallığını qorumalı, xüsusi hallar yaşanarsa, onu əvvəlcədən xəbərdar etməklə müəyyən yerlərə məlumat veriləcəyini bildirməlidir.

İlkin qiymətləndirmə planlaşdırma, müdaxilə və sosial işin araşdırılması ilə bağlı davamlı bir prosesin vacib hissəsidir. O, sosial işçinin, adekvat hazırlığını tələb edir. İlkin qiymətləndirmənin keyfiyyətlə aparılması ümumilikdə sosial işin effektivliyini təmin edir. Qiymətləndirmə mərhələsində sosial işçi kliyentin özü, problemi və mühiti barədə ətraflı məlumatlar toplayaraq ümumi vəziyyət, problem, ehtiyacların müxtəlif yönümlü təhlilini aparır, kliyentlə birgə problemin aradan qaldırılmasının məqsəd və vəzifələrini aydınlaşdırılır, zəruri müdaxilələr müəyyənləşdirilir, problemin mümkün həlli yolları barədə ümumi razılıq əldə olunur. Sosial işçi kliyentdə motivasiyasının yüksəlməsi istiqamətində də iş aparır. Qiymətləndirmə davamlı-dinamik araşdırma və ya məhdud vaxtda aparılan tək hadisənin araşdırılması şəklində ola bilər. Bununla yanaşı, araşdırma işi fərqli səviyyələrdə: geniş sosial mühitin ekoloji araşdırılması, mikromühitin hərtərəfli araşdırılması. Araşdırma prioritetlərin müəyyənləşdirilməsi səviyyəsində keçirilir. Araşdırma təhlili resursa əsaslanan və ya ehtiyaca əsaslanan yolla aparılır. Gələcəkdə tətbiq olunacaq müdaxilənin uğurlu olması üçün qiymətləndirmə mərhələsində sosial işçi kliyentin güclü tərəflərini üzə çıxarmalıdır. Güclü tərəflər düzgün qoyulan suallar vasitəsilə müəyyənləşdirilə bilər. Qiymətləndirmə prosesinin əsas məqamları aşağıdakılardır:

- Ehtiyac meyarının müəyyən edilməsi;
- Problemin müəyyənləşdirilməsi;
- Məqsəd və prioritetlərin müəyyən edilməsi;
- Üstünlük və resursların müəyyənləşdirilməsi;
- Konkret məqsəd və tapşırıqların ön plana çəkilməsi.

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin resursları olduqca məhdud olur, bu səbəbdən onlara yardım və sosial xidmətlər göstərilməsi vacibdir. Çünki yüksək və çox kəskin risklərlə üzləşən insanların, şübhəsiz ki, sosial xidmətlərdən yararlanmaq prioritetləri vardır. Nə qədər ki, sosial xidmətlər göstərilməsi üçün resurslar məhduddur, sosial işçinin rolu bir o qədər əhəmiyyətli olur. Ehtiyac meyarının müəyyən edilməsi qiymətləndirmə prosesinin ilkin proseduru hesab edilir və bu mərhələdə şəxsin problemləri və ehtiyacları artıq məlum olur. Problemlərin müəyyənləşdirilməsi mərhələsində bu problemlər haqda daha təfərrüatlı və geniş miqyaslı biliklər əldə olunur.

Əvvəlki yarımfəsildə penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin qarşılaşdıqları problemlərin təsviri və onların qarşısının alınması yolları əks olunmuşdur. Problemin müəyyənləşdirilməsi zamanı sosial işçi tərəfindən aşağıdakı məsələlər üzrə biliklər əldə olunmalıdır:

- Problemləri törədən səbəblər;
- Sosial mühit;

- Problemlərin həlli ilə bağlı mövcud maneələr.

Problemin tədqiqi zamanı aşağıdakı suallara xüsusi diqqət yetirilməlidir:

- Problem ortaya çıxan zaman nə baş verir?
- Bu nə qədər ciddi təzadlar törədə bilər?
- Problemin törətdiyi fəsadlar hansılardır?
- Bu problemi həll etmək üçün şəxs nə kimi səylər göstərir?
- Bu səylər nə dərəcədə özünü doğruldur?

Bəzi hallarda problem mürəkkəb və çoxşaxəli ola bilər. Bu isə öz növbəsində müxtəlif problemlərin yaranmasına gətirib çıxarır. Məsələn, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin məhsuldar fəaliyyətə qoşula bilməməsi onlarda məşğulluq, iqtisadi, sağlamlıq, təhsil, təhlükəsizlik və s. problemlərin yaranmasına səbəb olur. Bu kimi problemlər həll edilmədikdə isə gələcəkdə hüquq pozuntusunun baş verməsinə səbəb ola bilər [4].

Qiymətləndirmə mərhələsində cəza çəkməkdən azad edilmiş şəxs, onun ailə və icma üzvləri, onunla birbaşa əlaqəsi olan şəxslər, habelə penitensiar müəssisə əməkdaşları, mütəxəssislərlə söhbət aparılmalı, məlumat toplanılmalıdır. Məlumat toplandıqdan sonra sosial işçi şəxslə bağlı ətraflı hesabat hazırlayır. Müəyyən olunan məlumatlara əsasən sosial işçi kliyentlə birgə tərtib olunan xidmət və müdaxilələri özündə əks etdirən fərdi qayğı planı tərtib edir. Məlumatların toplanılması və təhlili genoqram, mədəni əlaqələr diaqramı, həyat yolu xəritəsi (ekomap), mühüm hadisələrlə bağlı siyahıların tərtibi kimi xüsusi üsul və metodlar vasitəsilə həyata keçirilir. Düzgün qiymətləndirmənin aparılması nəticəyə birbaşa təsir edir. Əgər cəza çəkməkdən azad edilmiş şəxslə bağlı hər hansı bir məlumat nəzərə alınmazsa, bu müdaxilə planının düzgün tutulmamasına səbəb olacaq və yardım prosesi öz nəticəsini verməyəcəkdir. Bu səbəbdən sosial işçi heç bir məlumatı və faktı nəzərdən qaçırmamalıdır.

Şəxsin qiymətləndirilməsi bir sıra məqsədlərə nail olmaq üçün aparılır:

- Şəxsə fayda verə biləcək müdaxilələrdən ən uğurlu nəticələrin əldə olunması;
- Şəxsdə hansı dəyişikliklərin aparılmasının müəyyənləşdirilməsi;
- Qısamüddətli və uzunmüddətli məqsədlərin müəyyənləşdirilməsi;
- Şəxsin güclü tərəflərini üzə çıxarmaq və resursları təyin etmək;
- Hədəfləri qarşılıqlı olaraq təyin etmək.

Sosial iş prosesinin planlaşdırma mərhələsi işçi planın qurulmasını nəzərdə tutur. Sosial işçi planı araşdırma mərhələsində əldə olunmuş məlumatlara əsasən qurur. İşçi plan arzu olunan nəticəni əldə etmək üçün sosial işçi tərəfindən gələcək fəaliyyətin detallaşdırılmasıdır. İşçi planda müdaxilənin obyekti, təklif olunan xidmətlər, onların məqsədi, sosial işçi və kliyent arasında görüşlərin məqsədi, vaxtı və forması, yolverilməz qayğının nədən ibarət olduğu, dəyişdirilməli olan amillər, dəyişdirmə yolları nəzərə alınır.

Müdaxilə mərhələsində sosial işçi kliyentin situasiyasının dəyişdirilməsi istiqamətində real addımlar atır. Kliyentin probleminin həll olunması və vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş pozitiv dəyişiklikləri nəzərdə tutan müdaxilə nəzəriyyələrə, metodlara, modellərə əsaslanır.

Müdaxilə zamanı sosial işçi aşağıdakı nəzəriyyələrdən faydalana bilər:

- Psixodinamik;
- Davranış;
- Koqnitiv-davranış (idrak-davranış)
- Kliyent üzərində mərkəzləşdirilmiş terapiya;
- Sistemli müdaxilə;
- Sosial nəzəriyyələr.

Eləcə də, sosial işçi kliyentin fərdi durumuna uyğun müdaxilə metodu və modellərinə müraciət edə bilər. Bura məqsəd üzərində mərkəzləşdirilmiş müdaxilə; böhran hallarında müdaxilə (böhran hallarının idarə olunması) və s. aid etmək olar.

Müdaxilənin icrası zamanı sosial işçi və kliyent arasında xüsusi münasibətlər formalaşmalıdır. Sosial işçi müdaxilə məqsədlərini, məqsəd yolunda mümkün maneələri, onların aradan qaldırılması yollarını kliyentlə birgə müzakirə və təhlil etməli, kliyentin özünə inamının artmasına nail olmalıdır. Kliyent davamlı olaraq öz güclü tərəflərini inkişaf etdirməlidir.

Monitorinq və nəzarət zamanı göstərilən sosial xidmətlərin keyfiyyəti sosial işçi tərəfindən yoxlanılır. Eləcə də, sosial işçi kliyentin öz öhdəliklərinə riayət edib-etməməsinə də nəzarət edir.

Sonuncu, yekunlaşdırma mərhələsində qarşıya qoyulmuş məqsədə nail olunmasından asılı olaraq iş prosesinin yekunu planlaşdırılır. Sosial işçi işi bitirdikdən sonra yardım prosesinin nəticələrini qiymətləndirir, kliyentin əldə etdiyi dəyişikliyi saxlamaq üçün plan tərtib edir, yardım prosesində yaranan münasibətlərə uğurlu son qoyur.

Sosial işçi kliyent ilə bilavasitə işin qurulması və aparılmasına, onların ehtiyaclarının müəyyən edilməsi və qiymətləndirilməsinə, həmçinin fərdi qayğı və inkişaf proqramlarının hazırlanmasına və həyata keçirilməsinə məsuliyyət daşıyır. Lazım gəldikdə onlara davranışlarını dəyişməyə və gələcəkdə təkrar hüquq pozuntularına yol verməməkdə yardım edir [3].

Cəza çəkməkdən azad edilmiş şəxslər adətən, azadlığa çıxdıqdan sonra dövlət tərəfindən onların sosial müdafiəsi ilə bağlı təminatlardan xəbərsiz olurlar. Sosial işçi ehtiyac yarandıqda bu kateqoriyadan olan şəxslərlə dövlət orqanları və qurumları arasında əlaqələndirici rolunu oynayır. Lazım gəldikdə sosial işçi müvafiq orqanlara və qurumlara müraciətin hazırlanması və tərtibi işlərində kliyentə köməklik etməlidir. Bu hal cəza çəkməkdən azad edilmiş şəxsin rastlaşdığı problemlərin həlli istiqamətində müsbət addımdır.

Yuxarıda qeyd olunanları ümumiləşdirib aşağıdakı nəticəyə gələ bilərik:

1. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin rastlaşdıqları problemlərin həlli istiqamətində sosial işçi ilk növbədə onların hüquq və azadlıqlarının təmin olunmasına diqqət yetirməli, lazım gəldikdə onlara bu barədə izahlar verməlidir.

2. Sosial işçi gələcəkdə törədilə biləcək hüquq pozuntularının qarşısının alınması məqsədilə maarifləndirici tədbirlər, treninqlər təşkil etməli, həmin şəxslərin savadlılığını artırmalıdır.

3. Sosial İşçi hər bir kliyentə fərdi yanaşmalı, eyni problemli kliyentlərlə onların xüsusiyyətlərinə uyğun davranmalıdır.

## ƏDƏBİYYAT

1 Seyidov N., Aşumova K., Məmmədli G., Əhmədova G. Yetkinlik yaşına çatmayanlar arasında cinayətkarlığın və hüquq pozuntularının profilaktikası və ədalət mühakiməsi zamanı tərbiyəvi xarakterli alternativ tədbirlərin tətbiqi. Bakı, 2014, 112 s.

2. Sosial Xidmət haqqında Azərbaycan Respublikasının Qanunu http://www.e-qanun.az/framework/23195

3. Дулов А.В. Судебная психология. Учебное пособие. Минск: Высщейшая школа, 1970, 392 с.

4. Стручков Н.А. Советская исполнительно-трудовая политика и ее роль в борьбе с преступностью. Саратов: Издательство СУ, 1970, 271 с.

## PENİTENSİAR MÜƏSSİSƏLƏRDƏ CƏZA ÇƏKMƏKDƏN AZAD EDİLMİŞ ŞƏXSLƏRİN RASTLAŞDIQLARI PROBLEMLƏRİN HƏLLİNDƏ SOSİAL İŞÇİNİN ROLU

## XÜLASƏ

İnsan həmişə ətraf aləmlə qarşılıqlı əlaqədə olur və yalnız orada özünü şəxsiyyət kimi təsdiq edir. Çünki cəmiyyətdə onun tələblərinə uyğun olmadan yaşayan şəxsin müxtəlif problemlərlə üzləşməsi labüddür.

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər sosial həyata keçid prosesində bir sıra problemlərlə rastlaşırlar. Ehtiyacların ödənməməsi, məhsuldar sosial əlaqələrin bərpasındakı çətinliklər, iqtisadi problemlər, sosial-maddi çətinliklər, yaşayış yerinin olmaması, sosial diskriminasiya və

stiqmatizasiya cəza çəkməkdən azad edilmiş şəxsin əhatəsində müxtəlif və çətin həll olunan problemlər formalaşdırır. Bu problemlər isə, həmin şəxslərin tam şəkildə resosializasiyasını çətinləşdirərək, xeyli hissəsini yenidən cinayət törətməyə sövq edir.

Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin rastlaşdığı problemlərin həlli istiqamətində sosial iş və sosial işçinin mühüm rolu vardır. Qeyd edə bilərik ki, sosial iş peşədir və daha çox praktiki sahədə olan bir ixtisasdır. O, insanların sosial müdafiəsini, onların problemlərinin həllini və həyatlarının dəyişdirilməsi yolu ilə rifahlarının yüksəlməsini nəzərdə tutur. Problem həlli və sosial dəyişdirmə funksiyaları sosial işi proses kimi xarakterizə edir. Sosial iş sosial problemlərin aradan qaldırılması və çətin həyat şəraitində yaşayan insanlara birdəfəlik yardım deyil, sistemli və təşkil olunmuş elmi yanaşmadır.

## РОЛЬ СОЦИАЛЬНОГО РАБОТНИКА В РЕШЕНИИ ПРОБЛЕМ ЧЕЛОВЕКА, ВЫШЕДШЕГО НА СВОБОДУ

### АННОТАЦИЯ

Человек всегда взаимодействует с окружающим его миром и только там он утверждает себя как личность. Потому что неизбежно, что человек, живущий в обществе, которое не соответствует его требованиям, столкнется с различными проблемами.

Люди, освобожденные из пенитенциарных учреждений, сталкиваются с рядом проблем в процессе перехода к общественной жизни. Неспособность удовлетворить потребности, трудности в восстановлении производственных социальных связей, экономические проблемы, социально-материальные трудности, бездомность, социальная дискриминация и стигматизация создают различные и сложные проблемы для человека, освобожденного из тюрьмы. Эти проблемы затрудняют для этих лиц полную ресоциализацию и побуждают многих вновь обидеть.

Социальная работа и социальный работник играют важную роль в решении проблем, с которыми сталкиваются лица, освобожденные из пенитенциарных учреждений. Можно отметить, что социальная работа - это профессия и специальность в более практической сфере. Он предусматривает социальную защиту людей, решение их проблем и улучшение их благосостояния путем изменения их жизни. Функции решения проблем и социальных изменений характеризуют социальную работу как процесс. Социальная работа - это не единовременная помощь для решения социальных проблем и людей, живущих в трудных жизненных условиях, а системный и организованный научный подход.

## THE ROLE OF A SOCIAL WORKER IN RESOLVING HUMAN PROBLEMS, DISCONTINUED FROM PUNISHMENT IN INSTALLED INSTITUTIONS

### SUMMARY

A person always interacts with the world around him and only there does he affirm himself as a person. Because it is inevitable that a person living in a society that does not meet his requirements will face various problems.

People released from prisons face a number of problems in the transition to public life. Inability to meet needs, difficulties in restoring production social relations, economic problems, social and material difficulties, homelessness, social discrimination and stigmatization create various and complex problems for a person who is released from prison. These problems make it difficult for these individuals to complete resocialization and encourage many to offend again.

Social work and the social worker play an important role in solving the problems faced by persons released from prisons. It can be noted that social work is a profession and a specialty in a more practical sphere. It provides for the social protection of people, solving their problems and improving their well-being by changing their lives. The functions of solving problems and social changes characterize social work as a process. Social work is not a one-time help to solve social problems and people living in difficult living conditions, but a systematic and organized scientific approach.

# GƏNCLƏRDƏ ANTİSOSİAL ŞƏXSİYYƏT POZUNTUSU

***Fizzə İnqilabzadə***
***BDU-nun II kurs magistrantı***
***fizo.fizi@bk.ru***

***Açar sözlər:*** Davranış pozuntusu, şəxsiyyət pozuntusu, antisosial şəxsiyyət pozuntusu, gənclərdə antisosial davranış, xəstəliyin simptomları və müalicəsi
***Ключевое слово:*** Расстройства поведения, расстройство личности, антисоциальное расстройство личности, антиобщественное поведение у молодежи, симтомы и лечение заболевания
***Key words:*** Behavioral disorders, personality disorders, antisocial personality disorders, antisocial behavior in young people, symptoms and treatment of the disease.

İnsanlar bir-biriylə ünsiyyət qurmaq istədiyi zaman, çalışırlar ki,münasibətdə olduqları insanların xarakterinə uyğun davransınlar. Belə olduğu halda insanlar uzun müddət bu münasibəti qoruyub saxlaya bilir, əks halda isə bu münasibətləri qoruyub saxlaya bilmirlər. Şəxsiyyət pozuntuları zamanı isə mövcud olan xəstəlik əlamətlərinə görə şəxs ictimai münasibətlərə uyğunlaşa bilmir.İnsanlarda mütəmadi olaraq qeyri-adekvat davranışlar özünü göstərir. Bəziləri aqressiv bəziləri təşvişli,bəziləri isə heç kimə etibar etmirlər, amma hamısının norma xaricində olduğu görünür. Bu cür davranışlara meyilli olan şəxslərin cinayətə, alkoqol içkilərin qəbuluna, intihara daha çox meyil etdiyi görülür. Şəxsiyyət pozuntularının müxtəlif növləri vardır ki, onlardan biridə Antisosial şəxsiyyət pozuntusudur.

Davranış pozuntusunun əsas xüsusiyyəti davamlı və qalıcı davrabış modelləridir ki,burada başqalarının haqları yaxud şəxsin yaşına uyğun sosial normaları pozulur. Antisosial şəxsiyyət pozuntusu şəxsin cəmiyyət tərəfindən qəbul etmiş olduğu normal qayda və qanunlara əməl etməməsi,eləcədə insanların normal davranışlarından fərqli şəkildə davranmasıdır. Qeyd edək ki,antisosial şəxsiyyət pozuntusu düşünmədən ani hərəkətlər etmək,fərdi mənafeyi ya da zövq üçün yalan danışma,aldatma və qanunsuz həyata keçirmə, başqalarının duyğularını əhəmiyyətsiz hesab etmək, əsəbiləşmək təcavüzkarlıq və zor tətbiq etmək,təhlükəsizlik və ya məsuliyyəti boynuna götürmək kimi mövzulara tamamilə laqeyd qalmaq, ağrıma duyğusunun olmaması ilə özünü büruzə verir. Amma psixoloqlar insanların belə davranışlar nümayi etdirməsini qabiliyyətsizlik, mədəniyyətsizlik yox xəstəlik hesb edirlər. Antisosial şəxsiyyət pozuntusu tipik olaraq uşaqlıq və ya erkən gənclik dövründə başlayar və yetişkinlik dövründə davam edər. Antisosial şəxsiyyət pozuntusu olan şəxslərin sərgilədiyi davranışlar:

1.Qanuna əməl etməmək;
2.Başqalarının haqlarını tanımamaq;
3.Başqalarını manipulyasiya etmək.

Bu pozuntuya malik insanlar qanuna əməl etmədikləri üçün peşmanləq hiss etmirlər. Hər hansı bir peşmanlıq hiss etmədən başqalarına yalan söyləyib onları riskə atırlar.aparılan araşdırmalar onu göstərir ki,kişilərin yüzdə 3-nün və qadınların yüzdə 1-nin antisosial şəxsiyyət pozuntusu vardır. Bu pzuntunun yaranma səbəbi dəqiq bilinməsədə genetik və ətraf mühit faktorları burada mühüm rol oynayır. Digər faktorlar:

1.Uşaq yaşında istismar edilmək;
2. Kibirli olmaq;
3. Başqalarını manipulyasiya etmək;
4. İstədiklərini əldə etmək üçün zarafatcıl və şəkici davranmaq;
5. Oğurluq;
6. Aqressiv davranmaq və tez-tez dava etmək;

7. Qanuna əməl etməmək;

8. Davranışları üşün günahkarlıq və peşmanlıq hiss etməmək.

Gənc nəslin əxlaqi dünyagörüşə,yüksək əxlaqi keyfiyyətlərə malik olan şəxsiyyət kimi tərbiyə olunması problemi hər zaman cəmiyyət qarşısında duran ən mühüm vəzifələrdən biridir. Aparılan araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki,cəmiyyətə zidd hərəkətlər adətən gənclərin inkişafının daha erkən dövrlərində baş verir. Hələ 9-10 yaşlılar arasında məktəb əmlakının qəsdən dağıdılması,oğurluq və s bu kimi antisosial davranış tərzləri müşahidə olunur. Belə hallarda oğurlanmış və dağıdılmış əşyalar bir o qədər önəm daşımır. Buna görədə günahkar çox zaman axtarılmaz və ya axtarılması formalitə xarakteri daşıyır. Təbii ki, belə tədbirlər cəmiyyətə zidd hərəkətlərinə görə cəzalandırılmayan gənclərin gələcək inkişafına düzgün təsir göstərməyə bilər. Şagird və tələbə gənclərin şəxsiyyətinin sosial-psixoloji vəziyyəti onun intellektual, emosional, iradi və əxlaqi əlamətlərinə öz təsirini göstərir.

Gənc nəslin şəxsiyyətinin kriminogen xüsusiyyətlərini tam olaraq onların psixoloji və fiziolojio inkişafının gecikməsi və ya geri qalması ilə də izah etmək düzgün olmazdı. Eyni zamanda bu şagird və tələbələrin düşdüyü, tərbiyə aldığı, inkişaf etdiyi mühitin təsiri altında sosiallaşma prosesinin pozulması ilə də bağlıdır. Çünki sosiallaşma prosesində onların şəxsiyyətinin strukturunda yaranmış boşluqları sosial-neqativ anlamlı ehtiyaclar tutarsa, təbii olaraq belə yeniyetmə və gənclərin antisosial davranışa meyli olması üçün zəmin yaranmış olur. Ona görə də belə şagird və tələbələrin psixoloji özəlliklərini diqqətə alaraq onların mənəvi həyatının anlamını, mikrososial ortamını dəyişməklə hüquqazidd davranışın və həyat tərzinin məzmununu düzgün istiqamətdə dəyişmək olar. Belə olduğunda onların arasında cinayətkarlığa meyilliliyi ilkin mərhələdə aşkar etmək və aradan qaldırmaq mümkün olur.

Əksər tədqiqatçıların fikrincə, şagird və tələbələrin antisosial davranışının qarşısını almaq və onun tənzim edilməsi üçün ən mühüm amil onların təlim və tərbiyə işinin düzgün təşkil edilməsi ilə bağlıdır. Şagird və tələbələrin düzgün tərbiyə olunması məsələsi onların ailədə,təhsil ocaqlarında və sosial mühitdə necə tərbiyə olunmasından, həmçinin tərbiyə prosesində hansı psixoloji təsir üsullarından istifadə edilməsindən asılıdır. Səbəblərinə gəldikdə isə burada əsas rol sosial amillərdir. Yəni valideyinlərin qatı qaydalar qoyması və ya heç qayda qoymaması, cəzaların verilməsi, fiziki və cinsi zorakılıq, ailə qayğısı olmadan böyümək aqresiv davranış pozuntusuna aid olan səbəblərdən hesab olunur. Ailədaxili münaqişələr yaşanan,alkoqolizmdən əziyyət çəkən valideynlər, hansısa bir cinayət törətmiş valideynlər, qayğ və diqqətin olmadığı ailələrin uşaqlarında bu pozuntuların olma ehtimalı olduqca yüksəkdir.

Yuxarıda sadalanmış olan səbəblərin hamısının olması şərt deyil, sadəcə bir səbəbin daimiliyi belə bir problemin yaşanmasına səbəb ola bilər. Bəzən valideyinlər uşaqlarda belə bir problemin olmasını nevroloji səbəblərlə əlaqələndirsələrdə bu psixoloji problemdir və korreksiyasi yalnız psixoloqlar tərəfindən mümkündür. Müalicə prosesi zamanı terapiyada ailə üzvlərinin xüsusəndə ata və ananın iştirakı vacibdir. Belə tip uşaqlar öz hislərini ifadə edə bilmədikləri üçün dağıdıcı davranışlar göstərirlər.

Belə olduqda isə psixoloqlar medikal müdaxilələr etmək məcburiyyətində qalırlar. Aqressiv davranışın ilkin əlamətləri 5-6 yaş arasında başlayır və 10 yaşına çatdıqda tamamlanır.18 yaşına qədər profesional müdaxilə olmazsa,antisosial şəxsiyyət pozuntusuna çevrilir. Antisosial şəxsiyyət pozğunluğu adlandırılan xəstəliyin qeyri-rəsmi adı "Sosyopati"olaraq qeyd edilir.Psixopatlar sosiopatlarla müqayisədə çox şübhəli və ya paranoyak olurlar və bu şübhəli vəziyyətin nəticələri qorxunc olabilir. Antisosial pozuntusu olan şəxslərin ortaq xüsusiyyətləri bunlardır:

1.Yalan danışmaq və oğurluq etmək;

2.Məhkəmə-cəza sistemi ilə davamlı olaraq problemlər yaşamaq;

3.Alkol və ya narkotik maddə istifadəsi;

4.Şiddətli davranış,davaya qarışmaq;

5.Sinirlilik və əhval pozğunluğu hissetmə (disfori)

## ƏDƏBİYYAT

1. https://psixologiyajurnal.az/smode=content&item=Şəsiyyət_Pozuntuları
2. Əhmədova E.E. Yeniyetmələrin cinayət işləri üzrə məhkəmə-psixoloji ekspertizası problemləri
3. Əhmədova E.E. Yeniyetmələrin cinayət əməli törətməsinin qarşısının alınması problemi/Bakı Dövlət Universiteti elmi konfransının materialları, Bakı Universiteti nəşriyyatı,1999
4. https://Psikolojigazetesi.com/antisosyal-kişilik-bozukluğu/
5. https://www.muthipsixoloji.com/asosyallik-antisosial kişilik bozukluğu

## XÜLASƏ

Qeyd etdiklərimizi ümumiləşdirərək belə nəticəyə gələ bilərik ki: beləliklə, gənclərdə antisosial davranışın müxtəlif təzahürlərə malik olmas,ilk növbədə,onların yaş xüsusiyyətlərinin düzgün nəzərə alınmamasında,həmçinin onlara psixoloji təsir üsüullarının uyğun olan yol və vasitələrindən düzgün istifadə edilməməsindən asılıdır. Məqalədə o da deyilir ki, hər bir gənc və yeniyetmə şəxsiyyətinin inkişafına, davranış və rəftar tərzinə onun psixoloji özəllikləri ilə birlikdə sosiallaşma şəraiti,aldığı təlim və tərbiyənin məzmun və hərəkəti əsaslı surətdə təsir göstərir.

## АННОТАЦИЯ

Исходя из вышеизложенного, мы можем сделать вывод, что: таким образом, молодые люди не имеют различных проявлений антисоциального поведения, в первую очередь из-за того, что их возрастные характеристики не поняты должным образом и что соответствующие способы и средства психологического воздействия на них не используются должным образом. Кроме того, характер социализации, наряду с ее психологическими характеристиками, в значительной степени зависит от содержания и поведения обучения и образования, которое она получает.

## SUMMARY

Based on the foregoing, we can conclude that: thus, young people do not have different manifestations of antisocial behavior, primarily due to the fact that their age characteristics are not understood properly and that the corresponding methods and means of psychological influence on them are not used properly. In addition, the nature of socialization, along with its psychological characteristics, largely depends on the content and behavior of the training and education that it receives.

# GƏNCLƏRDƏ ZƏRƏRLİ VƏRDİŞLƏR: TARİXİ VƏ NƏZƏRİ ASPEKTLƏRİ

***Samir Əsədli***
***BDU-nun II kurs magistrantı***
***samir.esedov.738@gmail.com***

***Açar sözlər***: tütün və alkoqolun vurduğu zərərlər, zərərli vərdişlərin hədəfi olan yaş qrupları, içki, narkomaniya, yayılma səbəbləri
***Ключевые слова***: ущерб вызванный табаком и алкоголем,цель вредных привычек, алкоголь, сигарета, наркомания.
***Key words***: Harm of tobacco and alcohol, age groups of harmful habbit's, alcohol, cause of spread.

Qədim dövrlərdən indiyə kimi zərərli vərdişlər,onların törətdiyi fəsadlar hər zaman aktual bir problem olmuşdur. Zərərli vərdişlərlə mübarizə məqsədilə hər zaman yeni-yeni yollar axtarılmış, tədbirlər görülmüşdür. Belə tədbirlərə maarifləndirici seminarları, televiziya reklamlarını, həmin vərdişlərin törətdiyi fəsadların insanlara çatdırılmasını və s. göstərmək olar. Belə tədbirlər daim ölkəmizdə də həyata keçirilməkdədir.

Binəqədi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatı, Binəqədi Rayon Gənclər və İdman İdarəsi və HB Co.LTD –nin birgə təşkilatçılığı ilə Binəqədi rayonu üzrə orta ümumtəhsil məktəblərində "Tütün və alkoqolun insan sağlamlığına vurduğu zərərin tibbi aspektleri" mövzusunda seminar – müsabiqəyə start verilmişdir.

Seminar-müsabiqə çərçivəsində ilk açılış tədbiri Binəqədi rayonu 276 saylı orta məktəbdə keçirilib. Tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Binəqədi Rayon Təşkilatının aparat rəhbəri Qabil Qafarov qonaqları təqdim edib, tədbirlər çərçivəsinde Binəqədi rayonu üzrə 32 məktəbi əhatə edəcək 7 seminarın keçiriləcəyini bildirib, tütün, alkoqol və digər zərərli vərdişlərin gənclərin sağlamlığına müxtəlif dərəcəli ziyan vurduğunu qeyd edib. Tədbirdə çıxış edən Narkomaniyaya və Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Dövlət Komissiyasının işçi qrupunun əməkdaşı Şahin İsmayılov dövlət tərəfindən bu istiqamətdə görülən işlərdən danışıb, narkomaniyanın böyük bəla olduğundan ve bu istiqamətdə respublikamızda Dövlət Proqramının qəbul edildiyindən və icrasından danışıb. Sonra çıxış edən Binəqədi Rayon Gənclər və İdman İdarəsinin rəisi Qüdsi Bayramov gənclərin asudə vaxtının səmərəli təşkilinin vacibliyini qeyd edib, gəncləri tütün, alkoqolı və digər zərərli vərdişlərdən uzaq olmağa ve daha çox yaradıcılıqla məşğul olmağa səsləyib. O, gəncliyin sağlam əsaslar üzerində böyüməsinin vacibliyini qeyd edib.

Tədbirin təşkilatçılığına görə Binəqədi Rayon İcra Hakimiyyəti, YAP Binəqədi Rayon Təşkilatı ve Binəqədi Rayon Gənclər ve İdman İdarəsinə öz təşekkürünü bildirən HB.Co.LTD - nin baş direktoru Hikmet Butayev gəncləri tütün, alkoqol ve narkomaniya kimi sosial bəladan uzaq olmağa səsləyib.

Həkimlər çoxdan həyəcan təbili çalırlar ki, siqaret çəkmək, spirtli içkilər içmək, pis qidalanmaq və hərəkətsiz həyat tərzi keçirmək sağlamlığa pis təsir göstərir. Amma indi mütəxəssislər zərərli vərdişlərlə bağlı riskləri, eləcə də hər bir zərərli vərdişin insan ömrünü nə qədər qısalda biləcəyini hesablayıblar. Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, Ottava Universitetinin (Kanada) tədqiqatçılar qrupunun qənaətinə görə, bu müddət 6 ildir. Üstəlik, siqaret çəkmək və fiziki fəaliyyətsizlik zərərli vərdişlərin ən pisidir. Alimlərin apardığı tədqiqatın nəticələri göstərib ki, bütün ölüm hallarının 26 faizi siqaret çəkmək, 24 faizi fiziki fəaliyyətin yoxluğu, 12 faizi pis qidalanma və 0,4 faizi alkoqollu içkilərə aludə olmaqla bağlıdır.

Kişilər üçün siqaret çəkmək başlıca risk amilidir və onların ömrünü 3,1 il qısaldır. Qadınlar üçün əsas risk amili isə az hərəkətli həyat tərzidir ki, bu da onların ömründən 3 il qoparır. Mütəxəssislər, həmçinin aşkar ediblər ki, zərərli vərdişi olanlarla müqayisədə sağlam həyat tərzi keçirən insanlar, orta hesabla, 17,9 il çox yaşayırlar. Ekspertlərin sözlərinə görə, əldə edilən nəticələr konkret sosial-demoqrafik qrupların ömrünü müəyyən etməyə kömək edə bilər. Alimlər "Project Big Life" adlı onlayn kalkulyator yaradıblar ki, vərdiş və həyat tərzləri əsasında ömür müddətlərini hesablamaqda insanlara kömək etsinlər.

Vərdiş – ikinci xasiyyətir, odur ki, hər bir valideyn övladında yaxşı keyfiyyətlərin, incə, zərif, mədəni etiketlərin formalaşmasını **arzulayır.** Çünki əksər hallarda insanın cəmiyyətdə qəbul edilməsi məhz davranışından asılı olur.

Ancaq heç kim üçün sirr deyil ki, uşaqlarda tez-tez xoşagəlməz vərdişlər də müşahidə edirik. Onlardan ən çox rast gəlinəni – dırnaq yemək, barmaq sormaq, burun qurdalamaq, ağzı açıq yemək, saçları barmağa dolamaq və s.-dir. Pis, xoşagəlməz vərdişlərdən qurtulmaq lazımdır. Və nə qədər tez qurtulsaq, bir o qədər yaxşıdır. Uşaqlarda bəzi mənfi vərdişlərin əmələgəlmə səbəblərini və onlardan xilas olmağın yollarını araşdıraq. Özümüzə kənardan baxaq. Pis vərdişlərin tərgidilməsində ailədə qarşılıqlı münasibətlərin normallaşmasının, uşağa, onun problemlərinə qarşı diqqətli münasibətin yaranmasının çox böyük önəmi var.

Mütləq uşaq üçün vaxt tapmaq, ona evdə, küçədə, məktəbdə özünü necə aparmağı, bir sözlə, elementar davranış qaydalarını öyrətmək lazımdır. Əgər uşaq yemək yeyərkən ağzını marçıldadır və ağzı açıq çeynəyirsə, həmin an onun qarşısına ayna qoya bilərsiz. İmkan yaradın, uşaq aynada özünə baxsın. Yəqin ki, o, aynada gördüyü mənzərəni bəyənməyəcək və tezliklə məsələ həll olunacaq.Lakin bir incə məqamı nəzərdən qaçırmayın ki, uşaq bu zaman ailənin bir üzvü olduğunu, həm də sayılan, sevilən bir üzvü olduğunu hiss etməlidir. Alternativ həll yollarını tapmaq lazımdır. Depressiya, pis əhvali-ruhiyyə uşaqlarda zərərli vərdişlərin, məsələn, stress vaxtı dırnaq yemək, saçlarını didişdirmək kimi vərdişlərin formalaşmasına səbəb olur. Böyüklər həyəcan və narahatçılığın səbəblərini aydınlaşdırmalı və onları dəf etməkdə övladlarına yardım etməlidirlər. Əgər uşaq sadəcə darıxdığından dırnaqlarını yeyirsə, ona alternativ məşğuliyyət təklif etmək olar – ləpə, tum, quru meyvələr və s. Saçlarını barmağına dolamasın, didişdirməsin deyə onları qısa vurdurmaq və "at quyruğu" yığmaq olar. Əgər zərərli vərdişin səbəbləri əsəbi gərginlikdirsə, sakitləşdirici çaylardan istifadə etmək olar.

Çox vaxt uşaqlar sadəcə böyükləri yamsılayırlar.Bu halda özünüzdən başlamalısınız. Ən yaxşısı, uşaqla razılığa gəlin: bir-birinizin hərəkətlərinə nəzarət edin, xöşagəlməz vərdişləri əl-ələ verərək dəf edin. Unutmayın: uşaqları tərbiyə edərkən onları utandırmaq və "bir daha etməyəcəm" vədi almaq lazım deyil. Bununla yalnız və yalnız uşağa psixoloji zərbə vurmuş olarsınız. Bu problemi aradan qaldırmaq isə daha çətindir, nəinki vərdişi tərgitmək. Valideynlər bir məqama xüsusi diqqət etməlidirlər: uşaqla deyil, zərərli vərdişlərlə mübarizə aparmaq lazımdır.

Zərərli vərdişlərdənən aktual və dəhşətlisi də narkomaniyadır.

Narkomaniya hal-hazırda bütün dünyanın mübarizə apardığı lakin təəssüf ki qarşısını tamamilə ala bilmədiyi böyük bir problemdir. Mərkəzi sinir sisteminə spesifik təsir göstərən və tez bir zamanda asılılıq yaradan maddələrə narkotik maddələr deyilir. Narkomaniya digər vərdişlərə görə daha təhlükəlidir: narkodilerlər (narkotikləri satan insanlar) həmişə yeni alıcı axtarışında olur. Onlar maddi imkanı aşağı olan gəncləri tapdıqları kimi asanlıqla maddi imkanı çox yaxşı olan gəncləri də tora sala bilirlər. Abstinensiya halı çox əziyyətli olduğuna görə narkotikdən istifadə edən gənc yeni doza əldə etmək üçün əlindən gələni edir. Narkotikdən istifadə edənlərin əksəriyyəti gənc ikən ölür - onlar cinsi yolla yoluxan infeksiyalara, o cümlədən HİV-lə və ya hepatit C-yə yoluxur, bəziləri isə uzun müddət müalicə alaraq ailəsi və cəmiyyət üçün bir yükə çevrilir.

Narkomaniyanın tarixinə nəzər salaq:

Təkcə yaxşı şeylərin tarixi olmur. Qəribə də səslənsə narkomaniyanın tarixinin nə zamana söykəndiyinə nəzər salaq. Tarixə baxsaq, görərik ki, narkomaniya sadəcə müasir dövrün və ya bir neçə əsrin bəlası deyil. Təəssüf ki, narkomaniyanın tarixi çox qədimdir. Hələ eramızdan əvvəl narkotik tərkibli vasitələr haqqında məlumatlara yunan, Roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlinir. Avropa və Asiya qitələrində məskunlaşmış xalqların mifologiyasında yağlı xaşxaş insanların ağrı və əzablarını azaldan vasitə kimi qəbul olunurdu.

Xaşxaş qozasından alınan cirə - yəni tiryək tibbi məqsədlər üçün istifadə olunub. Ümumiyyətlə, tiryəkli preaparatlar orta əsrlərdə təbabətdə geniş yayılmışdı. Tiryəkdən hazırlanan dərmanlardan ruhi xəstələri sakitləşdirmək, əzabları azaltmaq, spazm və sarsıntıları götürmək, pozulmuş əsəb-sinir sistemini bərpa etmək kimi müalicə işlərində istifadə olunurdu.

Şərq ölkələrinə səyahətə çıxanlar tiryək istehsalçılarının acınacaqlı vəziyyətini görən zaman bunu yanlış olaraq həmin xalqın ənənələri ilə bağlayır, hətta Hindistanı gəzən bir alim tiryəkdən asılılığı belə şərh edir: "Kim tiryəkə vərdiş edibsə, onu hər gün qəbul etməlidir".

XIX əsrdə Fransada "Həşişçilər məclisinin" üzvü şair Şarl Bodler "Süni cənnət" əsərində asılı olduğu "ağ sərxoşluq" mərhələsini şəxsi təcrübəsinə əsaslanaraq belə təsvir edir: "Bilmirəm, həşişdən ölümcül zəhərlənmənin nəticələri ilə on illik təcrübədən keçmiş tiryəkçilərin süqutu arasında bərabərlik işarəsi qoymaq olar, ya yox, lakin mən təsdiq edirəm ki, onların biri sakitcə tovlayan həşiş, digəri isə əndazə bilməyən iblisdir".

Lev Tolstoy isə deyir: "Mən dünyada iki böyük bədbəxtlik tanıyıram: bunlardan biri vicdan əzabı, o biri də sağalmaz xəstəlik olan narkomaniyadır".

Narkotik asılılığın elmi anlayışı isə ilk dəfə XVIII əsrin əvvəllərində verilib. XX yüzilliyin sonunda artıq narkomaniya ümumbəşəri bəlaya çevrilərək müxtəlif xalqların genofonduna sarsıdıcı zərbələr vuran, qarşısıalınmaz bir təhlükəyə çevrildi. Digər bir tərəfdən isə narkotik maddələrin qanunsuz dövriyyəsi, gəlir əldə etmək üçün başlıca vasitə oldu.

Azərbaycanda da narkomaniyaya qarşı ciddi tədbirlərin görülməsinə baxmayaraq çox təəssüf ki, ölkədə narkotik istifadəçilərinin sayı artmaqdadır. Yeniyetmə və gənclər isə narkomaniyaya daha çox meyl edənlər cərgəsindədirlər.

Bu barədə mətbuata açıqlama verən Narkotiklərə Qarşı Milli Təbliğat Ofisinin sədr müavini Leyla Yolçiyeva bildirib ki, Azərbaycanda rəsmi olaraq narkotik istifadəçilərinin sayı 30 min nəfərdən çoxdur: "Azərbaycanda narkotik vasitələrdən daha çox kişilər istifadə edir. Amma qadınlar arasında da narkomaniyaya meyl edənlərin sayında artım qeydə alınır. Məhz bu səbəbdəndir ki, ölkədə qadın narkotik istifadəçilərinin sayı 855-ə çatıb.

Qadınlarla yanaşı, məktəblilər arasında da narkotik istifadəçilərinin sayının artması narahatlıq doğuran hallardandır. Narkotacirlər artıq uşaqlar və qadınları da cəlb edir. Şirnikləndirmək məqsədi ilə narkotik maddələr sadə insanlara əvvəlcə pulsuz paylanır. Araşdırmalara görə, tora düşənlər daha çox subay xanımlardır. Amma belə insanlar arasında ailəli qadınların da sayı az deyil. Elə olur ki, qadınları bu yola narkoman ərlər vadar edir".

O qeyd edib ki, Azərbaycanda narkomaniya cavanlaşır və bu isə cəmiyyətdə təəssüf hissi yaradır: "Tələbələr, məktəblilər arasında narkotik istifadəçilərinin sayı artır. Çünki onları təsir altına salmaq daha asandır. Xüsusən də yuxarı sinif şagirdləri ailədə olan maddi problemlər, özünə inamsızlıq, stress, depressiya halları insanların yolunu azdırır və bu zaman onlar çıxış yolun bihuşedici maddələrdən istifadədə görür. Məktəblilər arasında narkotik istifadəçilərin sayı artmasına ailədə onlara qarşı diqqətin azalması səbəb olur. Bundan başqa, ailədə problemlərin, zorakılığın olması onları pis vərdişlərə yönəldir. Narkotik vasitələrdən asılı olanlar deyir ki, onlar müxtəlif problemə görə depressiyaya düşdüklərindən çıxış yolunu narkotik vasitədən istifadədə görür.

Narkotik maddələrə meyl edənlərin sağalması üçün ailənin üzərinə böyük məsuliyyət və vəzifə düşür. Ailələr ictimai qınaqdan qorxduğuna görə həqiqəti qəbul etmir və övladını qeydiyyata salmaq istəmir. Ancaq valideyn bilməlidir ki, övladını narkoloji mərkəzə

aparmamaqla onun gələcəyinə zərər vurur. İlkin vaxtlarda onu sağaltmaq olar. Bu problemi hiss edən valideyn ilk növbədə Narkoloji Mərkəzə müraciət etməlidir. Bəzi həkimlər belə şəxsləri sağalda biləcəyini deyir, amma mütəxəssislərə müraciət etmək lazımdır. Narkoloji Mərkəzdə anonim şəkildə də qeydiyyata düşmək mümkündür. Burada müalicə təkcə dərmanlarla deyil, psixoloji söhbətlərlə də aparılır. Vaxtında müalicəolunmayan şəxslərdə qaraciyər tamamilə sıradan çıxır, orqanizm öz fəaliyyətini dayandırır".

## ƏDƏBİYYAT

1. https://axar.az/news/31299
2. Zərərli vərdişlər ömürdən 6 il qoperda bilər // https://metbuat.az/news/502925/zererli-verdisler-omurden-6-il-qopara-biler.html
3. Narkomaniyanın yayılma səbəbləri // https://azadinform.az/az/publika/58141/ narkomaniyanin-yayilma-sebebleri/
4. https://www.pinterest.com/pin/385409680584102057/

## GƏNCLƏRDƏ ZƏRƏRLİ VƏRDİŞLƏR: TARİXİ VƏ NƏZƏRİ ASPEKTLƏRİ

## XÜLASƏ

Məqalədə zərərli vərdişlərin yayılma səbəbləri,tarixi,yaş qruplarına təsiri təhlil edilmişdir.Zərərli vərdişlərin ən çox təsir göstərdiyi təbəqə bildiyimiz kimi uşaqlardır.Məqalədə həmçinin də yeniyetmələrin zərərli vərdişlərdən çəkindirilməsi,bu haqda maarifləndirilməsi göstərilmişdir.Zərərli vərdişlərin içində narkomaniya və alkoqolizm öz zərərliyinə görə çox mühüm əhəmiyyət daşıyır.

## ВРЕДНЫЕ ПРИВЫЧКИ У МОЛОДЕЖИ: ИСТОРИЧЕСКИЙ И ТЕОРЕТИЧЕСКИЙ АСПЕКТЫ

## АННОТАЦИЯ

В статье показаны причины распространения вредных привычек, история, влияние их на возрастные группы.Как известно, больше всего страдают от вредных привычекдети.В статье также показано, как предостеречь подростков от вредных привычек.Среди вредных привычек по степени вредности очень опаснынаркомания и алкоголизм.

## HARMFUL HABITS IN YOUNG PEOPLE: HISTORICAL AND THEORETICAL ASPECTS

## SUMMARY

The article show the causes of spreading of harmful habbits, effect to age groups.The group which harmful habbits effects very much is children.The article show also giving up harmful habbits of juveniles and learning about it.The most important thimgs from harmful habbits are alcohol and narcotic.

# İNTİHARA APARAN YOL

***Sevinc Hacıyeva***
***ADMİU-II kurs magistrant***
***sevinc.hajiyeva95@mail.ru***

***Açar sözlər:*** İntihar, intiharın növləri, intiharın formalar, intiharı yaradan səbəblər, intiharın tarixi dövrləri, intihara dini baxışlar.
***Ключевые слова:***Самоубийство, типы самоубийств, формы самоубийства, причины самоубийства, исторические периоды самоубийства, религиозные взгляды на самоубийство.
***Key words:*** Suicide, types of suicide, forms of suicide, causes of suicide, historical periods of suicide, religious views of suicide.

## 1.Giriş

Müasir dövrümüzdə müxtəlif sosial problemlər mövcuddur, onlardan biri intihardır. İntihar edən insanlar problemlərdən qaçaraq bu asan ölüm yolunu seçirlər. Çox təəssüf ki, statistikada intihar edənlərin sayı azalmaq əvəzinə gündən-günə daha da artır. Əvvəl ki, dövrlərə nisbətən intiharla bağlı statistikanın artması mövzunun nə qədər aktual olduğunu göstərir. Məqalənin əsas məqsədi İntihar nədir? İntihara sövq edən amillər və onun kökündə duran əsas faktorlar nələrdir? Intihar dedikdə insanlar nə anlayır? Bu kimi suallara cavab tapmaq və araşdırmaq üçün nəzərdə tutulmuşdur. Məqalədə qarşıya qoyulmuş bu vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulub:

1. İntiharın və onun tarixi köklərinin öyrənilməsi,
2. İntiharı yaradan səbəblərin müəyyən olunması ,
3. İntiharla bağlı statistikanın araşdırılması.

## 2.Metodologiya

Məqalədə mövqe bildirmə metodundan istifadə edilmişdi. Məqalənin əsas məqsədi intiharın nə olduğunu və buna sövq edən səbəbləri sorğu vasitəsilə araşdırmaq və müəyyən etməkdir.

İntiharın səbəblərini araşdırmaq məqsədilə Həyatda nədən bezmisiniz? sual ətrafında sorğu keçirildi. Bu sorğuda 30 nəfər iştirak etmiş və alınan cavablar analiz edilərək intiharın kökündə duran əsas səbəblər müəyyən edildi.

## 3.İntihar nədir?

İntihar - bir insanın könülü və ya könülsüz olaraq öz həyatına son qoymasına sövq edən hərəkətdir. İntihar sözünün mənası suitisi sözündən əmələ gəlmiş özümü öldürürəm mənasını verir. İntiharı iradə cəhətdən zəif, əsəb sistemi pozulmuş və psixoloji durum yerində olmayan insanları öz təsiri altına alır. Bəs insanları hansı amillər buna sövq edir? İntiharın səbəbində duran əsas məsələ insanın öz həyatının mənasını dərk etməməsi, insanın fərdi münasibətinin icma münasibətinə inteqrasiya edə bilməməsi, mövcud problemlərdən qaçmaq və onu həll etmə gücünün olmaması kimi amillər təsir edir. Qeyd etdiyimiz mövcud problemlərə daxildir: insanın üzləşdiyi uğursuzluq, ailə daxili münasibətlər, şəxsi həyatdakı problemlər, depressiya vəziyyətində olması, semiotik xəstəlilərin olması və sosial sahədə qarşılaşdığı problemlər və s. Biz bu səbəblər əsaslanaraq intiharın 3 tipini qeyd edə bilərik:

1. Şəxsi intihar- şəxsi həyatdakı proseslər və onunla əlaqəli olan mənəvi hisslərdir,
2. Sosial intihar - sosial proseslərlə və münasibətlərlə əsasında yaranan,
3. Psixoloji intihar - psixi proseslərlə əlaqəli yaranır.

İntihar meylli insanların özünəməxsus davranış formaları mövcuddur. Bu davranış formaları intiharın ikinci mərhələsində özünü göstərir. Bu davranış formalarına daxildir intihar edən şəxs intihar etmə səbəblərini düşünür, nəticələri müəyyən edir və intiharı tamamlamaq üçün müəyyən

işlər həyata keçirir. Eyni zamanda yaxınları ilə vidalaşır, öz əşyalarını yaxınlarına hədiyyə verir, yaxınlarında halallıq istəyir, borcları varsa onları ödəyir kimi davranışlarda rast gəlinir.

İntihar eyni zamanda bütün dinlərdə ən böyük günah hesab edilir. Islam dinində - peyğəmbərimiz intihar edənlərə cənazə namazı qılmağı buyurmur. İntihar edən şəxslər o biri dünyada hər zaman cəhənnəmə düçar olacaqları və Allaha xəyanət kimi qiymətləndirilir. Xristian dinində də isə intihar ən böyük günah sayılır və onun günahı bağışlanmır. Onları qəbiristanlıqdan kənarda tənha ərazidə dəfin edirdilər. Əgər intihar edən şəxs ruhi xəstədirsə və dərk etmədən bunu edirsə bu günah və ya intihar sayılmır. Bir çox dünya məşhurları çoxu intihar ölümünü seçmişdi. Amma onların intihar səbəbləri hələdə müəmmalı olaraq qalmaqdadır. Məs: Henrix Von Kleist, Ernest Heminquey, Stefan Hitlerin, Walter Benjamin, Virginia Woolf, Ziya Gökalp, Cek London və Bəşir Fuad və s.

**4.Intiharın yaranma tarixi**

İntiharın yaranması çox qədim zamanlarda mövcud olmuşdur. İntiharın tarixinə nəzər yetirdikdə maraqlı faktlar üzə çıxır. Məsələn: Antik Afinada dövlətin icazəsi olmadan intihar edən şəxs şəhərdən kənarda tək başına olaraq dəfin olunurdu. Qədim Romada isə ilk əvvəl dövlət buna icazə versə də, sonradan bunu cinayət hesab edərək dövlətin iqtisadi maraqlarına zidd hesab etmişdir. Qədim Romada intiharı yaradan səbəblər müxtəlif idi. Məsələn: birinin həyatına son qoyulması zamanı, azlıq nəticəsində təcavüzə məruz qaldığı zaman, fiziki əzabdan, dözülməz hərbi vəziyyətlərdən xilas olması zamanı həyata keçirirdilər. Məsələn: eramızdan əvvəl 473-ci ildə 960 yəhudi romalıların əlinə düşməmək üçün özlərini yandıraraq intihar etmişdi.

İntihar xristianlığa görə Avropada böyük günah sayılmış və onları şeytan adlandıraraq Arles şurasında mühakimə edirdilər. IX əsrdə İntihar Avropada faciəvi bir hadisə kimi qəbul edilmirdi. Lakin XVII əsrdə hələ də intihar mövzusu tamamilə öz həllinin tapmamışdı. 1670-ci ildə Fransa kralı XIV Lüdoviq intihar etmış şəxslə bağlı sərt cinayət əmri vermışdır. Eyni zamanda intihar etmiş şəxsin bütün mülkiyyəti müsadirə edilirdi. Renessans dövründə intiharla bağlı fikirlər müəyyən qədər dəyişmişdir. David Hume intiharın fərdlərin üstünlüyünə görə sui-qəsd olduğunu inkar etdirdi. 1786-cı ildə "The Time" qəzeti İntihar cəsarətli hərəkətdirmi? Onun səbəbləri mövzusunda araşdırmalar aparmış və müxtəlif arqumentlər təqdim etmişdir. 1879-cu ildə İngiltərədə intihar və cinayət mövzuları bir-birindən ayrılmağa başlandı.

İntihar edənlərə gündüz basdırılmasına rəsmi olaraq icazə verildi. XX əsrin ortalarına qədər bir çox Avropa ölkələrində intihar qanuni hala çevrilir və buda intihar hadisəsinin adiləşməsinə gətirib çıxarır. Tarixdə müxtəlif intihar faktları mövcuddur ki, onlardan biri 1978-ci ildə Amerikanın "Xalq Məbədinin" lideri öz tərəfdaşlarına Sian qazının məhlulunu içməyi əmir etmişdir. Bunun nəticəsində 913 nəfər özünə qəsd etmişdir. Lider isə Jim Yohns öz başına güllə vurmaqla həyatına son qoymuşdur. İntihar XIX və XX əsrdə geniş olaraq araşdırılmağa başlanılmışdır. İntiharın ilk təsnifatını verənlərdən biri Fransız psixoloqu Dürkheyim olmuşdur. O sosial faktorları əsas götürərək intiharın 3 formasını vermişdir.

- Anomik - sosial və siyasi dəyişikliklər və onların səbəbləri insanların cəmiyyətə inteqrasiya etməsini çətinləşdirir. Bu tip intihar iqtisadi böhranlar zamanı özünü göstərir,
- Eqoistik- şəxsin sosial qruplara və ətrafına uyğunlaşmaması səbəbindən intihara cəhd edir,
- Altruistik-özünü sosial motivlər naminə qurban verən şəxslərdə rast gəlinir.

**5. İntiharın strukturu**

İntihar iki qütbə bölünür: Həqiqi və nümayişkaranə (parasuitsid və psevdosuitsid).

1. Həqiqi-Ətrafının reaksiyasına baxmayaraq intiharı qabağına məqsəd qoyur,
2. Nümayişkar- ətrafın reaksiyasını özünə cəlb etmək məqsədi ilə intihara cəhd edir.

İntiharın 3 formalaşma dövrü mövcuddur:

1. İntiharın etmə düşüncəsi - (müxtəlif səbəblərin təsirindən intihar etməyi düşünür. Məs: Fikirləşir ki, mən öldükdən sonra mənə qarşı etdikləri hər şeyə görə peşman olacaqlar və dəyərimi biləcəklər kimi fikirlər formalaşır),

2. İntihar etmə düşüncəsi və intiharın tamamlanamsına qədər ki, dövrü əhatə edir yəni intiharın reallaşması dövrü,

3. Intiharın tamamlanması

İntiharın əsas formaları

İntihar etmənin müxtəlif formaları var ki, bunlardan ən əsasları bunlardır:

Zəhərləmə, asma, boğma, yandırma, kəsmə, batırma, özünü atma, odlu silahla güllələmə, yeməkdən imtina etmə.

Statistikaya görə bunlardan daha çox istifadə edilən güllələnmə, asma, boğma, özünü atma və zəhərləmədir. Qadınların istifadə etdiyi intihar növləri müxtəlif dərmanlar və maddələr vasitəsi ilə zəhərləmək, kəsmək, kişilər isə daha çox istifadə etdiyi metod özünü güllələməkdir.

İntiharı yaradan səbəblər:

1. Bioloji
2. Fiziki
3. Psixoloji
4. Genetik
5. Sosial
6. Psixiatrik xəstəliklər

İntiharın növləri:

Intiharın müxtəlif növləri var ki, onlar bir - birindən xüsusiyyətlərinə görə fərqlənir. İntiharın əsas növlərinə daxildir:

1. Sönük intihar - bu intihar növünün ən çox istifadə edilən formasıdır. Sönük intihar zamanı intihar edən şəxs bunu gizli olaraq müxtəlif formalarda həyata keçirir. Səbəbləri naməlum olaraq qalır.

2. Tragik intihar - adından göründüyü kimi faciəvi şəkildə həyata keçirilən intihar növüdür. Bu intihar növünün əsas səbəbi intihar edən şəxsin əsəb sisteminin pozulması və nəticədə psixi pozuntuların yaranması ilə əlaqəli olur.

3. Dramatik intihar - son dövrlər ən çox istifadə edilən intihar növüdür. Intihar baş verdikdən sonra onun səbəbləri dramatik təsvirlərlə göstərilir. Bu intihar növünə məhəbbətlə əlaqəli intihar hadisələri aid edilir.

4. Demonstrativ intihar - bu intihar növündə intihar edən şəxs qəti şəkildə intihar etmək istəyi olmur. Sadəcə onları buna vadar edən səbəblərdən məcbur olub bu yola əl atırlar. Bu intihar növündə şəxs xüsusi yerlər seçərək intihar edilər və son saniyəyə qədər kimsə onları xilas etməsini gözəyirlər.

5. Ani - cismani intihar - bu intihar növündə intihar ani olaraq baş verir. Bu intihar növünü seçən şəxsin əsəb sistem pozuntuları və psixi pozuntular müşahidə olunur. Kiçik bir münaqışə onların bu yola seçməsinə səbəb ola bilər. Onlar bu intiharı qəddarcasına həyata keçirilər.

6. Sosial - siyasi intiharlar - bu intiharın əsasında sosial və siyasi səbəblər dayanır. Məsələn: sosial ədalətsizlik, cəmiyyətdə hökm sürən özbaşınalıq, azadlığın olmaması, siyasi ideologiya və s aid edilir.

**6.İntiharın Statistikası**

İntihar dünya üzrə bütün ölümlərin 1.4% təşkil edir. Ümumdünya Səhiyyə Təşkilatının statistikasına əsasən hər ildə dünyada 800 min nəfər intihara əl atır. Bu isə ümumilikdə dünya üzrə hər 40 saniyədən bir bir insanın intihara cəhd etməsi deməkdir. Müəyyən olunub ki, intihar meylli dünyada yaşıyan insanların hər zaman beynindən keçir. İntihar meylli daha çox 14-29 yaşı olan gənclər arasında rast gəlinir. Buradan da məlum olur ki, intihara cəhd edənlərin əksəriyyəti gənclərdi. Ən çox intihar faktlarının qeydə alındığı ölkələr.

1.100 nəfərə görə 1-10 nəfər arasında intihar edənlər - Yunanıstan, İtaliya, Qvatemala, Filippin.

2.100 nəfərə görə 10-20 nəfər arasında intihar edənlər- Avstraliya və ABŞ.

3.100 nəfərə görə 20 nəfərdən daha çox intihar edənlər- Latviya, Litva, Estoniya, Macarıstan və Rusiya.

Azərbaycanda isə bu statistika 2017-ci ildə ümumi intihar edənlərin sayı 495 nəfər təşkil edib. Bu da hər 3 günə 4 intihar hadisəsi deməkdir. Bu 4 nəfərdən 3-ü kişi 1 qadın olub 100 min nəfərə isə 5-6 intihar ölümü düşür. 2018-ci ilin ilk 6 ayı ərzində Azərbaycanda 310-a yaxın intihar hadisəsi qeydə alınıb ki, bunun da 200ölümlə nəticələnib 110 isə intihardan xilas olaraq müxtəlif yaralanmalarla müşahidə olunub. İntiharda ümumi ortalama yaş isə 37 qeydə alınıb. Ümumi yaş intervalı isə 15-35 yaş arasında dəyişir. Ən gənc intihar edənin 11 ən yaşlısının isə 87 yaşı olduğu qeydə alınıb. 2018-ci ildə ən çox intihar qeydə alınan şəhərlər Bakı, Mingəçevir, Sumqayıt, Gəncə Tovuz, Şəki, Şəmkir, Cələbad və s.

## ƏDƏBİYYAT

1.https://report.az/sehiyye/direktor-oten-il-azerbaycanda-morqlara-intiharla-bagli-495-meyit-getirilib/Dünya 2.https://az.trend.az/azerbaijan/society/1454774.html
3.https://en.wikipedia.org/wiki/Suicide
4.Babayev Vüsal "İntihar" B A K I – 2012
5.http://openazerbaijan.org/en/blog/az-rbaycanda-intihar-statistikas/ 6.

## İNTİHARA APARAN YOL

## XÜLASƏ

Məqalədə intiharın tarixi kökləri, səbəbləri, əsasında duran faktorlar araşdırılmışdır. Məqalənin əsas məqsədi insanların intihar haqqında məlumatlı olması və bu yoldan çəkindirməkdən ibarətdir.

## ПУТЬ К САМОУБИЙСТВУ

## АННОТАЦИЯ

В статье рассматриваются исторические корни, причины и факторы самоубийства. Основная цель этой статьи – информировать людей о самоубийстве и предотвращать его.

## PATH TO SUICIDE

## SUMMARY

The article examines the historical roots, causes and underlying factors of suicide. The main purpose of this article is to make people aware of suicide and to prevent it.

# SOSİAL İŞDƏ ETİK PRİNSİPLƏRİN ƏHƏMİYYƏTİ

***Pərvanə Lətifli***
***ADMİU-nun II kurs magistrantı***
***letiflipervane@gmail.com***

***Açar sözlər:*** Sosial iş, etika, etik prinsip, etik qayda.
***Ключевые слова:***Социальная работа, этика, этический принцип, этические правила.
***Key words*****:** Social work, ethics, ethical principle, ethical rule.

Sosial iş də digər peşə sahələri kimi insanlarla birbaşa ünsiyyətdə olan fəaliyyət sahəsidir. Sosial işpeşəsi qayğıya ehtiyacı olan, məzlum, həssas, təcrid olunmuş, çətin həyat şəraitində yaşayan əhali qrupuna əsas ehtiyaclarının təmin edilməsinə xidmət edən sahədir. Buna görə də bu peşəni icra edən hər bir şəxs qarşısındakı insanın nə dərəcə həssas olduğunu anlamalı və ona görə davranmalıdır. Sosial işdə əsas anlayışlar problemlə bağlı müraciət edən şəxsdir. Sosial işçi isə ona müraciət edən şəxsin problemini dəyərləndirməli və müvafiq həlli yollarını axtarmalıdır problemi həllindən asılı olaraqq sosial işçi müraciətçini digər sahələrə də yönləndirə bilər. Sosial iş mütəxəsisi demokratik cəmiyyətdə insanın və cəmiyyətin inkişafına, insanların həyat keyfiyyətlərinin yüksəldilməsi üçün yardımçı olan, insanların öz həyatları barəsində müstəqil qərar verə bilməsini dəstəkləyən peşə fəaliyyətidir.

Profiseonal bir peşə sahəsi kimi sosial işin qərar və fəaliyyətlərinin mərkəzində dəyərlər və etik prinsiplər durur. Sosial iş mütəxəsisləri onlar müraciət edən şəxslər ilə münasibətlərində əxlaqi davranışları mütləq nəzərə almalıdırlar.Sosial işçilər fəaliyyətləri əsnasında dövlətin mövcud aktları və qanunauyğunluqlarına əsasən hərəkət etməlidirlər [13].

Ümumiyyətlə insanla dialoq qurarkən sosial işçi sırf onun ehtiyacına görə etik qaydalara riayət etməli deyil, həmçinin hər bir klienti ilə və həmkarı ilə də etik qaydalar daxilində davranmalıdır. Bu həm peşədən gələn məsuliyyət və öhdəlik olduğu kimi hər bir insanın cəmiyyətdə digər insanlara qarşı yerinə yetirməli olduğu məsuliyyətidir. Etik prinsiplər yalnız iş həyatında deyil tibb, təhsil, sosial iş kimi bir çox elm və intizam qaydalarının tətbiq olunmasında yol göstəricidir [7].

Etik qayda dedikdə insanların cəmiyyətdə necə davranmalı olduğunu və ya etdiklərin hərəkətlərin aid olduğu mühitə nə dərəcə uyğun olduğunu bildirən sistemdir. Etik prinsiplər həmçinin sosial işçiyə qarşılaşa biləcəkləri problemlərin həllində onlara kömək edəcək qaydalardır. Sosial işin etik prinsipləri sosial işçiyə peşə fəaliyyətində onu yönləmdirən, məlumatlandıran və davranışlarına nəzarət edən dəyər və standartların məcmusudur. Sosial iş etikası ədalət, səmimilik, vicdanlıq, empatiya, doğruluq, bərabərlik, məsuliyyət kimi əsas etik dəyərlər daxilində sosial işin davam etdirilməsini nəzərdə tutur. Bütün peşə sahələrində olduğu kimi sosial içdə də istismar peşə fəaliyyətindən sui-istifadə halları ola bilər. Bu səbəbdən sosial iş sahəsində yaradılmış peşə fəaliyyətinin əxlaq normaları yəni, etik prinsiplər hər hansı istismar, peşədən sui-istifadə hallarının yarana bilmə ehtimalına qarşı tədbir görmək həmçinin yarandığı təqdirdə müvafiq normaları tətbiq edən dəyərlər toplusudur.

Sosial işin etik prinsiplərində bildirilir ki, sosial işçi klientə, həmkarına, sosial iş peşəsinə və də cəmiyyətə qarşı etik məsuliyyəti var. Bu etik məsuliyyəin olması və ona riayət olunmasının səbəbi görülən işin və sonda əldə olunacaq nəticənin daha effektiv olmasına gətirib çıxardır.

**Sosial işçinin etik prinsipləri:**

Sosial işçinin kilentinə qarşı etik prinsipləri: Sosial işçinin klientinə qarşı olan etik məsuliyyətinin ən birinci şərti hər bir klientə hörmətlə yanaşmalı, onun irqindən, dinindən, kimliyindən, statusundan və s səbəblərdən aslı olmadan hər kəsə onun şəxiyyətinə və ləyaqətinə hörmət göstərməlidir.Klientinin yaşadığı vəziyyətinəzərə alaraq onun rifahını dəstəkləməli və

müdafiə etməlidir. Klientin hüququ və ləyaqəti dedikdə nəzərdə tutulan sosial işçinin klientinə öz müqəddəratını təyin etməsinə dəstək olmalı, qərar verməsinə və seçimlərinə hörmətlə yanaşmalıdır. Klientinin mövcud olan güclü tərəflərini aşkarlamalı və bu tərəfləri ön plana çəkərək inkişaf etdirməsinə dəstək olmalıdır. İşin gedişində sosial işçi klienti tam məhfum kimi qəbul etməli, yəni onun ətrafını, aid olduğu mühiti, ailəsini nəzərə alınmalıdır. Hər bir klientə şəxsiyyət kimi yanaşmalıdır. Və hər bir klientin fərdi olduğunu, probleminin digərləri ilə oxşar olsa belə hər bir klientin probleminin özünə məxsus xüsusiyyətləri olduğunu unutmaq olmaz. Sosial işçiyə müraciət edən klientin verəcəyi məlumatları, digər bir şəxsə zərər verməyəcək məlumatları gizli saxlamalı və bunu klientə iş prosesin əvvəlində bildirməlidir. Sosial işçi klientlə iş zamanı hər hansı fikir ayrılığına və maraqların ziddinə söhbətin yaranmamasına çalışmamalıdır. Problemini həll etdiyi klientə qarşı sosial işçi cinsi əlaqədə olmamalı və cinsi zorakılıq etməməlidir.

Sosial işin təməlimdə hər bir insanın yalnızca insan olduğuna görə dəyərə sahip olmasına hörmət edilməsinin vacibliyi anlayışı durur. Bu anlayış sosil iş zamanı fərdlərin öz seçimləri və qərarlarını verə bilmə bacarığına, fərqliliklərinə, gizliliklərinə hörmət etmə, ehtiyaclarının qarşılanması sosial dəyişimin, sosial ədalətin reallaşdırılmasına yardım edən və bunu asanlaşdıran olaraq tanınır. Sosial işdə qəbul edilən bütün qərarlar və fəaliyyətlər klyentləri əsas haqlarına və azadlıqlarına zərər verməmək və bərabərsizliyə səbəb olmamaq kimi etik dəyərlər çərçivəsində həyata keçirilməlidir. Bu bağımdan etik dəyərlər sosial işçilərə yol göstərici rolunu oynayır.

Sosial işçinin həmkarına qarşı yerinə yetirməli olduğu etik prinsiplər: həmkarlarına hörmətlə yanaşmalı, yarana biləcək hər hansı ədalətsizlik və haqsızlıq qarşısında həmkarını müdafiə etməlidir.Klienti, onun problemi ilə bağlı məsləhət almaq və maraqlarını qorumaq naminə həmkarına müraciət etməlidir. İş prosesində həmkarı tərəfindən deyilən məxfi məlumatların konfidensiallığını saxlamalı və ya keyslə bağlı fikir mübadiləsi zamanı klientlə bağlı onun kimliyini aşkar edə biləcək məlumatları gizli saxlamlı və minimum informasıya verməlidir. Həmkarı, supervayzeri ilə cinsi əlaqədə olamamalı və ona qarşı cinsi zorakılıq etməməlidir. Digər bir mütəxəsis və ya klyentlə ünsiyyət zamanı həmkarı haqqında tənqidi fikirlərə yol verməməlidir.

Klientin probleminin həllində əlavə olaraq digər peşə sahələrinə müraciət etmək məcburiyyəti yaranarsa bu zaman sosial işçi klienti digər ixtisaslaşmış mütəxəsisə yönəltməlidir.

Sosial işdə etik kod mütəxəsislərin hansı davranışın doğru, hansı davranışın yanlış olması haqqında yol göstərən peşə və ya təşkilat tərəfindən seçilən və rəsmi ifadələrdən ibarət qaydalar toplusudur.

Frederic.G.Reamer görə sosial iş peşəsinin əsas dəyərləri 6 başlıq altında toplanmışdır.

**Bunlardır:**

Xidmət - sosial iş peşəsinin ən vacib məqamı sosial işçilərin sosial problemləri olan və bu problemləri həll etməsində yardım ehtiyacı olan şəxslərə kömək etməkdir. Sosial ədalət - sosial iş mütəxəsisləri cəmiyyətdəki sosial ədalətsizlikləri aradan qaldırılması istiqamətində çalışmalıdırlar. Sosial ədalət dedikdə cəmiyyətdə insanlar arasında yaranan ayrıseçkiliyə qarşı mübarizə həmçinin ayrıseçkilik etməməlidir. Ədalətsiz siyasi hərəkatlara qarşı mübarizə aparmalı və bununla resursların ədalətli bölməsini təmin etməli yəni ehtiyacı olan klientlə ehtiyaca uyğun şəkildə ədalətli formada bölməlidir, ədalətsiz davranış və hərəktları cəmiyyətin diqqətinə çatdırmalıdır.

Fərdlərin dəyərlərinə hörmət - sosial iş mütəxəsisi peşə fəaliyyətini yerinə yetirərkən hər insanın öz duyğu, düşüncə, doğru və yanlışlarının olduğunu bu bağımdan yaranan fərqliliklərə hörmət göstərilməsi düşüncəsində hərəkət etməlidirlər. İnsan münasibətlərn vacibliyi - sosial işçilər fərdlərlə yaradılan münasibətlərin vacibliyini qəbul etməli və bu istiqamətdə hərəkət etməlidirlər.

Doğruluq - sosial iş mütəxəsisi kylentlərlə qurulan münasibətlərdə doğru və etibarlılıq yönümdə davranış nümayiş etdirməlidirlər.

Səriştəlilik - sosiaş iş mütəxəsisi peşə bacarıqlarını qərar və fəaliyyətlərində göstərirlər və peşə bacarıqlarını davamlı olara inkişaf etdirirlər.

Sosial işçinin cəmiyyətə yönələn etik prinsipləri: cəmiyyətin ümümi rifahını ön planda tutmalıdır. Sosial siyasətin yaradılmasında yaxından iştirak etməli, cəmiyyətdəki sosial problemlərlə bağlı insanları maarifləndirməlidir. Cəmiyyətdəki ədalətsiz hərəkətlərə qarşı mübarizə aparmalıdır.

Sosial işçilər tez-tez tədqiqatlarda iştirak edir, proqramlar hazırlayır, qiymətləndirmələr aparır və sosial siyasət və sosial təminat şəbəkələrinin inkişafına öz töhfələrini verirlər. Bu şəkildə, yalnız məhdud sayda insan və qruplarla işləmir, həm də bütün cəmiyyətin inkişafına və çiçəklənməsinə öz töhfəsini verir [11].

## ƏDƏBİYYAT

1. Sosial iş təcrübəsinin etik prinsiplər və dəyərləri // https://az.m.wikipedia.org/
2. Global socıal work statement of ethıcal prıncıples // https://www.ifsw.org/global-social-work-statement-of-ethical-principles/] 2018.
3. Social Work Values and EthicsFrederic.G.Reamer.1970
4. Sosyal Hizmetlerde Etik. Aziz Şeker.2011
5. Values and Ethics in Social Work. Chris Beckett, Andrew Maynard. 2005 // https://www.socialworkers.org/about/ethics/code-of-ethics/code-of-ethics-english
6. Soyal hizmetller etiği-1: kavram ve ilkeler.// https://auzefalmsstorage.blob.core.
7. Ethical and Values in Social Work, Third Edition, Macmillan Press, London. Banks, S. 2006
8. Sosyal hizmet sempozyumu. Vedat Işıkhan, Tarık Tuncay, Ercüment Erbay. 2011 // https://www.academia.edu
9. Sosyal HizmetAraşdırmasındaEtik. Sema Buz, Sinan Akçay. 2015 // https://www.researchgate.
10. Sosial iş mütəxəsisi. // http://psikososyalhizmet.com/blog/shu/
11. Uluslararası sosyal araşdırmalar dergisi. Ozan Selcik, Bekir Güzel. 2016 // https://www.google.com/
12. Sosial iş. // https://az.m.wikipedia.org/wiki/Sosial_i%C5%9F

## SOSİAL İŞDƏ ETİK PRİNSİPLƏRİN ƏHƏMİYYƏTİ

### XÜLASƏ

Hər bir sosial işçi öz səriştəsinə uyğun olaraq fəaliyyət göstərməli və daimi olaraq öz bilik və bacarıqlarını artrmağa çalışmalıdırlar. Bu həm peşənin inkişafına, həm də cəmiyyətə müsbət ypndə təsir edəcəkdir.

## ЗНАЧЕНИЕ ЭТИЧЕСКИХ ПРИНЦИПОВ В СОЦИАЛЬНОЙ РАБОТЕ

### АННОТАЦИЯ

Каждый социальный работник должен действовать в соответствии со своей компетенцией и постоянно стремиться совершенствовать свои знания и навыки. Это окажет положительное влияние на развитие профессии, а также на общество.

## SIGNIFICANCE OF ETHICAL PRINCIPLES IN SOCIAL WORK

### SUMMARY

Every social worker must act in accordance with their competence and constantly strive to improve their knowledge and skills. This will have a positive impact on both the development of the profession and society.

# AİLƏDAXİLİ MÜNAQİŞƏ VƏ BOŞANMA

***Cəfərli Qüdsiyyə***
***ADMİU-nin II kurs magistrantı***
***qceferli@mail.ru***

***Açar sözlər:*** ailə, münaqişə, boşanma, boşanmaya səbəb.
***Ключевые слова:***семья, конфликт, развод, причины развода.
***Keys word:***family, conflict, divorce, reasons of the divorce.

**Giriş.** Müasir insan cəmiyyətinin xüsusiyyətlərindən biri ailə institutun sürətlə transformasiyası, bəzi sosial mühitlərdə hətta dağılmasıdır. Ənənəvi ailə sistemlərinin dağılması və yeni ailə sistemlərinin yaranması bəşəriyyətin indiki inkişaf mərhələsində bütün mədəniyyətlər, hətta patriarxal və İslam mədəniyyətləri üçün də xasdır. Ona görə də ailə, ailə münaqişələri, boşanma və boşanmaya səbəb olan amillərin təhlil edilməsi və qiymətləndirilməsi sosial elmlər və hüquq instutları qarşısında duran ən vacib məsələlərdən biridir.

Tədqiqatın metodologiyası kimi aşağıdakı metodlardan istifadə edilmişdir:

- müxtəlif sosial qruplarda ailə münasibətlərinə dair araşdırmalar (ədəbiyyat mənbələri);
- ailə münaqişələri və boşanmalarla bağlı məhkəmə qərarlarının araşdırılması;
- ailə konfliktlərinin müşahidə edildiyi ailələrdə sorğuların (masahibələri) aparılması.

**Ailə.** Ailə haqqında danışmazdan ilk öncə “ailə” sözünün mənası ilə tanış olaq. Ailə sözünün mənşəyi ərəb sözündən gəlir. Bu söz ərəb dilində “dayanmaq” mənasını verən “avl” felinin kökündən əmələ gəlib.Bir-birinə inanan, etimad edən insanlar üçün işlədilir. Ailə cəmiyyətdəki hər bir fərdə mühüm dəstək göstərir. Şəxsin fiziki, emosional və effektiv ehtiyacları üçün istifadə olunur. Və buda fərdi sosial və təhsil dəstəyi ilə təmin edir. Ailə - müxtəlif yaşlı və cinsli doğma insanların böyük olmayan qrupu, həyat əhəmiyyətli şəxsiyyətlərarası ünsiyyətin baş verdiyi “kiçik kollektivdir”. Ailə Con Lokkun əzəl və ən xoş məziyyət adlandırdığı ilk həyat məktəbi, insan münasibətləri məktəbi, ruhi və maddi mədəniyyət məktəbidir [4, s.150].Ailə uşaqların tərbiyə və müdafiəsinə cavabdehdir. Bu sosiallaşma və mədəni translyasiyanın əsasıdır. Çünki uşaqlar öz ailəsindən funksional dəyər və münasibətləri qazanırlar.

Tarixdə ailə formaları cəmiyyətin inkişafına uyğun olaraq dəyişmişdir. Bu formalar aşağıdakılardır: ibtidai ailə, qanqohumluğuna əsaslanan ailə, qrup nikahı.

**Poliqamiya** yunan sözü olmuşdur.“Polys” – çoxsaylı, geniş sözündən, “gamos” – nikah sözündən yaranmışdır. Poliqamiya– bir fərdin iki və daha artıq əks cinsin nümayəndəsi ilə eyni vaxtda nikahda olmasıdır. Onun iki forması vardır:poliginiya və poliandriya.

Poliginiya bir kişinin eyni zamanda bir neçə arvadla nikaha daxil olmasıdır. Poliandriya isə bir arvadın bir neçə kişi ilə nikaha daxil olmasıdır. Poliandriya bəzi cəmiyyətlərdə olsa da çox da yayılmamışdır. PoliandriyaNepalda,Tibetdə,HindistanınşimalındavəButandageniş yayılmışdır. Ən çox yayılmış poliginiya olmuşdur. Bunun da əsas səbəbi cəmiyyətlərin əksəriyyətində tarix boyu patriarxal ənənələrin mövcud olmasıdır.

**Ekzoqamiya**– müəyyən kollektiv və ya qohum şəxslər arasında nikah münasibətlərini qadağan edən adətdir. Bu adətə əsasən yalnız kənar qəbilə üzvlərinin nikah bağlamağına icazə verilir. Buna nümunə olaraq qeyd edə bilərik ki, ərəblər islamaqədərki dövrlərdə doğulmuş qız uşaqlarını diri-diri basdırır, başqa qəbilədən qızqaçırma adəti ilə nikaha girirdilər. İbtidai icma quruluşunda ekzoqamiya daha geniş yayılmışdı.

Mövcud sosioloji və psixoloji ədəbiyyatda ailənin üç əsas tipi fərqləndirilir:

**1) ənənəvi (və ya patriarxal) ailə;2) ənənəyə söykənən müasir ailə; 3) eqalitar ailə («bərabər münasibətlər» ailəsi).**

Ənənəvi ailə tipi bir çox ölkələr üçün xarakterikdir. Postsovet məkanına daxil olan ölkələrdə mövcud olmuşdur. Azərbaycanda əhalinin sosial-demoqrafik strukturunda baş verən ciddi dəyişikliklərin olmasına baxmayaraq, bu ailə tipi öz mövcudluğunu qoruyub saxlamışdır. Azərbaycan ailələri sırasında ənənəvi ailələr üstünlük təşkil edir. Ənənəvi ailə tipinin başlıca xüsusiyyəti odur ki, belə ailələr özündə ən azı, üç nəslin nümayəndələrini birləşdirir. Belə ailələrdə adətən yaşlı nəslin nümayəndəsi və ya ailənin ağsaqqalı həlledici söz sahibi olur. Qadın-kişi və ya ər-arvad münasibətlərində ənənəyə söykənən daimi öhdəliklər və ya dəqiqmüəyyən edilmiş «vəzifə bölgüsü» vardır. Burada kişi bilavasitə ailə başçısı kimi çıxış edir. Kişi ailənin mövcudluğu, rifahı naminə əsas məsuliyyəti öz üzərinə götürür. Bu səbəbdən qadın çox zaman iqtisadi cəhətdən həyat yoldaşından asılı olur. Bunun əvəzində isə özünü ailə sahibəsi, öz evinin xanımı kimi hiss edir.

Ənənəyə söykənən müasir ailələrdə də kişi nüfuzu müstəsna əhəmiyyət kəsb edir. Ənənəvi və ya mühafizəkar ailə tipində olduğu kimi burada da ciddi vəzifə bölgüsü mövcuddur. Lakin bu bölgü çox zaman sosial-iqtisadi motivlərə söykənir. Belə olan halda qadın öz həyat yoldaşı ilə yanaşı əmək bölgüsündə iştirak edir, müəyyən bir işdə işləyir, ailənin təminatında özünəməxsus payı malik olur, eyni zamanda, bir çox hallarda ev əməyinin və bir sıra məişət problemlərinin öhdəsindən gəlmək məcburiyyətində qalır. Bu səbəbdən, sözügedən ailə tipini istismarçı ailə tipi də adlandırırlar.

Eqalitar ailədə və ya «bərabər münasibətlər» ailəsində qarşılıqlı vəzifələr və öhdəliklər daha dəqiq və ədalətli şəkildə bölünür. Başqa sözlə desək, ailədə tərəf müqabili olan qadınla kişi arasında birlikdə müəyyənləşdirilmiş rol simmetriyası mövcud olur. Tərəf müqabilləri bu və digər problemin həllində bir-birinə yaxından kömək edir vəailə qayğıları ilə bağlı qərarları birgə məsləhət və qarşılıqlı anlaşma şəraitində qəbul edirlər. Belə ailələrdə emosional dayanıqlılıq adətən kifayət qədər yüksək olur.

Ailənin 2 növü var: nuklear ailə və genişlənmiş ailə.

Nuklear ailəeyni dam altındabirgə yaşayan ata, ana və uşaqlardanibarətdir. Nuklear ailələrdə fərdlərin öz qərarları ilə formalaşan müstəqillik və azadlıqlarının olmasına baxmayaraq, onlar böyük ailənin dəstəksiz vəköməksiz,məşğul həyat tələblərindən danışmaq istəyirlər. Əgər valideynlərin hər ikisi də işləyirsə, uşaqlara qayğı çox ciddi problemdir.Nuklear ailələrdə bəzi uşaqlar ailələrinin mənşəyi, tarixi- adətindən və nənə-babaları haqqında biliklərdən xəbərsiz böyüyürlər. Problem və stress olanda, Nuklear ailələraz yaşlı ailə fərdlərinə görə məhdud yardım almaq istəyirlər.

Genişlənmiş ailə birlikdə ailə kimi yaşayan nuklear ailə üzvlərindən və əlavə olaraq nənə, baba, xala, əmi, dayı və onların övladlarından formalaşır. Ənənəvi Afrikan cəmiyyətində əksər ailələr genişlənmiş ailələrdir. Bir nəsil əvvəl bizim cəmiyyətdə ailələrbağlı və olduqca məhrəm yaşayardılar. Bu gün xüsusən şəhər yerlərində yaşayan ailələr nuklear olurlar.

Ailələr tərkibinə görə müxtəlif qruplara bölünür: çoxnigahlı,tək valideynli(natamam), ögey ailə, qəyyum, qoruyucu, uşaq başlı ailə (child- headed family).

*Çoxnigahlı ailə.* Dünyanın bir çox yerləri, əsasən də müsəlman ölkələri və Afrika qitəsinin bəzi ölkələrində kişilər ikidən artıq qadını nikahına qəbul edirlər. Bu çox saylı qadınlar eyni dam altında birlikdə yaşayırlar. Hətta ən yaxşı şərtlər altında qadınlar arasında qısqanclıq, ər diqqəti, sərvət üzərində mübahisə qaçılmazdı.Bu cür ailələrdə uşaqların ata qayğısında müəyyən məhdudiyyətləri var. Hətta bioloji atalarının olmasına baxmayaraq, bir çox hallarda onların həyatları tək valideynli ailələrdə olduğu kimi eynidir.

*Tək valideynli (natamam ailə).*Tək valideynli ailələr bir valideynin olduğu ailədir. Bu tək valideyn adətən ana olur. Tək valideynli ailələrin 90%-dən çoxunda ana əsasdır.Ailənin tək valideyndən ibarət olmasının müxtəlif səbəbləri var. Yeniyetmə hamiləliyi, nikahdan kənar hamiləlik, boşanma və ya ayrılıqla həll olunan evlilik, valideynlərin ölümlə itirilməsi və d.

*Ögey ailə.* Ögey ailə yenidən yaradılan və ya qarışdırılmış ailə kimi tanınır. Boşanma və yenidən evliliklərin sayının artması kimi ögey ailələrin də sayı sürətlə artır. Son nəticə uşaqlar valideynlərinin yenidən evlənməsi və ya çox nikahlı ailələr vasitəsilə ögey ailə içində olurlar. Onların ögey bacı, qardaş və digər qohumları olur.Ögey ailə də ailə münasibətlərinormal ailədən daha mürəkkəbdi, çünki oradatez-tez müxtəlif normalar, dəyərlər və gözləntilər müəyyənləşdirilir.

*Qəyyum ailə.*Bəzi uşaqlar öz qohumları tərəfindən qəyyumluğa götürülür. Keçmiş vaxtlarda qəyyum valideynlər övladlığa götürmə faktını gizlətməyə çalışmışlar. Onlar belə güman ediblər ki əgər uşaqlar bu haqda bilməsələr onlar problemsiz böyüyəcək. Tədqiqatlar göstərir ki uşaqlar qəyyum olduqlarını öyrənən zamanözlərini aldadılmış və ya təhqir olunmuş hiss edirlər. Biz indi bilsək ki, əgər uşaqlar sevgi və dürüstlük ilə müalicə olunarsa, onlar sağlam və yaxşı tənzimlənmiş yetkin olaraq böyüyəcəklər.

*Qoruyucu ailə.*Bəzi uşaqlarqoruyucu ailələrdə yerləşdirilir. Çünki onların ya öz ailələri yoxdur ya da ailələri rifah və ya güvənlik ehtiyaclarını qarşılamır. Həddindən artıq hallardauşaqlar bioloji ailələri tərəfindən çıxarılırlar və ya evdə ağır və təhqiramiz şərtlər səbəbi ilə uşaqları qoruyucu ailələrə qoyurlar. Sosial işçilər ailəni yenidən birləşdirənə qədər uşaqlar yalnız qısa müddətlik qoruyucu ailələrdə yerləşdirilir. Bəzən bioloji ailə problemlərini həll edə bilməyəndə və uşaqları düzgün idarə edə bilməyəndə, uşaqlar bir qoruyucu ailədən digərqoruyucu ailəyə köçürülür. Keçici təbiiköçürülməyə görə uşaqların qoruyucu ailələrdə müəyyən çətinlikləri ola bilər. Əgər uşaqlar tez-tez köçürülərsə, onların qoruyucu ailələri ilə emosional əlaqə yaratmaqları mümkün deyil.

*Uşaq başlı ailə.*Bu o ailədir ki, orada uşaqlar öz valideynlərinin hər ikisi itiriblər. Bu uşaqların onlara baxacaq heç bir qohumları yoxdur. Bu şərtlərdə uşaqlardan ən böyüyü ailənin başına keçir.

**Boşanma və onun səbəbləri.** Nikah kişi və qadın arasında bağlanan könüllü və qeyri könüllü qanuni ittifaqdır. Evlilik aylarında cütlüklərin əksəriyyəti reallıqdan uzaq, xəyyalar aləmində yaşayırlar. Evliliyin ilk aylarında birlikdə yaşamağa alışma mərhələsində yaşanan münaqişələr bəziləri üçün ölümə bərabərdir. Bu baxımdan, ilk aylardahər iki tərəfdə bir mübarizədən qaçmaq üçün səylərini əsirgəmirlər və həyat yoldaşlarında narahat tərəfləri tapsalar da, onları öz içlərinə atırlar. Sonda buiçəriyə atılmış hislər və bir gün sözün və ya davranışın nəticəsi olur, nəhayət iki tərəfmübarizəyə başlayır. Evlilər arasındakı münaqişələr iki sıradan insan arasındakı olan münaqişədən daha təhlükəli və zərərlidir. Buna səbəb isə tərəflərin bir-birilərinin zəif tərəflərini yaxşı bilmələridir.

Boşanma evliliyin çökməsidir. Başqa sözlə qanuni dövlət nikahının parçalanmasıdır. Yənitərəflər yaşayarkən evlilik münasibətlərinə məhkəməninqərarı ilə hüquqi cəhətdən son qoyulmasıdır.

Ayrılıqcütlüklərin rəsmi ayrılıq prosedurandan keçmədən ayrı yaşamasıdır. Boşanma və ayrılıq ailə əlaqələrinin ölməsinə işarədir, və buna görə də, həyat yoldaşı vəfat etmiş ailələrdəki kimi emosional travma yaradır.Beləliklə, ayrılıq və boşanmafaktiki olaraqdul qalmaqdan çox çətindir, çünki bir- birinə qarşı emosionalhəssaslıq göstərən cütlük, uşaqları ilə məşğul olduqda və ya maliyyə hesablaşmalarını həyata keçirərkənbir-biriləri ilə qarşılaşa bilirlər. Tədqiqatlar göstərir ki, uşaqlar valideynlərininayrılıq və boşanmasını qeyri-adi şəkildə stressli olduğunu hesab edirlər.

Boşanma müxtəlif səbəblər ucbatından həyata keçirilə bilər. Qadının hegemonluğu, kişinin işləməməyi, güvən zədələyici hərəkətlər, zorakılıq, erkən nikah və s. əsas boşanma səbəbi kimi hesab olunur.

Xəyanət – evli bir kişinin və ya qadının həyat yoldaşından başqa bir qadın və ya kişi ilə cinsi əlaqədə olmasıdır. Kişi və ya qadından birinin xəyanət etməsi digər tərəfdən biri üçün boşanma səbəbidir. Tərifindən də başa düşüldüyü kimi boşanmağa səbəb yaradan xəyanət aktının

reallaşması üçün əsas ünsur cinsi əlaqədir. Başqa bir şəxslə cinsi əlaqədə olan həyat yoldaşın bunu kiminlə etdiyi, bu şəxsin evli olub olmamağı, yaşı, cinsi əlaqənin məqsədi vəxüsusilə onun davamlılığını təmin edilməsi vacib deyil.

Tərk etmə - Cütlüklərdən birinin birgə yaşayışı yerini (evi) tərk etməsi digər tərəf üçün bir haqlı boşanma səbəbidir.

Cana qəsd və pis rəftar əsas boşanma səbəblərindən biridir. Lakin cana qəsd və pis münasibət anlayışları bir- birindən fərqli dəyərləndirilməlidir. Pis rəftar cütlüklərdən birinin digərinə ağrı və əzab verən hər cürlü davranışıdır. Psixi və ya fiziki sağlamlığı pozan və təhlükəyə salan davranış kimi qiymətləndirilir. Məsələn, döymək, işgəncə vermək, cinsi zorakılıq, ac və küçədə saxlamaq,evə həbs etmək və bunlardan birini etməklə təhdid etmək (qorxutmaq) kimi hallara məruz qalan şəxs ağrı və əzab çəkməkdədir.

Pis rəftar adətən kişinin qadına qarşı bir davranışı kimi görünür. Ancaq bəzi hallarda qadın da şərəf və ləyaqəti zədələyəcək və ya alçaldacaq söz və ya davranışlarla ərinə əziyyət edə bilər. Hətta təhqir kimi davranış növü daha çox qadınlar tərəfindən ərlərinə qarşı həyata keçirilir. Qadınınərinə qarşı bu cür davranış forması əksər hallarda kişinin etdiyi yanlış davranış formalarına qarşılıq bir intiqam alma metodu kimi seçilir. Cana qəsd tərəflərdən birinin digərini öldürməyə təşəbbüs etməsidir.

Ruhi xəstəlik – xəstəliyi bir boşanma səbəbi etmək ilk baxışda yadırğanıla bilər. Çünki cütlüklər yaxşı və pis gündə, xəstəlikdə və sağlamlıqda bir-birilərinə dəstək olmaqlarına and içirlər. Lakin ruhi xəstəlik digər xəstəliklərdən fərqlidir. İlk öncəruhi xsətəlik nəslin sağlam şəkildə inkişafını əngəlləyir [9].

Bəzən ailə böyükləri də boşanmaya səbəb ola bilərlər. Böyüklərin gənc ailələrə müdaxilələri, gənclərin öz ailə həyatlarını istədikləri kimi yaşaya bilməmələri ailələrin dağılmasına səbəb olur.Tərəflərdən birinin özünü digərindən üstün tutması, onu aşağı görməsi, alçaltması ailənin dağılmasına səbəb olur. Bu halda ən yaxşı çarə boşanmaqdır.

Boşanmanın səbəblərini araşdıran rus müəlliflərindən olan L.V.Çuyko boşanmaya səbəb olan aşağıdakı motivləri xüsusi olaraq qeyd edir:

*1. Ər və ya arvadın alkoqolizmə meyl etməsi.*
*2. Ailədə xəyanət.*
*3. Başqa şəxslərin müdaxiləsi.*
*4. Nigahın saxtalığı.*

Statistik araşdırmalara görə ötən il 413 nəfər xəyanətə, 369 nəfər sərxoşluğa, 171 nəfər narkomaniyaya, 302 nəfər maddi vəziyyətə, 224 nəfər isə xəstəliyə görə boşanıb [8].

**Nəticə.** Müasir insan cəmiyyətində ailə institutu dərin böhran keçirməkdə və transformasiyaya məruz qalmaqdadır. Ailə institutu özünü müxtəlif formalarda göstərir**.** Ailə institutunu qoruyub saxlamaqdan və möhkəmləndirməkdən ötrü kompleks (sosial, psixoloji, hüquqi və s.) tədbirlər görülməlidir. Aparılmış araşdırmalar nəticəsində bəlli oldu ki, ailədə münaqişələri doğuran səbəblər kifayət qədər mürəkkəb və rənagrəngdir. Bu səbəblər müəyyən qruplarda cəmlənir. Ailədaxili münaqişə səbəblərinin bəziləri ailə qurulunadək mövcud olur. Bu səbəblər sırasını çox zaman risk amilləri qrupu adlandırırlar. O özündə mümkün ailə böhranını və ya ailənin dağılma riskini ailə qurulmamışdan öncə özündə əks etdirir. Bəziləri isə ailə qurulandan sonra yaranan səbəblərdir.

## ƏDƏBİYYAT

1. France, Wilma Guez and John Allen: Social work, module 3
2. Vahidov F., AğayevT. Sosiologiya. Bakı: 2008
3. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı: Elm və həyat, 1996. – 202s.
4. MəmmədovF. Kulturologiya, Mədəniyyət, Sivilizasiya, Bakı: 2016

5. Aile ve KültürProf.Dr.Nihat NİRÜN Ankara:1994
6. Aile Araştırması Murat BAYHAN Ankara:1999
7. Parsons T. The Social System. Gleoncoe, III., 1951
8. İ.İsabalayeva. "Azərbaycanda boşanmaların əsas səbələri açıqlanıb". https://az.trend.az/azerbaijan/society/2507316.html
9. Av. Melda Merve. "Terkcan Boşanmanın özel sebepleri"
https://www.tekcan.av.tr/bosanmanin-ozel-sebepleri-nelerdir
10. Uğur Kaya. "Aile içi problemler ve çözüm yolları".
http://www.antalyaozelegitim.com/blog/aile-danismanligi/aile-ici-problemler-ve-cozum-yollari.html

## AİLƏDAXİLİ MÜNAQİŞƏ VƏ BOŞANMA

## XÜLASƏ

Tədqiqatçılar boşanmalara və ailənin dağılmasına gətirib çıxaran səbəbləri ümumilikdə 3 qrupa ayırmağı məqsədə uyğun hesab edirlər: maddi- məişət problemləri, şəxsi münaqişələr, xarici təsirlər. Bəzi ailədaxili münaqişələr uşaqların yanında baş verir. Bu da uşaqların psixoloji cəhətdən inkişafına mənfi təsir göstərir. Uşaqlarda aqresiya, özünə qapanığlıq və s. kimi neqativ hislər formalaşır.

## ВНУТРИСЕМЕЙНЫЕ КОНФЛИКТЫ И РАЗВОД

## АННОТАЦИЯ

Исследователи считают целесообразным разделить причины развода и распада семьи на три группы: материальные проблемы, личные конфликты и внешние воздействия. Некоторые семейные конфликты происходят в присутствии детей. Это оказывает негативное влияние на психологическое развитие детей.Удетейформируются такие негативные чувства,как агрессия, замкнутость, и т.д.

## FAMILY CONFLICTS AND DIVORCE

## SUMMARY

Researchers consider it appropriate to divide the causes of divorce and family breakdown into three groups: material problems, personal conflicts and external influences. Some family conflicts occur in the presence of children. This has a negative impact on the psychological development of children. Children form such negative feelings as aggression, isolation, etc.

# ƏHALİNİN MƏŞĞULLUĞUNUN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLU

***Gülşən Əmikişiyeva***
***ADMİU-nun I kurs magistrantı***
*gulshen.amikishiyeva@gmail.com*

***Açar sözlər:*** işsizlik, məşğulluq, həyat səviyyəsi, əmək haqqı, iş yerləri, məşğul əhali
***Keywords:*** unemployment, maturity, living standards, wages, jobs, business people
***Ключевые слова:*** безработица, занятость, уровень жизни, заработная плата, рабочие места, занятое население.

***Giriş.***

Müasir dövrün ən aktualproblemlərindən biri işsizlikdir. Ölkənin işçi qüvvəsini işsizlər və məşğul əhali təşkil edir. İş qüvvəsinə olan tələb təklifdən geri qaldıqda işsizlik özünü göstərir . Son illər ölkəmizdə həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri də məşğulluğa dair tədbirlərin təşkili və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir.

İşsizliyin əmələ gəlmə səbəbi müxtəlifdir və onun qarşısının alınması başlıca vəzifə olaraq qarşıda durur. Təəssüf ki bəzi hallarda , işsizliyin tamamilə aradan qaldırılması mümkün olmur. Məqalədə işsizliyin formaları nəzərdən keçirilir.

***İşsizliyin növləri***

Fəaliyyət növünün və iş yerinin seçilməsində sərbəstlik verildikdə insanlar istər-istəməz seçim qarşısında qalırlar.Bəzi insanlar iş yerlərini öz istəklərilə dəyişir, bəzi insanlar isəişdən çıxarıldıqlarına görə yeni iş yerləri axtarır, üçüncülər, mövsümi məşğul olduqları iş yerlərini itirirlər. Gənclər isə yenicə yenicə əmək fəaluyyətinə başladıqlarına görə iş axtarırlar. Belə haldabu insanlar iş yerləri tapdıqda, və ya işdən müvəqqəti çıxarılanlar köhnə iş yerlərinə qayıtdıqda, digər iş axtaranlar və iş yerlərini müvəqqəti itirənlər "ümumi işsizlər fondunda" onları əvəz edirlər və deməli, işsizlik yenə də qalır. İşsizliyin bu növü"friksion işsizlik" adlanır. İşsizliyin bu növü qaçılmaz və eyni zamanda arzu olunandır [5].

"Friksion işsizliyi" də tamamilə aradan qaldırmaq mümkün deyildir bunun səbəbi əhalinin yerdəyişməsi, bir işdən başqa işə keçməsi hallarına son qoymaq mümkün olmadığına görə,məqalədə friksion işsizliyin sturuktur işsizliyə keçməsindən bəhs olunur. İqtisadçılar struktur sözünü "tərkib" mənasında işlədirlər. Getdikcə istehlak tələbinin strukturunda və texnologiyada müəyyən dəyişiklər əmələ gəlir ki, bu da öz növbəsində iş qüvvəsinə olan ümumi tələbin strukturunun dəyişməsinə səbəb olur.Bəzi peşə və ixtisaslara olan tələbin azalması, bəzi hallarda yox olması, bəzilərinə isə, əksinə, tələb artması bunun nəticəsidir. Təbiidir ki, bu işçilərin bəzi kateqoriyalarında işsizliyin əmələ gəlməsinə səbəb olur. İş qüvvəsinin quruluşu yeni iş yerlərinin quruluşuna tez bir zamanda uyğunlaşa bilməməsi məhz bununla əlaqədardır.

Tsiklik və ya dövri işsizlik işsizliyin növlərindən biridir. İşsizliyin bu növü iqtisadi tsiklik azalma mərhələsi ilə əlaqədardır. Başqa sözlə, əmtəə və xidmətlərə ümumi tələb azaldıqda məşğulluq ixtisar olunur və işsizlik artır. Odur ki, tsiklik işsizliyi bəzən tələbin azalması ilə əlaqədar olan işsizlik də adlandırırlar.

Məşğulluğun təmin edilməsi ilə bağlı bəzi problemlər mövcuddur. Qeyd etmək lazımdır ki, Azərbaycanda məşğulluq problemləri olduqca dərin sosial-iqtisadi faktorlarla bağlıdır.Ölkədə məşğulluqla bağlı olan problemləri əsasən obyektiv və subyektiv amillərlə şərtləndirmək mümkündür. Keçən əsrin 80-ci illərinin axırında yaranmış dərin iqtisadi böhran, keçid dövrünün ilkin mərhələsində postsosialist məkanda olduğu kimi Azərbaycanda da təsərrüfat fəaliyyətinin iflic vəziyyətə düşməsinə, sosial sarsıntılara, geniş əhali təbəqələrinin maddi vəziyyətinin

ağırlaşmasına səbəb oldu. Bu vəziyyət erməni milliyyətçilərinin ölkəyə təcavüzü nəticəsində daha da ağırlaşdı. Torpaqların 20 faizinin işğalı, 4 mindən artıq sənaye və kənd təsərrüfatı müəssisəsinin və 300 mindən artıq iş yerinin işğal olunmuş ərazilərdə qalması, 1 milyondan çox qaçqın və məcburi köçkün vətəndaşın öz yerlərindən didərgin salınması iqtisadi və sosial duruma son dərəcə mənfi təsir göstərmiş, məşğulluq sahəsində vəziyyəti olduqca gərginləşdirmişdir [5].

***Əhalinin həyat səviyyəsinin yüksəldilməsi***

Əhalinin həyat səviyyəsinin yüksəldilməsində məşğulluğun böyük rolu olduğu kimi, eyni zamanda işsizlik səviyyəsinin azaldılması da burada əhəmiyyətli dərəcədə rola malikdir. Məhz o səbəbdən qeyd etmək lazımdır ki, gizli işsizliyin yüksək səviyyəsi də məşğulluq probleminin həllinə mənfi təsiir göstərən amillərdəndir.

2006-2015-ci illər üzrə Azərbaycan Respublikasının məşğulluq strategiyasında da göstərilir ki, "Qadınlar arasındada işsizlik yüksək səviyyəsi ilə səciyyələnir. Son illər ərzində işsizlər arasında qadınların xüsusi çəkisi azalaraq, 1995-ci ildəki 59,7 faizdən 2003-cü ildə 53,4 faizə ensə də, məşğulluqda gender bərabərsizliyinin aradan götürülməsi gündəlikdə duran məsələlərdəndir. Yuxarıda qeyd olunan müşahidələrin nəticələrinə görə, 2003-cü ildə iqtisadi fəal kişilər arasında işsizlərin payı 9,6 faiz təşkil etmişsə, qadınlar arasında bu göstərici 12,2 faizə bərabər olmuşdur. Statistik göstəricilərin araşdırılması onu göstərir ki, qadınlar adətən aşağı statuslu və az əmək ödənişi olan işlərdə üstünlük təşkil edirlər. Qadınlar üçün iş yerləri çatışmazlığı bu gün daha çox qadının cəmiyyətdə və ailədəki roluna müvafiq olan çevik iş yerlərinin (natamam iş günü və iş həftəsi, dəyişkən iş qrafiki, evdə iş və s.) azlığında öz əksini tapır Ölkə Kostitusiyası, digər bütün normalarda əmək münasibətlərində qadınlara münasibətdə hər hansı ayrı-seçkilik halına əsas verə bilən müddəa yoxdur. Ölkə qadınlara münasibətdə ayrıseçkiliyin aradan qaldırılmasına yönələn bütün əsas beynəlxalq normalara, o cümlədən Beynəlxalq Əmək Təşkilatının müvafiq Konvensiyalarına tərəfdar çıxmışdır. Əməyin ödənilməsində bərabərlik prinsipinin tətbiqinə dair müddəa həmçinin Əmək Məcəlləsi və digər normativ-hüquqi aktlarda əks olunmuşdur.

Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında göstərilir ki, "Əlilliyi olan şəxslərin cəmiyyətdən təcrid olunmasının qarşısının alınması və sosial infrastrukturdan maneəsiz istifadəsi üçün müvafiq layihələr hazırlanacaq və həyata keçiriləcək, habelə həmin şəxslərin bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi, onlar üçün məşğulluq imkanlarının artırılması məqsədi ilə sosial və peşə reabilitasiya müəssisələrinin sayı artırılacaqdır. Əlilliyi olan şəxslərin informasiya və kommunikasiya texnologiyalarından faydalanmaq, kommunikasiya sistemləri vasitəsilə informasiya əldə etmək imkanları artırılacaqdır"[1].

Əlilliyi olan şəxslərin əmək bazarına çıxışını əngəlləyən spesifik problemlər aşağıdakılardır:

- Müvafiq hüquqi baza təkmil deyil və bu baxımdan onların praktiki impelmentasiyası mümkün deyil;

-İş yerlərində Əlilliyi olan insanlar üçün zəruri infrastruktur yox dərəcəsindədir. İşəgötürənlər belə infrastrukturun yaranmasında maraqlı deyil və dövlət onların maraqlı olması üçün hər hansı ciddi stimullar təklif etmir;

- Əlilliyi olan insanların əmək bazarına çıxışı üçün onların peşələrə yiyələnməsi və peşəyönümünü dəyişmələri üçün ciddi və əhatəli təhsil sistemi mövcud deyil;

- Əlilliyi olan insanlar iş yerlərinə dair məlumatları əldə edə bilmir;

-Əlilliyi olan şəxslər üçün açıq (rəqabətli) əmək bazarına çıxışla bağlı problemlər mövcuddur;

-Əlilliyi olan şəxslər üçün alternativ məşğulluq sistemi tam təşəkkül tapmamışdır.

1992-ci ildə qəbul edilmiş "Əlilliyin qarşısının alınması, əlillərin reablitasiyası və sosial müdafiəsi haqqında" Qanun da vardır. Qanuna sonradan çoxsaylı əlavə və düzəlişlər edilmişdir. Qanunda əlillərin əmək bazarına çıxışını təmin edən bir sıra müddəalar vardır. Qanunun 15-ci maddəsində göstərilir ki, "Əlillərin təhsil peşə hazırlığı müxtəlif formalarda, o cümlədən evdə

tədris formasında və fərdi dərs planları üzrə həyata keçirilir". Qanunun 4-cü fəsli "əlillərin işə düzəldilməsi" adlanır. Qanunun 23-cü maddəsinə görə "əlillərin işə düzəldilməsi sahəsində xüsusi tədbirlər əlillərin işə düzəldilməsinin təmin olunmasına və əlillər üçün xüsusi iş yerləri yaradan, onların əməyini tətbiq edən müəssisələrə, idarələrə və təşkilatlara (mülkiyyət formasından asılı olmayaraq) maliyyə yardımı göstərmək və güzəştlər vermək üzrə öhdəliklərin qanunvericilik yolu ilə təsbit edilməsinə yönələn tədbirlər kompleksindən ibarətdir".

Qanunda əlilliyi olan şəxlərin peşə hazırlığının artırılması, əlilliyi olan şəxlərin əməyindən istifadəyə imkan verən ixtisaslaşdırılmış müəssisələrin yaradılması, əlilliyi olan şəxlərin tibbi müayinəsi üçün müəssisələr tərəfindən şəraitin yaradılması kimi müddəalar da yeralmışdır. Müalicə, tibbi, peşə, sosial bərpa keçən əlilliyi olan şəxslərinmüəssisənin ləğvi istisna olunmaqla işdən azad edilməsinə yolverilmir".

Əlilliyi olan şəxslərin əmək bazarına çıxışını məhdudlaşdıran digər səbəblər aşağıdakılardır:

-Əlilliyi olan insanların işləməsi üçün iş yerlərində zəruri infrastrukturun zəif olması;

- Əlilliyi olan insanlar əmək fəaliyyəti zamanı üçün nəzərdə tutulan bütün imtiyazlar və güzəştlər üçün xərclərin işəgötürənlərin üzərinə qoyulması. Bu hal əlilliyi olan şəxslərə münasibətdə gizli ayrıseçkilik yaradır;

- Alternativ məşğulluq sisteminin təşəkkül tapmaması;

-Mobillik imkanları, görmə və eşitmə qabiliyyəti olmayan və ya aşağı olan şəxslərin sərbəst və kənar yardım olmadan hərəkət etmələri (o cümlədən müvafiq ictimai nəqliyyatın olmaması) üçün yaşayış yerlərində hər hansı şəraitin olmaması;

- Əlilliyi olan insanların ətraf sosial mühitlə uyğunlaşmaq problemləri [3];

Qeyd etmək lazımdır ki,həm məşğulluğun təmin edilməsində, həm də əmək bazarında gənclərin məşğulluğu mövzusuu mühüm əhəmiyyət kəsb edir.

2012-ci ilin rəsmi göstəricilərinə görə ölkədə olan işsizlərin sayı 243 000 nəfər təşkil etmişdir. Bunun 126 900 nəfəri 15-29 yaş arası olan gənclərdir. Bu isə ümumi işsizlərin 56,9%-ni təşkil edir. Göründüyü kimi gənclər arasında işsizliyin göstəricilərinin yüksək olması ciddi problemdir. Problemi daha da ciddi edən səbəblər sırasında ölkədə əmək qabiliyyətli insanlar arasında gənclərin xüsusi çəkisinin yüksək olmasıdır. Ən əsası isə gənclər hər bir ölkənin gələcəyini müəyyənləşdirir və onların start vəziyyətində işsizlik kimi uğursuzluğa düçar olması, sonradan həmin insanların həyat tərzinə mənfi təsir göstərir. 2006-2015-ci illər üzrə Azərbaycan Respublikasının məşğulluq strategiyasında da gənclərin məşğulluq probleminin olması göstərilmişdir. "Gənclər arasında işsizliyin artması ölkənin əmək bazarında müşahidə olunan əsas problemlərdən biridir. 2000-cü ilin may-iyun aylarında BMT-nin İnkişaf Proqramının maliyyə dəstəyi ilə və Beynəlxalq Əmək Təşkilatının texniki yardımı ilə ölkənin bütün ərazilərində əhalinin iqtisadi fəallıq məsələləri üzrə ilk dəfə keçirilmiş müşahidənin nəticəsinə görə, işsizlərin ümumi sayında 35 yaşınadək olan vətəndaşların payı 69,1 faiz olmuşdur" [3].

***Nəticə.***

Son illər respublikada aparılan uğurlu və dinamik sosial siyasət nəticəsində əhalinin məğulluğu daha da artmış, 2018-ci illin nəticələrinə əsasən işsizlik səviyyəsi 5%-ə düşmüşdür. Fikrimizcə növbəti illərdə əhalinin məşğulluğu artdıqca işsizlik səviyyəsi daha da aşağı enəcək və əhalinin həyat səviyyəsi daha da yaxşılaşacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan 2020: gələcəyə baxışİnkişaf Konsepsiyası. Bakı, 2012.
2. Əliyev.T.Q, Əliyeva.Ş.T, Əliyev.R.T., İnsan resurslarının idarə edilməsi. Bakı, 2013.
3. Əmək və məşğulluq sahəsində dövlət siyasəti təhlil sənədi, "QHT Nəşriyyatı" mətbəəsi, Bakı, 2014.
4. Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2018.

5.https://azertag.az/xeber/Amek_bazarinda_movcud_veziyyet_issizliyin_sebebleri_ve_formalari_muxtelifdir-1054290

## ƏHALİNİN MƏŞĞULLUĞUNUN HƏYAT SƏVİYYƏSİNİN YÜKSƏLDİLMƏSİNDƏ ROLU

### XÜLASƏ

Bu yazıda müasir dövrün ən aktual problemlərindən biri, işsizlik, işsizlik növləri, Azərbaycanda məşğulluq səviyyəsi və məşğulluq təmin etməklə həyat səviyyəsinin yüksəldilməsi müzakirə olunur.

## РОЛЬ ЗАНЯТОСТИ В ПОВЫШЕНИИ УРОВНЯ ЖИЗНИНАСЕЛЕНИЯ

### АННОТАЦИЯ

В этой статье обсуждается одна из самых актуальных проблем современности, безработица, виды безработицы, уровень занятости в Азербайджане и повышение уровня жизни путем обеспечения занятости.

## THE ROLE OF EMPLOYMENT IN IMPROVING LIVING STANDARDS

### SUMMARY

This article discusses one of the most pressing problems of modern times, unemployment, types of unemployment, the level of employment in Azerbaijan and raising living standards by providing employment.

# İNSAN ALVERI QURBANI OLMUŞ ŞƏXSLƏRLƏ SOSIAL İŞ

***Surxay Əhmədzadə***
***BDU-nun II kurs magistrantı***
***surxay41@gmail.com***

***Açar sözlər:*** insan alveri, qurban, istismar, məcburi əmək, məcburetmə
***Keywords:*** trafficking, victim,exploitation,forced labor, enforcement
***Ключевые слова:*** торговля людьми, жертва, эксплуатировать, принудительный труд, принуждение

İnsan alveri nədir? İnsan alveri – Əsas insan hüquq və azadlıqlarının kobud şəkildə pozulması, transmilli mütəşəkkil cinayətkarlığın dəhşətli dərəcədə ağır və gəlirli formasıdır. İnsan alverinə qarşı mübarizə məqsədi ilə Aİ hərtərəfli, cinsiyyətə və qurbanlara əsaslanan hüquq və siyasət çərçivəsini, insan alverinə qarşı mübarizə və onun qurbanlarının qorunması üzrə 2011/36 / AB Direktivini tətbiq etmişdir.

***Beynəlxalq Qanunvericilik***

Beynəlxalq qanunvericilikdə insan alveri ilə mübarizəyə dair beynəlxalq hüquqi çərçivənin vacibliyi və burada insan alverinə necə anlayış verildiyi izah olunur. Burada beynəlxalq hüquqi sənədlərin təsiri, o cümlədən Azərbaycan Respublikasının da qoşulduğu Birləşmiş Millətlər Təşkilatının Transmilli Mütəşəkkil Cinayətkarlıq əleyhinə Konvensiyasının və ona əlavə Protokolların, Avropa Şurasının İnsan Alverinə Qarşı Mübarizə haqqında Konvensiyasının (AŞ Konvensiyası) və Avropa İnsan Hüquqları Məhkəməsinin (AHİM) qərarlarının təsiri nəzərdən keçirilir. Beynəlxalq və regional qanunvericiliyin olduqca böyük əhəmiyyəti vardır. Belə ki, bunlar Azərbaycan Respublikası hüdudlarında hüquqi baxımdan riayət edilməli olan beynəlxalq standartları və normaları müəyyənləşdirir.

Bu standartlar və normalar milli qanunvericiliyin və siyasətin işlənib hazırlanması üçün geniş bazadır və bunlardan mütləq şəkildə istifadə edilməlidir. Nəzərə alsaq ki, insan alveri transmilli cinayət ola bilər və buna görə də beynəlxalq səviyyədə tədbirlərin görülməsi tələb olunur. Belə olan halda isə, milli səviyyədə beynəlxalq qanunvericiliyin uyğunluğunu və təsirini başa düşmək zəruridir. Beynəlxalq qanunvericilik həm də beynəlxalq əməkdaşlığın özülüdür.Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT) və Müstəqil Dövlətlər Birliyinə (MDB) üzvlükdən sonra da müxtəlif beynəlxalq öhdəliklər və beynəlxalq vəzifələr yaranmışdır. Üzv dövlətlər də bu öhdəliklərə riayət etməlidirlər. ATƏT onun fəaliyyətinin hər üç istiqamətində insan alveri ilə mübarizədə aktiv rol oynamaq öhdəliyini üzərinə götürmüşdür. 2000-ci ildə insan alveri ilə mübarizəyə dair ATƏT-in Nazirlər Şurası tərəfindən ilk qərar qəbul edilmişdir və o vaxtdan bəri ATƏT insan alveri ilə mübarizəni prioritet məsələ kimi qarşıya qoymuşdur.

***Qurban Anlayışı***

Beynəlxalq hüquqi sənədlərdə və milli qanunvericilikdə insan alverinin qurbanları anlayışları nəzərdə tutulmuşdur, lakin buna baxmayaraq insan alveri qurbanının müəyyənləşdirilmiş və ya razılaşdırılmış profili mövcud deyil. Bəs bu hardan qaynaqlanır? Bu, ona görə belədir ki, qurbanın stereotipik təsviri və qurbanların ümumi xüsusiyyətləri yoxdur. Lakin, müqayisə etsək görərik ki, qurbanların yanlış şəkildə müəyyənləşdirilmə və üstünlük təşkil edən stereotiplərə uyğun gəlməyənlərin müdafiəsiz və yardımsız qalmasına aparan təsvirləri vardır. Qurbanın profilinə istismarın forması təsir göstərə bilər və o, zəif cəhətlərdən asılı vəziyyətə düşə bilər.

***İnsan Alveri Qurbanı***

AŞ Konvensiyasının 4(e) maddəsində insan alveri qurbanının anlayışı aşağıdakı şəkildə verilir: “bu maddə ilə müəyyənləşdirildiyi kimi insan alverinə məruz qalan hər hansı bir fiziki şəxs”. Lakin, buna baxmayaraq BMT-nin İnsan Alverinə dair Protokolunda insan alveri

qurbanının anlayışı verilmir. Amma 6-8-ci maddələrdə qurban üçün göstərilməli olan müdafiə tədbirləri nəzərdə tutulur.

***Qurbanların Müəyyənləşdirilməsi***

İnsan alverinin potensial qurbanlarının müəyyənləşdirilməsi qurbanlara onların hüququ olan müdafiənin göstərilməsini, araşdırmaların və təqiblərin həyata keçirilməsini təmin etmək üçün vacibdir. Dövlətdə olan bütün sahələr, o cümlədən prokurorlar, hakimlər, hüquq-mühafizə və sərhəd orqanları insan alverinin qurbanlarını müəyyənləşdirmək imkanına və potensialına malik olmalıdırlar. İnsan alverinin müxtəlif növləri,istismarın isə yeni və yaranmaqda olan formaları vardır. Buna görə də potensial qurbanların müəyyənləşdirilməsi üçün təkcə insan alveri prosesini deyil, eyni zamanda insan alveri və miqrant qaçaqmalçılığı arasındakı fərqləri bilmək olduqca vacib əhəmiyyətə malikdir. Bu, cinayətin, eyni zamanda cinayətdə iştirak edən şəxslərin şəbəkələrinin mürəkkəbliyi səbəbindən çox vaxt apara bilər.İnsan hüquqları yanaşmasında insan alveri qurbanlarının erkən müəyyənləşdirilməsi və onlara lazımi yardım tələb olunur.

İnsan alveri çox mürəkkəb hadisədir və buna görə də qurbanların yekun olaraq müəyyənləşdirilməsi prosesi uzana bilər. Bu o deməkdir ki, təxmin edilən qurbanların ilkin olaraq müəyyənləşdirilməsi vacibdir. Erkən mərhələdə qurbanları müəyyənləşdirməməsi, onlara lazımi qədərmüdafiənin göstərilməməsinə səbəb ola bilər. Bu da, öz növbəsində, cinayətin effektiv təqibinə mane ola bilər. Bir çox ölkələrdə insan alverinin qurbanları tənzimlənməyən miqrantlarla qarışdırılır, buna görə də lazımi şəkildə müəyyənləşdirilmir. Nəticədə isə ölkədən çıxarılır və ya saxlama müəssisələrinə yerləşdirilirlər. Onlar ağır cinayətlərin qurbanlarıdır və onlara yardım edən qurumun heyət üzvlərinin özlərinin ayrıca risklərə məruz qala biləcəkləri səbəbindən xüsusi təhlükəsizlik tədbirləri və prosedurları zəruridir.

Müəyyənləşdirmə prosesinin məqsədi ondan ibarətdir ki, beynəlxalq hüquqi sənədlərdə təsbit edilmiş insan alveri anlayışlarına uyğun olaraq, şəxsin potensial olaraq insan alverinin qurbanı olub-olmaması müəyyənləşdirilsin. Qurbanların mövcud istismar vəziyyətindən çıxarılması, təxirəsalınmaz fiziki və psixoloji ehtiyaclarının təmin edilməsi və lazımi müdafiə tədbirlərinin həyata keçirilməsi üçün onların müəyyənləşdirilməsi çox vacibdir.

***Qurbanların Müdafiəsi***

Qurbanların onların hüquqlarına hörmətlə yanaşılması hüququ vardır və onlar, öz müqəddəratını təyin etmə hüququ ilə, müdafiə, təhlükəsizlik və qayğı ilə təmin edilməlidirlər. Onlara görülmüş işlərlə bağlı tam məlumat verilməli, qurbanların tam və məlumatlı şəkildə razılığı alınmalı və onlara qarşı ayrıseçkiliyə yol verilməməlidir. Onların konfidensiallıq hüququna hörmət və riayət olunmalıdır. Qurbanların müdafiəsi həmişə təxirəsalınmaz məsələ kimi qalır və cinayət araşdırmasına başlamazdan əvvəl hüquq-mühafizə orqanları qurbanların müdafiəsiz vəziyyətlərdən çıxarılmasını və onların təhlükəsizliyinin təmin olunması üçün onların nəzarət altına alınmalarını təmin etməlidirlər.Qurbanlar onların sosial, tibbi, fiziki, psixoloji və hüquqi ehtiyaclarının təmin edilməsi və onların bərpasına yardımın göstərilməsi və bunun sürətləndirilməsi üçün müdafiəyə ehtiyac duyurlar.

Bütün mərhələlərdə onlara lazımi imkanlar yaradılmalıdır. İlk olaraq, qurbanlar üçün gigiyenik şərait yaradılmalı, ehtiyaclarına, o cümlədən onların geyim, qida və sanitar ehtiyaclarına diqqət yetirilməlidir. Tələb olunduqda, onlara psixoloji və fiziki dəstək göstərilməli, vəziyyət barədə və onlarla bağlı yerinə yetiriləcək işlərlə bağlı onlara davamlı şəkildə məlumat verilməlidir. Qurbanın ehtiyaclarının yerinə yetirilməsini təmin etmək məqsədilə onların ehtiyacları müəyyənləşdirilməlidir. Burada əsas ehtiyacların müəyyənləşdirilməsindən başlayaraq, sonra yardım və xidmətlər üçün ehtiyacların müəyyənləşdirilməsi və yekunda qurbanların hüquqlarının həyata keçirilməsi ilə bağlı ehtiyacların müəyyənləşdirilməsi gəlməklə, üç səviyyəli qiymətləndirmə prosesi olur.

***Müdafiə Tədbirləri***

Qurbanların insan hüquqlarına hörmətlə yanaşılmasını, onlar üçün tam təhlükəsiz şərait yaradılmasını, onların təhlükəsizliyinə zəmanət verilməsini və yenidən psixoloji travma alma risklərinin qarşısının alınmasını təmin etməkməqsədilə cinayət araşdırması zamanı qurbanların müdafiəsi tədbirləri tətbiq edilməlidir. Bundan başqa, çox güman ki, qurban üçün müdafiə tədbirləri təşkil edildikdə araşdırma daha uğurlu olacaqdır, belə ki, belə olan halda, onlar şikayətlərini geri götürməyə az meylli və effektiv şəkildə şahid ifadəsi verməyə isə daha çox meylli olacaqlar. Effektiv müdafiə tədbirlərinin tətbiq edilməsi cinayət araşdırması və proseslər zamanı,xüsusən dəcinayətkarın qurbanla eyni vaxtda məhkəmədə olduğu məhkəmə proseslərində qurbanlara və onların ailələrinə qarşı baş verə bilən təhlükələri minimuma endirə bilər.Qurbanı həm bu əməli törətmiş şəxsdən, eyni zamanda onun ailə üzvlərindən qorumaq üçün bir sıra tədbirlər həyata keçirilməlidir.

Dövlətlər qurbanların əsas insan hüquqlarına hörmətlə yanaşmaq, onların ehtiyaclarına uyğun olaraq, onlara hərtərəfli yardım göstərmək və onları sonrakı baş verə biləcək zərərlərdən qorumaq öhdəliyini daşıyırlar. Bütün cinayət-mühakimə sistemləri, araşdırma və ya təqibin aparılmasında cinayət mühakimə sistemi ilə əməkdaşlıq etmələri onları və ya onlarla sıx bağlı şəxsləri ciddi fiziki və ya emosional zərər riski altında qoyan şəxslərin müdafiəsi üzrə tədbirləri təmin etmə prosedurlarını müəyyənləşdirmək vəzifəsini daşıyırlar. Bu tədbirlərə aşağıdakılar aid edilə bilər:

• İfadə verməyə mane ola biləcək psixoloji və praktiki maneələri dəf etmək üçün mühakimədən əvvəl və mühakimənin gedişatında yardım;

• ”Risk altında olan” şahidlər üçün dinləmədən əvvəl, dinləmənin gedişatında və dinləmədən sonra müdafiə tədbirləri;

• İfadə verdiyi müddətdə şahidin təhlükəsizliyini təmin etmək üçün məhkəmə prosedurları;

• Gizli şahid müdafiə proqramı.

UNTOC-un 24-cü və 25-ci maddələrinə əsasən, iştirakçı dövlətlər, öz imkanları daxilində, cinayətin qurbanı olmuş şəxslərin və şahidlərinin effektiv müdafiəsini təmin etmək, habelə, onlara yardımı təmin etmək üçün müvafiq tədbirlər görməlidirlər. Belə tədbirlərə, qeyd olunanlarla yanaşı, cinayət prosesində ifadə verən şəxslərin fiziki toxunulmazlığını onların həyatlarına qarşı baş verə biləcək təhlükələrdən və qorxudulma hallarından qorumaq üçün prosedurların müəyyənləşdirilməsi də aiddir. Şahidlər bütün növ təhlükələrdən, qorxudulma və korrupsiya hallarından və ya bədən xəsarətlərindən müdafiə edilməlidir və dövlətlər bununla bağlı beynəlxalq əməkdaşlığı gücləndirmək vəzifəsini daşıyırlar.

Avropa Komissiyası qeyd edir ki, bizim ədliyyə sistemlərimizin keyfiyyətinin ən böyük göstəricilərindən biri bizim qurbanlarla nə qədər yaxşı rəftar etməyimizdir. Bu rəftar bizim cəmiyyətlərimizin hər bir qurbanla həmrəyliyinin göstərilməsi və belə rəftarın olduqca vacib məqam olduğunun etiraf edilməsidir.

## ƏDƏBİYYAT

1. ABŞ Dövlət Departamenti, Beynəlxalq Miqrasiya Təşkilatı – İnsan Alverinə Qarşı Mübarizə
2. Mehriban Zeynalova – İnsan Alveri və Qadın Zorakılığı
3. Mehriban Zeynalova – İnsan Qlveri Qurbanlarına Yardım
4. Bərabər İmkanlar üzrə və İrqçilik Əleyhinə Mərkəz 2012, İnsan Alveri və Miqrant Qaçaqmalçılığı
5. Insanalveri.gov.az
6. Dru, S. 2009 İnsan alveri – insan hüquqları.

## XÜLASƏ

Məqalədə: İnsan alveri nədir? Kimlər qurban hesab olunur? Hansı anlayışlar aparatından istifadə olunur? kimi suallara aydınlıq gətirilib. Bunlardan əlavə insan alveri ilə bağlı beynəlxalq və milli qanunvericilik aktları nəzərdən keçirilmişdir. İnsan alveri qurbanlarının müdafiə sisteminin beynəlxalq və milli səviyyədə potensialından da geniş söz açılmışdır. Qurbanların müdafiə tədbirləri dedikdə nələr nəzərdə tutulur? suallara aydınlıq gətirilmişdir.

## СОЦИАЛЬНАЯ РАБОТА С ЖЕРТВАМИ ТОРГОВЛИ ЛЮДЬМИ

## АННТАЦИЯ

В статье: Что такое торговля людьми? Кто жертвы? Какой концепт аппарата используется? Такие вопросы, как Кроме того, было рассмотрено международное и национальное законодательство, касающееся торговли людьми. Также широко обсуждался потенциал системы защиты жертв торговли людьми на международном и национальном уровнях. Что подразумевается под мерами защиты жертв? Вопросы были уточнены.

## SOCIAL WORK WITH VICTIMS OF HUMAN TRAFFICKING

## SUMMARY

In the article: What is human trafficking? Who are the victims? What concepts apparatus is used? Questions such as In addition, international and national legislation related to human trafficking was considered. The potential of the protection system for victims of human trafficking at the international and national levels was also widely discussed. What is meant by victim protection measures? The questions were clarified.

# AZƏRBAYCANDA GƏNC AİLƏLƏRLƏ SOSİAL İŞİN XÜSUSİYYƏTLƏRİ

***Nilufər Alızadə***
***Azərbaycan Universiteti, II kurs magistrantı***
***nilufer_eliyeva1@mail.ru***

***Açar sözlər:*** sosial iş, gənc ailə,sosial işçi, gənc ailələrlə aparılan sosial iş, uşaqlar, sosial yardım, sosial xidmət;
***Ключевые слова:*** социальная работа, молодая семья,социальный работник, социальная работа с молодыми семьями, дети, социальная помош, социальная служба;
***Keywords:*** social work, young families, social work with young families, children, social assistance, social service.

Sosial iş təcrübəyə əsaslanan peşə və sosial dəyişikliyi və inkişafı, sosial birlik və insanların imkan və azadlıqlarını təşviq edən bir akademik intizamdır. Sosial ədalət, insan hüquqları, kollektiv məsuliyyət və müxtəlifliyə hörmət prinsipləri sosial işin mərkəzidir. Sosial iş qrup və ya cəmiyyət səviyyəsində də baş verə bilər. Dövlət siyasətinin inkişafı sosial işçinin həqiqətən geniş miqyaslı və təsirli cəmiyyət dəyişikliklərinə nail ola biləcəyi bir sahədir. Sosial iş təhsili zamanı qurulan sosial iş nəzəriyyəsi və biliklərə əsaslanaraq, sosial işçi cəmiyyətin geniş təbəqəsinə cəlb olunanların hamısının yaxşılaşdırılması üçün dəyişiklikləri həyata keçirməyin yollarını anlamaqda kömək edə bilər.

Sosial işin əsas prinsipləri insana xas olan dəyər və ləyaqətə hörmət, zərər verməmək, müxtəlifliyə hörmət və insan hüquqlarına və sosial ədalətə riayət etməkdir. İnsan hüquqlarının və sosial ədalətin təbliği və qorunması sosial iş üçün motivasiyaya əsaslandırmadır. Sosial iş peşəsi insan hüquqlarının kollektiv məsuliyyət ilə yanaşı yaşamağın lazım olduğunu qəbul edir. Kollektiv məsuliyyət ideyası fərdi insan haqlarının yalnız bir günlük əsasda həyata keçirilə biləcəyi həqiqətini vurğulayır, əgər insanlar bir-birlərinə və ətraf mühitə cavabdeh olduqda və icmalar arasında qarşılıqlı münasibətlərin yaradılması vacibdir [1;s.22].

Gənc ailələr ilə sosial iş sosial işin ən böyük sahəsidir. 1920-ci ildə gənc ailələrlə olan sosial işin bünövrəsi qoyulmuşdur. Əsası qoyulan zaman əsas məqsədi "problemli gənc ailələr" ilə işləmək olmuşdur. Hazırda isə bu sahə çox geniş inkişaf etmişdir. Bu sahədə çalışan sosial işçilər gənc ailələrin rifahını yaxşılaşdırmaq üçün həm makro, həm də mikro ailələrin səviyyəsində iş apararaq onlara kömək etməkdir. Bu sahədə sosial işçilərin başlıca məqsədi uşaqları təhlükədən qorumaq və onların ailərinin yanında qalmaları üçün bir çox xidmətləri səfərbər etməkdir [4;s.12].

Sosial işçilər uşaq və ailələrə kömək etmək üçün ailənin üzləşdiyi yoxsulluq problemindən tutmuş psixoloji probleminə qədər poblemləri həll etmək üçün xidmətləri səfərbər edir və yaxud xidmətlərə yönəldirlər. Ailələr yardım etmək üçün sosial işçilər peşəkar sosial iş prosesindən istifadə edirlər. Bunun üçün uşaq və ailələr ilə işləyən sosial işçilərin ailə və uşaq problemləri sahəsində elmi biliklərə və praktiki bacarıqlara malik olmaları önəmlidir.

Peşəkar elmi bazaya yəni biliklərə və bacarıqlara malik olmaq və çətin həyat şəraitində olan insanlara kömək prosesini bunların əsasında qurmaq, sosial işçiləri digər insanlara kömək edənlərdən fərqləndirir. Bu zaman sosial işçilər insanlara kortəbii deyil, elmi metodlara əsaslanaraq planlaşdırılmış və sistemli şəkildə kömək edirlər. Bu halda sosial işçilər çətin həyat şəraitində olan insanlara yardım göstərmək fərdi kömək planı tuturlar və bunun əsasında hərəkət edirlər.

Sosial işçilərin elmi bazasını nəzəriyyələr, praktiki bacarıqlar, dəyərlər sistemi və etik qaydalar təşkil edir. Sosial işdə bəzi nəzəriyyələr var ki, sahəsindən asılı olmayaraq onu bütün sosial işçilər bilməlidirlər. Bunlara sistemlər nəzəriyyəsini, ekoloji nəzəriyyəni, holistik-dinamik konsepsiya, güclülük nəzəriyyəsi, sosial inkişaf nəzəriyyəsi daxildir. Bu qeyd edilən nəzəriyyələr

ilə yanaşı, uşaq və ailələr ilə işləyən sosial işçilər bununla yanaşı, uşaq inkişafı, koqnitiv, davranış, psixodinamik kimi nəzəriyyələri də bilməlidirlər.

Fərdlərlə aparılan sosial iş zamanı sosial işçilər, mütəxəssislər üz-üzə ünsiyyət və əlaqələr qurmaq vasitəsilə müştərilərinin sosial-iqtisadi, şəxsi, psixoloji və s. problemlərini həll etməyə çalışır.

Fərdlərlə aparılan sosial işin məqsədi fərd və onun ailəsi, digər birliklər və ya ətraf mühiti arasında olan əlaqələrin pozulmasına səbəb olmuş amillərin tamamilə və yaxud qismən aradan qaldırılmasıdır [6;s.8].

Fərdlə aparılan sosial iş prosesinin mərhələləri aşağıda qeyd edilmişdir:

1. Problemin öyrənilməsi mərhələsində müraciətçi prosesə cəlb olunur. Məlumatların yığılması bu mərhələdə baş verir. Bu mərhələdə rəğbətli dinləmə, inam və etibarın nümayişi, məxfiliyin tam təmin edilməsi prosesin gedişatına çox kömək edə bilər.

2. Qiymətləndirmə mərhələsində problemin həllinə müraciətçi tərəfindən problem deyildiyi andan başlanılır, problemin sosial işçi tərəfindən tam dərk edilməsi prosesi ilə bitir. Qiymətləndirmənin ən önəmli məqamı onun fərdlə aparılan bütün iş ərzində davam etməsindən ibarətdir.

3. Müdaxilə mərhələsində müdaxilə etmək üçün qarşıya bir sıra məqsədlər qoyulur. Məqsədin önəmliliyi hazırki problemin səmərəli şəkildə aradan qaldırıl -masındadır. Bu mərhələdə sosial işçi müraciətçini mövcud olan müvafiq xidmətlərə orientasiyasına çalışmalıdır.

4. Fərdlə aparılan işin dayandırılması mərhələsində sosial işçi qarşıya qoyulan məqsədə çatıldığını, bununla yanaşı, müraciətçinin artıq kifayət qədər güclü olduğunu və qarşılaşdığı problemin öhdəsindən gəlməsi üçün kifayət qədər qabiliyyətinin olduğunu gördükdə prosesi yekunlaşdırır.

Gənc ailəni daimi dinamikada olan keyfiyyət prosesinə malik olan institusional və emosional-qrup əlaqələrin sistemi kimi xarakterizə etmək olar. Müxtəlif tipli ailələrlə işdə sosial işçinin iqtisadçı, pedaqoq və psixoloq, hüquqşünas və sadə insan kimi professional keyfiyyətləri daha tam müəyyən olunur.

Ailəyə real kömək sosial və psixoloji işin uyğunluğu zamanı göstərilə bilər. Sosial işçi qəbulu, söhbəti, danışıqları psixoloji cəhətdən savadlı aparmağı, taktiki kömək göstərməyi və müraciətçini ( gənc ailəni) özünəköməyə orientasiya etməyi, həmçinin müraciətçiyə ilkin psixoloji dəstəyi göstərməyi bacarmalıdır. Bunun üçün müxtəlif kateqoriyalı ailələrlə onlarda yaranan problemlərin yox edilməsində konkret ailənin rifah səviyyəsini, sosial işin psixoloji xüsusiyyətlərini və psixoloji imkanlarını bilmək, ailənin psixoloji sağlamlığını qiymətləndirməyi bacarmağı mühümdür.

Sosial işçi xeyriyyə üsullarını cəlb edərək və yaxud ədalətli dövlət və humanitar köməyi müşahidə edərək ailəyə təkcə çətinliklərin öhdəliyindən gəlməkdə deyil, həmçinin ailə üzvlərinə özünə kömək və qarşılıqlı kömək öyrətməkdə yardım göstərməlidir.

Gənc ailərlə sosial işin əsas forma və metodları aşağıdakılardır [6; s.24]:

***İnformasiya işi***mütəxəssislərin yazılı konsultasiyanı tələb edən hallarda vətəndaşların təcili müraciət etməsi üçün “qaynar xətt” telefonun təşkili; sosial köməyə ehtiyacı olan gənc ailələr haqqında və yaxud sosial xidmətin müdaxiləsini tələb edən faktlar haqqında; gənc ailələr və sosial himayəyə ehtiyacı olan ayrı-ayrı insanlar barədə müxtəlif mənbələrdən (poliklinika, dispanser, xəstəxana, məktəb, daxili işlər orqanları, məhkəmə, sosial təminat, məşğulluq xidməti, mənzil-istismar sahələri, poçt və s.) əldə olunan rəsmi statistikanın və operativ informasiyanın ortaya çıxarılması, toplanılması, ümumiləşdirilməsi və maraqlı bölmələrə və müəssisələrə çatdırılması.

***Məşğulluğun təmin edilməsi üzrə iş***gənc ailələrin üzvləri, əmək bazarının öyrənilməsi, işə düzəltmə üçün vakansiyaların mövcudluğu haqqında məlumat vermə, peşəkar hazırlığın və yenidən hazırlanmanın təşkili.

***Metodik iş*** sosial iş üzrə bölmələrin və müəssisələrin əməkdaşlarının fəaliyyətinin effektiv innovativ formalarının və metodlarının öyrənilməsi, onun ümumiləşdirməsi və əmək kollektivində yayılması; əməkdaşların ixtisasının artırılması, onların sosial işin qabaqcıl yerli və xarici təcrübəsiylə tanış olma; informasiya materiallarının, sosial məsələlər üzrə ədəbiyyatların, qanunverici və digər hüquqi aktların yığılması və sistemləşdirməsi, onlardan istifadənin təşkili.

***Reklam-təbliğat işi*** sosial iş üzrə bölmələr və müəssisələr tərəfindən göstərilən xidmətlərin reklamı, onlara göstərilən sosial köməyin məzmunu və vəzifələri; yerli kütləvi informasiya vasitələlərində gənc ailənin möhkəmləndirilməsi və dəstəyinin təbliğ olunması; gənc ailənin həyat fəaliyyətinin müxtəlif məsələlərində yardım edəcək vərəqələrin, dərsliklərin və s. nəşri.

***Analitik-proqnoz işi*** sosial və ailə narahatlığının səbəblərinin demoqrafik vəziyyətinin, tendensiyalarının öyrənilməsi, gənc ailələrə göstərilən sosial köməyin keyfiyyət və spektri haqqında əhalinin fikirləri; bu əsasda sosial işin korreksiyası və təkmilləşdirilməsi, sosial inkişafın planlaşdırılması, yaşayış və ictimai-mədəni obyektlərin tikintisi zamanı demoqrafik amillərin və göstəricilərin nəzərə alınması üzrə təkliflərin hazırlanması.

***Tibbi-sosial iş*** zərərli vərdişlərin (siqaret çəkmə, sərxoşluq, narkotiklərin istifadəsi, az hərəkətli həyat tərzləri və s.) xəbərdar edilməsi üzrə fərdi iş, gənc ailələrin üzvlərinin uşağın doğulmasına hazırlığı, gənclərin sağlamlıq vəziyyətlərini nəzərə alaraq onların peşakar oriyentasiyası;

Sinir-psixi və fiziki yüklənmələrin aradan qaldırılması üzrə sinir və əzələ sisteminin yüklənməsilə bağlı olan xəstəliklərin xəbərdar edilməsi və profilaktikası üzrə, fiziki və psixi mədəniyyətin qabaqcıl metodlarının öyrənilməsi üzrə iş.

Fəaliyyətin sadalanan növləri sosial-psixoloji xidmətlərdə, sağlamlıq mərkəzlərində və xalq təbabətində, həmçinin sosial xidmətlərin bölmələrində və digər sektorlarında gerçəkləşdirilə bilər.

***Sosial-pedaqoji iş*** əlverişsiz sosial-pedaqoji və psixoloji şəraitə malik olan gənc ailələrin sosial himayəsi, valideynlərin uşaqların tərbiyəsində yol verdiyi pedaqoji səhvlərin və münaqişəli vəziyyətlərin öhdəsindən gəlməsində yardım etmə.

Gənclərin asudə vaxtının və ünsiyyət mühitinin formalaşması üçün şəraitlərin yaradılması, gənclər turizminin inkişafının stimullaşdırılması, şəxsiyyətin tərbiyə -sinin müasir formalarının inkişafı. Belə xidmətlərə asudə vaxt mərkəzləri, qadın və gənclər klubları, səyahət və turizm bürosu, işgüzar görüşlər klubları və s. aiddir.

***Sosial-reablitasiya işi*** işsizlərə, əlillərə, uşağı olan qadınlara;mühacirlərə, yaşayış yerini dəyişməyə məcbur olmuş şəxslərə (maddi yardımların alınmasında kömək, daimi ev, yenidən əldə edilmiş ixtisas üzrə işə düzəltmədə, yeni ixtisas almada və s.); əlverişsiz sosial-hüquqi şəraiti olan gənc ailələrə sosial reablitasiya və adaptasiyada kömək göstərmək; uyğun olmayan davranışı olan gənclərin sosial reablitasiya bölmələrinin işinin təşkili.

Çətin həyat vəziyyətinə düşmüş, azadlıqdan məhrum edilmə yerlərindən, xüsusi tədris və müalicə-tərbiyəvi müəssisələrindən qayıtmış, uzun müddət işləməyən və oxumayan əyyaşların, narkomanların və s. olan fiziki və əqli inkişafda çatışmazlığı, gənc ailələrin üzvlərinin sosial reablitasiyası və uyğunlaşması; əlilliyi və s. olan gənc ailələrin üzvlərinin sosial formalaşması. Bunun üçün sosial reablitasiya və uyğunlaşma mərkəzləri və ya xidmətləri, sosial yataqxanalar, sığınacaqlar, sosial mehmanxanalar və s. yaradılır [5; s.43].

Müxtəlif fəaliyyət növlərində gənc ailələrin üzvlərinin hüquq və vəzifələri, məsuliyyət məsələləri üzrə ilə məlumatlandırılması və konsultasiyası, qanunverici və normativ sənədlərlə tanışlığını informasiya və sənədləşmə mərkəzlərində, hüquqi xidmətlərdə və s.məlumat və məsləhət almaq mümkündür.

Sosial işçilər bir insanın fərdi məsələlərindən daha çox diqqət ayırırlar. Çətinliyə səbəb ola biləcək digər şeylərə də baxırlar. Məsələn, psixi sağlamlığı problemi olan birinə kömək edən sosial işçi məsələyə töhfə verə biləcək şeylərə - məsələn, münasibətlərin pozulmasına, evsizliyə, işsizliyə, ailə zorakılığına və s.

Sosial işçilər də məsləhətçi, psixoterapevt, ailəni dəstəkləyən işçilər və ya icma inkişafı işçiləri kimi işləyə bilərlər. Sosial işçilər bir çox fərqli hökumət, qeyri-hökumət təşkilatlarında çalışırlar. Bunlara xəstəxanalar və icma sağlamlıq mərkəzləri, erkən müdaxilə xidmətləri, ailəyə dəstək agentlikləri, ailə terapiyası xidmətləri, uşaqların müdafiəsi proqramları, ailədə zorakılıq xidmətləri, vasitəçilik proqramları və məhrumetmə xidmətləri daxildir. Həm də məktəblərdə, məşğulluq agentliklərində, ədliyyə xidmətlərində, yaşayış xidmətləri və yaşlılara qulluq xidmətlərində çalışırlar.

Xüsusi və ya kompleks ehtiyaclarınız varsa və ya tək başına idarə etməkdə çətinlik çəkdiyiniz təqdirdə sosial işçi kömək edə bilər. Sosial işçi, sizin və ya uşağınızın psixi sağlamlıq vəziyyəti, əlilliyi və ya ciddi bir xəstəliyi varsa kömək edə bilər.

Sosial işçini görmək üçün digər səbəblər bunlar ola bilər [2;s.22]:

1. istismar və ya ailə zorakılığının cari və ya keçmiş təcrübəsi;
2. həyatınızdakı bir münasibətlə əlaqəli problemlər,məsələn, boşanma;
3. alkoqol və digər dərmanlar və ya qumar problemləri;
4. valideynlikdə çətinliklər;
5. iş yerinizi itirmək kimi həyatınızdakı əhəmiyyətli bir dəyişikliklə öhdəsindən gəlməkdə çətinliklər.

Ailənin sosial işi, həssas ailələrə həm böyük, həm də kiçik problemlərin öhdəsindən gəlmək üçün müxtəlif vasitələrdən istifadə etməyi əhatə edir. Ailənin sosial işçiləri ailələrə pulla bağlı narahatlıqlar kimi gündəlik streslərin öhdəsindən gəlməkdə sağlam və məhsuldar bir şəkildə kömək edə bilər. Bu, valideynlərin maliyyə savadlılığı sinifinə yerləşdirilməsini və pul problemlərini həll etdikləri üçün onlara davamlı rəhbərliyin verilməsini əhatə edə bilər.

Sahə ayrıca, ailənin disfunksiyasına, fiziki və emosional istismardan, evsizliyə, dərman problemlərinə səbəb olan daha ciddi amillərlə əlaqədardır. Ailənin sosial işçiləri ümumiyyətlə təhlükə altında olan ailələri təhlükəsiz mənzildə yerləşdirir, işlə təmin olunmaqda kömək edir və narkotikə aludə olan şəxslərə qulluq əlaqələndirir.

Ailənin sosial işi ilə əlaqədar nisbətən unikal bir amil, problemin mahiyyətini və dərəcəsini müəyyənləşdirmək üçün sistem yanaşmasıdır. Bu yanaşma eyni zamanda bu problemlərin aradan qaldırılması üçün strategiyaların hazırlanması və həyata keçirilmə qaydası barədə məlumat verir.

Sosial işçilər, iş yerlərindən asılı olmayaraq, sistem və ya bir məktəb və ya bir sosial xidmət agentliyindən xəstəxana və ya özəl təcrübəyə qədər fərqli ola biləcək sistemlərin yaxınlaşmasında maraqlıdırlar.Məsələn, ailənin əsas qayğısı uşağın qəzəb problemidirsə, ailənin sosial işçiləri bu uşağa yalnız diqqət ayırmaqla yanaşı, onun ailə sistemindəki fəaliyyətini də araşdıracaqlar. Uşağın ailənin hər bir üzvü ilə qarşılıqlı əlaqəsi, uşağın qəzəblənməsində bu qarşılıqlı əlaqələrin rolunu müəyyənləşdirmək üçün araşdırılacaqdır.

Ailənin sosial işi və əlaqəli fənlər insanlara özlərinə kömək etmək konsepsiyasından irəli gəlir, bu, XIX əsrin sonlarında xeyriyyə təşkilatlarının populyar mantrası halına gəldi. Sosial işin bir peşə kimi inkişaf etməsi, ümumiyyətlə, yoxsulluqla bağlı konkret problemi həll etmək üçün qadınların tez-tez həyata keçirdiyi bu ilk cəhdlərə aiddir.

Ancaq 1918-ci ildə Birinci Dünya Müharibəsinin bitməsindən sonra bu qadınların və digər könüllülərin bir çoxu veteranlara müharibə travmalarının öhdəsindən gəlməkdə kömək etdi və ailələrinə sevdikləri insanların mübarizələrini həll etməkdə kömək etdi.

Beləliklə, sosial işlərin ailələrə həyatındakı maneələri dəf etmək üçün sistemli bir yanaşma olmağa başladı.

Ailənin sosial iş sahəsi, optimal ailə fəaliyyətinə nail olmaq üçün maneələri aşmalı olan ailələrə dəstək xidmətlərinin göstərilməsinə yönəldilmişdir. Rabitə, məsləhət və vəkillik də daxil olmaqla bir sıra sahələrdə təlim keçən ailənin sosial işçiləri müxtəlif ictimai və özəl şəraitlərdə işləyir və çox sayda müştəri ilə işləyirlər. Ailənin sosial işçiləri cütlüyə uşağa övladlığa

götürməyə kömək edə bilər, məişət zorakılığı qurbanları üçün vəsait tapır və ya cəza çəkdikdən sonra cəza çəkənlərin cəmiyyətə yenidən inteqrasiyasına kömək edə bilər.

Ailənin sosial işçiləri, adətən, ailələrdən sui-istifadə, yoxsulluqdan asılılıqadək həyatlarıdakı maneələri dəf etməyə kömək edirlər. Ailənin ehtiyaclarını qiymətləndirməyə və həm ayrı-ayrı ailə üzvlərinə, həm də ailənə vahid olaraq müxtəlif dəstək təklif etməyə diqqət yetirirlər. Dəstəklər arasında məsləhət, təbliğat və qaynaqların əlaqələndirilməsi ola bilər. Məsələn, kimsəsiz bir ailəyə təyin edilmiş bir ailə sosial işçisi ailənin müvəqqəti mənzil təmin etməsi üçün çalışacaqdır. Sosial işçi, biri və ya hər ikisi işsizdirsə, iş görüşmələrini təşkil etmək üçün valideynlərlə məsləhətləşəcəkdir. Ailənin uşaqları üçün, sosial işçi lazımi məktəb ləvazimatları alıb məktəbə və geri qayıdışını təşkil edə bilər. Bir ailə üzvü bağımlılıkla mübarizə edərsə, təkbaşına məsləhət verilə bilər.

Sosial işçilər bəzən qısamüddətli olsa da, ailələrə problemlərlə işləmələrinə və ya potensial dəyişkən vəziyyətlərin qarşısını almağa kömək etmək üçün dərhal həll yollarını təklif edirlər. Sosial işçi tez-tez məsləhətlərin daha təsirli olması üçün ailə üzvlərini sabitləşdirməyə, o cümlədən fərdi üzvlərin problemlərini həll etməyə çalışacaqdır. Məsələn, bir ailə üzvündə ciddi bir dərman və ya spirt problemi varsa, sosial işçi terapiyaya davam etmədən əvvəl bir müalicə müəssisəsinə girməyi tövsiyə edə bilər. Və ya bir ailə üzvünün depressiya və ya bipolyar pozğunluq kimi bir ruhi xəstəliyi varsa, sosial işçi ona vəziyyətini idarə etmək üçün dərmanlar təyin edə bilən psixiatrla görüşməyi tövsiyə edə bilər.

Ailələr tez-tez ailə məsləhətçiliyinə daxil olurlar, çünki ailələrdə stress və münaqişə yaradan dərhal problem var. Sosial işçinin ilk məqsədi ailələrə problemi başa düşməyə və həll etməyə kömək etməkdir. Valideynlərin evliliyindəki problem ailə daxilində fikir ayrılığına səbəb olarsa, sosial işçi cütlük problemlərini bir-biri ilə həll etməkdə kömək edir ki, onlar daim mübahisə etmək əvəzinə uşaqlarına qulluq etməkdə komanda şəklində işləsinlər. Uşaqlara valideynlərinin problemlərinin onlara heç bir aidiyyəti olmadığını başa düşmələrinə kömək etmələrini tövsiyə edirlər. Uşaqlar valideynlərinin boşanmasından və ya bir valideynin və ya digər ailə üzvünün ölümündən narahat olduqları üçün hərəkət edirlərsə, sosial işçi onlara kədər və qorxuları ilə mübarizə yollarını tapmağa kömək edəcəkdir.

Sosial işçinin uzunmüddətli məqsədi ailələrə problemlərin həlli və qarşısının alınması üçün necə birlikdə işləməyi öyrətməkdir. Onlara dərhal problemlərini həll etməyə kömək etməkdən əlavə, o, həm də ailə dinamikası və həm ayrı-ayrı üzvlərə, həm də bütövlükdə ailəyə təsirləri barədə məlumat verəcəkdir. O, problemlərə necə yanaşdıqlarını və münaqişəyə necə cavab verdikləri vəziyyəti daha da pisləşdirə biləcəyini anlamağa kömək edəcəkdir. O, həmçinin gələcəkdə münaqişəni daha effektiv idarə etmək üçün bir plan yaratmağa kömək edəcəkdir. Məsələn, o, həftəlik ailə görüşlərini keçirməyi tövsiyə edə bilər ki, orada öz problemlərini açıq müzakirə edə bilsinlər.

Ailənin sosial işi fərdlərin yalnız emosional birlik və quruluş təmin etməməsi, həm də kişilərarası münasibətlər və valideyn yetişdirmə bacarıqlarını modelləşdirməsi üçün güclü, işlək ailələrə ehtiyac duyduğu bir məqamda qurulur. Böhran vəziyyətində olan bir ailənə məsləhət verərkən, ailə sosial işçiləri ailələrin sabitliyini bərpa etmələri üçün yeni ailə quruluşlarını düzəltməyə və ya yaratmağa çalışırlar [3;s.11].

Ailə sosial işçilərinin vəzifəsi, problemlərinin həlli yollarını tapmaqla ailələrin həyat səviyyəsini yaxşılaşdırmaqdır. Müştərilər çox vaxt böhran vəziyyətində olan, yoxsulluq səviyyəsində yaşayan və ya ondan aşağı olan və ya xroniki olaraq işsiz qalan ailələrdir. Bir çox ailələrdə qocalmış, əlil olan və ya asılılıq və ya psixi xəstəliklərlə mübarizə aparan bir və ya daha çox üzvü var.

Ailə sosial işçiləri ümumiyyətlə cəbhə xəttindədirlər, ilk müştərilərlə qarşılaşırlar. Dövlət və ya federal hökumət qurumlarında, xəstəxanalarda, məktəblərdə və özəl və ya klinikalarda

işləyirlər və köməyə ehtiyacı olan insanlarla söhbət etmək və qulaq asmaq üçün xüsusilə bacarıqlıdırlar.

Əvvəlcə ailə sosial işçiləri müştərilərin ehtiyaclarını qiymətləndirməlidirlər. Ailə ilə apardıqları söhbətlər ailənin güclü və zəif tərəflərini, eləcə də ailənin dinamikasını aydın şəkildə anlamağa imkan verir. Ailənin fərdi üzvünə müsahibə vermə tez-tez mümkün öyrənmə əlilliyi, alkoqol və ya narkotik asılılığı və ya ruhi xəstəlik kimi digər problemləri də ortaya qoyur.

Qiymətləndirmədən sonra ailənin sosial işçisi lazımi mənbələri ayıran bir qayğı planı hazırlayır və ailənin problemlərinin həlli üçün atacağı addımları müəyyənləşdirir. Sosial işçi ailəni və tərəfdaşlarını bir çox məsələdə, məsələn, işləmək üçün gündüz baxımı, yemək yeyə biləcəkləri qida markalarına müraciət etməkdə kömək etmək və ya qocalmış bir ailə üzvünə tibbi müalicə tapmaqda məsləhət görür.

Ailə sosial işçiləri də müştərilərə seçimlərini başa düşməyə və daha yaxşı qərarlar qəbul etməyə imkan verən məlumat verirlər. Çox vaxt ailə sosial işçiləri müştərilərə tətbiqetmələrdə kömək edir və ya vacib ola biləcək hüquqi məsələlər barədə məlumat verirlər. Məsələn, bir çox insan kirayə mübahisələri və ya irqi bərabərlik kimi məsələlərdə öz hüquqlarını bilmir. Sosial işçilər bu müştəriləri necə istiqamətləndirməyi bilir və tez-tez müdaxilə edir və onların adından müdafiə edirlər.

Disfunksiyalı ailələrin xüsusi köməyə ehtiyacı var. Ailəni sağlam ailənin qarşılıqlı əlaqəsi haqqında maarifləndirmək ailənin sosial işçilərindən ailənin dinamikasını başa düşmələrini tələb edir. Müxtəlif ailə üzvlərinin töhfələrini qiymətləndirməyi bacarmalı və onlara ailənin ehtiyaclarını qoruyan və dəstəkləyən davranışlar, məsələn iş saxlamaq və ya məktəbdən sonra bacı-qardaşlarına qayğı göstərmək barədə tövsiyələr verməlidirlər.

Ailənin sosial işçiləri ailələri bir yerdə saxlamaq, uşaqların evdən kənarda yerləşdirilməsinin qarşısını almaq və mübarizə aparan valideynlərin sağlam, sabit ev təmin etmələri üçün çalışırlar. Valideynlərin zehni xəstəliklər və ya narkomaniya səbəbindən bunu edə bilməmələri halında, ailə sosial işçiləri uşaqlarını rifahlarını sığortalamaq üçün köçürməyə hazır olmalıdırlar.

Müştərilərlə işləmək və onlar üçün mənbələr tapmaqdan əlavə, ailə sosial işçiləri də müştərilərlə onların səhiyyə təminatçıları arasında əlaqə yaradır. Tibbi yeniləmələrin, dərmanların, müalicələrin və müvafiq hüquqi məsələlərin izlənilməsi ailə sosial işçilərinin iş yerlərinin çox hissəsidir. Sosial işçilər adətən müştərilərinə ən yaxın olduqları üçün problem yarandıqda terapevtik qrupun digər üzvlərini xəbərdar etməlidirlər.

Sosial işçilər sui-istifadə hallarına kömək edir və araşdırmalara laqeyd yanaşır və uşaqları təhlükəsiz mühitdə yerləşdirməyə kömək edirlər. Uşaqlar, ailə və məktəb sosial işçiləri də risk altında olan uşaqları müəyyən etmək üçün məktəblərdə işləyirlər. Müəllim və işçi heyətinin hesabatlarına cavab verirlər və kömək lazım olduqlarını təyin etdikləri təqdirdə birbaşa tələbələrə və ailələrinə müraciət edirlər. Sosial işçilər daha sonra müəllimlər və məktəb işçiləri ilə birlikdə həm məktəbdə, həm də evdə daha sağlam bir akademik mühitdə inkişaf etməkdə kömək etmək üçün metodlar tətbiq edə bilər.

## ƏDƏBİYYAT

1. Bulut İ. Aile Değerlendirme Ölçeği El Kitabı, Ankara:Özgüzeliş Matbaası, 1990, 251 s.
2. Koşar N. Aile Hizmetleri.H.Ü. Sosyal Hizmetler Yüksekokul Dergisi,1,1:1, 1988, 35 s.
3. Алёшина Ю.Е. Индивидуальное и семейное психологическое консультирование. М., 2009. 208с.
4. Мацковский М.С., Гурко Т.А. Молодая семья в большом городе. М: Знание, 2010. 176 с.
5. Молодая семья: проблемы и перспективы социальной поддержки / под общ. ред.Е.В. Жижко и С.Д. Чигановой. Красноярск: РУМЦ ЮО, 2005. 512 с.

6. Основы социальной работы: учебной пособие для студентов вузов / под ред. Н. Ф. Басова. М.: Издательский центр «Академия», 2004. 288 с.

## AZƏRBAYCANDA GƏNC AİLƏLƏRLƏ SOSİAL İŞİN XÜSUSİYYƏTLƏRİ

### XÜLASƏ

Ailə insanın doğulduğu, böyüdüyü, cəmiyyətin üzvü olmaq üçün hazırlandığı bir instutdur, sosial özəkdir. Ailənin öz üzvləri qarşısında ictimaiyyət tərəfindən əvəz edilə bilməyən, lakin resurslar və xidmətlər vasitəsilə dəstəklənə bilən əsas öhdəlikləri mövcuddur. Ailə münasibətlərinin müstəqil tənzimlənməsi, kamil şəxsiyyətlər tərbiyə etməsi üçün böyük məsuliyyət daşıyır. Ailənin ən mühüm funksiyaları reproduktiv, təsərrüfat-tələbat, təbiyəedici və bərpaedici funksiyalardır. Ailə böhran vəziyyətinə düşdükdə müəyyən çətinliklərlə qarşılaşır və öz əsas funksiyalarını yerinə yetirə bilmir. Bu istiqamətdə sosial işçilər tərəfindən ailənin həyat fəaliyyətinin təmin olunması istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Sosial iş peşəsi sosial dəyişikliyi, insan münasibətlərindəki problemlərin həllini və insanların rifah halını artırmaq üçün imkan və azadlıqları təmin edir. İnsan davranışları və sosial sistemlər nəzəriyyələrindən istifadə edərək, sosial iş insanların mühitləri ilə qarşılıqlı olduğu yerlərdə müdaxilə edir. İnsan hüquqları və sosial ədalət prinsipləri sosial iş üçün əsasdır.

## ОСОБЕННОСТИ СОЦИАЛЬНОЙ РАБОТЫ С МОЛОДЫМИ СЕМЬЯМИ В АЗЕРБАЙДЖАНЕ

### АННОТАЦИЯ

Семья - это социальная база, институт, где человек родился, вырос и готовился к жизни. Перед членами семьи существует очень важные обязанности. Общество не может их заменить. Но они поддерживаются с ресурсами и услугами. Перед семьей стоит важные функции для семьи это репродуктивная функция, воспитательная функция, восстанавливающая функция и хозяйственный спрос. Когда у семьи кризис, то она встречается трудностями и не может выполнять свои важные функции. Для того чтобы обеспечить семейного благополучия по этому направлению со стороны социальных работников реализуются разные мероприятия.

Специальность социальной работы обеспечивает социального изменения, решению межсемейных проблем, повышению благополучия людей и свободу. Используя человеческих поведений и системой социальной теорией, социальная работа всегда помогает людям. Человеческие права и справедливые социальные принципы являются основными принципами социальной работы.

## FEATURES OF SOCIAL WORK WITH YOUNG FAMILIES IN AZERBAIJAN

### SUMMARY

The family is an institution where a person is born, raised, and prepared to be a member of society, and is a social nucleus. The family has core responsibilities to its members that cannot be replaced by the community, but can be supported through resources and services. Independent regulation of family relations has a great responsibility for the upbringing of complete personalities. The most important functions of the family are reproductive, supply-demand, educative and regenerative functions. When a family is in crisis, it faces certain difficulties and fails to perform its primary functions. In this regard, social workers take appropriate measures to ensure the life of the family.

Social work as a profession provides opportunities and freedoms for social change, the resolution of problems in human relations, and the improvement of people's well-being. Using theories of human behavior and social systems, social work intervenes where people interact with their environment. The principles of human rights and social justice are the basis for social work.

# SOSİAL İŞÇİ NİYƏ ETİK PRİNSİPLƏRİ BİLMƏLİDİR?

***Nuray Qibləliyeva***
***ADMİU- nun II kurs magistrantı***
*nuray_qiblaliyeva@mail.ru*

***Açar sözlər:*** sosial işçi, etika, etik prinsiplər
***Ключевые слова:*** социальный работник, этика, этик принципы
***Key words:*** social worker, ethics, ethical principles

***Giriş*** Sosial işçinin klient ilə olan münasibətində onun müəyyən olunmuş dəyərlərini, prinsiplərini və etikasını görmək mümkündür. Sosial işçilərin həmçinin cəmiyyət qarşısında da öhdəlikləri vardır. Cəmiyyətin ümumi rifahını önə çəkmək, sosial siyasətin və qurumların formalaşdırılmasında ictimaiyyətin rasional iştirakını dəstəkləmək, sosial problemlər çərçivəsində ictimaiyyətin maarifləndirilməsində yaxından iştirak etmək, sosial qanunların qəbul olunmasında yaxından iştirak etmək, sosial işçinin cəmiyyət qarşısında olan öhdəliklərinə daxildir.

Sosial işçinin etikası iki cür formalaşır

- Sosial işçinin klientlə münasibətdə (klientə qarşı) etik məsuliyyəti
- Sosial işçinin öz həmkarlarına qarşı etik məsuliyyəti

**1. Sosial işçinin klientlə münasibətdə etik məsuliyyətləri**

- Sosial İşçi ilk növbədə klientin rifahını önə çəkməli və klientin maraqlarını müdafiə etməlidir.

- Öz müqəddəratını təyin etməyə

- Sosial İşçi klientin həyat tərzi və dəyərlərindən asılı olmayaraq seçim etmək və qərar vermək hüququna hörmətlə yanaşmalıdır.

- İnformasiyanın alınmasına əsaslanan razılaşma

- İşə başlamamışdan əvvəl Sosial işçi klientlə onun həyat situasiyası ilə bağlı hərtərəfli və dolğun məlumat verməsinə zəmanət verən yazılı razılaşma imzalanmalıdır.

- Maraqların toqquşması

- Sosial işçilər ədalətli mühakimə və professionallığa mane olan maraqların toqquşmasından qaçmalıdır. Maraqların real və potensial münaqişəsi yarandıqda Sosial işçilər bu haqqda klientə məlumat verməli klientin maraqlarını müdafiə edən rassional addımlar atmalıdırlar.

- Seksual münasibətlər və cinsi zorakılıq

Sosial İşçi problemlərinin həlli ilə məşğul olduğu klient ilə cinsi əlaqədə olmamalı və ona münasibətdə cinsi zorakılıq etməməlidir.

-Məxfiliyi qorumaq

Klientin verdiyi məxfi məlumatlar özünə, ikinci bir şəxsə və ya cəmiyyətə ziyan vurmayacaq təqdirdə Sosial işçilər tərəfindən gizli saxlamalıdır.

-Xidmətlər üçün ödəniş

Ödənişi təyin edərkən Sosial işçilər ödnişin əsaslı, ədalətli və həyata keçirilən xidmətlərə uyğunluğuna əmin olmalıdır. Sosial işçilər professional xidmətin ödənişi müqabilində klientdən xidmət və ya əmtəə almaqdan çəkinməlidir.

-Qərar qəbul etmək bacarığı məhdud olan klientin qərar qəbul etməsinə köməklik

Qərar qəbul etmək bacarığı məhdud olan klientin adından çıxış edən Sosial işçilər klientin hüquqlarını və maraqlarını müdafiə etmək üçün əsaslı addımlar atmalıdır.

-Xidmətlərin fasiləsi

Sosial işçilər qeyri-müyəssərlik, yerdəyişmə, xəstəlik, əlillik, ölüm və başqa amillər Narahatlıq halları müşahidə olunmur.əticəsində xidmətlərin ara verilməsi hallarında xidmətlərin davam etdirilməsi üçün əsaslı addımlar atmalıdır.

-Xidmətlərin istifadəsinin sona çatdırılması

Xidmətlər və Sosial işçilərlə klientlər arasındakı professional münasibətlərə artıq ehtiyac olmadıqda və klientin ehtiyaclarına və maraqlarına xidmət etmədikdə dayandırılmalıdır. Etik standartlar (müraciətçi, cəmiyyət, iş yeri, əməkdaşlar qarşısında) Sosial işçilər klientlərə, əməkdaşlara, cəmiyyətə qarşı bir sıra etik standartları qorumalıdır.

**2. Sosial işçinin həmkarlarına qarşı etik məsuliyyətləri**

- Həmkarlarınadaimhörmətləyanaşmalıdır.
- Ədalətsizhərəkətlərəqarşıhəmkarlarımüdafiəetməlidir.
- Klientin ən yaxşı maraqları naminə həmkarlarının məsləhət və dəstəyindən yararlanmalıdır.
- Həmkarların səriştəlilik və ixtisaslaşmış olduqları sahələr haqqında məlumatlı olmalıdır.
- Həmkarları ilə şəxsi məqsədlər və ya hər hansı bir mövqeyin tutulması məqsədi olmadan fikir mübadiləsi aparılmalıdır.
- Professional münasibətlər zamanı həmkarları tərəfindən bölünən məxfi informasiyanın konfidensiallığını saxlamalıdır.
- Supervayzerlə, əməkdaşlarla, həmkarlarla, tələbələrlə, trenerlərlə seksual münasibətdə olmamalı və ya cinsi təcavüz etməməlidir.
- Digər mütəxəssislərlə, klientlərlə ünsiyyət zamanı həmkarlarına münasibətdə əsassız və neqativ tənqiddən yayınmalıdır. Əsasız, neqativ tənqidə həmkarların səriştəlilik dərəcəsi, irq, milli-etnik mənsubiyyət, cinsi orientasiya, yaş, ailə statusu, siyasi mənsubiyyət, din, əqli və ya fiziki əlillik kimi fərdi göstəricilərə alçadıcı şərhlər aid edilə bilinər.
- Konsultasiya mövzusu ilə bağlı səriştə və biliyini nümayiş etdirmiş həmkarlar ilə fikir mübadiləsi aparmaq və bu mübadilə zamanı keysin müzakirəsi üçün vacib olan minimum informasiyanı verməlidir.
- Əlavə xidmətlər tələb olunduqda, sosial işçi keyslə bağlı əsaslı dəyişikliklər edəcəyinə əmin olmadıqda və yaxud klientin digər mütəxəssislərin ixtisaslaşmış bilik və təcrübəsinə ehtiyac yarandıqda klienti digər mütəxəssisə yönəltməlidir.

***Nəticə***

Beləliklə, sosial iş təcrübəsində müxtəlif klient kontingenti, xüsusi qayğıya ehtiyacı olan şəxslər, qruplarla ünsiyyət, iş prosesində tələb olunan etik bilik və bacarıqlar ilə tanış edir. Tələbələrə təcrübə zamanı sosial işçinin klintlə qarşılıqlı münasibətlərini düzgün qurması üçün tələb olunana ünsiyyət vərdişlərini aşılanır. Bu fənnin tədrisi ilə tələbələr sosial işin dəyərləri, sosial işdə etik norma və prinsiplər, sosial işdə münaqişəli situasiyaların həlli üsulları ilə tanış olacaq, eyni zamanda sosial iş təcrübəsi zamanı zəruri olan etik bilik, bacarıq və vərdişləri inkişaf etdirəcəklər.

## ƏDƏBİYYAT


1. https://www.socialworkers.org/About/Ethics/Code-of-Ethics/Code-of-Ethics-English
2. https://ausocialworkdepartment.wordpress.com/category/sosial-isin-etik-pirinsipl%C9%99ri/
3. http://socialwork-az.blogspot.com/p/sosial-is-tcrubsinin-etik-prinsip-v.html
4. http://muhaz.org/sosial-isin-etik-qaydalarnen-ve-prinsiplerinin-umumi-icmal.html
5. https://sosialish.wordpress.com/etik-kodeks/


## XÜLASƏ


Bütün bunlarla birlikdə hər bir peşə sahəsinin özünəməxsus etik prinsipləri olduğu kimi sosial işçilərin etik prinsipləri ilə tanış olduq. Etik prinsiplərə əməl etməyən və uyğunlaşa bilməyən sosial işçilərin işdən uzaqlaşdırıldıqlarını nəzərə aldıqda bunun önəmli əhəmiyyət kəsb etdiyini

görə bilərik. Araşdırdığım və öyrəndiyim case-lərə əsasən deyə bilərəm ki, bu prinsiplər sosial işçilərə kömək olduğu kimi klientlərə də həmişə asandlıq və rahatlıq yaratmışdır.

## АННОТАЦИЯ

Вместе со всем этим мы познакомились с этическими принципами социальных работников, поскольку каждая профессиональная область имеет свои собственные этические принципы. Учитывая, что социальные работники, которые не могут следовать и адаптироваться к этическим принципам, отстранены от работы, мы можем видеть, что это имеет важное значение. Основываясь на тех случаях, которые я исследовал и узнал, я могу сказать, что эти принципы всегда создавали легкость и гибкость для клиентов, поскольку они помогают социальным работникам.

## SUMMARY

Along with all this, we got acquainted with the ethical principles of social workers, since each professional field has its own ethical principles. Given that social workers who cannot follow and adapt to ethical principles are suspended from work, we can see that this is important. Based on the cases I have researched and learned, I can say that these principles have always created ease and flexibility for clients as they help social workers.

# SOSİAL MEDİA VƏ SOSİAL PROBLEMLƏR

***Pərvanə Lətifli***
***ADMİU-nin magistrantı***
**letiflipervane@gmail.com**

***Açar sözlər:*** media, medianın tarixi, sosial media, sosial medianın tarixi, sosial problemlər.
***Ключевые слова:***медиа, история медиа, социальные медиа,история социальных медиа, социальные проблемы.
***Key words:*** media, history of the media, social media, history of social media, social problems

***Giriş.*** Hazırkı dövrdə sosial media dünyanın ən aparıcı sahələrindən biridir.Sosial medianın müasir dövrüdə sürətli inkişafına səbəb elmin, texnologiyanın inkişafı, internetin kəşfi ilə əlaqədardır. Sosial medianın insanlar tərəfindən istifadəsinin kütləvi hal alması isə 1990-cı illərin 2-ci yarısından etibarən başlamışdır. Artıq dünyada demək olar ki, insanların böyük bir qismi sosial mediadan istifadə edirlər. Beləlikə sosial media insanların həyatında digər insanlarla ünsiyyət qurmalarında ən vacib vasitəyə çevrilmişdir. Artıq sosial mediasız insanlar həyatlarını təsəvvür edə bilmirlər.Sosial media müasir dövrümüzdə insanlarınyazılı ,səsli görüntülü olaraq fikirlərini ifadə etdiyi ünsiyyət formasıdır.

**Sosial media anlayışı.**Sosial media insanlar arasında müxtəlif formalı münasibətlərin virtual şəkildə yaradılmasına həm də onların bütün həyat fəaliyyətinə təsir göstərən vasitəçisidir. İnsanlar arasında ünsiyyətin daha asan yaradılması, əlçatan olması və informasiyaların sürətli paylaşılması formasıdır. Müasir dövrdə sosial mediaya çıxış telefonlar vasitəsilə də həyatə keçirildiyi üçün daha geniş əhali kütləsini əhatə edə bilir. Sosial media sayəsində insanlar istifadə etdiyi müxtəlif tipli media vasitəsi ilə digər insanlara öz fikirlərini, gün ərzində yaşadığı hər hansısa bir hadisəni, məqalələrini və ya şəkil və videolarını qısa müddətdə paylaşa bilirlər həmçinin dünyanın istənilən yerində baş verənhadisələrdən, yeniliklərdən qısa müddətdə xəbərdar ola bilirlər. Sosial medianı insanlar yalnız əyləncə məqsədi ilə deyil həmçinin bir çox insan gündəlikiş fəaliyyətlərinidə buradan idarə edə bilirlər.

Texnologiyanın inkişafı ilə əlaqəli olaraq bir çox fəaliyyət sahələri müştəriləri ilə birbaşa ünsiyyətdə olmaq üçün sosial mediadan istifadə edir. Hətta bir çox insanın işi məhz sosial mediadır. Yəni insanlar sosial mediadan maddi olaraq qazanc əldə edirlər. Sosial media vasitəsi ilə insanlarbir birləri ilə birbaşaünsiyyətdə olurlar.İnsanlar dostları, ailəsi, hətta dünyanın istənilən yerində olan biri ilə ən qısa müddətdə ünsiyyət yarada, fikirlərini bölüşəbilərlər. Buvasitəni həyata keçirən formalarinformasiya,saytları,bloglar, sosial şəbəkələr ( facebook, twitter, snapchat, instagram, linkedln, pinterest,youtube, whatsaap). vs

Hazırda dünyadakı üç milyard insan, dünya əhalisinin 40%-i sosial media istifadəçisidir. Tədqiqatlara görə insanlar günlərinin orta hesabla 2 saatını sosial mediada keçirdirlər. Sosial mediadan istifadənin etməninyaş həddi yoxdur yəni buradan istənilən yaş qrupundan olan insanlar, yetkinlik yaşına çatmayan uşaqlar beləistifadə edə bilərlər. Öz düşüncələrini bildirməkdə heç bir maneə olmadan ifadə edə bilirlər. Bu səbəbdən sosial mediada ifadə olunan hər hansı bir paylaşım üçün məhdudiyyətin olmaması, istifadəsinə görə cəmiyyətə mənfi və müsbət təsir göstərə bilər.

Texnologiyanın sürətlə inkişafı ilə müasir dövrdə sosial medianın insanların üzərində böyük təsiri var. Çünki insanların bir çoxununhəyatlarının böyük bir hissəsini sosial media əhatə edir. Yalnız insanların sosial medianı düzgün istifadəsi nəticəsində onlara müsbət təsir edə bilər. Lakin sosial mediadan istifadənin əlçatan olması yəni hər kəsin istənilən məlumatı əldə edə

bilməsi və bunlara nəzarətin olmaması və ya məqsədəuyğun istifədə olunmaması cəmiyyətdə insanlar arasında ciddi problemlərin yaranmasına gətirib çıxardır. Sosial medianın belə sürətlə inkişaf edib hər birimizin gündəlik həyatımıza güclü təsir göstərməsinə səbəb olan faktor isə texnologiyaların, internetin inkişafı və sürətlə yayılmasıdır. Nəticədə sosial media həyatımızın ayrılmaz bir hissəssinə çevrilmişdir.

**Sosial medianın zərərləri.** Sosial medianın insanlara təsir etməsinə görə həm yararlı , həm də zərərli tərəfləri var. Birinci zərari insanların gündəlik həyatlarında uzun müddət istifadə etməklə böyük ölçüdə vaxt itkisinə səbəb olmasıdır. Sosial media nəinki insanların vaxt itkisinə ən əsası onların sağlamlıqlarına da zərər vura bilir.İnsanların ruhi sağlamlığına vurduğu zərərlər.

1. Depressiya. İnsanların sosial mediadanəldə etdikləri informasiyannın təsirindən onlarda dəyərsizlik, ümidsizlik kimi neqativ duyğular yaranır.

2. Aqressivlik. Paylaşılan neqativ yönlü informasiyanın təsiri altında qalmaq, şəxsin özünə və ətrafına zərər vurması ilə nəticələnir.

3. Asosiallıq. Hər nə qədər ünsiyyətqurmanı vaxt və məsafə baxımından asanlaşdırsa da insanları birəbir ünsiyyətdən, cəmiyyətdən kənarlaşmağa yalnızlığa tənhalığa meyiləndirir.

4. Aslılıq. Sosial mediaya olan bağlılıq insanların duyğu və düşüncələrini öz iradələrinə uyğun olaraq hərəkət etmələri ilə deyil aslı formada hərəkət etmələri ilə nəticələnir ki, bu müasir dövrün ən ağır asılıq formasıdır.

5. Yuxu pozulmaları. Sosial mediadan uzun müddət istifadə, hətta gecə vaxtı belə istifadə edilməsi insanlarda yuxu rejimlərinin pozulması bu da öz növbəsində insanalarda əsəbilik, yorğunluq və s halların yaranmasına gətirib çıxarır.

Sosial medianın insanlara digər zərəri insanların şəxsi təhlükəsizliyinin ciddi şəkildə qoruna bilməməsidir yaşından aslı olmadan hər kəsin sosial mediadan istifadəsi əsasəndə uşaqların sosial mediaya çışı nəticəsində internet üzərindən mənfi yönümlü paylaşımlara məruz qalırlar. Sosial medianın yaratdığı təhlükələr:

1. Kiberhücum. Cəmiyyətdə qorxu və xaos vəziyyəti yaratmaq üçünqorxu mesajları, hədələr, şaiyələr insanlara çatdırıla bilər. İnternet yolu ilə insanlar hücumetmək və onları qorxu altında saxlamq çox asandır. Çünki ondan istifadəyə hər kəsin çıxışı olması qarşısı alınmaz nəticələrə gətirib çıxarır. Əsasəndə belə kiber hücumlara uşaqlar, yeniyetmələr məruz qalırlar.

2. Hackerlik. İnsanların sosial mediada şəxsi məlumatlarını, giziliklərinin asanlıqla ələ keçirilə və başqaları tərəfindən paylaşıla bilər. Bu məlumatlardan istifadə edilərək yəni sosial media şəxsiyyət oğurluğu vasitəsi ilə internet üzərindən insanlara maliyyə itkisinə səbəb ola bilər.

3. Sosial media fırıldaqçılığı. Başqa şəxslərin adlarından, nüfuzundan istifadə etməklə insanları aldatmaq.

4. Sosial medianın insan ölümünə səbəb olması. Paylaşılan təhlükəli hərəkətləri digər insanların təkaralamaq meyli.

Ən başlıça təsir edən zərərli tərəfi sosial mediayanın özünə olan bağlılıqdır. Bu digər asılılıq yaradan maddələrdən alkoqolizmdən, narkotik vasitələrdən belə kəskin forma almışdır. Bəzi insanlar artıq sosial mediadan aslı hala gəlməkləsosial media onların həyatlarını idarə edecek səviyyəyə qədəronları əhatə etmişdir.İnsanlarsosial mediadan təkcə aslı hala gəlməmiş həmçinin əldə etdikləri zərərli informasiyaların təsiri altında qalaraq düşüncə tərzləri dədəyişə bilir və ya sosial problemlərin yaranmasına gətirib çıxardır.

İnsanların bu problemə məruz qalmasına səbəb sosial medianın məqsədəuyğun istifadə olunmamasıdır. İnsanların sosial media nəticəsində üzləşdiyi sosial problemlərin ən kəskini zorakılıq, intihar,terrorizm vs hər biri bügünki dövrdə geniş miqyalı qlobal problemdir və bütün insanlarıciddi dərəcədə narahat edir. Günü gündən inkişaf edən sosial medianınyaratdıqızərərli təsirlərinin qarşısını almaq nəinki mümükündür hətta o daha da sürətlə yayılmaqda davam edir.

Hər nə qədər sosial media müasir dövrümüzün ünsiyyət növü olsa dainsanları bir birinə yaxınlaşdırmaq yerinə əksinə daha da uzaqlaşdırabilir.

Çünki insanlar daha çox yazaraq ünsiyyətdən istifadəetdikləri üçün üz üzə, danışaraq qurulan ünsiyyədə çətinlik çəkirlər. Ən çox bu problemə məruz qalan yeniyetmələr və gənclər olur. Belə yeniyetmə və gənclər zaman keçdikcə asosial , özünə qapanıq olur və depressiv hala düşə bilirlər. Yaxud da hər hansı mənfiyönümlü, yanlış paylaşımın təsiri altında qalaraq yanlış qərarlar verə bilərlər. Yarana biləcək təhlükələrin qarşısını almaqla gəncləri, inkişaf etməkdə olan uşaqları zərərli təsirlərindən qoruya bilərik.

**Sosial medianın faydaları.** Lakin bu odemək deyil ki,sosial medianı yalnız zərəli tərəfləri var və biz onu həyatımızdan tamamilə silib atmalıyıq və insanlara sosial mediadan istifadəniqadağa etməliyik. Sosial medianı həyatımızdan silmək mümükün deyildir. Sosial medianın insanlara zərərinin və ya faydasının olması məhz elə insanların öz istifadəsindən də aslıdır. Əgər sosial medianın faydalı tərəflərini sadalasaq bunlar belə olar. Bunu müasir dünyanın yeni ünsiyyət forması olduğunu unutmaq olmaz. Çünki sosial medianın zərərli tərəfləri olduğu kimi onun insanlara yararlı ola biləcək tərəfləri də mövcuddur. Əgər sosial medianın faydalı tərəflərini sadalasaq bunlar belə olar.

1. XX əsrin yeni ünsiyyət forması olması
2. Zaman və məsafə itkisinin azaltmaq
3. İstənilən informasiyanı əldə edə bilmək
4. Fikrvə düşüncədə azad olmaq
5. Yeni iş imkanlar
6. Yardım kampaniyalarına qoşulmaq
7. Maarifləndirmə. İnsanların həyat tərzində yenliklərə səbəb olur. Məsələm hər hasnı bir peşə nümayəndəsi öz sahəsi ilə bağlı yenilikləri sosial media vasitəsi ilə əldə edə bilirlər. Bununla özlərinin şəxsi inkişafına səbəb olurlar.

Elə sosial medianın yaradılmasında daməqsəd insanların bir-birləri ilə məsafə, zaman kimi maneələrə məruz qalmadan hər kəslə ailəsi, dostları, əhatələrində olan şəxslərlə, düşüncə tərzləri eyni olan dünyanın istənilən yerində yaşayaninsanlarla qısa müddətdə asan fornada ünsiyyət yarada bilsinlər. Və ya onlara lazım olan informasiyaları əldə edə bilsinlər. Sosial media sayəsində insanlar keçmiş dostlarını,məktəb yoldaşlarını tapıb ünsiyyət qura və ya onlar haqqında məlumat da əldə edə bilərlər. Həmçinin hər kəs bəyəndiyi, səyahət etməkistədiyi yerləri, məkanları sosial media vasitəsi ilə kəşf edə bilər. Dünyada baş verən trendlərdən, texnoloji yeniliklərdən xəbərdar ola bilərlər.

Sosial media ilə müxtəlif tətbiqlər sayəsində oyunlar oynaya, öz şəxsi bizneslərini qura, həmçinin onun reklamını həyata keçirə bilərdünyada baş verənhadisələrə anındaca reaksiya verə bilər, yardım hərəkatların qoşularaq digər insanlara dəstək ola bilərlər. Sosial medianın digər faydalı bir tərəfi isə iş axtarışını asanlaşdırmasıdır. Asanlaşdırma dedikdəişaxtaran insanlara onlara uyğun olan bir çox işlərlətanış olmalarına,bacarıqlarına uyğun işləri tapmasına kömək edə bilir. Əksinə olaraq şirkət, təşkilat və ya müəssisələrin işçi axtarışlarında qısa müddətdə vəzifəyə daha uyğun kadrları tapa bilərlər. Həmçinin işçilərin görüləcək işlərin qısa vaxt ərzində görülməsinə də sosial media köməklik göstərir. Bura da yalnız iş axtarışını asanlaşdırmır həmçinin sosial medianın yaranması ilə yeni iş sahələrinin yaranmasına da səbəb olmuşdur.

Beləki artıq cəmiyyətdə sosial media meneceri bir çox şirkət tərəfindən ən tələb olunan iş sahəsidir. Həmçinin sosial media ilə e-ticarət sahələri inkişaf etmiş və insanların rahat formada alış veriş etmələrinə səbəb olmuşdur. Sosial medianın digər üstünlüyü siniflərarası təbəqələşməni azaltmasıdır. İnsanlar sosial media sayəsində baş verən problemlə bağlı şikayətlərini istənilən dövlət qurumuna vaxt itirmədən çatdıra bilirlər və ya onlara lazım olan sənədləşmə işlərində sosial mediadan istifafə etməklə qısa müddətdə lazım olan informasiyanı əldə edərək işlərini həll edə bilirlər. Bu insanlarda uzun müddət növbə gözləmələrinin, pul itkisinin qarşısını almışdır.

**Nəticə.**Sosial medianın insanlara olan faydalı və zərərli təsirləri hər kəsin onu məqsədəuyğun istifadəsi ilə mümkündür. Yəni hər bir insan yalnız sosial media deyil digər fəaliyyətlərlə də özlərinə və digər insanlara faydalı olan işləri gördükləri müddətcə cəmiyyət və insanlar inkişaf edə və sağlam gələcək qurula bilər.

## ƏDƏBİYYAT

1. http://www.bbc.com/azeri/international-42681055
2. http://www.newtimes.az/az/social
3. https://az.m.wikipedia.org/wiki/Sosial_media
4. ByDaniel Miller, ElisabettaCosta,Nell Haynes, TomMcdonald, RazvanNicolescu, JolynnaSinanan, JulianoSpyer, ShriramVenkatraman, XinyuanWang.,How the World Changed Social Media,London: 2016
5. Jeremy Harris Lipschultz, Social Media Communication: Concepts, Practices, Data, Law and Ethics, 2017

## SOSİAL MEDİA VƏ SOSİAL PROBLEMLƏR

## XÜLASƏ

Müasir dövrdə istənilən informasıyanın geniş əhali kütləsinə çatdırılması üçün sosial mediadan istifadə edilir. Sosial mediadan yalnız siravi vətandaşlar deyil həm də diplomasiya sahəsində, xarici siyasətdə də istifadə olunur. Həmçinin sosial media sayəsində gənclər onlara lazım olan dərs vəsaitlərini rahat ələdə edə bilirlər. Hər nə qədər sosial media insanlarda üz-üzə olan ünsiyyəti azaltsa da bəzi insanların onları əhatə etdiyi sosial mühitdə özlərini ifadə edə bilmədikləri və özlərini yararsız hesab etmələrinə baxmayaraq sosial media vasitəsi ilə düşüncələrini və qabiliyyətlərini rahatca ifadə edə bilirlər.

## СОЦИАЛЬНЫЕ СМИ И СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ

## АННОТАЦИЯ

В наше время социальные сети используются для передачи широкой общественностилюбой информации. Социальные сети используются не только рядовыми гражданами, но и в сфере дипломатии и внешней политики. Кроме того, благодаря социальным сетям молодые люди могут легко получить доступ к нужным учебным материалам. Хотя социальные сети уменьшают общение людей лицом к лицу, некоторые люди могут выражать свои мысли и способности через социальные сети, даже если они не могут выразить себя в социальной среде вокруг себя и считают себя бесполезными.

## SOCIAL MEDIA AND SOCIAL PROBLEMS

## SUMMARY

Nowadays, social networks are used to transmit to the general public any information. Social networks are used not only by ordinary citizens, but also in the field of diplomacy and foreign policy. In addition, thanks to social networks, young people can easily access the right learning materials. Although social networks reduce people’s face-to-face communication, some people can express their thoughts and abilities through social networks, even if they cannot express themselves in the social environment around them and consider themselves useless.

# TƏNHA AHILLARLA SOSİAL İŞ

**_Rauf Mirəliyev_**
**_BDU-nun II kurs magistrantı_**
_miraliyevrauf1@gmail.com_

***Açar sözlər:*** tənha, ahıl, tənha insan,ahıl insan, sosial xidmət, sosial hüquqlar.
***Ключевые слова:*** одинокий, пожилой, одинокий мужчина, пожилой мужчина, социальная служба, социальные права.
***Keywords:*** lonely, elderly, a lonely man, an elderly man, sosial service, sosial rights.

"BMT-nin araşdırmasına əsasən, hazırda dünyada hər 10 nəfərdən biri 60 və ya daha yuxarı yaş qrupuna daxildir. 2050-ci ilin sonunadək hər 5 nəfərdən biri, 2150-ci ilin sonunadək isə hər 3 nəfərdən biri 60 və ya daha yuxarı yaş qrupuna daxil olacaq. Bu da dünyada yaşlı əhalinin sayının ildən-ilə artdığını göstərir. Həmçinin BMT-nin qiymətləndirmələrinə əsasən, 65 və daha yuxarı yaşda olanlar əhalinin 4%-ni təşkil edirsə, onda əhali "cavan", əgər bu pay 4%-7% arasındadırsa, onda əhali "yaşlaşma ərəfəsində", bu pay 7% və ondan yuxarıdırsa, onda əhali "yaşlı" hesab edilir. 2025-ci ilədək aparılan proqnozlara görə 60 və yuxarı yaşda olan insanların sayı əhalinin 15%-ni, inkişaf etmiş ölkələrdə isə 30%-ni təşkil edəcək".

Bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Avropa İttifaqının "Ahılların sosial müdafiəsi" TAİEX proqramı çərçivəsində Azərbaycanda ahıllar üçün sosial xidmətlərin mövcud vəziyyətinin qiymətləndirilməsi və bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə keçirilən seminarda deyib.

İ.İsayev bildirib ki, dünyanın inkişaf etmiş ölkələrindən fərqli olaraq, Azərbaycanda ahıllar əhalinin az bir hissəsini, cəmi 4 faizini təşkil edir: *"Qeyd olunan kriteriyalar baxımından Azərbaycan əhalisi "cavan" əhali sayılır. Lakin dünya ölkələrinin çoxunda olduğu kimi, Azərbaycanda da əhalinin yaşlaşması prosesi müşahidə olunur. 1950-2010-cu illər ərzində 65 yaşından yuxarı əhali kontingentinin sayı dünya üzrə 5 faizdən 8 faizə qədər artıb. 2050-ci ilədək bu göstəricinin 12 faizə qədər artacağı proqnozlaşdırılır".*

Azərbaycanda ahılların hərtərəfli dövlət qayğısı ilə təmin olunduğunu deyən nazir müavini bildirib ki, "Sosial xidmət haqqında" Qanuna əsasən yaşı 70-ə çatmış şəxsin ahıl hesab edilir.

O, rəsmi statistikaya görə, respublikamızda belə şəxslərin sayının 390 min nəfərdən çox olduğunu bildirib: "Ahıl şəxslərin rifahında mühüm yer tutan pensiya təminatı mütəmadi olaraq gücləndirilir. Hazırda Azərbaycanda əmək pensiyalarının baza məbləği 100 manat, orta aylıq məbləği 175,1 manat, yaşa görə pensiyalar üzrə orta aylıq məbləğ 195 manatdır. Son on ildə orta aylıq əmək pensiyası 9,4 dəfə çoxalaraq, yoxsulluq həddini 1,7 dəfə üstələyib".

Nazir müavini həmçinin hazırda 664 nəfər Böyük Vətən müharibəsi əlilinin, 540 nəfər Böyük Vətən müharibəsi iştirakçısının, 11 nəfər İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində işləmiş şəxsin Prezident təqaüdləri ilə təmin olunduğunu, ötən il bu təqaüdlərin məbləğinin əhəmiyyətli şəkildə artırıldığını bildirib: "1998-2014-cü illərdə ƏƏSMN tərəfindən 1075 nəfər Böyük Vətən müharibəsi əlili minik avtomobili, həmin təbəqədən olan 102 nəfər şəxs isə mənzillə təmin edilib".

Nazir müavini tənha ahıl və əlillərə evlərində göstərilən sosial xidmətlərdən, habelə ƏƏSMN-nin Müharibə və əmək əlilləri üçün pansionatında (Qocalar evi) yaşayan tənha vətəndaşların və əlillərin hərtərəfli təminatı üçün görülən işlərdən söz açıb.

İ.İsayev ahıllarla bağlı siyasətin təkmilləşdirilməsində Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti çərçivəsində icra edilən TAİEX proqramının rolunu qeyd edib. Seminarda ƏƏSMN-nin

Sosial təminat siyasəti şöbəsinin müdiri Səbinə Cəfərova ölkəmizdə ahılların sosial müdafiəsi sahəsində görülən işlər, ahıllarla bağlı hazırlanan yeni Dövlət Proqramının layihəsi barədə məlumat verib. Daha sonra Avropa İttifaqı ölkələrindən gəlmiş ekspertlər Ralf von Ameln (Almaniya), Jan-İv Hokke (Fransa), Maqda Zupançiç (Slovenya) ölkələrinin müvafiq təcrübələrini təqdim ediblər.

Bunlardan əlavə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sosial işçiləri tərəfindən hazırda respublika üzrə 11 901 nəfər tənha ahıl və əlil şəxsə evlərində sosial-məişət xidməti göstərilir.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, onlardan 9 555 nəfərini ahıllar, yəni yaşı 70-dən yuxarı olanlar, 2 346 nəfərini I və II qrup əlillər təşkil edir.

Qanunvericiliyə əsasən, əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan tənha ahıllar və I qrup əlillər, habelə köməyə ehtiyac duyan II qrup əlillər (yoluxucu və ya ağır formalı ruhi xəstəlikləri olmadığı halda) müraciətləri əsasında evlərində sosial-məişət xidməti ilə təmin olunurlar. Sosial-məişət xidmətlərinin göstərilməsi Nazirlər Kabinetinin Qərarı ilə təsdiq edilmiş “Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi”nə uyğun şəkildə həyata keçirilir.

Hazırda sosial xidmət işçilərinin peşəkarlıq səviyyələrinin qabaqcıl beynəlxalq təcrübəyə uyğun olaraq “sosial işçi” modeli əsasında təkmilləşdirilməsi işləri aparılır. “Sosial işçi” modeli sosial işin əhatə etdiyi şəxslərin kateqoriyalarının və funksional miqyasının genişlənməsini nəzərdə tutur. Bu modelə sosial xidmətlərə ehtiyac duyan digər insanların (sağlamlıq imkanları məhdud uşaqlar, sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayan uşaqlar, məişət zorakılığına məruz qalmış şəxslər, insan alveriqurbanları və b.) da həmin xidmətlərə əlçatanlığının təmin olunması və problemlərinin həlli istiqamətində müvafiq işlərin aparılması daxildir.

Ahılların sosial müdafiəsi və layiqli həyat şəraitinin təmin olunması ölkəmizdə aparılan sosial siyasətin mühüm tərkib hissəsidir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ahıl insanların sosial müdafiəsinin təmin olunmasına xüsusi diqqət və qayğısı 1993-cü ildən ölkəmizdə də hər il Beynəlxalq Ahıllar gününün yüksək səviyyədə qeyd olunmasına və bu təbəqədən olan insanların etibarlı sosial müdafiə sistemi ilə əhatə olunması yönündə fəal dövlət siyasətinin formalaşmasına səbəb olub. Yaşlı nəslə münasibətdə milli və ümumbəşəri dəyərləri ifadə edən bu siyasətin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ahıl insanlara dövlət qayğısının da ildən-ilə artırılması ilə müşahidə olunur.

1 Oktyabr - Beynəlxalq Ahıllar günüdür. BMT Baş Məclisinin 1992-ci ildə qəbul etdiyi müvafiq Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-nin Beynəlxalq Ahıllar günü kimi qeyd olunması cəmiyyətdə ahılların problemlərinin həllinə diqqət və qayğının artırılması məqsədi daşıyır.

Qeyd edək ki, “Sosial xidmət haqqında” Azərbaycan Respublikası Qanununa əsasən ölkəmizdə yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunurlar. 2017-ci ilə olan rəsmi statistikaya əsasən, ölkəmizdə bu kateqoriyadan olan şəxslərin sayı 377,8 min nəfər təşkil edir. Ötən dövrdə dövlət başçısının müvafiq fərman və sərəncamları, 2004-cü ildə təsdiq edilmiş “Azərbaycanda demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı”, 2006-cı ildə təsdiq edilmiş “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı” və digər sənədlər əsasında aparılan işlər, icra olunan mühüm sosial proqramlar ahıl vətəndaşların etibarlı sosial müdafiə sistemi ilə təmin olunmasına imkan verib.

Pensiya təminatı ahıl insanların sosial müdafiəsində xüsusi yer tutur. Hazırda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda qeydiyyatda olan əmək pensiyaçılarının 329 275 nəfəri ahıl vətəndaşlardır. Onlardan 201 838 nəfəri qadın, 127 437 nəfəri isə kişidir. Ahıl pensiyaçıların 208 611 nəfəri 70-80 yaş arası,

110 936 nəfəri 80-90 yaş arası, 9 728 nəfəri 90-dan artıq yaşı olan vətəndaşlardır. Ümumilikdə hazırda ahıl vətəndaşların 87,1 faizi əmək pensiyası ilə təmin olunur, əmək pensiyası hüququ olmayan ahıl şəxslərə isə yaşa görə aylıq sosial müavinət ödənilir.

Ümumilikdə, ölkəmizdə əmək pensiyaçılarının sayı 01 iyul 2017-ci il tarixinə 1 milyon 325 min nəfər təşkil edir ki, onlardan 59,2 faizi yaşa görə, 11,5 faizi ailə başçısını itirməyə görə, 29,3 faizi əlilliyə görə pensiya alır. Müasir sığorta-pensiya sisteminin yaratdığı imkanlar, həyata keçirilən ardıcıl sosial müdafiə tədbirləri nəticəsində pensiyaların orta aylıq məbləği son 10 ildə 10,3 dəfədən çox, cari ilin ilk yarımilində isə 6,4% artıb. Beləliklə, 2017-ci ilin 01 iyul tarixinə ölkədə əmək pensiyalarının orta aylıq məbləği 201,7 manata, o cümlədən yaşa görə əmək pensiyalarının orta aylıq məbləği 224 manata çatıb. Həmçinin son on ildə sosial müavinətlərin orta aylıq məbləği 3 dəfədən çox artırılıb.

Ahıl vətəndaşların bir qismini təşkil edən 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına ödənilən orta aylıq pensiya məbləği isə 356 manat təşkil edir. Aylıq əmək pensiyası ilə yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə 2008-ci ilin 01 sentyabrından digər müharibə əlilləri kimi, İkinci Dünya müharibəsi əlillərinə də Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü ödənilir. Həmin təqaüdlərin məbləği ötən dövrdə orta hesabla 2 dəfədən çox artırılıb və I qrup əlillər üçün 165 manata, II qrup əlillər üçün 143 manata, III qrup əlillər üçün 110 manata çatdırılıb. İkinci Dünya müharibəsi iştirakçıları, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslər də Azərbaycan Prezidentinin təqaüdləri ilə təmin edilirlər.

Hər il olduğu kimi, cari ildə də 9 May – Qələbə günü ərəfəsində də İkinci Dünya müharibəsi iştirakçılarına, müharibədə və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi barədə Azərbaycan Respublikası Prezidenti tərəfindən müvafiq Sərəncam imzalanıb. Sərəncama əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 13 312 nəfər şəxsə, o cümlədən

İkinci Dünya müharibəsi iştirakçıları olan 763 nəfərin hər birinə 1000 manat, Sərəncamda qeyd olunan digər təbəqələrə aid 12 549 nəfərin hər birinə isə 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Həmin yardımların məbləği də vaxtaşırı olaraq artırılır. Bu istiqamətdə növbəti addım olaraq, ötən ildən etibarən bu maddi yardımların məbləği 25 faiz artırılmaqla, müvafiq olaraq 800 manatdan 1000 manata və 400 manatdan 500 manata çatdırılıb. Həmin şəxslərə Qələbə günü ilə əlaqədar MDB məkanında ən yüksək məbləğdə birdəfəlik yardım məhz Azərbaycanda verilir. Digər tərəfdən, ötən dövrdə İkinci Dünya müharibəsi əlillərindən 102 nəfərə dövlət büdcəsi hesabına mənzil, 1118 nəfərə minik avtomobili verilib.

Son illərdə nazirliyin digər bir çox sosial xidmət müəssisələrində olduğu kimi, 201 nəfər insanın, o cümlədən 137 nəfər ahıl şəxsin yaşadığı Müharibə və əmək əlilləri üçün pansionatda (Qocalar evi) müasir tələblərə uyğun yaşayış şəraitinin yaradılması təmin olunub. Pansionatda əsaslı təmir və yenidənqurma işləri aparılmaqla, müəssisə üçün 5 mərtəbəli 170 yerlik ikinci korpus inşa olunaraq istifadəyə verilib. Yeni korpusda yaradılan şəraitlə tanış olan Azərbaycan Prezidenti İlham Əliyev burada yaşayan ahıllarla görüşündə "Güclü sosial siyasət bundan sonra da davam etdiriləcəkdir. Xüsusilə yaşlı nəslə, ağsaqqallara, ağbirçəklərə daim diqqət göstərilməlidir və göstəriləcəkdir", deyə bəyan edib. Ahıllara diqqət və qayğının artırılması sahəsində Heydər Əliyev Fondu tərəfindən də mühüm işlər aparılır. Fondun nəcib layihələri çərçivəsində pansionatdakı qocaların səhiyyə ocaqlarında müayinə edilməsi, onlar üçün konsertlərin, bayram şənliklərinin keçirilməsi və s. tədbirlər təşkil olunur. Bu kimi tədbirlər ahıllara fərəhli anlar bəxş edərək, onlarda nikbin duyğular oyadır.

## ƏDƏBİYYAT

1. ″Ahıllara sosial xidmət″ haqqında Azərbaycan Respublikası Qanunu
2. E.Ə. Qəhrəmanov, Y.P. Əhmədov – Sosial işin əsasları
3. ″Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reablitasiya Müəssisəsi″ Sosial xidmət müəssisəsinin Nizamnaməsi″
4. ƏƏSMN.GOV.az
5. SOSİAL.GOV.az

## XÜLASƏ

Məqalədə ahıllar və onların əsas qayğılarından söz açılmış,dünyada və Azərbaycanda statistik göstəricilərdən və ahıllara göstərilən sosial xidmətlər haqqında geniş məlumatlar əks etdirilmişdir. Həmçinin, Azərbaycanda ahıllara göstərilən dövlət qayğısından danışılmış, bu təbəqənin dövlətin daim diqqət mərkəzində olması məsələləri vurğulanmışdır.

## АННОТАЦИЯ

В статье рассматриваются пожилые люди и их основные проблемы, приводится обширная информация о статистике и социальных услугах, предоставляемых пожилым людям в мире и в Азербайджане. Он также рассказал о государственной заботе о пожилых людях в Азербайджане, подчеркнув, что этот слой всегда находится в центре внимания государства.

## SUMMARY

The article discusses the elderly and their main concerns, provides extensive information on statistics and social services provided to the elderly in the world and in Azerbaijan. He also spoke about the state care provided to the elderly in Azerbaijan, emphasizing that this layer is always in the focus of the state.

# ŞƏXSİYYƏTİN ÖZÜNÜ TƏSDİQİ VƏ SOSİAL İŞ

***Nərgiz Yusifova***
***ADMIU-nin II kurs magistrantı***
***nlkerimzade@gmail.com***

***Açar sözlər:*** sosial işçilər, cəmiyyət, şəxsiyyətin özünü təsdiqi
***Ключевые слова:*** социальные работники, общество, самоутверждение идентичности
***Keywords:*** social workers, society, identity self-affirmation.

Əgər insan öz fəaliyyətini başqalarının, cəmiyyətin mənafeyi ilə əlaqələndirmək qabiliyyətinə malikdirsə, bu onun əxlaqi məsuliyyətə əsaslanan şüurluluğunu, yetkin mənəviyyatını, daxili aləminin bütövlüyünü ifadə edir. Spirkinin dediyi kimi, monlik şüuru özünü və həyatdakı öz yerini bitgin şəkildə qiymətləndirməkdən ibarətdir.

Mədəniyyət sferasının təşəkkülünə, inkişafına və zənginləşməsinə istiqamətlənən şəxsiyyətin özünü təsdiqi onun bu istiqamətdə şüurlu səyi ilə sıx bağlıdır. Sosial-mənəvi praktika təsdiqləyir ki, hər bir fərdin özünü realizəsinin mahiyyəti ilk əvvəl onun şüur səviyyəsi və mənlik şüuru, həyatın mənası barədə inamı və düzgün təsəvvürü, ümumi mədəniyyəti, əxlaqi ləyaqəti, bir sözlə, şəxsiyyətin mənəvi dünyasını səciyyələndirən qiymətli keyfıyyətlərlə şərtlənir. Qeyd edək ki, nəinki bu və ya digər fərd, hətta hər bir siyasətçinin özü ilk növbədə əxlaqın subyektidir [1, s. 292].

Bu və ya digər şəxsiyyət özünün dinamik təzahür edən sosial xüsusiyyətlərinin mürəkkəb və açıq sistemi kimi çıxış edir. Həmin sosial xüsusiyyətlər bunlardır: istehsal-iqtisadi, siyasi, ailə-məişət, əxlaqi, estetik, dini və s. Şəxsiyyətin bu sosial xüsusiyyətlər sisteminin açıq xarakteri ilk öncə şəxsiyyətlərin özlərinin qarşılıqlı fəaliyyətində təzahür edir, şəxsiyyətlərin qarşılıqlı fəaliyyəti onların sosial həyat fəaliyyətinin xarici mühitilə, informasiya mübadiləsində, biliklərilə, təcrübəsilə, digər subyektlərlə fəaliyyətində nəzərə çarpır.

İş insan təbiətini təşkil edir. Karl Marks və Fridrix Engels kapitalist istehsal üsulu nəzəriyyələrini hazırlamazdan əvvəl, insan təbiəti işçi heyvandan fərqli olaraq öz işini konseptual hala gətirməyi bacaran bir insanın təbiəti kimi müəyyən edilmişdir. Heyvanlar işlərini əks etdirmədən nə etməli, nə etməlidirlər. Lakin əmək kimi işləmək, Marksın ardınca cəmiyyətlərin kapitalist cəmiyyətləri kimi formalaşmasında istismar və yadlaşmanın əsas mənbəyinə çevrildi. Marks və Engelslə edilən tənqidi yazışmalarda 20-ci əsrdə fərqli düşünənlər, işin əməyin olmadığını və empirik olaraq insan fəaliyyətinin həmişə əməkdən daha çox olduğunu bilməli olduğumuzu iddia etdilər. Bu, əlbəttə ki, Hannah Arendt, eyni zamanda Andre Gorz və başqalarının işlərində əks olunduğu bir fikirdir.

İşin təməl xarakterini dərk edərək, işin yalnız insan təbiətinin quruluşlu bir anı olmadığını, sosial münasibətləri təməl bir şəkildə qurulduğunu başa düşürük. Bu, təkcə kapitalist cəmiyyətlərində deyil, ümumiyyətlə sosial münasibətlərdə də mövcuddur, əgər insanın çoxalması üçün görülən bütün işlərə (çox vaxt cinsiyyətə) baxsaq, heç olmasa bütün qayğı işlərini görməyək.

Sosial iş və sosial xidmətlər həmişə ictimai qayğı işlərinin sahələri olub. Sosial münasibətlərin ictimai qaydada tənzimlənməsi siyasətinin və təcrübəsinin bir hissəsi olaraq, 19-cu əsrdən bəri rifah rejimlərində sosial iş və sosial xidmətlər qurulur. Buna görə sosial iş əvvəldən əmək kimi işlə əlaqələndirildi: Sosial işçilər və digər qulluq işçiləri müasir cəmiyyətlərdə işçi qüvvəsinin bir hissəsidir və sosial iş istifadəçiləri adətən əmək bazarında yenidən birləşdirilməli olan insanlar kimi müraciət olunur. Şəxsiyyətin başlıca həyati problemi öz mövcudluğunun sosial şəraitinə uyğunlaşmaqdır, sosial fəaliyyətin müvafiq formaları vasitəsilə burada qərarlaşmaqdır və beləliklə, öz tələbatını ödəməkdən və mənafeyini realizə etməkdən ibarətdir.

Şəxsiyyətin cəmiyyətdə özünü təsdiqinin əsas üsulu əməkdir, onun sosial fəallığının digər təzahürləridir. Burada başlıca şərt ondan ibarətdir ki, öz mənafeyini realizə edərkən digər insanların və cəmiyyətin mənafeyi ilə də hesablaşmaq lazımdır. İnsanın cəmiyyətdəki həyatının bu fundamental qaydası onun fəaliyyətinin psixoloji və ideoloji məqsədlərində, sərvət yönümünün sistemində öz əksini tapmalıdır. Yalnız bu halda cəmiyyətin və onu təşkil edən şəxsiyyətlərin normal yaradıcı (dağıdıcı yox) həyatı mümkündür.

Belə yanaşma mahiyyət etibarilə ayrı-ayrı adamların həyat fəaliyyətində cəmiyyəti və onun mənafeyini təhrif edən sosioloqların metodoloji fərdiyyətçilik adlanan fərziyyələrini təkzib edir.

Onlar şəxsiyyəti son dərəcə qüdrətli və özünü realizə edən subyekt kimi qiymətləndirmirlər. Qabiliyyətli və uğurlu şəxsiyyətlər haqqında mif uydurmaqla yerdə qalan kütləni qabiliyyətsiz və buna görə də uğursuz adamlar hesab edirlər və onların həyatının sosial şəraitini nəzərə almırlar. Cəmiyyətin tənəzzülə uğradığı şəraitdə ədəbli, xoşxasiyyətli insanlar çətinliklərə məruz qalırlar. Şəxsiyyətin uğurlu inkişafında, fəaliyyətində və cəmiyyətin yüksəlişində xalq, dövlət həlledici rol oynamalıdır. Millətin mənəvi, siyasi orijinallığını, müstəqilliyini və suverenliyini müdafiə etməkdə ən təsirli vasitə məhz mədəniyyətdir [2, s.7].

Şəxsiyyətin yaradıcılıq qabiliyyətinin xüsusi sferası-dəyəri kimi səciyyələnən mədəniyyətin mühüm funksiyalarından biri məhz ictimai tənzimləmənin sabitliyini və daimiliyini saxlamaqdan ibarətdir. Şəxsiyyətin mənəvi-mədəni sərvətlər sistemi yaradılmasına istiqamətlənən fəaliyyəti ətraf aləmdən təcrid olunmaqla, «vakuumda» baş vermir. Onun fəaliyyəti və özünü təsdiqi təmsil olunduğu birlikdə, təşkilatda, qrupda, təsisatda təzahür edir. Sosial həyat fəaliyyətinin hər bir komponenti müvafiq təşkil formalarına, başqa sözlə, təsisatlara malikdir.

Həmin təsisatlar, eləcə də mədəniyyət təsisatları sosial-mədəni həyat fəaliyyətinin maddi və mənəvi təsisatlarını qoruyub saxlamağı təmin etməklə bütövlükdə ictimai həyata təsir göstərirlər. Məsələn, iqtisadiyyat istehsal vasitələri üzərində müəyyən mülkiyyət formaları, istehsal kollektivləri, sahibkarların və zəhmətkeşlərin təşkilatları olmadan fəaliyyət göstərə bilməz. Eləcə də siyasət öz ifadəsini hər şeydən əvvəl, dövlətin və siyasi partiyaların fəaliyyətində tapır. Şəxsiyyətin özünü reallaşdırmasının əhəmiyyətli mənbəyi olan sosial təsisatlar isə hər bir sferada adamların fəaliyyətini təşkil edir və əlaqələndirir, bunsuz həmin fəaliyyət dağınıq, qeyri ardıcıl və sabit olmayan xarakter kəsb etməklə mədəni yaradıcılıq prosesinə neqativ təsir göstərmiş olardı.

Şəxsiyyətin özünü reallaşdırması nəticə etibarilə mədəniyyət həyat fəaliyyətinin bütün sferaları ilə qarşılıqlı əlaqə kəsb edir. Mədəniyyətin sosial-iqtisadi proseslərə təsirini xüsusi qeyd etmək lazımdır. Məsələ ondadır ki, cəmiyyətin inkişafında iqtisadi inkişaf şəraitindən kənarda olan amillərin rolu böyükdür. Adamların mənəvi potensialı çox əhəmiyyətlidir. Tədqiqatçıların gəldiyi qənaətə görə cəmiyyətin demoqrafik göstəriciləri 80% adamların mənəvi potensialından asılıdır. Cəmiyyətin sosial-iqtisadi vəziyyətinin özü xeyli dərəcədə mədəniyyətin tipi və xüsusiyyətləri ilə müəyyən olunur.

Mədəniyyətlə iqtisadiyyatın münasibəti çox mürəkkəb və qarşılıqlı mənalanır. Yeri gəlmişkən belə bir cəhəti qeyd etmək məqsədəuyğundur ki, qərb kapitalizminin inkişafı mədəniyyətin elm forması ilə sıx bağlıdır. Qərbin mənimsədiyi fundamental elmlərin texnoloji tətbiqi bütün dünyada yayılmışdır. Postindustrial cəmiyyətə keçid prosesində təbii olaraq mədəniyyətin, fərdin mənəvi və intellektual təkamülünün rolu artacaq. Artıq inkişaf etmiş ölkələr ixtisaslı kadrları idxal edir. 2000-ci ildə belə idxal ABŞ-da 500 min nəfər, AFR-də 200 min nəfər, Böyük Britaniyada 50 min nəfər təşkil etmişdir. İnkişaf etmiş ölkələrdə 2000- ci ildə informasiya texnologiyaları sferasında 850 min nəfər mütəxəssisə ehtiyac duyulmuşdur. Cəmiyyətin uğurlu inkişafına əhalinin funksional savadsızlığı əngəl törədir: məsələn, İsveçin vətəndaşlarının beş nəfərindən biri yazmaqda, mətnin mənalandırılmasında, sadə məsələlərin həllində çətinlik çəkir [4, s.4]. Cənub-Şərqi Asiyanın yeni sənaye ölkələrində iqtisadiyyatın modernləşməsi prosesinə ənənəvi mədəniyyətin cəmiyyətə xas olan kollektivçi xarakteri və əxlaqı, hakimiyyətin və sərvətlərin avtoritarlığı, sərt dünyagörüşü nəzarəti, dözümlülük, fatalizm və s. təsir göstənnişdir [5, s.11].

Şəxsiyyətin sosiallaşması və özünün aktuallaşdırmasında yüksək sərvətlərin rolundan danışarkən görkəmli Amerika alimi A.Maslou qeyd edirdi ki, özünüaktuallaşdıran bütün insanlar bir neçə işə cəlb olunurlar, onlar həmin işə sadiqdirlər, çünki bu belə insanlar üçün çox qiymətlidir. A.Maslou yazırdı: "biri öz həyatını qanuna, digəri ədalətə, bir başqası gözəlliyə və ya həqiqətə həsr edir. Onların hamısı bu və ya digər şəkildə öz həyatını elə şeyə həsr edirlər ki, mən bunu "varlığın" (ixtisarla "V") sərvətləri adlandırardım, bunlar əsl sərvətlərdir və onlardan yüksək heç nə ola bilməz". On dörd belə V - sərvətləri vardır: həqiqət, gözəllik, sadəlik, hərtərəflilik, kamillik və digərləri [3, s. 110]. Maslounun fıkrincə, varlığın sərvətləri adamların əksəriyyəti üçün həyatın mənası sayılır. Elə buna görə də "hər bir kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququ vardır" [l, s. 29].

Ədalətsizliklər və inanılmaz dərəcədə mürəkkəb, aktual problemlərlə dolu bir dünyada, həmişəkindən daha çox icmalarındakı insanların həyatlarında dəyişiklik etməyə qərar verən insanlar lazımdır və məhz sosial işçilərin gəldiyi yer.Müsbət sosial dəyişikliklər gətirmək, hər yaşdan olan insanlara yerli mühitdə inkişaf etmək və səslərini itirənlər üçün bir vəkil olmaq öhdəliyi ilə sosial işçilər ən çox ehtiyacı olanların həyatının yaxşılaşdırılmasında önəmli rol oynayırlar. Həssas və ya aztəminatlı qruplarda həm uşaqlar, həm də böyüklər ilə işləsələr də, sosial işçinin xidmətinin faydaları xüsusilə uşaqlarda daha aydın görünür. Ehtiraslı bir sosial işçinin köməyi olmadan saysız-hesabsız uşaqlar layiq olduqları sağlam, dolğun həyat sürmək üçün lazım olan dəstək və rəhbərlik olmadan gedərdilər.

Sosial işçilər, əziyyətdən azad olmaq və ehtiyacı olan hər kəsin həyatını yaxşılaşdırmaq üçün səylə çalışan cəmiyyətin vacib üzvləridir. Həyatda çətin bir çətinlik yaşayan hər bir insanın və ya ailənin arxasında - istər kasıblıq, asılılıq, istismar, işsizlik, əlillik, ruhi xəstəlik, ayrıseçkilik və ya başqa bir şey - kömək gözləyən bir sosial işçi. Ancaq dayandıqları və kömək etməyə hazır olduqları, bütün işlərini özləri edəcəklərini ifadə etmir. Bunun əvəzinə, sosial işçilər müştəriləri ilə həyatda qarşılaşdıqları problemlərin həlli və ya öhdəsindən gəlmək üçün yeni və innovativ yollar tapmaqda kömək etmək üçün işləyirlər və bununla da vəziyyətlərini və ümumi həyatlarını yaxşılaşdırmaq üçün onlara lazım olan bilik, bacarıq və güc verirlər.

Hər gün sosial işçilər cəmiyyətə misilsiz töhfələr verir, xidmətlərdən istifadə edənlər, ailələri və icmaları ilə sosial həll yolları təşkil edirlər. Lakin bu işin çox hissəsi tanınmaz və ya diqqətdən kənarda qalmışdır, çünki bir sıra ölkələrdə işəgötürənlər və hökumətlər uzunmüddətli, davamlı rifahın dəyərini başa düşmürlər.

Sosial iş peşəsi müdafiə sistemlərinin icmaların güclənməsinə yönəlmiş çevrilmə üçün agentliklər olduğunu müdafiə edir. Praktik cəhətdən, bu, çox vaxt sosial işçilər ailələrini güclərini dərk etməyə kömək etmək üçün işlədikdə başlayır. Eyni şəkildə, sosial işçilər və icmalar, bütün üzvlərinin həyatlarını formalaşdıra biləcək təşəbbüslər qururlar ki, onların rifahı və gələcəyi ilə daha çox məşğul olsunlar.

Sadə desək, sosial xidmətlər çox vaxt cəbhədə fırlanan qapı ilə hazırlanmışdır. Stressli bir insan içəri girir, sıxıntılı olmağı öyrənir və yenidən stresli mühitə qayıdır, yenidən xidmətə qayıtmalarını tələb edir. Sosial iş baxımından vacib olan, xidmətlərin məhdud maliyyə, sosial və ya tibbi yardımdan daha çox çıxış təmin etməsidir. İnsanlara öz hüquqlarını başa düşmək və ətraflarını daha yaxşı hala gətirməyi öyrənmək üçün platforma olurlar.

Sosial işçilər qəti şəkildə bilirlər ki, hər dörd ildən bir şəxsi kabinetin sirrində səs vermək, siyasi proseslərdə iştirak etmədən demokratiyanın ən zəif formasıdır. İnsanların sağlamlığını, təhlükəsizliyini, hüquqlarını və gələcək rifahlarını diktə edən mühitlərə cəlb etməsi üçün lazım olan demokratiya və siyasi quruluşu təmin etmir. Belə məhdud demokratik proseslər insanlar arasında qarşılıqlı əlaqəni və əlaqəni inkişaf etdirmək üçün maraq və qabiliyyətə malik deyildir.

## ƏDƏBİYYAT

1. Müasir fəlsəfi fikirdə şəxsiyyət konsepsiyası. // Sosial-siyasi problemlər. XI buraxılış. Bakı, 2004, s. 110-114.
2. Şəxsiyyət mənəvi fəaliyyətin subyektidir. // Psixologiya jurnalı. Bakı, 2005, №4, s. 15-21.
3. Şəxsiyyət mədəniyyət-sivilizasiya sferasının mənəvi юlçüsüdür. // Tarix və onun problemləri. Bakı, 2006, №1, s. 195-199.
4. Mədəniyyət şəxsiyyətin юzünügerçəkləşdirmənin məhsuludur. // Psixologiya jurnalı. Bakı, 2006, №2, s. 18-22.
5. Mədəniyyət anlayışı məzmunu, strukturu. // Tarix və onun problemləri. Bakı, 2006,№2, s. 197-203.
6. Şəxsiyyətin mənəvi mahiyyəti. // Psixologiya jurnalı. Bakı, 2006, №3, s. 9-13.
7. Şəxsiyyət sosial dəyərlər sistemidir. // Dil və ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı, 2006, №4, səh. 145-147.
8. Əfəndiyev M., Məcid qızı S. Şəxsiyyət-mədəniyyət sistemi. Sosial-fəlsəfi təhlil. Elmi red. H.İmanov.- Bakı: Elm, 2008.- 384 s.
9. Sosial iş. // https://az.m.wikipedia.org/wiki/Sosial_i%C5%9F
10. Sosial iş mütəxəsisi // http://psikososyalhizmet.com/blog/shu/
11. Frederic.G.Reamer. Social Work Values and Ethics. 1970 // https://www.socialworktoday.com/
12. Ethical and Values in Social Work, Third Edition, Macmillan Press, 2006. – 256 s.
13. Kitzinger, Jenny (2004). Framing abuse: media influence and public understanding of sexual violence against children. London: Pluto Press.

## ŞƏXSİYYƏTİN ÖZÜNÜ TƏSDİQİ VƏ SOSİAL İŞ

### XÜLASƏ

Sosial işçilər ətraf mühitimizin formalaşmasında insanların və icmaların fəal iştirakının tərəfdarıdırlar. Bu peşə inancının bir hissəsidir ki, zülm və çətinliklər yalnız simptomlar səviyyəsində deyil, onların kökündə həll olunmalıdır. Sosial işçilərin rolu ailələrdə və qruplar arasında həmrəyliyin bütün insanların ləyaqətinə hörmət edən inklüziv sistemlər və strukturları inkişaf etdirməsinə imkan verir. Buna görə də insanların qərar qəbul etməsində iştirakını dəstəkləyən aktiv və cəlbedici demokratik quruluşların inkişafını müdafiə etmək təbiidir.

## САМОУТВЕРЖДЕНИЕ ЛИЧНОСТИ И СОЦИАЛЬНАЯ РАБОТА

### АННОТАЦИЯ

Социальные работники поддерживают активное участие людей и сообществ в формировании нашей окружающей среды. Это часть профессионального убеждения, что угнетение и трудности должны рассматриваться не только на уровне симптомов, но и в их корне. Роль социальных работников способствует формированию солидарности в семьях и группах развивать инклюзивные системы и структуры, которые уважают достоинство всех людей. Поэтому естественно поддерживать развитие активных и привлекательных демократических структур, которые поддерживают участие людей в принятии решений.

## SELF-IDENTITY OF PERSONALITY AND SOCIAL WORK

### SUMMARY

Social workers support the active participation of people and communities in shaping our environment. It is part of the professional belief that oppression and hardship must be addressed not only at the level of symptoms, but at their root. The role of social workers allows solidarity within families and groups to develop inclusive systems and structures that respect the dignity of all people. Therefore, it is natural to support the development of active and attractive democratic structures that support people's participation in decision-making.

# DEVİANT DAVRANIŞLI UŞAQ VƏ YENİYETMƏLƏRLƏ APARILAN SOSİAL İŞ

***Şəhanə Sadıqova***
***ADMIU-nin I kurs magistrantı***
***sehane.sadiqova@bk.ru***

***Açar sözlər:*** deviant davranış,uşaq,yeniyetmə,sosial iş,sosial texnologiya
***Ключевые слова:*** девиантное поведение, дети,подростки, социальная работа, социальные технологии
***Key words:*** deviant behavior, children, adolescents, social work, social technology.

Cəmiyyətdə tarixi inkişaf prosesində obyektiv olaraq davranış, sosial əlaqələr və insanlar arasındakı münasibətlərin tənzimləyiciləri mövcuddur, bunun nəticəsində cəmiyyət müəyyən bütövlükdə mövcuddur və inkişaf edir. Bu tənzimləyicilərə sosial dəyərlər və sosial normalar daxildir. Bunlar sosial inkişaf üçün əsas istiqamətlərdir. İnsanların və sosial qrupların davranışlarının ən ümumi, strateji tənzimlənməsini (azadlıq, bərabərlik, ədalət və s.) Həyata keçirirlər. Sonuncu, cəmiyyət və ya sosial qrup tərəfindən təsdiqlənmiş ümumiyyətlə qəbul edilmiş davranış qaydalarıdır. Sosial norma müəyyən bir cəmiyyətdə tarixən müəyyən edilmiş həddi, ölçü, icazə verilən (icazə verilən və ya məcburi) davranışın, insanların, sosial icmaların və ictimai təşkilatların fəaliyyətlərini müəyyənləşdirir. Sosial normaların assimilyasiyası şəxsiyyətin sosiallaşmasının əsasını təşkil edir.

Bir qayda olaraq, cəmiyyət üzvləri sosial normaları qəbul edir və öz fəaliyyətlərində onlara əməl edirlər ki, bu da onu bir sistem olaraq qoruyur. Normativ davranış, mədəniyyətin hakim standartlarına münasibətdə bir fərdin sosiallaşması prosesinin effektivliyini əks etdirir. Eyni zamanda, sosial normaların rədd edilməsi və yerinə yetirilməməsi cəmiyyətdə də geniş yayılmışdır. Fərdlərin və ya sosial qrupların bu davranışı qeyri-uyğun və ya qeyri-normativ olaraq təyin olunur. Cəmiyyətdə (bədii, elmi, texniki və sosial yaradıcılıq) daha mütərəqqi davranış və fəaliyyət normalarının qurulmasına kömək edən müsbət ola bilər və ya mütərəqqi tendensiyaların məhvinə səbəb olan mənfi, dağıdıcı ola bilər. Fərdlərin bu cür davranışlarına sapma və ya deviant deyilir.

İlkin deviasiya ümumiyyətlə mədəni normalara uyğun gələn deviant şəxsiyyət davranışıdır. Bu vəziyyətdə, sapmalar əhəmiyyətsizdir və cəmiyyətə və şəxsiyyətə əhəmiyyətli dərəcədə zərər vermir, baxmayaraq ki, geniş yayıla bilər. Sapma sosial rol çərçivəsində qalır (məsələn, bir küçəni səhv yerdə keçmək). İkinci dərəcəli olanlar bir sistem olaraq ictimai münasibətlərə və cəmiyyətə nəzərə çarpan ziyan vurur və buna görə də sapmalar kimi misilsizdirlər. Belə davranış sanksiya tələb edir.

Deviasiyanın obyektiv səbəblərinə əlavə olaraq, subyektiv olanı də qeyd etməklazımdır. Şəxsiyyət ilk növbədə müəyyən həyat vəziyyətlərinin təsiri altında formalaşır. Sosial normalar nisbətən sabitdirsə, həyat vəziyyətləri və insan təcrübəsi daha dəyişkən və müxtəlifdir. Buna görə fərdin şüurunda müəyyən "qüsurlar" da ola bilər: məlumatın olmaması, hüquqi və mənəvi prinsiplərin yanlış anlaşılması səbəbindən müəyyən normaların bilməməsi; normanın tələblərinin şəxsi maraqlarına, təcrübəsinə, inanclarına (hüquqi nihilizm) uyğun gəlməməsi səbəbindən bir sıra sosial normalarla fikir ayrılığı; sosial normalara laqeyd yanaşmaq, vərdişlərin, norma və prinsiplərin assimilyasiyası, ümumiyyətlə qəbul edilməyən (məsələn, cinayətkar).

Deviasiyanın iqtisadi, sosial, demoqrafik, mədəni və bir çox digər amillərdən asılılığı da var. Bu problem ictimai həyatın bütün sahələrinin ciddi dəyişikliklərə məruz qaldığı, əvvəlki davranış normalarının devalvasiyasının baş verdiyi bir şəraitdə xüsusilə aktuallaşmışdır. Qurulmuş fəaliyyət metodları istənilən nəticəni gətirmir. Gözlənilənlə reallıq arasındakı uyğunsuzluq cəmiyyətdəki gərginliyi artırır və insanın davranış modelini dəyişdirməyə, müəyyən olunmuş

normadan kənara çıxmağa hazırdır. Kəskin sosial-iqtisadi vəziyyətdə normaların özü də ciddi dəyişikliklərə məruz qalır. Çox vaxt mədəni məhdudiyyətlər kəsilir və bütünlükdə sosial nəzarət sistemi zəifləyir.

Şəxsiyyətin formalaşmasında uşaqlıq dövrünün vacibliyini əsərlərindəqeydedən Z. Freyd, gənclərlə iş aparan mütəxəssislərə də təsir göstərmişdir.O dövrdə gənclərlə iş aparan pedaqoqlar, gənclərinqeyri-adidavranışları ilə necə bir şəxsiyyətə malik olduqlarını anlamağa çalışırdılar. Uşaq və yeniyetmənin davranışlarının başa düşülməsindəictimaiyyət və klinikanın birlikdə işləməsinin faydalı olacağı nəticəsinəgəlinmiş və bu yöndə aparılan işlər get-gedə artmışdır [2, s.8].

Yeniyetməlik uşaqlıqla yetkinlik dövrü arasındakı psixoloji inkişaf və həyata hazırlıq mərhələsidir. Yeniyetmə dövrü həm də keçid dövrü hesab edilir.Ona görə ki, yeniyetmə nə uşaq, nə də böyükdür. Bu yaşda fiziki inkişafda da müxtəlifdəyişikliklər də baş verir, orqanizmdə lazımi möhkəmlik formalaşır, sinir sistemi,əzələ-damar sistemi sürətlə inkişaf edir. Bunlar da öz növbəsində yeniyetmənin psixologiyasına təsirsiz ötüşmür. Keçid dövrü hesab edilən bu mərhələdə gəncdə fizioloji,bioloji,sosioloji və psixoloji cəhətdən olduqca sürətli dəyişikliklər yaranır. Bu dəyişiklik mərhələsində yeniyetmənin psixi və emosional aləmi dəmüəyyən dəyişikliklərə uğrayır və buna alışmağa çalışan yeniyetmə də bir mənalı olaraq çətinliklər çəkir [2, s.149].

Uşaq və yeniyetmələrdə müxtəlif növ davranış problemləri dövrümüzdə geniş yayılmış və həllini gözləyən əsas məsələlərdən biri hesab edilir. Araşdırmalara görə, məktəb yaşlı uşaq və yeniyetmələrin 12%-25%-də müxtəlif xarakterli davranış pozuntularına rast gəlinir. Qızlar 15%,oğlanlar isə 85% göstəriciyə malikdirlər. Elmi statistikaya əsasən,davranış pozuntuları olan uşaqların sayı 1970-ci illərlə müqayisədə iki dəfə artmışdır [4].

Valideyinlərlə söhbətdə maraq doğuran faktlardan biri yeniyetmələrin gec saatlarda evə gəlmələridir.Bu kimi halların tez-tez baş verdiyini qeyd edən valideyinlər bu vəziyyətin qarşısını almağa çalışırlar. Deviant davranışlı uşaq və yeniyetmələrin davranışında yalan danışmaq xüsussiyyəti önəmli yer tutur.Sözü gedənfakt həm valideyinlər, həm də müəllimlər tərəfindən təsdiqlənmışdir. Müəllimlər dəfələrlə qeyd etmişlər ki,bir çox hallarda şagirdləri onlara yalan danışır və dərslərdən yayınır, valideyinlərə yalanlar deyərək,danlaq və tənbehdən qurtulmağa çalışırlar. Bəzi hallarda deviant davranışlı uşaq və yeniyetmələr müxtəlif referent qruplarda təmsilçisiqismində çıxış edirlər. Bu tip qruplar daha çox onların davranışına mənfi təsir göstərir, yeniyetmələri yalana, hüquqazidd əməllərə, mənfi hisslərə sövq edir [1, s.100].

Fəaliyyətinin məzmununa görə, bir sosial işçi fərqli insanlarla, o cümlədən davranışları sosial normalara uyğun olmayanlarla məşğul olur. Bundan əlavə, bir çox sosial xidmətlər "sosial risk qruplarına" daxil olan:evsiz insanlar, alkoqol və ya narkomaniya aludəçiləri və s.işinə yönəldilmişdir. Deviant davranışlı insanlarla sosial iş öz spesifik xüsusiyyətlərinə malikdir və sosiologiya, tibb, psixologiya sahəsində müəyyən biliklər tələb edir.Sosial normaların pozulması kimi başa düşülən deviant davranış son illərdə geniş yayılıb və bu problemi sosioloqların, psixoloqların, həkimlərin və hüquq-mühafizə orqanları əməkdaşlarının diqqət mərkəzindədir. Sosial normalar cəmiyyətin davranış (qarşılıqlı əlaqə) standartlarını, qruplar və fərdlər arasındakı münasibətləri sabitləşdirmə (nizamlamaq) funksiyalarını yerinə yetirir.

Cəmiyyət sabitliyi və asayişi qorumaq üçün həmişə istənməyən davranış formalarına qarşı mübarizə aparmışdır. Cəmiyyətin deviant davranışın arzuolunmaz formalarına təsirini aradan qaldırmaq və ya minimuma endirmək və onları sosial normalara uyğunlaşdırmaq üçün təsir vasitələrinin və mexanizmlərinin birləşməsi sosial nəzarətdir.

Buna görə, deviant davranışın qarşısının alınması və düzəldilməsi üçün sosial texnologiyalar birbaşa sosial nəzarət texnologiyaları ilə əlaqəlidir. Alkoqolizm, narkomaniya, psixi pozuntular, ailədə aqressiv rəftar kimi deviant davranışlar ilk növbədə, müxtəlif sosial yardımların təşkilini tələb edir: psixoloji mərkəzlər, evsizlər üçün sığınacaq və s. Geniş mənada, sosial iş texnologiyaları əhalinin bütün təbəqələrinə, geniş sosial xidmətlər göstərməyə, insanların həyat

səviyyəsini yaxşılaşdıra biləcək şərait yaratmağa, sosial yardıma ehtiyacı olan insanlara qayğı göstərməyə yönəlmişdir [5].

Sosial işçi deviant davranışlı uşaq və yeniyetmələrlə iş apararkən əvvəlcədən tərtib edilmiş anketlərdən istifadə etməli, fərdi söhbətlər aparmalı, xüsusi hallarda valideynlərlə sosial və ya psixoloji iş aparmalı, o cümlədən müəllimlərlə də söhbətlər baş tutmalıdır. Bu da sosial diaqnozun qoyulmasında önəmli məsələdir.

Sosial diaqnozdan sonra sosial işçi problemin həlli üçün sosial texnologiya seçir;

- Sosialprofilaktika;
- Sosialmüdafiə;
- Sosialkorreksiya;
- Sosialreabilitasiya;

Sosial işçilərin istifadə etdiyi əsas texnologiya sosial profilaktika hesab olunur [3,64].

Mütəxəssislər qeyd edirlər ki,deviant davranışın yaranmaması üçün tədbirlərə lap kiçik yaşlardan başlamaq lazımdır.Profilaktik tədbirlər olaraq,şagird şəxsiyyətinin, onların psixi inkişaf xüsusiyyətlərinin öyrənilməsi, uşağın tərbiyə üslubunun müəyyənləşdirilməsi üçün ailələrin araşdırılması vacibdir [4].

Valideynlər,məktəb psixoloqları, sosial pedaqoqla və sinif rəhbəri qarşısında duran ən əsas və təxirəsalınmaz vəzifələrdən biri məhz davranış qüsurları olan uşaq və yeniyetmələrlə aparılacaq psixoloji profilaktika və korreksiya işlərinin sistemli şəkildə, konkret proqramlar əsasında həyata keçirilməsinitəminetməkdənibarətdir.

Cinayətlərin, hüquq pozuntularının təkrarlanmasının qarşısını almaq üçün vacib tədbirlərdən biri yetkinlik yaşına çatmayanlarla və onun ailəsi ilə mütəxəssislərin: müəllimlər, psixoloqlar, hüquqşünaslar, sosial iş mütəxəssisləri ilə işə vaxtında cəlb edilməsidir. Sosial qurumlar arasında sosial xidmətlərin xüsusi əhəmiyyətə malik olduğunu da qeyd etmək lazımdır. Yardım göstərmək üçün ailə əlaqələrini itirən, daimi yaşayış, dolanışıqsız qalan və fərqli çətin həyat vəziyyətinə düşən uşaqların sosial reabilitasiyası üçün xüsusi təşkilatlar yaradıldı. Bu cür təşkilatlara uşaqlar və yeniyetmələr üçün müxtəlif sosial sığınacaqlar, yetkinlik yaşına çatmayanlar üçün sosial və reabilitasiya mərkəzləri, valideyn himayəsindən məhrum olmuş uşaqlara kömək mərkəzləri və ailələrə və uşaqlara kömək mərkəzləri daxildir.

Yeniyetmələrin davranışındakı deviasiyanı öyrənmək xüsusilə vacibdir, çünki bugünkü gənclər sabah ictimai proseslərin fəal iştirakçılarıdır. Xaricdə deviant davranışlı yeniyetmələr ilə ictimai işi xarakterizə edən ümumi məqamı da qeyd edə bilərsiniz: bunun bir profilaktik xüsusiyyəti var; yeniyetmələrin yaşayış yerində aparılır; müəyyən bir yetkin qrupa yönəlmiş proqramlar əsasında icra olunur; müxtəlif mütəxəssislər tərəfindən həyata keçirilir; Geniş sosial xidmətlər şəbəkəsi. Rusiyada sosial işin əsas istiqamətləri bunlardır: tədqiqat, profilaktika, sapma yeniyetmələrin uyğunlaşması və inkişafı üzrə işlər. Xaricdə olduğu kimi, yerli təcrübədə də yetkinlik yaşına çatmayanlar və onun ailəsi ilə işləmək üçün təkcə sosial iş üzrə mütəxəssislər deyil, həm də müəllimlər, psixoloqlar, hüquqşünaslar və s.

## ƏDƏBİYYAT

1. Hüseyin.Ş.Yeniyetmələrin deviant davranışını şərtləndirən sosial-psixoloji amillər// Odlar Yurdu Universitetininelmi və pedaqoji xəbərləri.Bakı,2013, ss.98-103
2. Xəlilov.H.Uşaq və yeniyetmələrin inkişafının sosial-psixoloji məsələləri. Bakı,2012, 224 s.
3. Муханова.Е.Д. Социальная работа с девиантнымиподростками//Научный журнал «Вестник по педагогике и психологии Южной Сибири» №3,2016,сс.61-64
4. http://azkurs.org/usaq-ve-yeniyetmelerin-davrans-qusurlar-ve-onlarn-aradan-qaldr.html
5. https://works.doklad.ru/view/lB5-hpfWY84.html

## DEVİANT DAVRANIŞLI UŞAQ VƏ YENİYETMƏLƏRLƏ APARILAN SOSİAL İŞ


### XÜLASƏ

Məqalədə deviant davranışlı uşaq və yeniyetmələrlə aparılan sosial işin mahiyyətini nəzərdən keçirdik.Məlum oldu ki,deviant davranışın aradan qaldırılmasında sosial işçi valideyn və müəllimlərlə birgə iş aparmalıdır.Sosial işin əsas rolu isə deviant davranışlı uşaq və yeniyetmələrə sosial aspektdən köməyin göstərilməsidir.


## СОЦИАЛЬНАЯ РАБОТА С ДЕТЬМИ И ПОДРОСТКАМИ С ДЕВИАНТНЫМ ПОВЕДЕНИЕМ


### АННОТАЦИЯ

В статье рассмотрена суть социальной работы с девиантными детьми и подростками. Социальный работник должен работать вместе с родителями и учителями,чтобы устранить девиантное поведение. Основная роль социальной работы заключается в поддержке девиантных детей и подростков с социальной точки зрения.


## SOCIAL WORK WITH CHILDREN AND ADOLESCENTS WITH DEVIANT BEHAVIOR


### SUMMARY

The article discusses the essence of social work with deviant children and adolescents. The social worker must work with parents and teachers to eliminate deviant behavior. The main role of social work is to support deviant children and adolescents from a social point of view.

# ZORAKILIQ PROBLEMLƏRİNƏ SOSİAL YANAŞMA. UŞAQ ZORAKILIĞI

***Nərgiz Yusifova***
***ADMIU-nin II kurs magistrantı***
*nlkerimzade@gmail.com*

***Açar sözlər:*** region, uşaq,məişət, cəmiyyət, zorakılıq.
***Ключевые слова:*** регион, дети, быт, общество, насилие.
***Keywords:*** region, child, household, society, violence.

Uşaq hüquqlarını pozan bütün hallar uşaq zorakılığı sayılır. Psixi və fiziki travmaya səbəb olan davranışlar-zorakılıq, qayğısızlıq və etibarsızılıq uşaqların həyatında ömürlük iz qoyur.

Zorakılığ- yaralanma,ölüm psixoloji zərər,inkişaf pozuntusu və ya mərhum etməylə nəticələnən və ya böyük ehtimalla nəticələnə biləcək özünə, bir başqa insana qarşı ya da bir qrup və ya icmaya qarşı təhlükə altında və ya mövcud olan fiziki gücü və ya gücü məcburu olaraq istifadə etməkdir.

Dünyada hər beş uşaqdan birir zorakılığa məruz qalkır. Daxili İşlər Nazirliyinin məlumatına görə ölkəmizdə uşaqlara qarşı tərədilən cinayətlərin 40 faizi məişət zorakılığı təşkil edir. Lakin MDB ölkələri ilə müqayisədə bizdə uşaqlara qarşı cinayətlər və onun cinsi istismar növləri iki – dörd dəfə aşağıdır [1, s.50].

Ölkəmizdə məişət zorakılığı üstünlük təşkil edir. Bunun səbəbi isə, daha çox valideynlərin övladlarını öz əmlakı hesab etməsi ilə əlaqədardır. Məişət zorakılığının baş vermə səbəblərinə gəldikdə isə buna ailənin gəliri, iqtisadi durumu, valideynlərin işləyib-işləməməsi təsir göstərir. Zorakılığın qarşısı alınmazsa, bu hal təkrarlanır, zorakılıq törətmiş şəxs cəzalanmazsa o əməlinə bəraət qazandırır və eyni hal yenidən baş verir. Hazırda uşaqlara qarşı zorakılığın profilaktikasının üç səviyyəsi müəyyən edilir: İlkin profilaktika, ikinci dərəcəli profilaktika, üçüncü dərəcəli profilaktika. Ümumdünya Səhiyyə Təşkilatının hesabatına görə, dünyada hər il 1 milyon 500 min uşaq zorakılığa məruz qalır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin uşaq zorakılığının qarşısının alınması istiqamətində hazırladığı təkliflər əsasında qanunvericilik bir qədər sərtləşdirilib. Bu tip cinayətlərin 14 yaşına çatmayanlara qarşı törədilməsinə və habelə əməlin yetkinlik yaşına çatmayanı tərbiyə etmək və ya ona nəzarət etmək vəzifəsi daşıyan şəxslər tərəfindən törədilməsinə görə, Cinayət Məcəlləsinin 152-ci (on altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə) və 153-cü (əxlaqsız hərəkətlər) maddələrində daha ağır cəza müəyyən edilib.Qanunvericiliyə əsasən, 16 yaşına çatmayan şəxslə cinsi əlaqədə olmaya görə (zor tətbiq etmədən) üç ilədək müddətə azadlıqdan məhrum etmə cəzası nəzərdə tutulur. Qanunvericiliyə edilən dəyişikliyə əsasən, uşaq 14 yaşadək olduqda bu müddət üç ildən altı ilədək müəyyən edilib” [3,s.45]

Uşağa qarşı hər hansı zorakılıq, kobud rəftar, onun döyülməsi, ac saxlanılması, tibbi xidmətlərdən istifadəsini məhdudlaşdırmaq, cinsi zorakılıq və s. aşkarlanırsa, sosial orqanlar bu barədə araşdırma aparırlar. Əgər bu hallar valideynin bilməzliyindən, maddi imkansızlıqdan, məşğulluğundan baş veribsə bu zaman uşağa və ailəyə yardım göstərilir o mümkün qədər ailəsindən uzaqlaşdırılmır. Əgər bu cür hallar tez-tez təkrar olunursa, valideyn övladlarına qarşı laqeyddirsə, mütləq şəkildə həmin orqanlar məhkəmə qarşısında, uşağın ailədən kənarlaşdırılması və ya digər alternativ ailəyə yerləşdirilməsi, müvəqqəti olaraq internat müəssisəsində yerləşdirilməsi iddiasını qaldırmalıdır. Amma bu ən son addım olmalıdır. Əgər imkan varsa, uşağı müvəqqəti olaraq yaxın qohumlarının himayəsinə verilə bilər, bu da mümkün olmadıqda poster ailələr tapılmalıdır.

Həmin ailələr müvafiq təlimlər keçir, onlar müvəqqəti və ya uzun müddət uşaqlara baxa bilər. Bu da mümkün olmadıqda uşaq internat müəssisəsinə yerləşdirilir. Amma internatda olsa belə

onun üçün mütləq ailə tapılmalıdır. Əgər uşağa qarşı ailədə cinsi zorakılıq varsa, bu zaman uşaq birmənalı olaraq ailədən uzaqlaşdırılır. Həmin şəxslər valideynlik hüququndan məhrum edilməlidir. Bundan başqa Daxili İşlər Nazirliyi, Sosial xidmətlər, Təhsil Nazirliyinin sosial bazası olmalıdır ki, orada uşaqlara qarşı cinsi zorakılıq törədən şəxslərin məlumatları toplanmalıdır ki, həmin şəxslər sonradan uşaq baxçası, uşaqlarla bağlı hər hansı mərkəzdə işləyə bilməsinlər, müəllim işləməsinlər, uşaqlarla təmasda olacaq işlərdə çalışa bilməsinlər. Onlar həmçinin daimi polis nəzarətində olmalıdırlar" [2, s. 78].

Bu problemdə, ilk növbədə, zorakılığın qurbanları olan uşaqlarla işlənməlidir. Daha sonra zorakılığın yaranma səbəbini araşdırmaq bu istiqamətdə profilaktik tədbirlər həyata keçirilməlidi. Uşaq zorakılığının yaranmasının əsas səbəbi uğursuz ailələrin sosial vəziyyətidir və bu səbəbdən maarifləndirmə işləri daha da genişləndirilməlidir. Uşaqlar cəmiyyətin zəif təbəqəsidir və böyük hüquqların pozulması hallarına məruz qalırlar. Uşaqlar özlərini müdafiə edə bilmirlər, çünki onlar yaxınları tərəfindən zorakılığa məruz qalırlar. Uşaqlar üçün ən təhlükəsiz yer onların doğulub boya-başa çatdıqları evləri və ailələridir. Uzun illər aksioma kimi qəbul edilən bu fikirləri, artıq faktlar şübhə altına qoyur. Statistikaya görə, dünyada 14 yaşına qədər 2,5 milyon həddi-buluğa çatmamış uşaq valideyni tərəfindən döyülür.

Sərt rəftardan xilas olmaq üçün 50 mindən çox uşaq hər il evdən qaçır. Məişət zorakılığına məruz qalan uşaqların sayı 50 faizi keçib. Məişət zəminində ailələrdə baş verən cinayətlərin 30-40 faizi uşaqlarla bağlı olur. Azyaşlılara qarşı törədilən mənəvi və fiziki zorakılıq ailə çərçivəsindən çıxaraq cəmiyyətin müxtəlif sferalarını əhatə etməyə başlayıb. Bir çox valideynlərin inadla "uşaqların özləri zorakılığın yaranmasına səbəb olur" deməsinə baxmayaraq, qanun bütün hallarda valideyni məsuliyyət qarşısına çəkir. Zorakılığa, başqa sözlə şiddət və istismara məruz qalmış insanlarda bu travmatik təcrübələr həyatı boyu təhdid edir. Zorakılıq və istismar təcrübələri insanlarda heç vaxt tamamilə silinməyən izlər olaraq qalır. Uşaqlara qarşı zorakılıq onların özügüvənini sarsıdır, gələcək həyatında böyük problemlərə səbəb olur.

Dünyada ən az 93 milyon uşağın orta və ya ağır bir əlilliyi var. Əlilliyi olan uşaqların əlil olmayan həmyaşıdlarına nisbətən zorakılıq qurbanı olma riskinin daha yüksək olduğu düşünülür. Problemin miqyasının etibarlı qiymətləndirmələrinin yaradılması effektiv profilaktika proqramlarının hazırlanmasında vacib addımdır. Buna görə əlilliyi olan uşaqlara qarşı zorakılığın yayılması və riskinə dair sübutları sintez etmək üçün sistematik bir araşdırma və meta-analiz aparılmalıdır. Bu sistematik araşdırmanın nəticələri təsdiqləyir ki, əlilliyi olan uşaqlar əlil olmayan həmyaşıdlarına nisbətən daha çox zorakılıq qurbanı olurlar. Bununla birlikdə, yaxşı hazırlanmış tədqiqat işlərinin olmaması, əlilliyin və zorakılığın ölçülməsinin zəif standartları və zorakılığın əlilliyin inkişafından əvvəl olub olmadığını qiymətləndirməməsi səbəbindən davamlı sübut çatışmazlığı problemin aradan qaldırılması üçün bilikdə boşluqlar yaradır.

Valideynlər övladlarının başqaları tərəfindən alçaldılmasını, zorakılığa məruz qalmasını, olmayan özgüvənlərinin daha da qırılmasını istəmirlərsə, birinci övladlarına özləri hörmət etsinlər.

Uşaqların mənəvi inkişafına ziyan törədən üsulların tətbiqi, cinsi toxunulmazlığına qəsd edilməsi ləyaqətinin alçaldılması onlara qarşı törədilmiş cinayətin ən dəhşətlisidir, cəmiyyətə dağıdıcı təsir göstərir. Dünyanın acı gerçəkliklərindən biri budur ki, uşaqlara qarşı cinsi zorakılıq artıq gəlir növü kimi formalaşır. YUNİSEF-in Azərbaycandaki təmsilçisi Milli Məclisdə keçirilən "dəyirmi masa"da dedi ki, heç kəs düşünməsin ki, onun yaşadığı cəmiyyətdə uşaqlara qarşı cinsi zorakılıq halları mövcud deyil, bütün dövlətlər bu rəzalətdən əziyyət çəkirlər. Onu da yalnız birgə mübarizə ilə aradan qaldırmaqolar. Avropa Şurası Parlament Assambleyası və BMT-nin də məqsədi bu problemi birlikdə həll etməkdir.

Usaqlara qarşı zorakılıq bütün ölkələrdə davam edən bir hadisədir [1]. 1993-cü il Ümumdünya İnsan Hüquqları Konfransı və usaqlara qarşı Zorakılığın aradan qaldırılması haqqında Bəyannamədən bəri beynəlxalq ictimaiyyət usaqlara qarşı zorakılığın ictimai sağlamlıq, sosial siyasət və insan hüquqları baxımından vacib olduğunu etiraf etdi. Bununla birlikdə, usaqlara

qarşı zorakılığın miqyasını sənədləşdirmək və siyasətə və tərəqqiyə nəzarət etmək üçün etibarlı müqayisəli məlumatlar hazırlamaq çətin olmuşdur.

Uşaqlara qarşı zorakılıq və ya uşağa qarşı pis münasibət fiziki, cinsi və ya psixoloji pis davranış və ya bir uşağa və ya uşaqlara, xüsusən bir valideyn və ya digər qəyyum tərəfindən laqeyd münasibətdir. Bu, uşağa əsl və ya potensial zərər verə bilən və uşağın evində, ya da uşağın qarşılıqlı fəaliyyət göstərdiyi təşkilatlarda, məktəblərdə və ya icmalarda baş verə biləcək hər hansı bir hərəkət və ya bir valideyn və ya digər tərbiyəçinin hərəkət etməməsini ehtiva edə bilər. Uşaqlara qarşı zorakılıq və uşaqlara qarşı pis münasibətlər termini tez-tez bir-birinin ardınca istifadə olunur, lakin bəzi tədqiqatçılar uşaqlara qarşı rəftarı laqeydliyi, istismarı və insan alverini örtmək üçün çətir termini kimi qiymətləndirirlər. Müxtəlif yurisdiksiyalar, uşağı ailəsindən çıxarmaq və ya cinayət məsuliyyətinə cəlb etmək məqsədi ilə uşaq istismarının nədən ibarət olmasına dair öz təriflərini hazırlamışlar.

## ƏDƏBİYYAT


1.Bayramov Ə.C., Əlizadə Ə.Ə. Sosial psixologiyanın aktual məsələləri. Azərbaycan Dövlət Nəşriyyat. Bakı: 1986, 210s

2.Çələbiyev N.Z. Uşaq psixologiyası. Bakı: ADPU,2005, 150s.

3. Erix Fromm. Marksın İnsan konsepsiyası. Bakı: Solfrant, 2012, 144s.

4. Sosial işin etik prinsipləri // ausocialworkdepartment.

5. Sosial iş. // https://az.m.wikipedia.org/wiki/Sosial_i%C5%9F

6. Sosial iş mütəxəsisi. // http://psikososyalhizmet.com/blog/shu/

7. Frederic.G.Reamer.Social Work Values and Ethics. 1970 // https://www.socialworktoday.com/

8. Ethical and Values in Social Work, Third Edition, Macmillan Press, 2006. – 256 s.

9.Kitzinger, Jenny 2004. *Framing abuse: media influence and public understanding of sexual violence against children.* London: Pluto Press.

10.Emily M Lund, Jessica E Vaughn-Jensen. Victimisation of children with disabilities


## ZORAKILIQ PROBLEMLƏRİNƏ SOSİAL YANAŞMA. UŞAQ ZORAKILIĞI

### XÜLASƏ


Uşaq hüquqlarını pozan bütün hallar uşaq zorakılığı sayılır. Psixi və fiziki travmaya səbəb olan davranışlar-zorakılıq, qayğısızlıq və etibarsızılıq uşaqların həyatında ömürlük iz qoyur. Zorakılıq-yaralanma,ölüm psixoloji zərər,inkişaf pozuntusu və ya mərhum etməylə nəticələnən və ya böyük ehtimalla nəticələnə biləcək özünə, bir başqa insana qarşı ya da bir qrup və ya icmaya qarşı təhlükə altında və ya mövcud olan fiziki gücü və ya gücü məcburu olaraq istifadə etməkdir.


## СОЦИАЛЬНЫЙ ПОДХОД К ПРОБЛЕМАМ НАСИЛИЯ В РЕГИОНАХ

### АННОТАЦИЯ


Все случаи жестокого обращения с детьми считаются жестоким обращением с детьми. Поведения, вызывающие психическую и физическую травму - насилие, небрежность и отсутствие безопасности, влияют на жизнь детей. Насилие - это применение физической силы или силы, которые поставлены на карту или находятся под угрозой против себя, другого человека, группы или сообщества, что может привести к травме, смерти, психологическому ущербу, нарушению развития или задержке. ,


## SOCIAL APPROACH TO VIOLENCE PROBLEMS IN REGIONS

### SUMMARY


All cases of child abuse are considered child abuse. Behaviors that cause mental and physical trauma-violence, carelessness, and insecurity have a bearing on children's lives. Violence is the use of physical force or force that is at stake or threatened against itself, another person or group or community, which can result in injury, death, psychological damage, developmental disorder, or delay.

# AHILLARLA SOSİAL İŞ

***Rauf Mirəliyev***
***BDU-un II kurs magistrantı***
***miraliyevrauf1@gmail.com***

***Açar sözlər:*** ahıl, tənha, kimsəsiz,sosial xidmət, dövlət qayğısı, sosial iş
***Keywords:*** elderly, alone, solitary, social service, state care, social work
***Ключевые слова:*** старик, одиноко, социальная служба, государственная помощь, социальная работа.

1 Oktyabr –bütün dunyada Beynəlxalq Ahıllar günü kimi qeyd olunur. BMT Baş Məclisinin 1992-ci ildə qəbul etdiyi müvafiq Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-nin Beynəlxalq Ahıllar günü kimi qeyd olunması cəmiyyətdə ahılların problemlərinin həllinə diqqət və qayğının artırılması məqsədi daşıyır.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ahıl insanların sosial müdafiəsinin təmin olunmasına xüsusi diqqət və qayğısı 1993-cü ildən ölkəmizdə də hər il Beynəlxalq Ahıllar gününün yüksək səviyyədə qeyd olunmasına və bu təbəqədən olan insanların etibarlı sosial müdafiə sistemi ilə əhatə olunması yönündə fəal dövlət siyasətinin formalaşmasına səbəb olub. Yaşlı nəslə münasibətdə milli və ümumbəşəri dəyərləri ifadə edən bu siyasətin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ahıl insanlara dövlət qayğısının da ildən-ilə artırılması ilə müşahidə olunur.

Bəs kimlər ahıl hesab olunur? “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanununa gorə 70 yaşına çatmış şəxslər ahıl hesab edilir. 2017-ci ilin rəsmi statistik məlumatlarına əsasən, bu kateqoriyadan olan insanların sayı 377.8 nəfər olub.

Ahıl şəxslərin sosial müdafiə sisteminin yaxşılaşdırılması daim Azərbaycan Respublikasının diqqət mərkəzində olmuşdur. “Sosial xidmət haqqında” Qanunun 4-cü maddəsinə əsasən:

4.1. Ahıllar müvafiq icra hakimiyyəti orqanı, dövlət, bələdiyyə və özəl sosial xidmət müəssisələri, habelə sosial xidmət sahəsində peşəkar fəaliyyətlə məşğul olan şəxslər tərəfindən həyata keçirilən sosial xidmətlərdən istifadə edə bilərlər.

4.2. Sosial xidmət müvafiq icra hakimiyyəti orqanı və ya dövlət sosial xidmət müəssisəsi tərəfindən ahılların razılığı və müvafiq icra hakimiyyəti orqanının qərarı ilə həyata keçirilir.

4.3. Bələdiyyə və ya özəl sosial xidmət müəssisələri, habelə sosial xidmət sahəsində peşəkar fəaliyyətlə məşğul olan şəxslər tərəfindən sosial xidmət onlarla ahıllar arasından bağlanmış müqavilə əsasında göstərilir.

Pensiya təminatı ahıl insanların sosial müdafiəsində xüsusi yer tutur. Hazırda Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda qeydiyyatda olan əmək pensiyaçılarının 329 275 nəfəri ahıl vətəndaşlardır. Onlardan 201 838 nəfəri qadın, 127 437 nəfəri isə kişidir. Ahıl pensiyaçıların 208 611 nəfəri 70-80 yaş arası, 110 936 nəfəri 80-90 yaş arası, 9 728 nəfəri 90-dan artıq yaşı olan vətəndaşlardır. Ümumilikdə hazırda ahıl vətəndaşların 87,1 faizi əmək pensiyası ilə təmin olunur, əmək pensiyası hüququ olmayan ahıl şəxslərə isə yaşa görə aylıq sosial müavinət ödənilir.

Ümumilikdə, ölkəmizdə əmək pensiyaçılarının sayı 01 iyul 2017-ci il tarixinə 1 milyon 325 min nəfər təşkil edir ki, onlardan 59,2 faizi yaşa görə, 11,5 faizi ailə başçısını itirməyə görə, 29,3 faizi əlilliyə görə pensiya alır. Müasir sığorta-pensiya sisteminin yaratdığı imkanlar, həyata keçirilən ardıcıl sosial müdafiə tədbirləri nəticəsində pensiyaların orta aylıq məbləği son 10 ildə 10,3 dəfədən çox, cari ilin ilk yarımilində isə 6,4% artıb. Beləliklə, 2017-ci ilin 01 iyul tarixinə ölkədə əmək pensiyalarının orta aylıq məbləği 201,7 manata, o cümlədən yaşa görə əmək

pensiyalarının orta aylıq məbləği 224 manata çatıb. Həmçinin son on ildə sosial müavinətlərin orta aylıq məbləği 3 dəfədən çox artırılıb.

Ahıl vətəndaşların bir qismini təşkil edən 1941-1945-ci illər İkinci Dünya müharibəsi iştirakçılarına ödənilən orta aylıq pensiya məbləği isə 356 manat təşkil edir. Aylıq əmək pensiyası ilə yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə 2008-ci ilin 01 sentyabrından digər müharibə əlilləri kimi, İkinci Dünya müharibəsi əlillərinə də Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü ödənilir. Həmin təqaüdlərin məbləği ötən dövrdə orta hesabla 2 dəfədən çox artırılıb və I qrup əlillər üçün 165 manata, II qrup əlillər üçün 143 manata, III qrup əlillər üçün 110 manata çatdırılıb. İkinci Dünya müharibəsi iştirakçıları, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslər də Azərbaycan Prezidentinin təqaüdləri ilə təmin edilirlər.

Bütün bunlardan əlavə dövlət tərəfindən ahıllara göstərilən qayğının bir nümunəsi də onlarım maarifləndirilməsidir. Müxtəlif qurumların hesablamalarına görə, bir insanın minimum şərtlərlə yaşaması üçün ən azı ayda 150-200 manata ehtiyacı var. Yaşlı insanların əksəriyyəti 100 manat civarında pensiya alır. Geyim, yemək, kommunal xərclər və s. zəruri xərclər bura daxildir. Buraya səhiyyə xərclərini də əlavə etmək lazım gəlir. Bir çoxunuza məlumdur ki, yaşlı nəslin nümayəndələrinin böyük əksəriyyəti qan təzyiqi, şəkərli diabet və digər xəstəliklərdən əziyyət çəkirlər. Şəkər xəstələrinə təmənnasız yardım göstərilməsi və dərmanla təmin edilməsi barədə tənha qocaların bir çoxunun məlumatı belə yoxdur. Ölkəmizdə şəkər xəstələrinə xüsusi şəkərölçən aparatlar-qlukometrlər verilir ki, bu aparatlar da kənardan əldə edilə bilməz. Çünki yalnız dövlət xətti ilə paylanır. Bütün bunlar ahıllara göstərilən dövlət qayğısının nümunəsidir.

Ahıl vətəndaşların hər zaman sosial, psixoloji və hüquqi yardıma ehtiyyacları olur. Buna görə də bu sahədə çalışan sosial işçi-gerontoloqların əməyindən istifadə etmək lazımdır. Sosial işçilər ahıllara həm sosial, psixoloji, hüquqi yardımın göstərilməsi, həm də onlara sosial məişət xidmətinin göstərilməsi məsələlərində olduqca böyük köməklik göstərirlər.

Eyni zamanda, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli 108 saylı Qərarı ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"na əsasən, hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 11 208 nəfər tənha ahıl və əlil şəxsə evlərində sosial-məişət xidmət göstərilir. Həmin insanların 8 857 nəfər ahıl şəxslərdir. Sosial işçilər onlara ev təsərrüfatında təmizlik işlərinin aparılması, yemək hazırlanması, zəruri ərzaq, sənaye və məişət mallarının, müvafiq hallarda tibbi və psixoloji yardımın, hüquqi məsləhətlərin alınması və s. işlərdə köməklik göstərirlər.

## ƏDƏBİYYAT


1. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu, Maddə-4
2. https://azertag.az/xeber/1_oktyabr___Beynelxalq_Ahillar_Gunudur-7360
3. https://az.trend.az/azerbaijan/society/2802541.html
4. https://sosialish.wordpress.com/category/ahillarla-sosial-is/
5. https://uafa.az/ngo/az%C9%99rbaycanda-sosial-isin-t%C9%99skili/


## XÜLASƏ


Məqalədə, ahıl vətəndaşlar əhalinin hansı kateqoriyasını əhatə edir? Kimlər ahıl hesab olunur? kimi suallara aydınlıq gətirilmiş, tənha yaşayan ahıllar xüsusi kateqoriya təşkil etməklə, ümumilikdə ahıllara dövlət tərəfindən göstərilən diqqət və qayğıdan söz açılmışdır. Eyni

zamanda, ahıll vətəndaşlarla iş zamanı sosial işçilərin yeri və rolu məsələləri diqqətə çarpdırılmışdır.

**АННТАЦИЯ**

В статье, какую категорию населения охватывают пожилые граждане? Кто считается пожилым? Особое внимание было уделено пожилым людям, которые живут одни, а также заботе и вниманию со стороны государства в целом. В то же время было подчеркнуто место и роль социальных работников в работе с пожилыми людьми.

**SUMMARY**

In the article, what category of the population do elderly citizens cover? Who are considered elderly? The special attention was paid to the elderly, who live alone, and the care and attention paid to the elderly by the state in general. At the same time, the place and role of social workers in working with senior citizens were highlighted

# ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ DÖVLƏT QAYĞISI VƏ ONLARIN ASUDƏ VAXTININ DÜZGÜN TƏŞKİLİ

***Nigar Mustafayeva***
***ADMİU-nun I kurs magistrantı***
***nigar.mn@bk.ru***

***Açarsözlər:*** əlillik, inteqrasiya, təhsil, istirahət, insanhüquqları, asudəvaxt, cəmiyyət.
***Keywords:*** Disability, inteqration, education, rest, human rights, free time, society.
***Ключевые слова:*** Инвалидность, интеграция, оброзование, отдых, права человека, свободное время, общество.

**Giriş.**

Əlillikvə ya funksional çatışmazlıq bu gün cəmiyyətimizin qarşısında duran əsas və çox ciddi problemlərdən biridir. Bir pozğunluq səbəbiylə rolun məhdudluğu və bəzi fəaliyyətlərin yerinə yetirilməməsi buraya aiddir. Bu problem və onun həlli ilə bağlı müxtəlif tədqiqatlar aparılmışdır. O, insan bədəninin xüsusiyyətləri ilə yaşadığı cəmiyyətin xüsusiyyyətləri arasındakı qarşılıqlı əlaqəni, xüsusiyyətləri əhatə edən bir çətirdir. Əlilliyi olan şəxslərin sağlamlığı yoxsulluq və sosial kənarlaşma səbəbindən daha həssas ola bilər.

Əlillik, insanın müəyyən bir fəaliyyət göstərməsini və ya onu əhatə edən dünya ilə əlaqəsini çətinləşdirən bir vəziyyətdir. Ümumdünya Səhiyyə Təşkilatı əlilliyə bu cür tərif verir: o, dəyərsizləşmələri, fəaliyyət və iştirak məhdudiyyətlərini özündə əhatə edən bir terminidir. Burada dəyərsizləşmə dedikdə, bədənin işində və ya quruluşunda olan problem, fəaliyyət məhdudiyyəti dedikdə isə şəxsin bir vəzifə və ya hərəkəti yerinə yetirməkdə qarşılaşdığı çətinlik başa düşülür.

**Əlilliyi olan şəxslərə dövlət qayğısı**

Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə cəmiyyətin bir hissəsi olan əlillərə dövlət qayğısı dəfələrlə yüksəlmişdir. Bu sahədə bir çox qanunlar qəbul olunmuş, ildən-ilə onlara verilən pensiya və təqaüdlərin miqdarı artırılmışdır. Bunlara əlavə olaraq 13 dekabr 2006-cı il tarixində Azərbaycan dövləti "Əlillərin Hüquqları Haqqında" beynəlxalq konvensiyanın Fakültativ protokoluna qoşulmuşdur [1].

Hər bir dövlətin qarşısında duran başlıca məsələ öz əhalisinin yüksək rifah halında və təhlükəsiz şəraitdə yaşamasıdır. Cənab Prezident İlham Əliyev 2003-cü ildə səs çoxluğu ilə ölkə rəhbəri seçilən zaman: "Mən hər bir vətəndaşın prezidenti olacağam" deyərkən məhz öz gələcək fəaliyyətində cəmiyyətin hər bir üzvünü, o cümlədən sağlam və sağlamlıq imkanları məhdud olan vətəndaşlarını nəzərdə tuturdu.

Xüsusi qayğıya ehtiyac duyan, sağlamlıq imkanları məhdud insanların digər müxtəlif problemləri kimi, onların təhsili də dövlətin daim diqqətindədir. Belə ki, 2001-ci ildə "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, qanunun icrasının təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 9 qərar qəbul edilmiş, eyni zamanda Təhsil Nazirliyi tərəfindən "Xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili ilə əlaqədar proqram (2005-2009-cu illər)" hazırlanmış və Azərbaycan hökumətinin 2005-ci il 3 fevral tarixli qərarı ilə təsdiq olunmuşdur. Proqram çərçivəsində beynəlxalq təşkilatlarla birgə həyata keçirilən 3 inklüziv təhsil layihəsi ümumilikdə, 30-dək təhsil müəssisəsini, 100-dən artıq məktəbəqədər və məktəb yaşlı xüsusi qayğıya ehtiyacı olan uşağı əhatə etmişdir.

Azərbaycan dövləti ölkədə əlillərin ayrı seçkiliyə məruz qalmaması üçün maarifləndirmə işinə çox ciddi önəm verir və bu sahədə saysız addımlar atılmışdır. Hal-hazırda əlillərin cəmiyyətə inteqrasiyası, onların əmək qabiliyyətlərinin qiymətləndirilməsi, informasiya-kommunikasiya

ehtiyaclarının təmin edilməsi və bu texnologiyalardan istifadəsinin asanlaşdırılması üçün zəruri tədbirlər görülür [2, 67].

Əlillərin sosial müdafiəsinin təmin olunması sahəsində dövlət idarəetməsini həyata keçirən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) rəsmi məlumatına görə, Azərbaycanda ümumi əhalinin 5,6 faizi, yəni 530 min nəfəri əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlardır. Onların layiqli həyat səviyyəsi və sosial müdafiə hüququnun təmin edilməsi ilə bağlı ölkəmizdə müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilməkdədir. Hər şeydən öncə, əlilliyi olan şəxslərə əlilliyə görə əmək pensiyaları, sosial müavinətlər və prezident təqaüdləri ödənilir. Əmək pensiyası alanların 27, sosial müavinət alanların 57,2, prezident təqaüdü alanların isə 52,2 faizinin əlilliyi olan şəxslər olduğu bildirilir. Nazirliyin məlumatına görə, 2006-2013-cü illər ərzində əlilliyə görə əmək pensiyalarının orta aylıq məbləği 3,3 dəfə, sosial müavinətlərin məbləği isə 2,6 dəfə artırılıb. 2012-ci ildə qəbul olunan "Sosial xidmət haqqında" qanuna əsasən, evlərdə və sosial xidmət müəssisələrində ümumilikdə 3666 nəfər tənha əlilliyi olan şəxslərə də sosial xidmət göstərilməyə başlanılıb. Müvafiq qanunvericiliyə əsasən, əlillərin məşğulluğu üçün müəssisələrdə kvotalar nəzərdə tutulub. 2009-2013-cü illərdə məşğulluq mərkəzlərinə müraciət edən 2468 nəfər əlilliyi olan şəxsdən 1089 nəfəri işlə təmin olunub.

Belə şəxslərdən 202 nəfəri peşə hazırlığı kurslarına, 60 nəfəri isə haqqı ödənilən ictimai işlərə cəlb olunub. İndiyədək dövlət hesabına 4300-dən çox əlilliyi olan şəxsə avtomobil, 5000-ə yaxın əlilliyi olan şəxsə isə mənzil verilib. Hazırda ölkədə olan əlillərin 15 reabilitasiya mərkəzi mövcuddur. Bu mərkəzlərdə hər il orta hesabla 8000 nəfər dövlət hesabına tibbi-sosial reabilitasiya olunur, 5000 nəfərə yaxın şəxs isə protez-ortopedik məmulatlar və reabilitasiya vasitələri ilə təmin edilir. Bu tədbirlər çərçivəsində əlilliyi olan şəxslərin istedad və qabiliyyətlərinin cəmiyyətə təqdim olunması sahəsində də müvafiq işlər görülür.

İnsanlar tez-tez əlillərin varlığına qorxu, təəssüf, himayəçilik, laqeydlik, bir qədər də diqqətsizliklə yanaşırlar. Bu reaksiyalar əlilliyi olan şəxslərin özlərini ifadə etməsində çətinlik yaradır. Əlil yazıçı və tədqiqatçı olan Jenny Morris əlilliyi olan insanları marginallaşdıran fikirləri belə ifadə edir: “İnsanların qarşısına çıxmaq çox zaman cəsarət tələb edir. Bunu etmək üçün günlərlə, aylarla, bəlkə illərlə çalışırıq. Sonda isə bir baxış, bir fikir bizi geri qaytarır”.

***Əlilliyi olan şəxslərin asudə vaxtının düzgün təşkili***

Asudə vaxt və istirahət fəaliyyətlərində iştirak etmək əlillərin ailələrindən bir qədər kənarlaşıb, cəmiyyət həyatı ilə məşğul olmaları üçün yararlı olan bir neçə fürsətdən biridir. Bu gün əlillərin asudə vaxtının düzgün təşkil olunması, onların cəmiyyətə rahat inteqrasiya oluna bilməsi, daim cəmiyyətlə iç-içə olub özlərini həqiqətən cəmiyyətin bir parçası hiss edə bilmələri üçün dövlət tərəfindən hər cür şərait yaradılmışdır. Onlar tez-tez istirahət mərkəzlərinə və müalicəvi sanatoriyalara göndərilirlər.

Həmçinin, əlillərin əl işlərinin, rəsm əsərlərinin nümayiş olunması üçün tez-tez sərgilər, yığıncaqlar təşkil olunur, onların işlə təmin olunması barədə müəssisələrə müraciətlər edilir və ixtisarlar zamanı bu şəxslərin ziyan görməməsi üçün onlar ixtisarlardan kənar saxlanılırlar. Əslində bu kiçik addımlar onların həyata və gələcəyə daha inamla baxmasına, özlərini sözün əsl mənasında cəmiyyətə aid hiss edə bilməklərinə çox müsbət təsir göstərir.

Hətta bir neçə il əvvəl Azərbaycan Yazıçılar Birliyinin təşəbbüsü ilə "Danışan kitabxana" layihəsi həyata keçirildi. Bu layihə daxilində Azərbaycanın şair və yazıçılarının əsərləri ilə yanaşı, həmçinin xarici müəlliflərin şeir və nəsr nümunələri aktyorların ifasında audiolentə köçürülərək gözdən əlillər üçün kitabxanaya təqdim edilmişdir. Bu olduqca maraqlı bir layihə olmaqla yanaşı, həmçinin, təqdirə laiq bir addımdır. Gözdən əlillər üçün həyata keçirilən bu layihə onların bədii-estetik zövqünün formalaşmasına, onlarda ədəbiyyata olan marağın artırılmasına bir təkan vermişdir deyə bilərik [3, 51].

Hansı əlillik qrupuna aid olmasından asılı olmayaraq, əlilliyi olan insanlar üçün idmanın əhəmiyyəti çox böyükdür. Asudə vaxtın səmərəli keçirilməsində idmanın rolu əvəzsizdir. Burada

əsas məsələ isə idman növünün hər bir əlil şəxsə uyğun seçilməsi, təsnif olunmasıdır. Əlilliyi olan insanlar idman fəaliyyəti ilə məşğul olaraq həm öz asudə vaxtlarını səmərəli keçirə, həm də şəxsi inkişafa nail ola bilərlər.

Əlilliklə bağlı bir çox araşdırma və tədqiqatlar aparılmışdır. Bunlardan biri də, 13-16 yaş aralığında olan 10 əqli qüsurlu gənc və onların ailələri ilə həyata keçirilmişdir. Tədqiqat göstərir ki, hər iki tərəf də, eyni şəkildə istirahətə, bir çox mədəni və idman fəaliyyətlərinə meyillidirlər. Bununla yanaşı, bir digər araşdırma isə ümumilikdə gənclər üçün təşkil olunan fəaliyyətlərdən intellektual qüsurlu gənclərin marginal qaldığı iddiasını irəli sürmüşdür. Tədqiqat bu cür gənclərin daha özünə qapanıq olduğunu, ünsiyyətdən çəkindiyini qeyd etmişdir. Onlar bəzən ətrafdakı insanlara inanmır, özlərini təhlükə altında hiss edə bilirlər. Bu da onların öz vaxtlarını səmərəli keçirməsinin, əylənməsinin qarşısını alır [4, 76].

Asudə vaxt fəaliyyətlərində iştirak etmək sosial qarşılıqlı əlaqə və dostluq əlaqələrinin inkişafına müsbət təsir göstərir. Əlillərin özlərini cəmiyyətdə tam rahat hiss edə bilməsi üçün ilk növbədə əlverişli ictimai nəqliyyat və əlverişli memarlıq mühitinin olması zəruridir. Çünki cəmiyyətə inteqrasiya edə bilmək üçün əlverişli hərəkət etmə mühiti vacib şərtdir.

Asudə vaxtın fərdlərin sağlamlığına və həyat keyfiyyətinin yaxşılaşdırılmasına verdiyi töhfələrə baxmayaraq, əlillərin asudə vaxtının təşkili məsələsi hələ tam olaraq araşdırılmamışdır. Əlillərin bu fəaliyyətlərdə tam iştirak etməkləri üçün onların həyat səviyyələrinin inkişafına imkan verən xüsusi istirahət tədbirlərini müəyyənləşdirmək və həyata keçirmək lazımdır. Qeyd etmək lazımdır ki, bu gün ölkəmizdə əlillərin rahat hərəkəti üçün əlverişli mühit yaradılmışdır və bu mühit get-gedə daha da, inkişaf etdirilir. Əlilliyi olan şəxslərə göstərilən dövlət qayğısı, bu sahədə dövlətin həyata keçirdiyi siyasət və görülən işlər bu gün də, uğurla davam etdirilir. Biz hər birimiz bu cəmiyyətin bir parçasıyıq və yaşadığımız cəmiyyəti daha gözəl, daha doğru hala gətirmək üçün var gücümüzlə çalışmalıyıq.

## ƏDƏBİYYAT


1. www.e-qanun.az
2. Əsgərov A.M. Azərbaycan Respublikasında əlillərin cəmiyyətə inteqrasiya olunmasındakı problemlər. Bakı: 2010
3. Xüsusi ehtiyaclı uşaqların inkişafına dair rəhbərlik. "Azərbaycana Birgə Yardım" (UAFA). Bakı: 2010
4. Müasirreabilitasiyametodları. Bakı: 2013
5. Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında Qanun // https://sosialish.wordpress.com/


## ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ DÖVLƏT QAYĞISIVƏ ONLARIN ASUDƏ VAXTININ DÜZGÜN TƏŞKİLİ

## XÜLASƏ


Beləliklə, biz yuxarıda əlillik anlayışı, əlillərin cəmiyyətə inteqrasiyası, onların təhsil problemləri və asudə vaxtlarının düzgün təşkil edilməsi haqda olan problemləri nəzərdən keçirdik. Aydın oldu ki, əlillik insanlarda bir sıra adaptasiya problemlərinə və bu səbəblərdən yaranan sosial problemlərə səbəb olmuş və bu səbəbdən də, onlar cəmiyyətə tam olaraq daxil olmaqda, özlərini cəmiyyətin bir parçası hesab etməkdə çətinlik çəkmişlər. Lakin dövlətin uğurlu siyasəti nəticəsində bugün əlillər özlərini tam rahat hiss edir və asudə vaxtlarını səmərəli şəkildə keçirə bilirlər.

## ГОСУДАРСТВЕННАЯ ЗАБОТА ОБ ИНВАЛИДАХ И ОРГАНИЗАЦИИ ИХ ДОСУГА


### АННОТАЦИЯ

В статье рассмотрены проблемы концепции инвалидности, интеграции людей с ограниченными возможностями в общество, их образовательных проблем и правильной организации досуга. Стало ясно, что инвалидность вызвала ряд проблем в адаптации и решении социальных проблем у людей, и из-за этого им трудно полностью интегрироваться в общество и считать себя его частью. Однако, благодаря успешной государственной политике, люди с ограниченными возможностями сегодня чувствуют себя совершенно комфортно и могут эффективно проводить свой досуг.


## STATE CARE FOR THE DISABLED AND THEIR LEISURE ACTIVITIES


### SUMMARY

The article considers the problems of the concept of disability, the integration of people with disabilities into society, their educational problems and the proper organization of leisure. It became clear that disability caused a number of problems in adapting and solving social problems in people, and because of this it is difficult for them to fully integrate into society and consider themselves to be part of it. However, thanks to successful state policy, people with disabilities today feel completely comfortable and can effectively spend their leisure time.

# AZƏRBAYCANDA UŞAQ MÜDAFİƏSİ SİSTEMİ

***Nübar Həmidova***
***Azərbaycan Universitetinin II kurs magistrantı***
**hemidova.nubar@mail.ru**

***Açar sözlər:*** uşaqların müdafiəsi, uşaqların müdafiəsi sahəsində dövlətin vəzifələri, uşaq müəssisələri, dövlət siyasəti;
***Keywords:*** child protection, responsibilities of the state in the field of child protection, children's institutions, public policy;
***Ключевые слова:*** защита детей, обязанности государства в области защиты детей,детские учреждения, государственная политика.

Tarixi dövlərdən etibarən dövlətlərin qüdrətini bir çox özünəməxsus göstəricilər nümayiş etdirmişdir. Müasir cəmiyyətin inkişaf səviyyəsinin göstəricisi, zəif sosial təbəqənin qayğısına qalma dərəcəsi ilə ölçülür. Bu gün uşaqlar sosial təbəqənin ən zəif kateqoriyası hesab olunur. Uşaqlar ilk öncə ailə institutuna daxil olurlar. Uşaqların müdafiəsi ilə də ilk ailə məşğul olur. Ailə bu funkisiyalarına görə dövlətin qüdrətli özəyini təşkil edir. Buna görə də sosioloqlar ailəni qohumluq, nikah və yaxud övladlığa götürmək telləri ilə birgə həyatı təşkil edən sosial qrup kimi özünün fəaliyyət, inkişaf qanunauyğunluqları və eyni zamada sosial institut olmasını müəyyənləşdirmişlər [1, 4].

Ailə - insanın doğulduğu, böyüdüyü, sosial mühitə uyğunlaşdığı, inteqrasiyasıya olduğu həmçinin, fundamental mədəni və əxlaqi dəyərlərin transformasiyasında rol oynayan mühitdir. Lakin ailə böhran vəziyyətinə düşdükdə çətinliklərlə üzləşir, əsas funksiyalarını (sosial funkisiyaları) (müdafiə, repruduktiv, tərbiyə) yerinə yetirə bilmir. Bir çox şəxsiyyətlərarası münaqişələr yaranır və bunun nəticəsində ən çox uşaqlar haqq pozuntusuna məruz qalırlar. Buna görə də ailəni sosial institut kimi nəzərdən keçirərkən ailədəki münasibətlərə də diqqət yetirmək lazımdır [4].

Hər bir dövlətdə olduğu kimi Azərbaycanda da böhran vəziyyətinə düşmüş ailələrin uşaqlarının müdafiəsini dövlət həyata keçirir. Belə vəziyyətdə uşaqlar əlverişsiz şəraitə düşmüş uşaqlar hesab olunurlar. Uşaq rifahının səviyyəsini cəmiyyətin inkişaf tempi, əhalinin adət-ənənəsi, ictimai normaların, qanunların icrasının vəziyyəti əks etdirir. Əgər cəmiyyət özünü qoruyub saxlamaq istəyirsə, yeni və sağlam üzvləri təkrar istehsal etməlidir. Bu da ailənin reproduktiv funksiyasına əsaslanır [1].

Sosial əhəmiyyətli bir çox keyfiyyətləri formalaşdırılması üçün uşağa diqqət, qayğı, hər şeydən əvvəl, anası ilə ünsiyyət lazımdır. Nikahdan kənarda uşağın doğulması, adətən bəyənilmir. Bu da əksər hallarda uşaqların atılmasına səbəb olur. Qanuni doğulmaq uşağın qohumluq münasibətləri sistemi daxilində uşağın qayğı, vərəsə, tərbiyə, valideyn məhəbbəti yeni doğulmuş uşaqların hüquqlarını müəyyən edir [1].

Dünya dövlətləri əlverişsiz şəraitə düşmüş uşaqların müdafiəsi üzrə dövlət proqramları, layihələr imzalayır. Bunu da deyə bilərik ki, Birləşmiş Millətlər Təşkilatının və Avropa Birliyinə üzv dövlətlərin əsas öhdəliklərindən biridə Uşaqların müdafiəsinə həsr olunumuşdur [1].

Uşaqların müdafiəsi sahəsində atılmış ən yaxşı addımlardan biridə BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyasıdır. Konvensiyasının 20-ci maddəsi nəzərdə tutur ki, “uşaq valideyn qayğısından məhrum olduqda, dövlət uşağa alternativ qayğı göstərilməsini təmin etməlidir. Bu, ailə mühitində olmalı, yəni uşaq övladlığa götürülməli və ya yaxın qohumlarının ailəsinə yerləşdirilməli və ya himayədarlığa verilməlidir” [1].

Azərbaycanda uşaqların müdafiəsi, hüquqlarının təmin edilməsi, hər bir problemlərinin ardıcıl həlli sahəsində dövlət siyasəti mühüm istiqamətlərdəndir. Dünya dövlətlərində olduğu kimi Azərbaycanda da dövlətin böyük və qiymətli sərvəti uşaqlardır.

Dövlətin apardığı siyasətlərin ən başlıcası uşaqların sağlamlığının möhkəmləndirilməsi, müasir tələblər səviyyəsində təhsil alması üçün lazımı şərait yardılmasıdır.

Azərbaycan Respublikasında uşaqların müdafiəsi Azərbaycan Respublikası Kansitutusiayasının 17-ci Maddəsində, Ailə Məcəlləsinin 51-ci Maddəsinin (Uşağın Müdafiə hüququ) 51.1, 51.2 bəndlərində, Uşaq hüquqları haqqında qanunun 4-cü fəsilində, Sosial xidmət haqqında qanunun 17-ci Maddəsinin (Sosial xidmət müəssisələri) 17.1 bəndində öz əksini tapmışdır.

Uşaqların müdafiəsi sahəsində dövlətin siyasətlərindən biridə Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 dekabr tarixli, 103 nömrəli Sərancamı ilə 2009-cu il "Uşaq ili" elan edilmişdir. 2009-cu ilin "Uşaq ili" qəbul edilməsinin əsas məqsədləri aşağıdakılardır:

- Uşaqlara sağlam ailə və tərbiyə mühitinin yaradılması;
- Valideyn himayəsindən məhrum olmuş uşaqların dövlət qayığısı ilə təmin olunması;
- Xüsusi qayğıya ehtiyacı olan uşaqlara dövlət qayğısının artırılması;
- Uşaqlara qarşı zorakılığın qarşısının alınması;
- Uşaq əməyinin istismarının, uşaq alverinin qarşısının alınması və s kimi məsələlər üstünlük təşkil edir.

Yuxarıda qeyd olunan məsələləri həyata keçirtmək üçün "2009-cu ilin "Uşaq ili" elan edilməsi ilə bağlı Tədbirlər planı" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 18 fevral tarixli, 163 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir [7].

"Tədbirlə planı"nda aztəminatlı ailələrdən, məcburi köçkün ailələrindən xüsusi qayğıya ehtiyacı olan uşaqların pulsuz müayinəsinin, uşaq müəssisələrində (məktəbəqədər tərbiyə müəssisələrində və ümumtəhsil məktəblərində) kütləvi tibbi müayinələrin aparılması, sağlamlaşdırıcı tədbirlərin və sağlam həyat tərzinin təbliği, uşaq əməyinin istismarının qarşısının alınması, uşaq əməyindən qanunvericiliyin tələbləri pozulmaqla istifadə olunması, o cümlədən uşaqların əmək şəraiti ağır və zərərli iş yerlərinə, onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb olunması vəziyyətini araşdırmaq məqsədi ilə tədbirlərin təşkili, uşaqların qanunvericiliyə uyğun olaraq işlə təmin olunmasına köməklik göstərilməsi, internat məzunlarının mövcud bazar tələbatına uyğun peşə təhsilinin və peşə hazırlığının təmin edilməsi, gənc ailələrin, uşağını təkbaşına tərbiyə edən, sağlamlıq imkanları məhdud uşağı olan və ya çoxuşaqlı valideynlərin birinci növbədə işlə təmin olunması istiqamətində fəaliyyətin gücləndirilməsi, sağlamlıq imkanları məhdud uşaqların təhsili ilə bağlı standartların təkmilləşdirilməsi, dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi haqqında təbliğat kampaniyasının hazırlanması, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların yaşayış sahəsi üzrə qanunvericilikdə təsbit olunmuş təminatlarını reallaşdırmaq və s. istiqamətdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur [8].

2009-cu ilin "Uşaq ili" qəbul edilməsindən sonra Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli, 626 nömrəli Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmişdir. Qeyd olunan Fərmanın imzalanmasının əsas icraçısı Azərbaycan Respublikasın Nazirlər Kabineti hesab olunur və digər dövlət qurumları arasında koordinasiyanı və tapşırıqlarının icrasına nəzarət sistemini təkmilləşdir. Fərmanın imzalanmasının əsas məqsədi isə aşağıdakılardır:

- Dövlət uşaq müəssisələrində uşaqların qidalanamsına;
- Uşaqlara qarşı nəzarətə, təhlükəsizlik, zorakılığa məruz qalma və digər məsələlərlə bağlı monitorinqlərin aparılmasıdır[7].

Uşaqların müdafiəsi sistemində onların hüquqlarının bərpası sağlam ailə mühitində yaşamaları və tərbiyə olunmaları üçün Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər) Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 mart tarixli, 1386 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Proqramın imzalanmasının əsas məqsədi ölkədə yoxsulluğun azaldılması və sosial-iqtisadi vəziyyətin yaxşılaşması zəminində uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi və belə müəssisələrdə olan uşaqların sayının tədricən azaldılmasıdır.

Proqramın icrasında nəzərdə tutulan tədbirlərə əsasən, Azərbaycan Respublikası Təhsil Nazirliyi Proqramın koordinasiyasına cavabdeh olan orqan olduğundan uşaqların öz ailələrinə inteqrasiyasının zəruriliyini nəzərə alaraq yerli icra orqanlarına dövlət uşaq müəssisələrinə uşaqların qəbulunun məhdudlaşdırılması ilə bağlı xüsusi təlimat hazırlayaraq göndərdi.

Dövlət Proqramının əsas məqsədlərindən olan uşaqların dövlət uşaq müəssisəsinə düşməsinin qarşısını almağın icrası istiqamətində, ümumtəhsil internat məktəblərinin bazasında məktəb, lisey və gimnaziyaların yaradılması məqsədi ilə 9 ümumtəhsil internat məktəbi gimnaziya və ümumtəhsil məktəblərinə çevrilmişdir.

Dövlət Proqramının icrası istiqamətində pilot rayonlarda yerləşən valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələrdə təlim-tərbiyə alan uşaqların ailələrinə verilməsi üçün 309 nəfər uşağın və onların ailələrinin fərdi qiymətləndirilməsi həyata keçirilmişdir. Uşaqların ailələrinin himayəsinə qaytarılması ilə bağlı onların bioloji ailələri və ya qohumlarının yaşadığı rayonlara səfərlər edilərək Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın iclasında bu uşaqların ailələrinə qaytarılması məsələlərinə baxılmışdır. Görülən tədbirlər nəticəsində bioloji ailələrinin və yaxın qohumlarının himayəsinə 149 nəfər uşaq qaytarılmışdır. Uşaqların ailələrə qaytarılması üçün ailələrin mənzil şəraitinə baxış keçirilmiş və ailənin gəliri araşdırılmışdır. Müvafiq komissiya tərəfindən ailələrə qaytarılan uşaqların vəziyyətinin monitorinqi aparılır və nəticələri barədə məlumatlar mütəmadi olaraq Təhsil Nazirliyinə ünvanlanmışdır.

Eyni zamanda, mərkəzlərdə alternativ xidmətlərə cəlb edilmiş hər bir uşağın qiymətləndirilməsi, onlarla fərdi təlim planının tərtib olunması, uşaqlarla aparılan reabilitasiya işlərinin keyfiyyətinin monitorinqi ilə bağlı tədbirlər həyata keçirilmişdir. Nəticə etibarilə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən alternativ qayğı mərkəzlərinin yaradılması ilə 298 uşağın dövlət uşaq müəssisələrinə düşməsinin qarşısı alınmışdır [3].

Dövlət Proqramının icrası olaraq valideyn himayəsindən məhrum uşaqların ailədə yaşamaq hüququnun təmin edilməsi məqsədi ilə hazırlanmış "Yerli hakimiyyət orqanları ilə qeyri-hökumət təşkilatları arasında himayədar (foster) qayğı və ailə əsaslı xidmətlər üzrə əməkdaşlıq modelinin işlənib hazırlanması" layihəsi çərçivəsində daim orada yaşayacaq uşaqlar üçün ailə əsaslı kiçik qrup evi tikilmişdir. Hal-hazırda ölkəmizdə 2 Ailə tipli kiçik qrup evi fəaliyyət göstərir.

Risk qrupundan olan uşaqlar və ailələr arasında sistemli qabaqlayıcı tədbirlərin görülməsi, qarşıya çıxan problemlərin həllinə kompleks yanaşma ilə onların aradan qaldırılması, uşaqların belə müəssisələrə daxil olmasına ciddi nəzarətin təmin edilməsi istiqamətində görülən tədbirlər nəticəsində ölkə üzrə ümumilikdə 465 uşağın dövlət uşaq müəssisələrinə düşməsinin qarşısı alınmışdır.

Hazırda yerli səviyyədə sosial risk qrupunda olan və ya təhlükədə olan, atılmış, imtina olunmuş, valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş uşaqların, həmçinin hüquqları pozulmuş uşaqların problemləri ilə məşğul olan iki komissiya mövcuddur. Bunlar Rayon/Şəhər İcra Hakimiyyətləri nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya, Qəyyumluq və Himayəçilik Komissiyalarıdır [3].

Uşaqların müdafiəsi uşaqların yerləşdirilikləri dövlət uşaq müəssisələrinin vəzifəsi valideynlərini itirmiş, valideyn himayəsindən məhrum olmuş və xüsusi qayğıya ehtiyacı olan

uşaqlara layiqli yaşayış şəraitini təmin etməkdir. Buna görədə müəssisə tərəfindən hər bir uşağın fərdi və yaş xüsusiyyətlərini müəyyən edir. Hər bir uşaq müstəqil həyata və cəmiyyətə inteqrasiya olunması üçün hazırlanır. Müəssisədə olan hər bir uşağın sağlamlığı qorunur, istedad və qabiliyyəti müəyyənləşdirilərək vətənpərvərlik ruhunda yetişdirilir. Azərbaycanda fəaliyyət göstərən uşaq müəsissələrinin tipləri aşağıdakılardır:

0-3 yaşlı uşaqların yerləşdiriləcəyi müəssisələr Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində fəaliyyət göstərir və bu müəssisələr körpələr evləridir. Azərbaycanda körpələr evlərində olmuş uşaqların 70% valideynləri tərəfində küçələr atılmış uşaqlardır. Azərbaycan ərazisində 2 körpələr evi vardır.

3-18 yaşlı uşaqların yerləşdirildiyi müəssisələr öz xüsusiyyətli ilə fərqlənirlər və hər biri bir quruma tabedir. Bu müəssiələr aşağıdakılardır:

- Uşaq evləri – Rayon/Şəhər İcra Hakimiyyətlərinin tabeliyindədir. Azərbaycanda 5 uşaq evləri faəliyyət göstərir.
- Sosial xidmət müəssisələri - Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindədir. Azərbaycanda 2 sosial xidmət müəssisəsi fəaliyyət göstərir.
- İnternat məktəbləri - Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyindədir. Azərbaycanda 13 internat məktəbi faəliyyət göstərir. Respublika ərazində olan internat məktəbləri 2 növə bölünür:

1. Tipik uşaqlar üçün internat məktəbləri;
2. Sağlamlıq imkanları məhdud uşaqlar üçün internat məktəbləri.

Əlverişsiz şəraitə düşmüş uşaqlar üçün 2009-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə uşaq evlərində tərbiyə almış, yaşı 18-dən yuxarı olan qızlar üçün Bakının Nizami rayonunda 50 mənzillik yaşayış binası inşa edilmiş və istifadəyə verilmişdir. Bundan başqa Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 7 oktyabr 2015-ci il tarixli, 320 nömrəli qərarı ilə “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində dövlət uşaq müəssisələrinin valideyin himayəsindən məhrum olmuş məzunlar üçün “Məzun evi” Sosial Müəssisəsinin Nizamnaməsi” təsdiq edilmişdir. “Məzun evi” Sosial Müəssisəsinin yaradılmasının əsas məqsədi dövlət uşaq müəssisələrində yaşayan valideyn himayəsindən məhrum olmuş, yaşayış sahəsi olmayan məzunların yaşayış sahəsi ilə təmin olunmasıdır.

Valideyn himayəsindən məhrum olunmuş uşaqların sosial müdafiəsi və hüquqlarının icrası Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 22 iyun tarixli, 693-IQ nömrəli “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Uşaqların müdafiəsi 1998-ci il 19 may tarixli, 499-IQ nömrəli “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikası Qanunun 4-cü maddəsinə uyğun olaraq, müvafiq icra hakimiyyəti, məhkəmə və prokurorluq orqanları, bələdiyyələr, habelə ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları təmin edirlər. Daha bir uşaq müdafiəsi sahəsində fəaliyyət göstərən orqanların işini tənzimləmək üçün Azərbaycan Respublikası Prezidenti 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə “Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası” təsdiq edilmişdir. Fərmanda qeyd olunduğu kimi hər bir dövlət qurumunun öz öhdəlikləri vardır və onlar aşğıdakılardan ibarətdir:

- Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi – uşaqların hüquq və mənafelərini müdafiə edir;
- Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi - sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar, habelə onların tərbiyəsi, təhsili və saxlanılması üzrə öz vəzifələrini yerinə yetirməyən və ya onların davranışına mənfi təsir göstərən, yaxud onlara qarşı qəddar rəftar edən valideynlər və ya digər qanuni nümayəndələr barəsində profilaktik iş aparılmasını təmin edir;

- Azərbaycan Respublikasının Təhsil Nazirliyi -icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarət edir;
- Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi - yetkinlik yaşına çatmayanlar, onların valideynləri və ya digər qanuni nümayəndələri arasında sanitariya-gigiyena biliklərinin yayılmasını, habelə sağlam həyat tərzinin təbliğini təşkil edir;
- Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi - sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasını və sosial müdafiəsini təşkil edir;
- Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi - təhsil müəssisələrində bədən tərbiyəsi və idman vasitəsilə uşaqların sağlamlığının qorunmasını və möhkəmləndirilməsini təmin edir, belə müəssisələrdə uşaq və yeniyetmələrin fiziki hazırlığı üzrə normativləri hazırlayır;
- Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar - yetkinlik yaşına çatmayanların hüquqlarının və mənafelərinin qorunması üzrə, həmin şəxslərin baxımsızlığına, kimsəsizliyinə, hüquq pozuntuları törətməsinə imkan yaradan səbəb və halların aşkar edilməsi və aradan qaldırılması üzrə tədbirlər həyata keçirir;
- Yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanları - valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqları və uşağını tərbiyə etməkdən yayınan valideynlərin uşaqlarını, səhhətinə görə qəyyumluq və ya himayəyə ehtiyacı olan yetkinlik yaşına çatmayanları aşkara çıxarır.

Yuxarıda qeyd olunanlara nəzərən qeyd etməy olar ki, ailə və dövlət uşaqların müdafiəsi sahəsində prioritet məsələri önə çəkərək daim uğurlu addımlar atmışlar. Dövlət qurumları dövlətin verdiyi vəzifələri layiqincə yerinə yetirmişlər.

## ƏDƏBİYYAT

1. Anar Xələfov- Ailəyə Dəstək Üçün Təlimat,s.129
2. Sosial Xidmət haqqında qanun
3. Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə və Qəyyumluq və Himayəçilik komissiyaları barədə arayış,De-institutlaşma və uşaqların müdafiəsi sahəsində mövcud problemlər
4. Z.T.Qolenkova, M.MşAkuliç, V.N.Kuznestov – Ümumi sosiologiya,s.492
5. https://heydar-aliyev-foundation.org/az/content/blog/
6. http://www.scfwca.gov.az/post/355/aile-qadin-ve-usaq-huquqlarinin-mudafiesi-sahelerinde-dovlet-siyasetinin-ugurlari-ve-gelecek-perspek
7. http://e-qanun.gov.az/framework/23534
8. http://www.e-qanun.az/framework/15882

## XÜLASƏ

Azərbaycanda hər bir insanın hüquq və vəzifələri Azərbaycan Respublikasının Konustitusiyası və normativ hüquqi aktlarla müəyyən olunur.

Dünyada və ölkəmizdə uşaqlar cəmiyyətin həssas qrupu hesab olunurlar. Uşaqların müdafiəsini ilk öncə ailə daha sonra vətəndaşı olduğu dövlət və ən sonda beynəlxalq təşkilatlar həyata keçirirlər.

Azərbaycanda da uşaqların müdafiəsi sahəsində beynəlxalq addımları rəhbər tutaraq nümunəvi addımlar atılmış və normativ hüquqi aktlar qəbul olumuşdur.

Dövlət tərəfindən müdafiəyə ehtiyacı olan uşaqların əksəriyyəti risk qrupuna aid olan uşaqlardır. Belə uşaqların müdafiəsinə cavabdeh olan orqanlardan ən başlıcası Rayon/Şəhər İcra Hakimiyyətləridir. İcra Hakimiyyətlərinin müvafiq orqanı tərəfindən uşaqların müdafiəsi sağlam

mühitdə yaşamasını təmin etmək vəzifəsi layiqincə yerinə yetirilir. Dövlətimiz şəxsiyyətinin tam və ahəngdar inkişafı üçün uşağın ailə mühitində, xoşbəxtlik, sevgi və qarşılıqlı anlaşma şəraitində böyüyüb boya başa çatmalı olduğunu bildirərək hər bir uşağın doğulduğu ailənin qayğısına qalmanı təmin etməli olduğu prioritet məsələləri önə çəkir.

## СИСТЕМА ЗАЩИТЫ ДЕТЕЙ В АЗЕРБАЙДЖАНЕ

## АННОТАЦИЯ

Права и обязанности каждого человека в Азербайджане определяются Конституцией и нормативными правовыми актами Азербайджанской Республики.

В мире и в нашей стране дети считаются уязвимой группой в обществе. Дети защищены сначала семьей, затем государством, гражданами которого они являются, и, наконец, международными организациями.

В области защиты детей также в АзербайджанеПримите примерные шаги, руководствуясь международными шагамибыли приняты рабочие и нормативные правовые акты.

Большинство детей, нуждающихся в государственной защите, относятся к группе риска. Наиболее важными органами, ответственными за защиту таких детей, являются районные городские исполнительные органы. Соответствующий орган исполнительной власти выполняет задачу по обеспечению защиты детей в здоровой окружающей среде. Отмечая, что для полного и гармоничного развития личности нашего государства ребенок должен расти в семейной среде, счастья, любви и взаимопонимания, а также подчеркивает приоритетные вопросы, которые должны обеспечивать заботу о каждом ребенке в семье, в которой он родился.

## CHILD PROTECTION SYSTEM IN AZERBAIJAN

## SUMMARY

The rights and responsibilities of every person in Azerbaijan are determined by the Constitution and normative legal acts of the Republic of Azerbaijan.

In the world and in our country, children are considered a vulnerable group in society. Children are protected first by the family, then by the state of which they are citizens, and finally by international organizations.

Azerbaijan has also taken exemplary steps guided by international steps in the field of child protection and adopted normative legal acts.

Azerbaijan has also taken exemplary steps in the field of child protect The majority of children in need of state protection are at-risk children. The most important bodies responsible for the protection of such children are the District City Executive Powers. The task of ensuring the protection of children in a healthy environment is duly fulfilled by the relevant body of the Executive Power. Noting that for the full and harmonious development of the personality of our state, the child must grow up in a family environment, happiness, love and mutual understanding, and emphasizes the priority issues that must ensure that each child is cared for by the family in which he was born.ion and adopted normative legal acts.

# UŞAĞIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA AİLƏNİN ROLU

***Solmaz Aslanova***
***ADMİU-nun I kurs magistrantı***
***solmaz_aslanova@list.ru***

***Açar sözlər:*** cəmiyyət, ailə, uşaq, valideyn, tərbiyə, ailədaxili münasibətlər.
***Ключевые слова:*** общество, семья, ребенок, родитель, воспитание, семейные отношения.
***Keywords:*** society, family, child, parent, upbringing, family relations.

Giriş. Valideynlər uşaqların həyatında çox mühüm rol oynayır, onlara müxtəlif yollarla təsir edirlər. Onlara necə davranmaları, danışmaları, gəzmələri və digər insanlarla necə ünsiyyət qurmalarını öyrədirlər. Uşaqlar valideynlərinin yanında böyüdükdə onlardan gələn norma və dəyərlərə uyğunlaşırlar. Həmçinin, valideyn olduqda belə analarının yanına gedib ondan özlərinin necə böyüdüklərini soruşurlar. Belə olmasaydı əksəriyyətimiz indi olduğumuz kimi olmazdıq.

Buna görə də valideynlər və uşaqlar arasında sevgi və dəstəyə əsaslanan güclü və mehriban münasibətlər qurmaq çox vacibdir, çünki bu, uşaqların dünyagörüşünə təsir edən və gələcək onların da övladları ilə münasibətlərini müəyyənləşdirən ən əsas amildir. Yaxşı əlaqələr zehni sağlamlığın formalaşmasına və ictimai həyata uyğunlaşmağa kömək edir.

1. Valideyn-uşaq münasibətləri və onların növləri

Valideyn və uşaq arasındakı münasibətlər həyatımız boyu formalaşdırdığımız bir çox fərqli münasibətlər içərisində ən vaciblərindəndir. Uşaq ağlayır, valideyn onu bəsləyir, qucaqlayır, yedizdirir, əzizləyir. Gündən-günə, gecə-gündüz analar və atalar övladlarının qayğısını çəkir. Tədricən, uşaq ağladığı zaman valideyninin ona qayğı göstərəcəyini gözləməyə başlayır və valideynlər hətta uşağının ehtiyaclarını da əvvəlcədən görürlər. Bu elementlər münasibətlərin inkişafının əsasını təşkil edir. Uşaqlar körpəlikdən uşaqlıq dövrünə keçdikdə, valideyn-uşaq münasibətləri dəyişməyə başlayır. Körpəlikdə valideynlər və uşaqlar arasındakı əlaqənin əsasını qayğı təşkil edir və münasibətlərin əksəriyyəti gündəlik qayğı ehtiyacları ətrafında dəyişir. Bağlılıq əlaqələri bu gündəlik qarşılıqlı münasibətlərlə inkişaf edir. Ancaq uşaqlar həyatlarının ikinci və üçüncü illərində danışmağa başlayanda, valideynlər ümumiyyətlə uşağının sosial davranışlarını formalaşdırmağa çalışırlar. Əslində, valideynlər həm müəllim, həm tərbiyəçi, həm liderlik və həm də sevgi təminatçısı olurlar. Uşaq böyüdükcə, valideynlər və uşaqlar arasındakı münasibətlər dəyişir və valideynlərin davranışlarından asılı olaraq müxtəlif formalarda olur.

Valideynlər və uşaqlar arasında əlaqələrin dörd əsas növü var: etibarlı, çəkinməyən, ambivalent və nizamsız. Hər növün özünəməxsus xüsusiyyətləri var.

Etibarlı münasibətlər valideyn və uşağa aid ən güclü və müsbət bir sevgi növüdür. Bu növ əlaqənin əsas xarakteristikası, uşağın valideyndən asılı ola biləcəyi hissidir. Etibar edən bir uşaq ana və ya ata onu uşaq bağçasında və ya dayə yanında qoyanda ağlasa da, valideynin qayıdacağını da anlayır. Məsələn, bu məktəbəqədər təhsildə ilk gündür və 4 yaşlı uşaq qapıdan çıxanda hirslənir, ağlayır. Amma, sonra məktəbdə müəlliminin onunla məşğul olma ehtimalı ilə o tez sakitləşir. Onu götürməyə qayıtdıqda, o valideynini sevinclə qarşılayır və hətta məktəbdə bir az daha qalmaq istədiyini bildirir.

Etibarla bağlı münasibətlər böyüklərə inam və etimad əlamətlərini göstərir, əksinə belə əlaqələrdən qaçmaq çox vaxt uşağın ana və ya atadan asılı olmadığını hiss etməsi deməkdir. Valideyn münasibətlərindən uzaq olan uşaqların xüsusiyyətlərinə çox vaxt müstəqil davranış, böyüklərdən ehtiyac duyduğu zaman kömək istəməməsi, həmyaşıdları ilə ünsiyyət və ya oynama problemləri, bir valideyn ayrıldıqda və ya geri qayıtdıqda diqqətsiz və ya görünməyən bir münasibət göstərməsi daxildir. Valideynlər tərəfindən münasibətlərin çəkinməyən növü ümumiyyətlə, uşağın kömək istəyinə məhəl qoymamaq və uşağa öz problemlərini həll etmək və

ya uşağın ehtiyaclarını və tələblərini ödəmək üçün vaxt ayırmamaqla xarakterizə olunur. Bu cür münasibət nəticədə depresiya və ya sosial xaric olmaq kimi daha ciddi nəticələrə səbəb ola bilər.

Valideyn-uşaq ambivalent münasibətləri, uşağda təhlükəli xüsusiyyətlər formalaşdıra bilən digər mənfi bağlanma formasıdır. Ambivalent bağ çox vaxt uşaqları narahat və ya məyus görünməyə vadar edir. Bu tip dinamik uşaqlar dəstək və ya kömək üçün valideynlərinə müraciət edə bilərlər, ancaq sonra tez dönüb ayrılmağa çalışırlar. Uşaqlarla münasibətlərində ambivalent davranış nümayiş etdirən valideynlər zaman zaman uşağa göz yumub diqqətini başqalarına yönəldəcək reaksiya göstərə bilərlər (3).

Valideynlərlə nizamsız qarşılıqlı münasibətdə olan uşaqlar, valideynin nə vaxt onlara diqqət yetirəcəyi barədə danışanda bir qədər utanc hissi keçirirlər. Bu cür münasibətdə olan uşaqlar gözlənilməz bir şəkildə hərəkət edirlər və stres və ya emosional vəziyyətə gəldikdə zəif mübarizə mexanizmlərinə sahib ola bilərlər.

Bundan əlavə, mütəşəkkil olmayan, nizamsız münasibətlərdə olan uşaqlar digər insanların duyğularını anlamaqda çətinlik çəkir və onlar mənasız və ya çaşdırıcı bir şəkildə davranırlar. Bu xüsusiyyətdə olan valideynlər ya uşağın ehtiyaclarına az, ya səhv cavab verir və diqqətsiz davranırlar.

2. Valideynlik tərzi və onun uşaqlara təsiri

İntizama fərqli yanaşmalar hətta yetkinlik yaşındakı bir uşağın əhval-ruhiyyəsinə və xasiyyətinə təsir edə bilər.

Tədqiqatçılar valideynlik üslubunun dörd növünü aşkar ediblər.

Avtoritar Valideyn

Avtoritar valideynlər öz nizam qaydalarını anlatmaq və ya övladlarının müəyyən səhv hərəkət etmələrinin səbəblərini anlamağa ehtiyac hiss etmirlər. Bu valideynlərin diqqəti uşaqlarının səhv etdiklərinə yönəlir və pis davranışa görə cəza çox vaxt sərt olur. Belə uşaqlar intizam qaydası haqda soruşursa, valideynlərindən tez-tez eşidirlər: "Çünki mən belə dedim". Avtoritar valideynlər yeniyetmə övladları ilə müzakirə aparmırlar və ailə qayda və standartları müzakirə edilmir. Avtoritar valideynlər hesab edirlər ki, bir yeniyetmə şübhəsiz ki, onların qoyduğu qaydaları və tətbiqləri qəbul etməlidir.

Nəticədə, yeniyetmələr üsyankar və ya asılı ola bilərlər.

Üsyankar olanlar aqressiv davranış nümayiş etdirə bilər, daha çox itaət edən gənclər isə valideynlərindən asılı qalmağa meyllidirlər.

Avtoritar valideynlərlə böyüyən uşaqlar ümumiyyətlə qaydalara riayət etsələr də, onların özünə hörmətlə bağlı problemləri ola bilər. Bəzən belə uşaqlar düşmənçiliyə və ya təcavüzkarlığa meylli olurlar, çünki qərar vermək və problemlərini həll etməyi öyrənməkdənsə, valideynlərinə qəzəbləndikləri üçün onları cəzalandırmağa daha çox diqqət ayıra bilərlər.

Səlahiyyətli Valideyn.

Səlahiyyətli valideynlər mülayim, lakin möhkəmdirlər. Yeniyetmə övladlarını müstəqil olmağa təşviq edir, eyni zamanda məhdudiyyətlər qoyur və hərəkətlərinə nəzarət edirlər. Onlar "çünki dedim" qaydasına istinad etmirlər. Bunun əvəzinə övladı ilə birlikdə əylənməyə, dinləməyə və yeniyetmənin fikirlərini nəzərə almağa hazırdırlar.

Belə valideynlər yeniyetmə övladları ilə müzakirə və mübahisələrə qoşulur, lakin, əsas məsuliyyət valideynin üzərinə düşür. Tədqiqatlar göstərir ki, bu valideynlərin yeniyetmə övladları danışıqlar aparmağı və müzakirələrdə iştirak etməyi bacarır və onların fikirlərinin təqdir edildiyini başa düşürlər. Nəticədə, onlar daha çox sosial bacarıqlı, məsuliyyətli olurlar.

Səlahiyyətli valideynlərin də uşaqlarının riayət etməli olduğu qaydaları var, lakin onlar uşaqlarına bu qaydaların bəzi istisnalarına icazə verirlər. Onlar uşaqlara tez-tez qaydaların səbəbləri barədə danışırlar və məhdudiyyətlər qoyarkən uşağın hisslərini daha diqqətlə nəzərə alırlar (2).

Səlahiyyətli valideynlər cəza əvəzinə yaxşı davranışları gücləndirmək üçün daha çox müsbət effektlərdən istifadə edirlər və avtoritar valideynlərdən fərqli olaraq onların mükafat və tərif üsullarından istifadə etmək ehtimalı daha yüksəkdir.

Bu tərbiyə üsulu ilə tərbiyə olunan uşaqlar xoşbəxt və uğurlu olmağa çalışırlar. Çox vaxt özləri qərar verə və təhlükəsizlik risklərini qiymətləndirə bilirlər. Onlar fikirlərini rahat ifadə etməyi bacaran, məsuliyyət hiss edən yetkinlərə çevrilirlər.

İcazəli Valideyn.

Bu üsluba riayət edən valideynlər övladlarına hədd qoysalar, onları sevməyəcəklərindən narahat ola bilirlər. Onlar özlərini övladlarının həddini təyin etməli olan valideyn deyil, onların dostu hesab edirlər. Bu valideynlər az və ya çox məsuliyyət daşımadan azadlığa imkan verirlər. Övladları böyüdükdə bu valideynlər uşaqlarının davranışlarını dəyişdirmək iqtidarında olmadıqlarını hiss edə bilərlər. Sərhədsiz uşaqlar məsuliyyət hiss etmir, başqalarının münasibətləri və hüquqları ilə problem yaşayır və həyatı çətinləşdirə bilərlər.

İcazəli valideynlər çox mehriban, lakin istəksizdirlər. Valideyn vəzifələrində qəmgin və passivdirlər və sevgilərini nümayiş etdirməyin yolunu yeniyetmənin istəklərinə tab gətirmələrində görürlər.

İcazəli valideynlər "əlbəttə ki, istəsən gec yata bilərsən" və "xoşunuz deyilsə heç bir ev işi etməyin, lazım deyil" kimi ifadələr işlədir. Belə valideynlər uşaqlarına imtina etməyi və onların məyus olmasını xoşlamırlar. Nəticədə, yeniyetmələrə valideyn iştirakı olmadan bir çox vacib qərarlar qəbul etməyə icazə verilir (1). Valideynlər özlərini yeniyetmənin hərəkətlərinin formalaşmasında fəal iştirakçı hesab etmirlər, bunun əvəzinə, bir yeniyetmə məsləhət almaq istədikdə özlərini bir qaynaq olaraq görürlər. Tədqiqatlar, yeniyetmələrin daha az məhdudiyyətlər və qaydalara sahib olmalarının müsbət nəticələr verməsinin mümkünsüz olduğunu göstərir. Nəticədə, yeniyetmələr özlərini idarə etməkdə çətinlik çəkir və yaşıdları ilə münasibətlərin düzgün inkişafına mane ola biləcək egoist meyllər nümayiş etdirirlər. Valideynlər uşaqlarına qarşı çox intizam qaydaları tətbiq etmirlər. Onlar yalnız ciddi bir problem olduqda müdaxilə edə bilərlər. Yanlış davranış üçün bəzi fəsadlar ola bilər, ancaq çox vaxt "uşaqlar uşaq olacaqlar" münasibətini inkişaf etdirirlər.

İcazəli valideynlər valideyn rolundan daha çox dost rolunu öz üzərinə götürə bilərlər. Övladlarını problemlərini onlara danışmağa təşviq edə bilərlər, lakin çox vaxt pis davranışın qarşısını ala bilmirlər.

Məsuliyyətsiz Valideyn.

Bu valideynlər mehriban deyillər və övladlarından heç bir tələb etmirlər. Qarşılıqlı təsir münasibətini minimuma endirirlər və çox hallarda son dərəcədə laqeyd olurlar. Onlar övladlarının ehtiyaclarına, getdikləri yerlərə və ya məktəbdə yaşıdları ilə yaşadıqları münasibətlərə laqeyd yanaşırlar. Belə valideynlər bu ifadələri səsləndirirlər: "Hara getdiyinə əhəmiyyət vermirəm" və ya "Nə etdiyinlə maraqlanım?" Onlar nadir hallarda yeniyetmə övladlarının qəbul etdiyi qərarları nəzərdən keçirirlər. Valideynlər yorğun, kədərli və ya valideyn səlahiyyətlərini qorumaq üçün sadəcə "tərk edilmiş" olduqları halda bu üslubda iştirak edə bilərlər. Tədqiqatlar təhsili olmayan valideynlərin ümumiyyətlə öz həyatları ilə maraqlandıqlarını və övladlarını böyütmək üçün çox vaxt sərf etmədiklərini təsdiqləyir. Nəticədə, yeniyetmələr ümumiyyətlə, uşaq evlərində tərbiyə olunan yeniyetmələr ilə oxşar davranışlar sərgiləyirlər və özlərini tənzimləmə problemləri səbəbindən də impulsiv davranış nümayiş etdirə bilərlər (4).

Məsuliyyətsiz valideynlər laqeyd qalırlar. Çox vaxt uşaqlarının təməl ehtiyaclarını qarşılamırlar və uşaqların özlərinin böyümələrini gözləyə bilərlər. Bəzən bu, valideynlərin psixi sağlamlıq problemləri ilə əlaqədardır. Həm də onlar valideynlik və uşaq inkişafı ilə bağlı biliklərə sahib deyillər və ya digər həyat problemləri ilə üzləşmiş ola bilərlər.

Belə valideynlər bir qayda olaraq, övladlarının etdikləri barədə az məlumatlı olurlar. Bu zaman qaydalar və ya gözləntilər azdır. Uşaqlar heç bir qayğı və ya qadağa ilə rastlaşmırlar və ümumiyyətlə, valideynlərin diqqətini çəkmirlər.

Belə mühitdə böyüyən uşaqlar, bir qayda olaraq, özülərinə hörmət etmir və məktəbdə zəif nəticələr əldə edir, tez-tez davranış problemləri ilə qarşılaşırlar və onların xoşbəxtlik dərəcəsi aşağı olur.

3. Sağlam valideyn-uşaq münasibətlərinin xüsusiyyətləri

Valideynlər övladları ilə sağlam münasibət qurduqda, onlarla uyğunlaşır: uşaqlarını dinləyə, onları başa düşə və ehtiyaclarını dərk edə bilərlər. Valideyn rolunu tam dərk edən və qəbul edən bir ana uşağın əsas tərbiyəçisi, vəkili və müəllimi rolunu oynayır, uşağa məhəbbət göstərir, uşağın ehtiyaclarını ödəməyə və həyatı üçün möhkəm bir təməl təmin etməyə çalışır. Bu əlaqələr vasitəsilə uşaqlar etibar edə, öyrənə, böyüyə və dünyanı araşdıra bilərlər.

Valideynlər və uşaqlar arasında sağlam münasibətlər aşağıdakılarla xarakterizə olunur:

1. Çeviklik: yaxşı valideynlər uşağın ehtiyaclarını tanımaq və nəzərə almaq qabiliyyətinə malikdirlər. Onlar uşağa aydın istiqamətlər vermək, seçim və danışıqlar üçün imkanlar təklif etməklə kömək edirlər.

2. Qoşma: həyatımızda bizi əhəmiyyətli insanlarla bağlayan hiss bağlılıq adlanır. Valideyn və uşaq arasındakı bağ əlaqəsi ipə çox bənzəyir. Valideyn və uşaq arasındakı hər bir müsbət qarşılıqlı əlaqə yeni bir element əlavə edir və ümumi emosional əlaqəni gücləndirir. Uşaqlar onlara qayğı göstərən insanlara emosional olaraq bağlandıqda, böyümələrinə və inkişaf etmələrinə kömək edən dəyərli dəstək alırlar. Sağlam əlaqələri olan uşaqlar daha çox araşdırma aparır və sağlam risk edirlər. Onlar münasibətləri ilə yaxşı və pis haqqında məlumat əldə edir, təcrübələrini şərh etməyi və mövcud münasibətləri qorumağa və yenisini inkişaf etdirməyə kömək edən sosial bacarıqları öyrənirlər. Belə uşaqlar müstəqil olmağı və başqaları ilə yaxşı davranışı, bir sözlə, birbaşa təlim vasitəsilə asanlıqla öyrənilə bilməyən müxtəlif bacarıqları inkişaf etdirirlər. Sosial və emosional dərslər münasibətlər vasitəsilə ən yaxşı şəkildə öyrənilir.

3. Müvafiq sərhədlər: valideyn-uşaq münasibətləri fərqli sərhədləri əhatə edir. Uşaq böyüdükcə sərhədlər inkişaf edir, ancaq ilk illərdə fikirləşdiyiniz modellər, uşağınızın gələcəkdə yaşayacağı modellərdir. Məktəbəqədər və böyük uşaqlar üçün düzgün sərhədlərin qoyulması valideynlər və uşaqlar arasında müvafiq münasibətlər üçün zəmin yaradır. Uşaq böyüdükcə, sərhədlər ona özünü qorumağı, məsuliyyət hiss etməyi və başqalarının hədlərinə hörmət etməyi öyrənməyə kömək edə bilər.(1)

4. Açıq ünsiyyət: valideynlər və uşaqların ünsiyyət yolu münasibətlərin xüsusiyyətini təyin edir. Valideynlər üçün uşaqları ilə açıq və təsirli bir şəkildə ünsiyyət qurmaq çox vacibdir. Açıq, təsirli ünsiyyət yalnız uşaqlara deyil, ailənin hər bir üzvünə də xeyir verir. Ümumiyyətlə, valideynlər və övladları arasında ünsiyyət yaxşıdırsa, münasibətləri də yaxşıdır. Uşaqlar valideynlərini seyr edərək ünsiyyət qurmağı öyrənirlər. Valideynlər açıq və təsirli bir şəkildə ünsiyyət qursalar, çox güman ki, uşaqları da belə formalaşır. Yaxşı ünsiyyət bacarıqları uşaqlara onların həyatı üçün faydalıdır. Övladları ilə səmərəli ünsiyyət quran valideynlərin daha çox valideyninin dediklərini etmək istəyən, sözeşidən uşaqları olur. Belə uşaqlar valideynlərindən nə gözləyəcəklərini bilirlər və uşaqlar onlardan nə gözlənildiyini bildikdən sonra, onlar daha çox bu gözləntilərə cavab verirlər. Ayrıca ailədəki mövqelərinə inamlı olur və buna görə də onların əməkdaşlıq etmək ehtimalları daha yüksəkdir.

5. İntizam: effektiv nizam-intizam uşaqlara davranışlarına nəzarət etməyi öyrənməyə kömək edir ki, onlar cəza qorxusundan deyil, nəyin düzgün, nəyin səhv olduğu barədə fikirlərinə uyğun hərəkət etsinlər. Məsələn, vicdanlıdırlar - həbs olunmaqdan qorxduqları üçün deyil, çünki, şərəfsiz olmağı səhv hesab etdirlər. Valideynlər uşaq yetişdirərkən mənfi tənqidlərdən çəkinməlidirlər. Sözlər dəstəkləyici və ya dağıdıcı ola bilər. Valideynlər sözləri diqqətlə seçməli və cümlələrini həmişə müsbət bir ifadə ilə bitirməlidirlər. Valideyn uşağının onun tərəfindən

deyil, davranışından üzüldüyünü başa düşdüyünə əmin olmalıdır. Valideynlər uşağın nailiyyətlərini qiymətləndirməli və səylərini, həm də uğurlarını təriflməlidirlər. Uşağınıza sevginizin qeyd-şərtsiz olduğunu və həmişə sevəcəyinizi bildirin. Uşaqlar bəzən inama ehtiyac duyurlar və valideynlər sevgi və məhəbbətlərini hərəkətləri ilə, eləcə də sözlərlə göstərməlidirlər (4).

Uşaqlarınıza müəyyən dəyərlər aşılamaq istəyirsinizsə, onları davranışlarınızda göstərməlisiniz. Uşaqlar öz valideynlərinin nümunələrindən ibrət götürür və ən yaxınlarının davranışlarını təqlid edirlər.

Nəticə. Valideynlər və uşaqlar arasındakı münasibətlər müxtəlif amillərdən asılıdır. Bunlara tərəfdaşlar arasındakı sevgi və dəstək, maddi vəziyyət, övlad sahibi olmaq istəyi və s. aiddir. Valideynlər və uşaqlar arasında münasibətlərin dörd əsas növü vardır: etibarlı, çəkinməyən, ambivalent və nizamsız.

Etibarlı münasibətlər valideyn və uşağa aid ən güclü və müsbət bir sevgi növüdür. Bu növ əlaqənin əsas xarakteristikası, uşağın valideyndən asılı olması hissidir.

Çəkinməyən lövhəli münasibətlərdə uşaqların xüsusiyyətlərinə çox vaxt müstəqil hərəkətlər, böyüklərə kömək üçün müraciət etməmələri, yaşıdları ilə ünsiyyət problemləri, valideyndən ayrıldıqda və ya geri qayıtdıqda zahirən laqeyd münasibət və s. aiddir.

Ambivalent münasibətlər valideyn-uşaq arasında digər mənfi bağlanma formasıdır. Bu tip uşaqlar, dəstək və ya kömək üçün valideynlərinə müraciət edə bilərlər, ancaq sonra tez dönüb ayrılmağa çalışırlar.

Nizamsız münasibətdə olan uşaqlar gözlənilməz bir şəkildə hərəkət edir, stres və ya emosional vəziyyətə gəldikdə zəif mübarizə mexanizmlərinə sahib olurlar.

Tədqiqatçılar valideynlik üslubunun dörd növünü aşkar ediblər:

Səlahiyyətli: demokratik tərbiyə tərzi, valideynlər diqqətli olurlar, bağışlayır, övladlarına düzgün davranış öyrədirlər.

Avtoritar: sərt valideyn tərzi, valideynlər qaydalara və məhdudiyyətlərə əsas vermir və sərt cəzalara meyllidirlər.

İcazəli: valideynlər daha çox "dost" rolunu oynayırlar, uşaqdan heç bir gözləntisi yoxdur, uşağa sərbəst qərar verməyə imkan verirlər.

Məsuliyyətsiz: valideynlər öz həyatını üstün tutaraq uşağa laqeyd yanaşırlar . Uşağın əsas ehtiyaclarını təmin edirlər, ancaq uşaqa az qarşılıqlı münasibət göstərirlər.

## ƏDƏBİYYAT

1. Байков Ф.Я. Ответственность родителей: заметки о воспитании.-М.,1985,59 с.;
2. Сухомлинский В.А. Как воспитать настоящего человека. - Минск, Нар. асвета, 1978.288
3. Кулик Л.А. Семейное воспитание /Л. А. Кулик, И, И. Берестов. - М.: Просвещение, 1990. - 126с.
4. Толстых А. В. Взрослые и дети: парадоксы общения. - М., Просвещение, 1988. С 33 - 39.

## UŞAĞIN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA AİLƏNİN ROLU

## XÜLASƏ

Valideynlərimiz həyatımızda demək olar ki, hər zaman yanımızda olan insanlardır. Onlar uşaqlara müxtəlif yollarla təsir edərək, necə danışmalarını, gəzmələrini, digər insanlarla necə ünsiyyət qurmalarını və s. öyrədirlər. Valideynlər və uşaqlar arasında sevgi və dəstəyə əsaslanan güclü və mehriban münasibətlərin qurulması çox vacibdir, çünki bu, uşaqların həyatına təsir göstərən və onların gələcək övladları ilə münasibətlərini müəyyənləşdirən əsas amildir.

Unutmamalıyıq ki, təkcə valideynlər övladlarına deyil, uşaqlar da valideynlərinə qayğı göstərməlidirlər.

## РОЛЬ СЕМЬИ В ФОРМИРОВАНИИ РЕБЕНКА КАК ЛИЧНОСТЬ


### АННОТАЦИЯ

Наши родители почти всегда с нами в нашей жизни. Они влияют на детей по-разному, например, как разговаривать, ходить, общаться с другими людьми и так далее. Очень важно построить крепкие и любящие отношения между родителями и детьми, основанные на любви и поддержке, потому что это ключевой фактор, который влияет на жизнь детей и определяет их отношения с будущими детьми. Мы не должны забывать, что не только родители, но и дети должны заботиться о своих родителях.


## THE ROLE OF THE FAMILY IN THE FORMATION OF THE CHILD AS A PERSONALITY


### SUMMARY

Our parents are almost always with us in our lives. They influence children in different ways, such as how to talk, walk, communicate with other people, and so on. teach. It is very important to build a strong and loving relationship between parents and children based on love and support, because it is a key factor that affects children's lives and determines their relationship with their future children. We must not forget that not only parents but also children should take care of their parents.

# GƏNCLƏRİN MƏŞĞULLUĞUNA TƏSİR EDƏN BAŞLICA SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ AMİLLƏR

***Zənurə Talıbova***
***BDU-nun II kurs magistrantı***
***talibovazanura@gmail.com***

***Açar sözlər:*** Gənclər, məşğulluq, işsizlik, innovativ, əmək bazarı.
***Ключевые слова:*** Молодежь, занятость, безработица, инновационный, рынок труда.
***Key words:*** Youth, employment, unemployment, innovative, labor market.

Azərbaycan dünyanın qabaqcıl olan hər bir ölkəsi kimi apardığı islahat prosesində gənclər siyasətinin güclənməsinə, səmərəli məşğulluğun təmin olunmasına, onların iqtisadi inkişaf proseslərinə cəlb olunmasına böyük resurs və qüvvə sərf edir. Bu sahəyə yönəldilən səy və investisiyalar mahiyyət etibarilə cəmiyyətin davamlı tərəqqisinə xidmət edir. Artıq bir neçə illər ərzində ölkəmizdə dinamik və uzunmüddətli inkişafını təmin edən uğurlu islahatlar proqramı həyata keçirilir. Bu siyasət işsizliyin azalmasına, əmək bazarında sabitliyin əldə olunmasına təkan verməklə, gənclərin əmək bazarına çıxışının və məşğulluğunun artırılmasının hərtərəfli dəstəklənməsi, iqtisadiyyatın dayanıqlı inkişafında gənclərin iştirakının təmin edilməsində dövlət siyasətinin həyata keçirilməsinə şərait yaradıb.

Gənclər bu gün ən strateji dövlət qurumlarında, parlamentdə, məhkəmə-hüquq qurumlarında, bələdiyyələrdə, biznes strukturlarında təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Bəs gənclərin məşğulluğuna təsir edən başlıca sosial-iqtisadi və mədəni amillər hansılardır?! Bu məqamda ilk növbədə gənclərin məşğulluqla bağlı həyatında həlledici rol oynayan “Əhalinin özünü məşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında” Sərəncamını misal göstərmək olar. Özünüməşğulluq – şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünü işlə təmin etməsidir**.** "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununun 24-cü maddəsi isə bütövlükdə özünüməşğulluğa kömək göstərilməsinə həsr edilib [1, 3-cü fəsil, Maddə 24].

Qanunun həmin maddəsində deyilir ki, işsiz şəxslərin özünüməşğulluğunun təşkili zamanı ünvanlı dövlət sosial yardımı alan şəxslərə, əlillərə və sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara, bir ildən artıq işsiz kimi qeydiyyatda olanlara, pensiya yaşına iki ildən az qalmış şəxslərə, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxslərə üstünlük verilir. Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliyinin məlumatına görə, proqramda iştirak etmək üçün müraciət edən və biznesin təşkili ilə bağlı müvafiq bilik və bacarıqlara yiyələnmələri məqsədilə təlim kurslarına cəlb olunan vətəndaşlardan 25 faizə qədəri gənc yaşlarında olanlardır [6].

Gənclərin sosial –iqtisadi vəziyyətinə təsir edən əsas amil kimi dünyanın bir çox inkişaf etmiş və inkişaf etməkdə olan ölkəsində özünüməşğulluq proqramı həyata keçirilir. Son illər beynəlxalq qurumlarım hesabatlarında *Şimali Makedoniya Respublikasında* həyata keçirilən özünüməşğulluq proqramının yaxşı təcrübə kimi uğurlu olduğu vurğulanır. Belə ki, Şimali Makedoniya özünüməşğulluq proqramının tətbiqində 70 faizə çatan uğur göstəricisi ilə Avropa və dünyada ön sıralarda qərar tutur [7].

Şimali Makedoniyada həyata keçirilən özünüməşğulluq siyasəti yeni iş yerlərinin açılması yolu ilə işsizliyin azaldılması, iqtisadiyyatın dayanıqlılığının təmin edilməsi və işçi miqrasiyasının qarşısının alınması məqsədilə həyata keçirilir. Özünüməşğulluq siyasəti dövlət tərəfindən həyata keçirilən güzəştli kredit proqramı və BMT-in İnkişaf Proqramı ilə birgə həyata keçirilən tədbirlər sistemini əhatə etməklə iki istiqamətdə yerinə yetirilir. Hər iki istiqamət üçün də xarakterik olan başlıca xüsusiyyətlər özünüməşğulluq siyasətinin tətbiq olunarkən 29 yaşına qədər olan gəncləri,

qadınları, uzunmüddət işsiz olan şəxsləri və əlilləri ön plana çəkməklə əhalinin sosial qayğıya daha çox ehtiyacı olan hissəsinin tələbatlarını ödəməkdən ibarətdir [8].

Biznes-planları qəbul olunan işsiz şəxslərin 35 faizini qadın, 31 faizini isə 29 yaşına qədər olan gənclərin *(müvafiq olaraq 20 faizi gənc oğlan və 11 faizi qız)* təşkil etməsi proqramın dayanıqlılığı və uğuru baxımından mühüm göstəricidir. Göstəricilərdən belə qənaətə gəlmək olar ki, say baxımından az olsa belə proqramda gənclərin və qadınların layihələrinə xüsusi diqqət verilir. 2017-ci il göstəricilərinə görə, özünüməşğulluq siyasəti nəticəsində təşkil olunmuş kiçik sahibkarlıq subyektlərinin 70 faizi uğur əldə edərək öz mövcudluğunu davam etdirmək imkanı qazanıb. Proqramın təlimlərinə qoşulmaq üçün ilkin qiymətləndirmə nəticəsində seçilmiş namizədlər arasında test keçirilir [8].

Test namizədin təhsil, bacarıqlar, təşəbbüskarlıq qabiliyyətini də əhatə etməklə təşkil olunur. Dəyərləndirmə zamanı xüsusi ilə gənc namizədin təlimi mənimsəməsi, bacarıqlarını inkişaf etdirmə dərəcəsi kimi fərdi meyarlarla yanaşı, biznes planın gələcək vəd etməsi, mənfəətliliyi, işlə təmin etmə qabiliyyəti kimi faktorlara da nəzər yetirilir. Digər üstünlük kimi də təqdim olunan ideyanın innovativliyi və start-up xarakterli olmasını qeyd etmək olar.

Özünüməşğulluq proqramı dünyanın onlarla ölkəsində müxtəlif formada həyata keçirlir. *Uqanda Respublikasının* təcrübəsinə nəzər salanda aydın olur ki, əsasən gənclərin işsizlik problemini həll etməyə yönələn özünüməşğulluq proqramında (Youth Opportunities Program) müəyyən nəticələr əldə olunub. Belə ki, Uqanda Respublikası inkişafdan geri qalmış şimal bölgələrdə qeyri-kənd təsərrüfatı sahələrinin inkişafını təmin etmək üçün gənclər arasında özünüməşğulluq proqramını icra edib. Proqram tələbləri:

- namizədlərin yaş həddi 16-35;
- yalnız qrup formasında müraciət (qrup üzvləri 10-40 nəfər olmaqla);
- yazılı təklif planı vasitəsilə müraciət;
- müraciət tələblərini uğurla yerinə yetirmiş qrup namizədlər arasından təsadüfi seçim [9].

Seçilmiş namizədlərə vəsait dövlət nəzarəti olmadan təqdim edilir. Özünüməşğulluq proqramı çərçivəsində verilən vəsaitin məbləği orta hesabla adambaşına 382 ABŞ dolları təşkil edir və bu məbləğ təqribən həmin şəxslərin illik gəlirinə bərabər olur. Proqramın nəticələrini araşdırmaq üçün sadəcə iki, dörd və doqquz ildən bir iştirakçılardan sorğu keçirilib. Əhali iki qrupa -proqram çərçivəsində vəsait alan və vəsait almayan qruplara bölünüb və müqayisələr aparılıb.

Nəticədə 4 il sonra proqram çərçivəsində vəsait alan qrupun gəlirində 41 faiz, bacarıqlarında 65 faiz, iş saatlarında 17 faiz artımın olduğu müşahidə edilib. Bu gənclər arasında birgə müəssisələrin yaradılmasındansa, şəxsi bizneslərin yaradılmasında üstünlük müşahidə olunub. *Yeni Zelandiyada* icra olunan Özünüməşğulluğa Dəstək Proqram *(Flexi Wage*) çərçivəsində dövlət öz biznesini qurmağa başlayan gənclərin xərclərini qarşılaması üçün vəsaitlə təmin edir. Müraciət edən gənclər arasından biznes planı olmayanlara bunun hazırlanması qaydasını öyrədilir və bu biznes planının həyata keçirilməsinin mümkünlüyünə əmin olduqdan sonra ödənişi təsdiqlənir.

Namizədliyə uyğun olan gənclər:

- yeni biznes qurmaq istəyənlər;
- mövcud biznesində özünə yetərli olmaq üçün dəstəyə ehtiyacı olanlar [10].

Özünüməşğulluq proqramı həyata keçirilən ölkələrin təcrübəsinə nəzər salanda aydın olur ki, oxşar cəhətlərlə yanaşı ciddi fərqərdə var. Şübhəsiz ki, hansı ölkədə həyata keçirilməsindən asılı olmayaraq özünüməşğulluq proqramlarının fəlsəfəsi eynidir. Amma ölkələrin inkişaf səviyyəsi, xalqların millimentaliteti bu proqramların icrasına öz təsirini göstərir. Azərbaycan isə Şimali Makedoniyanın təcrübəsindən daha çox yararlana bilər. Belə ki, bu ölkədə gənclər biznes qurmaq üçün aktivlərlə dəstəklənir və son illər qeyri-kənd təsərrüfatı fəaliyyəti prioritetə çevirilib. Digər tərəfdən Şimali Makedoniya özünüməşğulluq proqramını BMT-nin İnkişaf Proqramı ilə birlikdə həyata keçirməsi diqqətə alınmalı məqamdır [8].

Bu əməkdaşlıq proqramın şəffaflığına və uğurlu olmasına xidmət edir. Başqa bir maraqlı nüans isə Şimali Makedoniyada Proqram Çərçivəsində mikrokreditlərin verilməsidir. Bu zaman, güzəştli kreditin verilməsi əhalinin yaş qrupları nəzərə alınmaqla iki proqram əsasında həyata keçirilir. 29 yaşına qədər olan və rəsmi işsiz olaraq qeydiyyata alınmış şəxslərə birdəfəlik pul və ya kredit verilməsi nəzərdə tutulub. Azərbaycanda da özünüməşğulluq proqramı çərçivəsində aktiv alan gənclər bizneslərini böyütmək istədikləri təqdirdə onlara güzəştli kreditin verilməsi məsələsinə baxıla bilər.

Həmçinin özünüməşğulluq proqramında iştirak edərək aktiv alan vətəndaşların növbəti mərhələdə bizneslərini böyütməsinin dəstəkləməsi üçün Türkiyə Respublikasının *(*Küçük ve Orta Ölçekli İşletmeleri Geliştirme ve Destekleme İdaresi Başkanlığı*)* təcrübəsindən faydalanmaq mümkündür. Gənc sahibkarlara öz bizneslərini inkişaf etdirməkdə, onların rəqabətliliyinin artırılmasında, ixrac və digər vacib məsələlərdə dəstək verilir. Türkiyənin kiçik və orta sahibkarlığın inkişaf etdirməsi və dəstəkləməsi sahəsində böyük təcrübəyə malik olduğunu nəzərə alaraq dəstək verilən fəaliyyət sahələrinin siyahısının və biznes-planlarının öyrənilməsinə ehtiyac vardır [11].

Məhsuldarlıq–əsaslı inkişaf modelinə keçid çağırışları fonunda ən mühüm təkmilləşdirmə istiqamətlərindən biri də insan kapitalının hazırlanması prosesinin keyfiyyətinin daha da yüksəldilməsidir. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə də bu problemin həlli yollarına aid tədbirlər mövcuddur. Belə bir tədbir ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqini yönəlib. Qeyd olunub ki, ali təhsil insan kapitalının formalaşmasında və inkişafında mühüm mərhələdir. Onun insan kapitalının formalaşmasına və inkişafına təsiri özünü iki şəkildə büruzə verir:

1) insan kapitalının formalaşmasında birbaşa iştirak edən ixtisaslı mütəxəssislərin hazırlaması;

2) yeni biliklərin yaranmasında, tətbiqində və ötürülməsində bilavasitə iştirak [3,səhifə 87].

Ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, daha çox əlavə dəyərin yaranmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin 85 formalaşdırılması dəstəklənəcəkdir. Bunun üçün ali təhsilin keyfiyyətinin yüksəldilməsi, qlobal təhsil məkanına inteqrasiyası, ali təhsilli kadrlara tələbatın ödənilməsi, habelə ali təhsilin informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğunlaşdırılması istiqamətində islahatlar sürətləndiriləcəkdir.

Hazırda Azərbaycanda gənclərin ali təhsillə əhatə olunma səviyyəsi aşağıdır. Bu da uzaq perspektivdə ölkənin rəqabətqabiliyyətli və dayanıqlı inkişafına maneə törədə bilər. Yüksəkixtisaslı kadr hazırlığının əmək bazarının tələbinə və beynəlxalq ixtisas təsnifatına uyğunlaşdırılması, uzunmüddətli proqnozlaşdırma mexanizminin hazırlanması istiqamətində fəaliyyətlər, əmək bazarında diferensiallaşmış əməkhaqqı və stimullaşdırma sisteminin yaradılması üzrə mexanizmlərin hazırlanması dəstəklənəcəkdir.

Universitet klasterlərinin yaradılması "təhsil–tədqiqat–innovasiya" zəncirinin effektivliyini artıra bilər. Bu baxımdan, ölkədə, ilk növbədə, bəzi ixtisaslaşmış universitetlərdə klasterlərin yaradılması təşviq ediləcəkdir. Ali təhsil sisteminin keyfiyyətinin yüksəldilməsi nəticəsində daha keyfiyyətli insan kapitalı və intellektual potensial formalaşacaq, əmək məhsuldarlığı artacaqdır. Universitet klasterlərinin yaradılması araşdırma və təkmilləşdirmələrin həyata keçirilməsini, elmi nəticələrin istehsala tətbiqini stimullaşdıracaq, "təhsil-elm-istehsal" əlaqələrinin səmərəliliyi yüksələcəkdir. Klasterlərin dəstəklənməsi regionlarda insan kapitalının inkişafı üçün də əhəmiyyətlidir [3, s.87].

Özəl universitetlərin müstəqilliyinin artırılması və onların inkişafı üçün stimullaşdırıcı tədbirlər görüləcəkdir. Ali təhsil haqqında qanunun və dövlət proqramının qəbul edilməsi məsələsi nəzərdən keçiriləcəkdir. Ali təhsilə və elm sahəsinə dövlətin xüsusi əmək sərf etməsi özünü

statistik rəqəmlərdə göstərir. Elmi fəaliyyətlə maraqlanan gənclərin bir hissəsi öz təhsilini fəlsəfə doktorlarının hazırlanması proqramında davam edirlər. 2019-cu ilin əvvəlinə 119 fəlsəfə doktorlarının hazırlanması proqramını həyata keçirən müəssisələrdə 2064 nəfər təhsil alıb və onların da 1038 nəfəri və ya 50 faizi 30 yaşa qədər olan gənclərdir. Ölkənin elmi potensialında da gənclərin müstəsna rolu vardır. 2019-cu ilin əvvəlinə tədqiqat və işləmələri yerinə yetirən 133 təşkilatda tədqiqat və işləmələrlə məşğul olan 14 min nəfər tədqiqatçının 1825 nəfəri və ya 13 faizi 30 yaşa qədər olan gənclərdir. Qeyd etmək lazımdır ki, Azərbaycan bu rəqəmlərlə region və bir sıra MDB ölkələrini geridə qoyur [2].

Təbii ki, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, iqtisadiyyatın dinamik inkişafı şəraitində gənclərin potensial imkanlarından tam istifadə olunması, onların məşğulluğunun təminatı və müasir dövrün tələblərinə cavab verən gənc kadr potensialının formalaşdırılması gələcəkdə iqtisadi artımın təmin edilməsi üçün olduqca əhəmiyyətlidir. Bütün bu proseslər eyni zamanda gənclərlə bağlı aktiv məşğulluq tədbirlərinin ildən-ilə güclənməsi ilə tamamlanır. 2019-cu ilin rəqəmlərinə əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti tərəfindən 103 028 işsiz və işaxtaran şəxs münasib işlərlə təmin edilib.

İşçi qüvvəsinin rəqabət qabiliyyətinin artırılması üçün əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kurslarının təşkili işləri də davam etdirilib. Ötən il ərzində nazirliyin xətti ilə ümumilikdə 3400-ə yaxın şəxs (o cümlədən Dövlət Məşğulluq Xidməti tərəfindən 3168 nəfər, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzi tərəfindən 227 nəfər) peşə hazırlığına cəlb olunub. Bu dövrdə Xidmət tərəfindən 135 minədək gəncə işəgötürənlərin peşə və ixtisaslara olan tələbləri barədə məlumatlar verilib, əmək bazarının tələblərinə uyğun düzgün peşə seçmələri məqsədilə peşəyönümü xidməti göstərilib [4].

Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, özünüməşğulluq proqramına 2018-ci ildə cəlb edilən 7267 nəfər işsizdən 1174 nəfəri gənclər olub. Digər proqram iştirakçıları kimi, onlar da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilmiş aktivlər (mal və materiallar) hesabına kiçik ailə bizneslərini qurublar. Artıq cari ilin ilk rübündə arasında gənclərin də olduğu 1000-dən çox şəxs bu proqrama cəlb olunub. İl ərzində işsiz və işaxataran şəxslərin proqrama cəlb edilməsi işləri davam etdiriləcək [5].

Göründüyü kimi ölkəmizdə həyata keçirilən sosial-iqtisadi siyasətin qarşısında duran əsas vəzifələrdən biri də əldə olunmuş iqtisadi inkişafın nəticələrinin sosial inkişafa yönəldilməsini təmin etməkdən ibarətdir. Çünki aparılan iqtisadi siyasət nəticəsində əldə edilən makroiqtisadi sabitlik və iqtisadiyyatın real sektorunda baş verən davamlı inkişaf, cəmiyyətin keçid dövründən irəli gələn sosial problemlərin həll edilməsinə obyektiv zəmin yaradıb.

Əslində iqtisadi-sosial inkişafın əsas məqsədi də insanların o cümlədən gənclərin maddi və mənəvi tələbatının ödənilməsinə yönəldilib. İnkişaf prosesi, işlə təminat gənclərin mədəni həyatının seçim variantlarının sayının artırılması vasitəsilə onların imkanlarını genişləndirə bilər. Onun sayəsində isə insanlar dəyərli və yaradıcı həyatlarını keçirirlər. Bununla yanaşı, gənclər tərəqqi və dəyişikliklərin hərəkətverici qüvvələri hesab olunurlar. Həmin proses bərabər səviyyələrdə bütün sahələrdə fayda gətirməlidir və onlardan hər birinin iştirakına əsaslanmalıdır. Nəzərə alınsa ki, sağlam cəmiyyət və ya dayanıqlı sosial sistem fərdlər və toplulararası münasibətlərin nizamıdır. Mədəniyyət sisteminin və ya mədəni amillərin bu nizama təsiri böyükdür. Bu təsirlər iqtisadi amillərin yüksəlişi, elm və texnologiyanın inkişafı, demoqrafik dəyişikliklərdən, müxtəlif əhali kateqoriyalarındakı dəyər dəyişikliklərindən həmçini ideoloji amillərdən də asılıdır.

Azərbaycanın “Gənclər siyasəti haqqında” qanununda da göstərilib ki, dövlətin siyasətinin önəmli bir qolu gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik, dünyəvilik prinsipləri əsasında, Azərbaycan xalqının tarixinə, mədəni irsinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətin

ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında, habelə idarəetmə və vətəndaş cəmiyyətinin inkişafı sahələrində gənclərin fəal iştirakının təmin edilməsi, onların intellektual və yaradıcılıq potensialının ümummilli problemlərin həllinə səfərbər olunmasını təşkil etməkdir. Çünki gənclərin sahib ola bildiyi imkanların diapazonu onları genişləndirməyə imkan verə bilən seçim variantları potensial olaraq sonsuzdur və hər bir fərddən asılı olaraq şəklini dəyişir. Məşğulluğa təsir edən mədəni amillər və mədəni amillərin məşğulluğa təsiri bir biri ilə qarşılıqlı əlaqədədir. Yəni məşğul bir gəncin sosial mədəni həyatla əlaqəsi də birbaşa olur.

## ƏDƏBİYYAT


1. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu // http://www.e-qanun.az/framework/39846
2. Dövlət Statistika Komitəsi // www.stat.gov.az //Gencler2019.pdf
3. "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"// https://president.az/articles/21993
4. 2019-cu ildə Dövlət Məşğulluq Xidməti tərəfindən 103 mindən çox şəxs münasib işlərlə təmin edilib, 09.01.2020 // http://sosial.gov.az/3079
5. Salmanlı Rəhman, "Azərbaycan gənclərin məşğulluğunun dəstəklənməsində çox ölkələrə nümunədir"// "Azərbaycan" qəzeti 25 aprel, 2019. // http://anl.az/down/meqale/azerbaycan/2019/aprel/648228.htm
6. Tağıyev Tural. "Özünüməşğulluq proqramında iştirak üçün təlimlərə cəlb olunanların 25 faizi gənclərdir" // Palitra qəzeti, 2 fevral 2017, // http://www.anl.az/down/meqale/palitra/2017/fevral/526410.htm
7. UNDP, "Promoting Sustainable Employments", Project Summary// https://www.mk.undp.org/content/north-macedonia/en/home/operations/projects/poverty_reduction/employment-programme.html
8. **"Self-employment programme" //** http://rabotaimoznosti.mk/samovrabotuvanje/?page_id=1394&lang=en
9. "Generating Skilled Self-Employment in Developing Countries: Experimental evidence from Uganda" // https://www.povertyactionlab.org/sites/default/files/publications/992%20Skilled%20Self%20Employment%20in%20Urganda.pdf
10. " Flexi-wage for self-employment"// https://www.workandincome.govt.nz/products/a-z-benefits/flexi-wage-self-employment.html
11. "Desteklenen Sektörler Nelerdir? https://www.kosgeb.gov.tr/site/tr/baglanti/DesteklenenSektor


## GƏNCLƏRİN MƏŞĞULLUĞUNA TƏSİR EDƏN BAŞLICA SOSİAL-İQTİSADİ VƏ MƏDƏNİ AMİLLƏR

## XÜLASƏ


Məqalədə gənclərin məşğulluğuna təsir edən başlıca sosial-iqtisadi və mədəni amillər araşdırılıb. Təhlillərdən aydın olub ki, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi və əmək ehtiyatlarından səmərəli istifadənin, o cümlədən gənc işçi qüvvəsinin iqtisadi tərəqqi proseslərinə fəal şəkildə səfərbər olunması hər bir ölkədə sosial-iqtisadi inkişaf üçün vacib şərtdir. Çünki ölkənin dayanıqlı iqtisadi inkişafını təmin edən uğurlu islahatlar yeni iş yerlərinin açılması və məşğulluq imkanlarının artırılmasını, gənclərin əmək bazarına çıxışının hərtərəfli dəstəklənməsi

istiqamətində mühüm yer tutur. Azərbaycanda da əmək bazarındakı vəziyyət və gənclər siyasətinin dəstəklənməsi aparılan siyasətin prioritetidir.

## ОСНОВНЫЕ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ И КУЛЬТУРНЫЕ ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА ЗАНЯТОСТЬ МОЛОДЕЖИ

### АННОТАЦИЯ

В статье рассматриваются основные социально-экономические и культурные факторы, влияющие на занятость молодежи. Анализ показывает, что повышение уровня занятости и активного использования трудовых ресурсов, в том числе активная мобилизация молодой рабочей силы в процессе экономического развития, является важным условием социально-экономического развития любой страны. Поскольку успешные реформы, обеспечивающие устойчивое экономическое развитие страны, играют важную роль в создании новых рабочих мест и расширении возможностей трудоустройства, необходима всесторонняя поддержка доступа молодежи к рынку труда. Ситуация на рынке труда и поддержка молодежной политики в Азербайджане является приоритетом государственной политики.

## THE MAIN SOCIO-ECONOMIC AND CULTURAL FACTORS AFFECTING YOUTH EMPLOYMENT

### SUMMARY

The article discusses the main socio-economic and cultural factors affecting youth employment. The analysis shows that increasing the level of employment and the active use of labor resources, including the active mobilization of young labor in the process of economic development, is an important condition for the socio-economic development of any country. Since successful reforms that ensure the country's sustainable economic development play an important role in creating new jobs and expanding employment opportunities, comprehensive support is needed for youth to access the labor market. The situation on the labor market and support for youth policy in Azerbaijan is a priority of state policy.

# AZƏRBAYCANDA SOSİAL TƏHLÜKƏLİ VƏZİYYƏTDƏ OLANLARLA BAĞLI APARILAN SOSİAL SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Vüqar Abbasov***
***AU-nin II kurs magistrantı***
***@student.au.edu.az***

***Açar sözlər*****:** sosial xidmət, dövlətsosial siyasəti, sosial təhlikəli vəziyyət.
***Ключевые слова*****:** социальнаяслуюба, государственная социальная политика, социально опасная ситуация.
***Keywords*****:** social service, state social policy, socially dangerous situation.

Ədəbiyyatlardasosial siyasətə müxtəlif təriflər verilmişdir. Prof. H.M.Rəcəbliyə görə *sosial siyasət dedikdə əsas məqsədi sosial ədalət və sosial bərabərlik ilə yanaşı, sosial rifahı təmin etmək olan, iqtisadi siyasəti sosial çalarlarla zənginləşdirən, iqtisadiyyatda baş verən çatışmazlıqları aradan qaldıraraq, sosial tarazlığı təmin edən tədbirlərin məcmusu başa düşülür* [6, s. 37]. A.H.Bağırlının fikrincə, sosial siyasət cəmiyyətdə vətəndaşların sosial qrup və birliklərinin tələbatlarını nəzərə alaraq, onlar üçün yaşayış şəraiti yaratmaq sahəsində dövlətin konkret fəaliyyətidir [3, s. 11].

Sosial siyasətmüasir dövrdədövlətin bütünlükdə siyasətinin səmərəliliyini, humanist xarakterini müəyyən edən vasitə kimi çıxış edir. Sosial siyasət elmi nəzəriyyə ilə yanaşı həmdə praktikaya əsaslanan siyasətdir. İqtisadi, sosial nəzəriyyələrin öyrənilməsi bu sahədə mühüm əhəmiyyət kəsb edir. Sosioloji tədqiqatların aparılması isə müxtəlif sosial təbəqələrin tələbatını öyrənir və buna uyğun olaraq dövlətin siyasəti hazırlanır.

Sosial siyasətin əsas məqsədi sosial mühitdə tarazlığın müəyyən səviyyəsinə nail olmaqdır. Sosial siyasət tədbirlərinin hazırlanmasını sosioloqlar və demoqraflar həyata keçirir. Başqa sözlə desək, sosial siyasətin başlıca məqsədi ictimai inkişafın mövcud mərhələsində ən ümdə və təxirəsalınmaz vəzifələrin həllini təmin etməkdən, meydana çıxan ziddiyyətləri cəmiyyətin ümumi mənafeyi baxımından məqsədyönlü və çevik şəkildə aradan qaldırmaqdan ibarətdir. Deməli, sosial siyasətin vacibliyi cəmiyyət üzvlərinin sosial tələbatının təmin olunmasına imkan yaratmaq zərurətindən irəli gəlir [2, s. 187].

Sosial siyasətin Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən biri olması barədə Azərbaycan Respublikasının əsas qanununun - Konstitusiyasının 38-ci maddəsində qeyd olunur: “Hər kəsin sosial təminat hüququ vardır. Hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, işsizliyinə görə və qanunla nəzərdə tutulmuş digər hallarda təminat hüququna malikdir” [1, s. 17].

Ermənistan dövləti tərəfindən torpaqlarımıza təcavüz edilməsi mövcud vəziyyəti daha da ağırlaşdırmışdır. Erməni işğalı nəticəsində zəbt edilmiş rayonlara külli miqdarda ziyan dəymiş, iqtisadiyyat, təhsil, mədəniyyət və s. sahələr tamamilə dağıdılmışdır. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Ermənistanın hərbi təcavüzü Azərbaycanın 17 min kvadrat kilometr ən məhsuldar torpaqlarının işğalına səbəb olmaqla yanaşı, 900 yaşayış məntəqəsinin, 130939 evin, 2389 sənaye və kənd təsərrüfatı obyektinin, 1025 təhsil, 798 səhiyyə ocağının, 1510 mədəniyyət müəssisəsinin, 5198 kilometr avtomobil yollarının, 348 körpünün, 7568 kilometr su və 76940 kilometr elektrik xətlərinin dağıdılmasına səbəb oldu. Ermənilər ələ keçirdikləri ərazilərdə 12 muzeyi və 6 rəsm qalereyasını, tarixi əhəmiyyətli 9 sarayı qarət edərək yandırdılar. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 nəfər əsirlikdə öldürülmüşdür. Bir milyondan artıq insan qaçqın və məcburi köçkün şəraitində yaşamaqdadır.

Ermənistanın işğalçı siyasəti nəticəsində Azərbaycana aid cəmi uzunluğu 25 min km olan avtomobil yolu, yenə cəmi uzunluğu 3984 m olan 160 körpü, 14,5 min km uzunluğunda elektrik xətti, 2500 elektrik trafosu, 2 min km qaz boru xətti, 160 su deposu, 34-dən çox qaz paylama stansiyası erməni işğalçılar tərəfindən dağıdılmışdır. İşgal olunmuş ərazilərdə 140 min şagirdin oxuduğu600 məktəb, 53 min şagirdin təhsil aldığı 65 peşə məktəbi məhv edilib. 700 səhiyyə ocağı, bu baxımdan 800 nəfərlik xəstəxana, poliklinikalar, doğum evləri, aptek binaları, təcili yardım xəstəxanaları dağıdılmıştır. Səhiyyə dəyən ümumi ziyan 1,2 milyard dollara qədərdir [14].

Müharibə nəticəsində Azərbaycan Respublikası 22 milyard dollar məbləğində ziyana məruz qalıb. Qarabağ müharibəsi Azərbaycanı iqtisadi və sosial cəhətdən sarsıtdı. Yuxarıda qeyd etdiyimiz kimi, həyatlarını itirənlərin yarımçıq qalan ailələri, yaralananlar və əlil olanların gələcək həyatları və üzləşdikləri problemlər, qaçqınların və məcburi köçkünkərin həyat şəraitinin təmin olunması yeni yaranan dövlət üçün yetəri qədər ağır oldu. Digər tərəfdən təhsil və səhiyyə ocaqlarının dağıdılması özü də çətin vəziyyət yaratdı. Doğrudur bu vəziyyət əvvəlki illərə nisbətdə verilən qərarlar, qəbul edilən qanunlarla, görülən işlərlə həll olunub, lakin yenə də qayğıya ehtiyac vardır. Müharibələrin nəticəsində müasir Azərbaycan cəmiyyətinin sosial strukturunda məcburi köçkünlər və qaçqınlar kimi yeni bir təbəqə yaranmışdır.

Məlumdur ki, dövlət şəxsiyyətin hüquq və azadlıqlarının qorunması vasitəsi kimi çıxış edir və dövlət şəxsiyyətə onun hüquqi statusunu müəyyən etməklə təsir edir. Bu baxımdan dövlət bir sıra funksiyalarla yanaşı, ən böyük funksiyanı - sosial funksiyanı yerinə yetirir ki, bu da sosial dövlət ideyası ilə sıx surətdə bağlıdır. Respublikamızın 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edilsə də, bəzi digər dövlətlərin konstitusiyalarında olduğu kimi, sosial dövlət olması birbaşa təsbit olunmamışdır. Lakin Konstitusiyanın preambulasında ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq, hamının layiqli həyat səviyyəsini təmin etməyi, 12-ci maddəsində Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi kimi elan olunması və 16-cı maddəsində Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin edilməsinin qayğısına qalması kimi müddəaların təsbit olunması məhz onun sosial yönümlü dövlət olmasını əyani şəkildə göstərir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, sosial sahədə də bir çox köklü islahatlar həyata keçirməyə başladı: sosial funksiya dövlətimizin fəaliyyətinin əsasını təşkil etdi və sosial qanunvericilik təkmilləşdirildi. Sosial funksiyaların Konstitusiyada təsbiti bir daha onu sübut etdi ki, dövlətin əsasını təşkil edən əsas amillərdən biri də məhz sosial dəyərlərdir. Təbii ki, sosial funksiyanın bütün aspektlərini, konstitusiyada tapmaq mümkün deyildir. Lakin ayrı-ayrı normativ hüquqi aktlar ilə tənzimlənən sosial funksiyalar bütövlükdə konstitusion prinsiplərə əsaslanır [5, s. 13].

Dövlətin sosial funksiyası azad, hüquqi dövlət istiqamətində birgə yaşayış qaydalarını və layiqli həyat səviyyəsini ifadə edir. Dövlətin əsas inkişaf göstəricisi onun sosial funksiyasından asılıdır. Dövlətin inkişafı onun sosial məqsədinə çevrilmişdir. Sosial funksiya digər dövlət funksiyalarına nisbətən daim artan istiqamətdə inkişaf edir və bundan əlavə üstünlük təşkil edən funksiyalara çevrilirlər. Müasir dövlətlərin hər birinin konstitusiyalarında sosial funksiya öz əksini tapmışdır. Məhz dövlətlərin sosial funksiyaları konstitusion səviyyədə əks etdirmələrinin ən birinci səbəbi də bu münasibətlərə verdiyi əhəmiyyətlə əlaqədardır [5, s. 13].

Dövlətin sosial funksiyası vətəndaşların sosial təhlükəsizliyinin, layiqli həyat səviyyəsinin təmin olunmasına, onların əmək hüquqlarının dolğun şəkildə həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasına yönələn fəaliyyəti ifadə edir. Onun başlıca təyinatı aşağıdakılardan ibarətdir:

a) cəmiyyətdə mümkün sosial gərginliyi aradan qaldırmaq və ya azaltmaq;

b) insanların sosial vəziyyətini bərabərləşdirmək;

c) səhiyyəni, təhsili, mədəniyyəti inkişaf etdirmək;
ç) əmək qabiliyyətli əhalinin məşğulluğunu təmin etmək;
d) dövlət dəstəyinə ehtiyacı olanların sosial müdafiəsini həyata keçirmək;
e) ictimai rifahı təmin etmək.

Məhz dövlətin sosial funksiyası dövlətin sosial sferada hakimiyyətini reallaşdıran əsas funksiyalarından biridir. Bu funksiyanın məzmununa vətəndaşların normal həyat şəraitinin təmin olunması, cəmiyyətin davamlı inkişafı, sosial müdafiənin effektiv sisteminin yaradılması daxil edilir. Sosial funksiya vətəndaşların sosial dəstəklənməsi və onlara sosial xidmətlərin təqdim olunmasıüzrə kompleks tədbirlərdən istifadə edən ən aktual funksiyalardan biri hesab olunur. Bu zaman söhbət, ilk növbədə, elə kateqoriya vətəndaşların normal həyat şəraitinin təminolunmasından gedir ki, onlar müxtəlif obyektiv səbəblərə görə tam şəkildə əmək fəaliyyəti ilə məşğul ola bilmirlər – təqaüdçülər, fiziki çatışmazlığı olanşəxslər, tələbələr və s. [8, s. 4].

Sosial təhlükəli vəziyyətdə olan şəxslər içərsində məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərxüsusi yer tuturlar. Lakın bu kateqoriyadan olan şəxslər içərsində sosial təhlükəli vəziyyətdə olanlara əsasənsıx müvəqqəti məskunlaşma yerlərində (keçmiş yataqxana, müalicə pansionatları və digər binalarda) faktiki yaşayan məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər aiddirlər.“Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasının qanunu məcburu köçkünlər barəsində aşağıdakı sosial müdafiə tədbirlərini təsbit etmişdir:

- müvəqqəti yaşayış sahəsi ilə təmin edilməsi;
- məşğulluğun təminatı;
- sosial təminat;
- tibbi təminat;
- təhsil hüququnun təmin edilməsi;
- nəqliyyat və mənzil-kommunal güzəştləri;
- vergi güzəştləri [12].

Bütün dünya miqyasında əhalinin yuxarı, orta və yoxsulluq həddindən aşağı olan təbəqələrə bölünməsi bir meyar kimi qəbul edilir. Əhalinin orta təbəqəsi çox olan dövlətlər daha inkişaf etmiş dövlətlər hesab olunur və bu dövlətlərin sosial siyasəti uğurlu siyasət kimi qiymətləndirilir. Orta təbəqənin mövcud olması fikri həmişə mütəfəkkirləri maraqlandırıb. Cəmiyyətdə varlılar və kasıblar arasındakı fərq, maraqlarındakı ziddiyyətlərin nəticəsi olaraq, onlar arasındakı mübarizə artıq antik dövr filosoflara da bəlli idi. Platon, Aistotel insanların hakim və yoxsul təbəqələrə bölünməsini təbii sayaraq, bir çox tarixi proseslərin səbəblərini onlar arasındakı mübarizədə görürdü. Siniflərin mövcudluğu faktı hələ antik dövrdən məlum olsa da, cəmiyyətin siniflərə bölgüsü insanların təbəqə, kasta və digər bölgü sistemi ilə pərdələnirdi.

Belə ki,silki sistemə və kastaya malik quldarlıq cəmiyyətində insanlar hansı təbəqəyə aid olduğunu dəqiq bilirdilər. İnsanların hansısa silkə və ya təbəqəyə aid olması, onların özlərindən asılı olmayan əlamətlərə - ailə, din, cəmiyyətdə hakim qanunlar, ənənələr və s. əsasən müəyyənləşirdi. Buna görə də belə cəmiyyətlərdə status “anadangəlmə” hesab olunurdu. Cəmiyyətin sırf sinfi strukturu isə daha mürəkkəbdir. Heç kim fərdin hansısa sinfə, təbəqəyə aid olmasını əvvəlcədən müəyyənləşdirə bilməz. Bunun üçün alimlər tərəfindən statistika nəticələri və ya sosial strukturun xüsusiyyətlərini ifadə edən göstəricilər hazırlanır. Fərdin cəmiyyətin sosial strukturundakı yerini müəyyənləşdirmək üçün istifadə olunan obyektiv və subyektiv metodlar da bu məqsədə xidmət edir [4, s. 22].

“Əmək pensiyaları haqqında”, “Sosial müavinətlər haqqında”,“Sosial xidmət haqqında”, “Ünvanlı dövlət sosial yardımı haqqında”,"Əlilliyi olan şəxslərin hüquqları haqqında”və s. Azərbaycan Respublikası qanunları əhalinin. əsasəndə sosial təhlükəli vəziyyətdə olanların sosial vəziyyətinin yaxşılaşdırılmasına səbəb olmuşdur. Ötən dövrdə həyata keçirilən uğurlu sosial

siyasət əhalinin sosial müdafiəsinin gücləndirilməsi, həssas qruplardan olan vətəndaşlara dövlət qayğısının artırılması sahəsində ardıcıl şəkildə mühüm addımların atılmasını təmin edib.

Azərbaycan dövlətinin uğurlu sosial siyasəti nəticəsində ölkəmizdə daim güclənən sosial təminat sisteminin əhatə etdiyi əhali qruplarından biri də sosial təhlükəli vəziyyətdə olan uşaqlardır. Ölkəmizdə 10-dan çox sosial müavinət növü vardır ki, məhz uşaqların sosial müdafiəsinə yönəlib. Belə ki, hazırda sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar, şəhid ailələrinin və müharibə əlillərinin, beşdən çox uşağı olan qadınların, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları, valideyn himayəsindən məhrum olmuş uşaqlar aylıq sosial müavinətlə təmin edilirlər. Həmçinin aztəminatlı (ünvanlı dövlət sosial yardımı alan) ailələrin 1 yaşadək uşaqlarına aylıq sosial müavinət, yeni doğulan uşaqlara görə isə birdəfəlik müavinət ödənilir. Çernobıl AES qəzasınəticəsində I və II qrup əlil olmuş, yaxud vəfat etmiş valideynlərin uşaqlarına, habelə Çernobıl qəzası nəticələrinin aradan qaldırılması iştirakçılarının dispanser qeydiyyatında olan uşaqlarına da müavinət verilir.

Ailə başçısını itirmiş ailələrə də aylıq sosial müavinət və ya əmək pensiyası ödənilir ki, həmin ailələrin üzvlərinin böyük əksəriyyətini, habelə ünvanlı sosial yardım alan ailələrin üzvlərinin 50 faizdən çoxunu uşaqlar təşkil edir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumları (himayəçiləri) aylıq sosial müavinətlə təmin edilirlər. Sığortaolunanlara da üç yaşınadək uşaqlara qulluğa görə müavinət ödənilir.

Qeyd olunan müavinətlərin mütəmadi olaraq artırılması təmin edilir. Azərbaycan Respublikasının Prezidentinin 25 fevral 2019-cu il tarixli Sərəncamı bu istiqamətdə növbəti və əhəmiyyətli addımın atılmasına imkan verib. Belə ki, Sərəncama əsasən, 2019-cu ilin aprelin 1-dən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün müavinətin məbləği 82 manatdan 150 manata çatdırılmaqla, həmin uşaqlara qulluq edənlər üçün də Prezidentin aylıq təqaüdü (50 manat) təsis edilib. Eyni zamanda, Sərəncamla beşdən çox uşağı olan qadınların hər uşağına görə müavinət 33 manatdan 55 manata, müddətli həqiqi hərbi xidmət qulluqçularının uşaqları üçün hər uşağa görə müavinət 68 manatdan 100 manata, uşaqların qəyyumları (himayəçiləri) üçün müavinət 61 manatdan 100 manata, ailə başçısını itirməyə görə müavinət hər ailə üzvü üçün 68 manatdan 80 manata, yeni doğulan uşaqlara görə birdəfəlik müavinət109 manatdan 200 manata çatdırılıb.

Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2018-ci il tarixli Fərmanı Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST Agentliyi) və“DOST” mərkəzlərinin yaradılmasına imkan verib. DOST layihəsi dövlət sosial xidmətlərinin innovativ yanaşmalar əsasında modern və çevik, tam şəffaf mexanizmlər üzərində qurulması ilə ölkəmizin bu sahədə yeni brendini formalaşdırmağa imkan verəcək.Ötən il ikiDOST mərkəzi, bu il ərzindəisəBakıda ümumən 3 və 2019-2025-ci illərdə Bakı və respublikamızın regionları üzrə 31 belə mərkəz yaradılacaqdır. Pensiya təyinatı üzrə xidmətlərin avtomatlaşdırılmış şəkildə qurularaq məmur-vətəndaş təması olmadan tam şəffaflaşdırılması, vətəndaşların onlar barədə bütün sosial məlumatlara və xidmətlərə əlçatanlığını təmin edən “E-sosial” internet portalının qurulması, vahid məşğulluq portalının vacib komponenti kimi “Məşğulluq alt-sistemi”nin yaradılması həyata keçirilmişdir.

Sosial təhlükəli vəziyyətdə olanlara, əsasəndə əlilliyi olan şəxslərəmünasibətdə həyata keçirilən sosial siyasətin istiqamətləri olduqca mühüm əhəmiyyət kəsb edir.

Əlilliyi olan şəxslərin qayğı ilə əhatə olunması sahəsində Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu kateqoriyadan olan vətəndaşların sosial müdafiəsinə, onların reabilitasiyasına və cəmiyyətə inteqrasiyasına xüsusi qayğısı nəticəsində ildən-ilə güclənir. Dövlət başçısı “Mən çox istəyirəm ki, Azərbaycanda yaşayan bütün əlillər cəmiyyətdə fəal rol oynasınlar. Yəni, onlar cəmiyyətdən təcrid edilmiş vəziyyətə düşməsinlər” deyə bəyan edib[13].

Hazırda ölkəmizdə 600 mindən çox əlilliyi olan şəxs[10] vardır və əlilliyi olan şəxslər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən əlilliyə görə əmək pensiyası və ya pensiya

hüququ olmadıqda aylıq sosial müavinət alırlar. Sağlamlıq imkanları məhdud uşaqlara da aylıq müavinət verilir.

Müharibə əlilləri və onlara bərabər tutulanlar, eyni zamanda I dərəcə əlilliyi olan şəxslərəlilliyə görə əmək pensiyası və ya aylıq sosial müavinətlə yanaşı,Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüdü ilə təmin olunurlar. Müharibə əlilləri və onlara bərabər tutulan şəxslərin uşaqları aylıq sosial müavinətlə, radiasiya qəzası nəticəsində zərər çəkərək əlil olmuş şəxslər hər il müalicə üçün birdəfəlik müavinətlə təmin edilirlər.Eyni zamanda, şəhid ailələri ilə bərabər, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı həyata keçirilir. Hal-hazıradək Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə7165 mənzil və fərdi ev təqdim edilib [10].

Ölkəmizdə əlilliyi olan şəxslərin rifahında mühüm rol oynayan və onlara dövlətin böyük dəstəyinin təzahürü olan proqramlardan biri də ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi olan şəxslərin minik avtomobilləri təminatıdır. Hal-hazıradək həmin kateqoriyadan olan vətəndaşlara 6400-dək minik avtomobili verilib[10].

Heydər Əliyev Fondu tərəfindən də əlilliyi olan şəxslərin şəxslərin reabilitasiyasına mühüm töhfələr verilir. Fondun dəstəyi ilə Bakının Yeni Günəşli yaşayış massivində Xüsusi Qayğıya Ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi yaradılıb ki, burada sınanmış reabilitasiya metodları əsasında sağlamlıq imkanları məhdud uşaqlara bərpa xidmətləri göstərilir.Fondun dəstəyi ilə 1 saylı və 2 saylı Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial xidmət müəssisələrində ən müasir tələblərə uyğun yaşayış və reabilitasiya şəraiti yaradılıb. Hər iki müəssisədə5-18 yaşlarında 339 uşaq daimi dövlət təminatındadır.

Onlara müəyyən edilmiş rejimə və fərdi iş planına uyğun xidmət və qayğı göstərilir, onlarla mədəni-kütləvi iş aparılır, həmin uşaqların abilitasiyası və reabilitasiyası həyata keçirilir.Heydər Əliyev Fondunun mühüm sosial layhələrindən biri kimi ölkəmizin müxtəlif bölgələrdə Regional İnformasiya Mərkəzləri yaradılıb ki, bu mərkəzlər əlilliyi olan şəxslərin İKT-dən istifadə imkanlarına malik olmalarında mühüm önəm kəsb edir.Fond tərəfindən əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud uşaqlara qayğının artırılmasına yönələn xeyirxah aksiyalar, həmin insanların cəmiyyətə inteqrasiyasına yaradıcılıq qabiliyyətlərinin cəmiyyətə tanıdılmasına, onlarda özünəinam hissinin yüksəlməsinə xidmət edən ardıcıl nəcib layihələrkeçirilir[11].

Azərbaycan Respublikasının Prezidentinin"Xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin genişləndirilməsi üçün əlavə tədbirlər haqqında" 1 iyun 2019-cu il tarixli Sərəncam xüsusi qayğıya ehtiyacı olan uşaqlara və digər şəxslərə göstərilən sosial xidmətlərin istiqamətlərinin və əhatə dairəsinin dəfələrlə genişləndirilməsinə imkan yaradıb. Sərəncamın icrası işləri çərçivəsində əsasən ölkəmizin bölgələrində olmaqla yeni sosial xidmət və reabilitasiya mərkəzləri yaradılıb. Nəticədə günərzi qayğı mərkəzlərinin sayı 28-dən 70-ə, icma əsaslı sosial reabilitasiya mərkəzlərinin sayı 22-dən 49-a, autizm və daun sindromlu uşaqlar üçün psixoloji yardım mərkəzlərinin sayı 1-dən15-ə, eşitmə və nitq qabiliyyəti zəif olan sağlamlıq imkanları məhdud uşaqlar üçün reabilitasiya və surdoloji xidmət mərkəzlərinin sayı 2-dən 10-a, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzlərinin sayı 1-dən 15-ə, görmə imkanları məhdud uşaqlar üçün sosial reabilitasiya mərkəzlərinin sayı 1-dən 3-ə çatdırılıb.

Sağlamlıq imkanları məhdud uşaqlarla davranış üzrə valideynlərə dəstək üzrə 10 mərkəz, əlilliyi olan şəxslər üçün 10 peşə-sosial reabilitasiya mərkəzi və s. yaradılıb. Ümumilikdə nazirliyin sosial sifarişləri əsasında icra olunan reabilitasiya yönümlü sosial xidmət layihələri üzrə xüsusi qayğıya ehtiyacı olan uşaqlar və digər şəxslər üçün sosial xidmət mərkəzlərinin sayı 3,5 dəfə artıb və hazırda 200-ə yaxın mərkəz tərəfindən əsasən uşaqlardan, o cümlədən sağlamlıq imkanları məhdud uşaqlardan ibarət 10 minədək şəxsə xidmətlər göstərilir.

İşsiz və işaxtaran şəxslərin əmək müqaviləsi əsasında ödənişli ictimai işlərlə təminatında mühüm rola malik olan "İşsizin DOSTu" proqramı çərçivəsində bu il 40 minədək şəxsişlə təmin edilib və proqrama cəlb edilmək üçün müraciət edənlər arasında üstünlük verilən sosial təhlükəli vəziyyətdə olanlardan biri də əliliyi olan şəxslərdir.Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti orqanları və ƏƏSMN yanında DSMF-nin 1 saylı Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi tərəfindən əlilliyi olan şəxslər müxtəlif peşə hazırlığına cəlb edilirlər.

Mərkəz fəaliyyətə başladıqdan bəri isə 1800 gənc peşə kurslarına cəlb edilib. Peşə Reabilitasiya Mərkəzində peşə təlimi müddətində gənclər dövlət hesabına yataqxana, yemək, tibbi-fizioterapevtik xidmət ilə təmin olunur və kursları bitirdikdən sonra onlara peşə şəhadətnamələri verilir. Onlar mərkəzdə inteqrasiya məqsədli çoxşaxəli tədbirlərə də cəlb olunurlar. Bu müəssisə ümumən sağlamlıq imkanları məhdud gənclərin həyatında müsbət dönüş yaradır.

Özünüməşğulluq proqramına cəlb edilmək üçün müraciət edənlər arasında üstünlük verilən sosial cəhətdən həssas kateqoriyalardan biri də əlilliyi olan şəxslərdir. 2018-ci ildəmüraciət edən əlilliyi olan şəxslərdən özünüməşğulluq fəaliyyətini və kiçik biznesini qurmaq üçün potensialları olan 1000 nəfərdən çox nəfər əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb olunub. 2019-cu ildə də bu sahədə işlər aparılır, ilin əvvəlindən bəri proqrama cəlb edilən əlilliyi oan şəxslərin sayı artıq 2 mini ötüb və hazırda da işsiz və işaxtaran şəxslərin proqrama cəlb edilməsi işləri davam edir. Eyni zamanda, hazırda daha 500 nəfər əlilliyi olan şəxsin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının birgə icra etdiyi"Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi çərçivəsində özlərinə dayanıqlı biznes qurmaları üçün işlər aparılır.

Beləliklə, bütün qeyd edilənlərin təhlili və ümumiləşdirilməsi əsasında aşağıdakı nəticələrə gəlmək olar:

I. Dövlətin sosial funksiyası onun fəaliyyətinin əsas istiqamətlərindən biri olub, vətəndaşların sosial dəstəklənməsi və onlara sosial xidmətlərin təqdim olunmasıüzrə kompleks tədbirləri özündə əks etdirir, vətəndaşların layiqli həyat səviyyəsini və bütövlükdə cəmiyyətdə sosial ədaləti təmin edir.

Dövlətin sosial funksiyasının aşağıdakı ümumi xüsusiyyətlərini qeyd etmək olar:

- sosial funksiya müasir dövlətin mühüm daxili funksiyalarından biridir;
- sosial funksiya cəmiyyətin hər bir üzvünün normal yaşayış səviyyəsinin təmin olunmasına yönələn dövlət fəaliyyətidir;
- sosial funksiya vətəndaşların sosial dəstəklənməsi və onlara sosial xidmətlərin təqdim olunmasıüzrə kompleks tədbirləri özündə əks etdirir;
- sosial funksiyanın əsas təyinatı ümumi rifahı təmin etməkdir;
- bu funksiya cəmiyyətdə sosial bərabərsizliyi mümkün qədər azaltmağa yönəlmişdir;
- bu funksiya iqtisadi resurslardan rasional istifadə edilmədən səmərəli şəkildə həyata keçirilə bilməz.

II. Dövlətin sosial funksiyası sosial təhlükəli vəziyyətdə olan vətəndaşlara münasibətdə onların sosial təhlükəsizliyinin, layiqli həyat səviyyəsinin təmin olunmasına,əmək hüquqlarının dolğun şəkildə həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasına yönələn fəaliyyəti ifadə edir. Dövlətin sosial sisteminin sosial təhlükəli vəziyyətdə olan şəxslərə münasibətdə başlıca təyinatı aşağıdakılardan ibarətdir:

a) onların sosial təhlükəsizliyini təmin etməklə cəmiyyətdə mümkün sosial gərginliyi aradan qaldırmaq və ya azaltmaq;

b) sosial təhlükəli vəziyyətdə olaninsanların sosial vəziyyətini bərabərləşdirmək;

c) həmin şəxslərinsəhiyyə və təhsilə əlçatımlığını təmin etmək;

ç) onların məşğulluğunu təmin etmək;

d) onlarınsosial müdafiəsini (pensiya, müavinət, ünvanlı sosial yardım, sosial xidmət və s.) həyata keçirmək;

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2018, 100 s.
2. Abdullayeva R. Sosial sferanın iqtisadiyyatı. Bakı:2009, "Meqa-H" nəşriyyatı, s.187 -237 s.)
3. Bağırlı A.H. Azərbaycan cəmiyyətinin sosial strukturundaaztəminatlı ailələrin yeri və rolu. Sosiologiya üzrə fəlsəfədok. dis. …avtoreferatı, Bakı:, 2017,29 c.
4. Hacıyev O. Orta sinif: formalaşması, inkişafı, perspektivləri// Bakı Universitetinin Xəbərləri (sosial-siyasi elmlər seriyası), 2009, s.19-27
5. İbrahimovaA.N.Azərbaycan dövlətinin sosial funksiyası: hüquqi aspektlər. Bakı: Bakı Universiteti nəşriyyatı, 2018, 196 c.
6. Rəcəbli H.M. Azərbaycan Respublikasının sosial müdafiə sistemi. Bakı: MBM,2012, 418 s.
7. Буянова М.О. Социальное обслуживание граждан России в условиях рыночной экономики: Дисс. … докт. юр. наук. М., 2003, 325 с.
8. Косов Р.В. Основы социального государства. Тамбов:Издательство ФГБОУ ВПО «ТГТУ», 2011, 80 с.

9. Права человека. Учебник для вузов / Отв. ред. Е.А. Лукашева. М.: Норма, 2000, 573 с.
10. http://www.e-sosial.gov.az
11. www.heydar-aliyev-foundation.org/az/content/index/47
12. www.e-qanun.az
13. www.president.az/articles/
14. http://www.movqe.az/news/sosial/72291.html\


### AZƏRBAYCANDA SOSİAL TƏHLÜKƏLİ VƏZİYYƏTDƏ OLANLARLA BAĞLI APARILAN SOSİAL SİYASƏTİN ƏSAS İSTİQAMƏTLƏRİ

### XÜLASƏ


Bu məqalədə Azərbaycanda sosial təhlükəli vəziyyətdə olanlarla bağlı aparılan sosial siyasətin əsas istiqamətləri araşdırılmışdır. Müəllifin fikrincə,dövlətin sosial funksiyası sosial təhlükəli vəziyyətdə olan vətəndaşlara münasibətdə onların sosial təhlükəsizliyinin, layiqli həyat səviyyəsinin təmin olunmasına,əmək hüquqlarının dolğun şəkildə həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılmasına yönələn fəaliyyəti ifadə edir. Məqalədə sosial təhlükəli vəziyyətdə olanlarla bağlı aparılan sosial siyasətin əsas istiqamətləri kimi onların səhiyyə, təhsil, sosial müdafiə, sosial xidmət və s. məsələlər təhlil edilir.


### ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОЦИАЛЬНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ, СВЯЗАННЫЕ С ЛИЦАМИ, НАХОДЯЩИМИСЯ В СОЦИАЛЬНО ОПАСНОЙ СИТУАЦИИ

### АННОТАЦИЯ


В данной статье рассматриваются основные направления социальной политики государствапо отношению к лицам, находящимся всоциально опасной ситуации. По мнению автора, социальная функция государства выражает мероприятия, направленныена обеспечение достойного уровня жизни и создание благоприятных условий для полной реализации трудовых прав по отношению к социально уязвимым гражданам. В статье анализируются вопросы здравоохранения, образования, социальной защиты, социальных услуг и других ключевых направлений социальной политики в отношении социально уязвимых людей.


### THE MAIN DIRECTIONS OF SOCIAL POLICY IN AZERBAIJAN RELATED TO PERSONS IN SOCIALLY DANGEROUS SITUATIONS

### SUMMARY


This article discusses the main directions of the state social policy in relation to persons in socially dangerous situations. According to the author, the social function of the state expresses measures aimed at ensuring a decent standard of living and creating favorable conditions for the full realization of labor rights in relation to socially vulnerable citizens. The article analyzes the issues of health care, education, social protection, social services and other key areas of social policy in relation to socially vulnerable people.

# МИР НАНОТЕХНОЛОГИЙ И СОЦИАЛЬНОЕ ОБЩЕСТВО

***Турал Исмаилзаде***
***Магистрант II-го курса БГУ***
***infoismayilzade@gmail.com***

***Ключевые слова:*** Covid-19, глобализация, четвертая промышленная революция, Новый Мир, социальная изоляция, цифровой мир.
***Açar sözlər:*** Covid-19, qloballaşma, dördüncü sənaye inqilabı, Yeni Dünya, sosial izolyasiya, rəqəmsal dünya.
***Keywords:*** Covid-19, globalization, fourth industrial revolution, New World, social isolation, digital world.

Мир, в котором мы живём, в нынешний день сильно изменился под влиянием глобализации и благодаря нанотехнологиям через несколько лет он станет неузнаваемым. Постоянные изменения сильно влияют на мировую экономику и по новым принципам происходит автоматизация сферы. В будущем центральное место в экономике займет не человек, а компьютеры. Фантастические сюжеты футурологов уже становится реальностью мира.

Разработки нанотехнологий в период пандемии "Covid-19" усиливаются и меняются технологии во всех сферах, в том числе и в социальной сфере. Лидерами инвестиций в этой области наноразработок являются США, Германия, Северная Корея, Япония и Китай. Доля Азербайджана, как и других постсоветских стран на мировом рынке нанотехнологий отсутствует [1].

Развитие нанотехнологий определит будущее мира. Эксперты в этой сфере прогнозируют максимальную мировую информационную открытость и отсутствие границ между отраслями социальной сферы, не будет проблем с продвижением на рынке новых разработок. Впервые развитие технологий позволит устранить преграды между инноваторами и экономическим рынком и эти нанотехнологии достигнут своего пика развития.

Сейчас ожидается новая технологическая революция, которую называем четвертой промышленной революцией. Это будет мир «Роботов и верных рабов нанотехнологий – изолированных людей».

В будущем Новый Мир будет то место, в котором каждый житель планеты получит доступ к минимальному прожиточному уровню жизни, будет обеспечен нанокапсулами питаниями, будет иметь определенные жизненные критерии и нормы, но в рамках своего места передвижения и жительства и без разрешения органов правопорядка никто не сможет их покинуть.

Социальная иерархия при пиковом развитии нанотехнологий переживёт значительную генетическую трансформацию. Во главе всех изменений будет стоять создатель новых образцов – человек-творец. С целью улучшения своего материального положения будут использовать свои творческие способности, создать новые образцы, модели, дизайны нового мирового порядка [2].

С помощью нанотехнологий всемирная экономика переживёт всеобщее изобилие. Главную ценность в таком порядке будут занимать две вещи:

- ✓ творческие идеи человека;
- ✓ человеческая энергия.

В нынешний день создаются фундаменты Нового Мира и при этом человечеству придётся пережить очень сильный психологический момент, связанный с его физическими и материальными особенностями.

Процесс глобализации сможет выжить только люди с высшим разумом, и они наступят на совершенно новый уровень своего развития. Ожидается создание нового современного человеческого вида «*Homosapiens», которого мы считали* вершиной человеческого создания. Таким образом человек разумный станет одним из звеньев нанотехнологической эволюции [3].

В новом мировом порядке будут создаться физически более сильные и могущественные граждане мира и эти новые люди будут освоить космическое пространство, заселить другие планеты и получить бессмертие.

Но надо иметь ввиду, что нанотехнологический прогресс сможет нести в себе и огромные риски и угрозы. А что будет, если появиться новая форма социального неравенства – двухклассовые нанотехнологические неравенства в обществе или верховенство нанотехнологий над людьми?

Созданием безлицензионных роботов Нового Мира можно создать новое оружие против человечества, которых можно отравить, заразить каким-то вирусом. Применение такого вида оружий практически реально.

Особенно опасны для будущих поколений самореплицирующиеся нанороботы, находящиеся в стадии разработки, способные к размножению. Американский ученый Э.Дрекслер в своей книге «Машины созидания» написал об опасности этих молекулярных роботов [4].

Развитием нанотехнологий создаются также и огромные возможности для кибершпионажа, кибератак и кибербуллинга, кражи информации и вмешательства в личную жизнь человека.

С каждым днём усиливается мир без границ и тотальный контроль над людьми, формируется новая, чрезвычайно могущественная элита Нового Мира, способная удерживать власть тысячелетиями.

В нынешний день человечество переживает такой период, что люди испытывают сильное нанотехнологическое давление, что ускоряет четвертую промышленную революцию. Явным примером можно назвать размывание границ между физическим, цифровым и биологическим миром людей [5].

Чрезвычайное положение в промышленной революции вынуждает нас осознать особенности структурой перестройки Нового Мира. Человечество должно оценить активное использование нанотехнологий 21 века:

- ✓ развитие искусственного интеллекта и интернета вещей;
- ✓ развитие социальной медии на основе цифровых платформ;
- ✓ развитие виртуальной (голограммной) реальности;
- ✓ использование дронов и 3D-печати в разных сферах жизнедеятельности;
- ✓ развитие и внедрение в нашу жизнь 5G технологий.

Такое нанотехнологическое развитие ведёт мир к тому, что для обшей экономической выгоды, новейшие нанотехнологии заставляют нас изобретать новые способы их использования.

Сейчас по всему миру в условиях социальной изоляции и ограничения передвижения живут и страдают от карантина более 7 миллиардов людей, которые вынужденно перешли в цифровую форму деятельности, чему они сопротивлялись десятилетиями.

Сейчас с помощью видеоконференций полтора миллиарда населения мира на дистанционном общении проводят совместную работу. Организации осваивают эти

нанотехнологий и развивают свои бизнес-модели, открывают для себя новые технические возможности.

Нанотехнологический взрыв в период «Covid-19» заставил человечество вступить на неизведанную территорию дигитального мира, где формируются современные граждане Нового Мира - идентифицированные наносущества, которые переделывают окружающую среду под собственные нужды. В связи с тем, что человечество выступает как доминирующая сила изменения экосистемы планеты, нынешнюю эру называют “антропоценом” [6].

Главной проблемой людей в этих условиях является проблема адаптации к нано изменениям. Специалисты утверждают, что не все люди в состоянии пережить такие изменения, а те, которые сумеют успешно адаптироваться, будут процветать в условиях ускоренной технической революции.

Глобальные изменения с лучшей стороны повлияло на состояние экологии. Рейчел Карсон (1907–1964), Донелла Медоуз (1941–2001), Дороти Стоуи (1920–2010), Гаура Деви (1925–1991), Франсуаза Добон (1920 –2005), Келли Петра (1947–2005), Вандана Шива (1952), Светлана Алексиевич (1948) и другие более ста лет боролись за сохранение экологического и улучшения состояния мира. И только сейчас, в период пандемии произошло резкое сокращение выброса углеводородов и озоновый слой начал «дышать» [7].

Сейчас для всего мира важным является стимулирование экономики, чтобы в ходе нанотехнологической революции дать людям новые профессии и поддержать тем самым мировую “зелёную экономику” [8].

Чтобы разобраться с последствиями пандемии и восстановиться после кризиса, нужно строить сильные сотрудничества между компаниями и освоить основные потребности мира, в котором приоритетом считается совместный вклад в общественные блага. Такая интеграция людей в нанотехнологический мир должна дать участникам рынка нового мирового порядка возможность более эффективной и стабильной совместной работы.

Именно нанотехнологии помогут людям преодолеть их проблемы и уменьшит социальное неравенство, будут подготовить общество к неизвестным последствиям климатических изменений и привести окружающий мир в более устойчивое состояние.

Сейчас для всего человечества пандемия является важным этапом перехода к Новому миру, которая открывает перед ним беспрецедентное окно возможностей, использование которых вполне индивидуальный вопрос.

## ЛИТЕРАТУРА


1. https://lenta.ru/articles/2008/05/16/nano/;
2. http://gazetanasledie.ru/news/chelovek-tvorets-i-sozdatel-sv/;
3. https://www.alpinabook.ru/catalog/book-585101/;
4. http://kbogdanov5.narod.ru/3.htm;
5. https://www.rbc.ru/trends/industry/5e740c5b9a79470c22dd13e7;
6. https://iidx.ru/uslugi/;
7. https://ecoidea.by/ru/article/3937;
8. http://greeneconomy.minpriroda.gov.by/ru/zelenaya-economika/.


## АННОТАЦИЯ


Статья представляет собой различные ракурсы развития и применения нанотехнологий в разных сферах общественной жизни.

Особо выделяя новые модели развития мира в после кризисный период, рассмотрели те стороны социальных и технологических влияний, которые непосредственно связаны с нашим будущем.

## XÜLASƏ

Məqalə özündə nanotexnologiyaların həyatın müxtəlif ictimai sahələrində inişafını və tətbiqini əks etdirir.

Böhran dövründən sonra dünyanın yeni inkişaf modellərini xüsusi ilə vurğulayaraq, birbaşa gələcəyimizlə bağlı olan sosial və texnoloji təsirlərin tərəflərinə nəzər yetirmişik.

## SUMMARY

The article presents various perspectives of the development and application of nanotechnologies in various areas of public life.

We highlighted new development models for the world in the post-crisis period, and reviewed those aspects of social and technological impacts that are directly associated with our future.

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD İNSANLARIN SOSİAL MÜDAFİƏSİ İLƏ BAĞLI QANUNVERİCİLİK BAZASI

***Rəcəbəli Əliyev, f.ü.f.d., Bakı Dövlət Universiteti,***
***Sosioloji tədqiqatlar laboratoriyası, baş elmi işçi***

***Açar sözlər*:** sağlamlıq imkanları məgdud insanlar, Azərbaycan, hüquqi baza, sosial siyasət.
***Keywords***: people with disabilities, Azerbaijan, legal framework, social policy.
***Ключевые слова***: люди с ограниченными возможностями, Азербайджан, правовая база, социальная политика.

Əlillərin bir çoxu uğurla işləyirlər və cəmiyyətə tam inteqrasiya olunsalar da, ümumiyyətlə, qeyri-mütənasib olaraq yoxsulluq və işsizliklə üzləşirlər. Bu insanların iş yerlərindən çıxarılması cəmiyyət üçün dünyada 1.37-1.94 trilyon ABŞ dolları dəyərində itkilərə və ÜDM-in illik azalmasına səbəb olur. Bununla birlikdə əlilliyi olan kişilər və qadınlar cəmiyyətin faydalı üzvləri olmaq istəyərlər və edə bilərlər.

Əlillər də daxil olmaqla hamının layiqli işlə təmin olunması BƏT-in əsas vəzifəsidir. BƏT, əlilliyi olan insanların peşə reabilitasiyası və məşğulluq xidmətləri proqramlarına bərabər diqqət yetirməklə bərabər imkanlar əsasında bacarıq və məşğulluq səviyyəsini artırmaq üçün çalışır. Əlillik məsələsi insan hüquqları problemi kimi göründüyü üçün ayrı-seçkilik etməmək prinsipinə çox diqqət yetirilir. BƏT beynəlxalq əmək standartlarının təbliği, əlilliyi olan insanların təlim və məşğulluğu, habelə texniki əməkdaşlıq barədə biliklərin təşviqi və toplanması yolu ilə bu məqsədə töhfə verir.

Subregionun bir çox ölkələrinin hökumətləri də beynəlxalq əmək standartlarına uyğun olaraq əlillərin sosial inteqrasiyasını dəstəkləyir. Onların əmək bazarına inteqrasiyası kvota / cəza sistemlərindən istifadə edərək işəgötürənləri stimullaşdırmaq və ya onlar üçün xüsusi iş yerləri yaratmaqla məşğulluq formasını alır. Bu prosesi gücləndirmək üçün BƏT bu insanlara layiqli məşğulluq imkanlarını təmin etməyə yönəlmiş siyasət tövsiyəsi hesabatının hazırlanması təşəbbüsünü irəli sürdü.

Məruzənin məqsədi əlilliyi olan insanları ayrıseçkilikdən qorumaq, onlara peşə təhsili və təhsili, peşə reabilitasiyası və məşğulluq zəmanətlərini vermək üçün qərar qəbul edənlərə və hökumətlərin, işəgötürənlərin və işçilərin nümayəndələrinə qanunvericilikdə düzəlişlərin aktual mövzularında siyasi məsləhət verməkdir.

Məruzənin tövsiyələri peşə təhsili və təhsili, peşə reabilitasiyası, vasitəçilik xidmətləri və əlillərin məşğulluğunu təmin edən qurumların potensialının gücləndirilməsinə yönəldilmişdir. Bundan əlavə, hesabatda əlilliyi olan insanların məşğulluğunun artırılması üçün peşə reabilitasiya sistemlərinin və proqramlarının səmərəliliyinin artırılması və genişləndirilməsi barədə məlumatlar verilir.

Azərbaycan, Qırğızıstan və Tacikistan, 159 saylı Əlilliyi olan şəxslərin Peşə Reabilitasiyası və Məşğulluğu haqqında BƏT Konvensiyasını ratifikasiya etdi. Azərbaycan və Türkmənistan BMT-nin Əlillərin Hüquqları Konvensiyasını ratifikasiya etdilər.

Əhalinin sosial rifah halının yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi və bütün təbəqələr üzrə, xüsusilə də sağlamlıq imknaları məhdud olan insanlara dövlət tərəfindən qayğının göstərilməsi vacib məsələlərdəndir.

Sağlamlıq imkanları məhdud əlil və uşaqların barəsində dövlət siyasəti əsas etibarı ilə Əmək və Əhalinin Sosial Müdafiə nazirliyi və Səhiyyə nazirliyi tərəfindən aparılır. Saölamlıq imkanları məhdud olan əlil və uşaqların problemlərini aradan qaldırılması, reabilitasiya, həyatın bütün sahələrində digər vətəndaşlarla bərabər imkanların yaradılması, səlahiyətli qurumun yaradılması ilə əlaqəlidir və lazımi şəraitin yaradılmasına təminat verir.

BMT tərəfindən qəbul olunan hüquq bəyannaməsinə, ölkə konsitutusiyasına görə və "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reablitasiyası və sosial müdafiəsi" haqqında Azərbaycan Respublikası qanuna görə Azərbaycan Respublikasında əlillər və saölamlıq imkanları məhdud uşaqlar siyasi, iqtisadi və sosial şəxsi hüquq və azadlıqlara malikdirlər və hər hansı ayrı seçkiliyə yol vermək qəti qadağandır.

Azərbaycan Respublikası Prezidenti İ.Əliyev tərəfindən "Əlilliyi və sağlamlıq imknanlarının məhdudluğunun qiymətləndirilməsi haqqında" 14 sentyabr 2015-ci il tarixli Fərmanı adı çəkilən təbəqənin həyat şəraitinin yaxşılaşdırılmasına və sağlamlaşdırılmasına yönəlmişdir. Belə ki, pensiya işlahatları əlilliyə görə əmək pensiyalarının orta aylıq məbləği 1 Yanvar 2006-cı il tarixində 32,3 manat olduğu halda,1 oktyabr 2013 tarixinə məbləğ 147,6 manat olmuşdur. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda əlillərin sosial müdafiəsi ilə bağlı mühüm müddəalar yer alıb ki, by da əsasən güzəştlərlə bağlıdır. Əlillərin ailə başçısını itirməyə görə əmək pensiya hüququnda müəyyən güzəştlər nəzərdə tutulub.

Respublikanın Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi yanında Dövlət Tibbi-sosial Espertiza və Reablitasiya xidməti yaradılmışdır ki, burada tibbi-sosial ekspertiza əsasında insanların sağlamlıq imkanlarının məhdudluğu, sosial müdafiə tədbirlərinə ehtiyacları müəyyən edilir, onların reablitasiya məsələləri həll olunur.

Burada bir sıra bürokratik və mənfi hallara rast gəlmək olurdu. Belə ki, ekspertiza tərəfindən verilən komissiyaların rəylərinin müvafiq icra hakimiyyətləri tərəfindən təsdiq edilməsidir ki, bu zaman korruspiya hallarına rast gəlmə ehtimalına səbəb ola bilərdi.

Bütün bu mənfi hallarını aradan qaldırılması şəffalığın həyata keçirilməsi Azərbaycan respublikası Prezidentinin 14 sentyabr 2015-ci il tarixli fərmanı əsasında tibbi-sosial ekspertiza sistemi yeni elektron texnologiyalar sisteminə keçmişdir. Elektronlaşma islahatları ilk növbədə əlilliyə nəzarəti gücləndirilmiş və son statistikaya əsasən artıq ilkin təyin olunmuş şəxslərin sayı 76664 nəfər, təkrar əlil hesab edilənlərin sayı 3937 nəfər azalıb, respublikada tam reablitasiya 2,9%-dən 3,8%-ə hissəsi reablitasiya 0,7%-dən 2,7 faizə yüksəlib. Əlil və sağlamlıq imkanları məhdud olan insanların problemlərinin həlli məsələləri Azərbaycan Respublikasının əlillərin sosial müdafiəsi haqqında qəbul edilmiş qanunlarında qeyd olunmuşdur.

Həyata keçirilən yoxlamalar nəticəsində biz görürük ki, ictimai nəqliyyatda, ticarət obyektlərində, təhsil müəssisələrində və s. yerlərdə az-az hallarda əlil insanlara rast gəlinir. Bu məsələlər paytaxt ərazisində qənaətbəxş olsa da, regionlarda isə hələ görülməməli işlər çoxdur.

Əmək qanunvericiliyi sağlamlıq imkanları məhdud vətəndaşların işə cəlb edilməsi istiqamətində hüquqi şəxslər üzərində məsuliyyət qoymuşdur. Belə ki, Nazirlər Kabinetinin 213 saylı 22.XI.2005-ci il qərarına əsasən, 25 nəfərdən çox olan hər bir təşkilatın 3%-i bu qrupdan olan şəxslərə ayrılmalıdır. Müsbət hallardan biri də son dövrlərdə dövlət ilə QHT-lər arasında sıx əlaqələr yaranmış, ölkə prezidentinin 27 iyul 2007-ci ildə imzaladığı sərəncama əsasən bir qrup insanlara sosial xidmətlər göstərən QHT-lərə 2011-ci il 30 dekabr tarixində qüvvəyə minmiş sosial xidmətlər haqqında qanuna əsasən bu qrupdan olan əhaliyə xüsusi sosial xidmətlər göstərmək haqqı rəsmi olaraq verilmişdir.

Sağlamlıq imkanları məhdud insanların əmək bazarına cəlb edilməsi Azərbaycan dövlətinin diqqətində olsa da, bu sahədə görüləsi işlər hələ də çoxdur. Bu da ondan irəli gəlir ki, ümumiyyətlə bu qrup insanların əmək bazarına çıxışı və iş fəaliyyətinə dair hər hansısa sosioloji yaxud iqtisadi tədqiqatlar hələ də zəif aparılır, bəzən də aparılmır.

Fərəhləndirici haldır ki, respublikamızda son 10-15 ildə əlil və sağlamlıq imkanları məhdud olan insanlara verilən müavinatların verilməsi sahəsində bir çox dövlətin sərəncamları olmuşdur. Belə ki, son illərdə ölkə prezidenti tərəfindən verilən sərəncama və fərmanlar bu qrup insanların təqaüd və müvainatlarının yüksəlməsi müşahidə olunur. Belə ki, əliliyə görə əmək pensiyalarının orta aylıq məbləğu 1 yanvar 2006-cı il tarixində 32,3 manat olduğu halda 1 oktyabr 2013-cü il

tarixinə məbləğ 147,6 manata çatdırılıb. Eyni zamanda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda əlillərin sosial müdafiəsi ilə bağlı mühüm müddəalar yer alıb ki, digər kateqoriyalardan fərqlənir.

Sağlamlıq imkanları məhdud şəxslərin digər faydlandığı müavinətlər isə onlaara dövlət tərəfindən verilən vaxtaşırı ev və avtomobillərdir.

Sağlamlıq imkanı məhdud şəxslər kimi əlil insanlar üçün digər ən vacib məsələ pulsuz səhiyyə xidmətidir. Azərbaycan vətəndaşı pulsuz səhiyyə xidməti almaq hüququna malikdir. Səhiyyə Nazirliyinin 01.12.2005-ci il tarixli əmrinə görə sağlamlıq imkanları məhdud vətəndaşlara pulsuz dərmanlar, əlil arabaları və digər dəstəkləyici teznoloji avadanlıqlar (1273 əlil arabası, 539 elektroakustik, 5727 ortapedik xidmət) verilib, 200-dən çox şəxs müalicə almaq üçün xaricə göndərilmişdir, 12 mindən artıq insana nazirliyin sosial müdafiə mərkəzləri tərəfindən səyyar xidmətlərdən faydalanmışlar.

Sağlamlıq imkanları məhdud olan şəxslərə dövlət qayğısı son dövrlər artmaqdadır, ancaq bu sahədə hələ də mövcu olan çatışmazlıqlar var.

Hər hansı bir cəmiyyətdə əlil insanlarla müqayisədə daha çox əlil olmayan insanlar olduğuna görə, üstünlük təşkil edən norma və dəyərlərin əksəriyyətin mənafelərini əks etdirməsi və azlığın mənafelərinə tab gətirə bilməsi təəccüblü deyil. Eyni normalar müasir əlillik siyasətinin əsasını təşkil edir. Fərqli dövlətlərin fəaliyyətinin müxtəlif dövrlərində təcəssüm etdirilən əlillik siyasətinin modelləri aşağıdakı tipologiyada açıqlanır:

- Mənfi siyasətlə dövlət əlilliyi olan insanların vətəndaş və universal hüquqlarını fəal şəkildə rədd edir. Müdaxilə edilməməsi ilə xarakterizə olunan bir modeldə dövlət əlillərin həyatında minimal rol oynayır.

- "Şəbəkə modeli" belədir: dövlət əlilliyə cavab verir, lakin bədbəxt və səthi şəkildə, bəlkə də təzyiq və şərtlərə görə, lakin vahid və diqqətlə planlanmış bir strategiya yaratmaq və həyata keçirmək istəmir.

- "Maksimum siyasət" adı ilə reallaşan dövlətin strateji yanaşması deməkdir ki, məqsədi əlilliyin səbəb olduğu bir sıra problemləri müəyyənləşdirmək və cavab verməkdir. Bununla belə, hətta bu modeldə də dövlət əlilliyi cəmiyyətin konfiqurasiyası deyil, fərdi pozuntuların nəticəsi hesab edir, bunun nəticəsində siyasətin diqqəti əlillərin fiziologiyasını dəyişdirmək ehtiyaclarına yönəlir və reaksiya şəxslərin vəziyyətini yaxşılaşdırmağa və qismən yaxşılaşdırmağa yönəlmiş xidmətlər şəbəkəsinin dizaynını və saxlanmasını əhatə edir. Bundan əlavə, hətta əlillərin inteqrasiyasına yönəlmiş bu xidmətlər onların diaqnozunun müəyyənləşdirilməsindən və təyin edilməsindən başlayır, beləliklə əlilləri cəmiyyətdən ayırır.

## ƏDƏBİYYAT


1. Rəcəbli H. Azərbaycan Respublikasının sosial müdafiə sistemi, "MBM", Bakı-2012, 408 s.
2. Məmmədova M., Quliyeva N., Əhmədov S. Sağlamlıq imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası prosesində İKT-nin rolu, "Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı, Bakı-2016, 273-276 s.
3. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Əmək və Sosial Problemlər üzrə Elmi-tədqiqat və Tədris Mərkəzi Əlillik məsələləri üzrə terminlərin izahlı lüğəti, "Avropa" nəşriyyatı, Bakı-2016, 67 s.
4. İqtisadi və Sosial İnkişaf Mərkəzi Sağlamlıq imkanları məhdud insanlar üçün sosial müavinətlər, tibbi xidmət və maddi yardım, Bakı: 2016. – 16 s.
5. Басов Н.Ф. Социальная работа с различными группами населения. "Кнорус медиа" Москва: 2016. – 528 с.

## SAĞLAMLIQ İMKANLARI MƏHDUD İNSANLARIN SOSİAL MÜDAFİƏSİ İLƏ BAĞLI QANUNVERİCİLİK BAZASI

### XÜLASƏ

İmkanları məhdud şəxslərin bazar iqtisadiyyatı şəraitində ictimai faydalı işə cəlb olunmasının ilkin məqsədləri onların maraqların qorunması və bunun hüquqi bazasının yaradılması baxımından islah edildi. İmkanları məhdud insanların sahibkarlıq fəaliyyətinin inkişafı cəmiyyətinin fəaliyyət göstərməsi üçün siyasi və iqtisadi şəraitlə əlaqəli idi. Dövlət və bazar arasındakı ziddiyyətli münasibətlər fonunda fiziki və əqli imkanları məhdud olan insanlar üçün zəruri iş şəraitinin yaradılması tələbləri işəgötürənlər tərəfindən tez-tez yerinə yetirilmir, iş sahəsində əlilliyi olan insanların hüquqlarının müxtəlif pozuntularına rast gəlinir, halbuki ədalətin bərpası və konstitusiya zəmanətlərinin pozulmasına görə cəza tətbiq edilməsi üçün presedentlər hələ ki kifayət qədər deyil. Məqalədə bu baxımından bu kategoriya insanların fəaliyyəti və yaşamasına dair hüquqi bazasının genişləndirilməsi imkanları nəzərdən keçirilir.

## ЗАКОНОДАТЕЛЬНАЯ ОСНОВА СОЦИАЛЬНОЙ ЗАЩИТЫ ЛЮДЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ

### АННОТАЦИЯ

Основные цели вовлечения людей с ограниченными возможностями в общественные работы в рыночной экономике были скорректированы с целью защиты их интересов и создания правовой основы для этого. Развитие предпринимательской активности людей с ограниченными возможностями было связано с политическими и экономическими условиями функционирования общества. На фоне противоречивых отношений между государством и рынком работодатели часто не выполняют требования по созданию необходимых условий труда для людей с ограниченными физическими и умственными возможностями, встречаются различные нарушения прав людей с ограниченными возможностями на рабочем месте. Прецедентов для обратного явления пока недостаточно. В связи с этим в статье рассматривается возможность расширения правовых рамок деятельности и жизни этой категории людей.

## LEGISLATIVE BASIS OF SOCIAL PROTECTION OF PEOPLE WITH DISABILITIES

### SUMMARY

The main goals of involving people with disabilities in public works in a market economy have been adjusted to protect their interests and create a legal basis for this. The development of entrepreneurial activity of people with disabilities was associated with political and economic conditions for the functioning of society. Against the background of conflicting relations between the state and the market, employers often do not fulfill the requirements to create the necessary working conditions for people with physical and mental disabilities, there are various violations of the rights of people with disabilities in the workplace. Precedents for the reverse phenomenon are not enough. In this regard, the article considers the possibility of expanding the legal framework of the activities and life of this category of people.

# İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

## SÜNİ İNTELLEKT CİNAYƏT HÜQUQUNUN SUBYEKTİ KİMİ

***Orxan Həsənov***
***AMEA Hüquq və İnsan Haqları İnstitunun elmi işçisi***
***orxanhesenov665@gmail.com***
***UOT 34:343***

***Açar sözlər:*** süni intellekt, cinayət, cinayət hüququ, cinayət subyekti, cinayət məsuliyyəti
***Ключевые слова:*** искусственный интеллект, преступность, уголовное право, субъект преступления, уголовная ответственность
***Keywords:*** artificial intelligence, crime, criminal law, subject of crime, criminal liability

Cəmiyyətimiz özünün müxtəlif inkişaf mərhələlərindən keçərək hazırkı dövrünə çatmışdır. Biz bu dövrdə özü-özünü proqramlayan, öyrədən və insaların gördüyü işləri onların iştirakı olmadan yerinə yetirən texnologiyalara şahidlik edirik. Və bu texnologiyalar həyatın müxtəlif sahələrində istifadə olunmaqdadır. Bu istifadənin gələcəkdə daha da genişlənəcəyi gözlənilir. Texnologiyalardan istifadənin müsbət cəhəti zaman, maliyyə və iş yükünün azaldılmasıdır. Bununla bərabər yeni hüquqi problemlərə səbəb olmuşdur. Xüsusilə, bu texnologiyaların fəaliyyətləri nəticəsində meydana çıxan hallarla bağlı hüquqi məsuliyyət məsələsini, informasiya təhlükəsizliyini, habelə əqli mülkiyyət və etik normalar baxımından problemləri qeyd etmək lazımdır.

Süni intellektə əsaslanan texnologiyalar insana məxsus xüsusiyyətləri ilə seçilmirlər. Belə ki, həmin texnologiyalar fəaliyyətləri zamanı insan kimi müstəqil olaraq qərarlar qəbul edir və hərəkət edir, suallara cavablar verir, olduğu mühitə uyğun hərəkət və davranışlarını tənzimləyir, həmçinin tezöyrənmə bacarığı sayəsində təcrübələrə malik olur. Məsələn, dünyada ilk süni intellektli humanoid robot olan və insana məxsus 60-dan çox emosiyanı özündə əks etdirən Sofiyanın 2018-ci ilin oktyabr ayında ölkəmizə səfəri zamanı dövlət başçısı cənab İlham Əliyevlə görüşü zamanı insanla ünsiyyət saxlama və fikir mübadiləsi aparmaq bacarığının şahidi olduq [6]. Əlavə olaraq, Dubayın elektrik və su təchizatı idarəsində xidmət heyətinə daxil olan robotlar iş xidməti göstərməkdədir [4]. LegalZoom, Rocketlawyer kimi süni intellektli sistemlər isə müxtəlif hüquqi əməliyyatları həyata keçirir və müxtəlif hüquq sahələri üzrə lazımı sənədləri hazırlayırlar [5].

Süni intellekt və hüququn bir-biri ilə olan və gələcəkdə gözlənilən qarşılıqlı təsiri barədə vurğulamamışdan əvvəl süni intellektin inkişafı və mahiyyəti barədə qısa şəkildə aşağıdakıları nəzərə çatdıra bilərik. Belə ki, intellektə malik maşınlar və qurğular barədə yazılı məlumatlar hələ qədim yunan miflərində rast gəlinsə də, müasir mənada süni intellekt ilk dəfə 1956-ci ildə Con Makkarti tərəfidən işlədilmişdir. O, süni intellekti "maşınları intellektual etmək elmi və mühəndisliyi" kimi qiymətləndirmişdir. Süni intellekt hazırkı inkişafa müxtəlif mərhələləri keçərək gəlmişdir ki, M.Minsky, C.Shannon, A.Nyuell, H.Saymon, C.Hopfildin və digər alimlərin böyük töhvələri olmuşdur. Bu inkişaf mərhələsində böyük azərbaycanlı alim "qeyr-səlis çoxluqlar və qeyri-səlis məntiq" idealarının müəllifi Lüfi Zadənin də böyük əməyi olmuşdur [2, s.63-65].

Süni intellekt insan məntiqini maşınlarda tətbiq etmək məqsədi daşıyan riyazi elmdir. Süni intellekt öz növbəsində komputer elmləri, psixologiya, fəlsəfə, linqivistika, iqtisadiyyat, məntiq nəzəriyyəsi və digər elm sahələrini özündə birləşdirir. Bu sahə insanın ən dəyərli mülkiyyəti olan intellektin maşınlar tərəfindən dəqiq şəkildə simulyasiya olunması məqsədilə yaradılıb və inkişaf etdirilib. Beləliklə, süni intellekt yaradıcı fəaliyyətlə məşğul ola biləcək texnika yaratmağı

qarşısına məqsəd oymuşdur ki, bu xüsusiyyət də yalnız insana məxsus olduğu düşünülməkdədir [2].

Həyatımızın hər sahəsində hiss etdiyimiz texnoloji yüksəliş hər keçən gün sosial həyatımıza təsir göstərməkdədir. Bu yüksəlişlə gələcəkdə insanların olduğu hər sahəni süni intellektsiz təsəvvür etmək mümkün olmayacaqdır. Nəticə etibarilə, sosial münasibətləri tənzimləyən hüquq normaları insanların olduğu hər mühitdə mövcud olduğundan süni intellektin də mövcud olduğu münasibətləri tənzimləməlidir. Qeyd olunanlar hüquq və süni intellekt arasında yaxınlığı ortaya çıxarır. Bu da onlar arasındakı əlaqələrdə hüquqi boşluqları meydana çıxarır ki, onların doldurulması məcburi hall alır.

Süni intellekt əsasında insana bənzər formada proqramlaşdırılmış texnologiyaların yaratdığı və ya yarada biləcəyi hüquqi problemlərdən biri də cinayət hüququna aiddir. Cinayət-hüquqi mənada ortaya çıxan problemlərin əsası isə cinayət məsuliyyəti məsələsidir. Cinayət məsuliyyətinin yaranması üçün Cinayət Məcəlləsinin "cinayət məsuliyyətinin əsasları" adlanan 3-cü maddəsinin tələbləri ödənilməlidir. Həmin maddə bir mənalı olaraq, yalnız Cinayət Məcəlləsində nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin törədilməsinin cinayət məsuliyyəti yaratdığını qeyd edir.

Cinayət Məcəlləsinin 19-cu maddəsində isə cinayət məsuliyyətinin ümumi şərtləri müəyyən edilib. Həmin maddəyə əsasən Cinayət Məcəlləsi ilə müəyyən olunmuş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb oluna bilər. Maddənin məzmunundan da göründüyü kimi ancaq fiziki şəxslər cinayət məsuliyyətinə cəlb oluna bilər. Göründüyü kimi cinayət qanunvericiliyini nöqteyi nəzərdən robortların cinayət-hüquqi baxımından təqsirli hesab olunaraq hər hansı cəzaya məhkum edilməsi qeyr-mümkün olacaqdır.

Süni intellektli texnologiyaların iştirakı ilə hər hansı cinayət əməlinin törədilməsi zamanı onların istehsalçılarının və istifadəçilərinin təqsiri müzakirə oluna bilər. Çünki, mövcud cinayət qanunvericiliyə görə robotlar cinayətin törədilməsində alət və ya vasitə kimi çıxış edə bilər. Onun istehsalçısı və ya istifadəçisinin təqsiri olmadıqda cinayət məsuliyyətindən bəhz oluna bilməz. Nümunə olaraq onu qeyd etmək lazımdır ki, 2017-ci ildə ABŞ-da robotda yaranmış texniki nasazlığa görə robot metal konstruktoru qadın işçinin üzərinə atmış və nəticədə işçi dünyasını dəyişmişdir. Məhkəmədə isə robotun sahibinə maliyyə cəzası təklif olunmuşdur [8].

Yenə 2016-ci ildə ABŞ-n Florida ştatında "Tesla-S" markalı süni intellect əsaslı sürücüsüz avtomobil qəza törədir. Qəza "Tesla-S"-in ağ rəngli maşını buludlarla qarışıq saldığına görə baş vermişdir. Nəticədə qarşıdakı maşının sürücü dünyasını dəyişmişdir. Bu hadisə ilə bağlı araşdırma sürcünün və sürücüsüz maşının istehsalçısı olduğu firmanın təqsirinin olub-olmadığı ətrafında aparılmışdır [7]. Nümunələrlə birlikdə görünən odur ki, mövcüd qanunvericiliklər çərçivəsində süni intellektli robortların səbəb olduğu hadisələrdə məsuliyyət məsələsinin həllində proqramçılar, istehsalçılar və istifadəçilər təqsirli bilinməkdədir.

Filmlərdə görməyə alışdığımız süni intellektli, yəni öyrənə bilən və müəyyən iradə üzrə hərəkət edən robortlar istehsal edildiyində məsuliyyət məsələsi necə həll ediləcək? Xüsusilə, Sofiya robotunu qeyd etmək olar. Səudiyyə Ərəbistan tərəfindən vətəndaşlıq verilən Sofiya müsahibələrinin birində gələcəkdə məktəbə getmək, ailə sahibi olmaq və şəxsi biznesini qurmaq istədiyini bildirmişdir. Bəs insana qarşı cinayət törətsə, nigaha daxil olsa və digər hallarda mövcud qanunvericiliyə görə hansı normalar tətbiq olunacaq? Bu sualların cavabını mövcud normalar daxilində vermək mümkün deyildir.

Cinayət hüququ baxımından Cinayət Məcəlləsinin 41-ci maddəsində öz əksini tapan cəzanın məqsədi "sosial ədalətin bərpası, məhkumun islah edilməsi və həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq"dır. Bu məqsədlər göz önünə alındığında insan qədər hisləri və duyğuları olmayan robortlarda cəzanın öz məqsədinə çatacağını söyləmək çətindir. Həmçinin, cəza təyini zamanı cinayətin motiv və məqsədinin müəyyən edilməsi çox çətindir.

Beynəlxalq hüquqda ümumqəbul edilmiş qaydalardan biri də “cinayət məsuliyyətinin fərdiliyi” prinsipidir. Bu prinsipə görə şəxslər ancaq öz əməllərinin nəticəsi olaraq təqsirli bilinərək məsuliyyətə cəlb oluna bilərlər. Süni intellektli robortun əməllərinə görə nə onun istehsalçısı, nə də istifadəçisi cinayət hüquqi mənada məsuliyyət daşıyacaqdır.

Qeyd olunan problemin həlli üçün ilkin olaraq süni intellektə hüquqi status verilməsi şərt kimi görünür. Bununla bağlı ilkin hüquqi sənəd kimi Avropa Parlamentində 27 yanvar 2017-ci il tarixində süni intellekt əsaslı teknologiyalara hüquqi statusun verilməsi ilə bağlı bir sıra təkliflər və tövsiyyələrini qeyd edə bilərik. Bu tövsiyyədə, bəlkə də, ən diqqətçəkici məqam süni intellektli texnologiyalara hüquq elminə bəlli olan fiziki və hüquqi şəxs anlayışından başqa üçüncü növ şəxs anlayışı olan “elektron şəxsiyyət” anlayışının verilməsinin tövsiyyə olunmasıdır. Bu tövsiyyə ilə birlikdə süni intellektli texnologiyaya hüquqi status tövsiyyə edən ilk rəsmi sənəd olmuşdur. Tövsiyyə süni intellektli texnologiyalara hansı hallarda “elektronik şəxsiyyət” statusunun verilməsi, onların hansı hüquq və vəzifələrə malik olcağı kimi suallara aydınlıq gətirmir [3, s.16-17].

Nəticə olaraq qeyd etmək lazımdır ki, süni intellektin gələcəyi mövcud vəziyyətindən daha çox inkişaf edəcəyi gözlənilir. Süni intellektli robortlar artıq gündəlik və iş həytımızda, müharibə meydanlarında, kosmik araşdırmalarda və digər sahələrdə istifadə olunur. Elmi-fantastik filmlərdə izlədiyimiz robortların yaxın gələcəkdə real həyatımızın bir parçası olacağı gözlənilir. Gözlənilən bu inkişaf isə bir sıra hüquqi problemlər gətirəcək. Hüquq isə həmişəki kimi inkişafı geridən izləməkdədir. Hüquq normasının məqsədi ictimai münasibətləri nizama salmaq olduğu halda, hüququn subyekti və ya obyekti olmayn varlığın yaratdığı problem zamanı hansı hüquqi tədbirlərin görülməli olduğu öz həllini tapmayıb.

Süni intellektli texnologiyalarla bağlı cinayət hüquqi problemlər mövcud normalar çərçivəsində qismən həll oluna bilər. Ancaq gələcək inkişaf qarşısında xüsusi hüquqi normalara və standartlara ehtiyac olacaqdır. Yeni normların yaradılması zamanı müxtəlif doktirinalar, onların lehinə və əleyhinə fikirlər öyrənilməli və nəzərə alınmalıdır.

Cinayət hüquqi problemlərin, xüsusilə cinayət hüquq subyektliyi probleminin həlli üçün öncə süni intellektli texnologiyalara hüquqi statusun verilməsi daha məqsədə uyğundur. Verilən hüquqi status hər bir süni intellektli texnologiyanı əhatə etməli, onların fəaliyyət göstərdiyi sahəyə və xüsusiyyətləinə görə müəyyən olunmalıdır.

## ƏDƏBİYYAT

1. Balayev R. İntellektual sistemlər və texnologiyalar. Bakı: MSV nəşr, 2016. 256s. http://unec.edu.az/application/uploads/2016/05/44INTELLEKTUAL-SISTEMLER-DERSLIK-son-variant-2016.pdf
2. Danker A. Robotik hukuk. İstanbul: İstanbul Bilgi Üniversitesi, Yüksek Lisans Proqramı, 2017, 39s.
3. Azərbaycan Respublikası Cinayət Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2019. 319s.
4. http://ikisahil.az/post/news-54961
5.https://ir.lawnet.fordham.edu/cgi/viewcontent.cgi?referer=https://www.google.az/&httpsredir=1&article=5008&context=flr
6.http://qafqazinfo.az/news/detail/siz-cox-agilli-ve-gozelsiniz-prezidentin-robot-sofiya-ile-sohbeti-video-233356
7.https://www.forbes.com/sites/patricklin/2016/07/01/is-tesla-responsible-for-the-deadly-crash-on-auto-pilot-maybe/#2180b8841c07
8. https://www.nytimes.com/2011/07/05/business/media/05fox.html

## SÜNİ İNTELLEKT CİNAYƏT HÜQUQUNUN SUBYEKTİ KİMİ


### XÜLASƏ

Məqalə süni intellekt və cinayət hüququ arasındakı mövcud olan və ya gələcəkdə ola biləcək hüquqi problemlərə həsr olunmuşdur. Məqalədə süni intellektin tarixi və mahiyyəti barəsində qısa bəhz olunmuşdur. Süni intellektin statusu, cinayət hüququnun subyekti kimi rolu və cinayət məsuliyyəti məsələsi qiymətləndirilmişdir.


## ИСКУССТВЕННЫЙ ИНТЕЛЛЕКТ КАК СУБЪЕКТ УГОЛОВНОГО ПРАВА


### АННТАЦИЯ

В статье рассматриваются текущие или будущие правовые вопросы между искусственным интеллектом и уголовным правом. В статье дается краткий обзор истории и природы искусственного интеллекта. Оценивался статус искусственного интеллекта, его роль как субъекта уголовного права и проблема уголовной ответственности.


## ARTIFICIAL INTELLIGENCE AS A SUBJECT OF CRIMINAL LAW


### SUMMURAY

The article deals with current or future legal issues between artificial intelligence and criminal law. In the article is gives a brief overview of the history and nature of artificial intelligence. The status of artificial intelligence, its role as a subject of criminal law and the issue of criminal liability were assessed.

# ERMƏNİ MİLLƏTÇİLİYİNİN MAHİYYƏTİ VƏ TƏZAHÜR FORMALARI

***Bəhruz Kazımov, polkovnik-leytenant***
***Silahlı Qüvvələrin Hərbi Akademiyası***
*behruz1982kazimov@mail.ru*

***Açar sözlər:*** erməni millətçiliyi, armenizm, tsexakronizm, panarmenizm, miatsum.
***Ключевые слова:*** армянский национализм, армянство, цехакронизм, панарменизм, миацум.
***Keywords:*** armenian nationalism, armenians, tseghakronism, pan-armenianism, miatsum.

**Giriş.**

“Soyuq müharibə”nin başa çatması millətçi qüvvələrindirçəlməsinə şərait yaratdı. Çoxmillətli imperiyaların dağılması, separatizm və radikalizmininkişafı, ksenefobiya və etnik təmizləmələr millətçiliklə asossiasiya edilən hadisələrdir. Bəzi tədqiqatçılar faşizmi də millətçiliyin xüsusi növü kimi qələmə verirlər.

“Millətçilik” termini ilk dəfə mətbuatda Yakobinçilərə qarşı mübarizə aparan Avqustin Baruel tərəfindən istifadə olunur. XIX əsrin ortalarından etibarən isə daha geniş formada, hərəkat olaraq qəbul edilməyə başlanır və beləliklə, 1848-ci ildə millətçilik bütün Avropanı sarsıdan inqlabın təməlini formalaşdırır. Son iki yüz ildə bu ideologiya dünyanın bir çox bölgəsində tarixi yenidən formalaşdıran, dünya nizamını dəyişən siyasi inancların ən uğurlusu və təsirlisi hesab olunur.

XIX əsrin sonlarında millətçilik milli identiklik simvollarına: bayraq, milli marş, vətənpərvərlik, xalq adətlərinə istinad edən xalq hərəkatına çevrildi. Millətçilik siyasi azadlığın və demokratiyanın zəfəri ilə deyil, milli şərəfin və hərbi gücün sayəsində yüksəldi.Bu tərz millətçilik şovinizm və yadlara qarşı düşmənçiliyə söykənən ideologiyaya çevrilmişdir. Hər millət digərlərini yad, güvənilməz, hətta təhlükə mənbəyi olaraq görür və özünü tək və üstün olaraq qəbul edir. Belə bir millətçilik beynəlxalq münaqişələri alovlandıraraq dolayı yolla 1914-cü ildə I Dünya müharibəsinin başlanmasına yol açdı. Dünyada millətçi hərəkatlar arasında erməni millətçiliyi xüsusi yer tutur. Erməni millətçiliyi müəyyən müddət üçün zəifləyə bilər, tarixi şəraitin tələblərinə uyğunlaşa bilər. Lakin ermənilər yaşadıqca erməniliyin aradan qalxacağını düşünmək əsassızdır. Məqalədə tarixi və müqayisəli təhlil metodundan istifadə edilib.

**Əsas hissə**

Erməni millətçiliyinin uzunömürlü olmasının, sözsüz ki, bir sıra obyektiv və subyektiv səbələri vardır. Bunların arasında erməni kilsəsinin uzun illər ərzində müstəqil hakimiyyətə mənsub olmaq niyyəti, xarici amil, ermənilərin xarici dövlətlərin türk xalqlarına qarşı istiqamətlənmiş siyasətinin alətinə çevrilmək bacarığı və bu məqamdan yaradıcı şəkildə istifadə edə bilmələri və sair əsas yer tutur. Burada xarici amili xüsusi qiymətləndirmək lazımdır. Erməni millətçiliyini təcavüzkarlıq səviyyəsinə qaldıran xarici amil olmuşdur. Məhz bu amil öz məqsədlərinə çatmaq üçün erməniləri bir bəhanə kimi ortaya atmış, onun vasitəsilə türk xalqlarının daxili həyatına qarışmaq üçün özünə bir barmaq yeri qoymuşdu. Belə olmasaydı, kimə lazım idi ermənilərin uydurmalarına və cəfəng fantaziyalarına qulaq asaraq, ağrımayan başlarını da dərdə salsınlar [1,s.4].

Erməni millətçiliyi problemini araşdıran professor Qafar Çaxmaqlının fikrincə, keçmiş zamanlardan erməni fəlsəfəsində və düşüncə sistemində önəmli yerə sahib olan “armenizmi” (erməniliyi) erməni tarixi və mədəniyyətindən fərqli düşünmək, xristian ideologiyasının ruhunun xaricində görmək doğru olmaz. Hayların, hətta dinlərini belə bəzən irqçi düşüncələrə qurban verdikləri zamanlar olmuşdur. Bilgi və inanclar sistemində “**ermənilik və ya erməniçilik” (armenizm)** hər zaman irqçi ideologiya ilə yüklü olmuşdur və özünüqoruma istiqamətində bütün tarixi dövrlərdə “inkişaf yolu” keçmişdir [2,s.10].

XVI əsrdə "mxitaristlər" Venesiyada erməni düşüncə sistemini dəyişdirməyə cəhd etsələr də, buna tam nail ola bilməmişdilər. Yəni zaman irəlilədikcə bu düşüncə sisteminin mahiyyətindəki irqçilik, başqa xalqlara yuxarıdan aşağı baxmaq, hədəfə çatmaq üçün insanları terrorizə etmək, onları fiziki cəhətdən məhv etməyə meyilli fəaliyyətlər özünü daha qabarıq göstərməyə başlamışdır. Ermənilərin yaratdıqları əksər siyasi və qeyri-siyasi təşkilatların mayasında bu irqçi düşüncə vardır. Tarix boyunca belə ideologiyanı erməni millətinin dövlətyaratma anlayışı kimi formalaşdırmağa meyilli qüvvələr də olmuşdur və bu gün də vardır. 1918-ci ilə qədər ermənilərin tarixdə heç bir dövrdə tam müstəqil dövlətləri olmadığından ideologiyalarını bu əsas üzərində formalaşdırmağa səy göstərmişlər–hər şeyi başqalarından mənimsəmə prinsipi üzərində qurmuşlar.

Bu da etnik mədəniyyət dəyərlərini tək meyar olaraq təyinetmə (etnik mərkəziyyətçilik), fərqlilik qorxusu (zenofobi) əsasında yaradılmış bir milliyətçilik sistemi idi və ideoloji düşüncə olaraq yalnız erməni millətinə aid idi. Bu sistem irqlər arasında birləşmələrə və əlaqələrin olmasına qarşı çıxmanı və milliyyətçilik kimi anlayışları da özündə ehtiva edirdi. Onu ictimai ayrı-seçkiliyə irqlər arasında fərqliliklərdən soyqırımına qədər gedə bilən bir doktrina halına gətirib çıxarmaq üçün ermənilərə iki-üç əsr yetərli oldu və indi bu, erməni dövlətinin doktrinasına tamamilə uyğundur [2, s.38-39].

Panarmenizm erməniçiliyin başqa bir təzahürü kimi ortaya çıxmağa başlamışdır. Panarmenizmdə də öncəki bütün milliyətçilik qavramlarında olduğu kimi, ictimai mənsubluq birinci sırada gəlir. Belə halda mənsub olduğu cəmiyyəti şüurlu olaraq sevmə və cəmiyyətin inkişafı üçün səygöstərmə özünü qabarıq şəkildə göstərir. Ermənicə millət (ազգ - azq) sanki yalnız onlara aid edilən bir qavramdır, sanki digər xalqlar millət deyillər. Hayların bu anlayışı fərqli anlamaları onların millətçilik xəstəliyinə tutulmaları ilə bağlıdır. Erməni milliyyətçiliyinin fikir atası hesab olunan Qriqori Artsruni "Mşak" qəzetində erməni milliyətçiliyinin təməllərini atarkən formalaşan təlimlər erməni terrorunu doğurmuşdur. Erməni düşüncəsində terror günah deyildir. Məqsədə çatmaq üçün bir aksiyadır [2, s.11].

Erməni terroru başlanğıcını o illərdən götürdüyünü hesab edə bilərik. Daha sonra erməni siyasi təşkilatlarının proqramlarında terror əsas mübarizə üsulu olaraq keçir. Birinci Dünya müharibəsi illərində yaratdıqları terror təşkilatları günahsız insanlara yaşatdıqları faciələrə normal həyat hadisəsi kimi baxmışlar. Erməni fədailiyi də terrorizmdən fərqli deyildir. O da milli bir inancdır, bilgi yerinə inancı önəmli sayan, onun yerinə qoyulan düşüncələrin ümumi adıdır [2,səh11].

Fədailər erməni xalqının mübarizəsində ölməyə and içərək ən ağır döyüşlərə sorğu-sualsız gedən könüllülərdən ibarər terrorçulardı. Qisasçılıq zəmnində yaradılan "Nemezis" təşkilatının adamöldürmə hərəkəti adi həyat hadisəsidir. "Nemezis" kəlməsi yunancadır, intiqam ilahəsiNemezidanın adından götürülmuşdür. Terrorçubaşı Şahan Natalinin təşəbbüsü ilə 1919-cu ilin oktyabrında yaradılan bu "fəaliyyət" Daşnaksütyun partiyasının ideoloji xəttini təşkil edirdi.

Başqa bir ideoloji təlim–"Tsexakronizm" də eyni fəaliyyətləri hədəfləyir [2, s.11]. Tsexakron–ermənicə iki sözün–"ցեղ"(irq) və "կրոն"(din) kəlmələrinin birləşməsidir. Bu təlim Qaregin Njde (Qaregin Ter-Harutyunyan) tərəfindən ortaya atılmışdır. Ermənistan Respublikasının keçmiş prezidenti Serj Sarkisyanın rəhbəri olduğu Ermənistan Respublikaçılar partiyası Njdeni özünə lider, ideoloji öndər sayır. Tsexakron, əslində erməni faşizmidir. Nasional Sosialist təlimdir və dünya ermənilərinin də türklərə və Türkiyəyə qarşı davranışlarının təməlində Qaregin Njdenin düşüncələri yer alır. Millətçi təzahür daşıyan erməni ideoloji cərəyanlarının içərisində, heç şübhəsiz, Andranikizm mühüm yer tutur. ASALA və ona bənzər onlarca erməni terror təşkilarının mayasında dediyimiz bu ideologiyaların qarışıq təzahürləri mövcuddur və bu gün də həmin ideologiyanı davam etdirirlər.

Göründüyü kimi, təməli "armenizm"lə qoyulan erməni təlimlərindən bəşəriyyət üçün çox təhlükəli olan "mxitarizm", "andranikizm", "tsexakronizm", "erməni fədaizmi" və nəhayət,

erməni cəmiyyəti üçün bu gün də xarakterik olan "erməni faşizmi" və digər ideoloji təlimlər törəmişdir.

Njdenin "Tsexakron" təliminə görə, hər bir erməni bütün həyatı boyunca "Qərbi Ermənistanın"(Şərqi Anadolu torpaqlarının) türklərin əlindən alınmasına çalışmalıdır. Onun qurduğu "Tsexakron Uxter"(1933) adlı qurumu da sonradan bu ideyanın həyata keçməsinə çalışacaqdır. Bu "Tsexakron Uxter" erməni gənclər təşkilatının nüvəsi olacaqdır. Onun özünün nizamnaməsi və proqramı da hazırlanmışdır. "Tsexakron Uxter"in devizi belə idi: "Ermənistan ermənilərə". Bu deviz daha sonralar da həyata keçirilərək Ermənistanı monoetnik dövlətə çevirdi.Bu ölkədə bir nəfər də olsa digər xalqa mənsub adamın yaşamaması dediyimizin sübutudur. Ermənistan dedikdə, burada yalnıız indiki Ermənistan nəzərdə tutulmurdu. "Qərbi Ermənistan" dedikləri Türkiyənin Şərqi Anadolu vilayətləri də buraya aid edilirdi.

Faşistlərin ermənilərlə, xüsusən də daşnaklarla əlaqələrinin ideoloji zəmini 1930-cu illərdə qoyulmuşdur. Bu əlaqələr çox çəkmədən sıx əməkdaşlığa çevrilmişdir.Sonralar Almaniyanın İşğal Edilmiş Şərq Bölgələri naziri olacaq Alfred Rozenberq 1926-1936-cu illərdə Şərqşünaslıq İnstitutunun rəhbəri olan Dr. Artaşes Abegyana ermənilərin antropologiyasını və tarixini araşdırmaq üçün bir komitə qurmağı tapşırmışdı. Təbii ki, bu fürsəti ermənilər əla dəyərləndirmişdilər.

Dərhal hesabat verilmişdi ki, onlar almanlarla eyni irqdən gəlirlər. Komitənin 1934-cü ildə qurulmasından beş ay sonra Rozenberq Hitlerə ermənilərin almanlarla eyni irqdən–ari irqindən gəldiyini göstərən bir hesabat təqdim etmişdi. İkinci Dünya müharibəsi başlayandan sonra Rozenberq işğal ərazilərində "Böyük Finlandiya", "Baltikyanı","Ukrayna" və "Qafqaz" komissarlıqları qurmağı təklif edirdi. O, Qafqazda qalıcı, möhkəm bir mərkəzi hakimiyyət yaratmaq üçün gürcü, erməni, azərbaycanlı, çərkəz, abxaz, çeçen və başqa xalqların birliyinə nail olmaq istəyirdi. Burada milli quruluşların olması əsas götürülmürdü. Əsas o idi ki, burada almanların tətbiq etdiyi qaydaları həyata keçirən təmsilçi olacaqdı. Bütün bunlar Rozenberqin "Yaşıl qovluğun"da yer almışdı, amma Hitler bunların 1941-ci ildə müvəqqəti tədbir kimi tətbiqolunmasını istəmişdi və daha sonra almanların bu bölgələrlə bağlı başqa planları olacaqdı [3,s.27].

1941-ci il iyulun 16-da Hitler öz ofisində konfrans keçirmiş, SSRİ-nin işğal olunmuş ərazilərində dörd Komissarlıq yaratmaq üçün qərar qəbul etmişdi.Alfred Rozenberq tərəfindən "Böyük Baltika və ya Ostland", "Ukrayna", "Rusiya və Qafqaz" Komissarlığı yaradılmış və orada çalışmaq üçün 144 zabit, xarici işlər nazirliyində çalışan 171 əməkdaş cəlb edilmişdi. Yerli xalqlardan elə hərbi birliklər yaradılmalı idi ki, onlar syasi proseslərə təsir edə bilməsinlər. Qafqaz üzrə komissar jurnalist A.Şikedats təyin olundu. SS və polis fəaliyyəti isə oberfürer Qorzmana tapşırıldı. Azərbaycan, Gürcüstan, Kuban, Terek və dağlıq rayonlarda beş hauptkomissarlıqlar yaradılması nəzərdə tutulurdu.

Plana əsasən, bütün xalqlar və qəbilələrə almanların qafqazlıları bolşevizmin əzabından qurtaracağı fikri təbliğ edilməli idi. Qafqazdakı xalqlara qeyri-məhdud azadlıq verilə bilərdi. Qafqazda təhsil sistemi, dərsliklər dəyişdiriləcək, kollektiv təsərrüfatlar ləğv ediləcək, dinə qarşı dözümlülük nümayiş ediləcəkdi. Rozenberqin qarşısında əsas vəzifə olaraq hərbi təşkilatları qurmaq qoyulmuşdu. Hər bir milli legionun qalıcı xüsusi əlamətləri və simvolları olacaqdı, ən az min nəfərdən ibarət hərbi birlik qurulacaqdı. Qafqazla bağlı İngiltərə və Fransanın öz maraqları və məqsədləri olduğu kimi, Türkiyə və İranın da aydın maraqları var idi.Almanlar bu maraqlarıdəqiqliklə izləyirdilər. Belə ki,xüsusən Türkiyənin Azərbaycanda olan soydaşlarını özünə birləşdirmək planı gerçəkləşə bilərdi və bu Ermənistanın yox olması demək olardı.

Hitlerin erməni liderlərinə inamı olmasa da,ermənilər Rozenberqi inandırmağa çalışdılar ki, fürerin bütün planlarını yerinə yetirəcəklər. Njde o zaman Türkiyəyə qarşı böyük bir ordu qurulmasını təklif etmişdi, amma almanlar erməni legionunun başqa proseslərə girməməsi üçün onlara nəzarəti gücləndirmişdilər. Ermənilərin öz içindən almanlara casusluq edən şəxslər vardı.

Almaniya ilə SSRİ arasında bağlanan qarşılıqlı hücum etməməkhaqqında Molotov–Ribbentrop müqaviləsindən sonra–1939-1940-cı illərdə İngiltərə və Fransa SSRİ-yə qarşı müharibə planlaşdırırdılar.Onların məqsədi Qara dənizə çıxıb Qafqaza yönəlmək idi. Qafqaz müsəlmanlarının üsyanına da xüsusi ümid bəslənirdi. Amma vəziyyət gözlənilmədən dəyişdi. Almaniya SSRİ ilə bağlanan müqaviləni birtərəfli surətdə pozaraq 22 iyun 1941-ci ildə qəfildən SSRİ-yə hücum etdi. SSRİ Moskva, Qafqaz və Qroznının müdafiəsini gücləndirdi. Bu vaxt faşist erməni gənclər təşkilatları da quruldu.

Bolqarıstan və Rumıniyada erməni milliyyətçi təşkilatı olan "Tsexakron" üzvlərindən ibarət döyüşçü qruplar yaradıldı. "Tsexakron" II Dünya müharibəsi üçün dünyadakı bütün erməniləri nasistlərlə əməkdaşlığa çağırdı. Bir çox tarixçinin bu təşkilatı ermənilərin "Hitlerjugend"i olaraq xarakterizə etməsi çox doğrudur. Bu işdə almanlara bu qədər yaxın olan ikinci bir qeyri-alman təşkilatı olmamışdı. Birinci Dünya müharibəsi zamanı və ondan sonra Türkiyəyə qarşı döyüşən və müsəlman əhaliyə divan tutan general Drastamat Kanayan (Dro) da 15 dekabr 1942-ci ildə Erməni Milli Komitəsini qurdu.

Komitənin məqsədi Avropadakı erməniləri Alman iqtidarı nəzdində təmsil etmək idi. Almaniyada qurulan Erməni Milli Şurası II Dünya müharibəsi zamanı ermənilərin SSRİ əleyhdarı və Almaniya tərəfdarı təbliğatının mərkəzi oldu. 1943-cü il aprelin sonunda erməni hərbi qrupları müstəqil status qazandılar. 1944-cü ilin fevralında Rozenberqin əmri ilə Birləşmiş Erməni Qərargahı da qurulmuşdu.

Tarixçi alim Bəxtiyar Nəcəfov bu qənaətə gəlir ki, erməni millətçiliyi, onu alman faşizmi ilə həm zahirən, həm də mahiyyətcə doğmalaşdıran (xronoloji baxımdan ermənilər–alman faşıstlərinin sələfidir) bir çox ümumi cəhətlərə malikdir:

1) faşizmin ideologiyası - irqçilikdir, erməniliyin ideologiyası - ifrat millətçilikdir;

2) "alman xalqının öz həyat məkanını genişləndirməsinə ayrılmaz hüququ" barədə Hitlerin tezisi (Lebensarum), "Ermənistanı öz tarixi sərhədlərində bərpa etməyin zəruriliyi" barədə erməni tezisi;

3) kütlələrin başdan-başa yanlış müddəalarla dolu millətçi təbliğatla azdırılması, onların millətçi ideyalarla yoluxdurulması;

4) universal vasitə kimi dövlət siyasəti səviyyəsinə qaldırılmış terror, bütün düşmənlərin, müxalifətçilərin, özgə cür düşünənlərin məhv edilməsi;

5) yetkinləşməmiş gənclərə ümid bəslənməsi. "Hitleryugen"də məktəblilərin beyninə ali irqin müstəsna üstünlükləri barədə sərsəm ideya yeridilirdi;

6) Ermənistanda isə böyüməkdə olan nəslə "böyük və əzabkeş" erməni xalqı barədə uydurmalar təlqin olunurdu;

7) öz xalqını millətçi ideyalar naminə tərəddüd etmədən qırğına verməyə fanatikcəsinə hazır olmaq və istənilən şəraitdə, hətta ümidsiz vəziyyətdə qurban vermək;

8) dünya barədə sərsəm ideyalar ("minillik reyx" barədə uydurma,"dənizdən-dənizə Böyük Ermənistan" barədə mif);

9) hər cür faşizmə öz mövcudluğu üçün müharibələr, fövqəladə şərait lazımdır. Əks halda, günah kimin üstünə atılacaqdır? Xalqı kütləvi psixoz vəziyyətdə necə saxlamaq olar? Odur ki, Hitler Almaniyası fasiləsiz vuruşurdu, yeni-yeni torpaqlar ələ keçirməyə can atırdı. Faşizmin təbiəti belədir. O yırtıcıdır, o, yeni qurbanlarsız yaşaya bilmir. Erməni millətçiləri cəmi iki il hakimiyyətdə oldular. Bu vaxt ərzində Ermənistan Azərbaycanla (hərçənd ki, müharibə rəsmi surətdə elan olunmurdu), Gürcüstanla, iki dəfə Türkiyə ilə, hətta qısa müddət mövcud olmuş Cənub-Qərbi Qafqaz Cümhuriyyəti ilə vuruşmuşdu.

Müharibəsiz bircə gün belə keçməmişdi. Bütün qonşulara qarşı ermənilər heç bir əsası olmayan ərazi iddiaları irəli sürürdülər [4, s.227-228]. Erməni millətçiliyinin tarixi köklərini araşdırarkən onların Azərbaycan türklərinə qarşı apardıqları mübarizənin üstündən sükutla keçmək olmaz. Bu mübarizə zəngin tarixi keçmişə malikdir. XVIII əsrdə I Pyoturun keçirdiyi islahatlar

nəticəsində Rusiya güclü dövlətə çevrildi. Pyotr xəzərsahili vilayətlərə hücumdan əvvəl buradakı vəziyyəti öyrənmək üçün xüsusi nümayəndələr göndərir, xüsusilə ermənilərin Qafqazda vəziyyətləri ilə maraqlanır, sonra o, Avropa ölkələrinə gedərək Türkiyəyə qarşı müttəfiqlər tapmağa çalışırdı. Məqsədinə nail olmayan I Pyotr Şimal müharibəsində (1700-1721) qalib gəldikdən sonra Türkiyəyə qarşı müttəfiqlər axtarışını yenidən davam etdirir. O, Qafqaza yiyələnmək məqsədilə Türkiyənin daxilində olan ermənilərdən istifadə etmək üçün 2 mart 1711-ci ildə Senatdan tələb edir ki, İranla ticarət işlərinə daha çox erməni cəlb edilsin. Onların tələbləri yerinə yetirilsin [5,s.313].

XIX əsrin ikinci yarısında çarizm və Qərb ermənilərdən bir vasitə kimi istifadə etməyə başladı. Xarici havadarlarının yardımı ilə ermənilər "Böyük Ermənistan" yaratmaq üçün layihələr hazırladılar. Bu proses xüsusilə də 1877-1878-ci il Rusiya-Türkiyə müharibəsindən Türkiyənin məğlub çıxması nəticəsində sürətləndi. Belə ki, ilk dəfə 13 iyul 1878-ci ildə Berlin sülh konfransında "erməniməsələsi"müqavilə şərtlərində əks olunmaqla rəsmiləşdirildi. 1890-cı ildə ermənilər "Daşnaksütyun" partiyasını yaratdılar. Yarandığı gündən Türkiyə torpaqlarında Ermənistan dövləti qurmaq proqramını hazırlayan "Daşnaksütyun" partiyası 1904-cü ildə tarixi Azərbaycan torpaqlarını da öz planlarına daxil etdi. 1905-ci ildə Qafqazda olan yüksək vəzifəli rus məmurları tərəfindən silahlandırılan və gizli tapşırıqlar alan ermənilər İrəvan, Naxçıvan, Ordubad, Qarabağ, Şuşa, Gəncə, Bakı və Şirvanda yaşayan silahsız türklərə, dinc əhaliyə qarşı hücum edib onları öldürməyə, qılıncdan keçirməyə başladılar. Beləliklə, onlar türkləri öldürərək bu ərazilərdə sayca üstünlük əldə etmək istəyirdilər.

Öldürə bilmədikləri türkləri isə nəyin bahasına olursa-olsun öz torpaqlarından qovurdular. Gürcü sosialistlərindən olan Qaribi "Qızıl kitab"ında belə yazır: "Erməni inqilabçılarının, xüsusilə "Daşnaksütyun" partiyasının yaradılmasına qədər Zaqafqaziyada sülh və dostluq hökm sürürdü. Bu ölkədə türklərlə ermənilər arasında olan qanlı qırğınların kölgəsini belə xatırlayan yoxdu. Ermənilər, türklər və gürcülər əsrlərlə bir yerdə yaşadılar, hətta bu müddət ərzində heç kim millətlərarası ədavət görmədi... Daşnaklar gəldilər və sırf ermənilərdən ibarət müstəqil Ermənistan dövləti yaratmaq istədilər. Patriarxal Qafqaz kəndlərinə milli ədavət və qarşılıqlı nifrət hissləri doldu. Ermənilərin silah oynatmaqlarına türklər də qarşılıqlı cavab verdilər" [6].

Ermənilər Qarabağı ələ keçirmək üçün əvvəllər başladıqları soyqırımı hərəkətlərini Azərbaycan Xalq Cümhuriyyəti dövründə də davam etdirdilər. Sovet hakimiyyəti dövründə–1923-cü ildə Qarabağın dağlıq hissəsində 4,4 min kv.km ərazidə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdır. Bununla da bu ərazidə separatçılıq meyillərinin əsası qoyulmuşdur. Əslində isə problemin kökündə Çar Rusiyası tərəfindən Qarabağa XVIII əsrdən başlayaraq köçürülən ermənilərin Azərbaycan torpaqlarına yiyələnmək iddası dayanırdı.

Əsrin sonlarında Erməni milli fikrinə "Miatsum" ideyası əlavə olundu. O daəvvəlki ideoloji proqramlar kimi təcavüzkar xarakteri ilə seçilir. 1988-ci ildə ermənilər "Miatsum"a–Dağlıq Qarabağı özlərinə birləşdirmək üçün fəaliyyətə başlamışdılar.1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Muxtar VilayətSoveti Dağlıq Qarabağın Azərbaycan SSR-dən ayrılıb Ermənistan SSR-ə birləşməsi ilə bağlı qərar qəbul etdi. Nəticə etibarı ilə "Miatsum" hərəkatı hərbi təcavüzə çevrilərək Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün ciddi şəkildə pozulması ilə nəticələndi.

Dağlıq Qarabağ probleminə dair 23 fevral 2001-ci ildə Milli Məclisdə keçirilmiş müzakirələrdə Ulu Öndər Heydər Əliyev "Miatsum"un mahiyyətini belə ifadə etmişdir: 1988-ci ildə ermənilər ilk dəfə, yəni Ermənistan və Dağlıq Qarabağda olan ermənilər Dağlıq Qarabağın Azərbaycandan ayrılması və Ermənistana birləşməsi haqqında çox ciddi, sərt hərəkətə başlamışdılar və demək olar ki, bu hərəkəti uğurla həyata keçirmişlər. "Miatsum" sözü indi yaddan çıxıbdır. Erməni sözüdür. Ancaq o vaxt hər bir ermənistanlı erməninin, Dağlıq Qarabağda yaşayan hər bir ermənінin, yaxud dünyada yaşayan ermənінin dilində gündə bir neçə dəfə təkrar olunan sözdür [7, s.19].

Erməni millətçiləri Dağlıq Qarabağı Ermənistana birbaşa birləşdirə bilməyəcəklərini bilirdilər. Məsələni iki hissəyə böldülər. Əvvəlcə Dağlıq Qarabağı müstəqil etsinlər, guya Dağlıq Qarabağı müstəqil etmək daha asandır, sonra isə müstəqil Dağlıq Qarabağı Ermənistana birləşdirsinlər. 1991-ci ildə saxta referendum keçirildi. O vaxtdan 28 il keçməsinə baxmayaraq Dağlıq Qarabağın müstəqilliyi heç bir dövlət tərəfindən tanınmayıb. Müstəqilliyinin tanınmasına isə heç bir ümid yoxdur. Məhz bu durğunluq Ermənistanı yenidən "Miatsum"a üz çevirməyə vadar etdi. Aradan xeyli müddət keçəndən sonra Ermənistanın baş naziri N.Paşinyanın "Miatsum"u dilə gətirməsi bir neçə səbəblə bağlıdır:

Birincisi, Ermənistanda sosial-iqtisadi vəziyyətin ağır olması və hakimiyyətin böhrandan çıxış yolu kimi Qarabağkartına (Miatsuma) əl atması;

İkincisi, bu ideya ilə N.Paşinyanın Qarabağ ermənilərini və diaspora üzvlərini öz ətrafında birləşdirmək planları və bu dəstəklə rəqiblərini neytrallaşdırmaq və elektorat bazasını genişləndirmək istəyi;

Üçüncüsü, ATƏT-in Minsk Qrupunun fəaliyyətini zərbə altına qoymaq, vasitəsiz danışıqlar formatına keçmək. Belə olan təqdirdə ölkə başçılarının görüşləri, ATƏT-in Minsk Qrupunun fəaliyyət göstərdiyi vaxtdakıkimi intensiv olmayacaq, problem uzanaraq dondurulmuş vəziyyətdə qalacaq. Bu isə, münaqişə zonasında hər an hərbi əməliyyatların bərpa edilməsinə gətirə bilər.

**Nəticə**

Erməni millətçiliyi öz təbiətinə görə təcavüzkardır və qarşıdurma olmadan yaşaya bilmir. Bir əsr öncə ortaya atılmış ekspansiya siyasətini bu gün də davam etdirirlər. Həmin mənfur siyasətin həyatakeçirilmə vasitələri soyqırımı, deportasiya və terror hesab edilir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə isə, erməni millətçilərinin və siyasətçilərinin 30 il əvvəlki vəziyyətə qayıtmaq cəhdlərinin kökündəbu münaqişənin nizamlanması istiqamətində BMT Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsindən, münaqişənin nizamlanması üçün baza formulu hesab edilən ATƏT-in Lissabon sammitinin məlum üç prinsipindən və digər nizamlanma planlarından imtina etmək niyyəti dayanır.

## ƏDƏBİYYAT

1. Mehman Süleymanov.Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən. Bakı: "Hərbi nəşriyyat", 2008, 398 s.
2. Qafar Çaxmaqlı. Erməni faşizmi. Bakı: "QHT" nəşriyyatı,2017, 192 s.
3. Розенберг А. Мемуары. Харьков, 2005: http://www.kavkazweb.su/forum/ 90
4. Bəxtiyar Nəcəfov. Düşmənin iç üzü. XIX-əsrin sonu XX-əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. II hissə. Bakı: "Çaşıoğlu" nəşriyyatı, 2006, 436 s.
5. Mais Əmrahov. XX əsrdə Azərbaycanda milli azdlıq hərəkatı. Ali məktəblər üçün dərslik. Bakı: ADPU-nun nəşriyyatı, 2009, 371 s.
6. Hüseyn Baykara.Azərbaycan Milli İstiqlal Mücadiləsi. Bakı: 1992, 129 s.
7. Elşad Abdullayev. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: "Təhsil" nəşriyyatı, 2004, 216 s.

## ERMƏNİ MİLLƏTÇİLİYİNİN MAHİYYƏTİ VƏ TƏZAHÜR FORMALARI

## XÜLASƏ

Məqalə erməni millətçiliyinin mənşəyi, ideoloji kökləri və təzahür formalarından bəhs edir. II Dünya müharibəsi dövründə erməni millətçiliyinin faşizmlə əlaqəsinin məqsədləri, habelə XX əsrin sonlarında Azərbaycanın Dağlıq Qarabağ bölgəsində erməni separatizminin ideoloji xətti olan "Miatsum"un mahiyyətinin izahı məqalənin leytmotivini təşkil edir.

## СУЩНОСТЬ И ПРОЯВЛЕНИЯ АРМЯНСКОГО НАЦИОНАЛИЗМА


### АННОТАЦИЯ

В статье раскрывается о происхождении идеологических корнях и проявлениях армянского национализма. Лейтмотив даннойстатьи является объяснение цели сотрудничество армянского национализма с фашизмом во время Второй мировой войны и важность "Миацум"а, как идеологической линии армянского сепаратизма в Нагорно-Карабахском регионе Азербайджана на рубеже XX века.


## ESSENCE AND MANIFESTATIONOF ARMENIAN NATIONALISM


### SUMMARY

The article deals with the origin, ideological roots and manifestations of Armenian nationalism. The keynote of this article is an explanation of the relationship of Armenian nationalism with fascism during the Second World War and the essence of the "Miatsum", the ideological line of Armenian separatism in the Nagorno-Karabakh region of Azerbaijan at the end of the XX century.

# MÜASİR MƏRHƏLƏDƏ AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFININ ZƏRURİLİYİ VƏ İSTİQAMƏTLƏRİ

***Aynur Nurullayeva***
***ADİU-nun II kurs magistrantı***
*aynur.nurullayeva1998@gmail.com*

***Açar sözlər:***qeyri-neft sektoru, sahibkarlıq, biznes
***Key words:*** the non-oil sector, entrepreneurship, business
***Ключевые слова:*** ненефтяной сектор,предпринимательство, бизнес.

Ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının təmin edilməsi, rəqabətqabiliyyətliliyin artırılması üçün dövlətin struktur siyasətinin və iqtisadiyyatın ayrı-ayrı sahələrinin düzgün idarəetmə mexanizminin seçilməsi və formalaşdırılması vacib şərtlərdən biridir. İqtisadiyyatın sahə quruluşunun düzgün qiymətləndirilməsi, tənzimlənməsi və proqnozlaşdırılması üçün seçilmiş struktur siyasəti düzgün şəkildə istiqamətləndirilməli, formalaşdırılmalı və reallaşdırılmalıdır. İqtisadiyyatın müxtəlif sahələri milli iqtisadiyyatdakı xüsusi çəkilərinə, iqtisadi təyinatlarına, istehsal xüsusiyyətlərinə və inkişaf imkanlarına görə bir-birindən fərqlənirlər. İqtisadiyyatın strukturu və ya sahəvi quruluşu keyfiyyət cəhətdən eyni tipli təsərrüfat subyektlərinin məcmusunu ifadə edir. Ayrı-ayrı ölkələrdə milli iqtisadiyyatın strukturunu praktiki olaraq, üç əsas sahə təşkil edir: xidmət sahəsi, sənayekompleksi, aqrosənaye kompleksi [4, s.16].

Qeyd edilən sahələr müxtəlif xüsusiyyətlərinə görə bir-birindən fərqlənsələr də, onların hər biri iqtisadi cəhətdən son dərəcə əhəmiyyətlidir. Bundan əlavə, bu sahələr bir-birilə daim qarşılıqlı əlaqədə və asılılıqda olub, müxtəlif səbəblərə görə milli iqtisadiyyatda qeyri-bərabər inkişaf səviyyəsinə malikdirlər. Məhz bu səbəbdən ölkələr dünya təsərrüfatında bir çox hallarda xidmət sahələri üzrə inkişaf etmiş ölkələr, sənaye ölkələri, aqrosənaye ölkələri kimi təsnif olunur. [4, s.16]Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2019-cu ildə ÜDM-in strukturunda sənaye sahəsinin xüsusi çəkisi 41.4% təşkil etmişdir.[7]Odur ki, Azərbaycan Respublikası hələ də sənaye ölkəsi statusu ala bilməmişdir [4, s.16].

Bütün dünyada neft-qaz istehsalçısı kimi tanınan Azərbaycanda zəngin neft-qaz ehtiyatlarının olması bu sahənin yüksək inkişafına səbəb olmuşdur ki, bu da öz növbəsində ölkə iqtisadiyyatının davamlı inkişafına, əhalinin rifah halının yüksəlməsinə, eyni zamanda neftdən əldə olunan gəlirlər hesabına iqtisadiyyatın digər sahələrinin də inkişafına yol açmışdır.

İqtisadi inkişaf və tərəqqi dövrü hesab edilən 2004–2014-cü illər ərzində reallaşdırılmış iqtisadi artım modeli ölkə iqtisadiyyatını dünyanın yüksək sürətlə inkişaf edən iqtisadiyyatlarından birinə çevirmişdir. Neftdən əldə olunan gəlirlərin bir hissəsinin ölkə iqtisadiyyatına yönəldilməsi nəticəsində Azərbaycan qısa bir müddət ərzində yüksək-orta gəlirli ölkəyə çevrilmişdir. Bu illər ərzində neft-qaz istehsalının həcm və qiymətinin artması neft-qaz sektoruna birbaşa xarici investisiyaların cəlb olunmasına da öz töhfəsini vermişdir. Neft gəlirləri hesabına dövlət idarəetməsi, xidmət, müdafiə, sosial təminat, tikinti kimi digər sektorların da inkişafı təmin edilmiş, nəticədə ölkə iqtisadiyyatı 6 dəfə, adambaşına düşən milli gəlir isə 5 dəfədən çox artmışdır. Lakin, 2014-cü ilin sonlarından başlayaraq dünya əmtəə bazarlarında enerji daşıyıcılarının qiymətlərinin kəskin ucuzlaşması ölkəmizin xarici valyuta gəlirlərinin azalmasına və nəticədə 2004-2014-cü illər ərzində reallaşdırılmış iqtisadi artım modelinin maliyyələşmə imkanlarının məhdudlaşmasına səbəb olmuşdur.

Neftin qiymətinin kəskin aşağı düşməsinin mənfi təsiri 2015-ci ilin II yarısından etibarən ölkə iqtisadiyyatında müşahidə olunmağa başlamışdır. Belə ki, ABŞ dollarının milli valyutaya

qarşı məzənnəsi 2 dəfəyə yaxın yüksəlmiş, maliyyə sabitliyinin təmin edilməsi üzrə risklər formalaşmışdır. 2015-ci ildən başlayaraq ölkə iqtisadiyyatı keyfiyyətcə yeni mərhələyə keçid etmişdir. Yeni iqtisadi artım yanaşmasına keçid üçün 2010-2014-cü illər ərzində reallaşdırılmış iqtisadi artım modelinin, eləcə də həmin dövrdə reallaşdırılan iqtisadi siyasətin təhlili nəticəsində ən mühüm çağırışların və risklərin əsasında yeni artım dayaqlarının müəyyən edilməsi zərurəti yaranmışdır. Proqnozlara görə, neft-qaz ehtiyatlarına qlobal tələbatda artım 2050-ci ilə qədər təqribən 0,7% zəifləyəcək (bundan əvvəlki artım proqnozlarından 30% az), üzvi yanacaq növlərinin ümumi enerji sektorunda payı azalacaq.

Bu şərtlər altında neftin qiymətinin əvvəlki yüksək səviyyələrə qayıtması gözlənilmədiyinə görə yaxın gələcəkdə neftdən əldə olunan gəlirlər hesabına yüksək artımın bərpa olunacağı proqnozlaşdırılmır. Bundan əlavə, Beynəlxalq Valyuta Fondu (BVF) Azərbaycan iqtisadiyyatının 2025-ci ilə qədər illik 2-3% artacağını proqnozlaşdırır. Bu artım tempi keçən bir neçə il ərzində müşahidə edilən artım səviyyəsinə uyğun olsa da, belə aşağı artım səviyyəsi ölkə iqtisadiyyatının qarşısında duran məqsədlərə çatmaq üçün kifayət etmir.Məhz bu səbəbdən hazırkı dövrdə qeyri-neft sektorunun, xüsusilə emal sənaye sahələrinin yüksək dayanıqlı inkişafının təmin edilməsi zəruri hesab olunur [3, s.7-12].

XXI əsrin ilk onilliyində Azərbaycanda neft sektoruna cəlb edilən investisiyaların həcminin kəskin artması bu sahədə iqtisadi artım tempinin qeyri-neft sektorundakına nisbətən daha yüksək olmasına gətirib çıxarmışdır [5, s.2]. Neft sektoru ölkə iqtisadiyyatının inkişafında təsirli rol oynasa da, sosial-iqtisadi inkişafın yalnız bu sahədən asılı olması iqtisadi böhrana səbəb ola bilər. Bu asılılığı aradan qaldırmaq üçün iqtisadiyyatın digər sahələrinin, yəni qeyri-neft sektorunun inkişaf etdirilməsi daha məqsədəuyğun hesab edilir. Neft sektorundan əldə olunan gəlirlərin digər sahələrə yönəldilməsi imkanı, həmçinin ölkənin zəngin təbii sərvətlərə, əlverişli iqlim şəraitinə və təbii-coğrafi mövqeyə malik olması qeyri-neft sektorunun inkişafına zəmin yaradır.

Müasir dövrdə Azərbaycanda qeyri-neft sektorunun inkişafını zəruri edən amillərə aşağıdakıları aid etmək olar: ölkədə iqtisadi inkişafın neft sektorundan asılılığının aradan qaldırılması (nəzərə alsaq ki, neft tükənən və bərpa olunmayan təbii ehtiyatdır); ölkədə iqtisadiyyatın davamlı və dayanıqlı inkişafının təmin edilməsi;ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin artırılması; əhalinin sosial-iqtisadi rifah halının yüksəldilməsi; məşğulluğun təmin olunması; yoxsulluq səviyyəsinin azaldılması; yeni müəssisələrin yaradılması və iş yerlərinin açılması;əhalinin istehlak mallarına və xidmətlərə olan tələbatının ödənilməsi; enerji vəərzaq təhlükəsizliyinin təmin olunması; ixrac yönümlü məhsul istehsalının həyata keçirilməsi; regionların sosial-iqtisadi inkişafının təmin edilməsi; ölkənin ixrac imkanlarının genişləndirilməsi; sahibkarlığın inkişaf etdirilməsi; qeyri-neft sektorunun ölkə iqtisadiyyatının inkişafında əhəmiyyətli rolunun olması və s.

Hazırda Azərbaycan dünyada neft-qaz istehsalçısı kimi tanınır. Lakin Azərbaycanda iqtisadiyyatın digər sahələrini inkişaf etdirməklə, ölkənin ayrı-ayrı sahələr üzrə ixtisaslaşmasına, təkcə “neft-qaz istehsalçısı” kimi deyil, həmçinin müxtəlif sahələrin yüksək səviyyədə inkişaf etdiyi ölkə kimi tanınmasına, qeyri-neft sektoruna daxil olan sahələrdə istehsal olunan məhsulların “Made in Azerbaijan” adı altında dünya bazarına çıxarılmasına nail olmaq olar. Bunun üçün Azərbaycanda potensial imkanlar vardır. Ölkənin əlverişli təbii-coğrafi mövqedə yerləşməsi, zəngin təbii sərvətlərə və əlverişli iqlim şəraitinə malik olması qeyri-neft sektorunun alt sahələrinin inkişafına şərait yaradır.

Ölkəmizin xammal və enerji ehtiyatlarının bolluğu, zəngin yeraltı və yerüstü təbii sərvətlərə malik olması, yenilənmiş nəqliyyat infrastrukturu, əmək ehtiyatlarının olması və s. kimi amillər qeyri-neft sektoruna daxil olan müxtəlif sahələrin inkişafı üçün böyük imkanlar yaradır. Hazırda Azərbaycanda emal sənaye sahələri, informasiya-kommunikasiya texnologiyaları, turizm, kənd

təsərrüfatı sahələri qeyri-neft sektorunun davamlı və dayanıqlı inkişafı üçün əsas prioritet sahələr hesab olunur [6].

Ölkədə yüksək dayanıqlı və davamlı inkişaf üçün ölkə iqtisadiyyatının, məzənnənin və dövlət büdcəsinin neftdən asılılığı minimum səviyyəyə endirilməlidir. Neftdən əldə olunan vəsaitlər ölkə əhalisinin məhsul və xidmətlərə olan tələbatına əhəmiyyətli dərəcədə təsir göstərdiyinə görə neftin qiymətində olan dəyişikliklər ölkə iqtisadiyyatında sabitliyi pozur. Misal üçün, 2004- 2014-cü illər ərzində illik artım tempinin orta hesabla 11.5 faiz dərəcəsi dəyişməsi şirkətlərin planlaşdırma imkanlarının məhdudlaşması və özəl sektora qoyulan investisiyaların azalması ilə nəticələndi. Bundan əlavə, neftdən əldə olunan gəlirlər xarici valyutanın əsas mənbəyi olduğuna görə neft qiymətlərindəki dəyişikliklər milli valyutanın dəyər itirməsinə səbəb olur [3, s.44].

Hazırkı dövrdə Azərbaycanda neft sektoru ilə yanaşı iqtisadiyyatın digər sahələrinin inkişafı da diqqət mərkəzində saxlanılır. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, göstərişləri, qanunlar, qərarlar və dövlət proqramlarının hazırlanması və həyata keçirilməsi mühüm əhəmiyyətə malikdir.

Gələcəkdə idxaldan asılılığı azaltmaq, eyni zamanda ölkə daxilində istehsal olunan məhsullarla özünütəminetmə səviyyəsini yüksəltmək məqsədilə qeyri-neft sektoruna daxil olan sahələr üzrə xidmətlərin göstərilməsi, bu sahələr üzrə fəaliyyət göstərən müəssisələrdə rəqabətqabiliyyətli, innovativ, beynəlxalq standartlara uyğunlaşdırılmış məhsulların istehsalının və ixracının təşviqi sahəsində hökumət qanunvericilik bazasında bir sıra zəruri dəyişikliklər həyata keçirmişdir. Azərbaycan Respublikası Prezidentinin "Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı (18 yanvar 2016-cı il, № 1713) və "Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı (1 mart 2016-cı il, № 811) ölkəmizin rəqabət qabiliyyətinin yüksəldilməsinə və ixracının şaxələndirilməsinə təkan verəcəkdir. İxtisaslaşmanın artırılmasında, iqtisadiyyatın şaxələndirilməsində əsas məqsəd, qeyri–neft sahələrində daha çox dəyərin yaradılması ilə gəlirlərin həcminin artırılması, ədalətli bölgüsünün aparılmasıdır [3, s.24].

Müasir mərhələdə ölkədə həyata keçirilən iqtisadi siyasətin düzgün şəkildə istiqamətləndirilməsi və həyata keçirilməsi, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, qərarlar, göstərişlər, qanunlar və dövlət proqramlarının yüksək səviyyədə icra edilməsi iqtisadi inkişafın sürətlənməsinə, o cümlədən qeyri-neft sektorunun inkişaf səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. Son illər ərzində ölkə iqtisadiyyatı yeni inkişaf mərhələsinə qədəm qoymuş, ölkədə makroiqtisadi sabitlik təmin olunmuş, investisiya və biznes mühitinin formalaşdırılması və əlverişliliyinin artırılması, regionların sosial-iqtisadi inkişafı, sahibkarlığın inkişaf etdirilməsinə istiqamətlənən dərin iqtisadi islahatlar, kompleks tədbirlər hazırlanmış və həyata keçirilmişdir.

Qeyri-neft sektorunun yüksək səviyyədə inkişafına nail olmaqla davamlı iqtisadi inkişafın təmin olunması müasir dövrdə ölkə qarşısında duran mühüm vəzifələrdən biridir. Ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafını təmin etmək məqsədilə bir sıra hədəflər müəyyən edilmişdir. Bu hədəflər Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş, ölkəmizin yeni bir inkişaf mərhələsinə qədəm qoymasına əsaslanan "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında öz əksini tapmışdır.

Sözügedən konsepsiyanın "İqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı" adlanan dördüncü bölməsində qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olan əsas istiqamətlər göstərilmişdir. Belə ki, bu sektorun yüksək inkişafına nail olmaq məqsədilə ölkədə mövcud olan iqtisadi və təbii resursların təsərrüfat dövriyyəsinə cəlb olunmasının genişləndirilməsi, yerli və xarici investisiyaların cəlb olunması, onlardan istifadə olunması tədbirlərinin işlənib hazırlanması və həyata keçirilməsi, investisiya fəaliyyətinin əlaqələndirilməsi, regionlarda yeni istehsal müəssisələrinin yaradılması və həmin müəssisələrdə

istehsalın yerli xammala əsaslanması, yeni texnologiyaların tətbiq edilməsi, texnoloji qurğuların, maşın və avadanlıqların quraşdırılması, idxalı əvəzləyən və ixrac yönümlü məhsul istehsalının artırılması nəzərdə tutulur [1, s.16].

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd olunan əsas prioritetlər arasında iqtisadiyyatın strukturunun inkişafı ilə bağlı məsələlərə xüsusi yer verilmişdir. Bu konsepsiyada qeyri-neft sahələrinin inkişafına xidmət edən, müasir dövrün tələblərinə cavab verə bilən sosial, istehsal, bazar infrastrukturu şəbəkəsinin yaradılması, idarəçiliyin və təsərrüfatçılığın mütərəqqi formalarından istifadənin genişləndirilməsi, ölkənin regionlarında yerli xammala əsaslanan, ən qabaqcıl texnologiyaların tətbiq olunduğu yeni sənaye müəssisələrinin yaradılması və onların fəaliyyətlərinin müasir səviyyədə qurulması istiqamətində həyata keçiriləcək tədbirlər qeyd edilmişdir.

Bundan əlavə, alüminium sənayesinin inkişaf etdirilməsi, ilkin alüminium istehsalının artırılması, son məhsul istehsalına qədər olan texnoloji zəncirin qurulmasının özəl sektor nümayəndələrinin iştirakı ilə təmin edilməsi, qeyd olunan sahənin ixrac potensialının genişləndirilməsi, həmçinin bütün sənaye müəssisələrində innovasiya yönümlü, qabaqcıl texnologiyaların tətbiqinin stimullaşdırılması, ümumi təyinatlı və ixtisaslaşmış sənaye şəhərciyinin yaradılması nəzərdə tutulmuş, ölkənin iqtisadi rayonlarında sənaye şəhərciyinin yaradılması və zəruri infrastrukturun formalaşdırılması dövlətin qeyri-neft emal sənaye sahələrinin inkişafının təmin edilməsi ilə əlaqədar investisiya siyasətinin əsas istiqaməti kimi göstərilmişdir.

Belə ki, iqtisadi rayonların potensialı nəzərə alınmaqla sənaye şəhərciklərinin qurulması, xüsusi iqtisadi zonaların yaradılması atılmalı olan vacib addımlardan hesab edilir. Sözügedən inkişaf konsepsiyasında eyni zamanda qeyd olunur ki, qeyri-neft sənayesinin maşınqayırma, metallurgiya, kimya, elektronika, elektrotexnika, yüngül və yeyinti sənayesi və s. kimi qədim və ənənəvi istehsal sahələrinin davamlı inkişafının təmin olunması, bu sahələrin ixrac imkanlarının artırılması, habelə yeni rəqabətqabiliyyətli istehsal sahələrinin yaradılması istiqamətində tədbirlər həyata keçiriləcək. Bütün bunların reallaşdırılması üçün restrukturizasiya və sənaye istehsal müəssisələrinin təşkilati strukturunun daha da təkmilləşdirilməsi vacib addımlardan hesab edilir.

İlk növbədə hazırda fəaliyyət göstərən müəssisələrdə daha mobil idarəetmə strukturunun formalaşdırılması və idarə aparatında menecerlər institutunun yaradılması, menecerlərin səlahiyyətlərinin artırılması tələb edilir. Digər tərəfdən, ölkədə emal sənaye sahələrinin, ümumilikdə məhsuldar qüvvələrin ərazi üzrə bərabər yerləşdirilməsi ilə Abşeron iqtisadi rayonunun iqtisadi yükünün azaldılması, həmçinin sənaye sahələri arasında mütənasibliyin təmin edilməsi ölkənin bölgələrində qeyri-neft sektorunun uğurlu inkişafına təminat yaratmış olacaqdır [1, s.17].

Qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi məqsədilə müvafiq tədbirlərin həyata keçirilməsi, müxtəlif sənaye sahələrinin yüksək inkişafına diqqət göstərilməsi nəticəsində respublikamız infrastruktur təminatı baxımından dünyanın qabaqcıl ölkələri səviyyəsinə yüksəlmişdir. Məhz bu səbəbdən ölkədə qeyri-neft sənaye sahələrinin yenidən qurulması, inkişaf etdirilməsi üçün geniş imkanlar yaranıb. Qeyd etmək lazımdır ki, son illər ərzində ölkəmizdə ən yüksək inkişaf göstəriciləri qeyri-neft sənaye sahələrində müşahidə edilmişdir.

Beynəlxalq təşkilatların, maliyyə institutlarının hesabatlarında ölkəmizin əldə etdiyi uğurlar öz müsbət əksini tapmışdır. Dünya Bankının "Doing Business 2019" hesabatına əsasən, Azərbaycan əvvəlki illə müqayisədə reytinqdə 32 pillə irəliləyərək, 57-ci pillədən 25-ci pilləyə yüksəlib. Belə ki, 10 indikatordan 8-i üzrə öz mövqeyini daha da yaxşılaşdıran respublikamız dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan edilib [2, s.3].

Hazırda ölkədə qeyri-neft sənaye sahələrinin inkişaf etdirilməsi ilə bağlı çoxlu sayda, yeni irimiqyaslı layihələr hazırlanır və həyata keçirilir. Bunun da nəticəsində həmin sahələrdə istehsal imkanlarının daha da artması gözlənilir. Milli iqtisadiyyat üzrə 2020-ci il üçün strateji baxış bazarlara çıxış imkanlarının genişləndirilməsini ehtiva edir. Ticarət açıqlığının gücləndirilməsi və ticarət infrastrukturunun yaxşılaşdırılması daxili bazarın qorunması siyasətilə elə uzlaşdırılmalıdır ki, ölkədə təbii ehtiyatlardan daha səmərəli və kompleks istifadə əsasında daha çox dəyər qalsın və ədalətli bölüşdürülsün. Milli iqtisadiyyat üzrə 2025-ci ilə qədərki uzunmüddətli baxış davamlı və dayanıqlı inkişaf magistralına daxil olan ölkə iqtisadiyyatının bütün tərəflərin səmərəli əməkdaşlığı şəraitində daha da çox dəyər yaratmaqla rəqabət qabiliyyətliliyinin gücləndirilməsinə nail olmaqdır. Makroiqtisadi sabitliyin qorunması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, özəl sektora investisiya qoyuluşlarının təşviqi və dövlət dəstəyinin artırılması respublikamızın 2025-ci ilə qədərki müddətdə iqtisadi inkişaf perspektivinin fundamental əsasını təşkil edir [3, s.44].

Qeyri-neft sənaye sahələrində davamlı inkişafı təmin etmək üçün bu sahələrə yerli və xarici investisiyalar cəlb olunmalı, sahibkarlıq subyektlərinin maliyyə resurslarına çıxış imkanları artırılmalı, innovasiya fəaliyyəti genişləndirilməli, yeni sənaye müəssisələri yaradılmalı, mövcud müəssisələr modernləşdirilməli, bu müəssisələrdə yeni texnologiyalar tətbiq olunmalı, rəqabət qabiliyyətli, yüksək keyfiyyətli, beynəlxalq standartlara uyğunlaşdırılmış müxtəlif növ və çeşiddə məhsulların istehsalı həyata keçirilməlidir.

İqtisadi böyümədə biznesin çox əhəmiyyətli rolu olduğu aydın məsələdir. Buna görə də hökumət sahibkarlara yeni işə başlamaları və işlərini davam etdirmələri üçün kömək etməlidir. Hökumət əlverişli iqtisadi mühitin yaradılması ilə özəl biznesin inkişafına və məşğulluğun artmasına təkan verə bilər.Bunun üçün mümkün olduğu qədər aşağı, uyğunluq üçün sadə, geniş əsaslı vergi islahatları həyata keçirməli, həm daxili, həm də xarici ticarətin liberallaşdırılması və bütün müəssisələr üçün fondlara daha asan çıxışı olan bir maliyyə sektorunun yaradılmasına kömək etməli, mövcud islahatlar və yenidənqurma nəticəsində müəssisələrə dəyən ziyanı azaltmaq üçün kreditlər də daxil olmaqla mövcud vəsaitlər yaratmalıdır. Hökumət dəstək və məsləhət mərkəzləri üçün vasitəçi – resurs təminatçısı kimi fəaliyyət göstərməlidir. Eyni zamanda, infrastrukturun – yollar, elektrik enerjisi, su, nəqliyyat, telekommunikasiya, sənaye, torpaq sahələri və inkubatorların yaradılması, əsas bacarıq hazırlığı və bütün səviyyələrdə qənaətbəxş təhsilin yaradılması üçün məsuliyyət daşıyır. Bunlar olmadan biznes inkişaf edə bilməz. Dəstək xidmətlərinin mərkəzləşdirilməməsi, regional və yerli təşəbbüslərin təşviqi məqsədəuyğundur.

## ƏDƏBİYYAT

1. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası. (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.)
2. Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı (Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir.)
3. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.)
4. Abbasov İ., Əliyev T.(2017), Qeyri-neft sənayesinin iqtisadiyyatı. Bakı, 500 səh.
5. Süleymanov E., Zeynalov A. və Aras O.N. (2010), Azərbaycan Respublikasında qeyri-neft sektoru üzrə idxal-ixracın mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi, Qafqaz Universiteti Jurnalı, Nömrə 29.
6. Qeyri-neft sektorunun inkişafı http://www.azerbaijans.com/content_1671_az.html

7. 2019-cu ildə Ümumi Daxili Məhsul istehsalı https://www.stat.gov.az/news/index.php?id=4442

## XÜLASƏ

Məqalədə Azərbaycanda qeyri-neft sektorunun inkişaf istiqamətləri və bu sektorun inkişafını zəruri edən əsas amillər qeyd edilmiş, hökumətin iqtisadi siyasətinin əsas prioritetini təşkil edən bu sahəyə yönəldilən dövlət tədbirləri nəzərdən keçirilmiş, ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektoruna daxil olan sahələrin inkişaf etdirilməsi baxımından sahibkarlıq fəaliyyətinin rolu qiymətləndirilmiş,sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı hökumətin iqtisadi siyasətinin əsas istiqamətləri müəyyən edilmişdir.

## АННОТАЦИЯ

В статье подчеркиваются тенденции развития ненефтяного сектора в Азербайджане и основные факторы, которые требуют развития этого сектора, а также обсуждаются государственные меры в этой области, которая является основным приоритетом экономической политики правительства и обеспечивает устойчивое развитие экономики страны. Была оценена роль предпринимательской деятельности с точки зрения развития, определены основные аспекты экономической политики государства, связанные с развитием предпринимательства.

## SUMMARY

The article highlights the development trends of the non-oil sector in Azerbaijan and the main factors that require the development of this sector, and discusses state measures for this area, which is the main priority of the government's economic policy and which ensures sustainable development of the country's economy. The role of entrepreneurial activity in terms of development was evaluated, the main aspects of the government's economic policy related to the development of entrepreneurship were determined.

# AMERİKANIN YAXIN ŞƏRQDƏ NEFT MARAQLARI

***Şikar İbrahimov***
***AMEA Hüquq və İnsan Haqları İnstitutunun***
***"Beynəlxalq Münasibətlər və İnsan Hüquqları" şöbəsinin aparıcı elmi işçisi***
***ibrahim.shikar@gmail.com***

***Açar sözlər:*** Yaxın Şərq, Neft, ABŞ, Iran Körfəzi, Qloballaşma
***Ключевые слова:*** Ближний Восток, нефть, США, Персидский залив, глобализация
***Key words:*** Middle East, oil, USA, Persian Gulf, globallization

Yaxın Şərq deyincə ağla ilk neft gəlməkdədir. Yeni enerji qaynaqlarını və onları istehlak mərkəzlərinə çatdıran keçid nöqtələrini nəzarət altında tutmaq istəyən qüvvələr üçün Yaxın Şərq, nə bahasına olursa olsun hakim olunması lazım olan bir bölgə halına gəlmişdir. 1973–1990-ci illər arası dövrdə başda Avropa ölkələri və ABŞ olmaqla, bütün inkişaf etmiş ölkələr enerji ehtiyacı baxımından Ərəb neftlərinə asılı vəziyyətə gelmişdilər. 1980-ci ildə Avropa ölkələrinin neft idxalatının 71%-i, ABŞ neft idxalatının isə 47 % -i ərəb ölkələrindən gəlməkdəydi (1). Ərəb ölkələri arasında isə neft ticarətinin əsas payı Səudiyyə Ərəbistanı, Küveyt, BƏƏ və Bəhreyn kimi Körfəz ölkələri ilə İraqa aid idi və bu ölkələr arasında Səudiyyə Ərəbistanı heç şübhəsiz bir üstünlüyə sahib idi.

Sənayiləşmiş ölkələrin enerji təhlükəsizlikləri baxımından Körfəz ölkələri imtina edilməz bir mövqeyə sahib olmuşdurlar. 1992-ci ildən etibarən dünya kəşf edilmiş neft ehtiyatlarının böyük hissəsi Körfəz ölkələrində payına düşürdü. Eyni bölgədə olan İran və İraqın ehtiyatları də əlavə olunduğunda bu nisbət 65,6% -ə çatmaqdaydı (2.3).

1970-ci illərdən etibarən ABŞ-ın Yaxın Şərq və xüsusidə Körfəz ölkələrinə olan enerji asılılığı sürətli bir artışa keçmişdi. Yaxın Şərq və Körfəz neftindən sözün tam mənasıyla asılı vəziyyətdə olması ABŞ-ı istər istəməz bölgədəki enerji qaynaqlarını idarə etməyə yönəltmişdir.

1973–1974cü illər neft böhranı dövrü ilə əlaqədar olaraq 2004-cü ildə nəşr olunan İngilis kəşfiyyat sənədləri ABŞ-ın embarqo əsnasında Səudiyyə Ərəbistanını, bir briqada ilə Küveyt və Bəhreyini işğal etməyi planladığını, BƏƏ–ni isə İngilislərin köməyi ilə işğal etməyi planladığını yazmışdır (3).

Bu səbəbdən də ABŞ Körfəz ölkələrinə qarşı açıqca bir güc siyasəti aparmışdır.Körfəz ölkələrində neft çıxmasıyla birlikdə ABŞ təsirinin daha da artmasının bir sıra səbəbləri var və ən əhəmiyyətli səbəblərdən biri ABŞ-ın Ərəb neftlərinə duyduğu ehtiyacın artmasıdır. Region neftinin qərb ölkələrinə daşınmasını təmin edən çox millətli neft şirketlerinin ABŞ hökuməti üzərindəki təsiri və fəaliyyətləri danılmaz idi. 1973cü il neft böhranı zamanı və sonralar ABŞ hökuməti neft sahələrinin olduğu bölgələri işgal etməyi bir variant olaraq qiymətləndirməyə almıştır. İstər ABŞ-lı idarəçilərin şərhləri, istərsədə təşkil edilən panellərdə dilə gətirilən görüşlər, istərsə də alimlər tərəfindən yazılan kitab, məqalə və şərhlərdə ortaya qoyulan görüşlər bu vəziyyəti açıq şəkildə ortaya qoymaqdadır.

ABŞ-dakı qəzetlərdə nəşr olunan hesabatlarda da Pentaqonun neft quyularının olduğu bölgələri işgal edə biləcəyini ya da etməsi lazım olduğunu bildirən fikirlər nəşr olunurdu. Amerikan ordusuna bağlı xüsusi qüvvələr neft quyularının işğalı ilə əlaqədar bir çox manevr həyata keçirmişdilər. ABŞ Xarici işlər naziri Henry Kissinger 2 yanvar 1975 ci ildə Orta şərqdən neft axınının təhlükəyə girməsi halında hərbi müdaxilə variantının uzaq bir ehtimal olduğunu demiş və ertəsi gün jurnalistlərin soruşduğu bir suala hərbi variant ehtimalının şəxsən prizdent Forda aid olduğunu demişdir (4). Daha sonra Ağ Ev spikeri, Kissincer tərəfindən söylənilən fkirlərin prizdent Fordun fkirlərini əks etdirdiy görülmüşdü. Necə ki bu istiqamətdəki xəbərlər 12

yanvar 1975-ci il tarixli Tayms jurnalında şəxsən przdent Ford tərəfindən təsdiq edilmişdir. Həmən dövrdə də xarici işlər və müdafiə nazirliklərindən də oxşar şərhlər gəlmişdir (5).

ABŞ-ın neft bölgələrini silahlı güc istifadə edərək ələ keçirmə təhdidlərini həyata keçirməməsinin bir sıra səbəbləri vardır. Əvvəlcə söz mövzusu dövrdə ABŞ Vietnam sindromundan hələ xilas ola bilmədiyi üçün ictimaiyyət yeni bir cəbhə açılmasına qarşı çxırdı. Bu dövrdə aparılan ictimaiyyət araştırmaları Orta şərqə hərbi müdaxilə variantına xalq dəstəyinin zəif olduğunu göstərirdi. ABŞ rəhbərliyi silahlı gücdən istifadə variantını dilə gətirdiyində Konqres üzvləri Orta şərqin çox çətin bir bölgə olduğu və bu səbəblə sakit diplomatik bir strategiya yürüdülməsinə tərəfdar çıxmaqda idilər. Əks halda hərbi müdaxilə nəticəsində Ərəb millətçiliyinə və İslami radikalizmə bağlı axınlar kütlələri hərəkətə keçirə və bölgədə ortaya çıxacaq vəziyyət ABŞ maraqlarına böyük zərər verebilərdi. Bu səbəbdən, münaqişə yerinə, Ərəblərlə işbirliyini nəzərdə tutan bir yol tutulmalı idi.

Yaxın Şərqdəki İngilis hərbi varlığının sona çatması, ABŞ-ın da Vietnam müharibəsinin ağır büdcəsi, digər inkişaf etmiş ölkələr qarşısındaki nisbi iqtisadi rəqabət gücünün azalması və s. kimi səbəblər 1973-cü ilin sonunda baş verən neft böhranını hərbi bir müdaxilə ilə təhlil etmə ehtimalını azaltmıştır. Bu vəziyyət Qərb ölkələrinin enerji təhlükəsizliyini təhlükəyə atmaqda və neft böhranının qlobal səviyyədə təsirini daha da dərinləşdirməkdəydi (6.39).

Neft böhranının səbəblərindən biri olan neft embarqosu və böhran zamanı neft qiymətlərinin artmış olması ABŞ-ın bölgə siyasətini gözdən keçirməsinə səbəb olmuştur. Bu dövrdə Körfəz ölkələrinə dönük olaraq tətbiq olunan siyasətlər sayəsində həm Körfəz ölkələri bir az daha Qərbə asılı hala gətirilərək bazar iqtisadiyyatlarının enerji təhlükəsizliyi təşkil edilmiş, həm çətinlikdə olan ABŞ iqtisadiyyatı üçün təzə qaynaq tapılmış, həm də qərbli ölkələrin sənaye məhsulları üçün bazar imkanları genişlətilmişdir. Digər tərəfdən, 1973-neft böhranına bənzər bir hadisəni təkrar yaşamaq istəməyən qərb ölkələri enerji qənaəti, yeni neft sahələrinin keşfi, neftə alternativ enerji mənbələrinin istifadə edilməsi kimi bir sıra tədbirlərə əl atmışdılar və Körfəz ölkələri istehsal və qiymət siyasətini təyin edərkən bu tədbirləri göz qarşısında saxlamaq məcburiyyətində qalmışlardır.

1975-ci ildə Vaşinqtonun dəvəti ilə toplanan OECD zirvəsində üzv ölkələrin enerji siyasətini koordinasiya etmək üzrə Beynəlxalq Enerji Agentliyinin qurulmasına qərar verilmişdir (7). Bu agentlik vasitəsilə qərb ölkələri enerji siyasətini vahid hala getirərək, yeni tədbirlər, qaynaqlar və texnologiyalar inkişaf etdirdilər. 1986-ci ildə neft qiymətləri dib nöqtəsini görüncə, dövlət katibi C.Buş Qərb dünyasının təhlükəsizliyi ilə birbaşa əlaqədar olan neft bazarının öz başına buraxılmasının doğru olmadığını dilə gətirmişdir .(8.756) Bununla da ABŞ-ın mövzunun siyasi, iqtisadi və təhlükəsizlik ilə əlaqədar ölçüləri ilə olan marağını davam etdirdiyini göstərmişdir. Necə ki, 1992-ci ildən etibarən ABŞ Körfəz bölgəsində 500.000 ətrafında əsgər saxlamaqdaydı. SSRİ-nin dağılmış olmasına baxmayaraq bölgənin strateji əhəmiyyəti ABŞ üçün dəyişməmişdi. ABŞ neft və Ərəb-İsrail problemi ilə maraqlandığı müddətcə, Körfəz ölkələri ilə yaxın münasibətlər içərisində olmaq məcburiyyətində idi.

Dünya bazarlarına uyğun qiymətlə enerji axınının təmin edilməsi ABŞ-ın təməl məqsədidir və bu məqsədin reallaşması üçün Körfəz ölkələri ilə yaxın münasibətləri davam etdirmək məcburiyyətində idi. 1980-ci illər sona çatarkən belə, Qərb öz enerji təhlükəsizliyini tam mənasıyla təmin etmiş deyildi. Neft ən vacib enerji mənbəyi olma xüsusiyyətini qorumaqdaydı. Dünya kəşf edilmiş neft ehtiyatlarının yarıya yaxın hissəsi Yaxın Şərqdə yerləşməkdəydi. Üstəlik bölgə nefti dünyanın ən ucuz xərcli nefti olma xüsusiyyətini də daşımaqdaydı. Körfəz bölgəsində çıxarılan neftin yarıdan çoxu Avropaya və Yaponiyaya gitmekdəydi.

On ilin sonunda qərbli ölkələrinin Yaxın Şərq neftlərinə bağımlığı, ən az 1973ci il böhranı dövründəki qədər sıx idi. Üstəlik çox millətli neft şirketlerinin 1972-ci ildə 75% olan istehsal payları 1986-ci ilə gəlindiyində 40 faizin altına düşmüşdü. ABŞ-ın və digər Qərb ölkələrinin

Körfəz ölkələrinin nefti ilə əlaqədar maraqları, bu ölkələrdəki neft fəaliyyətlərinin təhlükəsizliyi, hətta şəxsən bu ölkələrin təhlükəsizlikləri ilə maraqlanmalarını tələb edirdi.

İstehsal xərclərinin olduqca az və keyfiyyətinin son dərəcə yüksək olması səbəbiylə, Körfəz bölgəsi neftinə kim nəzarət etsə böyük qazanc əldə edəcəkdi. İngiltərənin bölgədən çəkilməsiylə birlikdə Vaşinqton bölgədəki güc boşluğunu şah liderliyindəki İran ilə doldurmağa çalışmışdı amma şahın iqtidardan düşməsini əngəlləyə bilməmişdi. Hətta şahın devrilməsində bölgədə ABŞ-ın əlaltısı olaraq görünməsinin də böyük payı var idi. Nəticədə bölgədəki Amerikan siyasətinin sütunlarından biri çökmüş oldu.

Bu sırada İran və Livanda ortaya çıxan girov böhranlarında ABŞ-ın təsirsiz qalması super gücün bölgədəki təsirinin sərhədlərini da ortaya qoyur. Neft və neftdən əldə edilən gəlirlər Körfəz ölkələrini təhlükəsizlik kontekstində qərbə olan bağlılıqlarını gözlə görülr bir şəkildə artırmışdır. Zənginliyə baxmayaraq hərbi baxımdan zəif olmaq və milliyyətçi və radikal islamçı düşüncələr qarşısında güclü bir arqumentə sahib olmamaq Körfəz ölkələrini neft gəlirlərinin artmasından sonra təhlükəsizlik və müdafiə sahələrində daha çox Qərbə yönəlmələrini səbəb olmuşdur.

1973-ci ilin son üç ayında barreli 1,99 dollardan 7 dollara yüksələn neft qiymətləri 27 Sentyabr 1975 tarixinə gəlindiyində 11,55 dollara yüksəlmişdir. OPEC ölkələri, 1975, 76 və 77-ci illərdə illik ortalama 35 milyard dollarlıq (silahlanma və digər idxal xərcləri xaricində) bir investisiya ayırma gücünə çatmışdılar. Bu investitsiyanın böyük bir hissəsi ABŞ-a getmişdir və ABŞ-a gedən fondlar ümumiyyətlə qısa müddətli vasitələrə, 26 milyard dollarlıq hissəsi ABŞ-lı və Avropalı şirkətlərə yatırılırkən, 8 milyard dollarlıq hissəsi də BVF, Dünya Bankı və ikişaf etməkdə olan ölkələrə investisiyalar şəklində ayrılmışdır.

İxrac edilən neftin həm miqdarının həm qiymətlərinin artması, idxal tutumları olduqca məhdud olan Körfəz ölkələrində müəyyən bir sərmayə yığını yaratmışdı.1980-ci illərin başlarından etibarən bu vəsaitlərin ümumi miqdarının 300 milyard dollara çatdığı təxmin edilməkdəydi. 1976-cı ildə 176 milyard dollar olan OPEC ölkələrinin illik neft gəlirləri 1980-ci ildə 250 milyard dollara çatmışdı. 1979-cu ildəki qiymət artımlarından İran xaricində bütün OPEK üzvləri yararlanmışdılar və ən böyük gəlir artişı 42 milyard dollarla (bütün gəlir artışlarının 72% ) Səudiyyə Ərəbistanına aid idi. OPEk ölkələrinin gəlirləri 1981-ci ildə isə 4 faizlik bir azalma ilə 240 milyard dollar olmnuşdur. Amma İran və İraqda istehsalın düşməsi səbəbiylə istehsalını artıran Səudiyyə Ərəbistanının gəlirlərində 12 milyard dollarlıq bir artışı görülmüşdü (9.77).

Bu sərmayənin böyük bir hissəsi qərbli maliyyə təşkilatlarına verilmişdir. Ərəb ölkələrində yğılmaqda olan bu pulların çoxu bir çox ölkədə büdcə kəsrlərinin bağlanılması məqsədiylə istifadə olunmuşdur. Ayrıca, neftdən əldə edilən bu sərmayə üçüncü dünya ölkələrindəki investisiya təşkilatlarının da təməl qaynağını formalaşdırmışdır. Necə ki, Körfəz ölkələri neftdən əldə etdikləri gəlirləri ümumi olaraq ABŞ maliyyə bazarına yatırtmışdılar.

Körfəz ölkələri neft xarıcində ABŞ-dakı investisiyalardan da əhəmiyyətli ölçüdə gəlir əldə etməyə başlamışdlar. Bu vəziyyət ABŞ ilə Körfəz ölkələri arasında yeni bir yaxınlıq yaratmışdı. Yəni, ABŞ iqtisadiyyatındakı dalğalanmalar Körfəz ölkələrini də yaxından maraqlandırmağa başlamışdı. Bəzi tədqiqatçılara görə, ABŞ 1973ci il neft böhranının ardından Körfəz ölkələrini Amerikan iqtisadiyyatıyla bütünləşdirmə strategiyası həyata keçirmiş və burada da müəyyən mənada uğur qazanmışdı (10.21). Bu strategiya nəticəsində Körfəz ölkələri ABŞ maliyyə sistemi üçün ehtiyat kapital mənbəyi halına gelmişdi. Vashingtonun tətbiq etdiyi bu strategiya son dərəcə uğurlu olmuşdur.

Neft sərmayəsinin ABŞ-a yönəlməsi nəticədə SSRİ qarşısında güclənməsi və Sovetlərin çökməsinin sürətlənməsi demək idi. ABŞ xarici sərmayənin cəlb edilməsi sayəsində böyük ölçüdə silahlanma layihələrini dəstəkləmə gücünü göstərmiş və bu şəkildə Sovetlər Birliyini çətin vəziyyətə salmışdı.

Böyük miqdarda neft ixracını qarşılaya biləcək tələbin yalnız qərbli ölkələrdən gəlməsinə və çox miqdarda gəlirlər üçün uyğun investisiya imkanlarının yalnız Qərbdə olmasına əlavə olaraq,

neft satışından əldə edilən yüksək miqdardakı gəlir axınına vasitəçilik edə biləcək başqa bir pul vahidi olmadığı üçün Körfəz ölkələri gəlirlərin investisiya halına yalnız Amerikan dolları ilə edirdilər.Əslində Körfəz ölkələri Amerikan dolları xaricində alternativləri istifadə etmək istəmişlər amma bunu reallaşdıra bilmədilər.

Bu nöqtədə göz qarşısında saxlanılması lazım olan ən əhəmiyyətli məsələlərdən biri də neft ixrac edən ölkələrin iqtisadi gücləri ilə siyasi qüvvələrinin tam olaraq uyğun olmamasıdı. Xatırlatmalıyıq ki, bu uyğunsuzluq yalnız Körfəz ölkələrinə, ya da yalnız təbii ehtiyatlarla zəngin ölkələrə xas bir vəziyyət deyil. Yaponiya kimi bəzi sanayiləşmiş ölkələrin də beynəlxalq sahədə iqtisadiyyatları ilə mütənasib bir spesifik ağırlığa sahib olmadıqları bilinən bir həqiqətdir.

Neft gəlirlərinin artması ilə birlikdə qərbli ölkələrin bölgəyə iqtisadi və siyasi nüfuzunda bir artış görünmüş, Qərb ilə yaxşı münasibətlərin qurulması krallıqlar üçün həm öz ölkələrində, həm də qərbli ölkələrdə etdikləri sərmayələrlə əlaqədar maraqlarını qorumaqda əhəmiyyətli hala gelmiş və nəticə olaraq krallıqlar beynəlxalq burjaziyanın yeni üzvləri vəziyyətinə gəlmişdirlər. Bu dövrdə neft gəlirlərinin yüzdə səksən dördü qənaət ya da investisiya olaraq qərbli ölkələrə yönləndirilmişdir. Elə ki, 1970-ci illərin əvvəlində yalnız Səudiyyə Ərəbistanı və Küveytin Yaxın Şərq bölgəsi xaricindəki sərmayələri 210 milyard dollara çatmışdır (10.21). Bu rəqəm o dövr üçün olduqca böyük rəqəm idi. Səudiyyə Ərəbistanı ABŞ bankları, xəzinə bonosu və daşınmaz əmlak sahələrindəki 133 milyard dollarlıq sərmayəsi və illik 10 milyard dollarlıq faiz gəliriylə bu ölkədəki ən böyük investor halına gelmişdir.

1980-ci illərin sonuna doğru isə Körfəz ölkələrinin yalnız ABŞ-da etdikləri investisiyaların miqdarının 1 trilyon dollara yaxınlaşdığı irəli sürülmüşdür (11.3). Bu investisiyalar Qərb iqtisadiyyatının sağlam inkişafına Körfəz ölkələri rəhbərlərinin uzun müddətli maraqları üçün zəruri hala getirilmişdir. Bu səbəblə, Körfəz ölkələri rəhbərləri neft qiymətlərini qərb iqtisadiyyatı üçün məqbul bir səviyyədə tutmağa çalışırdılar.

Neft gəlirlərinin investisiya halına gəlməsi Körfəz ölkələrinin qərb yönümlü siyasətlərinə daha da dərindən təsir etmişdir. Çünki bu gəlirlərin qərb ölkələrinə transferi qərb ölkələir baxımından nə cür əhəmiyyətlidirsə, qərb ölkələrində optimal gəlir əldə ediləcək şəkildə dəyərlənməsi və Körfəz ölkələrinə etibarlı bir şəkildə geri dönməsi də o cür əhəmiyyətli hala gəlmişdir. Bu baxımdan baxıldığında, neft gəlirləri Körfəz ölkələrini qərb ölkələri qarşısında daha diqqətli olmağa sövq etmiş və onları Qərbən daha çox asılı hala getirmişdir. Məsələn, ABŞ ilə münasibətlərin pozulması, Körfəz ölkələrinin ABŞ-dakı sərmayələrinin geri dönüşünü təhlükəyə atabilərdi.

Bu səbəbdən Körfəz ölkələri ABŞ ilə münasibətlərini müəyyən bir səviyyədə tutmaq məcburiyyəti duymuşlar. Körfəz müharibəsindən sonra isə neft baxımından zəngin amma hərbi baxımdan gücsüz olan Körfəz ölkələri İraq karşısında özlərinin müdafiə üçün Qərb ölkələrinə nə qədər möhtac olduqlarını hiss etmişdilər. Bu vəziyyətdə neftin yaxın gələcəkdə Qərbə qarşı siyasi bir silah olaraq yenidən istifadə edilməsi ehtimalını ortadan qaldırmışdı.

Qərb ölkələri neft ixrac edən ölkələrini yalnız problemsiz bir enerji tədarükçüsü olaraq görmək istəyirdilər və bunun reallaşması üçün uyğun rejimlərin hakimiyyətdə qalmasına çalışırdılar.

1973-cü ildə Körfəz ölkələrinin ABŞ-a qarşı tətbiq etdikləri embarqo belə ABŞ ilə aralarındakı strateji müttəfiqliyə mane olamamışdır. Çünki, Körfəz ölkələri, mənfəətləri səbəbindən özlərini Qərb dünyası ilə birlikdə davranmaq məcburiyyətində hissedirdilər. 1973–1990-cı illər arası dövrdə Körfəz ölkələrinin nefti üçün alternativsiz müştərisi Qərb dünyası və Japonya idı. Üstəlik əldə edilən böyük miqdarda neft gəlirlərini nə Körfəz bölgəsində nə də Qərb dünyası xaricində istehlak etmə ya da investisiya çevirmə imkanı var idi. Neft gəlirlərinin maliyyə investisiya olaraq ABŞ və Avropa ölkələrinə geri dönməsi və sabit bir şəkildə bu ölkələrdə qalmağı üçün, Körfəz ölkələri ilə münasibətlərin yaxşı olması lazım idi. Necə ki, 1990-cı illərin əvvəlində ABŞ-da daşınmaz əmlak qiymətlərinin düşməsiylə birlikdə ortaya çıxan maliyyə

problemlərin həlli üçün Sitibank kimi əhəmiyyətli banklar Ərəb investorların köməyinəehtiyac duymuşlar.

Neft ixrac edən ölkələrini qlobal və regional mənada ön plana çıxmalarını təmin edən bir digər səbəb, bu ölkələrin neftdən əldə etdikləri gəlirlər sayəsində sənaye ölkələri üçün əhəmiyyətli bir bazar halına gelmələriydi. 1980-ci ildə Ərəb ölkələrinin idxalı 122,7 milyard dollar ətrafında idi və bu rəqəm dünyadakı ümumi idxalatın 10 %-ni təşkil edirdi. Ərəb dünyası ehtiyaclarının təqribən 44 %-ni Avropa ölkələrindən, 10%-ni ABŞ və Yaponiyadan qarşılamaqdaydı. Avropa ölkələri, ABŞ və Yaponiya kimi inkişafetmiş ölkələr Körfəz ölkələri ilə olan münasibətlərində yüksək texnologiya və silah sənayesi məhsulları üçün pazarlarını genişləndirmək məqsədiylə davamlı bir səy içərisində olmuşdurlar. Yalnız 1980-ci ildə ABŞ şirkətləri Səudiyyə ərəbistanıda Səudiyyə Dəniz Qüvvələri üçün bir məktəb, Riyad Universiteti üçün səkkiz bina, Yenbu şəhərində bir peyk şəhər, Ciddədə Milli Ticarət Bankı (National Commerce Bank) üçün bir ümumi mərkəz, müxtəlif yerlərdə hərbi lojmanlar, 328 yataqlı bir xəstəxana, 500 millik neft boru xətti, fabriklər və s inşa etmişdir (12).

Yetərli siyasi təcrübəyə sahib olmayan ölkələrin təbii qaynaqlardan əldə etdikləri gəlirlər artdıqca, bu ölkələrin sanayeləşmiş ölkələrə olan hərbi, təhlükəsizliklə əlaqədar və iqtisadi asıllıqları artar. Bu asılıdır sözü gedən ölkələrdəki idarəçilər ilə sənayeləşmiş ölkələrin elitaları arasında gedən əlaqələrdən. Məhz bu səbəbdəndə rəhbərliklər ilə xalqlar arasındakı məsafə getdikcə böyüməyə başlayır.

Neft istehsal edən ərəb ölkələri 1974–1998-ci illər arasında neftdən əldə etdikləri gəlirlərin böyük bir hissəsini,təqribən yüzdə 32 faizini, bahalı və mürəkkəb Qərb silahlarının alınmasına ayırmışdılar. 1974-cü ildə Səudiyyə Ərəbistanının silahlanma xərcləri neft gəlirlərinin yalnız yüzdə 7,5% ni təşkil edərkən, 1985-ci ildə bu nisbət yüzdə 88% qədər yüksəlmişdir (13.12-14). 1977–1982-ci illəri arasında ABŞ silah satışlarının yüzdə 36-sı Səudiyyə Ərəbistanına aiddir (14.17-23). Silah alışları Körfəz ölkələrinin ABŞ-a olan asılılığını daha da dərinləşdirmişdir. Çünki bu silahların ehtiyat hissələri və yenilənməsi ABŞ-dan ediləcək yeni alımlara bağlı idi. Daha pisi isə bu silahlar ancaq ABŞ-lı mütəxəssislər tərəfindən işlədilə bilirdi.

Neftin beynəlxalq güclər baxımından daşıdığı həyati əhəmiyyət bu təbii qaynağa əsaslanan bir strategiyanın inkişaf etdirilməsini zəruri etmişdir. Nəticə olaraq neft, Yaxın Şərq bölgəsinə sənayeləşmiş böyük dövlətlər tərəfindən maraq edilməsinin ən əhəmiyyətli səbəblərindən birini təşkil edir.

## ƏDƏBIYYAT

1. OECD, Energy Statistics, Paris, 1982.
2. British Petroleum, Statistical Review of World Energy, June 1992, s.3
3. Lizette Alvarez, ― Britain Says U.S. Planned to Seize Oil in 73 Crisis‖, New York Times, 2 January 2004, http://www.nytimes.com/2004/01/02/world/britain-says-us-planned-to-seize-oil-in-73-crisis.html, (12.10.2009).
4. Strategic Survey, ― Military Intervention to Secure Oil Supplies‖, Volume 75, Issue 1, 1974
5. Ahmet Yusuf. Petrol Zenginliğinin Arap Siyasi ĠliĢkileri Üzerindeki Etkisi
6. Thomas D. Lairson . David Skidmore, International Political Economy: The Struggle for Power and Wealth, 2. edition, Fort Worth-New York: Harcourt Brace College Pub., 1997, s.39
7. Craig S. Bamberger, History of IEA: the First 30 Years, OECD/IEA, 2004.
8. Yergin Daniel. The Prize: The Epic Quest for Oil, Money & Power, New York: Simon & Schuster, 1991. s.756
9. Pachauri, R. K.. The Political Economy of Global Energy, Baltimore: The Johns Hopkins University Press, 1985. s.77

10. Alnasrawi Abbas, Arab Nationalism, Oil and the Political Economy of Dependency, Greenwood Press, 1991. s.21
11. Paul Aarts, „The New Oil Order: Built on Sand?', Arab Studies Quarterly, 16:2, s.3
12. Projects Research Inc., "A Survey of Selected Projects in Saudi Arabia", Falls Church: Virginia, Projects Research Inc., 1983.
13 F. Fregory Gause, Arms Supplies and Military Spending in the Gulf', Middle East Report, 27:3, no. 204, July-September, s.12-14
14. Yousef H. Al-Ebraheem, ―Kuwait's Economic Travails", Middle East Quarterly, September 1996, vol. III, no 3, s. 17-23
15. Lippman, Thomas W.. Inside the Mirage: America‟s Fragile Partnership with Saudi Arabia, Colorado: Westview Press, 2004. s.300.

## КЛЮЧЕВЫЕ ИНТЕРЕСЫ АМЕРИКИ НА БЛИЖНЕМ ВОСТОКЕ

## АННОТАЦИЯ

В данной статье исследуются огромные нефтяные залежи расположенные на территории Ближнего Востока, безубыточная цена при добычи нефти, интересы супердержав относительно этого региона.

Наряду с этим анализируются: обеспечение потребительского спроса США странами Персидского залива, приемлемость и регулирование нефтяных цен при покупках и поставках нефти, увеличение производственной мощности и повышение объёма добычи нефти.

## THE INTERESTS OF THE USA IN THE MIDDLE EAST

## SUMMARY

The first thing that comes to mind when talking about the Middle East is oil. There are 2/3 oil reserves in this region and the price of oil production is much lower than in other regions. For this reason, the Middle East attracts the leading countries attention.

The USA have next requirements from Persian Gulf countries related oil: to have high production, moderate and easily predictable prices policy, in emergancy situation to be able to meet oil needs.

# AZƏRBAYCANDA İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİNDƏ IV SƏNAYE İNQİLABININ ROLU.

***Nigar Ağayeva***
***nigar.aghali@gmail.com***

***Açar sözlər:*** birinci, ikinci və üçüncü sənaye inqilabları, Sənaye 4.0, Azərbaycanda sənayeləşmənin tarixi, innovasiya fəaliyyəti, sənaye parkları, klasterləri və məhəllələri.
***Ключевые слова:*** первая, вторая и третья промышленные революции, Индустрия 4.0, история индустриализации в Азербайджане, инновационная деятельность, промышленные парки, кластерыи зоны.
***Key words:*** first, second and third industrial revolutions, Industry 4.0, history of industrialization in Azerbaijan, innovation activities, industrial parks, industrial clusters and areas.

**Tarixdə baş verən sənaye inqilabları.** Bəşəriyyət yarandıqdan bəri öz tələbatını ödəmək, yaşayışını yaxşılaşdırmaq üçün daima yenilik axtarışında olub və inkişaf edib. Bu inkişafın ilk qığılcımı eradan əvvəl XI-X minillikdə ibtidai insanların ilk dəfə oturaq həyata keçərək buğda və digər bitkiləri əkməsi, heyvanları əhilləşdirməsi ilə baş vermişdi. Yəni "insanın istehlakçı mövqeyindən həm də istehsalçı mövqeyinə keçməsi" çox böyük iqtisadi hadisə olmuşdu.

Dünyada baş verən inkişaf prosesləri uzun bir dövr keçərək bütün sahələrədə, sosial, mədəni, elm, təhsil, o cümlədən də sənayedə öz əksini tapıb və bu proseslər dayanmadan indiki dövrdə də davam etməkdədir. Sənaye istehsalında geden dəyişikliklər bəzən ele güclü olub ki, bu dəyişiklikləri ifadə etmək üçün inqilab termini istifadə edilib. Sənaye sahəsində gedən inkişaflar müxtəlif zamanda baş verən sənaye inqilabları ilə müşahidə olunub. Sənaye inqilabı – XVIII-XIX əsrlərdə dünyanın qabaqcıl ölkələrində əl əməyindən maşınların tətbiqinə, manufakturadan fabrikə keçididir.

Ümumiyyətlə müasir dünya sənayesi 4 mühüm mərhələdən keçib. Birinci mərhələ 18-ci əsrin sonlarında daha dəqiq desək 1784-cü ildə İngiltərədə buxar maşınının icadı ilə istehsalın mexaniki vasitələrlə donanmasının başlanğacı hesab edilən I Sənaye inqilabı dövrü hesab edilir. Bu yeni kəşf ilə buxar maşını sənayenin bir çox sahələrində dəyişikliklərə yol açdı. Tekstil sənayesində başlayan bu dəyişim, başda kimya sənayesi olmaqla, digər sahələrə də yayıldı.

II Sənaye inqilabı bundan təxminən 90 il sonra 1870-ci illərdə meydana çıxmış və əsas müəyyən edici və təsir edici faktorları isə elektrikləşmənin yayılması, iş bölümünün qəbulu və kütləvi istehsal anlayışının başlanğıcı kimi qəbul edilir. Elektrikdən ilk dəfə istifadə ABŞ-da heyvan kəsimində istifadə olunub, lakin kompleks şəkildə Ford Motor Fabriklərində ardıcılistehsal xətləri ilə oldu. Azərbaycanda elektrik enerjisinin sənayeyə tətbiqi 1898-ci ildə olmuşdur. Məlumdur ki, son 2-3 əsr Azərbaycan sənayesinin əsas aparıcı gücü neft sənayesi olmuşdur.

III Sənaye inqilabı da təxminən özündən əvvəlki kimi təqribən bir əsr sonra 1970-ci ildən başlayaraq məhsulların avtomatlaşdırılması ilə gerçəkləşmişdir. Əsas informasiya və müəyyən edici faktorları elektronikanın inkişafı, informasiya texnologiyalarının yaranması və yayılması və bunlardan istifadə ilə avtomatlaşdırılmış istehsal dövrünün yaranmasıdır. AR-da istehsalın avtomatlaşdırılması, iri fabrik, zavodların bu mərhələyə keçməsi müstəqillikdən sonra xarici şirkətlərin ölkəyə daxil olması ilə əlaqədar olmuşdur.

**Sənaye 4.0 anlayışı.** Biz ele bir dövrə gəlib çatmışıq ki, texnologiyalardakı dəyişikliklər çox böyük sürətlə gedir. Texnoloji inkişafın elə bir mərhələsindəyik ki, özümüzü yeni-yeni nailiyyətlərsiz təsəvvür edə bilmirik. Artıq bir müddətdir ki, biz milli sənaye cəmiyyətindən qlobal informasiya cəmiyyətinə keçidi müşahidə edirik. İnformasiya və kommunikasiya texnologiyaları birlikdə inkişaf edir və həyatın bütün sahələrini əhatə edir. Bizi əhatə edən və

proqram təminatı ilə idarə olunan cihaz və sistemlər "internet" adlanan qlobal kommunikasiya şəbəkəsinə sürətlə inteqrasiya edir.

Son zamanlar real dünya ilə virtual dünyanın bir-birilə sıx əlaqədə olduğunu və inkişaf etdiyini aydın görə bilirik. Sənaye istehsalı baxımından yuxarıda sadalanan hadisələr insanların üzünə yeni perspektivlər açır və bu proseslər çoxları tərəfindən dördüncü sənaye inqilabı (Sənaye 4.0) kimi qəbul edilir. Sənaye 4.0 konsepsiyasına gedən yol bir təkamül yoludur. İlk dəfə Sənaye 4.0 termini 2011-ci ildə Amaniyada səslənib. Almaniya hökuməti "Sənaye 4.0"ü onların "Yüksək Texnologiya Strategiyası 2020"nin ayrılmaz tərkib hissəsi adlandırıb, həmçinin bu inqilabı istehsalın yalnız ayrı-ayrı mərhələlərinə cavabdeh olan deyil, bütünlükdə onun müstəqil şəkildə optimallaşdıran və nəzarətdə saxlayan kiberfiziki sistemlərin sənaye istehsalı və tətbiqi kimi qiymətləndirib.

**Dördüncü sənaye inqilabının müsbət və mənfi cəhətləri.** Bu sənaye inqilabını fərqləndirən əsas müsbət cəhətlər:sürəti, əhatə dairəsi və sistematik effekti, eləcə də həyatı daha da asanlaşdırması və yaşayış şəraitinin keyfiyyətinin yüksəlməsi; bəzi çarəsi olmayan xəstəliklərin yeni texnologiyaların tətbiqi ilə sağaldılması; yeni texnologiyaların tətbiqi ilə iqtisadiyyatda xərclərin azaldılması; yeni kvant kompüterlərin tətbiqi ilə kompüter sistemlərinin sürətləndirilməsi və istənilən qədər informasiyanın bir yerde toplanması; və s.

Bəs dördüncü sənaye inqilabının insan üçün törədəcəyi mənfi tərəfləri nədir: yeni texnologiyaların tətbiqi ilə istehsal və iqtisadiyyatda insan faktorunun rolunun azalması; insan faktorunun zəifləməsi ilə əmək bazarında kütləvi işsizliyin yaranması; bəzi peşə və ixtisasların yox olması; kvant kompüterlərin tətbiqi ilə kiber təhlükəsizliyin olmaması, insanlara məxsus şəxsi məlumatların başqaları tərəfindən izlənməsi; robot və texnologiyaların tətbiqi ilə dünyada "xalq mədəniyyəti" anlayışının yoxa çıxması.

**Dördüncü sənaye inqilabı ərəfəsində Azərbaycanda sənayenin inkişafı.**

**Azərbaycanda sənayeləşmənin tarixi.** İndiki yaşadığımız dövrü IV Sənaye inqilabına keçid dövrü və yaxud "körpü" dövrü kimi adlandıra bilərik. Bəs bu yeni sənaye inqilabı dövründə Azərbaycanı nə gözləyir? Bu suala cavab verməmişdən öncə ölkəmizdə XIX əsrdə başlayan və indiki zamana qədər davam edən sənayeləşmə prosesini nəzərdən keçirək.

Dünyada ilk dəfə Bakıda 1848-ci ildə neftin sənaye üsulu ilə hasilatı Azərbaycanda sənayeləşmənin başlanğıcı hesab olunur. XIX əsrin ikinci yarısında neft hasilatının əhəmiyyətli dərəcədə artması sənayeləşmə prosesinə təkan vermiş, bu da öz növbəsində respublikada neftlə əlaqəli infrastrukturun və sənaye sahələrinin yaranması ilə nəticələnmişdir. XX əsrin ortalarından etibarən sənayeləşmə prosesi regionlara nüfuz etmiş və yeni sənaye şəhərlərinin əsası qoyulmuşdur.

Azərbaycanda sənaye sahələrinin inkişafı əsasən XX əsrin 70-ci illərində bünövrəsi qoyulmuş yeni zavodların, fabriklərin açılışı ilə əsası qoyulmağa başlanmışdır. Bu dövrdə sənayenin inkişafına irihəcmli vəsaitlər yönəldilmiş, ittifaqmiqyaslı bir sıra iri sənaye müəssisələri qurulmuş, ölkə üçün ənənəvi olmayan yeni sənaye sahələri yaradılmış, sənayenin diversifikasiyası sürətlənmişdir. Ölkədə siyasi-iqtisadi sabitliyin bərqərar olması ilə 1997-ci ildən başlayaraq sənaye istehsalında artım müşahidə edilmişdir. Müstəqillik dövründə sənayenin inkişafında ilk növbədə neft-qaz sektoruna cəlb edilən xarici investisiyalar həlledici rol oynamış, bu sahənin inkişafı istər birbaşa, istərsə də dolayısı ilə sənayenin digər sahələrinin yenidən canlanmasına təkan vermişdir.

2004-cü ildən etibarən AR-da sənayeləşmə templəri yüksəlmiş, sənayenin regional strukturunun təkmilləşdirilməsi əsas prioritetlərdən biri kimi müəyyən olunmuş, sənaye istehsalı üçün həyati əhəmiyyət kəsb edən enerji təminatı məsələlərinin həlli istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, respublika təbii qaz və elektrik enerjisi idxalçısından ixracatçıya çevrilmişdir.

**Müasir sənaye mərhələsi.** Yuxarıda sadalanan işlərin nəticəsində sənaye yeni inkişaf mərhələsinə qədəm qoymuş və bu mərhələnin başlanğıcı olaraq AR-da 2014-cü il "Sənaye ili" elan edilmişdir. Sənayeləşmənin yeni mərhələsində mövcud potensialdan daha səmərəli istifadə etməklə Azərbaycanın regionda güclü sənaye mərkəzinə çevrilməsini təmin etmək məqsədi ilə ARPrezidenti tərəfindən "AR-da sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" qəbul edilmişdir.Sənayenin rəqabət qabiliyyətinin artırılması və potensialının gücləndirilməsi, sənaye müəssisələrinin fəaliyyətinin dəstəklənməsi, sənaye zonaları və klasterlərinin qurulması, kadr potensialının və elmi təminatın gücləndirilməsi, qanunvericiliyin təkmilləşdirilməsi "Dövlət Proqramı"nın əsas istiqamətlərindəndir.

Hal-hazırki bir dövrdə müstəqil Azərbaycan iqtisadiyyatı özünün davamlı və dinamik inkişaf dövrünü yaşayır. Ölkədə mövcud olmuş çətinliklərin aradan qaldırılması inkişaf dövrünün dövlət və bazar tənzimləmə mexanizmlərinin üstünlüklərindən daha səmərəli istifadəsi hesabına baş vermişdir. Bu məqsədlə, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasına əsasən, ölkədə innovativ sahibkarlığın inkişaf etdirilməsi, yeni fəaliyyət növlərinin və məhsullarının təşviqi üçün əlverişli mühitin yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsədilməsi istiqamətində tədbirlər gücləndirilir. Eyni zamanda konsepsiyanın qarşıya qoyduğu məqsəd ondan ibarətdir ki, 2020-ci ildə Azərbaycan iqtisadi və siyasi cəhətdən inkişaf etmiş, rəqabətqabiliyyətli ölkə olacaqdır. İndiki zamana qədər görülən tədbirlərin nəticəsi olaraq Azərbaycan iqtisadiyyatında sənayeləşmə prosesinin miqyası daha da genişlənmişdir. Dövlət başçısının həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir ki, 2018-ci ildə iqtisadi artım 1,4% təşkil edib, qeyri-neft sektoru 1,8%, kənd təsərrüfatı 4,6%, qeyri-neft sənaye məhsulu 9,1%, neft sektorunda sənaye məhsulu istehsalı isə 0,4% artmışdır. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2018-ci ildə 47,7 milyard manatlıq və ya əvvəlki illə müqayisədə 1,5% çox sənaye məhsulu istehsal edilmişdir.

**Azərbaycanda innovasiya fəaliyyəti.** AR-da müstəqillikdən sonra azad iqtisadi sisteminin yaradılması və bu sistemin dünya iqtisadi sisteminə çevik inteqrasiya edə bilməsinin zəruriliyini ortaya çıxmışdır. Ölkəmizdə iqtisadi müstəqilliyin, dayanıqlı və davamlı iqtisadi inkişafın təmin edilməsində iqtisadiyyatın innovasiya metodlarının böyük rolu vardır. İnnovasiya – yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, intelektual fəaliyyətin, kəşflərin, ixtiraların nəticələri olaraq yeni və təkmilləşdirilmiş məhsul, texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab olunur.

Ölkənin innovasiya sisteminin formalaşdırılması bir neçə konkret məsələni ortaya çıxarır ki, bunların da ən vacibi elmi-texniki məhsula və ümumiyyətlə, intelektual məhsula münasibətin dəyişdirilməsi, elmi-texniki məhsulun əmtəə-pul münasibətlərində digər məhsullara eyni dərəcədə iştirakının təmin edilməsidir. İnnovasiya potensialından fərqli olaraq innovasiya sistemində təkcə yeni texnologiyaların istehsalı və istifadəsi ilə məşğul olan subyektlərin məcmusu deyil, həmçinin bu proses zamanı onların arasında baş verən münasibətlərin də məcmusu aiddir.

Ona görə də ölkənin innovasiya sistemi vahid və tam bir struktur təşkil etməli və mütləq dövlətin himayəsində olmalıdır. Ona görə də bu prosesin gedişi, düzgün idarə edilməsi və yeni məhsulun realizə olunmasının təminatı əvvəlcədən həyata keçirilməlidir. Bunun üçün müvafiq qanunvericilik aktlarının paketinin işlənib hazırlanması və təsdiq edilməsi vacibdir: Azərbaycan hökumətinin ölkədə innovasiya fəaliyyəti və innovasiya siyasəti haqqında qanunu; AR-da innovasiya fəaliyyətinin inkişaf proqramı.

Beləliklə ölkənin iqtisadiyyatının innovasiya yolu ilə qurulması məhz milli innovasiya sisteminin yaradılması və fəaliyyətinin təmin edilməsindən asılıdır. Burada innovasiya sisteminin milliliyi anlayışı dövlət himayəsinin olmasını bildirir. İnnovasiya strategiyasının komponenti olan Milli İnnovasiya Sistemi (MİS) ölkənin sərhədləri daxilində yeni və iqtisadi

faydalı bilginin işlənməsi, istifadəsi və yayılması prosesində qarşılıqlı əlaqədə olan elementlərin və münasibətlərin məcmusudur.

İnnovasiya fəaliyyətində dövlət dəstəyinə nümunə olaraq bir çox qəbul edilmiş sənədləri misal çəkmək olar. Bunlardan "Xüsusi iqtisadi zonalar haqqında AR-ın Qanunu", "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə", "Texnologiyalar parkı haqqında Nümunəvi Əsasnamə", habelə yuxarıda adlarını çəkdiyimiz "2014-cü ilin AR-da "Sənaye ili" elan edilməsi haqqında sərəncamı", AR-da sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" göstərmək olar.

Azərbaycan iqtisadiyyatının əsas hissəsini neft-qaz sənayesi tutur və bu təbii ehtiyatlar tükənən olduğuna görə bizim ölkəmiz innovasiyalara daha çox ehtiyac duyur. Aparılan tədqiqatlara görə neft-qaz ölkələrinin iqtisadi artımı qeyri-neft ölkələrinin iqtisadi artımından daha az olmuşdur. Buna görə də bütün neft-qaz ölkələrində olduğu kimi bizim də davamlı iqtisadi artımı təmin etmək üçün texnoloji yeniliklərə ehtiyacımız var. Bu baxımdan, Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsas məqsədi qeyri-neft sektorunun inkişafı hesabına davamlı iqtisadi artıma nail olunması və iqtisadiyyatın şaxələndirilməsidir. Bu məqsədlə iqtisadiyyatda innovasiyaların tətbiqinin genişləndirilməsi üçün güclü motivasiya mexanizmlərinin yaradılması və inkişaf etdirilməsi rəsmi dövlət siyasətində nəzərdə tutulur.

**Sənaye parkları.** AR-ın dövlət siyasəti iqtisadiyyatın hərtərəfli inkişafının təmin edilməsini, o cümlədən yüksək texnologiyalar əsasında sənayenin dinamik inkişafını və şaxələndirilməsini nəzərdə tutur. Uğurla həyata keçirilən bu siyasətin nəticəsi olaraq son illərdə AR regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində müxtəlif təyinatlı yüzlərlə sənaye müəssisəsi tikilib istifadəyə verilmiş, minlərlə yeni iş yeri yaradılmışdır. Eyni zamanda elmtutumlu məhsulların və texnologiyaların işlənməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılır.

Buna misal olaraq AR-ın Prezidentinin Fərmanları əsasında yaradılmış bir sıra müəssisələri göstərmək olar:22 dekabr 2009-cu ildə birinci mərhələsi işə salınan "Sumqayıt Texnologiyalar Parkı", 28 dekabr 2011-ci il tarixli fərmanı ilə əsası qoyulan "Balaxanı Sənaye Parkı", 21 dekabr 2011-ci il tarixli fərmanı ilə yaradılan "Sumqayıt Kimya Sənaye Parkı", 2014-cü ildə əsası qoyulan "Şəmkir aqroparkı", 26 fevral 2015-ci il fərmanı ilə Mingəcevir şəhərində "Yüksək Texnologiyalar Parkı", 3 iyul 2015-ci il Sərəncamı ilə yaradılan "Qaradağ Sənaye Parkı.

AR Prezidenti Cənab İlham Əliyev ölkəmizdə yüksək texnologiyaların yaradılması və texnoloji innovasiyanın tədqiqi üçün 2012-ci ildə "Qızıl Üçbucaq" Fərmanını imzalamışdır. "Qızıl Üçbucaq"a Yüksək Texnologiyalar Parkı, İKT Fondu və İnformasiya Texnologiyaları Universiteti daxildir. Bu təşkilatlar 2013-cü ildə yaradılmışdır və Yüksək Texologiyalar Nazirliyinin nəznində fəaliyyət göstərir.

**Sənaye klasterləri.** Müasir dövrdə ölkənin iqtisadi stabilliyini və inkişafını təmin etmək üçün sənaye sahələrinin idarə edilməsinə yeni bir yanaşma – klasterləşmə tətbiq olunmağa başlanılıb. Klasterləşmə dedikdə, birləşməyə və mübadiləyə meylli yekcins elementlərin və müstəqil təsərrüfat subyektlərinin birliyi başa düşülür. Klaster modeli XX əsrin 60-70-ci illərindən başlayaraq tətbiq edilən bir mexanizmdir və tətbiq edildiyi ölkələrin əksəriyyətində iqtisadi cəhətdən çox əhəmiyyətli mövqeyə malikdir.

Ölkədə texnoparklar şəbəkəsinin qurulması ilə yanaşı, dövlət başçısı tərəfindən təsdiqlənən "Azərbaycanda sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"na əsasən 2020-ci ilə qədər sənaye klasterlərinin formalaşdırılması da həyata keçirilir.

**Azərbaycanda 4-cü sənaye inqilabının perspektivləri.** Bizi maraqlandıran sual odur ki, bu yeni perspektivdə Azərbaycanı nə gözləyir. Hazırda ölkəmiz nüfuzlu reytinqlərdə hər il pozitiv inkişaf dinamikası göstərir. Azərbaycan İKT sahəsinin inkişafına görə dünya üzrə 65-ci yerdə qərarlaşıb və Cənubi Qafqaz ölkələri arasında liderdir. Beynəlxalq Telekommunikasiya İttifaqının (İTU) "State of Broadband Report 2018" sənədinə əsasən, Azərbaycan MDB

məkanında internetin əhatə olunması, yayımına görə ilk yerdədir (79%). Dünya Bankının "Doing Business 2019" hesabatında isə ölkəmiz Avropa və Mərkəzi Asiyada ən çox islahat aparan 10 ölkə sırasına düşüb və dünya üzrə 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb.

Hazırda ARPrezidenti Cənab İlham Əliyev tərəfindən aparılan islahatlar imkan verir ki, ölkəmiz texnoloji cəhətdən daha da inkişaf etsin. Lakin heç şübhəsiz İEÖ-in tətbiq etdiyi texnoloji inkişaf modelləri qarşısında ölkəmizin yeni texnologiyalar tətbiq etmək, innovasiyalara getmək tempi daha da güclənməlidir. Bunun üçün isə təhsil modelinin modernləşməsindən tutmuş ayrı-ayrı şirkətlərdə işçi biznes proseslərinin təşkilində müvafiq biznes mədəniyyətə keçidin aparılması, inkişafın aparıcı qüvvəsi olan telekommunikasiya sferasında yeni ekosistemin yaranması, sabit texnoloji bazanın qurulması və yenilənməsi vacibdir.

## ƏDƏBİYYAT

1. AR Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "AR sənayesinin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı".
2. "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya" mövzusunda IV Beynəlxalq Konqres, Qafqaz Universiteti, may 2014
3. Hüseynova Arzu, i.e.n., dos, "Azərbaycanda innovasiya fəaliyyətinin inkişaf yolu", Azərbaycan vergi jurnalı, 2015.
4. Prof. Dr.-Ing. Jürgen Gausemeier, Hans Beckhoff, Dr. Eduard Sailer "The Technology-Network: Intelligent Technical Systems OstWestfalenLippe", Germany 2014
5. "Sənaye inqilabları və Azərbaycan" mövzusunda link: https://kriptoeconomy.com/
6. Cəbrayıl Vəliyev "Dördüncü sənaye inqilabı astanasında", 28 yanvar 2016 https://jabrayilvaliyev.com/2016/01/28/iv-s%C9%99naye-inqilabinin-astanasinda/
7. Fuad Allahverdiyev "4-cü sənaye inqilabı: Azərbaycan üçün perspektivləri", 28 noyabr 2018 https://az.trend.az/business/it/2985579.html

## ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ЧЕТВЕРТОЙ ПРОМЫШЛЕННОЙ РЕВОЛЮЦИИ В АЗЕРБАЙДЖАНЕ

## АННОТАЦИЯ

В статье были рассмотрены промышленные революции, которые произошли за всю историю. В частности, встатьеобъясняется происхождение и особенности всех четырех промышленных революций. Также здесь исследовано развитие,плюсы и минусы четвертой промышленной революции. В статье рассказывается об истории индустриализации, атак жео развитии нефтяной и ненефтяной промышленностив Азербайджане. Анализируется экономическая политика, проводимая в соответствии с указом президента с целью ускорения экономического развития страны. Здесь сообщается об индустриальных парках, кластерахирайонахАзербайджана. В частности, в статье исследуются перспективы четвертой промышленной революции в Азербайджане.

## PRIORITY DIRECTIONS OF DEVELOPMENT OF THE FOURTH INDUSTRIAL REVOLUTION IN AZERBAIJAN.

## SUMMARY

The article reviewed all the industrial revolutions that had taken place throughout history. Especially, the article explains the origin and features of all four industrial revolutions. It also explored development, pros and cons of the fourth industrial revolution. The article says about history of industrialization, development of oil and non-oil industry in Azerbaijan. The article analyzes economical polices that pursued to the presidential decree in order to increase economic development of the country. Here informed about industrial parks, clusters, estates and technoparks of Azerbaijan. Especially, the article researches perspectives of the fourth industrial revolution in Azerbaijan.

# MOLLA PƏNAH VAQİFİN İCTİMAİ – SIYASİ GÖRÜŞLƏRİ (1717-1797)

***İsmayıl Eyyubov, dosent,***
***BDU-nun Politologiya və sosiologiya kafedrasının müəllimi***

***Açar sözlər:*** XVIII əsr Azərbaycan ədəbiyyatı, Molla Pənah Vaqif, Qarabağda siyasi mühit, Vaqifin siyasi fəaliyyəti, siyasi idarəetmə.
***Ключевые слова:*** Азербайджанская литература XVIII века, Молла Панах Вагиф, политическая среда в Карабахе, политическая деятельность Вагифа, политическое управление.
***Key words:*** Azerbaijani literature of the 18th century, Molla Panah Vagif, the political environment in Karabakh, the political activities of Vagif, political management.

Molla Pənah Vaqif 1717-ci ildə Qazax mahalının Qıraxsalahlı kəndində ortabab kəndli ailəsində anadan olmuşdur. Onun əsl adı Pənah, atasının adı Mehdi olmuşdur.

O dövrün tanınmış alimlərindən olan Şəfi Əfəndinin yanında təhsil almışdır, sonra isə mədrəsədə fars və ərəb dilləri ilə yanaşı, memarlıq və astronomiya elmlərini də öyrənmişdir. O kiçik yaşlarından xalqın məişəti, adət və ənənələri ilə yaxından tanış olmuşdur.

1759-cu ildə Gürcüstan sərhədlərində baş verən qarışıqlıq nəticəsində Qazaxdan bir neçə kənd köçüb Gəncədə, Qarabağda məskan salmışdır. Vaqif də əvvəl Gəncədə, sonra isə Şuşada məktəb açıb orada dərs demişdir.

Vaqif kamallı, bilikli, savadlı müəllimlik şöhrəti qazandığını eşidən Qarabağ hökmdarı İbrahim xan onu saraya dəvət etmişdi. Onun «Eşik ağası», yəni xarici işlər üzrə vəzir təyin etmişdir.

Vaqif sarayda görkəmli mütəfəkkir şairlər səviyyəsinə yüksəlmişdir.

O, poeziyada nikbin əhval-ruhiyə ilə, gözəl şerləri ilə xalq arasında böyük hörmətə də sahib olmuşdur.

Vaqif Azərbaycan xalqının adət-ənənələri, Milli həyat tərzini, dövrün hadisələrini, əxlaqi etik normalarını öz şerlərində böyük ustalıqla əks etdirə bilmişdir.

Vaqifin əsərlərində Azərbaycan dili bütün gözəlliyi və zənginliyi ilə təzahür edir.

Vaqif hələ məktəblərdə dərs dediyi zaman yazdığı qoşmalarını böyük əhval-ruhiyə ilə yazmışdır. O, «Bayram oldu» şerində bütün kəndin noğula, şəkərə boyandığı halda özünün kasıb həyatından bəhs edərkən heç də bədbinləşmir, bu çətinliyin uzun sürməyəcəyinə inanır.

Bayram oldu heç bilmirəm neyləyim,
Bizim evdə dolu caval da yoxdur.
Dügiylə yağ hamı çoxdan tükənmiş,
Ət heç ələ düşməz, motal da yoxdur.

Allaha birmişik naşükür bəndə,
Bir söz desən dəxi qoymazlar kəndə,
Xalq batıbdır noğla, şəkərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.

Bizim bu dünyada nə malımız var,
Nə də evdə sahib camalımız var.
Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur.

Vaqif sarayda əvvəlki illərində çətin həyat keçirsə də bu çətinlikləri toy-bayram hesab etmişdir. Vaqif Qarabağ xanlığın iqtisadi və hərbi qüdrətinin güclənməsinə, onun siyasi nüfuznun möhkəmlənməsinə, diplomatik əlaqələrinin genişlənməsinə xeyli kömək etmişdir. Vaqifin o zaman üçün ensiklopedik savadı ona xalq arasında belə bir məsələyə səbəb olmuşdur «Hər oxuyan Molla Pənah olmaz».

Vaqif böyük bir dövlət xadimi olsa da sarayda böyük bir vəzifə tutsada, gənclik çağlarında müşahidə etdiyi qanunsuzluqlara, haqsızlıq əməkçi xalqın yoxsul və dilənçi vəziyyətini unutmamışdır. O vəzir olduğu vaxta qədər həyat çətinliklərini öz üzərində hiss etmişdir.

Vaqifin dövründə Azərbaycan bir sıra xanlıqlara bölünmüşdür. Bu ölkənin mədəni-iqtisadi inkişafına mane olurdu. Vaqif xanlıqların birləşdirilməsi haqqında fikirlər irəli sürmüşdür. O Azərbaycan xanlıqları ilə Gürcüstan və Rusiya dövlətləri ilə əlaqələrin yaranmasına səy göstərmişdir. Vaqifin səyi ilə İbrahim xan Rusiya himayəsini vacib bilib imperatorluqla siyasi əlaqə saxlamaq niyətinə düşür və Rusiyaya bu münasibətlə müraciət edir.

Bu hadisəni eşidən İran şahı Ağa Məhəmməd şah Qacar çox qəzəblənir. O təcili surətdə hər tərəfli sahəyə malik olan ordu toplayaraq Qarabağa hücum edir.

Vaqif Qarabağ ordusunun müdafiəsinə şəxsən özü rəhbərlik edir. Məhəmməd şah Qacar Şuşanı 33 gün mühasirədə saxlayır, lakin mərdliklə vuruşan İbrahim xanın qoçaq əskərləri onun Şuşa şəhərinə daxil olmasına imkan vermirlər. Əli boşa çıxan Qacar Gürcüstana üz tutur.

Sonradan Vaqifin bu döyüşdə cəsarəti haqqında Firudin bəy Köçərli yazmışdır: «Vaqif özü şair isə də vaxtın təqazisinə görə onun meyli-könüllü silah və əsləhəyə daxil olub igidlik iddiasına həm düşərmiş və məqami-zərurətdə özü yaraq götürüb davaya çıxarmış".

Yekaterinanın ölümü, I Pavelm çarlığa keçməsi ilə əlaqədar olaraq rus orduları Qafqazdan çəkilir. Qafqazda aclıq başlayır. Bu fürsətlərdən istifadə edən Ağa Məhəmməd şah Qacar ikinci dəfə Şuşa üzərinə hücuma keçir. Aclıq, xəstəlikdən əhali böyük əziyyət çəkirdi. Ordu və xan öz saray ərkanı ilə Şuşadan çıxıb şəhəri müharibəsiz Qacara təslim etməyə məcbur olur. Şuşa şəhəri Qacarın əlinə keçir.

O İbrahim xanı qorxutmaq üçün ona göndərdiyi məktubda Şuşanı şüşəyə bənzədərək, qalanı şüşə kimi zəif olduğunu, İran qoşunlarının hücumuna davam gətirə bilməcəyini yazır, məktubu oxuyan Vaqif dərhal kəskin və müdrik cavab yollayır. Bu cavabdan qəzəblənən Ağa Məhəmməd şah həmin əhvalatı unutmamış, Şuşanı əlinə keçirən kimi Vaqifi zindana saldırmışdır. Ertəsi gün onun edam edilməsi haqda qərar vermişdi. Lakin sübhə yaxın nökərləri qəddar şahı öldürmüş, səhər Vaqif azadlığa çıxmışdır.

Vaqif dostu Molla Vəli Vidadiyə göndərdiyi məktubda yazmışdır:

Ey Vidadi, gərdşi-devrapfgəcrəftara bax!
Kirdarə qıl tamaşa, karə bax, kirdarə bax!
Əhli-zülmü necə barbəd eylədi bir ləhzədə,
Hökmü aqil padşahi-qadiri qəhharə bax!
İbrət et Ağa Məhəmməd xandan, ey kəntər gəda,
Ta həyatın var ikən nə şahə, nə xunxarə bax!

Qacarın ordusu əhalini qarət edib şəhəri tərk edir. Bu vaxt İbrahim xanın qardaşı oğlu Məhəmməd bəy Cavanşir xanlığı ələ keçirir. O əmisinin yaxın adamlarını ortadan götürür. Vaqif bu vaxt "Görmədim" rədifli şeirini yazmışdır.

Mən cahan mülkündə, mütləq doğru halət görmədim,
Hər nə gördüm, əyri gördüm, özgə bavət görmədim.
Aşinalar ixtilafında sədaqət görmədim,

Bifətü iqrarü imanü dəyanət görmədim,
Bivəfadan lacərəm təhsili-hacət görmədim.

Məhəmməd Cavanşirin hərəkətləri onu narahat edir. O İbrahim xana gizli məktub yazıb tez qayıtmasını istəyir.

Cavanşir xan Vaqifi təhqirlərə və təqiblərə məruz qoyur. Sonra isə onun oğlu Əlağa ilə birlikdə öldürülməyi haqda əmr verir. Vaxtı ilə şerlərində saray həyatını tərənnüm edən Vaqif indi artıq xan saraylarının çətinliklərini görür, ondan üz çevirir.

Hər sədayü səs ki, dünyaya dolub əksər əgəl,
Cümlə məkrü alü fənnü fmnədir, cəngü cədəl,
Dirhəmü dinar üçündür hər şeyə yaraşırsa əl,
Müqtədilərdə itahət müqtədalərdə əməl,
Bəndələrdə simü bəylərdə ədalət görmədim.

Hər kişi hər şey ki sevdi, onu behtər istədi,
Kimi təxti, kimi tacir, kimi əfsər istədi.
Padşahlar dəmbədəm təsxiri-kişvər istədi,
Eşqə həm çox kimsə düşdü vəsli-dilbər istədi,
Heç birində aqibət, bir zövgü rahət görmədim.

Vaqifin dinə, islam xadimlərinə münasibəti onun ömrünün müxtəlif vaxtlarında müxtəlif şəkildə ziddiyyətli olmuşdur.

Vaqif öz dövrünün ruhanilərinin, mürid və mürşidlərinin, tamahkarlıq, yalançılıq kimi pis sifətlərini görmüş, onların yalan vəzlərinə gülmüş daxili aləmlərini göstərməyə çalışmışdır.

Vaqif klassik bir şair kimi şerlərində və qəzəllərində tax-tac üzərində gedən vuruşmaları, ölkələr fəth etmək istəyən şahların bitməyən, tükənməyən acgözlüyünü göstərdiyi kimi, feodal dünyasında qeyrət, həya, namus, ar və s. sifətlərin qalmadığını, bu aləmdə xeyrlə şərin öz yerində olmadığını da göstərmişdir.

Şair zəmanəsində hər cür çətinlikləri aradan qaldıran taleyin zərbələrinə mətanətlə sinə gərən xalqın işıqlı gələcəyinə inanırdı.

Vaqif dünyagörüşündə Azerbaycan qadınlarma müsbət münasibət bəsləmişdir. O, qadına mürtəce münasibətin əleyhinə çıxmışdır. O qadın sərbəstliyinə hüsn-rəğbət bəsləmişdir. Odur ki, şerlərində onlara yüksək qiymət vermişdir. O, hətta qadının əsarətinin nişanəsi olan çadraya qarşı öz ehtirazmı bildirmişdir.

«Xublarda kı, zövqü səfa deyirlər» - adlı qoşmasında yazmışdır:
Əvvəl gözəllərdə gərəkdir çağlıq,
Ondan sonra ola sadəlik, ağlıq;
Nə ağzında yaşmaq, nə üzdə yaylıq, -
Çirkinlik üzünü bürüyündədir.

Vaqifin yaradıcılığı boyu qadına bəslədiyi münasibət həmişə müsbət olmamışdır. Saray mühitinin mənfi təsiri nəticəsində sonralar qadınlara saf münasibət bəsləməmişdir.

O, xarabazara çevrilmiş kəndlərdə yoxsul qadınları görəndə onların halına acısa da onları belə təsvir etmişdir.

Havasından torpağının yerinin,
Dadızmaz dəhanın, ləbi-şirinin,
Pəri çoxdur, nə fayda heç birinin
Adamlıq ədası, hayıf ki yoxdur.

O qadınları şəhər mühitlərində kənarda qaldıqlarını söyləyir. O saray qadınlarma üstünlük verir. Zəhmətkeş kənd qadınlarının mədəniyyətdən kənar olduğunu bildirir.

Vaqifin dünyagörüşündə Azərbaycan kəndinin ağır vəziyyəti də təsvir olunmuşdur. O, «Kür qırağının əcəb seyrəngahı var» adlı qoşmasında yazmışdır.

Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın.
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası hayıf ki, yoxdur.

Vaqif bu qoşmasında XVIII əsrdəki Azərbaycan kəndini təsvir edir abad bir kənd olmadığını göstərir.

Bütün həyatını xalqla, vətənə xidmət işinə sərf etmiş, xalqı ilə yaxından bağlı olan şair bütün ömrü boyu xalqının azadlığı, xoşbəxtliyi uğrunda mübarizə aparmışdır.

Azərbaycanda ictimai-siyasi fikrin inkişafında Vaqifin əsərləri böyük rolu olmuşdur. Vaqif yüksək zövq, incə hislər, dərin və nikbin duyğular şairidir. Onun əksər şerləri - qoşmaları, qəzəlləri, müstəzadları, müxəmməkləri əsasən bir nöqtədə birləşir. Hamısı məhəbbətdən, hamısı gözəldən bəhs edir. O, lirik şerlərində qoşmalarında xalq ruhu özünü göstərir. Buna görə də onu xalqını sevən sənətkar adlandırmışdılar.

Şair öldürüldüyü zaman evi talan edildiyindən onun əsərlərinin bir hissəsi itib batmışdır.

Vaqifin irsi hələ şairin yaşadığı dövrdə diqqəti cəlb etmişdir. Vaqifin əsərləri ilk dəfə bir kitab şəkilində toplanaraq 1856-cı ildə Teymurxanşurada «Vaqif və şair müasiri» adı altında çap olunmuşdur. M.F.Axundov da onun əsərlərini toplanması və çap olunmasına səy göstərmişdir.

İlk dəfə onun əsərlərini təxmini toplayaraq Salman Mümtaz çap etdirmişdir. Xalq şairi Səməd Vurğun "Vaqif" adlı pyesində Vaqifin həyatını çox gözəl t
Svir etmişdir. Ona yüksək qiymət vermişdir.

Vaqifin əsərlərinin toplanması ilə H.Qayıbov, F.Köçərli rus dilinə tərcüməsi ilə K.Simonov, V.Luqovskoy və başqaları məşğul olmuşdur. Sovet dövründə də Vaqifin seçilmiş əsərləri çap olunmuşdur.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrləri həyata keçirilməsi haqqında» fərmanına uyğun olaraq 2004-cü ildə Vaqifin əsərləri çap olunmuşdur.

## ƏDƏBIYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi – Bakı-1960.
2. Azərbaycan tarixi I cild - Bakı, 1994.
3. Dadaşzadə A. Vaqif (həyat və yaradıcılığı) - Bakı, 1966.
4. Molla Pənah Vaqif. Əsərləri. Bakı – 2004.
5. Molla Vəli Vidadi. Əsərləri. Bakı – 1957.
6. Ə.Əminzadə. Azərbyacanda fəlsəfi və ictimai fikir tarixindən. Bakı – 1972.
7. Məmmədov Z. Azərbaycan fəlsəfi tarixi. Bakı – 1994.
8. Sahib Təbrizi. Seçilmiş əsərləri. Bakı – 1980; 2004.
9. Məlikova M.F., Bayramov E.R. Azərbaycanın siyasi hüququ nəzəriyyələr tarixi (oçerklər). Bakı – 1984.

## MOLLA PƏNAH VAQİFİN İCTİMAİ-SIYASİ GÖRÜŞLƏRİ (1717-1797)

## XÜLASƏ

Azərbaycan xalqının görkəmli mütəfəkküri, şair və ictimai xadim, Qarabağın siyasi həyatının bilavasitə iştirakçısı Molla Pənah Vaqif öz həyatı və yaradıcılığı ilə Azərbaycan tarixində dərin iz buraxmışdır. Məqalədə Vaqifin ictimai-siyasi baxışları nəzərdən keçirilir. Onun siyasi baxışları xalqın güzəranını, sosial təbəqələrin vəziyyətini, bölgədə formalaşan siyasi abu-havasını əhatə edir. Şairin siyasi təfəkkürünün itiliyi, vətənpərvərliyi və dərin zəkası qeyd olunur.

## СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ МОЛЛА ПАНАХ ВАГИФА (1717-1797)

### АННОТАЦИЯ

Молла Панах Вагиф, выдающийся мыслитель, поэт и общественный деятель азербайджанского народа, непосредственный участник политической жизни Карабаха, оставил глубокий след в истории Азербайджана своей жизнью и творчеством. В статье рассматриваются общественно-политические взгляды Вагифа. Его политические взгляды охватывают жизнь людей, положение социальных слоев, политический климат в регионе. Отмечается острота, патриотизм и глубокий интеллект политического мышления поэта.

## SOCIO-POLITICAL VIEWS OF THE MALL OF PANAH WAGIF (1717-1797)

### SUMMARY

Molla Panah Vagif, an outstanding thinker, poet and public figure of the Azerbaijani people, a direct participant in the political life of Karabakh, left a deep mark in the history of Azerbaijan with his life and work. The article discusses the socio-political views of Vagif. His political views encompass people's lives, the position of social strata, and the political climate in the region. The sharpness, patriotism and deep intellect of the poet’s political thinking are noted.

## FİLOLOGİYA

# MƏMMƏD SƏİD ORDUBADİNİN POETİK YARADICILIĞI BARƏDƏ

***Sadia Xanlarova***
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu***

***Açar sözlər:*** Məmməd Səid Ordubadi, şeir, satira, qadın azadlığı, müxəmməs
***Ключевые слова:*** Мамед Саид Ордубади, стихи, сатира, свобода женщин, мухаммас
***Key words:*** Mammad Said Ordubadi, poem, satire, woman freedom, mukhammas.

Görkəmli ədib Məmməd Səid Ordubadi (1872-1950) bədii yaradıcılığın bütün sahələrində məhsuldar fəaliyyət göstərmiş, nəsr, dram, publisistik əsərlərlərlə bərabər şeirlər də yazmışdır. Onun bədii yaradıcılığa gənclik illərindən meyl göstərməsində, şeirlər yazmasında atası Hacıağa Fəqir Ordubadinin mühüm rolu olmuşdur. Hacıağa Ordubadi “Fəqir” təxəllüsü ilə şeirlər yazmış, Ordubadda fəaliyyət göstərən “Əncümənüş-şüəra” ədəbi məclisinin üzvü olmuşdur. Tədqiqatçı Nəsrəddin Qarayev “XIX əsr Azərbaycan ədəbi məclisləri” kitabında Hacıağa Fəqir Ordubadinin dövrünün mənfiliklərini kəskin tənqid etdiyinə görə mürtəcelər tərəfindən təqib edilməsi barədə yazır: “Fırıldaqçı mollaları, zalım və mərhəmətsiz mənsəb sahiblərini tənqid edən əsərlər yazdığına görə Hacıağa və onun yaxın dostu, həmməsləki M.T.Sidqi Ordubad kimi fanatik bir mühitdə avam camaat tərəfindən heç bir rəğbət görmədikləri üçün köçərək bir müddət Türküstan və İranda yaşamağa məcbur olmuşlar”(1,s.59).

Cəfər Xəndan ədibin 1890-cı illərdən ilk şeirlərini yazdığını, XX əsrin ilk illərindən poetik və.s əsərlərini mətbuatda çap etdirdiyini göstərmişdir: “XX əsrin ilk illərindən mətbuat səhifələrində öz şeirlərini çap etdirən M.S.Ordubadi “Şərqi-rus”, “İrşad”, “Tərəqqi”, “Tazə həyat”, “Səda”, “Sədayi-həqq”, “Tuti”, “Zənbur” kimi qəzet və məcmuələrdə, xüsusilə “Molla Nəsrəddin” məcmuəsində fəal surətdə iştirak edir. Müxtəlif məcmuə və qəzetlərdə onun dörd mindən çox felyetonu, iki minə qədər şeir və məqaləsi çıxmışdır. 1905-ci ildən sonra M.S.Ordubadinin “Vətən və hürriyyət”, “Qəflət” (1906) adlı şeirlər kitabçaları, “Bədbəxt milyonçu” (1907) romanı çapdan çıxmışdır (2,s.215).

M.S.Ordubadi yaradıcılığının ardıcıl tədqiqatçısı, professor Fəridə Vəzirova yazır ki, ədib əsasən XX əsrin əvvəllərində sürgündə olduğu zaman və sovet hakimiyyətinin ilk illərində şeir yaradıcılığı ilə məşğul olmuşdur (3, s.53). Qeyd edək ki, 1913-cü ildə yazıçı başqa inqilabçılarla birlikdə həbs edilmiş, onu Naxçıvan, Aleksandropol, Tiflis, Bakı, Rostov, Novoçerassk zindanlarından sonra Saritsına sürgün etmişdilər. Onun 1913-1914-cü illərdə yazdığı şeirlərdə zülm və əzablara qarşı üsyankar ruh, çarizm rejiminə kəskin etiraz özünü qabarıq göstərməkdədir:

Bitməzmi cəfa, axırı etməzmi kəşakəş,
Axırda yaxar zatını yaxdıqların atəş.
Səndənmidir hər xanədə, hər qülbədə matəm,
Bir gün də gələr, zatına zindan olar aləm (2,s.267).

Bu şeirlərdə müəllifin azadlıq sevgisi, gələcəyə bəslədiyi ümid əksini tapmışdır.

1917-ci il fevral inqilabından sonra sürgündən xilas olan Məmməd Səid Romanovlar xanəndanının süqutunu böyük sevinclə qarşılayır. Bu münasibətlə “Gap” adlı şeirini yazır. 1918-ci ildən bolşevik partiyasına üzv olan M.S.Ordubadi 1920-ci ildə Qızıl Ordunun Azərbaycana daxil olmasını, ölkənin sovetləşməsini ruh yüksəkliyi ilə qarşılamış, bu münasibətlə, sosialist quruculuğu mövzusunda şeirlər yazmışdır.

Tədqiqatçılar haqlı olaraq 1905-ci il inqilabından sonra “Molla Nəsrəddin” məcmuəsinin nəşri ilə əlaqədar olaraq ədibin yaradıcılığında yeni bir mərhələnin başlandığını göstərirlər: “Molla

Nəsrəddin" cərəyanı onun demokratik ruhlu şeirlər yazmasına kömək edir. Dövrün yaramazlığını mədəniyyətsizlikdə görən maarifçi yazıçılar kimi M.S.Ordubadi də fəlakətlərin əsas səbəbini qəflətdə görürdü" (2,s.270).

Məmməd Səid "Tuti" məcmuəsinin 5 aprel 1917-ci il nömrəsində çap etdirdiyi

Birdən-birə dünyaya böyük qülqülə düşdü,
Bu qülqülədən ali-Roman müşkülə düşdü

-beyti ilə başlanan şeirində xalqlar həbsxanası olan çar Rusiyasının, hökmdar sülaləsinin süqutunu ruh yüksəkliyi ilə qarşıladığını bildirir.

"Hərdəmxəyal" imzası ilə çap edilən bu şeirdə Mirzə Ələkbər Sabirin satirik üslubunun təsiri özünü aydın şəkildə göstərməkdədir.

Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində M.S.Ordubadinin yazdığı əsərlər onun "Şeirlər", "Analıq", "Mənim şeirlərim", "Leninə", "Məhərrəmlik və rövzəxanlıq", "Qurban kəsmək haqqında", "Köhnə adamlar" və.s kitablarda çap edilmişdir. C.Xəndan ədibin bu dövr yaradıcılığı barədə yazır: "M.S.Ordubadinin bu dövrdəki əsərləri öz bədii və fikri dərinliyi etibarilə onun yaradıcılığında böyük bir yenilik kimi qiymətləndirilə bilməz. O, yeni hadisələrlə əlaqədar olaraq bəzi şeirlər yazsa da inqilabın ilk ilində az-çox nəzərə çarpan əsərləri "Molla Nəsrəddin" cərəyanına xas olan cəhətləri əhatə edən felyetonlar və satirik yazılardı. Bu cəhətdən çıxış etdikdə əsərlərində satira qüvvətli, dil sadə, fikir daha aydın olur" (2,s.282). Qeyd edək ki, XX əsrin əvvəllərində Əli Nəzmi, Səməd Mənsur, Əliqulu Qəmküsar, Cəfər Cabbarlı, Bayraməli Abbaszadə Hammal və başqaları da Sabirin təsiri ilə satirik şeir yaradıcılığı ilə məşğul olmuşlar. Məmməd Səid şeirlərini klassik poeziyanın məsnəvi, mürəbbe, müxəmməs, mənzum hekayə janrlarında yazmışdır.

Bu əsərlərində onun klassik poeziyanın bütün tələblərinə riayət etdiyini, şeirlərini sadə, anlaşıqlı dildə yazdığını görürük. Bu şeirlərini M.S.Ordubadi keçmişin qalığı olan köhnəpərəstlərin, riyakar din xadimlərinin pislənməsinə, xarici ölkələrdə, xüsusilə də İranda baş verən hadisələrə, beynəlxalq imperializmin istismarçı siyasətinin ifşasına, yeni sovet quruluşunun üstünlüklərinin təbliğinə həsr edilmişdir. Tədqiqatçı Nailə Mustafayeva ədibin müxəmməs janrında yazdığı bir sıra şeirləri barədə yazır: "Ədibin 1923-cü ildə yazdığı beş bəndlik "Əvvəl və indi" şeirində əvvəllər xalq avam olduğuna görə hörmət-izzət, var-dövlət sahibi olan mollaların indi sovet dövründə hörmətini itirdiklərindən, yoxsullaşdıqlarından bəhs olunur.

Yazıçının "Ramazan, novruz və məhərrəm", "Mollanın fırıldaqları", "Şiələr", "Ay tutulanda", "Şeyx əmi", "Ramazan qurtaranda" adlı müxəmməsləri eyni mövzuya həsr edilib. Məmməd Səidin 1928-ci ildə yazdığı beş bəndlik "İran Astarası və Azərbaycan Astarası" adlı müxəmməsində "bir tərəfdə" sözü təkrir, leksik anafora kimi tez-tez işlədilir. Müəllif bu üsulla İranın və Sovet Azərbaycanının ərazisində yerləşən iki Azərbaycanı müqayisə edir. Sosialist quruluşunun üstünlüklərini göstərir" (4, s.377).

Ədib 1925-ci ildə yazdığı "Şeyxin bir moizəsinə ithaf" adlı yeddi bəndlik müxəmməsində əmin olduğunu bildirir ki, din xadimlərinin tamamilə hörmətdən düşməsinə, məscidlərin məktəblərə çevrilməsinə az qalmışdır:

Millət dəxi heç görməyəcək şeyxdən asar,
Gəlməz daha insanlığa bu surəti-idbar,
Məscid verilər məktəbə, qalmaz daha dərbar (5, s.44).

Sovet dövründə yazdığı satirik şeirlərində ədib inkişafa, müasir təhsilə mane olan keçmişin qalıqlarını, mövhumatı, riyakar din xadimlərini tənqid edir, yeni quruluşun üstünlüklərini göstərir. 1926-cı ildə yazdığı "Xanbacı" adlı beş bəndlik müxəmməsini müəllif ömrü boyu evin dörd divarından başqa heç nə görməmiş, müasir, mədəni həyata qoşulmaqdan qorxan qadının dilindən yazmışdır. Burada "Çatlayır, Xanbacı, qəmdən ürəyim" misrasıyla başlanan satiranın müəllifi Mirzə Ələkbər Sabirin təsiri özünü göstərməkdədir. Xanbacı ərindən şikayətlənir ki, onu bulvara, teatra getməyə dəvət edir ondan müasir paltarlar geyməyi xahiş edir:

Deyir at çarşabı, qondar başına bircə səbət,
Baş açıq bulvara çıx,ta ki, kəsilsin bərəkət,
Haradan başlarına düşdü bu dinsiz hərəkət,
Qudurub köhnə qiyafətdə səfa qoymadılar,
Xanbacı, bizdə bular arü həya qoymadılar (5,s.48).

Sabir müxəmməslərində olduğu kimi, M.S.Ordubadinin müxəmməslərində də şeirin əvvəllində bir beyt nəqarət kimi işlənir, sonra hər bəndin sonunda bu beytlə həmqafiyə beytlər işlədilir. Beytin misrasından biri şeir boyu təkrar olunur.

"Əvvəl və indi" adlı şeirində müəllif sovet dövründə əvvəlki statusunu, hörmətini, maddi gəlir qaynaqlarını itirmiş mollaların acınacaqlı vəziyyətini onların əvvəlki firavan həyatı ilə müqayisə edir, bu müqayisədən doğan gülüşü oxucunun diqqətinə çatdırır:

Dəvət edən tapılmaz hər gün nahara, şamə,
Moddan çıxıb əbamız, işdən düşüb əmmamə,
Evdə gecə düzərdim arvadları nizamə,
İndi gülür camaat, vək-vək deyəndə molla,
Gündə nikah oxurdu dörd-beş həpəndə molla (5, s.30).

M.S.Ordubadinin sovet dövründə xarici ölkələrdə cərəyan edən hadisələrə, beynəlxalq vəziyyətə həsr olunmuş bir sıra satirik şeirlər yazmışdır. Bu, əsərlərində o, əsasən Amerika və Böyük Britaniya imperializmini, İranın o zamankı hakim qüvvələrini amansız tənqid atəşinə tutur.

O, zaman Sovet İttifaqı ilə ən böyük kapitalist ölkələri bir-birinə qarşı siyasi opponent idilər, dünyada nüfuzlarını yaymaq uğrunda rəqabət aparırdılar. Təbii ki, əqidəsinə, sosializmə, kommunizm ideyalarına sədaqətlə xidmət edən ədib bu qarşıdurmada sosialist cəbhəsi tərəfindən kapitalist quruluşunu tənqid edirdi: Onun beynəlxalq vəziyyətə həsr edilmiş bir sıra şeirlərinin epiloqlarından bu əsərlərin məzmunu məlum olur.

Aydın olur ki, bu şeirlər gündəlik qəzetlərdən alınmış məlumat əsasında yazılmışdır. Haqqında danışılan şeirlərdən bəzilərinin epiqraflarını nəzərdən keçirək: "Amerika xariciyyə naziri Fyuz öz nitqində demişdir ki, Amerika müharibədə torpaq işğal etmək üçün deyil, kiçik millətlərin azadlığı səbəbinə iştirak etmişdir", "Amerikanın Nyu-York şəhərində on bir yaşında uşaq inqilabi ədəbiyyat satdığı üçün həbs olunmuşdur", "Lloyd Corc Qərbi fəlakətlərdən qurtarmaq üçün İsa-Məryəm naminə Amerikaya yalvarır, bir tərəfdən də Puankareyə bir qəpiyindən keçməyəcəyini deyir", "İngiltərədə dörd günlük seçki kampaniyası vaxtında 40 min nitq söylənmişdir", "Seçki vaxtı bütün təyyarələr mitinqlərə intibahnamələr tökmək və natiqləri göndərmək üçün Lloyd Corcun ixtiyarına verilmişdir".

Bu şeirlərində Məmməd Səid haqqında danışılan hadisələrə əsl sovet vətəndaşı, kommunist kimi yanaşır, beynəlxalq imperializmin hərəkətlərini qətiyyətlə pisləyir. 1920-ci ildə yazılmış, Böyük Britaniyanın baş naziri Lloyd Corcun dilindən deyilən mürəbbe formalı şeirdə müəllif Qərb dünyasının zahirdə xristian həmrəyliyinə uyğun olaraq yekdil olmasından, əslində isə bu dünyanı içəridən ziddiyyətlərin parçalanmasından danışır:

Dağılıb Qərb, yanıb partladı, bitdi məsələ,
Gəldi ondan dəxi qəlbindəki mənzurun ələ,
Bax yanır Qərb, yetiş yardıma, göstər əcələ!
Xalqı yandırmaq üçün zülmi-şərarətdə birik (5,s.24)

"Edərik biz" adlı şeirində Böyük Britaniyada, bütün Qərb dünyasında nəzərə çarpan ikili standartlar, demokratiya adı ilə təqdim olunan riyakarlıqlar tənqid edilir. Sabir ənənələrinə sadiq qalan müəllif bu şeirini ifşa edilən tipin, növbəti seçki kampaniyası keçirən ingilis siyasətçisinin dilindən kinayə ilə yazmışdır. Burada deyilir ki, demokratiyadan danışan ingilis siyasətçilərinin işi-peşəsi kralın tərifini göylərə qaldırmaq, zəif, köməksiz millətlərin əsarət zəncirində saxlamaqdan, onları istismar etməkdən ibarətdir. Öz məqsədlərinə çatmaq üçün onlar digər xalqların cəhalətdə yaşamağını istəyirlər, dünyada baş verən bütün çirkin işlər onların əməlidir.

Müəllif elm, texnika, tərəqqi əsri olan XX yüzillikdə müstəmləkəçilikdən əl çəkməyən Britaniya imperialistlərinin parlamentini "əbvat məkanı"-lotu yığıncağı adlandırmaqdan çəkinmir:

Müstəmləkələr bizlərə olmuşlar sənaxan,
Bidətlərimizdən "sevinir" aləmi-insan,
Əlvatə məkandır yenə də tazə parlaman,
Məxluqu soyub cibləri bərkar edərik biz (5,s.28).

"Edərəm" rədifli şeirdə İngiltərədə keçirilən seçkilərdə xalqın aldadılması, onlara boş vədlərin verilməsi kəskin tənqid edilir. Məmməd Səid ingilis siyasətçilərinin riyakarlığını yüksək bədii formada tənqid edə bilmişdir:

Seçilən biz, hamı yerlərdə seçənlər də bizik,
Dinü məsləkdən həqiqətdə keçənlər də bizik,
Acların qanını şərbət tək içənlər də bizik (5,s.29).

Bu əsərində müəllif yalnız Britaniyanın deyil, bütün imperialist dünyasının məqsədinə nail olmaq, mənafeyinə xidmət etmək naminə hər cür rəzalətlərə yol verdiyini inandırıcı şəkildə göstərməkdədir:

Topla işğal edilən qul, kölə, müstəmləkələr,
Əlimizdə cücə tək alət olub sinfi-bəşər,
Ayaq altında qalıb işçi, bütün can çəkişər (5,s.28).

Məmməd Səidin "ciddi" şeirləri də böyük maraq doğurur. Onun 1924-cü ildə Leninin ölümünə həsr etdiyi şeiri dərin bir kədərin ifadəsidir. Müəllif əmindir ki Leninin ölümündən sonra da onun qurduğu sovet dövləti sarsılmayacaq, məhv olmayacaq. Milyonlarla zəhmətkeşlər onun əməllərini davam etdirəcəklər:

Cismin gömülsə xakə, gömülməz əməllərin,
Daim cahandadır yenə himmətli əllərin (5,s.5).

Yazıçı 1907-ci ildə yazdığı "Vətənimizə bir neçə söz" adlı şeirində doğma yurdu sinəsi dağlı bir çəmənzar kimi təsvir edir. Belə bir sual verir ki, nə üçün bahar gəldiyi halda güllər, çiçəklər açmır, təbiət susqun vəziyyətdədir? Bu suala cavab vermək üçün müəllif vətənimizin tarixini yada salır, ölkəni talan edən, qız-gəlinləri əsir aparan işğalçı orduları sadalayır. Yadelli və yerli soyğunçuların ucbatından əhali fəqir vəziyyətdədir. Sonda yazıçı xalqı bu vəziyyətdən çıxarmaq üçün əlindən gələni əsirgəməyəcəyindən, qələmi əldən yerə qoymayacağından danışır.

Məmməd Səid 1928-ci ildə yazdığı "Xan sarayı"adlı şeirində Xan sarayını istismarçı sinfin nümayəndələrinin zəhmətkeşlərin canı, qanı bahasına tikdirdiyi istibdad, zülm abidəsi kimi nəzərdən keçirir. Saraya baxarkən o düşünür ki, bu bina tikilərkən nə qədər insan ölmüş, şikəst olmuşdur. Şeirin sonunda müəllif müasir sovet dövründən danışır və deyir ki, indiki azad cəmiyyətdə bayquş yuvasına çevrilmiş belə binalara ehtiyac yoxdur, keçmiş məzlumların diyarında xərabələrin üzərində yeni kaşanələr tikiləcəkdir:

Üfüqləri təmizlənsin mənhus, mənfur səslərdən,
Azad zəhmət ölkəsində dolanmasın bir düşmən.
Ölkəmizdən uçub getsin, ulamasın bayquşlar,
Yeni nəslin dünyasına yaddır bütün o quşlar.
Xərabələr üzərində kaşanələr yüksəlsin,
Hər məzlumun sinəsində bir tunc heykəl dikəlsin (5, s.11).

M.S.Ordubadi bir sıra maraqlı mənzum hekayələrin də müəllifidir. "Kənd alverçisi" adlı mənzum hekayəsində yazıçı sovetləşməyə qədər insanların kənddə yaşayışını təsvir edir. Hacı Şəban adlı varlı bir şəxs demək olar ki bütün kəndi idarə edir. Onun dükanları, mülkləri, bağı, bostanı vardır. Kəndxuda da, molla, seyid, bəylər də onun bir sözünü iki etmirlər. O, özünü mömin, dindar bir adam kimi təqdim etsə də, insanları amansızcasına istismar edir, qışda ehtiyacı olanlara borc verib, bunun əvəzinə yazda onları öz sahələrində işlədir. Xəstə olan, işləmək imkanı olmayan varsa, kəndxuda onları məcbur edir. O, bütün kəndi ələ almışdır, burada istədiyi kimi

hökm sürməkdədir. Əsərin sonunda deyilir ki, keçmişdə vəziyyət belə idi. Kənd əhalisi istismarçıların əlindən əzab çəkirdi. İndi isə vəziyyət tamamilə başqadır. Kənd zəhmətkeşləri azadlığa çıxmışlar.

1925-ci ildə yazdığı “Toy gecəsi” adlı mənzum hekayəsində Məmməd Səid sovet dövründə baş verən bir əhvalatdan bəhs edir. Telli adlı qızı zorla sevmədiyi bir adama ərə vermək istəyirlər. Toy gecəsində məlum olur ki, gəlin qaçmışdır. Qızın nişanlısı, bütün qohumlar əllərinə silah alıb intiqam almaq, Tellini də, onu qaçıranı da öldürmək istəyirlər. Birdən xəbər yayılır ki, Tellini komsomol katibi Sona qaçırmışdır. Bundan sonra Telli də komsomolçu olub qızların, qadınların azadlığı uğrunda mübarizəyə başlayır.

Kənd qadınlarını qurtarmaq üçün,
Telli sərf edərdi varlığın bütün.
Verərək əl-ələ komsomol qızlar,
Qadınlara azad bir dünya qurar (5,s.63).

1927-ci ildə yazdığı mənzum hekayədə yazıçı kənddə güzəranı xoş keçən bir qoçudan bəhs edir. Bu adam qazının məsləhəti ilə dünyasını dəyişmiş varlı bir şəxsin qızı ilə evlənir, var-dövləti daha da artır. Məkkə ziyarətinə gedib hacı olur, lakin onun övladı olmur. Yenə qazının məsləhəti ilə qoçu atası rəhmətə getmiş Nərgiz adlı yoxsul bir qızı evinə gətirir, özünə arvad edir, eyni zamanda onu qulluqçu kimi istifadə edir.

Təzə gəlin çox əziyyətlər çəkir,övladı dünyaya gəldikdən bir il sonra onu evdən qovurlar. Nərgiz qazıya şikayət edir. Qazı cavabında deyir ki, ərin səndən şikayət edir, səni tərbiyəsizlikdə, sözə baxmamaqda ittiham edir. Buna görə də səni boşamağa haqlıdır. Nərgiz bi iftiraya dözməyib qazının bir fırıldaqçı olduğunu üzünə deyir. Bundan sonra xəbər yayılır ki, ölkəyə yeni sovet hakimiyyəti gəlmişdir. Nərgizin keçmiş ərinin var-dövləti əlindən alınır, oğlu da anasının yanına qayıdır.

“Molla və rəssam” mənzum hekayəsində bir molla ilə rəssamın bir vaqonda getmələrindən danışılır. Molla darıxmamaq üçün dualar oxumağa başlayır. Rəssam isə üzünü mollaya tutub rəsm çəkməyə başlayır. Molla bu işdən çox narazı qalır, bütün vaqondakıları başına yığıb etiraz edir: Şəriətə görə insan rəsmi çəkmək qadağandır, nə üçün rəssam onun şəklini çəkmişdir? Bu zaman rəssam məcbur olub çəkdiyi rəsmi göstərir. Məlum olur ki, o uzunqulaq şəkli çəkibmiş.

“Mollanın yuxusu”, “Vaiz və kəndli” adlı mənzum hekayələrində də ədib riyakar din xadimlərini tənqid edir.

Ədəbiyyat tariximizə görkəmli nasir kimi daxil olmuş Məmməd Səid Ordubadi yaradıcılıq yolunun əvvəllində də, sovet dövründə də şeirlər yazmışdır. Bu əsərlər yazıçının ədəbi irsini daha hərtərəfli öyrənməyimizə kömək edir.

## ƏDƏBİYYAT

1. Qarayev Nəsrəddin. XIX əsr Azərbaycan ədəbi məclisləri. Bakı: “Elm və təhsil”, 2012.
2. Hacıyev C. XX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Azərbaycan Universiteti Nəşriyyatı, 1955.
3. Vəzirova Fəridə. Məmməd Səid Ordubadi. Bakı: “Gənclik”, 1979.
4. Mustafayeva Nailə. Azərbaycan ədəbiyyatında müxəmməs janrı. Bakı: “Elm və təhsil”, 2018.
5. Ordubadi M.S. Seçilmiş şeirlər və hekayələr. Bakı: Azərnəşr, 1951.

## О ПОЭТИЧЕСКОМ ТВОРЧЕСТВЕ МАМЕД САИДА ОРДУБАДИ

## АННОТАЦИЯ

Известный азербайджанский писатель, романист, публицист Мамед Саид Ордубади (1872-1950) в молодые и зрелые годы писал стихи. Свои стихи он писал в основном в таких жанрах классической литературы, как маснави, мухаммас, мурабба. Стихи Мамед Саида посвящены критике отсталости, двуличия религиозных деятелей, международного имперализма, пропоганде социалистических идей, нового советского строя, просвещения, свободы женщин. В ряде стихов он сравнивает жизнь людей в Иране и в Советском Азербайджане, этим способом показывает положительные, прогрессивные стороны советского строя.

В своих сатирических стихах М.С.Ордубади является продолжателем традиций великого азербайджанского поэта Мирза Алекбера Сабира. Неслучайно он как и Сабир издал ряд своих сатирических стихов на страницах журнала «Молла Насреддин». Как и в стихах Сабира герой стихов Мамед Саида сам себя разоблачает. О свое невежество, непризнание с его стороны современное образование и прав женщин за свои положительные качества. В советское время как и ряд других азербайджанских поэтов-Али Назми, Самед Мансур, Джафар Джаббарли и другие М.С.Ордубади своими сатирические стихами традиции великого азербайджанского поэта Мирза Алекпера Сабира.

## ABOUT THE POETIC WORK OF MAMMAD SAEED ORDUBADI

## SUMMARY

The famous Azerbaijani writer, novelist, publisist Mammad Said Ordubadi (1872-1950) wrote poetry in his young and mature years. He wrote his poems mainly in such genres of classical literature as Masnavi, Muhammas, Murabba. Mammad Said’s poems are devoted to criticism of backwardness, duplicity of religious figures, international imperialism, propaganda of socialist ideas, the new Soviet system, enlightenment, women's freedom. In a number of verses he compares the lives of people in Iran and Soviet Azerbaijan, in this way shows the positive, progressive aspects of the Soviet system. In his satirical poems, M.S.Ordubadi is the continuation of the traditions of the great Azerbaijani poet Mirza Alekber Sabir.

It is no coincidence that he, like Sabir, published a number of his satirical poems in the pages of the magazine Molla Nasraddin. As in Sabir’s verses, the hero of verses Mammad Saeed exposes himself. About his ignorance, his non-recognition of modern education and women's rights for their positive qualities.In Soviet times, like a number of other Azerbaijani poets, Ali Nazmi, Samed Mansur, Jafar Jabbarli and others M.S.Ordubadi with their satirical poems traditions of the great Azerbaijani poet Mirza Alekper Sabir.

# İNGİLİS DİLİNDƏ NƏZAKƏT KONSEPTİNİN QRAMMATİK XÜSUSİYYƏTLƏRİ

***Ləman İsmayılova***
***ADU-nun II kurs magistrantı***
***leman-ismayılova2015@yandex.com***

***Açar sözlər:*** nəzakət konsepti, qrammatik xüsusiyyətlər, ingilis dili.
***Ключевые слова:***концепция вежливости, грамматические особенности, английский язык.
***Keyword:*** the concept of courtesy, grammatical features, english language.

Nəzakət anlayışı ilə bağlı olan problemər müasir dilçilikdə, xüsusilə də ingilis dilçiliyində müxtəlif aspektlərdə araşdırma obyekti olmuşdur. Bu problemlər sosiolinqvistika, psixolinqvistika, paralinqvistika, mətn dilçiliyi, tipologiya və başqa dilçilik sahələri üzrə araşdırılmışdır. Buna baxmayaraq isə məsələnin, xüsusilə də, qrammatik xüsusiyyətləri üzrə öyrənilməmiş tərəflərikifayət qədər olduqca çoxdur. Məhz bu səbəbdən də ingilis dilində nəzakət konseptinin xüsusilə üslubi və sintaktik baxımdan öyrənilməsi aktualdır.

“Sosiolinqvistikada və danışıqların təhlilində, nəzakət strategiyaları başqalarına narahatlıq ifadə edən və müəyyən sosial kontekstlərdə özünə hörmət üçün təhdidləri minimuma endirən nitq aktlarıdır” [5].

Nəzakət, dinləyicinizlə və ya oxucunuzla yaxşı münasibətlər qurmaqdan ibarətdir. Nəzakət hörmət göstərməkdir. Dinləyicimizə və ya oxucumuza dəyər verdiyimizi və hörmət etdiyimizi göstərməyin bir çox yolu var. Daha rəsmi vəziyyətlərdə, müəyyən nəzakətli ifadələrdən istifadə etmək üçün xüsusilə diqqətli oluruq. Cəmiyyətdəki insanlar müxtəlif sosial qruplara bölünür və hər bir qrupda da müəyyən nəzakət və davranış qaydaları formalaşır.

Həmin norma və qaydalar da hər bir qrupun nitqinə, davranışına təsir göstərir. Nəzakətliliyin linqvistik ifadə vasitələri cəmiyyətdəki istər şəxsiyyətlər arasındakı, istərsə də sosial qruplar arasında münasibətlərin xarakterini müəyyənləşdirməyə şərait yaradır. Nəzakət bildirən sözlərin və ifadələrin seçilməsi bilavasitə mühit və insanlar arasındakı münasibətlə bağlı olur. R.Lakof “The limits of Politiness” kitabında “Nəzakəti şəxsi münasibətlər zamanı qarşıya çıxa bilən hər hansı anlaşılmazlığı azaltmaq üçün istifadə olunan anlayış adlandırır” [ 3, s. 125].

Nəzakət strategiyalarının və taktikalarının linqvistik ifadə vasitələrinə müsbət və mənfi nəzakət strategiyaları daxildir.

Müsbət nəzakət strategiyaları dostluğunu vurğulamaq və kimlərisə incitməmək üçün nəzərdə tutulmuşdur. Bu strategiyalara iltifatla tənqidçi fikirlər söyləmək, ortaq fikirlər qurmaq, zarafatlardan, ləqəblərdən, etiket suallarından, və qrupda jarqondan istifadə etmək daxildir. Müsbət nəzakət strategiyaları ictimai məsafənin azalaraq yerini həmrəylik və yaxınlığa verməsi məqamlarında, rəsmiyyətin daha az olduğu vəziyyətlərdə işlənir.

Mənfi nəzakət strategiyaları hörmət göstərməklə təhqirlərə yol verməmək məqsədi daşıyır. Bu strategiyalar arasında sorğu - sual və fikir ayrılıqlarını rəy şəklində təqdim etmək daxildir. Məsələn, “Shut up”! (Kəs səsini!) ifadəsi “Keep quiet”! (Sakitliyi qoru!) ifadəsindən daha kobud səslənir. Bu ifadələrin əvəzinə “Do you think you would mind keeping quiet” (Zəhmət olmasa sakitliyə riayət edə bilərsiniz) deyilməsi daha doğru olardı. Bu cümlə kitabxanalarda, nəqliyyatda və başqa ictimai yerlərdə istifadə edilir. Başqa bir nümunəyə nəzər yetirək. Tanımadığın bir insandan yolu soruşanda: “Where is Cathedral Street”? (Kafedral küçəsi haradadır?) əvəzinə “Excuse me, I’m looking for Cathedral Street” (“Bağışlayın mən Kafedral küçəsini axtarıram”) söylənilməsi daha nəzakətli olardı.

Müsbət və mənfi nəzakət mədəniyyətinin multikultural praqmatikada geniş şəkildə yayılmasına baxmayaraq, bu nəzəriyyələr hələ də aydın olmayan şəkildə inkişaf edir və bu nəzakət formalarından istifadə edənlər əslində nəzakətin müsbət və ya mənfi olduğunu dəqiq olaraq təyin

edə bilmirlər. Bunları nəzərə alaraq P.Brown və C.Levinson sosial fərqliliklərin mədəni-spesifik qiymətləndirilməsində müsbət və mənfi nəzakət mədəniyyəti və davranışları arasında fərqli cəhətlərin olduğunu qeyd etmişdilər. Sosial fərqliliklərin qiymətləndirilməsində bu iki mədəni strategiyanın bir-biri ilə əlaqələndirilməsi problemli məsələ hesab olunsa da, P.Braun və C.Levinsonun nəzəriyyəsi etibar qazanma ilə eyniləşdirilir və etibar qazanma etibarı itirmə davranışları üçün sosial fərqlərin qiymətləndirilməsində əsas meyar hesab olunur [2, s. 129].

Linqvistik nəzakətin bir növü olan metalinqvistik nəzakət sosial əlaqənin yaradılması və sosial təzyiqin qorunub saxlanması üçün zəmin yaradır.R.Marquez-Reiter ünsiyyət etiketi ilə birlikdə fatik ünsiyyəti metalinqvistik nəzakətin ifadə növü kimi səciyyələndirir [4, s. 24].

İngilis dilinin qrammatikasında nəzakət etiketləri işlənən cümlələrdə müəyyən modal feillərdən istifadə edilir. Xüsusən də modal feillərin keçmiş formalarında işlənməsi daha nəzakətli hesab edilir. Həmin modal sözlər bunlardır: could, might, should and would. Bu modal sözlərin işləndiyi cümlələrə də nəzər yetirək:

May // Might ilə işlənən cümlələrdə:“Might I ask if you are seen Mrs Bowdon” (Xanım Bowdonu görüb-görmədiyinizi soruşa bilərəm?) Bu cümlədə “Might I ask” ifadəsi “May I ask” ifadəsindən daha nəzakətli ifadədir.

“Will” // “Would” ilə işlənən cümələrdə: “Would you mind moving your car”? (“Avtomobilinizi hərəkət etdirə bilərsiniz”?). “Would you give these to Richard”, please? (“Zəhmət olmasa bunları Richard-a verərdiniz.”?) Bu cümlələrdə də “Would you mind” və “Would you give” ifadələri “Will you mind” və “Will you give” ifadələrindən daha nəzakətli ifadələrdir.

“Can” // “Could” ilə işlənən cümlələrdəki nümunələrdən birinə aşağıdakı dialoqda nəzər yetirək:

A: Could you take a look at my laptop? It’s taking so long to start up. (Noutbukuma baxa bilərsən? Onun açılmağı çox uzun çəkir)

B:Well I’ll certainly take a look. Is there a possibility that it might have a virus?(Yaxşı bir nəzər yetirəcəyəm. Bir virusun ola biləcəyi ehtimalı varmı)?Well, the anti-virus is supposed to be up to date.You are likely to feel stressed before your exam.(Yaxşı, günümüzdə anti – virus mövcuddur. Ehtimal ki, sən imtahandan əvvəl gərginsən).

Bu dialoqda da həmçinin ilk cümlədəki “Could you take” ifadəsi “Can you take” ifadəsindən daha nəzakətli səslənir.

Bəzən daha nəzakətli və daha da davranışlı olmaq üçün bayaq qeyd etdiyimiz modal sözlərdə olduğu kimi indiki zamana müraciət etdikdə keçmiş feil formasından istifadə edilir. Bu zaman çox vaxt “hope” - “ümid”, “think” - “düşünmək”, “want” -“istəmək” və “wonder” - “təəccüb” kimi feillərdən istifadə olunur. Qeyd etdiyimiz bu feillər həm sadə, həm dəkeçmiş davamedici zamanda ola bilər. Bunlara aid nümunələrə aşağıdakı dialoqlarda işlənmiş cümlələrdə baxaq:

A: Where’s the key to the back door? (Arxa qapının açarı haradadır?)

B:I was hoping you had it. (Ümid edirdim ki, səndə var). Bu cümlə“I hope you have it” şəklində də işlənə bilər. Lakin “I was hoping you had it” cümləsinin işlənməsi daha nəzakətli səslənir.

“I am having problems with my internet connection and I was just wondering if you could tell me how to fix it”.(İnternet bağantımda problem var və mən düşünürəm ki,siz bunu necə düzəldə biləcəyimi deyə biləcəksiz.). Bu cümlə “I have a problem with my internet connection and I wonder if you could tell me how to fix it”. cümləsindən daha nəzakətli səslənir.

“I thought you might want to rest for a while since it’s been a long day”. (Uzun gün olduğundan bir müddət dincəlmək istəyə biləcəyinizi düşündüm)

“I wanted to ask you a question”. (Sənə bir sual vermək istədim).“We were hoping you’d stay for dinner”. (Ümid edirdik ki, nahara qalacaqsınız) və sairə bu kimi cümlələri nümunə göstərə bilərik.

Rəsmi yerlərdə, yazılan dəvətnamə və məktublarda daha kübar və nazakətli görünmək üçün indiki zamana aid olan suallar keçmiş zamana aid formada verilir. Məsələn, "Did you want another coffee"? (Başqa bir qəhvə istəyirdiniz?) və sairə.

Mağazalarda və digrə xidmət sahələrində çalışan insanlar nəzakətli görünmək üçün öz nitqlərində tez – tez keçmiş zamana aid feil formalarından istifadə edirlər. Məsələn:

- Assistant: (Köməkçi:)
- Did you need any help, madam? (Sizə bir kömək lazım idi, xanım?)
- Customer: (Müştəri)
- No, thanks. I'm just looking. (Xeyr, təşəkkürlər. Mən sadəcə baxıram).

İngilis dilində nəzakət bildirən söz və ifadələr arasında please, thank you və sorry daha çox işlənir: "Can I help in any way, please? "Yes", said Tuppence thoughtfully. I think, perhaps, you can" (Mən sizə necəsə kömək edə bilərəmmi? "Bəli",- Tapnz düşüncəli halda dedi. Məncə, siz edə bilərsiniz) [1,s.63].

Danışarkən daha da nəzakətli olmaq üçün "if"(əgər) sözünü "will", "would", "can" or "could" la birlikdə istifadə olunur. Məsələn: "If I could just say one more thing". (Bir daha bir şey deyə bilsəm). "If we can move on to the next point for discussion" (Müzakirə üçün növbəti mərhələyə keçə bilsək"). və sairə.

Söhbət edərkən kübar olmaq üçün bir yox, iki sual verilir.Birinci sual dinləyici üçün bir girişdir, ikincisi daha konkret bir sual verir: Məsələn :

A: Do you like sport? I mean, do you play sport?(Sən idmanı xoşlayırsan? Demək istəyirəm ki, idmanla məşğulsunuz?)

B:Yeah. I play basketball. I'm on the school team. (Bəli, mən basketbol oynayıram. Mən məktəbin komandasındayam).

Bu dialoqda birinci sual idman mövzusunu təqdim edir; ikinci sualda isə bu barədə daha konkret soruşur. Dinləyici ikinci suala cavab verir. Ümumiyyətlə, ingilis dilinin qrammatikasında ikili suallardan çox istifadə olunur.

Həm ingilis dilində həm də başqa dillərdə bir insanın adından istifadə etdikdə söhbətlər daha nəzakətliolur. Məsələn, "What's the time, John"? (Saat neçədir, Con); "I'm not sure I agree with you, Liam". (Liam, sizinlə razı olduğuma əmin deyiləm.) və sairə cümlələri bu fikrə nümunə göstərə bilərik.

İngilis dilində kişi cinsi üçün - Mr /ˈmıstə, qadın cinsi üçün Mrs /ˈmısız/ işlədilir. Bəzən cavan oğlanlar üçün "Master", subay və gənc qızlar üçün "Miss" işədiir. Həmçinin İngilis dilində ana ilə söhbət edərkən ona mürəciət kimi "mother" əvəzinə "mum", "mam", "mummy", "mom"; ataya mürəciət edəndə isə "father" əvəzinə "dad", "daddy", "papa" kimi sözlərlə müraciət olunur. Nənəyə "grandmother" əvəzinə"gran", "grandma", "nana", "nan", babaya isə "grandfather" əvəzinə "granddad", "grandpa", "granpy", "gramps" kimi kəlmələrlə müraciət olunur. Bu ifadələr onlar arasındakı münasibətdə daha da səmimiyyət yaradır.

İngilis dilinin nəzakət konseptinin qrammatik xüsusiyyətləri çox zəngindir və bu xüsusiyyətlər nitq zamanı insanların daha da nəzakətli və kübar olmasında mühüm rol oynayır.

## ƏDƏBİYYAT


1. Agatha.Cristie. N or M? Great Britain, HarperCollins 2008, p. 304;
2. Almut Koester, Investigating Workplace Discourse. Routledge, 2006, p.183;
3. Lakoff R. The limits of Politeness. New York, 1990, p.235;
4. Marquez-Reiter R. Linguistic politeness in Britain and Uruguay. Amsterdam / Philadelphia, 2000, p.225;
5. https://www.thoughtco.com › politeness-strategies.

## ГРАММАТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПОНЯТИЯ ВЕЖЛИВОСТИ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ


### АННОТАЦИЯ

По мере развития общества язык становится еще богаче, и в него вводятся новые слова и фразы. Слова, связанные с понятием языковой вежливости, отличаются своей спецификой. Изучение вежливых слов и выражений очень актуально для лингвистики. Английские слова и выражения вежливости имеют свою уникальную грамматику. Проблемы, связанные с понятием вежливости, были исследованы в различных аспектах современной лингвистики, особенно в лингвистике английского языка. Тем не менее, есть еще много нерешенных аспектов проблемы.


## GRAMMATICAL FEATURES OF THE CONCEPT OF COURTESY IN ENGLISH


### SUMMURY

As society develops, the language becomes even richer, with new words and phrases being introduced into the language. Words related to the concept of language courtesy are distinguished by their specificity. Studying gracious words and expressions is very relevant to linguistics. English words and expressions of courtesy have their own unique grammar. Problems related to the concept of courtesy have been studied in various aspects of modern linguistics, especially English linguistics. However, there are still many unsolved aspects of the issue.

# SİNONİMLƏR VƏ ONLARIN NİTQDƏ FUNKSİONALLAŞMASI

**_Aynur Poluyeva_**
**_ADU-nun II kurs magistrantı_**
**_pva.aynur999@gmail.com_**

***Açar sözlər:*** sinonim, məna, sinonimik dominant, dil, nitq, kontekst, əvəzlənmə
***Ключевые: слова:***синоним, значение,доминантный синоним, язык, речь, контекст, замещение ***Key words:*** synonym, meaning, synonymous dominant, language, speech, context, substitution.

Dil cəmiyyətdə ən güclü ünsiyyət vasitədir. Dil üfüqündən kənarda heç bir mədəni həqiqət yoxdur və cəmiyyətin təşkili ilə bağlı olan prinsiplərdən, qaydalardan, normalardan və dəyərlərdən asılıdır. Dil ünsiyyət vasitəsi olaraq istifadəçilərinə uyğunlaşır vəcəmiyyətlə bərabər dəyişir və inkişaf edir. Dilçiliyin istənilən bir sahəsini nəzərdən keçirsək görərik ki, sinonimlərin mövcud olmadığı sahə yoxdur. Elə buna görə də deyə bilərik ki, sinonimiya nəinki leksikologiyanı tədqiq edən dilçi alimlər tərəfindən, eləcə də dilçiliyin digər sahələrini araşdıran tədqiqatçıları da maraqlandıran sahədir. Hər hansı bir dilin analiz edilməsi onun lüğət tərkibinin tədqiqindən başlayır.

Sinonimlər lüğətlərdə dilin zənginliyinin əsas göstəricisi kimi qeyd olunur.Sözün leksik mənası anlayışın müəyyən bir dil sistemi daxilində reallaşmasıdır.Söz linqvistik cəhətdən *dil vahidi*, məntiq və psixologiyadan gələn *anlayış* terminə əsasən isə *düşüncənin, fikrin vahididir*. Sinonimlərə misal olaraq, “place – space – area – spot – region – residence – position – ground”, “part – portion – piece – section – fraction”, “always” və “forever”, “strong – powerful – mighty”.

Anlayışlar, bir qayda olaraq, beynəlxalqdır, mənalar isə milliyyətləsərhədlənə bilir.N.Məmmədov “Dilçiliyin əsasları” kitabında qeyd edir: “Dilin lüğət tərkibində bir qrup sözlər vardır ki, onlar müxtəlif səs tərkiblərindən ibarət olub, ya eyni və ya bir-birinə çox yaxın mənaları ifadə edir; bunlara sinonimlər deyilir”(9). M.Hüseynzadə “Azərbaycan dilinin üslubiyyatı” kitabında qeyd edir ki, dilin lüğət tərkibinin zəngin və üslubi cəhətdən rəngarəng olmasında sinonimlərin rolu olduqca böyükdür (3). Sinonimlər müxtəlif məna çalarlarını ifadə etməyə imkan verən mənaca oxşar, lakin tamamilə eyni olmayansözlərdir.

Sinonimlərə daha dəqiq linqvistik tərif vermək üçün sözün semantik struktur mənasına əsaslanmaq lazımdır. Ümumişlək sözlərdən əksəriyyəti çoxmənalıdır və onların içində çoxlu sinonimlər var. Belə ki, bir söz bir neçə müxtəlif sinonimik qrupa fərqli mənalarla daxil ola bilər.Bu cür sinonilər birdən çox mənada bir-birlərini əvəz edə bilir, lakin heç vaxt tamamilə əvəzləyə bilmirlər. “Sinonimlər əsas mənasına görə mütləq və ya nisbi eyniyyət təşkil edən, lakin formasına və əlavə mənasına görə fərqlənən sözlərdir” (20).

Belə ki, sinonimiya bəhsində A.Tağızadə və X.S.Xocayev sinonimlərə “eyni mənanın müxtəlif rənglərini ifadə edən”, M.Hüseynzadə “məzmunca bir-birinə yaxın olan”, N.Məmmədov “ya eyni və ya bir-birinə çox yaxın mənaları ifadə edən”, Ə.Dəmirçizadə isə “əsas mənasına görə mütləq və ya nisbi eyniyyət təşkil edən” sözlər kimi baxırlar (4). Sinonimiya öz mahiyyəti etibarilə mürəkkəb bir semasioloji problemdir. R.S.Ginzburq göstərir ki, sinonimika semantik ekvivalentlik kimi də başa düşülür (5).

Sinonimlər eyni dilin eyni mənaya malik və ya müxtəlif sözlərin eyni bir anlayışı ifadə etməsinə deyilir. Dilin təbiətindən belə bir nəticəyə gəlmək olur ki, hər dilin özünəməxsus tarixi, motivasiyası və xüsusi işlənmə konteksti vardır. Bununla yanaşı, elə sözlər də var ki, kommunikasiya aktı üçün olduqca lazımsızdır, dilin zənginliyini təmin etməkdənsə, onu artıq şəkildə yükləyir, ifadəliliyini pozur. Belə ki, əgər iki söz həm mənaca, həm də işlənmə funksiyasına görə tamamilə eynidirsə və istənilən kontekst daxilində heç bir məna fərqi

yaratmadan biri digərini əvəzləyə bilirsə, bu zaman, təbii olaraq, həmin komponentlərdən biri ya mənasını dəyişir, ya da dilin istifadəsindən çıxır. Dilçilər qeyd edir ki, sinonimlərdən biri öz mənasını dəyişərək sinonimlər cərgəsini tərk edirsə, digər komponent öz mənasını genişləndirir və beləliklə keçmiş iki dil vahidinin ümumi semantik dəyərini öz üzərinə toplayaraq götürür.

Müasir ingilis dilində sinonimlər üçün mövcud yeganə təsnifat məşhur rus dilçi alimi akademik V.V.Vinoqradov tərəfindən formalaşdırılmışdır. Vinoqradovun işləyib hazırladığı təsnifata əsasən sinonimlərin üç növü olduğunu deyə bilər: mütləq və ya tam sinonimlər, ideoqrafik sinonimlər və üslubi sinonimlər. 1) Mütləq və ya tam sinonimlər bütün kontekstlərdə tamamilə eyni məna ifadə edən, eyni üslubi çalarlığa malik olan və hər zaman bir-birlərini əvəzləyə bilən sinonim sözlərə deyilir.

Məsələn: "fast – quick – rapid". 2)İdeoqrafik sinonimlər eyni denotativ məna ifadə edir. lakin əlavə məna çalarlarında, yəni konnotasiyalarında fərqlənən sinonim sözlərə deyilir. Məsələn: "road", "say – tell", "town – city". 3) Üslubi sinonimlər emosional-ekspressiv məna yükünə malik olaraq müəllifin hər hansı bir fikri ifadə tərzinə əsasən üslubi cəhətdən fərqlənən sinonimlərə deyilir. Məsələn: "face (neytral) – visage (ədəbi) – countenance (rəsmi) – physiognomy (rəsmi) – feature, mug, phiz qeyri-rəsmi)", "mother (neytral) – mom (məişət) – parent (ədəbi) - mommy (uşaq)".

Çoxmənalı sözlər müxtəlif sinonimik cərgələr yarada bildikləri halda, bir-birlərinin sinonimləri ola bilmirlər. Məsələn, "bright - brilliant – radiant – luminous – beaming – lustrous", "bright - gifted – capable – intelligent", "bright - vivid – lively – fresh" və ya "to close – to shut – to finish".

Bu məqamı da qeyd etmək lazımdır ki, sinonimik qrupu təşkil edən sinonimlərin hər birinin özünəməxsus xarakterik xüsusiyyətləri və məna çalarlıqlarında fərqlər var. Sinonimlər cərgənin hər bir üzvünün denotativ mənasını açmaqla qrupun ümumi ifadə etdiyi mənanı bilmək mümkündür.

Fransız linqvisti, sinonimiyanı tədqiq edən ilk dilçilərdən olan Ş.Balli sinonimik dominant və ya sinonimik cərgənin digər üzvləri arasındakı əlaqəni ümumi və xüsusi arasındakı münasibətlər kimi təhlil edərək sinonimləri yalnız sinonimik cərgə və kontekst daxilində daha effektli şəkildə öyrənməyin və analiz etməyin mümkün olduğunu vurğulamışdır (17).

Dilçiliyin sözlərin mənasını araşdıran bölməsi semasiologiya adlanır.Semasiologiya dilçiliyin nəinki dilin lüğət tərkibi, eləcə də morfologiya və sintaksisini də tədqiq edən bir bölməsidir. Semasiologiya bəhsi yunan sözü olub "sema" "işarə", "logos" isə "öyrənirəm" deməkdir. Sinonim sözləri müəyyənləşdirmək üçün onlara semantik, qrammatik və üslubi cəhətdən yanaşmaq lazım gəlir.Sinonimiyanı sözlər arasındakı bir növ semantik əlaqə növü də adlandırıla bilər.Bu o deməkdir ki, sözlər və ya ifadələr ancaq eyni mənaya malik olduqda sinonim hesab edilə bilər.Ancaq bunu da qeyd etmək lazımdır ki, sözlər və ya ifadələr onları bir-birlərindən fərqləndirən özünəməxsus sətiraltı mənalara malik olması müxtəlif sinonimik qruplar yarada bilmələrinə səbəb olur.

Sinonim sözlərdən danışarkən onların iki başlıca məna növlərinin olduğunu qeyd edə bilərik: denotativ və konnotativ mənalar. Denotativ məna sinonimlər qrupuna daxil olan hər bir sözün ifadə etdiyi ilkin, ümumi mənadır.Sinonimik dominantlar elə komponentlərin ifadə etdiyi ümumi mənadan ibarət olur və üslubi cəhətdən neytraldır.Konnotativ məna isə denotative mənaya əlavə olaraq zaman, məkan, tərz, emosionallıq, ekspressivlik və gərginlik kimi məlumatları özündə cəmləşdirir.

Konnotasiyanın bir neçə növü var. 1) Dərəcə və ya gərginlik bildirən: "like – admire – love – adore – worship", "surprise – astonish – amaze – delight – exalt". 2) Zaman konnotasiyası: "stare – glare – gaze – glance – peep – peer". 3) Emosional-ekspressiv konnotasiya: "alone – single – lonely – solitary". 4) Qiymətləndirici konnotasiya: "well-known – famous – notorious – celebrated", "to produce – to create – to manufacture – to fabricate". 5) Səbəb konnotasiyası: "to

sparkle – to glitter", "to shiver – to shudder", "to blush – to redden". 6) Tərz konnotasiyası: "to stroll – to stride – to trot - to pace". 7) Tərzi-hərəkət konnotasiyası: "peep – peer". 8) Hal-vəziyyət konnotasiyası: "beautiful – handsome – pretty". 9) Üslubi konnotasiyaya isə slənqlər, məişət üslubu, dialekt, ümumişlək sözlər, poetik üslub, termilohiya və arxaik sözlər daxildir. Məsələn, "snack – bite (məişət) – snap (dialekt) – repast – refreshment – feast (rəsmi)", "girl (ədəbi) – girlie (məişət) – lass – lassie (dialekt) – bird – birdie – jane (slənq) – maiden (poetik) – damsel (arxaik).

Dominant sinonim sinonimlər qrupunu təşkil edən komponentlərin ümumi məzmununu heç bir zaman, tərz, gərginlik və ya referentin özünəməxsus xüsusiyyətləri kimi əlavə məlumatlar artırmadan dilin lüğət tərkibinin sadə, baza vahidləri ilə adlandırır. Dominant sinonim qrupun digər üzvlərini mənaca əhatə edərək sinonimik qrupun mərkəzi olur, digər üzvləri bir cərgədə saxlayır və hər birinin denotativ mənasına bərabərdir.

Bununla yanaşı, kommunikasiyada da mühim rol oynayaraq, tez-tez digər komponentlərlə müqayisə edilir. Qeyd edək ki, müxtəlif kontekstlər daxilində dominant sinonimlər digər üzvləri heç bir denotativ məna fərqi olmadan əvəz edə bildiyinə baxmayaraq, bu halda da onların konnotativ məna çalarlıqlarında, emosional-ekspressiv mənalarında, kontekst daxilində daşıdıqları funksiyaları nəzərə alaraq yaranan fərqlər müşahidə edilir. Sinonimik dominantın semantik quruluşu da çox sadədir:

Yalnızca bir denotativ komponentdən ibarətdir, heç bir konnotativ mənası yoxdur və hər bir kontekstdə neytral məna daşıyır.Məsələn, "bright" sözü "brilliant – radiant – luminous – beaming – lustrous", "to surprise" sözü "to astonish - to amaze - to astound", "to shine" sözü "to flash - to blaze - to gleam - to glisten - to sparkle - to glitter - to shimmer - to glimmer", "face" sözü "visage - countenance" sinonimik qruplarının dominant sözüdür.

Sinonimiyadan və sinonim sözlərdən danışarkən bunu da qeyd etmək lazımdır ki, sinonimlər qrupunu təşkil edən sinonimlərin miqdari müxtəlif ola bilər, lakin aydın məsələdir ki, sinonimlər qrupunun formalaşmağı üçün minimum iki sinonim sözün olması vacib şərtlərdən biridir. Digər əsas şərt isə bir neçə eyni və ya ortaq məna daşıyan sözün sinonim olması üçün onların eyni bir nitq hissəsinə aid olmasıdır.

Əlavə olaraq qeyd edək ki, sinonimlərə digər nitq hissələrinə nisbətən isim, sifət, fel və zərflərdə daha tez-tez təsadüf edilir: "lucky – fortunate – happy – providential" – sifət, "harmony – consonance – accord – concord" - isim , "encourage – inspirit – hearten – embolden – cheer" – fel, "empty – vacant –blank – void – vacuous" – sifət, "act – behave – work – operate function – react" – fel, "aristocracy – nobility – gentry – county – elite – society" - isim

Sinonimik dominant sinonimlər qrupunda bütün komponentlərə məxsus xarakterik əlamətləri özündə birləşdirirək ümumi məna ifadə edən sinonim sözdür. Sinonimik dominantlar adətən anqlo-sakson mənşəli olur. Sinonimik dominantınəsas xarakterik xüsusiyyətlərinə diqqət yetirək:

1.Sinonimik dominantlar yüksək işlənmə tezliyinə malikdir. Belə ki, həm özümüz gündəlik nitqimizdə tez-tez istifadə edirik, həm də oxuduğumuz bədii ədəbiyyatda tez-tez təsadüf edirik.

2.Sinonimikdominantın digər sözlərlə uyğunlaşma qabiliyyəti yüksəkdir və müxtəlif kateqoriyalı sözlərlə rahatlıqla istifadə oluna bilir.

3.Sinonimik dominant sinonimlər cərgəsinin denotativ məna daşıyan, ümumi və ən əsas məna ifadə edən neytral komponentidir.

4.Sinonimik dominant heç bir məna çalarlığına, üslubi və emosional rəngarəngliyə malik olmur və üslubi cəhətdən yalnız neytral ola bilər.

Bunu da qeyd edək ki, sinonimik dominantla *ümumi termin* anlayışını, yəni *hiponimləri* qarışdırmamaq lazımdır. Hiponimlər paradiqmatik əlaqənin növlərindən biri olaraq xüsusi anlayışın ümumi anlayışa daxil olmasını ifadə edir. Ümumi termin anlayışı nisbidir və sinonimik dominantdan fərqli olaraq ayrı-ayrılıqda növlərin adını bildirmək əvəzinə, bütövlükdə ümumi anlayışı ifadə edir. Hiperonim ümumi məzmunu əhatə edən üstün bir anlayış olaraq bir referentin ümumi mənasını ifadə edir. Belə ki, nümunəyənəzər salaq: "plant" sözü torpaqda böyüyən,

yarpaqları və ya çiçəkləri olan və yaşaması üçün günəşə və suya ehtiyacı olan bir canlını; "flower" sözü əsasən parlaq rəngli, qısa müddətli və toxum və ya meyvənin inkişaf etdiyi bitkinin bir hissəsini; "tulip" sözü isə əsasən qırmızı, şəhrayı, ağ, sarı, və ya mavi rəngdə olan, gövdəsi üzərində tikanları olan, kolda böyüyən, şirin və gözəl qoxulu, gözoxşayan görüntüsü olan bir çiçək növünü adlandırır.

Bu nümunədə "plant" sözü "flower" sözünün, "flower" sözü isə "tulip" sözünün hiperonimidir. Əgər biz bu ardıcıllığı əksinə düzsək ondan onlar bir-birilərinin hiponimi olacaq. Belə ki, göstərilmiş nümunələr bəzən sinonimlərlə səhv salınır, lakin bunları sinonim kimi qəbul etmək mümkün deyil. Və yaxud, "animal" sözü "elephant", "dog", "cat" sözlərinin ümumi terminidir. Ümumi terminlərin özü də öz növbəsində yarımqruplara bölünür: "dog" sözünün özü də "poodle", "bull-dog" kimi növlərin hiponimidir.

Dilçilikdə dilin lüğət tərkibinin araşdırılmasında bir-birləri ilə sıx bağlı olan iki cür yanaşma tətbiq olunur. Bunlar sinonim sözlərin mənbəyini, mənşəyini, tarixi baxımdan keçdiyi təkamül yolunu tədqiq edərkən əsas götürdüyümüz diaxronik aspekt və həmin sözlərin semantik xüsusiyyətlərini və sinonimik münasibətlərini tədqiq edərkən əsaslandığımız sinxronik aspektdir.

Qeyd edək ki, sinonimlər dilçilikdə və bədi ədəbiyyatda üslubi xarakterik xüsusiyyətlərinə və emosional çalarlığına görə müxtəlif kontekstlərdə müxtəlif məqsədlərlə istifadə edilir. İndi isə sinonimlərin kontekstdə işlənmə mövqelərinə və funksiyalarına nəzər salaq:

1.fikri aydın, düzgün, dəqiq ifadə edərəkqeyri-müəyyənlikdən qaçmaq,
2.nitqdə monotonluqdan uzaqlaşmaq,
3.artıq təkrara yol verərək dilin səlisliyini pozmamaq,
4.nitqə və dilə üslubi rəngarənglik və emosional çalarlıq qazandırmaq,
5.bədii ədəbiyyatda obrazların nitqini fərqləndirmək,
6.mənasıqaranlıq qalan terminləri izah etmək məqsədilə istifadə edilir.

Bununla yanaşı nəzakətsiz, kobud məna daşıyan söz və ya ifadəni daha nazik, ədəbli formada ifadə etmək məqsədilə evfemizlərdən və ya əks funksiya yerinə yetirən kakofemizmlər də dili zənginləşdirmək və üslubi çalarlıq vermək üçün vasitələrdəndir. Hər ikisi ekpressiv-üslubi və ictimai faktor olduğundan daha çox bədii ədəbiyyatda geniş istifadə olunur.

Ümumi olaraq deyə bilərik ki, sinonim sözlərin bu cür müxtəlif formalarda istifadə olunması həm gündəlik həyatımızda, həm də bədii ədəbiyyatda nitqimizə və ya dilimizə üslubi rəngarənglik və emosional çalarlıq qataraq bədii effekt yaradır.

Bu öz növbəsində həm danışanın, həm də yazıçı və şairlərin nitqinin səlis, düzgün, ifadəli və maraqlı olmasına təsir göstərərək istər oxucunun, istərsə də dinləyicinin diqqətini özünə cəlb etməyə kömək edir. Söz və ya ifadələrinüslubi rəngarənliyini və emosional çalarlığına təsir göstərərəkməna yükünü qüvvətləndirmək, dəqiqləşdirmək məqsədilə həmin ifadənibəzi istənilən sinonim qarşılığı ilə əvəz etmək mümkündür. Məsələn,

1) "Significant" sözünüsinonimləri "important - serious - vital" ilə,
2) "Unemotional"-"as cold as a fish", "pure white"-"as white as snow", "hardworking"-"as busy as a bee", "fragile"-"as delicate as a flower", "extremely rare"-"as rare as hens' teeth", "very sweet"-"as sweet as honey", "home"–"family nest", "clear"–"as plain as a pikestaff" nümunələrində söz və ya ifadələr sinonim qarşılıqları olan idiomlarla,
3) "Pigheaded as a mule" idiomunu "stubborn as a mule" idiomu ilə,
4) "Precious–dearer" sözləri yersiz təkrarın qarşısını almaq məqsədilə,
5) "Terrific-incredible", "the battle of wills–competition, argument", "His Kingdom–world" nümunələrində də söz və ya ifadələr qarşılıqlar olan təsviri və ya digər adla ifadəli sinonimlər ilə, əvəz edilə bilər.

Sinonimlər ikili xüsusiyyətə malik olması, yəni bir cəhətdən eyni, digər cəhətdən fərqli olması onların ən qarışıq və mübahisəli xüsusiyyətidir. Sinonimlərin hər ikili xarakterik xüsusiyyəti həm eyni hadisənin müxtəlif ifadə formalarını, məna çalarlarını, aspektlərini və variantlarını

aşkarlamağa kömək edir, həm də sinonim sözlərin nitqdə özünəməxus funksiyalarını yerinə yetirməklərinə şərait yaradır. Məsələn: “- Was she a pretty girl? - I would certainly have called her attractive”.

Yuxarıda göstərilmiş nümunədə “pretty – attractive” sinonim cütlüyü verilmişdir. “Pretty” sözü “gözəl, incə, zərif” mənaların ifadərək qızın gözəlliyini ifadə edir, “attractive” sözü də “gözəl, cəzbedici, füsunkar, heyrətamiz” mənalarını ifadə edir, lakin bu sinonimlər arasında var var. Belə ki, “attractive” sözü “pretty” sözündən daha güclü məna ifadə edərək qızın gözəlliyini daha da yüksəltdi. Bu məqamda qyed edə bilərik ki, həmin sinonimlərin konnotasiyasında ziddiyyətlər var. Belə ki, “attractive” = not pretty, only attractive.

Sinonim söz və ifadələrdən bədii ədəbiyyatda yazıçı və şairlər hər hansı bir obrazın və ya öz dillərindən satira, yumor yaratmaq və ya müxtəlif bölgələrin ləhcə xüsusiyyətlərindən istifadə edərək üslubi rəngarənglik qatmaq məqsədilə istifadə edirlər.

Qeyd edək ki, sinonim sözlər nitqdə üç formada istifadə oluna bilər: tək halda, qoşa olaraq, sadalama metodları ilə. Sinonimləri öyrənmək xarici dil kimi İngilis dilini öyrənənlər üçün xüsusilə zəruridir, çünki sözlərin mənası işləndiyi situasiyalara əsasən dəyişə bilir. Belə ki, sözlər arasındakı fərq kontekstdə işlədilərək qarşılaşdırma və müqayisə yolu ilə izah edilməlidir. Yeni sözün mənasını izah etməyin ən rahat isə yolu əvvəlcədən mənimsənilmiş sözlərin köməkliyi ilə mümkündür. A.Qurbanov dildə sinonimlərdən başlıca olaraq aşağıdakı üslubi məqsədlər üçün istifadə oluna biləcəyini qeyd edir:

1. eyni sözün təkrarına yol verməmək və monotonluqdan qaçmaq,
2. fikri daha səlis və ən incə məna çalarlarına qədər ifadə etmək,
3. nitqin müxtəlif növlərində satira, yumor və komik ifadələr yaratmaq,
4. maddi varlığı və orada mövcud olan hadisələri daha aydın və gözəl təsvir etmək üçün (6).

İngilis dilində sinonimlərin zəngin olması bizim özümüzü daha aydın ifadə etməyimiz üçün müxtəlif formalar verir və daha geniş imkan yaradır, lakin əsas məsələ həmin sinonimlər cərgəsindən bizə, bizim nitqimizə və mövzumuza uyğun olanını seçib istifadə etməkdir. Sözlər sinonimik qaydalar əsasında tədqiq olunaraq məna eyniliyi və oxşarlığı cəhətdən qruplaşdırılır.

Sinonimlər elə sözlərdir ki, kontekst daxilində bir-birini əvəzləyə və ya yerdəyişmə edilə bilir, lakin bununla belə sinonimlər arasında olduqca yüngül, gözəçarpmaz semantik məna fərqləri də var. Belə ki, az sayda sinonimlər var ki, bütün konnotativ məna çalarlarında üst-üstə düşərək mənaca fərqlənmədən bütün kontekstlərdə qarşılıqlı əvəzlənə bilsin.Sözün konnotativ mənası lüğətlərdə tamlığı ilə izah olunur.Sözün konteksi ümumi və əlavə mənaları aşkara çıxarmağa kömək edir. *Kontekst* müəyyən bir mənanın əks olunduğu söz və mətnin bir hissəsidir. Sinonim sözlərin özünəməxsus xarakterik xüsusiyyətlərini kontekst daxilində daha aydın görmək mümkündür.

“…Sinonim əsas mənasına görə mütləq və ya nisbi eyniyyət təşkil edən, lakin formasına və əlavə mənasına görə fərqlənən sözlərdir” (3). Sosiolinqvistika bəhsindən bildiyimiz kimi dillə cəmiyyət daima bir-biri ilə əlaqəlidir və hətta varlıqları bir-birindən ayrı düşünülə bilməz. Sinonimlər də hər bir dilin özünəməxsus əlamətlərini əks etdirir. Buna görə də sinonim sözləri bir dildən başqa dilə tərcümə etdikdə diqqətli olmaq lazımdır.

Bəzən tərcümə zamanı ya sinonimlərin mənası itir, ya da yalnış tərcümə olunur, ya da ki, anlayışın ifadə etdiyi mənanı dəqiq ifadə etmək mümkün olmur. Çünki hər bir cəmiyyətin və hər bir dilin öz mənəvi, tarixi yaddaşı var. Həmin ərazidə yaşayan insanlar hər hansı bir əhvalatı, tarixi hadisəni və ya gündəlik həyatdan olan istənilən bir anlayışı çox rahatlıqla başa düşə bilirlər, lakin bu o demək deyil ki, bu dili öyrənən hər kəs də həmin anlayışı olduğu kimi dərk edəcəkdir.

Buna görə də hətta bəzən tərcüməsi mümkün olmayan sinonim sözlərə də təsadüf edilir.Bu fikirlər xüsusilə üslubi sinonimlərə şamil olunur. Çünki düzgün tərcümə olunmazsa, həmin sinonimlərin üslubi rəngarəngliyi və emosional çalarlığı itər. Elə bu səbəbdəndir ki, sinonimləri tədqiq edərkən ifadə etdiyi mənaya və onu digərlərindən fərqləndirən və ya uyğunlaşdıran

xüsusiyyətlərə daha yaxşı bələd olmaq və daha düzgün aşkar etmək məqsədilə onları kontekst daxilində istifadə etmək lazımdır. İngilis dilində bir-birini tamamilə əvəzləyə bilən çox az sayda sinonim cütlükləri var. Buna səbəb olaraq deyə bilərik ki, sinonimlər arasında ilk baxışdan fərqləndirilməsi çox çətin, lakin önəmli fərqlər var. Bəzən elə sinonimlər olur ki, onlar bir kontekst daxilində bir məna, digərində isə daha fərqli başqa bir məna ifadə edir.

Sinonimik dominantın funksiyalarından biri də sinonimik qrupun digər üzvlərini əvəz edə bilməsi və denotativ mənada dəyişikliyə səbəb olmadan onun əvəzinə istifadə oluna bilməsidir. Əvəzlənmə prosesində denotativ məna dəyişmədiyi halda, konnotativ məna çalarlarında fərqlənmələr müşahidə olunur.

Sözlərin əsas leksik dəyərini anlamaq üçün onları sinonim qarşılığı ilə əvəzləyərək nəticələrini müşahidə etmək lazımdır. İ.V.Arnold sinonim sözlərin qarşılıqlı əvzlənmə prinsipini fonologiya subsitusiya metodu ilə müqayisə edərək analiz edir (16). Qeyd etdək ki, sabit ifadələr daxilində sinonimlərin əvəzlənməsi mümkün deyildir, lakin A.V.Kunin sabit ifadələrin sərbəst ifadələrdən fərqli şəkildə sinonimlik funksiyası daşıyan xüsusi xarakterlərinin olduğunu vurğulayır.

Bəzi sabit ifadələrdə leksik komponentləri mənası dəyişmədən fərqlənə bilir. Məsələn, “cast (fling-throw) somethingin somebody’steeth”. V.V.Vinoqradov sözlərin bir-birini əvəz edə bilməsi fikrini qəti surətdə rədd edərək göstərir ki, poetik əsərdə əsərin ümumi məzmununun tələbindən asılı olaraq hər bir söz elə işlənməlidir ki, dildə onu əvəz edə biləcək başqa bir söz tapılmasın (18). Bu məsələ bağlı M.Rzazadənin aşağıdakı fikri ilə razılaşmaq lazım gəlir. M.Rzazadə yazır: “Sinonimlər bir-birini qeyd və şərtsiz əvəz etmək üçün deyil, bir nalyışın müxtəlif məna incəliklərini vermək, ifadənin təsirini, bədii gözəlliyini artırmaq, fikri konkret, aydın, parlaq etmək və onu rəngarəng vasitələrlə ifadə etmək üçündür” (12).

Bir çox dilçilər tərəfindən sinonimlərin bir-birini əvəzləyə bilməsi xüsusiyyətini sinonimin tərifində əsas kriteriya kimi götürülmüşdür. S.Ulman da linqvistik kontekstdə sinonimlərin bir-birini əvəzləyə bilməsi kriteriyasını əsas götürən dilçilərdəndir. Onun fikrincə, mənanın linqvistik oxşarlığı onu bildirir ki, sözlərdən hər biri eyni kontekstdə işlənə bilirsə, onlar sinonimlərdir.S.Ulman sinonimlərə kontekstual cəhətdən yanaşaraq sinonimlərin istənilən kontekstdə bir-birini qarşılıqlı əvəzləyə bilməsini iddia edir, lakin mütləq sinonimlər dildə azlıq təşkil edir (13).

## ƏDƏBİYYAT

1. Cəfərov S. Müasir Azərbaycan dilinin leksikası. Bakı, 1982, 234s.
2. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1977, 270s.
3. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili (I cild), Bakı, 2007. 253s.
4. Dəmirçizadə Ə.M. Azərbaycan dilinin üslubiyyatı. Bakı, 1962, 270s.
5. Ginzburg R.S., Khidekel S.S., Knyazeva Y.Y., Sankin A.A. A Course in Modern English Lexicology. Moscow, 1979, 271p.
6. Harris Z.S. Co-ocurence and transformation in linguistic structure. London, 1957, 152p.
7.Qurbanov A.M. Nitq mədəniyyətinin inkişafında sinonimikanın rolu. Azərbaycan məktəbi, №7, 1966, s.22-30.
8. Məmmədov N,B. Dilçiliyə giriş, Bakı, 1980, 315 s.
9. Məmmədov N. Diçiliyin əsasları, Bakı, 1961, 260s.
10. Məmmədov N.B. Müasir Azərbaycan dilində fellərin leksik sinonimliyi, Bakı, 1991, 112 s.
11.Rayevskaya N.M. English Lexicology. Moscow, 1973, 302p.
12. Rzazadə M. Vaqifin qoşmalarında sinonimlər, Bakı, 1961, 371s.
13. Ullmann S. The principles of semantics. Glasgow, 1957, 217p.

14. Webster's New Dictionary of Synonyms. G&C. Merriam Company Publishers. Springfield, Massachusetts. USA, 1968, 443p.
15. Антрушина В.Б. и др. Лексикология английского языка. М., 1985, 220с.
16. Арнольд И.В. Лекси кология современного английского языка. Москва, 1986, 295с.
17. Балли Ш. Французская стилистика.Москва, 1961, 301с.
18. Виноградов В.В. Итоги обсуждения вопросов стилистики, "Вопросы языкознания", Москва,1955, №1, 168s.
19. Смирницкий А.И. Лексикология английского языка. Москва, 1976, 259с.
20. Şirəliyev M.A., Budaqova Z.İ. Müasir Azərbaycan Dili. Bakı, 1978, 322s.

## SİNONİMLƏR VƏ ONLARIN NİTQDƏ FUNKSİONALLAŞMASI

## XÜLASƏ

Bu məqalədə sinonim sözlər fenomeninə və onların kontekstdəişləmə funksiyalarından bəhs olunur. Dildə və nitqdə sinonim sözlərin bir çox funksiyası mövcuddur. Sinonimlər fikrin aydın, düzgün və dəqiq ifadə edilməsi məqsədilə, qeyri-müəyyənliyin yaranmasının qarşısını almaq, nitqdə monotonluğun qarşısını almaq,eyni sözlərin təkrarlaraq dilin səlisliyini pozmasının qarşısını almaq,dilə və nitqə emosional-ekspressiv çalar qatmaq və üslubi müxtəliflik gətirmək məqsədi ilə və bunlarla yanaşı, əsasən yazıçı və şairlər tərəfindən satira, yumor və komik ifadələr yaratmaq məqsədi ilə də istifadə edilərəq nitqə canlılıq qatır, danışanın nitqini daha maraqlı, diqqətçəkən edir.

Müasir dvrümüzdə sinonimiyanı dilçiliyin ən mübahisəli dil problemlərindən biri hesab edirlər. Belə ki, sinonimiyanın vahid tərifini vermək hələ də mümkün olmamışdır. Bu barədə dilçilərin düşüncələri ziddiyyətli şəkildə fərqlənir. Sinonimiya, əvəzetmə və köçürmə fenomeninə ziddiyyətli yanaşmalar mövcuddur. Bildiyimiz kimi, sinonimlər dil və nitqdə üslubi müxtəliflik və emosional tonun formalaşmasında mühüm rol oynayır. Beləliklə, bu yanaşma fərqli konseptual mənalar üzərində araşdırmanın əsas amilidir.

## СИНОНИМЫ И ИХ ФУНКЦИОНАЛИЗАЦИЯ В РЕЧИ

## АННТАЦИЯ

В статье рассматривается феномен синонимичных слов и их функций обработки в контексте.Есть много функций синонимичных слов в языке и речи.Синонимы используются для того, чтобы избежать неопределенности, выражая идею ясно, правильно и точно; избегать однообразия в речи; не нарушать беглость языка, позволяя ему повторяться; привнести стилистическое разнообразие и эмоциональный тон в речь и язык; создавать сатирические, юмористические и комические выражения в разных типах речи и т. д.

В наше время синонимия является одной из самых противоречивых языковых проблем в современной лингвистике.Существуют противоречивые подходы к феномену синонимии, замещения и переноса. Как известно, синонимы играют важную роль в формировании стилистического разнообразия и эмоционального тонуса в языке и речи. Таким образом, это основной фактор исследования различных концептуальных значений.

## SYNONYMS AND THEIR FUNCTIONALIZATION IN SPEECH

## SUMMARY

The article touches upon the phenomenon of synonymous wordsandtheir processing functions within the context.There are many functions of synonymous words in language and speech.Synonyms are used in order to avoid uncertainty by expressing the idea clearly, correctly and precisely;to avoid monotony in speech;not to disturb the fluency of the language by allowing it to be repeated;to bring stylistic diversity and emotional tone to speech and language;create satire, humor and comic expressions in different types of speech etc.

In our times, the synonymy is one of the most controversial linguistic problems in modern linguistics. There are contradictory approaches to the phenomenon of synonymy, substitution and transference. As we know, synonyms play an important role in forming stylistic diversity and emotional tone in language and speech. So, it is the main factor of investigation on the different conceptual meanings.

# İNGİLİS DİLİNİN SAİT FONEMLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

***Cahan İsmayilov***
***ADU-nun II kurs magistrantı***
***ismayılova.cahan@bk.ru***

*Açar sözlər:* fonem, sait fonemlər, inventarı, artikulyator- akustik aspekt ,ümumi nəzəriyyələr
***Ключевые слова:*** фонема, гласные фоне инвентарьмы, артикуляция- акустический аспект, общие теории.
***Key words****:* phoneme ,vowel phonemes , inventory,articulatory- acoustic aspect, general theories.

**Fonem** haqqında müxtəlif anlayışlar vardır. Fonemin bir neçə cəhəti və funksiyaları olduğuna görə bütün bu cəhətləri və funksiyaları əks etdirən tərif vermək mümkün deyil.Fonem nəzəriyəsinin yaradıcısı L.A. Boduen de Kurtene idi. Onun fonem nəzəriyyəsi L.V. Şerba tərəfindən inkişaf etdirildi. Şerba bildirir ki, danışıq nitqində biz fərqində olduğumuzdan daha çox səslər tələffüz edirik və hər dildə bu səslər nisbətən az sayda səs tiplərinə birləşir, hansı ki onlar sözlərin formasını və mənanı fərqləndirməyə qadirdirlər və sosial ünsiyyət məqsədinə xidmət edir.

S.F.Leontyeva kimi, digərlərinin də fonemin təbiəti və onun tərifi haqqında müxtəlif fikirləri vardır. “Ferdinand de Sössür” fonemin abstraksional anlayışı təklif etdi. N.S. Trubeskoy və L. Blumfild fonemə mənaları fərqləndirə bilən minimal səs kimi baxırdılar. D. Counz fonemi “səslər ailəsi” kimi baxırdı. L.V. Şerba fonemi real, müstəqil fərqləndirici vahid kimi müəyyən edən birinci şəxs idi. Prof. Vassilyev bu nəzəriyyəni inkişaf etdirdi və fonemin detallı tərifi Verdi. O qeyd edir ki, fonem 3 aspektin dialektik vahididir (4 ,s16).

D.Counzun Longmon Dil tədrisi və tətbiqi dilçilik lüğətinə görə “**sait səslər**” - ağciyərdən hava axının heç bir şəkildə ağızda və boğazda tıxanmadığı, ümumiyyətlə səs tellərinin titrəməsi ilə yaranan səslərdir .

Sait artikulyasiyasının əsas prinsipləri bunlardır:

1. Saitlər supra-larinqal boşluqlarda dəyişdirilən səsə əsaslanır.
2. Əzələ gərginliyi bütün danışıq üzvlərinə yayılır.
3. Heca axını sərbəst şəkildə supra-larinqal boşluqlardan keçir, yolda daralma olmur.
4. Nəfəs gücü olduqca zəifdir, çünki hava axını qırtaq və səs tellərinin titrəməsinə səbəb olur (2 ,s 57).

Beləliklə, sait keyfiyyəti bir-biri ilə əlaqəli və bir – birindən asılı olan müəyyən bir artikulyasiya xüsusiyyətlərindən ibarət olan dəstədir. Saitlər aktiv nitq orqanlarının, yəni dilin və dodaqların hərəkəti ilə dəyişdirilən ve rezanatorunun ölçüsü, həcmi və forması ilə müəyyən edilir. İlk dəfə D.Counz tərəfindən hər hansı bir dildə saitlərin təsvir edilməsi vasitəsi olaraq “kardinal sait sistemi” adlandırılan universal sistem yaratmaq cəhdi edildi. Kardinal saitlər özləri heç bir dilə aid deyildir, lakin istinad nöqtələri kimi əsaslanacaq saitlərdi. D.Counz bunları belə müyyənləşdirdi. Müəyyən edilmiş keyfiyyət saitləri əsasən dilin aralıq mövqedən uzaq olduğu yəni dilin ön və ya arxa hissəyə qaldırıldığı və ya ağız boşluğunda olduqca aşağıda olduğu deməkdir.

İngilis dili sait fonemlərinin təsnifat xarakteristikası üçün müəyyən meyarlar mövcuddur.

1. Artikulyasiyanın sabitliyinə görə ( monoftonq, diftonq, diftonqoidlər)
2. Dilin mövqeyinə görə ( üfuqi müstəvidə ön, arxa və qarışıq saitləri ayırırıq: saquli müstəvidə açıq, orta və yaxın saitləri ayırırıq)
3. Dodaqların mövqeyinə görə (yuvarlaq və yuvarlaq olmayan)
4. Sait ucunun xarakterinə görə ( sərbəst və yoxlanmış saitlər )
5. Uzunluğuna görə ( uzun və qısa)
6. Gərginlik dərəcəsinə görə ( qeyri gərgin və gərgin saitlərə) ayırırıq

Artikulyasiyanın sabitliyi artikulyasiya prosesində artikulyator orqanların həqiqi mövqeyini göstərir (5 s 31).

Rus alimlərinin fikrincə üç mümkün növ mövcuddur:

Dilin mövqeyi sabitdir və səslənmiş sait nisbətən safdırsa, bu dildə monoftonqların olduğunu qeyd edir. Ingilis dilində on monoftonq mövcuddur [ɪ, e, æ, ɑ: , ɒ , ʌ, ɔ: , u, ʒ: , ə].

Dilin mövqeyi dəyişir və sait iki elementdən ibarətdir. İngilis dilində səkkiz diftonq var: [ei, iə, ɛə, aɪ, əu, ou, ɔɪ, uə].

Əgər dilin mövqeyindəki dəyişiklik zəifdirsə bu vəziyyətdə bu iki diftonqoid olduğunu müəyyən edir [i: , u: ].

Monoftonqlar sait keyfiyyətində dəyişmə olmadan istehsal olunan sait səslərdir. Bəzi dilçilər diftonqoidləri [i: , u: ] şəklində ayırırlar, Bu münkündür, çünki [i: ] və [u: ] saitləri diftonqlaşır və tendensiya getdikcə daha da güclənir (1, s 16).

Diftonq isə - D.Counzun Longmon Dil tədrisi və tətbiqi lüğətində diftonq- müəyyən bir dilin fərqli sait olaraq qəbul edilən lakin bir saitin digərinə sürüşməsi ilə iki sait iştirak edən səs kimi təyin edilmişdir.

D.Counz diftonqu “müstəqil sait sürüşməsi kimi müəyyən etmişdir. Sait sürüşməsi dedikdə danışıq üzvlərinin bir sait mövqeyindən başlaması və digər sait istiqamətinə hərəkət etməsi nəzərdə tutulur”. İki tip diftonq mövcuddur: düşən və yüksələn diftonqlar (2, s 58).

İngilis dilində sait fonemlərinin **inventarı** məsələsini fonetiklər tərəfindən müyyən mübahisəli məsələlərdən biri olmuşdur. Məsələn, Prof. D.Counz İngilissəslərinin cədvəli kitabında belə bir məlumat vermişdir. Açıq – [u: ], [u] yarımaçıq [o], yarım qapalı [ɔ: ], qapalı [ɔ]ön – [i: , i, o, ɛ, æ, a], orta [ə: , ə, ʌ], arxa [u: , u, o, ɔ: , ɔ, ɒ ]

Ancaq sonralar D.Counz digər kitabında bu cədvəlin əleyhinə olmuş və vurğulamışdır ki, cənubi İngilis dilində saf, təmiz sait səslər mövcuddur. Bu 12 sait səsin İngilis dilini öyrənən əcnəbilər üçün xüsusi vacibliyi vardır: [i: ], [i], [e], [æ], [a: ], [ɔ], [ɔ: ], [u], [u: ], [ʌ], [ə: ], [ə]. Cənubi İngilis dilinin bir tipində bu saitlərin dörd cütlərinin tək fonemlərə aid olmağı nəzərdə tutulur. Məsələn uzun [i: ], qısa [i], uzun [u: ]və qısa [u], uzun [ɔ: ] *və* [ɔ], uzun [ə: ] və qısa [ə]

İngilis dilinin tembrində qısa [i] uzun [i: ] - dən fərqlidir. Tembrdə olan bu fərqlilik həmişə uzunluq fəqlilik kimi götürülür. Buna oxşar olaraq uzun [ɔ: ] və qısa [ɔ] cütləri və [u: ][u] . Ancaq uzun [ə: ] və qısa [ə] arasında tembrdə çox dərəcədə müxtəliflik yoxdur. Beləliklə Cənubi İngilis dilində 8 saf sait səslər mövcuddur.

7. Biz D. Counzun kitabından öyrəndik ki, sait cütləri [i: ] - [i] - [u: ]- [u], [ɔ: ][ɔ] , [ə: ] – [ə], hətta [a: ][æ] bir – birindən tembr və müddətə görə fərqləndirilir. Qərara almaq həmişə çətin olmuşdur ki, onları nə müxtəlif edir : uzunluq yoxsa keyfiyyət. D. Counz isə uzunluğu fərqliliyini üstünlük vermişdi. Onun “İngilis dilinin diftonqları” başlığı altında olan fəslində 24 diftonqlar enən və qalxan

8. i: i e æ a: ɔ ɔ: u u: ʌ ə: ə ei ou ai au ɔi iə ɛə ɔə uə

9. 1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21

10. diftonqlar kimi təsvir olunmuşdur. 13 dən – 21 qədər diftonqlar enən, [iə ][uə][ŭi] qalxan diftonqlar hesab olunur. [oi/ŏi], [eə/ĕə], [oə/ŏə] Bunlar üç enən digər üçü isə qalxan diftonq hesab olunur (2, s 60).

## ƏDƏBİYYAT

1.Babayev.S.M,Qarayeva.M.G English Phonetics.Baku ,1999,
2. Dikushina.O.İ ,English phonetics.M.,1995
3. Leontyeva.F.S, A Theoratical Course of English phonetics .1988

4.Мусаева З.Х., Пирмагомедов А.И., Гебекова З.Г. «Теоретическая фонетика», Махачкала – 2017
5. Павлова О.Ю, Маврина Н.В.ТЕОРЕТИЧЕСКАЯ ФОНЕТИКА, 2016
6.Vassilyev V.A. English phonetics. (A theoretical course). M., "Higher school Publishing House", 1970,

## İNGİLİS DİLİNİN SAİT FONEMLƏRİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ

## XÜLASƏ

Beləliklə bu kicik araşdırmada biz ingilis dilinin sait fonemləri sisteminin xüsüsiyyətlərinə toxunduq.Bunun üçün biz ilk öncə fonemin nə olduğunu və fonem haqqında müxtəlif ingilis xarici alimlərin ona verdiyi təriflərdən bəhs etdik. Sonra isə sait fonemlərinin xüsüsiyyətləri və sait fonemlərinin artikulyasiyanin sabitliyinə görə monoftonqlara diftonqlara və diftonqoidlərə bölündüyünü və fonetistlərin sait fonemlərə verdiyi təsnifdən danisdiq.

Eyni zamanda bu kicik araşdırmada saitlər haqqında D.Counzun saitlər və samitlər arasındakı fərq, saitlərə verdiyi tərif konsepsiyasından, qısa və uzun saitlər haqqındakı fikirindən danışdıq. Ümümiyyətlə fonemlərə məxsus ən mühüm məsələlər onların artikulyator- akustik aspekti və inventarı məsələsidir.

## ОСНОВНЫЕ ОСОБЕННОСТИ ГЛАСНЫХ ФОНЕМ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

## АННОТАЦИЯ

Поэтому в этом небольшом исследовании мы поговорили об особенностях системы английских гласных фонем. Для этого мы сначала поговорили о том, что такое фонема, и о различных определениях, сделанных различными зарубежными учеными по фонеме. и классификация гласных фонетиков.

В этом небольшом исследовании мы говорили о концепциях D.Counz - разнице между гласными и согласными, концепции гласных и мнениях короткие и длинные гласные. В целом, наиболее важными вопросами, касающимися фонем, являются их артикулятор-акустический аспект .

## THE MAIN FEATURES OF ENGLISH VOWEL PHONEMES

## SUMMARY

Therefore, in this small study, we talked about the features of the English vowel phoneme system. For this purpose, we first talked about what is phoneme and different definitions made by various foreign scholars on phoneme. and the phoneticists' classification of vowels .

In this small study, we talked about conceptions of D.Jones - the difference between vowels and consonants, the concept of vowels, and the opinions of  on short and long vowels.In general, the most important issues concerning phonemes are their  articulatory -acoustic aspect and inventory.

# SİYASİ DİSKURS VƏ ONUN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

***Yeganə Osmanova***
***ADU-nun II kur magistrantı***
***yegane.osmanova.95@mail.ru***

***Açar sözlər:*** diskurs, dilçilik, dil faktoru, real ölçü, siyasi linqvistika
***Ключевые слова:*** дискурс, лингвистика, языковой фактор, реальная форма, политическая лингвистика
***Key words:*** discourse, political linguistics, language factor, real size, political linguistics.

Siyasi linqvistika mühüm elmlər sırasına daxil olan politologiya və dilçilik kimi iki elmin qovşağında meydana gələrək zamanla formalaşan dilçilik sahəsidir. Ötən əsrimizin 90-cı illərini əhatə edən dövrlərdən başlayaraq siyasi linqvistika haqqında bir çox maraqlı və mühüm hesab edilən əsərlər ərsəyə gəlmişdir, eyni zamanda dərsliklər də yazılmışdır. A.P.Çudinovun "Siyasi diskurs" monoqrafiyasında siyasi diskursun səciyyəvi xüsusiyyətlərini göstərmək məqsədi ilə qeyd edilmiş antinomiyalar müəyyən edilmişdir: rituallıq və informativlik; izoteriklik və ümumi qəbul edilən; instituallıq və şəxsi xarakter; siyasi mətndə informasiyanın reduksionizmi və çoxaspektliliyi; siyasi mətnin avtonomluğu və intermətnliliyi; siyasi mətnin müəllifliliyi və anonimliyi; siyasi kommunikasiyada tolerantlıq və aqressivlik [5, s:42-50].

Siyasi diskurs siyasi dilçilik sahəsinin əsas anlayışı olmaqla diskursun müxtəliflik xüsusiyyətlərini özündə əks etdirir. Siyasi diskurs siyasi hakimiyyətə nəzarəti gücləndirməklə bu hakimiyyəti əlində saxlaya bilmək və ya ona tam mənada nail ola bilmək məqsədini daşıyır. Linqvistik ədəbiyyatlara diqqətlə nəzər salsaq görərik ki, siyasi diskurs bu ədəbiyyatlarda bütöv bir varlığı formalaşdıran elementlərin kompleks birləşməsindən ibarət olub çoxplanlı, çoxaspektli hadisələr olmaqla təqdim edilir.

Siyasi diskurs siyasi diskussiyalar zamanı istifadə edilə bilən bütün nitq aktlarının birləşməsidir. Siyasi diskurs anlayışına bu aspektdən yanaşma bu anlayışa daha da geniş mənada yanaşmağı qarşıya tələb qoyur. Bu sahədəki əsas tədqiqatlar E.İ.Şeyqalın adı ilə bağlı olmaqla son dövrlərdə bir çox dilçilərin marağına səbəb olmuşdur. E.İ.Şeyqal özünün "Siyasi diskursun semiotikası" əsərində siyasi diskurs ölçməsini iki növə ayıraraq göstərmişdir: 1. real ölçü; 2. virtual ölçü [6, s: 315].

Real ölçü dedikdə, müəyyən bir sosial məkanda nitqin fəalliyyəti nəzərdə tutulmaqdadır. Linqvistik, paralinqvistik, ekstralinqvistik kimi faktorlar real ölçüyə daxildir.

Siyasi diskursda virtual ölçü dedikdə isə verbal və qeyri-verbal işarələr nəzərdə tutulur və bu işarələr müəyyən bir ünsiyyətin baş verdiyi mühit və siyasət dünyası üçün xarakterik hesab edilən janr və fəaliyyətlərin məcmuundan ibarət olan donetatlar toplusudur. Y.A.Sorokin özünün "Siyasi diskurs" əsərində siyasi diskursun xüsusiyyətlərini müyəyyən edən zaman ideoloji diskursla nisbəti ön plana çəkir. Yəni, siyasi diskursu ideoloji diskursa nisbətlə müəyyən edir. İdeoloji diskurs ilə siyasi diskurs arasında əsas fərq ondan ibarətdir ki, siyasi diskurs eksplist paraqmatik olduğu halda ideoloji diskurs impilistdir. Qeyd edilən birinci növ subdiskurs, ikinci növ isə metadiskursdur [3, s: 57].

Beləliklə, qeyd edə bilərik ki, linqvistikaya aid olan ədəbiyyatlarda siyasi diskurs həm dar, həm də geniş mənada işlədilir. Siyasi diskursun geniş mənası dedikdə siyasi xadimin subyekt adresat və yaxud da ünsiyyət və məzmun daşıyan mühitə aid olan ünsiyyət forması nəzərdə tutulur. Dar mənda siyasi diskurs isə siyasi hakimiyyətə sahiblənmək, əldə saxlamaq üçün olan diskurs növləridir. Qeyd etiyimiz kimi biz siyasi diskursu analiz edən zaman ona əsasən geniş mənada yanaşırıq. Geniş mənada yanaşma zamanı isə nitqin törəmə və qavrayışını, eyni

zamanda da onlara təsir göstərən ekstralinqvistik amillər aiddir. Əlavə olaraq da belə hesab edilir ki, müasir dilçilikdə "diskurs" müxtəlif fomalı nitqləri nəzərdə tutmaqdadır. Siyasi diskursun öz təyinatı isə nəyisə yalnız təsvir etməkdən ibarət olmayıb, eyni zamanda adresatı müəyyən bir fəaliyyətə cəlb etmək üçün onda inam formalaşdırmaqdan və onu tam mənada inandırmaqdan ibarətdir. Deməli,siyasi diskursun effektivliyi də elə bu məqsəddən asılı olmaqdadır.

Siyasi diskurs zamanı dil faktorunun rolu olduqca vacibdir. Çünki ünsiyyət zamanı siyasi hakimiyyətin əsas vasitəsi dildir. Məhz dil vasitəsilə siyasətçilər adresatın şəxsi mühitinə daxil ola bilir və "mən" müraciəti əvəzinə "biz" leksimini seçmək üsulu ilə "söz manipulyasiyası" na başlayırlar; növbəti mərhələdə isə daha mürəkkəb üsulların istifadəsinə yönəlirlər. Manipulyasiya dedikdə müəyyən bir kütlənin fikir və baxışlarını nəzərdə tutulmuş fəaliyyət üsullarına bağlamaq prosesi başa düşülür. Məsələn, diktatura hökm sürən cəmiyyətdə dil total nəzarət vasitəsi olaraq böyük qüvvəyə malikdir. İnkişaf etmiş demokratik cəmiyyətlərdə isə diktatura rejiminin hökm sürdüyü cəmiyyətlərdən fərqli olaraq dildən düzgün istifadə etməklə insanlar arasında lazımi fikri formalaşdırmaq mümkündür.

Siyasi diskursda dilin funksiyasının tədqiqi zamanı iki əsas problemlə üzləşilir ki, bunlar da əsasən bir birini tamamlamaqdadır: hakimiyyətin dili və dilin hakimiyyəti. Hakimiyyətin dili dedikdə hazırki hakimiyyət formasına uyğun olaraq danışıq zamanı istifadə edilə biləcək vasitə və üsullar nəzərdə tutulur. Bu əsasən linqvistikanın tədqiqat metodudur. Dil hakimiyyəti dedikdə idə kütlənin şüuruna təsir edə biləcək vasitə və üsullar nəzərdə tutulur.

Siyasətçinin nitqi kütlə şüurunun lazımi tərəfinə təsir etməyi bacarmalıdır. Ona görə də, ağıllı siyasətçilər kütlə şüuru ilə həmahəng olan simvollarla, arxetiplərlə, rituallarla əməliyyat aparırlar. Siyasi nitqdə daha çox nəzərə çarpan metaforalardır. Məs.: seçicilər uğrunda döyüş, informasiya müharibəsi, demokratiyaya hücum, diplomatik döyüş, hakimiyyət krizisi, cəmiyyət sağalma yolundadır və s.

Bəzən siyasətçinin nitqi tam arqumentləşməyir. Bu da təsadüfi deyil. O, adresata izah edir ki, onun mövqeyi onların marağı dairəsindədir: bu marağı gözləyərək adresatın emosiyasına təsir etmək, onun hissləri ilə uzun müddət məşğul olmaq imkanı əldə edir. İnsanın koqnitiv mühitində təmasda olan anlayışlardan istifadə etmək daha çevik üsuldur. Bu gözlənilməz effektləri verir; gözlənilmədən bir inamdan digərinə keçid baş verir, bəzən də danışanın gözlədiyinin əksinə olur. Təsirin uğuru şəxsiyyətin keyfiyyətindən, nitqin kimə ünvanlanmasından asılıdır. Adresatın nitq şəraitini lazımi istiqamətə dəyişdirmək, o cümlədən onun kompozisiyasını monipulyasiya etmək olar.

Dil vasitəsi ilə siyasətçilərin cəmiyyətə təsiri etiraf olunmuş faktdır. Bunu siyasətçilər özləri də etiraf edirlər. Bəziləri dilin hakimiyyətini anlamırlar, onu havada səs rəqsləri kimi başa düşürlər. Bununla bağlı bir məqamı nəzərdən keçirək. "Dil oyunu" fikrin generatoru kimi başa düşülür. Oyun mədəniyyətin yaranmasının əsasında durur, onu qabaqlayır və yaradır. Biz dünyada bu oyunun içindəyik. Əlbəttə, bizim psixikamız bizi lazımsız məntiqilikdən və stabillikdən müdafiə edir, monotonluqdan yoruluruq, ona görə də "dillə oyun" lazımdır. Oyunun mahiyyəti həzz və zövq almaqdır [4, s: 218]. Psixologiya belə hesab edir ki, "oyun" əməyin proobrazıdır, insanın ilk fəaliyyətidir, insanın özünü də o yaratmışdır. Y.M.Lotman "oyunda" həyatın əsas elementlərini görür. "Oyun" cinayətdir; sosial dünyanın modelidir; universiumdur [2, s: 391]. A.Blok deyirdi ki, həyat rok oyunudur, odla oyundur, rokdur. Siyasət də poeziya kimi, yaradıcılığa və oyuna aiddir, onda irreallıq əlamətləri vardır.

Beləliklə, dil oyunu bu sözlərin semantikasında müşahidə oluna bilər: xalq və əhali; xalq və elektorat. Hər iki cütlükdə "xalq" sözü mənasını dəyişir, əlavə məna qazanır. Birinci halda əhalinin düşüncəli hissəsi, nəzərdə tutulur. Təkcə səsvermə qabiliyyəti olanlar deyil, həm də düşünən, şüurlu şəkildə kimisə seçən ikinciyə aiddir.

Çox vaxt "ölkə" və "dövlət" sözləri sinonim kimi işlənir. Ancaq bu sözlər siyasətçilərin nitqində gah müsbət, gah da mənfi konnotasiyaya malik olur. Məs.: "Biz güclü dövlət tərəfdarıyıq" (müsbət konnotasiyaya, həm də mənfi).

Nominasiya ilə manipulyasiya deyilərkən, əvvəlki şərhdən fərqli olaraq, sözün mənasına təsirdən deyil, obyekti adlandırmaqdan ötrü sözlər seçimindən istifadə edilməsi nəzərdə tutulur. Bu, obyektin modallıq oxu üzrə hərəkətini təmin edir: bu hərəkəti danışan idarə edir. Məs.: ilk dövrlərdə hakimiyyətə o adamlar gəldilər ki, millətçi strukturlara arxalanırdılar. Onlar təcrübəsiz olmaqla yanaşı, həm də çox qəzəbli və ağılsız idilər. Bu cümlələrdə dəyərləndirmə konnotasiyası "millətçi", "qəzəbli", "təcrübəsiz", "ağılsız" sifətlərinin köməyi ilə ifadə olunmuş və subyekt eksplisit ifadə olunmuşdur. Danışan tərəfindən bu dil vahidlərinin seçilməsinin iki səbəbi ola bilər:

1. Obyektə müsbət və ya neytral yanaşan auditoriyanı sağa doğru modallıq qövsündə yerləşdirmək. Obyektin mənfi obrazını yaratmaqdan ötrü sabit mənfi qiymətlər bildirən sözlərdən, yarlıklardan istifadə etmək;

2. Mənfi və ya neytral, yaxud neytral və ya müsbət qiymətləndirməyə malik auditoriyanı solda meyllənmiş modallıq qövsünə yerləşdirmək. Bundan ötrü neytral və ya müsbət konnotasiyalardan istifadə etmək lazımdır.

Dil materiallarının şərhi göstərir ki, müasir mərhələdə siyasi dilə ekstralinqvistik faktorlar (xüsusən dünya siyasi sisteminin dəyişməsi) xüsusi təsir edir. İndi peyorativ leksikadan [neqativ konnotasiyalı yumşaq leksika] istifadə geniş vüsət almışdır; Məs: Rusiyanın sabiq Baş naziri Fradkov nazirlərinə məsləhət verərkən demişdir: "O, şeyləri say-seçim etmək lazımdır ki, o, üzdədir." Neqativ konnotasiyalı söz çoxdur, bu da belə nəticə çıxarmağa imkan verir. Neqativ mənalı sosial-siyasi leksikanın dominantlığı ciddi linqvistik sindromdur; sosial həyatın mənəvi deformasiyasına işarədir. E.Fromun bu ifadəsi yerinə düşür: Marksın dili az emosional və aqressiv idi, ona görə o, alman ictimaiyyətini yaxşı tərəfə çəkdi.

Bu və ya digər sözün konnotasiyası və modallığını dəyişdirməkdə evfemizm köməkçi rol oynayır, yəni dəyərlənən komponentin aydın ifadəsi olmur.

Çox vaxt siyasətçilər tərəfindən işlənən söz denotat oblastı ilə üst-üstə düşür, ancaq konnotasiyaya görə fərqlənirlər. Məs.: separatçılar və xilaskarlar, kontrterroristik əməliyyat və müharibə. M.P.Epşteyn bunları praqmem adlandırır. Onlar bir-biri ilə sinonimik məna münasibətindədirlər. Bir ölkənin digərinə təcavüzü hakimiyyət dəyişilməsi ilə qurtaranda, onu azadlıq, təcavüz, işğal, aqressiya da adlandırmaq olar. Bu, hadisəyə münasibətdən asılıdır. Bu vaxt təkcə konnotasiya sahəsində deyil, əsas məna sahəsində də fərq yaranır. Bu fərq seçilərək ön plana çıxır [1, s: 6].

## ƏDƏBİYYAT

1.Şiriyev F.A. Siyasi diskurs və leksik vahidlər// Bakı Universitetinin xəbərləri. Bakı: 2011. Humanitar elmlər seriyası. № 2. Səh: 5-10.

2.Лотман Ю.М. О поэтах и поэзии. Санкт Петербург: Искусство, 1996, 846 с. 6. Фромм Э. Душа человека. М.: Республика, 1992, 430 с.

3. Сорокин Ю.А. Политический дискурс: попытка истолкования понятия / Политический дискурс в России. М.: Институт языкознания РАН, 1997, 203 с.

4. Хейзинга Й. Человек играющий. М.: Прогресс, 1992, 464с.

5.Чудинов А.П. Политическая лингвистика (общие проблемы, метафора): Учеб. пособие. Екатеринбург: Уральский гуманитарный институт, 2003, 194 с.

6.Шейгал Е.И. Семиотика политического дискурса. Волгоград: Перемена, 2000, 368 с.

## SİYASİ DİSKURS VƏ ONUN LİNQVİSTİK XÜSUSİYYƏTLƏRİ

## XÜLASƏ

Siyasi linqvistika elmi politologiya və dilçilik kimi iki elmin qovşağında meydana gələrək zamanla formalaşan dilçilik sahəsidir.

Siyasi diskurs siyasi güc üzərində nəzarəti gücləndirməklə bu hakimiyyəti qorumaq və ya tamamilə əldə etmək məqsədi daşıyır.

Dilçilik ədəbiyyatına nəzər salsaq, qeyd edə bilərik ki, siyasi diskurs bu ədəbiyyatda bütöv bir varlığı meydana gətirən, çoxşaxəli fenomen kimi təqdim olunan elementlərin kompleks birləşməsindən ibarətdir.

Siyasi diskurs siyasi müzakirələr zamanı istifadə edilə bilən bütün nitq aktlarının məcmusudur. Siyasi diskurs anlayışına bu cür yanaşma bu konsepsiyaya daha geniş yanaşma tələb edir.

## ПОЛИТИЧЕСКИЙ ДИСКУРС И ЕГО ЛИНГВИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ

## АННОТАЦИЯ

Политическая лингвистика - это область науки, которая возникает в результате образования двух наук, таких как политология и лингвистика, которые относятся к числу наиболее важных наук.

Политический дискурс является основным понятием политической лингвистики и отражает разнообразие дискурса. Политические дебаты направлены на сохранение или полное достижение этой власти путем усиления контроля над политической властью.

Глядя на лингвистическую литературу, мы можем отметить, что политический дискурс состоит из сложной комбинации элементов, составляющих единое существо в этих литературах, представленных как междисциплинарные явления.

Политический дискурс представляет собой комбинацию всех речевых актов, которые могут быть использованы во время политических дискуссий. Такой подход к концепции политического дискурса требует более широкого подхода к этой концепции.

## POLITICAL DISCOURSE AND ITS LINGUISTIC FEATURES

## SUMMARY

Political linguistics is a field of science that emerges from the formation of two sciences, such as political science and linguistics, which are among the most important sciences.

Political discourse is the basic notion of political linguistics and reflects the diversity of discourse. Political debates aim to maintain or fully achieve this power by strengthening control over political power.

Looking at linguistic literature, we can note that the political discourse consists of a complex combination of elements that form a whole being in these literatures, presented as multidisciplinary phenomena.

Political discourse is a combination of all speech acts that can be used during political discussions. This approach to the concept of political discourse requires a broader approach to this concept.

# İNGİLİS DİLİ RABİTƏLİ NİTQDƏ RİTM YARADAN VAHİDLƏRİN FONETİK XÜSUSİYYƏTLƏRİ

***Roksana Allakhverdiyeva***
***ADU-nun II kurs magistrantı***
***allahverdiyevarocky@gmail.com***

***Açar sözlər:*** İngilis dili, ritm, vurğu, heca, intonasiya
***Keywords:*** the English language, rhythm, stress, syllable, intonation
***Ключевые слова:*** английский язык, ритм, ударные , слог, интонации.

Ritm (latınca rhythmus, mənası: ahəng, uyğunluq)— eyni bir hadisənin müxtəlif tərkib hissələrinin müəyyən bir zaman çərçivəsində ahəngdar şəkildə təkrarlanmasıdır. Başqa sözlə, sözün və ya səsin proporsional şəkildə təkrarlanmasıdır [3;s.45].

Linqvistik anlayış kimi ritm – mühüm prosodik vasitə olub sürətlənmə, yavaşıma, gərginlik və zəiflik, uzunluq və qısalıq və s. nitq prosesində bir-birini müntəzəm olaraq izləməsidir, kimi seqment və superseqment vahidlərlə, o cümlədən səs, heca, söz, söz birləşməsi, cümlə, misra vasitəsilə, başqa sözlə, leksik, sintaktik və prosodik vasitələrlə realizə olunur. Ritm əksər hallarda qeyd olunan vahidlərin kombinasiyası ilə özünü təzahür etdirir.

Danışıq aktında ritm seqment vahidlərin zəminində əsasən prosodik vasitələrlə realizə olunur. Danışıq aktı, canlı danışıq təbii olaraq nəfəs alıb-vermə prosesi ilə sıx bağlıdır. Belə ki, danışıq fəaliyyəti, eləcə də insanın digər fəaliyyəti fizioloji faktorlarla şərtlənir və onların arasında bəziləri ritmik səciyyəlidir.

Hər bir dilin özünəməxsus ritmi vardır. İngilis dilinin ritminin səciyyəvi xüsusiyyətləri aşağıdakılar ilə müəyyən olunur: 1. leksik tərkibinin olması; 2.ahəngdarlığın daim izlənilməsi; 3. sait və samitlərin, bir sözlə, fonemlərin biri-birini izləməsi, əvəzləməsi nəticəsində nitdə ritmikliyin meydana gəlməsi; 4. heca daxilində avazın xüsusi vurğu ilə deyilməsi; 5. vurğunun və durğu işarələrinin ritm xüsusiyyətlərinin olması və s.

Rabitəli nitqdə ritmlə bağlı problemlərin həll olunmasında P.Rouç, K.L. Payk, D.Aberkrombi , A.Gimpson, A.M.Antipova, V.V.Potapov, N.A.Lyubimova, T.M.Vlasova kimi alimlər iştirak etmişlər.

Danışıq aktında, canlı danışıqda ritmin tipi dillərdən asılı olur. Bu baxımdan linqvistlər dilləri iki qrupa bölürlər: 1) hecalı ritm tipi; 2) vurğulu ritm tipi.

Hecalı ritm tipində danışan şəxs (dil daşıyıcısı) hecaların vurğulu və vurğusuz olmasından asılı olmayaraq, hər bir hecanın tələffüzünə təqribən bərabər vaxt (zaman) sərf edir və bu da dinləyicidə qırıq-qırıq ritm təəssüratından çox bərabərsəviyyəli ahəstə ritm təəssüratı yaradır. Hecalı ritm tipinə fransız, ispan, o cümlədən Azərbaycan dili aid edilir.

Ən kiçik ritm vahidi vurğu ritmi olan dillər üçün ritmik qrup vurğu və heca ritmi olan dillər üçün heca qrupu hesab olunur,  fransız, ispan və digər roman mənşəli dillər kimi hecaya əsasən və vurğuya əsasən, hansı ki, bu qrupa german mənşəli dillər (ingilis, alman) , həmçinin rus dili daxildir. Hecaya əsaslanan dillərdə danışan bütün hecaları eyni ölçüdə tələffüz edir

İngilis dili vurğu qrupundadır. Bir dilin bu və ya digər kateqoriyaya təyin edilməsi yalnız bu cəhətdən ümumi bir meyl göstərir və ritmik quruluş növləri arasında keçilməz sərhədlərin olması demək deyil. İngilis dilində heca digər ritm vahidləri ilə birlikdə ritmik vahid kimi xidmət edə bilər.

Dilçilərin əksəriyyəti (İ.V.Zlatousova, K.Payk) tərəfindən istifadə olunan "ritmik qrup" termini vurğulu bir qrupu nəzərdə tutur. Ritmik qrupların əksəriyyəti eyni zamanda hiss vahidləridir. İngilis dilini qavramanı çətinləşdirən amillərdən biri də onun xüsusi ritmidir.

İngilis dilindəki sözlərin ritmi ingilis dilindəki vurğu nümunələri ilə sıx bağlıdır. Cümlənin hansı sözün vurğulanmağa ehtiyac duyduğunu bildikdən sonra hər sözün içərisində hansı hecaların vurğulanacağını bilməlisiniz. Daha sonra cümlənizin dəqiq mənasını çatdırmaq və nitqinizə incəlik və duyğu əlavə etmək üçün İngilis dilindəki intonasiya ilə yanaşı hecaların və ritmin necə istifadə olunacağını öyrənməliyik.

Əslində, ingilis dilində danışanlar ingilis dilinin ritminə o qədər alışmışlar ki, səssiz sözlərin zəif səslərə görə dil problemi olmamasını qeyd edirlər. İngilis dilində danışanlar bütün bir sınanmamış sözləri bir cümlədə eşitməsələr də, hələ də əskik sözləri ingilis dilinin ümumi ritmindən təxmin edə bilərlər.Məsələn, cümlədə:

The cat sat on the mat while eating its favourite food.

Pişik sevimli yeməyini yeyərkən döşəkdə oturdu.

Vurğulanan sözlər bunlardır: eat, mat və food hamısı bir hecadır, buna görə də bunları tələffüz etmək asandır. Food sözünün iki hecası var, buna görə sözün birinci yarısındakı stress (tələsik) ilə tələffüz olunduğunu bilməlisiniz.

Bununla birlikdə, “yemək” (eat) sözünün işlənməmiş “ing” sonluğu hələ cümlədəki az əhəmiyyət kəsb edən sözlərdən daha çox vurğulanmalıdır. Bu İngilis dilində müntəzəm vurğu vaxtı ritmini yaradır.

İntonasiya dilin musiqisidir. İntonasiya — nitqin ahəngi (səsin yüksəlməsi və ya alçalması), ritmi (vurğulu və vurğusuz hecaların nisbəti, əlaqəsi), nitqin tempi və ya sürəti (sürətlə və yavaş tələffüzü), intensivliyi (nəfəsalmanın güclənməsi və ya zəifləməsi), məntiqi vurğusu, tembri kimi hadisələrin məcmusuna deyilir.

İntonasiya melodiya, vurğu, müvəqqəti komponentlərin (temp, uzunluq, fasilə), ritm və səs tembri rənginin kompleks birliyidir, cümlənin qəlibidir. İntonasiya danışanın nitqində düşüncələrini, arzularını emosiyalarını və həqiqətə uyğun olan münasibətlərini ifadə etməyə imkan verən nitq melodiyası, cümlə vurğusu, səs keyfiyyəti və nitq temposunun birliyindən ibarətdir. İntonasiyasız insan nitqi quru və monoton olardı. Çünki fikrin çatdırılmasında cümlədə işlədilən sözlərlə yanaşı, intonasiyanın da çox böyük payı var [2; s.13].

İntonasiya ünsiyyət vahidi olan cümləni müəyyən formaya salmaqla kifayətlənmir, onu həm də fikri anlaşıqlı etmək üçün kiçik məna qruplarına – sintaqmlara bölür. İntonasiyanın sintaktik təlimində rolu xüsusilə əvəzedilməzdir. Cümlə haqda olan müxtəlif anlayış və təriflərin hamısında onun intonasiya bütövlüyünə malik olması xüsusiyyəti qeyd edilir. Bu isə intonasiya hadisəsinin cümləyə münasibəti baxımdan bir növ universal xarakterə malik olması kimi qiymətləndirilə bilər. Dilçilikdə sintaqm üç mənada işlənir [1; s.11]:

Hər şeydən əvvəl, fonetik vahid hesab olunur və ritmika, intonasiya qrupu, nitq təqtisi mənasında işlənir. İkincisi, sintaqm müəyyən bir ibarənin sintaktik üslubi üzvlənməsi (seqmentasiyası) nəticəsi mənasında işlənir.Üçüncüsü, sintaktik vahid olmasıdır. Sintaksisin vahidi olmaq baxımından sintaqmlar predikativ (cümlə) və qeyri-predikativ (söz birləşmələri) növlərə bölünür. Sintaqmın əsas xüsusiyyətlərindən biri iki üzvlü olmasıdır.

Səs örtüyü dedikdə, yalnız nitq səsləri, yəni seqment vahidlər nəzərdə tutulmur, nitqin səs örtüyünə prosodik ünsürlər, yəni supraseqment vahidlər də daxil edilir. Nitq psixologiyası belə bir faktı təsdiq edir ki, yazı yazarkən, səssiz halda kitab oxuyarkən cümlələrin tələffüzü, o cümlədən intonasiyası yazı yazanın və oxuyanın beynində mövcud olur. Ancaq danışıq və səsli oxu zamanı cümlələrin səslənməsi aydın və aşkar formada təzahür edir [4; s.32].

## ƏDƏBİYYAT

1.Соколова М.А.Практическая фонетика английского языка. М. 1984, 258

2.Смирнова А.И.,Кронидова В.А.Практическая фонетика английского языка.С Пб.: Издательство "РИД",1995, 88 с.

3.Cooper P., Leonard B. The Rhythmic Structure of Music. Chicago: University of Chicago Press, 1960.
4.Speake J. Oxford Dictionary of Foreign Words and Phrases. London, Oxford University press, 2005,220 p.

## İNGİLİS DİLİ RABİTƏLİ NİTQDƏ RİTM YARADAN VAHİDLƏRİN FONETİK XÜSUSİYYƏTLƏRİ

## XÜLASƏ

Bu məqalədə ingilis dilində rabitəli nitqdə ritm və onu yaradan vurğu, heca, intonasiya kimi amillərin rollarından bəhs edilmişdir. Belə ki, ritm ünsiyyətdə bizim üçün faydalıdır: davamlı nitqin qarışıq axını ilə yolumuzu tapmağımıza kömək edir. Vurğulu və vurğulu hecaların birləşməsi nəticəsində yaranan ritm ingilis dilinin əsas xüsusiyyətlərindəndir və ingilis dilini ritmik bir dil halına gətirir. Fonetik komponentlərdən biri olan intonasiya isə cümlə daxilində ritmin müəyyən olunmasında mühüm rol oynayır.

## ФОНЕТИЧЕСКИЕ ОСОБЕННОСТИ ОБРАЗУЮЩИЕ ЕДИНИЦУ РИТМА В КОММУНИКАТИВНОЙ РЕЧИ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

## АННОТАЦИЯ

В этой статье обсуждается роль ритма в английской речи и факторы, которые его создают, такие как ударение, слог и интонация. Таким образом, ритм полезен для нас в общении: он помогает нам найти свой путь со смешанным потоком речи. Ритм, который является комбинацией ударных и ударных слогов, является одной из основных особенностей английского языка и делает английский ритмичным языком. Интонация, один из фонетических компонентов, играет важную роль в определении ритма в предложении.

## PHONETIC FEATURES OF RHYTHM UNITS IN ENGLISH CONNECTED SPEECH

## SUMMARY

This article discusses the role of rhythm in English speech and the factors that create it, such as stress, syllable and intonation. Thus, rhythm is useful for us in communication: it helps us to find our way with a mixed flow of connected speech. Rhythm, which is a combination of stressed and unstressed syllables, is one of the main features of English and makes English a rhythmic language. Intonation, one of the phonetic components, plays an important role in determining the rhythm within a sentence.

# İNGİLİS ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏRDƏ ALLİTERASİYA

***Pərişan İsmayılova***
***ADU-nun II kurs magistrantı***
*ismayilovaperisan@gmail.com*

***Açar sözlər***: alliterasiya,üslubiyyət, frazeoloji birləşmələr, ingilis ədəbiyyatı, folklor.
***Key words***: alliteration, stylistics, phraseological units, English literature, folklore.
***Ключевые слова:*** аллитерация, стилистика, фразеологизмы, английская литература, фольклор.

İngilis folkloru öz adət-ənənələri ilə kökündən bağlıdır. Hələ qədimdən saksonların poeziyasındakı fonetik tərtibat qaydaları bu günkü ingilis poeziyasından tamamilə fərqlənir. Qədim ingilis poeziyasında alliterasiya ritm ilə bərabər şeirin əsas prinsipi hesab olunurdu.Hər bir sətirdəki vurğulu və mənalı söz eyni səs və ya səs birləşmələri ilə başlamalı idi. Məsələn, qədim ingilis şeiri olan Beovulfdakı kimi. Sətirdəki vurğulu sözlərin ilkin səslərinin təkrarı, qeyd olunduğu kimi fikirdən tərkibi vahidə inteqrasiya olunur.Müasir ingilis dilində şeirdəki qafiyədən fərqli olaraq, qədim ingilis dilində alliterasiya hər sətirdəki mənaları birləşdirmək, bir sətir ilə digər sətir arasında silsilə yaratmaq üçün istifadə olunurdu. Buna baxmayaraq, alliterasiya və qafiyə arasında quruluş və funksiya baxımından çox oxşarlıq var.Buna görə də alliterasiya bəzən ilkin qafiyə də adlandırılır [7, 123-124].

Bəzi ədəbi mütəxəssislər sait səslərin təkrarlanmasını, və ya sözlərin sonunda təkrarlanmağı alliterasiya kimi qəbul edirlər. Eşitmə - sözün istənilən nöqtəsində (məsələn, evə gəlmək, isti ayaq) səs samitlərinin təkrarlanması ilə müəyyən edilən daha geniş ədəbi bir cihazdır. Alliterasiya təkrarlanan samit səsinin vurğulanmış hecada olduğu xüsusi bir samit hadisəsidir. Alliterasiya ayrıca oxşar, lakin bənzər samitlərin istifadə olunmasına da aid ola bilər, məsələn, z ilə s hərifləşdirmək kimi. İngilis dilində alliterasiya tez-tez rast gəlinən üslubi vasitədir. Brend adlarında belə alliterasiyadan adların daha effektiv və cəlbedici olmağı üçün istifadə olunur.

Allitersiya eyni səslərin təkrarı olub, nəsrdə daha nadir hallarda istifadə edilir.Müasir reklamlarda, kütləvi sosial mətbuatlarda qrafiki rol oynayır.Nümunələrə diqqət edək:

- He swallowed the hint with a **g**ulp and a **g**asp and a **g**rin[11,16].
- The fair **b**reeze **b**lew, the white **f**oam **f**lew, the **f**urrow **f**ollowed **f**ree [11,16].
- **T**he Italian **t**rio **tut**-**tutt**ed **t**heir **t**ongues at me [11,17].
- You, **l**ean, **l**ong, **l**anky **l**ath of a **l**ousy bastard [11,17].
- **L**uscious**, l**anguid and **l**ustful, isn′t she? [11,17].
- To **s**it in **s**olemn **s**ilence in a **d**ull **d**ark **d**ock, in a **p**estilential **p**rison, with a **l**ife **l**ong **l**ock, awaiting the sensation of a **sh**ort, **sh**arp **sh**ock.From a **ch**eap and **ch**ippy **ch**opper.On a **b**ig **b**lack **b**lock [11,17].

Qədim ingilis şifahi xalq ədəbiyyatında alliterasiya əsas struktural vasitə olub, yalnız şeirdə deyil, eyni zamanda digər üslubi vasitələrdə: qəzet başlıqlarında, kitabların başlıqlarında, atalar sözü və deyimlərində də geniş şəkildə işlənirdi.Kitab başlıqlarına missal olaraq: “**S**ense and **S**ensibility”, “**P**ride and **P**rejudice”, “The **S**chool for **S**candal”, “A book of **Ph**rase and **F**able” və.s ingilis ədəbiyyatından olan əsərləri göstərə bilərik [7, 127].

Alliterasiyanın əsas məqsədi melodik təsiri fikrə ötürməkdir.Bu ifadə vasitəsinin əsasını səslərin təkrarı, xüsusilədə, samit səslərinin təkrarı tutur.

*Deep into the darkness peering, long.I stood there wondering, fearing.*

Bəzi səslərin təkrarı müxtəlif melodiyalar yarada bilər.Məsələn, [m] səsinin təkrarı Tenisonun “The Lotus Easter” əsərində yuxu melodiyası yaratmışdır.

*How sweet it were,...*

*To lend our hearts and spirits wholly*

*To the **m**usic of **m**ild-**m**inded **m**elancholly* [3,93] ;

*To **m**use and broad and live again in **m**emory* [3,94].

Alliterasiya nəinki şeirlərdə, eyni zamanda müxtəlif söz birləşmələrinin tərkibində, idiomlarda aktiv işlənən üslubi vasitədir.Bir çox alimlər idiomlar,frazeoloji birləşmələr haqqında kitablar dərc etdirmişlər.Həmin idiomların arasında alliterasiya nümunələrinə tez-tez rast gəlinir.Həmin nümunələri nəzərdən keçirək:

1.**As cool as cucumber**--sakit təbiətli olmaq.15-ci əsrin əvvələrində bu söz sakit insan mənasında işlənirdi.Termometr kəşf olunandan sonar alimlər göstərdilər ki xiyarlar çöldəkinə nisbətən içəridə 10 dərəcə soyuq olur.Məsələn: *Roslyn was as cool as a cucumber when she got the award from the President of the United States* [13,8].

2.**As pleased as Punch**--özünü çox xoşbəxt hiss etmək-Bu ifadə İngiltərədə Yeniləşmə dövründən olan xarakteri ilə fərqlənən Mister Punchun görnüşünə kinayə ilə işlənmişdir.O,heç vaxt üz görnüşünü dəyişmir, həmişə üzü sevincdən parıldayırdı.Məsələn*: He was as pleased as Punch when we all said how good his cooking was*[13,9].

3.**Best of British**-kiməsə hansı ümidsiz məsəslədə dəstək olmaq,yaxşı şeylər arzulamaq.Bu ifadə 2-ci dünya müharibəsi illərində işlənib.Səbəbi isə Britaniyalılar üçün heçnəyin yaxşı getməməsi idişOnlara dəstək mənasında işlənmişdir.Məsələn: *I′m off take my driving test, and I′ ve only had three lessons.—And the best of British to you-you′ll need it*[13,16].

4.**Chattering classes**-müzakirə qrupu.*Football has recently become a trendy topic among the chattering classes*.Bu ifadə təhsilli insanlar üçün işlədilir hansı ki siyasi və sosial məsələlərdə öz fikirlərini ifadə etməyi və müzakirə etməyi sevirlər.İfadənin mənşəyi isə elə də qədim deyil.1990-cı ildə Britaniyada çıxan qəzetlərdə aktiv olan insanlar belə adlandırılırdı [13,26].

5.**Creature comforts-**Xoşa gələn,rahat həyat,yaşayış deməkdir.Bu birləşmənin mənşəyi 17ci ərsrə gedib çıxır.Çarlz Dikens “Nicholas Nickleby” əsərində “creature” mənasında bu ifadəni işlətmişdir [13,32].

Alliterasiya fonetik üslubi vasitə olub, əsas məqsədi ifadə edilən fikirə melodik təsir verməkdir.Bu üslubi vasitənin əsasını oxşar səslərin təkrarı, xüsusilə də samit səslərin sözlərin əvvəlində işlənməsi tutur.

“**D**eep into the **d**arkness peering, long I stoo**d** there wondering, fearing”

“**D**oubting, **d**reaming **d**reams no mortals ever **d**ared to **d**ream before”[7,126].

Alliterasiya da digər fonetik ifadə vasitələri kimi hər hansı leksik mənaya məruz qalmır. Belə ki, müəyyən bir məlumat leksik vahid kimi səslərin təkrarından ibarət olur. Baxmayaraq ki, əgər hər hansı bir səs təkrarlanarsa, xüsusi təsir ifadə edə bilər[7,127].

Şekspir əsərlərində fonetik fiqurlardan məharətlə istifadə etmişdir.Fonetik fiqurlar içərisində ən çox alliterasiya nümunələrinə rast gəlirik.Onun “Romeo and Juliet” əsərində alliterasiya nümunələrinə diqqət yetirək:

*"From forth the fatal loins of these two foes; A pair of star-cross'd lovers take their life." (Prologue to Act 1)*[15,13].

Bu proloqda [*f*]və [ *l*]hərfləri alliterasiya yaratmışdır.

"*Now old desire doth in his death-bed lie." (Prologue to Act 2)* [15,17].

Kinayə formasında işlənən bu proloqda [d ]səsi cümləni daha ifadəli etmişdir.

*"...the day to cheer and night's dank dew to dry." (Spoken by Friar Lawrence in Act 2, Scene 3)* [15,18].

[d] səsinin dörd dəfə təkrarı erkən səhər işığının gücünü daha qabarıq göstərmişdir.

*"If e'er thou wast thyself, and these woes thine, thou and these woes were all for Rosaline." (Spoken by Friar Lawrence in Act 2, Scene 3)* [15,19].

Bu cümlədə [w] və [θ] səsləri vasitəsilə Friarin Romeonun Rozalinadan Cülyettaya sevgisini nece tez ötürdüyü barədə naləsi dramaya əlavə olunmuşdur.

*"...slays all senses with the heart." (Spoken by Friar Lawrence in Act 2, Scene 3)* [15,24].

[s] səsinin alliterasiyası yalnız bir gülün gücünü göstərir.O bütün hissləri,hətta ürəkləri dayandıra bilər.

*"Gallop apace, you fiery-footed steeds, Towards Phoebus' lodging!" (Spoken by Juliet in Act 3, Scene 2)* [15,27].

Bu cümlədə işlənmiş təkrar Cülyettanın Romeoya çarəsiz sevgisini təsvir edir.Burada eyni zamanda görə bilərik ki, alliterasiya yalnız hərflərin təkrarı demək deyil,eyni zamanda Phoebusa daxil olan səsdir.

*"...as Phaethon would whip you to the west." (Spoken by Juliet in Act 3, Scene 2)* [15,27].

Şekspir cümlənin ifadəsini və emosionallığını alliterasiyaya etibar edərək,Cülyetta obrazının üzərində onun günəş batanadək Romeonu gələcəyini gözlədiyini təsvir etmişdir.

*"I have a faint cold fear thrills through my veins, that almost freezes up the heat of life." (Spoken by Juliet in Act 4, Scene 3)*[15,37].

[f] səsinin üç dəfə işlənməsi Cülyettanın xanım Kapulet və tibb bacısına əlvidasını əvvəlcəədən hiss etdirir.

*"When griping grief the heart doth wound, and doleful dumps the mind oppress…" (Spoken by Peter in Act 4, Scene 5)*[15,38].

**ƏDƏBİYYAT**

1. Axundov A. Şe′r sənəti və Dil. Bakı. Yazıçı, 1980, 159s
2. Aslanova Z. Glossary of Stylistic and rhetorical terms. Bakı: Elm və Təhsil, 2016, 160s
3. Hajiyeva A. English Stylistics, Baku, Elm ve tehsil, 2015, 172s
4. Hajiyeva U. English Rhetorical Devices. Bakı, 2017, 152s
5. İlqarqızı A. Glossary of idioms and proverbs. Bakı: Mürtərcim, 2017, 314 s.
6. Vəliyeva N. Azərbaycanca-İngiliscə idiomatik lüğət. Bakı: Mütərcim, 2017, 764s
7. Galperin İ. R. Stylistics. Moscow, 1981, 334s
8. Longman Paperback. A, Geoffrey N.Leech, Michael H.Short. Style in Finction, 402s
9. Robert. J. Dixson. Essential idioms in English, 276s
10. Thomas. A. Sebeok. Style in Language. Cambridge, Massachusetts, 470 s
11. Кухаренко В. А. Практикум По Стилистике Английского Языка . Москва, 2011, 183s
12. Шаховский В.И . Стилистика Английского Языка. Москва , 228s
13. ШитоваЛ. Ф. 350 idioms with their origin. Санкт-Петербург, 2011, 157s
14. Знамеская Т. А. Стилистика Английского Языка. Москва, 224s
15. William Shakespeare. Romeo and Juliet. Moscow: Higher School Publishing House, 1972 , 126 p

**İNGİLİS ATALAR SÖZLƏRİ VƏ DEYİMLƏRDƏ ALLİTERASİYA**

**XÜLASƏ**

Məqalədə İngilis poeziyasında, atalar sözləri və kəlamlarda işlədilən fonetik vasitələrdən biri müzakirə olunur, İngilis və Azərbaycan dilində alliterasiyanın rolu, istifadəsi və stilistik xüsusiyyətləri müəyyənləşdirilib.

**АЛЛИТЕРАЦИЯ В АНГЛИЙСКИХ ПОСЛОВИЦАХ И ПОГОВОРКАХ**

**АННОТАЦИЯ**

В статье рассматривается одно из фонетических средств, которое используется в английской впоэзии, в пословицах и поговорках.Определяется роль, использование и стилистические характеристики аллитерации в английском и в азербайджанском языках.

**ALLITERATION IN ENGLISH PROVERBS AND SAYINGS**

**SUMMARY**

The article deals with one of the phonetic devices which is used in English poetry, in proverbs and sayings. The article defines the role, usage and stylistic characteristics of alliteration in English language and in Azerbaijani.

# İNTONASİYA PROBLEMİNİN QOYULUŞU VƏ İZAHI

***Turan Mehdizadə***
***ADU-nun II kurs magistrantı***
***turaneyvazova@mail.ru***

***Açar sözlər:*** intonasiya,linqvistik anlayış,nitq, ədəbi dil,
***Ключевыеслова***:интонация, лингвистическая концепция, речь, литературный язык;
***Keywords****:* intonation, linguistic concept, speech, literary language.

Bildiyimiz kimi, ədəbi dilin tələffüz formaları təkcə sözlərin düzgün tələffüzü ilə məhdudlaşmır. Bu normalara vurğu, fasilə, tonlar, ümumilikdə intonasiya və onun komponentləri daxildir. Canlı nitq bir çox xüsusiyyətləri ilə yazılı nitqdən fərqlənir.Yazılı nitq fikrin bütün çalarlarını, dəqiqliyini və incəliklərini təbii şəkildə verə bilmir.Yazılı nitqdə durğu işarələri ilə müəyyən dərəcədə hansısa fikir nəzərə çatdırıla bilər, ancaq şifahi nitqdə intonasiya və onun komponentləri ilə bir çox fikirlər, xüsusilə də duyğular nəzərə çatdırıla bilər. Aparılan tədqiqatlar onu göstərir ki, insanlar intonasiya və onun komponentləri ilə daha çox məlumat alırlar. İntonasiya danışıqda cümlələlərin mənasını gücləndirir, hətta cümlələrin mənasını dəyişməyə belə qadirdir. İntonasiya fikrin emosional şəkildə çatdırılmasında mühüm rol oynayır. Nitqdə ekspressivliyin yaradılmasında intonasiya mühüm rol oynayır.Bəzi dilçi alimlər intonasiyanı melodiya anlayışı ilə eyniləşdirirlər. Onlar bu haqda bir çox fikirlər söyləmişlər.

İntonasiya latın sözüdür, mənası “ucadan tələffüz etmək” dir. İntonasiya modallıq ifadə edir. Şifahi nitqdə hər hansısa fikrin, mövzunun məzmununu dəqiq və aydın şəkildə çatdırmaq üçün cümlələrin ekspressivliyini yaratmağa yönəlmiş intonasiya diqqətdə saxlanılır.

Nitqin ahənginə (səsin yüksək tonla və ya alçaq tonla səslənməsi), ritmi (üzərinə vurğu düşən və ya düşməyən hecların nisbəti, əlaqəsi), nitqin tempi və ya sürəti (tez - tez və yavaş tələffüzü), intensivliyi (danışıqda nəfəsalmanın güclənməsi və ya zəifləməsi), məntiqi vurğusu, tembri və bu kimi başqa hadisələrin məcmusuna intonasiya deyilir. İntonasiya fikrin güclü ifadə vasitəsidir.

“Nitqdə emosional boya kəsb etməklə dinləyicilərin hisslərinə təsir mexanizmi kimi intonasiya xüsusi əhəmiyyət daşıyır. İntonasiya baxımından düzgün qurulmuş nitq insanların qəlbinə tez yol tapır, onları darıxmağa, yorulmağa qoymur, xoş əhval-ruhiyyə yaradır, maraq oyadır. Nitqin ahəngi, melodik səs quruluşu, ritmi (vurğulu və vurğusuz hecaların nisbəti, əlaqəsi), tempi və ya surəti (müəyyən vaxt ərzində surətli və ya yavaş tələffüzü), intensivliyi (nəfəsalmanın güclənməsi və ya zəifləməsi), məntiqi vurğusu, tembri kimi xüsusiyyətləri - birlikdə intonasiyanı təşkil edir. Məhz intonasiya vasitəsilə nitqdə müxtəlif emosional vəziyyət yaradılır” [2, s.202].

Торсуев Георгий Петрович yazır ki, “Ritm danışığın üslub-ifadə vasitələrindən və mənayaratma qabiliyyətindən asılı olaraq dəyişir” [ 7, s. 91].

O, intonasiyanı səs tonunun, intensivliyin, tembrin və tempin nitqdə mürəkkəb birliyi kimi izah edir və intonasiyanı söyləmin mənasını ifadə edilməsinin ən vacib üsulu hesab edir [7, s.29].

İntonasiya bir linqvistik anlayış kimi dilçilikdə həm dar, həm də geniş mənada izah edilir. Xarici dilçilikdə, xüsusilə ingilis- amerikan dilçiləri informasiyanın səs tonunun dəyişməsi - qalxıb - enməsi kimi izah edirlər [3, s.13].

İntonasiya xarici dil öyrənmənin ən çətin sahəsidir; Buna görə intonasiya elementləri əvvəlcə göstərilməlidir və sonra düzgün öyrədilməlidir.Çünki hər bir dilin özünəməxsus intonasiyası vardır. Müasir dövrdə xarici dillər arasında daha çox ingiis dilinin öyrənilməsinə üstünlük verilir. Buna görə də ingilis dilinin düzgün və dəqiq dərk edilməsi və istifadə edilməsi üçün həmin dildə olan başqa qrammatik qaydalarla yanaşı, intonasiya probleminə və məsələlərinə xüsusi diqqət etmək lazımdır. İntonasiya haqqında və intonasiya ilə bağlı problemlər haqqında bir çox dilçi alimlərin fikirləri olmuşdur. Onlar bu fikirlərini müəllifi olduqları kitablarında, məqalələrində və

sairədə yazmışlar. İngilis dilində olan intonasiya ilə bağlı bir çox alimlərin fikirlərini nəzərdən keçirək:

Антипова Алла Михайловна "Система английской речевой интонации" kitabında yazır: "K. Paykin intonasiya təlimində bir vurğulu söz fərqləndirilir və qalan sözlər isə vurğusuz olur.

Məsələn: I want to go home || His name was Bill | nor John

K.Payk intonasiyanın öyrənilməsinə üç tərəfdən yanaşır: intonasiya hissəciklər, (particles kimi) intonasiya dalğa (wave) kimi, intonasiya sahə (field) kimi baxılır. Birinci halda intonasiya vahidlərinə digər vahidlərlə əlaqədə olmayan vahidlər kimi baxılır. Burada intonasiya statik planda nəzərdən keçirilir. İkinci yanaşma konturların dinamikada öyrənilməsi nəzərdə tutulur. Üçüncü yanaşma intonasiyanı digər fonetik hadisələrə (vurğu, səsin keyfiyyəti və s.) həm də leksik-qrammatik hadisələrlə nitq formasında qarşılıqlı əlaqədə öyrənilməsini nəzərdə tutur.

Amerikan dilçisi D.Bolincer intonasiyanın amerikan variantına dair dörd səviyyə nəzəriyyəsini irəli sürür: tamamilə qrammatikləşmiş, qismən qrammatikləşmiş, qismən qrammatikləşməmiş və tamamilə qrammatikləşməmiş. Birinci səviyyəyə müəllif cümlə vurğusunu, terminal tonları, səviyyəni və üzvlənməni aid edir. İkinci səviyyə məntiqi və emosional informasiyanın birliyin xarakterizə edir.

Bu səviyyə idarə edilə bilən "emosional mənaları" səciyyələndirir. İntonasiyanın tədqiqində melodik konturda vurğulu sözlərdə melodiyanın öyrədilməsin əhəmiyyətini qeyd edir. Üçüncü səviyyə (qismən qrammatikləşməmiş) idarə edilə bilməyən "emosional mənaları" səciyyələndirir. Bu səviyyədə müəllif vurğusuz hecalarda melodik dəyişmələrin öyrənilməsinin əhəmiyyətini qeyd edir. Dördüncü səviyyədə emosiya üstünlük təşkil edir. Bu səviyyə diapazonların, yüksək tonal səviyyələrin öyrənilməsini nəzərdə tutur. D.Bolincer dörd səviyyəni göstərməklə söyləmlərin emosional dolğunluğunun səddini nişanlamağa cəhd edir" [6, s.17].

İngilis dilində sadə və mürəkkəb tonlar fərqli şkalalarla işlənərək fərqli münasibət mənaları vurğulayır. İngilis dilində 15 intonasiya modeli daha işlək model olaraq hesab edilir və ingilis dilini öyrənmək istəyənlər üçün həmin bu modellər vacib sayılır. İngilis dilində olan nüvə tonları həm şkala ilə, həmçinin də şkalasız işlənir və bu anda ifadə olunan münasibətlərdə müxtəliflik yaranır. İngilis dilində birinci intonasiya modeli nüvədən, yəni kökdən və vurğusuz hecalardan, və yaxud bir nüvədən (kökdən) ibarət olur. Bu intonasiya modeli cümlənin əsas növləri (nəqli, sual, əmr, nida) ilə işlənir və alçaq enən tonla xarakterik olur. Həmçinin bu intonasiya modeli bitkinlik ifadə edir və təmkinli münasibət bildirən nəqli cümlələrdə, təmkin, neytral münasibət bildirən, xüsusi sual cümlələrində sakit, ciddi münasibət ifadə edən əmr cümlələrində ciddi, təəccüb ifadə edən nida cümlələrində işlənir. Belə ki, bu intonasiya modeli öz müsahibinə sakit, neytral, ciddi, təəccüb mənaları ifadə edir.

Məsələn: "What is your name - ˎJohn; Tell him - ˎWhat? I am cold -ˎPity! It is my pen - ˎTake it then.

Peter Roach. English phonetics and phonology" kitabında yazır: "İngilis dilində münasibət funksiyası ilə yanaşı, intonasiyanın aksentual və diskurs funksiyası da xüsusi qeyd edilir".[4, s.183-184].

"İntonasiyanın aksentual funksiyası ondan ibarətdir ki, o, (intonasiya) hecalarında qabarıqlıq effektinin yaranmasına, bununla da onların vurğusu bir heca kimi qavranılmasına kömək edir. Digər tərəfdən, intonasiya tonik vurğunun xüsusi hecaların üzərində yerləşdirməklə intonasiya qrupunda ən əhəmiyyətli sözü qeyd edir, bu da intonasiyanın aksentual funksiyası adlandırılır".[4, s.183].

"Tonik hecanın yeri daha çox linqvistik əhəmiyyətə malikdir. Tonik vurğunun yeri əsasən sonuncu leksik sözün (isim, sifət, say, fel, zərf) üzərində olur. Bununla belə, qarşılaşdırma məqsədilə hər bir söz tonik hecanın daşıyıcısı ola bilər. Belə bir fikir çox tez-tez səslənir ki, tonik hecanın yeri informasiyanın mərkəzini göstərir". Məsələn:

1) "I 'want to 'know where he is ˎtraveling to".

2) “I 'don't 'want to 'know where he is 'travel ˇfrom. I ˌwant to ˌknow where he is ˌtraveling ˎto” [4, s.194].

Danışıq zamanı hər zaman intonasiya, vurğu və fasilələrə diqqət edilməli və gözlənilməlidir. Dil vasitələrindəndoğru düzgün və məqsədəuyğun istifadə olunmalıdır. Böyüklərlə və kiçiklərlə ünsiyyət qurarkən intonasiya gözlənilməlidir. Çox yüksək tonla və ya çox alçaq tonla danışmaq olmaz. Yaxşı natiq intonasiya ilə danışmağı, səs tonunu tənzimləməyi, jest və mimikadan düzgün şəkildə yerli - yerində istifadə etməyi də bacarmalıdır. Düzgün olmayan tələffüz - səslərin öz məxrəcində deyilməməsi, qarışdırılması, bəzən də səslərin, hecaların tələffüzdən düşməsi, məzmuna, məqsədə uyğun intonasiyaya əməl olunmaması və s. də nitqin aydınlığına xələl gətirən səbəblərdir.

Ünsiyyət zamanı intonasiya, fasilə, vurğu, mimika və jestlərin işlənmə məqamlarının yerini bilmək lazmdır. Yazılı nitqdə isə orfoqrafiya və durğu işarələri qaydalarınına düzgün əməl etməyi, mənimsəməyi, cümlə üzvlərinin düzgün sıralanması, sintaktik üzvlərin, əsas və köməkçi nitq hissələrinin, cümlə tiplərinin üslubi imkanlarını mətn daxilində qiymətləndirib yerli-yerində işlətmək, məna tutumunu başa düşməyi əsas şərtlərdir. Nitqin intonasiya baxımından zənginliyindən danışarkən sual, nida, əmr cümlələri, xitablar, ara sözlər, ara cümlələr və s. sintaktik quruluşların özünəmüvafiq formada, təbii şəkildə tələffüz olunmasının vacibliyi də diqqət mərkəzində saxlanılmalıdır.

İntonasiya cümlənin mənasını aydınlaşdırır, cümlə üzvlərinin düzgün şəkildə qruplaşdırılmasını təmin edir, cümlə daxilində olan xitabları, ara sözləri, ümumiləşdirici sözləri, əlavələri və xüsusiləşmələri diqqətə çatdırır. Dilimiz intonasiya baxımından olduqca zəngindir. Bunaəsasən də nitq prosesində rəngarəng məna çalarları yaratmaq mümkün olur. İntonasiya haqqında qısa olaraq tələffüz hadisəsidir deyə bilərik.

Hansısa bir yazılı nitqi oxuyan şəxs həmin nitqi yazanın intonasiyasını duymur, lakin yazı manerasından, durğu işarələrinə və dil vasitələrinə əsaslanaraq onun hansı hisslərlə cümlələri qurmasını təsəvvüründə canlandırır.

Bəzi hallarda intonasiyanın rolu o dərəcədə yüksək olur ki, o, fikrin əsasını təşkil edir, sözün əsas mənasını dəyişdirə bilir. Məsələn: bağışlayın, üzr istəyirəm, xoş gəldiniz, bəli, əhsən, çox sağ olun və s. kimi söz və ifadələr intonasiyadan asılı olaraq həm nəzakət və hörmət mənalarını ifadə edir, həm də istehza, hiddət, qəzəb, kinayə məqamlarında işlədilir. İntonasiyanın köməyi ilə isə dinləyici deyilən fikrin məqsədini tam aydın şəkildə dərk edə bilir.

İntonasiya ilə əlaqədar qüsurlar həm sürətli, həm də yavaş danışıq və ya oxu zamanı üzə çıxır. Sürətin normadan kənar, aşağı və ya yuxarı avazlanması mənanın təhrif olunması ilə nəticələnə bilər. İntonasiyanın azlığı və ya çoxluğu danışanın mövzunu məzmuna uyğun forma ilə ifadə edə bilməməsi ilə əlaqədardır.

İntonasiya tələffüzün dörd xüsusiyyətini- fasilə, vurğu, melodiya və tempi özündə cəmləşdirir. Bu dörd xüsusiyyət nitqin xarici elementləridir və onlar birlikdə avazlanmanı əmələ gətirir, nitqdə ifadəliyin verilməsinə xidmət edir.

Cümlələr də məqsəd və intonasiya görə bir - birindən fərqləndirilir. Azərbaycan dilində məqsəd və intonasiya görə  cümlənin dördü növü vardır. Bunlar: Nəqli cümlə, nida cümləsi, əmr cümləsi və sual cümləsidir. Cümlənin bu növləri bir birindən həm qrammatik göstəricilərinə, həm də intonasiyalarına görə fərqlənir. Bu cümlələr arasnda yüksək hiis həyəcan, intonasiya nida cümlələrində olur.

Nida cümələri həmçinin köməkçi nitq hissələri vasitəsilə də düzəlir. Nida cümlələri şifahi nitqdə yüksək emosionallıq, hiss həyəcan və ekspressivlik bildirir. Həmçinin yazılı nitqdə də personajın, lirik qəhrəmanın və ya yazıçının hislərini, daxili həyəcanını bildirir. Nida cümlələrindən bədii ədəbiyyatda daha çox istifadə olunur. Hiss-həyəcanın zənginliyini bildirən intonasiya, cümlənin tərkibində işlənən nida sözlərinin leksik mənası, nidaların öz xarakteri, sözlərin sırası da əhəmiyyətli rola malikdir.

İntonasiya bu qeyd etdiyimiz sadə cümlələrin növləri ilə yanaşı mürəkkəb cümlələrin də düzgün şəkildə qruplaşdırılmasını təmin edir, sadə və mürəkkəb cümlələrin, habelə tabesizlik və tabelilik əlaqələrinin şərtləndirilməsinə xidmət edir. İntonasiya həmçinin də məntiqi vurğunun və ara sözlərin aşkarlanmasına da imkan yaradır.

İntonasiya cümlənin quruluşundan, danışanın nitqinə münasibətindən, cümlə qurulma məqsədindən və s. asılı olaraq dəyişilir. Danışan situasiyadan, qurduğu cümlənin xarakterindən asılı olaraq öz nitqinin tempini, surətini, intensivliyini öz məqsədinə muvafiq sürətdə tənzimləyir ki, bu tənzimləmə intonasiyanı yaradır.

Şifahi ədəbi dildə intonasiya, pauza, emosiya, mimika, jest, vurğu və s. kimi vasitələrdən istifadə olunur. Yazılı ədəbi dildə isə bunların əvəzində durğu işarələrindən istifadə olunur. Məsələn, durğu işarəsi olan tire və mötərizə ilə cümlənin digər üzvlərindən ayrılan sözlər enən intonasiya ilə oxunur. Bu işarədən sonra gələn söz mötərizədən, tiredən əvvəlki sözün intonasiyasına uyğun şəkildə deyilir və oxunur.

Dilşünaslığa aid terminlərin sayı olduqca çoxdur. İntonasiya da dilşünaslığa aid terminlərdən biridir. Bildiyimiz kimi dilşünaslığa aid terminlər içərisində "vurğu", "heca", "nitq hissələri", "cümlə", "cümlə üzvləri" və sairədir. Dilşünaslıqda O.Yespersen, V.V.Vinoqradov, A.M.Peşkovski, T.M.Nikolayeva, F.Palmer, J.D.O'Konnor, G.F.Arnold, M.Hüseynzadə, Ə.Z.Abdullayev, F.Y.Veysəlli və başqa dilçi alimlər də intonasiya ilə bağlı tədqiqatlar aparmış və müxtəlif fikirlər söyləmişlər.

"Prosodiya anlayışına gəldikdə isə, həm Britaniya, həm də Amerika dilçiləri üçün prosodik elementlər eynidir. Başqa sözlə, onlar buraya vurğu, ton, melodiya, ritm və s. kimi elementləri aid edirlər. Məsələn, Devid Kristal prosodiyanı səs, səda effekti kimi izah edir və buraya səs tonunun yüksəkliyini, uzunluğunu, ucalığını, intensivliyini və s. daxil edir" [1, s. 967].

İntonasiyanın əsas ünsürlərindən biri vurğudur. Dilçilik ədəbiyyatında onun üç növündən - söz vurğusu, məntiqi vurğu və həyəcanlı vurğudan bəhs olunur.

Vurğu həm sözlərin, həm də bütövlükdə cümlələrin mənası dolaşır Vurğu ilə bağlı qüsurlar nitqin ümumi ahənginə, intonasiyasına hiss ediləcək dərəcədə naqislik gətirir, onun təsir gücünü müəyyən qədər zəiflədir.

İntonasiyanın digər ünsürü fasilədir. Nitq müəyyən dayanacağa malikdir. Tənəffüs məqsədilə danışıq və oxu prosesində edilən bu dayanacaq fasilə (pauza) adlanır. Nitq zamanı zəruri fizioloji tələbatın nəticəsi kimi baş verən tənəffüs – fasilə həm danışanın, həm də dinləyənin nitq orqanlarının müəyyən sakitliyi, rahatlığıdır. Tələffüz prosesində nəfəs və səsin düzgün tənzim edilməsi mühüm şərtlərdəndir.

Xüsusən, nəfəsalmaya düzgün əməl olunmaması nitq zamanı darıxmaya, təngnəfəsliyə, diksiyanın pozulmasına və s. kimi hallara gətirib çıxarır. Buna yol verməmək üçün, birinci növbədə, nitqdə normal fasiləyə əməl olunmalıdır. Nitq fasiləsinin təkcə söyləyən və ya oxuyan üçün deyil, dinləyici üçün də böyük əhəmiyyəti vardır. Dinləyici öz növbəsində danışan və oxuyanın etdiyi fasilə zamanı eşitdiklərini mənimsəyir, "həzm" edir, sonrakı fikri tutmaq üçün diqqətini səfərbərliyə alır.

İngilis və Azərbaycan dillərinin materialının təhlilindən aydın olur ki, sintaktik fonetikanın əsasını təşkil edən cümlə, intonasiya olmadan müəyyən bir fikrin ifadəsi bütöv kimi formalaşmır. Cümləni intonasiyasız, intonasiyanı isə cümləsiz təsəvvür etmək qeyri-mümkündür [5, s.502].

## ƏDƏBİYYAT

1. D. Crystal The English Encyclopedia. London: Oxford University Press, 1992, 1184 p;
2. HüseynovS. Səfər oğlu,Qaracayeva E. Muxtar qızı. Azərbaycan dili və nitq mədəniyyəti (dərslik). Bakı, "Elm və təhsil", 2016, 408 səh;

3. OrucovE. İngilis və Azərbaycan dillərində sadə geniş cümlələrin intonasiya strukturu. Bakı. Şirvannəşr 2007, 100 səh;
4. Peter Roach. English phonetics and phonology. Cambridge University Press. 2000, 231 p;
5. Veysəlli F. Seçilmiş əsərləri. Bakı, 2009, 639 səh;
6. Антипова А.М. Система английской речевой интонации. М., 1974, 131 с;
7. Торсуев Г.П. Вопросы акцентологии современного английского языка. МЛ.: АН СССР, ЛО,1960, 120 с.

## İNTONASİYA PROBLEMİNİN QOYULUŞU VƏ İZAHI

### XÜLASƏ

Ədəbi dildə intonasiya mühüm rol oynayır. İntonasiya düşüncənin güclü bir ifadəsidir. İntonasiya cümlənin mənasını aydınlaşdırır və cümlələrin düzgün qruplaşdırılmasını təmin edir. İntonasiya, xüsusilə poeziya mühüm rol oynayır. İntonasiya, əsasən poeziyada mühüm rol oynayır. İntonasiyanın köməyi ilə dinləyici fikrin məqsədini tam dərk edir. İntonasiya ilə əlaqəli qüsurlar sürətli, yavaş nitq və ya oxumaq zamanı baş verə bilər. Bu çatışmazlıqlar da mütləq aradan qaldırılmalıdır.

## ПОСТАНОВКА И ОБЪЯСНЕНИЕ ИНТОНАЦИОННОЙ ПРОБЛЕМЫ

### АННОТАЦИЯ

Влитературном языке интонация играет важную роль. Интонация - мощное выражение мысли. Интонация проясняет смысл предложения и гарантирует, что предложения правильно сгруппированы. Интонация, особенно в поэзии, играет важную роль. Intonation, especially in poetry, plays an important role. С помощью интонации слушатель в полной мере осознает цель идеи. Дефекты, связанные с интонацией, могут возникать во время быстрой медленной речи или чтения. Эти недостатки также должны быть устранены

## SETTİNGANDEXPLANATİONOFTHE İNTONATİONALPROBLEM

### SUMMARY

In literary language, intonation plays an important role. Intonation is a powerful expression of thought. Intonation clarifies the meaning of the sentence and ensures that the sentences are properly grouped. Intonation, especially in poetry, plays an important role. With the help of intonation, the listener is fully aware of the purpose of the idea. Defects related to intonation can occur during rapid and slow speech or reading. These defects should also be eliminated.

# MÜNDƏRİCAT

## FƏLSƏFƏ

***Самир Кулиев.*** Определение границ нравственности как один из основных научно-философских интересов Аббас-Кули-Ага Бакиханова....................................................3
***Murad Həsənov.*** İbn Xəldun fəlsəfəsində əsabiyyə konsepsiyasi....................................................9
***Ülkər Vəliyeva.*** Verifikasiya və falsifikasiya prinsipləri....................................................13
***Tural Hacıbəyli.*** Həyatın mənası insanın həyatını formalaşdıran əsas məfhumdur........................17
***Şəmsəddin Cəfərov.*** Həqiqətin axtarışı mövzusunun fəlsəfə tarixində rolu....................................20
***Динара Алиева.*** Креативность как условие развития современного общества……………...24

## SOSİOLOGİYA

***Arzu Nurullayeva.*** Sosial siyasət modelləri və onların əsas xüsusiyyətləri....................................28
***Ramil İsmayılov.*** İctimai təşkilatlar sosial idarəetmənin mühüm komponenti kimi......................33
***Türkanə İsmayılova.*** Siyasi hakimiyyətin mahiyyəti, xüsusiyyətləri və növləri...........................37
***Elmira Əliyeva.*** Diskriminasiya və ayrı seçkiliyə qarşı hərəkatlar cəmiyyətdə sosial etiraz forması kimi....................................................................................................................41
***Arzu Əskərova.*** Sosiologiyada keyfiyyət metodları: nəzəri - metodoloji məsələlər......................44
***Ханумзар Исмайылова.*** Анализ разводимости в контексте решения демографических проблем в Азербайджане....................................................................................49
***Sitarə Nurumova.*** Məşğulluğun idarə olunması konsepsiyaları və əsas modelləri.......................56
***Fəridə Sadıqova.*** Cəmiyyətin harmonik və sabit inkişafının Çin modeli....................................60

## SOSİAL İŞ

***Cavid Əlizadə.*** Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin rastlaşdıqları problemlərin həllində sosial işçinin rolu....................................................................65
***Fizzə İnqilabzadə.*** Gənclərdə antisosial şəxsiyyət pozuntusu....................................................70
***Samir Əsədli.*** Gənclərdə zərərli vərdişlər: tarixi və nəzəri aspektləri..........................................73
***Sevinc Hacıyeva.*** İntihara aparan yol....................................................................................77
***Pərvanə Lətifli.*** Sosial işdə etik prinsiplərin əhəmiyyəti.............................................................81
***Qüdsiyyə Cəfərli.*** Ailədaxili münaqişə və boşanma....................................................................84
***Gülşən Əmikişiyeva.*** Əhalinin məşğulluğunun həyat səviyyəsinin yüksəldilməsində rolu...........89
***Surxay Əhmədzadə.*** İnsan alveri qurbanı olmuş şəxslərlə sosial iş..............................................93
***Nilufər Alızadə.*** Azərbaycanda gənc ailələrlə sosial işin xüsusiyyətləri........................................97
***Nuray Qibləliyeva.*** Sosial işçi niyə etik prinsipləri bilməlidir?....................................................104
***Pərvanə Lətifli.*** Sosial media və sosial problemlər.....................................................................107
***Rauf Mirəliyev.*** Tənha ahıllarla sosial iş..................................................................................111
***Nərgiz Yusifova.*** Şəxsiyyətin özünü təsdiqi və sosial iş.............................................................115
***Şəhanə Sadıqova.*** Deviant davranışlı uşaq və yeniyetmələrlə aparılan sosial iş..........................119
***Nərgiz Yusifova.*** Zorakılıq problemlərinə sosial yanaşma. uşaq zorakılığı.................................123
***Rauf Mirəliyev.*** Ahıllarla sosial iş...........................................................................................126
***Nigar Mustafayeva.*** Əlilliyi olan şəxslərə dövlət qayğısı və onlarin asudə vaxtının düzgün təşkili........................................................................................................................129
***Nübar Həmidova.*** Azərbaycanda uşaq müdafiəsi sistemi.............................................................133
***Solmaz Aslanova.*** Uşağın şəxsiyyət kimi formalaşmasında ailənin rolu.....................................139
***Zənurə Talıbova.*** Gənclərin məşğulluğuna təsir edən başlica sosial-iqtisadi və mədəni amillər.145

***Vüqar Abbasov*** Azərbaycanda sosial təhlükəli vəziyyətdə olanlarla bağlı aparılan sosial siyasətin əsas istiqamətləri.....151
***Турал Исмаилзаде.*** Мир нанотехнологий и социальное общество.....158
***Rəcəbəli Əliyev.*** Sağlamlıq imkanları məhdud insanların sosial müdafiəsi ilə bağlı qanunvericilik bazası.....162

## İQTİSADİYYAT, İDARƏETMƏ VƏ POLİTOLOGİYA

***Orxan Həsənov.*** Süni intellekt cinayət hüququnun subyekti kimi.....166
***Bəhruz Kazımov.*** Erməni millətçiliyinin mahiyyəti və təzahür formaları.....170
***Aynur Nurullayeva.*** Müasir mərhələdə Azərbaycanda qeyri-neft sektorunun inkişafının zəruriliyi və istiqamətləri.....177
***Şikar İbrahimov.*** Amerikanın Yaxin Şərqdə neft maraqları.....183
***Nigar Ağayeva.*** Azərbaycanda iqtisadiyyat;n şaxələndirilməsində IV sənaye inqilabının rolu....189
***İsmayıl Eyyubov.*** Molla Pənah Vaqifin ictimai – siyasi görüşləri (1717-1797).....194

## FİLOLOGİYA

***Sadia Xanlarova.*** Məmməd Səid Ordubadinin poetik yaradıcılığı barədə.....199
***Ləman İsmayılova.*** İngilis dilində nəzakət konseptinin qrammatik xüsusiyyətləri.....205
***Aynur Poluyeva.*** Sinonimlər və onların nitqdə funksionallaşması.....209
***Cahan İsmayilova.*** İngilis dilinin sait fonemlərinin əsas xüsusiyyətləri.....216
***Yeganə Osmanova.*** Siyasi diskurs və onun linqvistik xüsusiyyətləri.....219
***Roksana Allakhverdiyeva.*** İngilis dili rabitəli nitqdə ritm yaradan vahidlərin fonetik xüsusiyyətləri .....223
***Pərişan İsmayılova.*** İngilis atalar sözləri və deyimlərdə alliterasiya.....226
***Turan Mehdizadə.*** İntonasiya probleminin qoyuluşu və izahı.....229

## Müəlliflərin nəzərinə!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol №10-R) «**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər**» təsdiq edilmiş və bu məsələ ilə bağlı dövri elmi nəşrlərin baş redaktorlarının iştirakı ilə keçirilmiş elmi-praktik seminarda qeyd olunan faydalı tövsiyələr nəzərə alınmışdır.

Onlardan bəzilərini nəzərinizə çatdırırıq:

1. Məqalələr dövri elmi nəşrin təsis sənədlərində qeyd edilmiş dildə və ya dillərdə (məsələn, Azərbaycan, ingilis və rus dillərində) dərc oluna bilər. Xarici dildə məqalələr dərc edən dövri elmi nəşrin redaksiya heyəti üzvlərinin sırasında dərc olunan məqalənin aid olduğu elm sahəsi üzrə xarici dili bilən tanınmış mütəxəssis olmalıdır.

2. Dövri elmi nəşr hansı dillərdə məqalə dərc edirsə, həmin dillərin hər birində məqalə müəllifləri üçün qaydalar verilməlidir.

3. Dövri elmi nəşrdə baxılan elm və ya texnologiya sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına yer verilməlidir.

4. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əli fbası ilə) 1 intervalla çap olunmalıdır.

5. Hər bir məqalə yeni səhifədə verilməli və səhifənin yuxarısında dövri elmi nəşrin adını, ilini, cildini, sayını, məqalənin başlanğıc və son səhifələrini bildirən başlıq (zastavka) olmalıdır.

6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin (müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməlidir.

7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.

8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır.

Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı) ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.

10. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

11. Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalələnin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s. xülasədə yıgcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qramatik

baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam adı göstərilməlidir.

12. Hər bir məqalədə UOT indekslər və ya PAJS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

13. Məqalənin redaksiyaya daxil olma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixləri sonda göstərilməlidir.

14. Dövri elmi nəşrin redaksiyası məqalənin dərc olunması ilə əlaqədar olaraq müəllif və ya müəlliflərin razılığını, göndərilən məqalənin əvvəllər dərc olunmadığını (məqalənin tezis şəklində dərc olunmuş variantı istisna olmaqla), məqalənin hər hansı bir dildəki variantının eyni zamanda digər dövri elmi nəşrlərə göndərilmədiyini və məqalə ilə bağlı elmi-tədqiqat işinin hansı müəssisədə yerinə yetirildiyini əks etdirən anket hazırlamalıdır. Bu anketi müəllif(lər) imzalayıb redaksiyaya göndərməli və ya dövri elmi nəşrin saytına daxil olub anketin elektron variantını doldurmalı və onu elektron təsdiqləməlidir(lər).

15. Elmi curnallarda «əvvəli ötən saylarımızda», «ardı növbəti nömrədə» adı altında seriya məqalələrin dərc olunmasına icazə verilmir.

16. Dövri elmi nəşrin əvvəlki nömrələrində dərc olunmuş məqalələrdə rast gəlinən ciddi səhvlər və ya texniki qüsurlara dair düzəliş və qeydlər elmi nəşrin növbəti nömrələrindən birində müəllif(lər) tərəfindən yenidən verilə bilər. Bu halda əvvəlki məqalə ilə «DÜZƏLİŞ» bölməsində verilən məqalənin adı eyni olmalıdır.

Həm də xatırlatmaq istəyirik ki, Azərbaycan Respublikasında elmi əsərlərin tərtibinə tələblərinə uyğun olaraq, məqalənin mətni aşağıdakı əsas elementləri özündə ehtiva etməlidir:

- *Ümumi problem və mühüm elmi və ya praktiki vəzifələri ilə bağlı problemin qoyuluşu;*
- *Bu problemin həllində müəllif üçün təməl rolunu oynayan son tədqiqatlar və nəşrlərin qısa təhlili;*
- *Bu məqalədə həlli nəzərdə tutulmuş məsələyə aid daha ümumi problemin hələ də həllini tapmayan tərəflərin aşkar edilməsi;*
- *Məqalənin məqsədlərinin göstərilməsi;*
- *Elmi nəticələrin tam əsaslandırılması ilə əsas tədqiqat materialın təqdimatı;*
- *Tədqiqatın nəticələri və bu istiqamətdə işin daha da inkişaf etdirilməsi perspektivləri.*

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 24

Təsisçi: fəlsəfə elmləri doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 15.05.2020

Çapa imzalanmışdır: 15.05.2020
Format: 60 ×84 1/8
Şərti çap vərəqi – 38
Sifariş № 45
Tiraj – 100 nüsxə
----------------------------------------------

“Bilik” poliqrafiya mərkəzi
Sumqayıt şəhəri